MÖVLUD SÜLEYMANLI

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

"ŞƏRQ-QƏRB"
BAKI-2006

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**894.3613-dc21**
**AZE**
**Mövlud Süleymanlı. Seçilmiş əsərləri.** Bakı, "Şərq-Qərb", 2006, 480 səh.

Kitaba tanınmış yazıçı Mövlud Süleymanlının yaradıcılığından seçmə nümunələr daxil edilmişdir. Povest və hekayələrdən ibarət olan bu seçmələrdə müəllif onu düşündürən, nigaran qoyan proseslərin insan mənəviyyatının içindən necə keçib getdiyini aydın göstərə bilmişdir.

Yazıçının psixoloji portretlərin yaradılması və insanın ən zərif hisslərinin təsvirini verə bilməsi ilə yadda qalan əsərlərində, ümumiyyətlə, "dünya" *sözünə sıx-sıx rast gəlinir ki, nağıl kimi sərhədsiz olan həmin dünyaların* hər biri düşünülüb-daşınılmış, yaşanılmışdır.

Cinli-şeytanlı nağıllarımızdan da bəhrələnən istedadlı nasir folkloru onun zahiri elementlərindən daha çox xalqın təfəkkür tərzi kimi qavrayaraq, çağdaş dünyaya nağıl gözüylə baxmağa və dünyanı sehirli görməyə çalışır...

**ISBN10 9952-34-006-0**
**ISBN13 978-9952-34-006-8**

© "ŞƏRQ-QƏRB", 2006

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ÖN SÖZ

Ədəbiyyata ötən əsrin 70-ci illərində gəlmiş Mövlud Süleymanlının orijinal yazı manerası, milli düşüncə, etnoqrafik elementlərinin bolluğu və heyrət doğuran əlvanlığı ilə seçilən əsərləri çox sürətli bir şəkildə ədəbi ictimaiyyətin diqqətini cəlb etdi.

Yaradıcılığa lirik şeirlərlə başlamış gənc Mövludun "Bir ünvan" adlı şeir kitabı da nəşr edilib. Daha sonra isə Azərbaycan ədəbiyyatını "Köç", "Ceviz qurdu", "Günah duası", "Səs" romanları ilə zənginləşdirən M.Süleymanlı onlarla povest və hekayələr qələmə alıb. M.Süleymanlının yaradıcılığını fərqləndirən, səciyyələndirən başlıca amillər ondan ibarətdir ki, əsərlərindən məxsus olduğu xalqın tarixi, etnoqrafiyası, mənəvi-əxlaqi dəyərləri, folklor qaynaqları kimi bəhrələnmək mümkündür. Əsərlərinə qədim türk epos təfəkküründən gəlmə əzəmət, monumentallıq, obrazlı dil, vüsət, vətənpərvərlik ruhu hakimdir. Deyilənlər yazıçının əsərlərinin yalnız forma, dil əlvanlığını şərtləndirmir, daha çox onların ruhunu, hərarətini müəyyənləşdirir.

M.Süleymanlı "Şanapipik" povestini epiqraf kimi seçdiyi: "II Dünya müharibəsində həlak olmuş atama, əmimə, hələ də yol gözləyən Hürü nənəmə, bir də anama" sözləri ilə başlayır. Povestdə özlərini kimsəsiz, urvatsız sayan gəlinlərin, qızların yazıçı qələmində dərdləri qat-qat açılır. Çox böyük yanğıyla o dərdlər, ayrılıqlar şəkillənmiş, yüksək sənətkarlıqla qələmə alınmışdır. Povestdə nənələrimizin, analarımızın, qız-gəlinlərin ömürlərindəki qırıqlıq, tənhalıq, sonsuzluq izlərinin bədiiləşməsi elə onların əbədiyaşarlığı idi.

"Sədr: – Sən başa sal bunnarı, mən bu beş ildə çəkdiyimi çəkdim, bu cür ki bunnar gözləyir, belə adam gözləməzlər, adam gözləmək döyül, gündə yüz yol ölüb-dirilməkdi bunnarınkı" ("Şanapipik").

Hürü ananın, Sayalının, Telli qarının dərdlərinin od-alova dönüb könülləri yaxması yazıçının sehirli qələmi ilə dil açır, uzun illər içlərində əzizlədikləri nisgilin, həsrətin qaysaq bağlamış yaraları görünür.

M.Süleymanlı müharibəyə həsr etdiyi "Şanapipik" əsərində bu həsrəti, qız-gəlin ləyaqətini sözün böyük mənasında gözəl qələmə alıb, bizim qadınların sədaqətinə, mərdliyinə, cəfasına layiq şəkildə obrazlarla təqdim edib. "Şanapipik" povesti bizim qadınlara, onların nisgilli həyatına, bizim anlaya bildiyimiz doğma həsrətə ithaf olunmuş layiqli əsərdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onun sovet imperialist rejiminin tüğyan etdiyi çağlarda, dünya ilə əlaqənin qadağan olunduğu, insana ayrıca fərd kimi yox, yalnız kollektivin bir üzvü kimi dəyər verildiyi zamanlarda insanın iç dünyasının açılması baxımından çox cəsarətlə yazıya gətirdiyi xarakterlər, emosiyalar və duyğular ədəbi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir.

Milli dəyərlərimizin təəssübkeşi, öz xalqının soyunu, tarixini, fikir dünyasını özünü tanıdığı kimi tanıyan M.Süleymanlı qələmini də buna yönəldir. Bu yaradıcılıqda söz xatirinə söz yazmaq, əhvalat uydurmaq, yapma-qondarma obraz yoxdur. Duyduqları, müşahidə etdiyi və eşitdikləri, qəribədir ki, yalnız olanların-olmuşların yox, həm də ola biləcəklərin özümlü ifadəsidir. Yazıçının işlədiyi obrazların, qələmə aldığı hadisələrin təqdimi təbiətlə bir aradadır, ayrılmazdır, təbiətin bir parçasıdır. Onun əsərlərində insanla təbiət birdir, bir ananın övladlarıdır, burada kənar heç nə yoxdur. "Duzsuzluq" povestindəki Şəmil kişi həm də mahalın, yaylağın simvoludur, dağın, daşın timsalıdır. Yaylaqdan söhbət elə ondan söhbət deməkdir.

M.Süleymanlı nəsrində qız-gəlin gülə-çiçəyə qarışıq bir anlamda yaşayır; sözün kimdən, nədən – hansı Nərgizdən, Bənövşədən, Lilpardan, Çiçəkdən getdiyinin fərqində olmazsan. Mahalın igidləri, elə o mahalın dağı-qayası, ələgəlməz köhlənləri şəklində gözünə görünər, nənələr xalı-xalça, ipək timsalında hallandırılar. Onun yaratdığı obrazlar kimi qələmə aldığı yağış da, günəş, külək, gecə, çən-duman da canlıdır, hərəkətdədir, dil açıb səninlə dərdləşə bilir. M.Süleymanlı üçün sevdalıların sevgisinin tərənnümü ilə yaylaq mehinin, çəməninin sevgi ovqatı arasında heç bir fərq yoxdur: "Otlar-əncərlər, güllər-çiçəklər boyu uzunu dikəlib sazağa açılmışdı. O yamacın o otunnan, bu yamacın bu otuna qəribə bir duyğu, qoxu gəlirdi ki, otlar-əncərlər, güllər-çiçəklər də bu qoxunu, bu duyğunu duymuşdu. O yamacın o gülünnən, bu yamacın bu gülünə yellər sevgi gətirirdi..." ("Duzsuzluq").

Bu əsərlərin çox xarakterik bir cəhəti də ayrı-ayrı hadisə və obrazlardan daha çox bütöv halda bir mahal, bir kənd, bir ailə olanların dərdinin, sevincinin, ovqatının ustalıqla ümumiləşdirilib ifadə edilməsidir. Bütöv bir əsər bir kəndin, bir xalqın ümumi ovqatının, taleyinin səhnəsi kimi görünə bilir: "Davadan qayıdan var idi, ona görə camaat bir yerə yığışıb oldu bir adam", "Bir deyəndə kəndi pıçıltı bürüdü" ("Yel Əhmədin bəyliyi"); "Kəndin səs-küyü azalmaqdaydı" ("Şeytan").

M.Süleymanlının bütün əsərlərində xalq obrazı var, ümumi görünüş-mənzərə, ovqat, qayğı, nəşə anlayışını daşıyan xalq. Bütün bunlarsa, bütövlükdə götürəndə el-oba, yurd, kənd obrazıdır, kəndin bir insan kimi düşünə bilməyi, hərəkət etməyi, nəfəs almağı, bir sözlə, yaşamağı və var olmağı deməkdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yazıçı müharibə mövzusunun qatlarına, dərinliyinə o qədər enə bilib ki, elə bil yaşadığı ömürdür: 1943-cü ilin aprelində atasından qara kağız gəlib. Davanın törətdiyi bir çox fəlakətləri öz ailəsində, nəslində, kəndində yaşayıb. Müharibənin gətirdiyi dərd insanı nə kökə sala bilər, başına nə bəlalar aça bilərsə, "Şanapipik", "Duzsuzluq", "Ot" ... əsərlərində bunların dərin-dərin izləri var.

"Telli qarı əl-qolunu ölçə-ölçə yenə nəsə deyirdi, sonra da döndü, yolun qırağına toplanmış sərçələri, torağayları daşa basdı: – Siz gətirdiz davanı, siz!" ("Şanapipik").

Bu əsərlərdə yazıçı müdaxiləsi hiss etməzsən, obraz özü danışar, hər şey təbii şəkildə öz axarında gedər. Yazıçının təhkiyəsində replika, güclə obrazı sevdirmək üçün artıq söz, mənfi, müsbət təsvirlər yoxdur. Kamil, canlı, qaynar, sevgi ilə dolu, hazırcavab, yumoru anlayan, dərin-dərin qatları olan xarakterlər bu əsərlərin varlığını təşkil edirlər. "Bilənlər bilməyənləri görüb, bilməyənlər bilənləri görüb bağırışırdı:

– ...Bəkir iki olub!

Gülənlər vardı, zarafata yozanlar vardı, qorxanlar vardı, arvadların çoxunda qəribə bir maraq əmələ gəlmişdi... Birdən-birə Allah yada düşmüşdü. Allahın adını çəkirdilər" ("Şeytan").

Maraqlıdır ki, M.Süleymanlının ayrı-ayrı əsərlərinə ünvanlanmış oxucu məktubları arasında "Ninniyə məktublar" qovluğu da var.

Ninnini qələmə alarkən nasir hansı hissləri keçirib, nədən duyğulanıb, bilmirik. Yeniyetməlik dövründən arzuları puç olan, gözləyə-gözləyə qız qarıyan "ninnilər"in iç dünyasının qasırğalarını, kədərini, kimsəsizliyini necə duyub bu yazıçı? Və bu şəkildə Ninninin təqdiminə necə nail olub?! Obrazın psixoloji halından gələn, xarakterinə iz salan qatlar – sevinc, nəşə, kədər, üzüntü, peşmançılıq, xeyirxahlıq, əl uzatmaq... yazıçının qələmində ustalıqla, həssaslıqla təsvir edilib. Zahiri gözəlliyi çox adi, daxilən zəngin, mərhəmətli, hisslərində ziddiyyətli Ninnini yazıçı vurğunluqla, sevgiylə yaradıb. Ədəbiyyatda bu məzmunda, bu biçimdə qadın obrazı varmı?! Özü sevgisiz qalan, adi baxışa, bir xoş sözə möhtac, qaz, ördək, şanapipik səsiylə gəncləri görüş yerinə çağıran, qovuşduran, birləşdirən ninnilərin sirrini bəs niyə açır yazıçı?

"Ninni daşın başındaca oturmuşdu, qəribə-qəribə pıçıltılar eşidirdi, otlar pıçıldaşırdı, çiçəklər pıçıldaşırdı... Elə bu pıçıltıların içindən konfetləri götürüb xırtaxırtla yedi, amma heç özü də bilmədi, ağlayırmı, ağlamırmı... Birdən Dilbər də, Aydının nişanlısı da gözlərinin qabağına gəldi, ikisini də saldı təpiyinin altına, sonra da saçlarını qollarına dolayıb, çiçəklərin üstüylə sürüdü" ("Şanapipik"). Yazıçı, qadın qəlbinin hisslərini olduğu kimi, həm qısqanclığını,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

həm mərhəmətini qeyzli və xeyirxah çalarları ilə ifadə edir. Bir an əvvəl qısqanclıqdan bağrı çatlayan Ninni təhlükə hiss edən kimi söyüb, yamanladığı qızları anır: "...ayaq saxlayıb, otluğa girdi, əlini ağzına qoyub ördək oldu: "– Gələn var". Dilbərin atasının səsi yaxınlaşdıqca Ninni otların, çiçəklərin üstüylə qaçırdı: "Məni quş elə, Allah, ağrın alım, ördək elə".

"Şanapipik" povestində Ninniyə əslində çox yer ayrılmayıb, amma bu xarakter unudulmazdı, daşıdığı məna yükü o qədər ağırdır ki, uzun illər içindən qova bilmirsən, onu düşünürsən, dərdini çəkirsən və qəribədir ki, harda qaz, ördək, şanapipik görürsən, Ninnini xatırlayırsan. Əslində isə kənd qızlarını bir-bir ərə verən Ninninin özü yada düşmür, əksinə, valideynlər tərəfindən söyülür, döyülür. "Yallıya tamaşa eliyən qızlar, gəlinlər hop-hop quşunun səsini eşitdilər, bir-birinə sığınıb gülümsədilər. "Ninni durub yenə, qızlara əvəlik dərdirir!". Amma Ninni Ninnidən başqa hər şey olmaq istəyərdi, gücü nəyə çatardı ki: "Allah, məni şanapipik elə, daşnan vursunlar, canım qurtarsın, quzu elə məni, Allah, kəsib yesinlər, at elə, bağrım çatlayana kimi qaçım əllərinnən".

'Ninniyə məktublar" qovluğunda bir oxucu "Ninninin ürəyini gənclərin büsat qurduğu səadət sarayına" bənzədir...

Yazıçı M.Süleymanlının ötən əsrin 70-ci illərində qələmə aldığı povestlərdən biri də "Dəyirman"dır.

Yazıçı, Azərbaycan nəsrinə yeni dil, yeni üslub, təzə-tər obrazlar bəxş edə bilmişdi. Obrazlarını kollektivçilik məngənəsindən çıxarıb tarixə salır, at üstünə qaldırır, onun düşüncəsinin fərqli olduğunu bəyan edir. O, yasaq mövzuları yazıya gətirib fərdin yaşantılarını, psixoloji durumunun qatlarını incələyir.

Nəşr olunduğu andan böyük səs-küyə səbəb olan "Dəyirman", sanki "rejimin üzünə vurulmuş şapalaq idi" (K.V.Nərimanoğlu). Rejimin təpkilərinə baxmayaraq, cəmiyyətin yuxarıdan-aşağı üz alıb gələn bir çox gizli qatları, örtülü hadisələri əsərin hədəfidir.

"Dəyirman" əsərində zahirən dəbdəbəli, işıqlı, hamar olan bir rejimin birdən-birə gerçək sifəti göründü, həqiqət bəlli oldu. Bütöv bir rejimin maddi və mənəvi dəyərləri dəyirman kimi üyütməsi sərt, real şəkildə açıqlandı.

Dolanışıq, bərəkət, halallıq mənbəyi olan dəyirmanların "cəhənnəm tərəzisi"nə çevrilməsinin acı səbəbləri, bu gün görünən acınacaqlı nəticələri öz zamanında böyük cəsarətlə qələmə gətirildi. Povestin ümumilikdə alt qatı, təhkiyə sistemi, az-çox, fəqət sərrast təbiət təsvirləri, obrazların talelərinin davamlı izlənilməsi... cəmiyyəti sarsıtdı. Yazıçı M.Süleymanlı dünyanın düz vaxtı "dünyanın düz olmadığından" söhbət açdı. Bir kəndin simasında bərəkət ocağı dəyirmanın bir qrup harın insan əlində əyyaşlıq meydanına çevrilməsi kinayə, bəzən acı sarkazm, gülüş doğuran yumorla ortaya qoyulmuşdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Dəyirmandakı "kötüklər" içməmiş birləşməzdi. Amma bu gələnlər elə biriydi, birləşib gəlmişdilər, işdəmi birləşmişdilər, vəzifədəmi, puldamı, bilinmirdi", "Dəyirmanın balaca arxı rəngini dəyişə-dəyişə deşilmiş damar kimi qanlana-qanlana kəndin içinə sarı axırdı"; "Hansı gücnən sənin başınnan basırlarsa, sənin başın da həmən gücnən geri basır"; "Günəş dağların dalına elə sevinclə enməkdəydi ki, elə bil dünya üzünə bir də çıxmayacaqdı"; "Elə bil yer üzünü quyuya sallamışdılar, bir işıq gözləyirdi ki, tutub çıxsın"; "Ortada üç bişmiş *toğlu başı vardı. Başın biri... yerində sakitcə dururdu. Biri ağlayırdı, biri gülürdü"*.

Əsərdən gətirilmiş bənzərsiz örnəklər bir daha göstərir ki, yazıçı M.Süleymanlı kəndi, şəhərləri sarmış ictimai problemləri, ağrıları, onların doğurduğu acıları təzadlı psixoloji əhvalatlar, emosional lövhələr fonunda orijinal təşbehlər, təzə-tər bənzətmələrlə izləmişdir. Ölçüyəgəlməz harınlıq, haram, əxlaq pozğunluğu və əks qütbdə əziyyət çəkən ailələr, insanların təsviri əsərdə bədii gərginliyi son həddə çatdırır...

Yazıçını Azərbaycan kəndlərində baş verən haramın halala, nahaqqın haqqa, pulun hakimi-mütləq olub az qala bütün insani münasibətlərə müdaxiləsi, ailə münasibətlərinin laxlaması, gənclərin şəhərlərə üz tutması, kəndlərin tənha qocaların umuduna qalması kimi problemlər ciddi düşündürürdü.

M.Süleymanlının "Duzsuzluq" povestində qələmə alınan kənd, yaylaq ilk baxışda öz rəngində, öz ahəngindədir. Əsrarəngiz təbiət, başı qarlı dağlar, bollu-bəhrəli bağ-bostan, sulu çaylar, naxırlar, ilxılar, sürülər göz oxşayır. Amma bu, zahiri parıltıdır. Yazıçı elə hadisə və obrazlar seçir ki, oxucu doğrudan da sovet cəmiyyətində insanın fərdi düşüncəsinin, iç dünyasının heç bir məna kəsb etmədiyinin fərqində olur. İctimai münasibətlər o yerə gəlib çatır ki, pul, var-dövlət, hərislik artıq hər şeyi əvəz edir...

Xıdırın arvadının "rayona ayaq açmasının" səbəbini və sirrini də onun pulu-malı örtür, gizlədir. Mənən düşkün, dünyadan bixəbər Ağqulunun oğlu pulun hesabına şəhərdən yaylağa bir maşın artist gətirdir, onlara şəxsi malı kimi baxa bilir. Kəndin qızları da dəyişən dövranda dəyişməkdədirlər, qəlblərinin səsinə deyil, göz qamaşdıran parıltılara, yalançı firavanlığa üz tuturlar, həyata "fizika müəlliminin gözünnən, direktor oğlunun cibinnən baxırlar". Çənli-çiskinli dağların ucalığında – yaylaqlarda küləklərə, yağmurlara, ota-çiçəyə qarışaraq yaşayan Şəmil kişi, onun yanındakı gənclər – Bəkil, Toğrul, Gizir göz görə-görə dəyişməkdə olan dünyanı anlayıb həm açıq, həm gizlin etiraza qalxan güc-qüvvədir, yazıçı qələminin ifadə vasitələridir. Kəndlərdən şəhərə gedənlərin qayıtmaması, oralardan gələn cəlbedici xəbərlər, "kağız kimi ağ şəhər qızları"ndan soraqlar cavanları yerindən eləməkdədir. Yeni dünyaya, yuxarıda dediyimiz yalançı təntənələrə qovuşmaq həsrəti ilə başlanan axın kəndlərin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

boşalmasına gətirib çıxarır. Get-gedə şəhərlə kənd arasında yaranan uçurum Şəmil kişini mat-məəttəl qoyur. Min illər boyu bu yerlərdə ömür sürən nəsil-nəcabətini xatırlayır, insanın bu dağlardan, yal-yamaclardan, gül-çiçəkdən ayrı düşüb yaşaya bilməsinə inanmaq istəmir. Baş verən dəyişikliklərin, münasibətlərdə yaranmış çiyliyin, əxlaq və tərbiyənin yad arşınlarla ölçülməsinin, hər şeyin "şitinin-şorunun" çıxmasının daxilən ağrısını çəkir. Onun fikrincə, indi heç nəyin dadı-duzu qalmayıb. Duzsuzluqdan "içini çölə tökən" sürülərə *məhəl qoymayan "hökumət", onun buyruqçuları yaylağa duz yox, konsert bri*qadası – qız gətirdikləri üçün "təzə rəhbərlik sizin qədrinizi bilir, yoldaşlar" *deməklə vəzifələrini bitmiş sayırlar. Bu cür qarşıdurmaların yumorla, sar*kazmla təsviri povestin əsas qayəsidir.

"Duzsuzluq"da iki çox güclü tərəf qələmə alınıb: min illərin ağırlığını, dünyagörüşünü, əxlaqını özündə, ruhunda qoruyub saxlayan qaya kimi dəyişməz Şəmil kişi və Zaman-Vaxt.

Zaman ki heç kəsə baxmadan dəyişər, axar, yaxşı, pis nə varsa, süzgəcindən keçirər, Şəmil kişiyə öz hökmünü anladar: "Zamana adamlarıdı da, saqqalı ağarmış, sənin çaldığına kim oynaya bilər ki, kimin sümüyünə düşər sənin çaldığın? Heç öz belindən gələnlərdən baş aça bilmədin, hərəsi bir yana qaçdı... Səninki bilirsən nədi? O kəhər atdı ki, ipə-sapa yatmırdı, burub yabı elədin. Küçüyün ağzını yandırdın ki, böyüyəndə evə girib oğurluq etməsin... Dünyada belə-belə şeylərdi dəyişməyən. Dəyişməyən şeylərsə indi kimə lazımdı, bir halda ki hər şey dəyişməkdədi".

"Duzsuzluq" əsərindən bir qədər müfəssəl verilən bu parçada sanki Şəmil kişi ilə Zaman-Vaxt arasındakı mübarizədə Vaxtın qalib gəlməsi etiraf edilir. "Duzsuzlaşan" dünyanın bir parçası olan bu kəndin timsalında əbədi olanla gəldi-gedərin, yenilik adı ilə əxlaqa, düşüncəyə, həyat tərzinə sırınan qurama münasibətlərin törətdiyi və törədə biləcəyi aşınmalar, bəlalar diqqətə çatdırılır.

Povestin ideya-məzmunu, qaldırılan problemlər, onların acı sonluqları M.Süleymanlı qələminə məxsus tərzdə xəbərdarlıq kimi təqdim edilir. Epos, nağıl təhkiyəsinə bənzər xalq düşüncəsindən gələn ifadə və obrazlı dillə hadisələr canlandırılır. Odur ki, qədim-qayım Şəmil kişidən tutmuş ən kiçik, epizodik surətlərədək heç kimsə yaddan çıxmır.

*M.Süleymanlı yaradıcılığı üçün ənənəvi olan bir dəyərli cəhətə də nəzər* salaq. Yazıçı heç bir qadın obrazının təsvirində ənənəvi epitetlərdən, poetik qəliblərdən istifadə etməyib. Yazıçı üçün gözəl qadın-qız çiçək-gül, axar su timsalındadır. Çiçəyi, suyu necə hiss edir, qələmə alırsa, qadını da o duyğudan keçərək görür. Onun yazılarının üst qatında sevginin, istəyin izi-sözü, şəkli yoxdur, canı, henirtisi, yanğısı var: "Quzuların dırnağıyla, Bəkilin ayağıyla



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sevgi gəlirdi. Bu yamacın otları bu sevgini udub ayılırdı. Quşlar, böcəklər, arılar güllərə, otlara sevgi daşımaqdaydı. Bəkil bənövşə gülünün üstündə arı gördü. Gül arının ayaqlarıyla gətirdiyi sevgini öpə-öpə mayalanırdı. Bəkil Bənövşəni xatırladı:

"Telli-telli, güllü-güllü axan su,
Bənövşə ərə getdimi?!
Dağları-daşları oyan su,
Bənövşənin ayağını yuyan su,
Bənövşə ərə getdimi?!"
("Duzsuzluq")

Təqdim olunan əsərlər sırasında "Şeytan" povesti uşaqlıqda eşitdiyiniz sirli-sehirli nağıl dünyanızı təzələyəcək. Amma burada sehirli alma, uçan xalça, divləri görməyəcəksiniz. Zaman-zaman insanın qəlbinə hakim kəsilən Şeytan, şeytanabənzər bəndələrin əməlləriylə, törətdiyi hadisələrlə tanış olacaqsınız. Yazıçı "gözdən-könüldən uzaq bir kəndi", "bir ovuc un tozu olub" Şeytana uymuş kənd əhlini hədəf götürür, bu hədəfdə insanların yaxşılığı, pisliyi, kin, qəzəb, xeyir, halal-haramı – nə varsa, üzə çıxır. İnsan mənzərələri sehirli dillə, heyrət doğuracaq müşahidələrlə bədii-estetik biçimdə, bəzən yumorlu, bəzən də qatı rənglərlə ayarlanır. Şifahi xalq yaradıcılığının, onun ən qədim qatları olan mif, əfsanə, rəvayət və nağıllardan gəlmə bir ovqat, emosiya, təhkiyə əsərin ruhundan üzə çıxır.

"Şeytan" povesti işıq üzü görən kimi istər ideya-məzmun, istərsə də poetik-struktur biçimi ilə milli nəsrimizdə hadisə kimi qiymətləndirildi. Yazıçının bu yöndəki yaradıcılığı da ona uğurlar gətirdi. Bu əsərlə bir daha yəqinləşdi ki, xalq düşüncəsindən, mədəniyyət və etnoqrafiyasından bəhrələnib, tarixinə söykənərək yazılan əsərlər xalqın həqiqi mirasına çevrilə bilir. Povestdə sözün, təhkiyənin bu dərəcədə ilahi gücdə, məqamda işlədilməsinə heyrət edirsən. Mövlud Süleymanlı bu əsərində də sözə hərflərin sadəcə yığımı kimi deyil, yaradan, təsir edən, hərəkətdə olan ilahi qüvvə kimi baxır, boyunu əzizlədiyi xalqının düşüncəsinin, mədəniyyətinin dəyər göstəricisi sayır. Həmin sirli, sehrli söz "Bəkilin iki olmasına" səni inandıra bilir: "Gündüzlər ürəklərə, gecələr yuxulara girən, toy damında qurum olan, dəyirmanda toz olan, dərələrdə boğanaq, düzlərdə yel olan şeytan, adam olmuşdu..."

Bəkir iki olub... Şeytanın insan tayı dünyaya indicə gəlibmiş kimi, şeytana uymuşların bir-birinə qarışmasına, gecələr haramın halal adına daşınmasına, qadın ürəklərində gizlənən şeytan fitnələrinə baxa-baxa qalıb. Baş açıb bir yönə çıxa bilmədiyindən ağlamalı-gülməli haldadır. Yazıçı bu fənddən istifadə



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

edib kəndlərimizin qayğılarını, təmiz insanların hiylə, böhtan əlində əsir-yesir olmasını, mollanın qazılıq, qazının mollalıq etməsini, ev yıxan fatı qarıları, dəyirmançının şeytan adına halaldan çox harama əl qoymasını ümumiləşdirir: "...itlər bağında dartınıb özünü öldürürdü, toyuqlar da banlayırdı, xoruzlar da... Başını daşlara döyən öküzlərə, dünyadan çıxıb qaçmaq istəyən atlara, göydən ölü düşən quşlara... baxıb uğunurdular... heyvanların, quşların dilini bilmirdilər başa düşəydilər ki, heyvanlar, quşlar deyirlər: şeytan girib aranıza".

Araya girən şeytan camaatın başına papaq hörür. Bəs şeytana qol-qanad verən kimdir, nədir? Sonda M.Süleymanlı bu qənaətə gəlir ki, pis "adam"lardı dünyada şeytanı yaşadan. Pis adamlar olmasaydı, şeytanın dünyada nə işi var idi?

"Ot" povestində təsvir edilən hadisələr artıq müharibənin qurtarmasından keçən dövrlərdə cərəyan edir. Barlı-bəhərli kəndlərimizdən birində sabahları məzə ilə açılan, hər işdə, hərəkətdə, sözdə gülüş axtaran Bəlli Əhməd, özündən nağıllar quraşdıran Diqqi, Dəmir kişi, Nuh, Ayğır Hasanın sadə ömür tarixçələrindən söz açılır. Saf qəlbli bu insanlar cücərməyə, böyüməyə hazır, işığa can atan yaşıllıq, ot kimi sanki bir nağıl ömrü yaşayırlar. "Dava"nın qurtarmasına baxmayaraq gözü yollardan yığılmayan Nisə obrazı povestdəki qadın obrazları arasında seçilən surətlərdəndir. Ərsiz qaldığı üçün öz gözəlliyindən utanan, biçimli bədənini yad gözlərdən gizlətməyə yer tapmayan bu qadın öz içinə çəkilərək yaşayır. Yazıçı bu kimsəsiz qadının acı aqibətini, duyulmayan ürək ağrılarını, göz yaşlarını, psixoloji sarsıntılarını böyük sevgi və məharətlə yaradıb. Bununla belə, əsərin əsas qayəsi ondadır ki, camaatın güzəranı yaxşılaşdıqca, mal, var-dövlət çoxaldıqca, sanki onların arasında mehr, ünsiyyət azalır, münasibətlər soyuyur, elə bil bir-birindən gizlənməyə çalışırlar, hərə öz qınına çəkilib yaşamağı üstün tutur. Münasibətlər qəlizləşir, düzlük, halallıq gözgörəsi qeybə çəkilir. Gizli, bəzən açıq şəkildə rüşvət, oğurluq sanki adət halına gətirilir... Sovet üsul-idarəçiliyindən, dövrün konyunkturasından qaynaqlanan bir çox qayda-qanunlar əsər boyu yumor, gülüş doğuran səpkidə təqdim edilir. Pulun mənəviyyatı üstələməsi, haramın, əxlaqsızlığın gün-güzəranı çuğlaması kimi hadisələr belə gülüş fonunda sərgilənir. Əlbəttə, bu bir yazıçı manerasıdır ki, ağır mətləbləri gülüş doğuran, islah edən bədii lövhələrin köməyi ilə işıqlandırır. Oxucunun hadisəyə, obraza ürəyi yanır, amma komik situasiyalar əsərə gülüş ovqatı qatır, belə demək mümkünsə, göz yaşı içində gülüşün şahidinə çevrilirik.

M.Süleymanlı zahirən məişət fonunda baş verən əhvalatları əslində çökməyə məhkum bir ideologiya maşınının, şovinist hisslərə söykənən rejimin çürüməsi fonunda qələmə almışdır. Əsərdə əsas qayə, mətləb kölə düşüncədən sıyrılmaq və yad, qurama qayda-qanunlara qarşı etiraz etməkdən ibarətdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M.Süleymanlının əvvəlki povestlərindən ideya-məzmun baxımından fərqlənən "Yel Əhmədin bəyliyi" əsərinə Nəsiminin çox məşhur qəzəlindən götürülmüş misra epiqraf olaraq seçilmişdir: "Dünya duracaq yer deyil, ey can, səfər eylə".

70-ci illərin sonlarında yazılan bu əsərdə qəribsəyən, darıxan, çevrəsinə sığmayan insanların həyatı bədiiləşdirilib. Daxilən ayıq, anlaqlı adamların bu hala düşmələrinin, dünyadan qaçmaq istəklərinin səbəbini yazıçı cəmiyyətdə görür.

M.Süleymanlı Həmid və Yel Əhməd obrazları ilə bir növ təkyə mədəniyyətindən gəlmə dərvişlikdə – cəlayi-vətən olub diyar-diyar gəzmək, ürəyinin, könlünün, inamının aram tapdığı məqamı bulmaq, "quşu qonduğu" yerdə nəfəs dərməyə can atan insanların aqibətini, taleyini incələmişdir. Hər şeydən əvvəl, əsər bəhs etdiyi dövrü, zamanı öz ab-havasıyla duymaq, anlamaq mənasında, təsvirlərin təkrarsız işlənməsi, xalq düşüncəsinin, fəlsəfəsinin təbii ifadəsi baxımından böyük maraq doğurur...

"Ömürdən qıraqda" povesti yazıçının son illərdə (2005) qələmə aldığı əsərlərdəndir; yazıçının 60-cı illərdən baş alan yaradıcılığı, fikir dünyası, cəmiyyət və insanlar haqqında müşahidə və qənaətləri, təbii ki, əsərdə daha da kamilləşmiş, dəyişmişdir. M.Süleymanlı bu povestində həmin anlamda, yeni bir ampluada boy göstərir. Özünü anlamaq, sarsıntılar içində olan ruhi durum, düşülən psixoloji keçid, keçmişdən qalma tənhalığın təəssüratları... bütün bunların da yazıda təcəssümü... M.Süleymanlı elə bu ovqata yaraşan üslubla yaddaşdan qopan fraqmentləri, anlaşılmaz duyğuları bədii dilin realist, sərt yönü ilə poetikləşdirir. Yarıyuxulu-yarıoyaq vəziyyətin mənzərəsini verməyə çalışan sənətkar koma anlarını yaşayan qəhrəmanının ruhi-psixoloji durumunun ən gizli, heç zaman etiraf oluna bilməyəcək qatlarına işıq salır. Sakit, təvazökar, yaradıcı bir insan ömrü yaşayan obrazın yuxuyabənzər qarabasmalarda olduğu təəssüf, peşmançılıq, tənhalıq, qüssə... halları üzə çıxarılır: "Özüm də hovuz kimiyəm, sıxıntı içində bir hovuz su, dibi tərpənməz, girib qarışdırmasan, nə dünəndən bir şey qalıb əlimdə, nə sabahlara ümid var".

Povest məntiqi bir sonluqla qapanır. Olanları anlamaq üçün insan gərək ömürdən qıraqda yox, öz ömrünü yaşasın. Ömürdən qıraqda yaşamaq əslində başqa ömrü yaşamaq deməkdir. Başqasının ömrünü yaşamaqda isə səhvlər çoxdur... Sonralar onun ağrısı çəkilir.

Oxucu bu kitabda M.Süleymanlının povestlərilə yanaşı çox sayda hekayəsi ilə də tanış ola biləcəkdir.

Yaşına və ilk qələm təcrübəsinə uyuşmayan "Son dayanacaq" adlı hekayəsindən başlayaraq hər şeyin sonuna çatmağa can atan, sonun axırında nələrin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

baş verəcəyinin intizarında olan yazıçı bu qənaətdədir ki, hər şey sondan başlanır. Ayrılıqlar, yolun sonu nəyinsə başlanğıcına, qovuşmasına səbəb olur.

"Yüz günümdən biri", "Yallı gecəsi", "Bərəkət", "Yanğın", "Sapand", "Dünyanın işığı", "Ayın aydınlığı", "Qar", "Çoban İbrahim və velosiped", "Qaraca kişinin yaylaqları" kimi hekayələr elə səbəb və nəticələrin bu və ya digər biçimdə şəkillənməsindən danışır. Müəllif özü isə müasirliklə dünəni birləşdirən, mənəvi dəyərlərin, milli düşüncə və baxışların böyük qoruyucusu kimi səbəbləri, yaranan problemləri elə bu duyğulardan uzaq düşməkdə axtarır. Müəllif sovet ideologiyasının qurbanına çevrilən nəsillərin taleyini müəyyən edən mənəvi problemləri həm ictimai münasibətlərdə, həm də ayrıca fərdlərin hiss-həyəcanlarında izləyir.

Hekayələr bir sözlə, istər kənd, şəhər, istər cəmiyyətin yuxarı və ya aşağı təbəqələri olsun, insanın qəlbini, hisslərini buxovlayan, rejimin yaratdığı abhavada darıxanların ömür tarixçələri haqqındadır...

M.Süleymanlının məşhur "İt dərsi" və "Ağacan" hekayələrinin əsas ideyaməzmun qatı əcdadlarımızın min illər boyu yaşadıqları yurdlarından son bir əsrdə didərgin salınmasıdır. Qarşı tərəfin – ermənilərin ara vermədən zamanzaman hazırladığı düşünülmüş məkrli niyyətlərdən o qədər də hali olmayan saf, təmiz qəlbli, süfrəsi kimi ürəyi də açıq adamlarsa çaş–baş qalır, nə edəcəklərini kəsdirə bilmirlər, hətta bu vəziyyətin xəcalətini çəkənlər də olur... Hər zaman olduğu kimi diri qalmağa, söykənməyə milli duyğular, milli mənlik hissləri köməyə gəlir. Yalnız bundan sonra əllər düyünlənir, hamı birləşir, bir olur.

Bütün deyilənləri M.Süleymanlı qələmə alanda hələ səksəninci illər idi. Həmin mühitdən çıxan, qanlı-qadalı hadisələrlə böyüyən yazıçı əslində güclü hissetmə duyğusuyla, öncəgörməsi ilə yenə də sonun başlanğıcını qələmə almışdır.

"Quru kəllə" əsərində, ideya-mövzu, əhatə edilən tarixi dövrlər, istifadə edilən mif-poetik struktur, zaman-məkan sonsuzluğunun obrazlaşması, maddiləşməsi, ölçü və vaxtın qeyri-adiliyi, bir anın min ili əvəzləyə bilməsi... əslində hekayə janrının qəliblərinə sığmır. Hekayənin həm də qəribə obrazları var: Adam, Gilbişirən kişi, Alaqarğa, Qurd, Qarı, Dağdağan ağacı və Quru kəllə. Bütün bunlar qəribə məkan və zaman çevrəsində hərəkət edir.

"Artıq belə yaşamaq olmaz" qərarıyla Allahın axtarışına çıxan Adam: "bir vaxt Tanrı adına çıxdım, indi Allah deyib axtarıram" – söyləyib zamanın gərdişinə düşür. Getdiyi, bəzən özü də hiss eləmədən qayıtdığı yollarda – məkanda şeytan meydan sulayır, hər şey tərsinədir, çay tərsinə axır, alaqarğa bala çıxarır, dağdağanın yanında su var. Fəqət Zamana, Məkana, Tarixə məhəl



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qoymayan biri – Quru kəllə öz işindədir – qarşısına çıxanı qırıb qırışdırır, məhv eləyərək irəliyə doğru diyirlənir. Quru kəllə diyirləndikcə keçdiyi yollarda rastlaşdığı tarixləri, insanları, dinləri, mədəniyyətləri də tar-mar edir. Əsərdə xalqın azadlıq uğrunda mücadiləsində keçdiyi uzun yol – ulu tarix tamamilə yeni bədii-estetik yöndən qələmə alınmışdır.

"Quru kəllə" əsəri istər məzmunun mifik təfəkkürün süzgəcindən keçirilərək təqdimi baxımından, istərsə də folklor obrazlarıyla təbiət obrazlarının ümumiləşdirilməsi, əlahiddə poetik dil, bənzərsiz manera cəhətindən milli nəsrimizdə yeni ədəbi-bədii dəyər göstəricisidir.

Dil-üslubun, təzə-tər xəlqi obrazların, həyatdan gələn hadisə və münasibətlərin orijinal biçimdə təqdimi bir yazıçı kimi Mövlud Süleymanlının fərqli cəhətlərindəndir. Yazıçının özünəməxsus duyğular aləmi, hadisələrə həssas baxışı, canlı, şirəli təhkiyəsi, təmiz doğma sözlərdən ibarət ifadə üslubu onu Azərbaycan ədəbiyyatının say-seçmə nasirləri sırasına çıxardı... Əsərlərində zamanına görə cəsarətlə qaldırılan problemlər, yasaq mövzuların yazıya gətirilməsi, xalqın gerçək dərdlərinin, ağrılarının bədii ifadəsi Mövlud Süleymanlının şəxsiyyət kimi daxili azadlığından, zaman və ideologiyalardan ucada dayanıb söz demək bacarığından xəbər verir.

***Xatirə Bəşirli***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# POVESTLƏR

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ŞANAPİPİK

*II Dünya müharibəsində həlak olmuş atama, əmimə, hələ də yol gözləyən Hürü nənəmə, bir də anama*

Telli qarı yuxudan oyanıb, eşiyə çıxdı, gördü çəpərin üstünə çoxlu sərçə qonub, tumarlanırlar. Əyilib yerdən daş götürdü, söyə-söyə, söylənə-söylənə sərçələri daşa basdı. Hirslənməyindən, qışqırmağından xəbəri olmadı. Qonşusu Sayalı arvad hay-həşirə gəlib çəpərdən baş uzatdı, gördü ki, Telli qarı göyə daş atır, arvadın əli üzündə qaldı, qorxulu-qorxulu səsləndi:

– Nolub, ay arvad, sənə?

Sayalının səsini Telli qarı öz içindən eşitdi.

Sayalının səsi istiydi, bu səsin istiliyi Telli qarının bütün canında gəzdi, öz səs-küyündən ağırlaşmış başını ağır-ağır döndərdi, Sayalını gördü. Canında hirs vardı, ona görə də daş hələ əlindəydi. Başındakı səs-küyün içində Sayalının səsini bir də eşitdi:

– Nolub, ay arvad, sənə?

İstəyirdi Sayalıya cavab versin, amma hirsi soyumadığından söz tapa bilmirdi, əlində bərk-bərk sıxdığı daşı hara gəldi atmaq istəyirdi ki, Sayalının səsini bir də eşitdi:

– Ay Telli xala!

Daş Telli qarının əlindən düşdü, birdən hirsləndiyi kimi, birdən də yumşaldı. Elə bil kimsə Telli qarının əlindən tutdu, çənin-dumanın içindən çıxartdı:

– Gəlsən, ay Sayalı, – dedi, sonra dönüb sərçələrin uçduğu səmti göstərdi, – əl çəkmir qapıdan qırılmış, davanı bunlar gətdi...

Sayalı bir söz tapıb deyə bilmirdi, Telli qarının bir gecənin içində dəyişən gözlərinə baxa-baxa qalmışdı...

...Kor Cabbarın səsi kəndi başına götürdü, sonra beş-altı kərə qamçısı açıldı, bir sürü qaz Kor Cabbarın atının, qamçısının qorxusundan göyə çıxmaq istədi, amma qanadı tutmadı, qaqqıldaşa-qaqqıldaşa kəndin əl-ətəyinə səpələndi. Kor Cabbar qazın birini öldürmüşdü, boğazından



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tutub sallaya-sallaya gətirdi. Həyətlərdə inəklər, camışlar, toyuqlar qaz ölüsünə əyri-əyri baxdılar, hamısı da Kor Cabbardan daha çox qaz ölüsündən hürküb, çəpərləri aşıb dünyadan çıxmaq istədilər.

Kor Cabbar qaz ölüsünü balacaboylu bir arvadın qabağına tulladı, arvad əvvəl ağlamsındı, sonra əl-qolunu ölçə-ölçə:

– Qolun qurusun, – dedi, – necə oğlanlar qayıtmadı, sənə dəyəydi o güllə. Bir kor gözüyün dalında gizləndin, köpəkoğlu, kişi olmusan indi...

Kor Cabbarın atı Kor Cabbardan tez özündən çıxdı, yerində oynadı. Kor Cabbar qamçısını silkələyib:

– Qamçını boğazına dolayaram, – dedi, – ləçər, artıq-əskik danışma, heyvanlarına yiyəlik elə, dövlətin malıdı bu, dədəmin malı deyil...

...Sayalı arvad evinə qayıdırdı, Telli qarının boşalıb qaranlıqlaşmış gözləri, qırışlarına hopmuş sopsoyuq təbəssümü yadından çıxmırdı.

Əbdül anasını gözləyirdi, Sayalı arvad içəri girən kimi:

– Hara getmişdin? – dedi, – anasının rəngi qaçmış, ağarmış üzünü gördü, soruşdu: – Nolub, xeyir olsun?

Sayalı arvad qorxa-qorxa, çəkinə-çəkinə Əbdülə sarı gəldi:

– Telli qarı gözümə birtəhər dəydi, – dedi, – elə bil huşu gedir arvadın...

...Çəpərlərin arasıyla bir dəstə qız işə gedirdi. Qızların hamısı başını yekəpər, ucaboy bir qıza sarı uzatmışdı, hərəsi bir yandan soruşdu:

– Ninni, bəs məni?

– Səni Kamal istəyirdi, Telli qarının oğlu, davaya gedəndə gördüm gözləri səni axtarır, heç özüyün xəbərin yoxdu, baxtıqara...

Əbdül qızların yanından keçirdi, Ninnini səslədi:

– Salam, ay Ninni!

Ninni qızların başı üstdən əlini yellədi. Sonra yanındakı qıza sarı əyildi:

– Dilbər, zalımın qızı, bu salam sənindi, başınlasa cavabını versən!

Qızların hamısı da bilirdi ki, bu salam Ninninin deyil, Dilbərindi, yenə də hamısı birdən başlarını tərpədib Əbdülün salamını aldılar...

Bir ilə yaxın idi dava qurtarmışdı, bir ilə yaxın idi yol gözləyirdilər. Bir ilə yaxın idi Telli qarı yerişini itirməkdəydi, gülüşünü itirməkdəydi, huşunu itirməkdəydi. Bir ilə yaxın idi, hər axşam, hər səhər "Kamal gəlmədi" deyirdi. Bir ilə yaxın idi, Əbdül Kor Cabbarın qızı Dilbəri istəyirdi, bir ilə yaxın idi Ninniyə yalvarırdı:

– Görüşdür bizi, ağrın alım!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kəndin belə bir səhəri idi. Əbdül idarənin qapısını açdı, sədr başını qaldırmadan:

– Sabahın xeyir, – dedi, – Əbdül!

...Sədr naxırçı Alıdan da balaca idi. Amma Alıya "Gödək Alı" deyirdilər. Sədrə gödək deyən yox idi. Beş qardaş idilər, qardaşlarının heç biri davadan qayıtmamışdı. Başını qaldırıb, yorğun gözlərini Əbdülə dikdi:

– Bilirsənmi səni niyə çağırtdırmışam? Bizə maşın göndəriblər.

Əbdül başa düşmədi:

– Nə göndəriblər, yoldaş sədr?

– Maşın göndəriblər, davadan.

Əbdül yenə başa düşmədi, amma utandığından bir də soruşmadı.

– İyirmiyə qədər maşın gətiriblər stansiyaya, biri də bizim kolxozundu, Nəsib kişiylə gedin, gətirin!

Davadan maşınların gəlməyi heç cür Əbdülün ağlına sığışmırdı:

– Bə o maşınların şoferləri?

Sədr stolun siyirməsini çəkmişdi, nəsə axtarırdı. Əbdül onun eşitmədiyinə sevindi. Qapıya sarı döndü. Qapının hansı səmtə açıldığını unutdu, dəstəyindən tutub özünə sarı çəkdi, sədr arxadan:

– O yana açılır, – dedi.

Sayalı arvad intizarda idi, Əbdülü görən kimi soruşdu:

– Xeyir olsun, nə deyirdi sədr?

Əbdül papağını əlinə almışdı, tərini silə-silə dedi:

– Stansiyaya maşın göndəriblər davadan, biri bizim kolxozundu, deyir, get sür, gətir!

Sayalı arvad da əvvəl başa düşmədi:

– Nə maşın, camaat gedənləri gözləyir, nə maşın? Yanlış olar, a bala!

Əbdül gördü anasını başa sala bilməyəcək, heç nə demədi, içəri keçib yola hazırlaşdı.

Bir andaca kəndin bu başından o başına xəbər yayıldı ki, davadan maşın göndəriblər, Əbdül də gedir gətirməyə...

Qızların gözü önündə içi əsgərlərlə dolu olan maşınlar canlandı, kəndin yüz yoluyla, yüz cığırıyla bu cür, yüz-yüz maşın kəndə gəldi, içi də kəndin davaya gedən oğlanlarıyla dolu...

Telli qarı bu xəbəri eşidib döyünə-döyünə, yıxıla-yıxıla özünü Əbdülün üstünə saldı. Əbdülün əlindən yapışdı:

– Kamalı gətir, dərdin alım, maşın gəlibsə o da orda olacaq... bir yaxşılıq elə, qonşu deyilikmi!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəsib kişinin arabası gəldi, Əbdülü də götürüb torpaq yolla təkəri əyilə-əyilə uzaqlaşdı.

Telli qarının oğlu davanın ortalarında yazmışdı ki, şoferliyi öyrəndim, indi maşın sürürəm, ay ana, güllə daşıyıram səngərlərə.

Əbdül dönüb atların yerişi üstündə uzaqlaşmaqda olan kəndə baxdı.

Telli qarı əl-qolunu ölçə-ölçə yenə nəsə deyirdi, sonra da döndü, yolun qırağına toplanmış sərçələri, torağayları daşa basdı:

– Siz gətirdiz davanı, siz!

* * *

...Stansiyaya çatanda atların sağrılarından tər damcılayırdı. Nəsib kişi arabadan ot götürüb atların qabağına tulladı.

Qatarın yolunu gözləyənlər vardı, heç Əbdülgilə fikir vermədilər.

Əbdül də döndü, gözü kəsdikcə dəmiryolu uzunu baxdı; dəmir yolunun bu cür yumşaqlıqla dünyanın üstüylə uzanıb getməsi Əbdülü elə qəribsətdi ki, burnunun ucu göynədi, geri qanrıldı. Nəsib kişini görəndə özünə gəldi, dəmiryolu da, qəribə düzülüşlü stansiya evləri də elə bil Nəsib kişi üçün yox idi, bir çəngə ot alıb kəhərin sağrısını tumarlayırdı.

Gün günortadan əyilmişdi, Əbdülün burnuna qəribə qoxu gəlirdi, bu, yolun qırağındakı sınıq-salxaq dəmir-dümürlərin – bir sözlə, stansiyanın qoxusu idi. Dəmir-dümürlərin üstünə iri, əyri-üyrü hərflərlə "Cəbhəyə" sözü yazılmışdı.

Nəsib kişi dinməz-söyləməz atları qoşurdu... İki oğlu vardı, ikisindən də qara kağız gəlmişdi. Arvadı Ayişə xala bu xəbərə dözə bilmədi, öldü, el yığılıb dəfn elədi, el də deyəndə, beş-altı qocaydı, bir də arvadlar, yığışıb Ayişə xalanın üstündə davanı ağladılar.

Elə o gündən Nəsib kişi dinməz oldu, çağırdılar gəldi, buyurdular getdi. Hərdən-hərdən yanındakılardan papiros istəməyi qaldı: "Tənbəkin varmı?" – Vəssalam...

Nəsib kişi kənddən stansiyaya qədər olan bu uzaq yolu da dinmədi, tək bircə yerdə: – Tənbəkin varmı? – dedi.

Əbdül təkərlərin səsinə başını qaldırdı. Nəsib kişinin arabası stansiyanın əyrim-üyrüm yollarıyla üzüaşağı enirdi. Araba enişi sallanıb gözdən itdi, amma təkərlərin səsi hələ də balaca evlərin üstündə idi, divarlara, kirəmidlərə dəyirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Stansiyanın gözətçi otağının qapısı açıldı, qoca bir kişi qapıdan çıxıb dörd yana baxdı, Əbdülə sarı döndü, dəmiryolunun qırağı daşlı-kəsəkli idi, Əbdül qorxdu ki, indi kişi daş-kəsəyə ilişib yıxılacaq. Əyildi, hər əlinə bir daş götürüb qırağa tulladı. Kişi ehtiyatla, inamla yaxınlaşdı:

– Salaməleyküm, oğul, xoş gördük! Maşınçınmı gəlmisən, hansı kolxozdansan?

– "Yeni yol"danam əmi, maşınçın gəlmişəm.

– Davada olmusanmı, olana oxşayırsan?!

– Yox, olmamışam, yaşım çatanda dava qurtardı.

– Mənim adım Cəfərdi, Cəfər əmi! – belə deyib gülümsədi, cibindən bir dəftərçə çıxartdı, qələmi dilinə vurub yazdı: "Əbdül, "Yeni yol" kolxozu, bir maşın".

Yazdığını da bərkdən oxudu, başını qaldırıb yenə güldü...

– Darıxma, az qalıb qatarın vaxtına, – dedi.

Gün batmışdı, qaş qaralhaqaraldaydı, birdən-birə Əbdülə bu dərələr elə dərin göründü ki, bilmədi neyləsin, sol əliylə papağını tutub, gözü işlədikcə göyə baxdı, onu da indi bildi ki, beş-altı ildə budu göy yadına düşüb. Sonra da Nəsib kişi üçün darıxdı, dönüb yollara baxdı, nə gələn var idi, nə gedən, təkcə təkərlərin səsini eşitdi.

Cəfər kişinin gözətçi otağının işığı yandı, balaca pəncərə solğun, sarımtıl rəngə boyandı. Axşamın alatoranlığıyla dərəaşağı iki araba enirdi. Cəfər kişi də başını qapıdan çıxardıb yola baxdı. Yenə çəkildi. Əbdülün yapyalqız dayandığını görüb qapını bağlamadı, qapının açıq qalması doğrudan da Əbdülün ürəyini ovundurdu.

Qatarın fit səsi dərələr boyu yayıldı, qayadan-qayaya dəydi. Elə bil Əbdülün üstünə su tökdülər, üşüyüb əllərini ovuşdurdu.

Qatar dağların arasından çıxdı, tüstülənə-tüstülənə yaxınlaşıb dayandı. Maşinist orta yaşlarında bir rus idi, qatardan endi, tələsik addımlarla Əbdülgilə yaxınlaşdı. Bir-bir hamı ilə görüşdü; sağ qolu çiynindən yox idi, ona görə də sol əlini Əbdülə uzadanda Əbdül çaşıb qaldı, bilmədi sağ əlinimi uzatsın, sol əlinimi. Yanında balaca uşaq vardı. Əyninə iri sırıqlı geymişdi, ayağındakı iri çəkmələri də güclə sürüyürdü, sırıqlı da, çəkmələr də bu balaca, arıq uşaq üçün ağır bir yük idi. Uşaq alaqaranlıqda Əbdülə baxıb gülümsədi. Əbdül elə bildi üzünə işıq düşdü.

Bir azdan bu beş-altı adam dəmiryolundan azca aralı tonqal qalayıb dörd yanına yığışmışdılar. Əbdül yapıncısını sərib bağlamasını açdı, uşaq Əbdülə söykənib yeyirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Milli Kitabxana

Sonra qarğıdalı çörəyinin bir tikəsi də əlində uşağı yuxu apardı, Əbdül yapıncının ətəyini onun üstünə qatladı.

Hop-hop dərənin bu tayından o tayına səs eləyirdi. Əbdül Ninnini xatırladı, sonra da Dilbəri, elə beləcə mürgülədi, hop-hopun səsini eşidə-eşidə yuxuya getdi...

Tonqal dilimlənə-dilimlənə yanırdı, bir parça palıd kötüyü qor bağlamışdı, ipəklənib közərirdi...

...Əbdül yuxuda maşın sürürdü, dünyanın hop-hop quşları oxuyurdu. Qızların yanında maşını əylədi, amma nə qədər elədi, qızlar maşına minmədi, hamısı da şanapipik kimi oxumağa başladı...

Əbdülün yuxusunda da gün çıxmışdı, istisi üzünü yandırırdı. Ayılıb gördü ki, doğrudan da gün çıxıb, istisi də üzünü yandırmaqdadı, hop-hop da dərənin bu tayından o tayına səs eləyirdi. Axşamkı uşaq yapıncıya bükülüb yatmışdı, sarışın saçları vardı, üzü yorğun, amma çox doğmaydı.

Cəfər kişiylə qatarın sürücüsü maşınları bir-bir yoxlayıb nəsə yazırdılar. Sonra maşınları yola çıxartdılar. Gen sırıqlılı, iri çəkməli balaca oğlan da bir parça əskiylə maşınları silməyə başladı, boyu çatmayan yerdə ayağının burnuna qalxırdı, Əbdül əsgini onun əlindən alıb özü təmizləməyə başladı. Cəfər kişi gendən-genə səslədi:

– Əbdül, sənin maşının o döyül!

– Eybi yox, Cəfər əmi, nə fərqi var?

Elə bu sözdən sonra şoferlər irəli yeridilər. Hərəsi bir maşını təmizləməyə başladılar. Əbdül öz maşınına qalxdı, göz gəzdirdi, əlini sükana vurdu, şüşəsinə vurdu, güllə yerlərinə vurdu.

Bu cür güllə yerlərini bir də Aydının küreyində görmüşdü. Sonra Telli qarının qoynunda gəzdirdiyi şəkli xatırladı: Kamal belə bir maşının yanında dayanıb gülümsəyirdi. İstədi Cəfər kişiyə desin ki, – yoxsa Kamalın maşınıdı bu, Cəfər əmi, odu vallah!

O biri şoferlər sürüb getdi, uzaqdan-uzağa Əbdülə də əl elədilər. Əbdül düşüb Cəfər kişiylə görüşdü, sonra əlinin ikisini də maşinistə uzatdı.

Uşaq iri çəkmələrini sürüyə-sürüyə gəldi, altdan-yuxarı Əbdülün üzünə baxdı:

– Dosvidaniye! – dedi.

Əbdül söz tapa bilmədi, bir anın içindəcə rus dili müəllimi Anna Korneyevanı xatırladı. Uşaq hələ də altdan-yuxarı Əbdülün üzünə baxırdı. Əbdül onun başını sığalladı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Molodes, – dedi.

Bu, Anna Korneyevanın "molodes"i idi, qarda, çovğunda dərsə gələn uşaqların başını sığallayıb deyərdi: "Molotsı"...

Anna Korneyeva Telli qarının evinin bir gözündə qalırdı. Dava başlayandan, Kamal gedəndən sonra Telli qarıya elə gəldi ki, Anna Korneyeva rus dilində danışdığı üçün davanın səbəbini də bilmir.

Anna Korneyeva da azərbaycanca qırıq-qırıq cümlələrlə Telli qarını başa salardı, dolmuş gözləriylə gülümsəyə-gülümsəyə könlünü alardı.

Davaya gedən kağızların çoxunun üstünü Anna yazardı. Əbdül o vaxtlar yeddinci sinifdə oxuyurdu. Anası Annaya pay göndərərdi. Anna stol çəkərdi Əbdül üçün. Əbdül oturub onun ağ əllərinə, sarı saçlarına utana-utana tamaşa eləyərdi, həmişə də özünə söz verərdi ki, bu dəfə deyəcəyəm, deyəcəyəm ki, "Vı kak solnse...". Amma deyə bilmirdi; elə deyə bilmədi də; günlərin birində Anna Korneyeva da davaya getdi.

Əbdül bir daldaya çəkilib ağladı, heç vaxt Annanın balaca, səliqəli otağının qoxusunu unuda bilmədi...

Maşın stansiyanın balaca evlərinin arasından keçib, dolama yollarla yamaca qalxırdı. Əbdül ləzzətlə başını pəncərədən çıxartdı, dağların gəzindən enən səhər yeli Əbdülün iliyinə işlədi.

Maşın belə bərk getdiyi üçün Əbdülə elə gəldi ki, Nəsib kişinin arabası da hardasa bu yaxınlıqda olar, bir az sürəti artırdı, irili-xırdalı ağaclar, yaşılca-yaşılca təpələr tökülüb arxada qaldı.

Gözüyaşlı Sayalı arvad saçaqlı şalına bürünüb qapıdan çıxdı. Naxır örüşdən səhər sağınına gəlirdi. Yelinləri paçalarına sığmayan qızıl inəklər mələyə-mələyə həyətlərə keçirdi.

Naxırçı Alı çomağına söykənib fəhmlə Sayalı arvada baxdı, gözüyaşlı, üzüntülü görüb udqundu. Papağını çıxartdı, səhərin sərinliyində başı buğlandı.

– Ay Sayalı xala! – Qəhərindənmi, nədənsə səsi boğazında qaldı.

Sayalı arvad heç nə eşitmirdi, heç nə görmürdü, titrəyə-titrəyə, əsəbi yerişlə idarəyə sarı gedirdi. Rastına çıxan qocalar, qarılar da onun ardınca getdilər.

Nəsib kişinin arabası idarənin qabağında dayanmışdı, dişləyə qoşulmuş atlar yumşaqca-yumşaqca bir-birinin boynunu gəmirirdi. Sədr, yanında da beş-altı adam, idarənin qabağındaydı.

Arabanın dövrəsinə o qədər quş yığılmışdı ki, elə bil düzdə, düzənlikdə bir dənəsi də qalmamışdı.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Yaxınlıqdakı həyətdən iki-üç oğlan uşağı çıxdı, əllərində sapand arabaya sarı yaxınlaşdılar, biri sapandı yelləyib atdı, iki sərçə birdən yerə düşüb sədrin gözü qabağında çabaladı.

Sayalı arvad adamların arasından keçib sədrlə üz-üzə dayandı. Sədr Sayalı arvaddan balacaydı. Amma burda dayananların heç biri sədri Sayalı arvaddan balaca görmədi.

Sayalı arvad udqunub nigarançılığını gizlətməyə çalışdı.

– Neylədin uşağı, gəlib çıxmadı, – dedi, – bunu hara göndərdin? – Sözünün əvvəlini sakitcə dedi, amma sonra səsi titrədi, boğulub eşidilməz oldu.

Sədr gülümsəyə-gülümsəyə dedi:

– Ay sənin, arvad, bu beş-altı ildə necə xəbərlərə dözdün, indi uşaq bir gecə qıraqda qalıb, gözləyə bilmirsən.

Sədr əlini Sayalı arvadın çiyninə qoydu:

– Noldu sənə? – deyib yenə gülümsədi.

Sayalı arvad, yorğun gözləri sipsilə göz yaşı, sədrə baxdı:

– Düzünü de, – dedi, – başına dönüm, hara göndərdin uşağı, bu nə sözdü kənddə gəzir?!

Sədr balaca çiyinlərini yığdı, balaca əllərini bir-birinə vurub:

– Bay atonnan, – dedi, yanındakılara baxdı, təzədən Sayalı arvada sarı döndü: – Nə uydurubsuz, az, yenə özünüzdən!

Sayalı arvadın ardınca gələn gəlinlər, qızlar yetişdilər. Qabaqdakı Telli qarıydı, çatan kimi dedi:

– Nə deyir camaat, ay sədr, təzədənmi başlayıb davası qara, bəs dedilər, Hitleri öldürdülər?

Sədr dönüb qoltuqağacına söykənmiş təkayaqlı Aydına baxdı:

– Gör, heç bunnarda ağıl var! Kim deyib, az, bunu sizə?

Təzədən əsgərə sarı döndü:

– Ə, bir sən başa sal bunnarı, mən bu beş ildə çəkdiyimi çəkdim, bu cür ki bunnar gözləyir, belə adam gözləməzlər, adam gözləmək döyül, gündə yüz yol ölüb-dirilməkdi bunnarınkı. Aaz, Hitler də ölüb, başının adamları da. Neçə dəfə demişəm, neçə dəfə qəzet oxumuşam, qulaq asmısız, dava da bugünnük qurtarmayıb, qurtarıb həmişəlik.

Telli qarı Sayalı arvadı keçib sədrin lap yaxınlığına gəldi, sakitcə soruşdu:

– Bə Əbdül?

Başqa bir arvad da cır səsiylə arxadan dilləndi:

– Niyə ağlımızı kəsdirirsən, davadan da maşın gələr?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sədr balaca əlini dizinə çırpdı:

– Nə təhər adamsız, aaz, – dedi. – Bu qədər gözləyibsiz, birinizin səsiniz çıxmayıb, amanınız qırıldımı, noldu indi?!

Əsgər qoltuqağacında ortalığa keçdi, arvadlara baxıb gülümsədi, onun da üzündə sədrin üzündəki rəngə oxşar bir rəng dolaşdı:

– Davanın axırına kimi getdim çıxdım, lap elə axırıncı gün ayağımı güllələdilər. – Belə deyib ayağına baxdı, sonra yenə başını qaldırıb gülümsədi.

Sayalı arvad elə bil əsgərin sözünə bənd idi, ağlaya-ağlaya sədrə sarı getdi.

– Başına dönüm, – dedi, – o stansiyanı tanıyıram, gedənlərin hamısı ordan gedib, Əbdülü qaytar, ya da öldür məni.

Sədr:

– Tfu, – *eləyib idarəyə sarı döndü, əsgər yenə nəsə deyirdi, amma* onu eşidən yox idi.

Pəncərədən sədrin səsi gəldi, qabaqca telefonun qulpunu fırlayıb doldurdu, sonra qışqırdı:

– Stansiyanı ver! Stansiyanı ver!

Qoca kişilərdən biri arvadlara sarı döndü, əlini qaldırıb ərklə dedi:

– Düzəldəcək, o ki stansiyanı ala bildi, düzəldəcək, canı sağ olsun!

Sədr pəncərəni açdı, acıqlandı:

– İşinizə-gücünüzə gedin! Stansiyadan çıxıb dedilər, indilərdə gələr.

Nəsib kişi arabasının üstündə oturmuşdu, kirimişcə camaata, camaatın başının üstündən də sədrə baxırdı. Bir vaxtlar Nəsib kişi arxası yerə gəlməz, qolu əyilməz kişilərdən idi, yüklü at arabalarının çəkisini bilmək üçün Nəsib kişini çağırardılar. Nəsib kişi bir-bir arabaları yoxlayar, çəkisini deyərdi.

İndi Nəsib kişinin bircə gözləri qalmışdı. Çallaşmış qaşlarının altından kədərlə, dərdlə dolu, hardan səs gəlirdi, ora boylanırdı.

Günlərin bir günündə naxırçı Alı naxırın yanında ağlaşma səsi eşitdi. Qaşa sarı çıxdı, Nəsib kişi arabanı yolun ortasında saxlayıb atların başını qucaqlayıb ağlayırdı. Atların ikisinin də gözləri almalanmışdı.

Bura iki dağın arasıydı, iri-iri qayalar, daşlar Nəsib kişinin hönkürtüsündən səs-səsə vermişdi, deyirdin qayalar, daşlardı hönkürən, naxırçı Alı Nəsib kişinin bu cür ağlamağından qorxdu, çünki Nəsib kişinin arvadı Ayişə də bu cür ağlayıb-ağlayıb ölmüşdü.

Nəsib kişinin bu cür ağlamağındanıydımı, nəydisə, naxır da səs-səsə verib mələşirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Alı yüyürə-yüyürə özünü yetirdi:

– Ay Nəsib dayı, ağrın alım, belə ağlamaq olmaz, ay Nəsib dayı!

Nəsib kişi atların arasında dayanmışdı, ağır-ağır döndü, iri əlləriylə gözlərini sildi, xeyli keçəndən sonra:

– Kənddə danışıb-eləmə! – dedi.

...Nəsib kişinin arabası kəndin daş yoluyla səs sala-sala getdi. Səpinçilər də arabanın ardınca döndülər. Kəndin qurtaracağında, dolay boyu ağlı-göylü duman sürünürdü. Qarşıda dağlar vardı. Elə bilirdin, sürünən duman deyil, dağdı.

Araba dumana girib görünməz oldu, təkcə təkərlərin səsi gəlirdi. Səhərin səhər çağında təkərlərin bu ağlı-göylü duman içindən gələn səsini heç kim eşitmirdi, elə bil Nəsib kişinin arabası göylə gedirdi, səsi-səmiri yoxuydu.

Sədr pəncərəni açıb başını çıxartdı, kənddən çıxhaçıxda olan işçilərin ardınca baxdı.

Nəsib kişinin arabasının özü görünmədiyi üçün səsini eşitdi. Dönüb yerində əyləşdi, balaca əlləriylə başını qucaqladı.

Nəsib kişi bayaq arabanın üstündə necə oturmuşdusa, eləcə də sədrin gözləri önünə gəldi...

Nəsib kişinin çəkdiyi ağrı saçlarındaydı, əyilmiş belində, sıxılmış, daralmış kürəyindəydi, daha çox düyünlü ağac parçasına oxşayan əllərindəydi. Sədr bunu duyduğu üçün ürəyindəcə pıçıldadı: “Öləcək, zalım oğlu”.

Əsgər qoltuqağacına söykənib dayanmışdı, duman kəndin ətəyindən üzülhaüzüldəydi, pişik yumşaqlığıyla dağlara sarı sürünürdü.

Arvadlar əsgərə sarı gəldilər, Telli qarı əl uzadıb:

– Aydın, başına dönüm, – dedi. – Nə təhərsən?

Dedi, sonra da gülümsədi, sopsoyuq bir gülüş arvadın qırış-qırış olmuş üzündə donub qaldı. Telli qarının bu gülüşünü əsgər anlaya bilmədi.

Telli qarı həmən sopsoyuq təbəssümüylə soruşdu:

– Niyə görə bilmədin Kamalı bə?

– Biz başqa yandaydıq, nənə!

– Şoferdi o, dünya ayağının altındadı, noldu görmədin, özün axtarmamısan.

Telli qarı son sözlərini bərkdən dedi.

Aydın onun gözlərindəki rəngi görüb başını aşağı saldı, aldatmadığına peşman oldu. “Gərək gördüm deyəydim”.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arvadlar Telli qarının qoluna girib apardılar, sədr pəncərədən baxırdı, Telli qarının kəlağayısı çiyninə düşmüşdü, çal saçları biz-biz olmuşdu. Bir ilə yaxınıydı Telli arvadın üzündə dolaşan bu sopsoyuq təbəssüm sədri üşüdürdü. Sədr indi də Telli arvadın biz-biz olmuş çal saçlarını, yerindən oynayıb dikəlmiş, boşalıb qaranlıqlaşmış gözlərini gördü, ürəyindəcə pıçıldadı: "Dəli olacaq arvad, biabır olacayıq. Yığacam hamısını, iclas çağırıb abırların alacam, heç kimin gedəni onlarınkından əskik döyül, özüm dörd qara kağız aldım, ağlaya da bilmirəm indi..."

Ayağa qalxıb meşin gödəkcəsinin yaxasını düymələdi: "Gözləməyin də təhəri var, – dedi, – belə də adam gözləyərlər?!".

...Pəncərədən bayıra baxdı. Düzlərin dumanı sıyrılıb, silinib, dükçələnib dağların başına qonmuşdu. Kəndin ətəyi boyu əkin yerləri, tarlalar buğlana-buğlana qaralırdı. Sədr bu buğlana-buğlana qaralan tarladakı işçiləri gördü, Telli qarını, Sayalı xalanı, Nəsib kişini, qoltuqağacı ilə hərlənən Aydını tanıdı.

* * *

Aydın əkin boyu qoltuqağacıyla iz sala-sala aşağı-yuxarı yeriyirdi. Nəsib kişiylə Sayalı xala qoltuqağacının açdığı izə çiyid atırdılar, Telli arvad da öz-özünə danışa-danışa çiyidlərin üstünü torpaqlayırdı. Quşların səsi-küyü dünyanı başına götürmüşdü. Telli arvadın dörd həndəvərində bir topa sərçə dolaşırdı.

Amma Telli arvad heç öz səsini də eşitmirdi. Quşların qulaq batıran səsi də Telli arvada çatmırdı. Telli arvadın öz-özünə danışmağı da elə buna görəydi.

...Sədr əkinin ayağında atdan düşdü, Aydına sarı getdi, Aydın qoltuqağacında axsaya-axsaya tarlanın ayağından qayıdırdı, sədri görüb dayandı, əl elədi, sonra da tərini sildi.

Sədr yaxınlaşıb qoltuqağacının açdığı izlərə baxdı.

– Aydın, dərindi, – dedi, – çox ağırlığını salma!

Aydın da dönüb geri baxdı, Nəsib kişiylə Sayalı arvad hərəsi bir yandan çiyid ata-ata gəlirdilər.

Telli qarı yenə əl-qolunu ölçə-ölçə dörd yanında, başının üstündə dolaşan torağaylara, sərçələrə söylənirdi.

Sədr də dayanıb kədərlə, üzüntü içində Telli arvada tamaşa eləyirdi... Telli arvad yerdən daş götürdü, quşlara sarı atdı, sədrin gözünün



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qabağındaca bu daş elə güclü atıldı ki, sədr heyrət elədi, canı buza döndü. Aydına baxıb kədərli, daha çox qorxulu səslə dedi:

– Dəli olur arvad, Aydın, bilmirəm nə çarə eləyək.

Aydın heç nə deyə bilmədi, Telli arvadın böyüyüb, yerindən oynamış, boşalmış gözlərini xatırladı.

Davadan qabaq olsaydı, Telli arvadın bu görkəminə Aydın dözə bilməzdi, amma indi heç nə onu təəccübləndirmirdi. Səngərlərdə belə şeyləri çox görmüşdü, sədrə onu demək istədi, tez də fikrindən daşındı.

Elə bu vaxt dağların lap qurtaracağından maşın səsi eşidildi, dağdan-dağa, qayadan-qayaya dəydi, düzləri-düzənləri titrətdi, hələ də səksəkə içində olan camaat tarlada, əkin-biçin yerlərində bellərini düzəldib dikəldilər, əvvəlcə bir-birlərinə, sonra da hamısı birdən başlarını qaldırıb göyə baxdılar. Bu beş ildə başlarının üstündən hər gün təyyarə keçərdi. Arvadlar hıçqıra-hıçqıra "can, balam", "can, balam", deyə-deyə sinələrinə döyərdilər... Gəlinləri, qızları ağladıb, özləri də ağlayardılar.

Göy üzü apaçıq idi, bayaq Telli qarının dörd yanına toplaşan əkin quşları, torağaylar birdən-birə düzləri-düzənləri bürüyən bu səsdən qorxuya düşüb dağılışdılar, bir səmt tapıb uça bilmədiklərindən qaraca-qaraca nöqtə olana kimi göyün bir qatına qalxdılar.

Əkin yerlərinin arasıyla ağara-ağara dolanan daş yolda bir maşın göründü, quruyub qalan camaata sarı yaxınlaşdı.

İşçilər maşına tərəf yürüdülər, Əbdül maşından çıxıb, camaata sarı əlini qaldırdı.

Sayalı arvad, dalınca da Telli qarı yıxıla-yıxıla yüyürdülər. Sədr Aydına sarı dönüb:

– Gedək! – dedi.

Aydın bir-iki addım atıb qayıtdı, sədr döndü:

– Əşi, gəl bəri, – dedi, – incitmə özünü!

Aydın gülümsədi:

– Yox, niyə boş gedim ki, həmin iş döyülmü!

Belə deyib, qoltuqağaclarını sahmanlayıb, yarımçıq qoyduğu səpin cığırına düşdü. Nəsib kişi xeyli aralanmışdı. Aydının yenidən cığıra düşdüyünü görüb qayıtdı, Aydının ardınca düşdü, ciblərindən toxum çıxardıb, sağdan-soldan qoltuqağaclarının izinə ata-ata dinməz-söyləməz addımladı...

Camaat maşını dövrəyə almışdı. Əbdülün əvvəlcə üzü-gözü sevinc içindəydi, amma camaata göz gəzdirən kimi kədərləndi, anasına sarı getdi. Sayalı arvad dayanıb nəfəsini dərdi, səsi qırıla-qırıla dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Niyə gecikdin belə, gecəni harda qaldın?

Əbdül cavab verə bilmədi, Telli qarı Sayalı arvadı keçib, Əbdülün boynunu qucaqladı, sonra maşını gördü, bir andaca arvadın gözünə işıq gəldi, birdən-birə... Təəccüblə, ərklə:

– Bə Kamal hanı? – dedi.

Əbdül də həmin təəccüblə Telli qarıya baxdı, sonra da başını saldı aşağı. Arvadlar yavaş-yavaş içlərini çəkə-çəkə hıçqırdılar, hamısı da buna bənd imiş kimi ağlayıb səs-səsə verdi. Təkcə Telli arvad ağlamırdı, maşını dörd dolanıb dayandı. Üz-gözündə rəngsiz bir gülüş gəzdi:

– Sizə qurban olum, – dedi, – bu, Kamalın maşınıdı!

Əbdül sevindi ki, Telli qarı daha ondan Kamalı soruşmur, həm də inandı ki, daha soruşmayacaq.

Arvadlar, gəlinlər ağlayırdılar, balacaboy bir arvad maşının taxtalarındakı güllə yerlərinə əl çəkib göynəyə-göynəyə deyirdi:

– Can, balam, bundamı vurdular səni?

Arvadlardan geridə ərlik vaxtı ötmüş gözəl-gözəl qızlar dayanmışdı, yanaqları yaşlı, gözlərinin önündə də davaya gedən yaraşıqlı oğlanlar...

Kəndin uşaqları tökülüşüb gəlmişdilər. Ağlaşmaya öyrəşdiklərindən heç nəyə fikir verməyib, hərəsi bir yandan maşına dırmaşmaqdaydılar.

Telli qarı qoynunu qurdalayıb bir şəkil çıxartdı, şəkildəki Kamal idi, belə bir maşının yanında dayanmışdı. Telli qarı şəklə baxıb Əbdülə sarı getdi, şəkildəki maşını göstərib:

– Budu, bax, Kamalın maşınıdı! – dedi.

Təzədən maşına sarı döndü, uşaqlar Telli qarıdan qorxurdular, maşının yan-yörəsindən tökülüşdülər. Aydın qoltuqağacına söykənib gendən-genə tamaşa eləyirdi. Aydının başına yığışdılar. Hərəsi bir tərəfdən qoltuqağacından tutub dayandılar.

Hamısı sevinc içindəydi, amma bunların sevincini duyan yox idi.

Uşaqlar sevinirdilər ki, onların kəndinə maşın gəlib. Sevinirdilər ki, əsgər Aydının ayağının biri yoxdu. Aydının hələ də atalarını gözləyən qardaşı uşaqları onunla öyünürdülər:

– Bizim əmimizdi, sizin nəyinizdi?

O biri uşaqlar da nənələrindən soruşardı:

– Aydın əmiyə niyə qohum deyilik, nənə?

Nənələri uşaqların anlamadığı bir kövrəkliklə gözlərini sıxıb deyərdi:

– Niyə qohum deyilik, başına dönüm, hamımız bir kökdənik!

Beləcə, Aydının qardaşı uşaqları kimi o biri uşaqlar da gəlib dayanardılar Aydının yanında, ərklə onun qoltuqağacına söykənərdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Aydın maşının dörd yanında dil deyib ağlayan arvadlara baxdı, gördü ki, yox, dava qurtarmayıb, kəndə gələndən ilk dəfəydi ki, təzədən cəbhədə olmaq istədi.

Gördü ki, sədr də gəlib dayanıb bir qıraqda. Bu ağlaşmanın qabağında sədri elə gücsüz gördü ki, ona elə gəldi, indicə sədrin dizləri qatlanacaq.

Nəsib kişi də bir tərəfdə bir daşın üstündə arxası arvadlara, üzü dağlara sarı oturmuşdu.

Qızlı-gəlinli hamı ağlayırdı, təkcə Telli qarıdan başqa. Telli qarı maşının qabağında dayanmışdı. Dil deyib ağlayan arvadlara bircə-bircə razılıq eləyirdi:

– Oğlun sağ olsun, ağrı-acı görmə!

Qarı bu ağlaşmanı başa düşə bilmirdi, ona görə də gülə-gülə qızlara yaxınlaşdı, təzə qıymaçalı, güllü qoftalı Dilbərlə üz-üzə durdu:

– Bax, – dedi, – sonra demə ki, demədim, səni Kamala alacam.

Qızlar səssiz-səmirsiz ağlayırdılar. Telli qarı belə deyəndə Dilbər hönkürdü, qızlar da ona qoşuldu. Sonra Dilbər başını qaldırıb Əbdülə baxdı, öz göz yaşını Əbdülün üz-gözündə gördü, gözlərini sıxanda, Əbdülün üz-gözündə gördüyü damcılar öz yanaqları boyu axdı. Əbdülü indi aydınca görə bildi, gördü ki, Əbdül ağlamırmış. Əbdülün gözləri o qədər uzaq idi ki, Dilbər o uzaqlığa çata bilmədi, gülümsədi.

Ninniydi, bir də beş-altı qız, Dilbərlə Əbdülün gülümsədiyini gördülər. Baş-başa verib bir-birinə sığındılar, daha ağlaya bilmədilər. Ayaqqabılarını soyunub əkinin başında qoymuşdular. Hamısı çiyin-çiyinə, başlarını aşağı saldılar, indi hiss elədilər ki, torpaq istidi. Beş-altı qızın beş-altı ayağı tumurcuq kimi, cücərti kimi yumşaq-yumşaq torpağı qurdaladı.

Aydın Əbdüllə Dilbərin gülümsədiyini gördü, başını aşağı salıb dörd yanına yığılmış uşaqların başlarını sığalladı. Uşaqların hamısının dupduru, dərdsiz, qayğısız gözləri altdan-yuxarı Aydına baxdı.

...Nəsib kişi yenə arxası arvadlara, üzü dağlara oturmuşdu, arada bir çiyinləri tərpənirdi. Sədr Nəsib kişinin tərpənən çiyinlərini gördü, irəli yeriyib arvadların üstünə qışqırdı:

– İndi sizə nə deyim mən! Nolub, nə eşitmisiz? Nə qanacaqsız adamsız, aaz, siz! Dağılın bu saat hamınız!

Sədrin səsi qəhərləndi, qorxdu ki, çox danışıb kövrələcək. Nəsib kişiyə sarı döndü. Nəsib kişinin hələ də çiyinləri tərpənirdi, sədrin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaxınlaşdığını bilib sırıqlısının qollarıyla gözlərini sildi. Sədr onun arxasında dayandı, balaca boyuna yaraşmayan yoğun, titrək bir səslə dedi:

– Nəsib kişi, bir dur ayağa!

*Nəsib kişi ağır-ağır qalxdı, sədr onun üzünə baxmaq istəmədiyi* üçün döndü, təzədən əkinə sarı gedən arvadları səslədi:

– Ayaq saxlayın, siz də eşidin!

Aydın yenə uşaqların arasında, Əbdül də ondan bir az aralı dayanmışdılar. Telli arvad yenə də maşının üstündə dövrə vurub uçuşan sərçələrə, torağaylara deyinə-deyinə, söylənə-söylənə daş atırdı.

Arvadlar yavaş-yavaş yaxınlaşdılar. Sədr arvadlara göz gəzdirib dedi:

– İstəyirdim bu günlərdə bir iclas keçirəm, bu sözləri orda deyəm. Amma məcbur eləyirsiz, – əlini boğazına çəkdi, – məni bax, bura yığmısız.

Nəsib kişiyə sarı döndü:

– Bə mən niyə ağlamıram? – dedi. – Dörd qardaşımın dördündən də qara kağız aldım. Niyə ağlamıram bə mən? Elə ağlayaram ki, qulaqlarınız batar, bildiz!

Gəlinlərdən biri-ikisi içini çəkdi. Sədr gördü ki, arvadlar təzədən ağlayacaq, belə dediyinə peşman oldu. Başqa bir söz tapa bilmədi, sakitcə dedi:

– Yaxşı, gedin işinizdə olun, ağlınızı başınıza yığın, bu gün-sabah hamı qayıdıb gələcək, üzlərinə çıxmağa üz-göz saxlayın özünüzdə.

Arvadlar təzədən qayıtdılar. Sədr Nəsib kişiylə üz-üzə durdu:

– Onlar arvaddılar, bir söz deyə bilmirəm, – dedi, – bə sənə nolub? Yaxşı, səninki ölməsin, mənimki ölməsin, bə kim ölsün bu torpağın yolunda! – Sədr çəkməli balaca ayağını zərblə yerə vurdu. – Ə, kənddər var, şəhərlər var ki, ağlamağa adamı qalmayıb. Gərək elə o dava bizim bu kənddə olaydı ki, görəydin. Vətən elə gördüyün bu torpaq döyül ki, ucu-bucağı yoxdu bizim torpağın, heç bilirsənmi Vətən nədi? İnandırıram bilmirsən!

*Aydın, uşaqlar da yanında, sədrə sarı gəldi.* Sədr *ona tərəf döndü,* əlini üzünə vurub dedi:

– Bu ölsün, bunnarın heç biri bilmir Vətən nolan şeydi!

Nəsib kişi başını aşağı salıb sakitcə dayanmışdı. Sədr səsini yavaşıtdı:

– Ə, kişi də ağlayar? Kişi ki başladı ağlamağa, arvadlar ölsün gərək. Ağsaqqal adamsan, camaata gərək sən ağıl verəsən...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəsib kişi sakitcə başını qaldırdı, Əbdül onun üzünə baxan kimi bildi ki, papiros istəyir. Əlini cibinə saldı, amma sədr ondan qabaq papiros çıxardıb Nəsib kişiyə uzatdı:

– Bir də ağlama, – dedi, – sən allah! Arvadlar ağlayanda bir təhər dözmək olur, sən ağlayanda inan ki, ölənlərimizdən də zəhləm gedir, qalanlarımızdan da.

Nəsib kişi papirosu damağına aldı, sədrə baxıb papirosun tüstüsü içində başını buladı, dinməz-söyləməz dönüb arvadların ardınca getdi.

Sədr Aydına baxdı, gücsüz, çarəsiz bir səslə:

– Yoox, əşşi, – dedi, – günahı yoxdu bunun!

Aydın Nəsib kişinin ardınca bir-iki addım atdı, uşaqlar qoltuqağacının addımlarıyla ayaqlaşa bilmədilər, yıxılıb yerə səpələndilər, bir-birinə qarışıb uğunub getdilər. Onların bu gülüşü elə bil yağış oldu, sədrin, Əbdülün, Aydının üstünə yağdı. Aydın geri qanrılıb gülümsədi. Əbdül də, sədr də elə bil davanı, qara kağızları vecinə almayıb yaşıllaşmış, çiçəklənmiş düzü-dünyanı indi gördülər.

Əbdül yuyunmaq istədi, dönüb bulağa sarı getdi. Sədr başını qaldırıb əvvəl göyə baxdı, sonra dağların qaşına. Gördü ki, gün gedir, Əbdülü səslədi:

– Əbdül, get toxum gəti, yatırma maşını!

Əbdül dönüb mazutlu əllərini göstərdi.

...Uşaqlar bir-birini itələyə-itələyə Nəsib kişinin yanını kəsdirmişdilər. Nəsib kişinin sırıqlısının iri ciblərindən çiyid çıxardıb ciblərinə doldururdular.

Bir azdan Aydın cərgənin qatarına düşmüşdü. Uşaqlar yenə də bir-birini itələyə-itələyə Aydının taxta ayaqlarının izinə çiyid atırdı, Aydın aradabir uşaqların hay-küyünə geri qanrılırdı:

– Bir-bir, haa!

* * *

Gün batabatda olduğundan işığı təkcə dağların başındaydı. Əkin yerləri qaralmışdı, yamaclardasa hələ alatoranlıq idi. İşçilər maşına sarı gəlirdilər. Lap qabaqda Aydın, sonra arvadlar, axırda da qızlar.

Nəsib kişi atları qoşurdu. Sədr atını minib Əbdülə sarı sürdü:

– Qoy camaat minsin, sür kəndə, – dedi, atın başını çəkib kəndə sarı döndü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İşçilər maşının yanına çatıb dayandılar.

Əbdül bir az sevinclə, bir az ərklə:

– Minin, – dedi, – gedək!

Amma heç kəs yerindən tərpənmədi, uşaqların hamısı birdən maşına sarı dartındılar, anaları onları buraxmadı, uşaqlar doluxsunub analarına baxdılar.

Əbdül yenə həmin səslə:

– Noldu?! – dedi.

Yenə heç kim tərpənmədi, uşaqlar ağlamsınıb analarına sığındılar. Aydın maşına sarı getdi, istədi minsin, gördü ki, qızlar-gəlinlər baxır. Maşının o biri tərəfinə keçdi, qalxıb oturdu.

Əbdülün anası Sayalı arvad qayğılı-qayğılı dedi:

– Sən sür get, bala, işin yoxdu, minməz heç kim!

Əbdül papağını çıxardıb hirslə əlinə çırpdı:

– Nə var axı burda? – dedi. – Nəyə göndəriblər bu boyda maşını?!

Telli arvad qızların arasında yenə güllü yaylıqlı, güllü donlu Dilbəri gördü, yaxınlaşdı. Dilbərin saçı yanağına düşmüşdü, quruyub taxtaya dönmüş barmaqlarıyla qızın saçını geri elədi:

– Fikir ver özünə, – dedi, – Kamal gələn kimi gətirəcəm səni!

Dilbər Telli arvadın gözlərindən qorxdu, canında titrətmə gəzdi, bir söz deyə bilmədi, udqundu. Qızlar, ürəklərində qəribə bir nisgil başlarını aşağı saldılar. Hamısı da belə bir sözün möhtacı idilər: "Fikir ver özünə, gəlin gətirəcəyəm səni". Sandıqda saxladıqları təzə paltarlarını xatırladılar, hamısı da birdən-birə təzə paltarlarını geyinmək istədi...

Dilbər Əbdüldən gözlərini çəkmirdi, nə yorğunluğu yadındaydı, nə ağlaşmalar, nə davadan qayıtmayanlar, ürəyi anlamadığı isti bir duyğuyla dolu idi. Əbdülü heç vaxt belə yaxın hiss eləməmişdi. Əbdülün boyuna-buxununa yaraşmayan iri əlləri Dilbərin saçlarında gəzirdi...

Ninni birdən Dilbərə sarı əyildi, qorxu içində pıçıldadı:

– Atan gəldi!

Kor Cabbar atın belində yanlarında dayandı. Kinli-kinli bir qızına baxdı, bir Əbdülə. Boğuq, xırıltılı səslə:

– İtin balası, – dedi, – get evə, orda danışacam səninlə. Elə bil toya gəlib, bəzənməyinə bax bunun!

Nəsib kişinin arabası aralandı. Əbdül maşını işə salanda Cabbar kişi atına bir qamçı çəkdi, at dördnala qalxıb, əkinlərin qaranlığında görünməz oldu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dilbər elə bil atasının sözlərini eşitməmişdi. Canında Əbdülün yaxınlığı, saçlarında da əlləri, axşamın toranlığıyla gülümsəyə-gülümsəyə addımlayırdı.

* * *

Davadan qayıdan var idi, ona görə bütün kənd həmişəkindən tez oyanmışdı. Gendən-genə davadan gələnlərin həyətinə baxırdılar. Davadan gələn oğlanlar qurşaqdan yuxarı soyunmuşdular, bacıları onların əllərinə su tökürdü. Beş il qabaq kəndin "kişi qırığı" deyə-deyə yola saldığı oğlanlar yekə-yekə kişi olmuşdular.

Gırdın-gırdın qolları vardı ki, deyirdin, odun yarmaçasıdı. Canlarında göz-göz güllə yerləri vardı, bacıları o göz-göz güllə yerlərini barmaqlarının ucuyla yumşaq-yumşaq oxşayırdılar. Oğlanların onsuz da enli kürəkləri daha da enlənirdi.

Kəndin belə bir səhəri açılmışdı. Qızlar səhəng çiyinlərində bulağa gedirdilər.

Əbdül maşını çəkmişdi çayın qırağına. Telli arvad da azca aralı bir daşın üstündə oturub tamaşa eləyirdi.

– Təmiz yu, şüşəsi qaldı, dəstəyi qaldı!..

Əbdül başını qaldıranda qızları gördü, əl elədi. Dilbər başını aşağı saldı, o biri qızlar əl eləyib Əbdülə cavab verdilər.

Telli arvad zəndlə qızlara göz gəzdirdi. Dilbərin yanındakı yaşıl yaylıqlı, təzə donlu qızı gördü, ayağa qalxıb onlara sarı getdi. Qızla üzüzə durdu:

– Bıy, – dedi, – gözüm kor olsun, niyə indi görürəm səni? Nə qəşəngsən, ağrın alım, Kamala alacam səni! Bax, sonra demə ki, demədin.

Artıq Telli arvadın bu sözünə kövrəlib ağlayan yox idi, çünki Telli arvad bu sözü onların hamısına dönə-dönə demişdi. Güllü yaylıq bağlayan, təzə paltar geyinən qızlar Telli arvaddan yayına bilməzdi.

Qızlar vardı ki, elə bil Telli arvadın Kamalı üçün böyüyürdülər. Təzəcə səhəng götürüb dəstəyə qoşulanlar, güllü yaylıq bağlayıb, güllü don geyinib Telli arvadın gözləri önündən keçirdilər, keçirdilər ki, o sözü eşitsinlər: "Səni Kamala alacam!"

...İndi də qızlar gülümsədilər, güllü yaylıqlı, təzə donlu qızınsa yanağı allandı:

– Baş üstə, nənə, – dedi, – Kamaldan artığınamı gedəcəm!

Qızlar aralandılar. Əbdül maşının üstündən qızların ardınca baxırdı. Telli arvad yolun ortasındaca dayanmışdı, qızların ardınca bir-iki addım



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

atıb döndü, sonra yönünü itirdi, bilmədi hara gedir. Dünyanın səsi küt bir uğultuya dönüb arvadın başında qaldı. Arvad kəndə baxdı, güldü, maşına baxdı, güldü, Əbdülə baxdı, güldü, əyilib yerdən daş götürdü, sərçələri axtardı, yaxınlıqdakı qoz ağacının başında gördü:

– Siz gətirdiz bu davanı, siz gətirdiz! – deyə-deyə sərçələri daşa basdı.

Əbdül qorxulu-qorxulu maşından düşdü, ona yaxınlaşdı, qolundan tutdu:

– Gedək evə, ay nənə, anam çağırır səni, – dedi, qolundan tutub evə apardı.

...Sədr idi, kəndin beş-altı ağsaqqalıydı, bir evin qabağında dayandılar, uzaqdan-uzağa Telli arvadla Əbdülü gördülər. Əbdül arvadın qolundan tutmuşdu, arvad yenə hərdən-hərdən əyilib daş götürürdü, göyə daş atırdı.

Sədr başını aşağı saldı, qocalardan biri baş bulayıb dedi:

– Hər şey huşundan çıxdı, bircə sərçələr qaldı. Dava başlayan günü ağlayıb deyirdi: "Ürəyimə dammışdı ki, dava olacaq, qapıma sərçə yağdı, döydüm, qaçmadı, qovdum, uçmadı", – belə deyib ağlamağı yadımdadı arvadın.

Qocalardan biri onun sözünü tamamladı:

– Deyərlər, sərçəsi artıq ilin xatası var, hər şeyi unutdu, bir bu qaldı huşunda. Elə bu da dəli elədi arvadı.

Sədr başını qaldırıb Əbdülgilə sarı baxdı, yox idilər, əliylə üz-gözünü ovuşdurub dedi:

– Qara kağıza da inanmaq olmur. Kamal gəlib çıxsaydı, arvad düzələrdi.

Qocalar:

– Yox, – dedilər, – gecdi, belə getsə, bir azdan heç kəsi tanımayacaq.

Bu, sədr üçün elə ağır oldu ki, çəpərin dibindəki daşın üstündə oturdu, başını qaldırıb qocalara baxdı, gördü ki, Telli qarının dərdi onların üstündən çox yüngül keçir, sonra gördü bu qocalar sevinirlər ki, nə yaxşı qoca olublar, davadan qalıblar.

Yavaş-yavaş ayağa qalxdı, qalxdıqca da qocaları təzədən gördü, damar-damar olub göy rəngə çalan əllərini, sel yumuş, yel oymuş yarğanlara oxşayan ovuclarını, ovuclarındakı özləriylə yaşıd qoca-qoca qabarları gördü, onların davaya gedən oğlanları gəldi durdu gözlərinin qabağında, ürəyindəcə dedi: "Yox, əşi, dərdə kim sevinər".

Qocalar gördülər ki, sədr bir söz demək istəyir, sakitcə gözlədilər.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Sədr haçandan-haçana:

– Maşının gəlməyi yaxşı oldu, – dedi, – bir az ovunub arvad.

Qocalar:

– Hə, – dedilər, – hələlik maşını, bir də təzə paltarlı qızları görə bilir, elə gördüyü bu iki şeydi onu saxlayan.

...Qocaların lap ağsaqqalı dayandıqları həyətin qapısını açdı, dalbadal içəri keçdilər.

...Bu beş-altı qocaydı, sədr idi, bir də evin yiyəsi Mansır kişiydi, bardaş qurub xalçanın üstündə oturmuşdular.

Mansır kişi başını aşağı salıb, xalçanın naxışlarını qurdalaya-qurdalaya deyirdi:

– Sədr, başına dönüm, bir qız bir oğlanındı, bu düzdü, amma camaat gedənini gözləyir, üçü gəlib, beşi gəlməyib. Mən indi durum, toy danışım siznən, qız verim, nişan taxım, mənə deməzlərmi, ay qurumsaq, neylədiyindi, eli saymırsan?!

Sədr onun sözünü kəsdi:

– Belədi, Mansır kişi, davanı qurtardıq, ən böyük bayramımız budu ki, nə qədər gücün var, sevin! Buna balacamızdan tutmuş, qocamıza kimi, hamımızın haqqımız var. Şadlıq, elə indi lazımdı, qoy sümüyünü səksəndirsin camaat. Telli arvadı gördün? Nə oğlu qalıb yadında, nə kənd qalıb yadında, işi Allaha daş atmaqdı. Dərd dərdi gətirər. İndi deyirsən, gözləyək, qocalarımız Telli arvad kimi olsunlar, onnan sonra kimə lazımdı toy!?

Beş-altı qoca da beş-altı yerdən dillənib, sədrin sözünə qüvvət verdilər. Mansır kişi:

– Yaxşı, – dedi, – nə deyirəm, ay sədr, amma gərəkdi ki, qızın anasıyla da danışım, qızın ürəyini arasın.

Sədr gülümsədi, elə bil ömründə birinci kərə idi gülümsəyirdi, ona görə də üzünün çəkilib dartıldığını hiss elədi, birdən də gördü ki, qaşqabaqlı durmaqdan yorulub:

– Aydını, – dedi, – siz mənnən də yaxşı tanıyırsız. Onu da bilirik ki, ayağının birini qoydu qayıtdı. Canını da əsirgəyən döyüldü. Yadınızdan çıxıbmı qəzetdə nə yazmışdılar haqqında: "Eşq olsun Azərbaycan oğluna".

Sədr belə deyib ayağa durdu, o birilər də yer-yerdən ayağa durdular. Sədr Mansır kişiyə əl verib, – Yarıyannan olsunlar! – dedi.

...Bir su içimində kəndin bu başından o başına yayıldı ki, Mansır kişi qızını Aydına verib.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Biri dedi, düz eləyib, biri dedi, düz eləməyib, biri dedi, tələsidi, biri dedi, tələsməyib.

Amma sədrin qorxusundan heç kəs səsini çıxara bilmədi.

Telli arvad oturmuşdu Əbdülgildə, Sayalı arvad kövrələ-kövrələ davadan qayıtmayan oğlundan, Kamaldan danışırdı, danışırdı ki, Telli arvadı ağlatsın. Amma Telli arvad ağlamırdı, gözlərini bir nöqtəyə zilləyib çay içirdi. Kənddə deyirdilər ki, Telli arvad ağlasa, gözündən yaş çıxsa, huşu gələr başına.

Bu vaxt Əbdül içəri girdi, başıyla soruşdu ki, necədi?

Sayalı arvad:

– Yaxşıdı, – dedi, – kirimişdi, söz eşidir, başa düşür, ağıllı dəyir gözümə, quşla-zadla işi yoxdu daha.

Əbdül yaxınlaşıb soruşdu:

– Ağlamadı bə?

Sayalı arvad başıylaca "yox" dedi.

Əbdül Telli qarının əlindən tutdu, səsini qaldırıb:

– Necəsən, ay Telli nənə, – dedi, – yaxşısanmı? – Əlini cibinə salıb pul çıxartdı. – Kamalın pulunu gətirdim, özü göndərib!

Telli arvad dirçələn kimi oldu, pulu alıb qoynuna qoydu:

– Gərdəklik alacam, – dedi. – Gərdəkliyi yoxdu Kamalın.

Arvadın üzünün tarıma çəkilmiş qırışları elə bil Əbdülün gözü qabağında tərpəndi. Telli arvad əlini üzünə çəkdi, birçəyini geri elədi. Amma bilmədi hardadı. Nə Əbdül yadındaydı, nə Sayalı arvad. Oturduğu taxt da yox idi, ayağını qoyduğu yer də yox idi. Duyulmaz, eşidilməz bir səs hərdənbir Telli arvadı yerindən qaldırırdı, dartıb aparırdı ardınca. Telli arvad o boşluqlarda söyləyə-söyləyə, deyinə-deyinə sərçələri daşa basdı: "Qırğını siz gətdiz, davanı siz gətdiz!"

...Əbdül taxtın üstündə bardaş qurub, yumağa dönmüş Telli arvadın alnında tər gördü. Bu neçə vaxtda birinci dəfə görürdü ki, Telli arvadın üzü yaşayır. Sakitcə qalxdı, ürəyi döyünə-döyünə anasının yanına getdi.

– Ağlayacaq, – dedi, – deyəsən!

Sayalı da, Əbdül də gəldilər, yan-yana dayanıb arvada baxdılar. Amma Telli arvad yenə ağlamadı, titrək bir səslə:

– Hardadı bə özü, – dedi. – Kimnən inciyib, kimnən küsüb, başım çıxmır, pul göndərir, özü gəlmir?!

Sayalı arvad yenə gözlərini sıxdı:

– Sağ olsun hökuməti, – dedi, – iyirmi-otuz manatnan ovundurur yenə...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Telli arvad başını qaldırdı, elə bil Sayalını da, Əbdülü də indi gördü:

– Hardasan, gəlib çıxsan, ay Sayalı, gəl bir otu yanımda, ağla, oğlun sağ olsun, bu gün də axşam oldu, gəlmədilər, qızdan-gəlindən də çağır, ağlayaq!

Sayalı Telli arvadın dizinin dibində oturdu, Telli arvadın birdən-birə belə ağıllı danışdığına sevindiyindən ağlaya bilmədi, dəsmal çıxardıb onun alnında puçurlanmış təri sildi.

Qarı yenə ağlayan kimi olub soruşdu:

– Çoxdanmı burdayam, aaz? Evi-eşiyi atıb oturmuşam, uşaq gələr birdən, görməz məni evdə.

Əbdül, qarının fikrini dağıtmaq, ovundurmaq üçün dedi:

– Mansır kişi qızını Aydına verdi, ay nənə. Toy eləyəcək bu günlərdə, oynayarıq, qəmimiz, qayğımız dağılar!

Telli arvad başını qaldırdı:

– Kim, Mansır kişi? Hansı qızını, ədə? – dedi, – tez də ayağa durdu. Əbdül də Sayalı da özünü düzəldənə kimi qapıdan çıxdı. Əbdül peşman-peşman gözünü döydü, sonra o da Telli arvadın ardınca çıxdı..

Telli arvad özünü Mansır kişinin həyət qapısına vurdu, qapı taybatay açıldı, qışqıra-qışqıra içəri girdi:

– Hanı o qurumsaq? – Mansır kişi heyrətdə idi, quruyub qalmışdı. – Hanı o çörək itirən? Saymadı Kamalı demək. Axırda belə oldu ki, Kamal kimi oğulu gözləmədi?!

Elə bil bu söz Telli arvadın ürəyinə batmış tikan idi, elə bil, bu sözü deməklə bu tikanı çıxartdılar, Telli arvadın da ağrısı qalmadı, azaldı, azaldı, bu ağrı qurtaran kimi Mansır kişinin qaraltısına baxdı, güldü, evinə baxdı, güldü, əyilib yerdən daş götürdü, güldü, sərçələri daşa basdı, sərçələrə atılan daş Mansır kişinin pəncərəsini sındırdı, Telli arvadın xəbəri olmadı. O sınıq pəncərədən təzə nişanlanmış qızın hönkürtüsü eşidildi, Telli arvad eşitmədi. Həyət qapısının yanında başını aşağı salmış Əbdülü görmədi, göyə daş ata-ata yanından keçdi:

– Siz gətirdiz davanı, siz gətirdiz!

* * *

Toxumlar, cücərtilər göyərdi, yaşıllıq əkinləri ağzına götürüb düzlərdən, ətəklərdən dağlara sarı dartındı.

Aydının qoltuqağaclarının izi şitil açdı... Dünyanın bu yaşıl çağında gün doğdu, gün də yaşıla çaldı. Yuxu yatmayan Telli arvad ağacları,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

evləri, göyü daşa basıb quş qovlayırdı. Üz-gözünə dağılmış çal saçları da yaşıla çaldı. Artıq heç kəsi görmürdü, aradabir başından qalxan, duyulmaz, eşidilməz səs də daha aradabir deyildi, böyüyüb-böyüyüb bir tıqqıltıya dönmüşdü ki, neçə aylar idi, Telli arvadın başındaydı, elə bil arvadın başında şüşə sındırırdılar. Sərçələr də yox olmuşdu. Bir vaxtlar Telli arvadın duyulmaz, eşidilməz səsi qalxanda sərçələri görürdü, indi sərçələri də görə bilmirdi. Sərçələr arvadın yaddaşında get-gedə rəngini itirirdi, yaddaşı bozumtul bir pərdəylə örtülməkdəydi ki, örtüldü, sərçələr də, güllü yaylıqlı, təzə donlu qızlar da o örtüyün altında qaldı. Daha heç kəsdən, heç nədən xəbəri yox idi. Telli arvad dağa baxıb gülürdü, çaya baxıb gülürdü, gülənə baxıb gülürdü, ağlayana baxıb gülürdü.

Xəbərsiz-ətərsiz atdığı daşlar dağa dəyirdi, ağlayana dəyirdi, gülənə dəyirdi.

Kəndin böyüməkdə olan güllü yaylıqlı, təzə donlu qızları qaynanaya oxşar bir arvad itirmişdilər. Elə bir söz itirmişdilər ki, dünyanın heç bir istisi belə isti deyildi: "Bıy, gözüm kor olsun, səni niyə indi görürəm, a qızım. Kamala alacam səni, şahların şahı Kamala!"

Bazar günüydü, qızlar sandıqlarda əzilmiş, qat kəsmiş paltarlarını geymişdilər, bazara gedirdilər. Bu əzilmiş, qatda qalıb qatlanmış paltarlar yalnız o qaralmış, bərkimiş əllərə, üzlərə yaraşa bilərdi, elə yaraşırdı da.

Qızlar aralanmışdı, Telli arvadın qorxusundan perikib vurnuxan quşlar da başlarının üstüylə uçuşurdu. Dilbər qızların arasından qanrılıb geri baxdı, Əbdülü yenə maşının üstündə gördü, kövrələ-kövrələ dedi:

– Məni çox istəyir, mən heç elə istəyə bilmərəm onu!

Yekəpər, qollu-budaqlı, qalın, qarahörüklü Ninni Dilbəri çimdikləyib ona sığındı:

– Ölmürsən, yalan deyirsən? – dedi. – Cabbar kişidən qorxmasan, iynə olub sancılarsan yaxasına.

Dilbər cavab vermədi, çiynini qısıb içini çəkdi. Əbdülün boyuna yaraşmayan yekə əlləri yenə gəldi Dilbərin yaxasında gəzdi, saçlarında gəzdi. Dilbərin nə gözü gördü, nə qulağı eşitdi. Yekəpər qız nəsə deyirdi. Dilbərsə başını qaldırmağa, qolunu qaldırmağa qorxurdu, qorxurdu ki, Əbdülün əllərini görərlər.

...Qızların içində iki yeniyetmə qız vardı, qardaşları güllü yaylıq almışdı, güllü don almışdı. Birinci dəfəydi güllü yaylıq bağlayıb, güllü don geyinmişdilər. Birinci kərəydi, Telli arvadın yanından keçirdilər,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

amma Telli arvad onları görə bilmədi. Qızların qulaqları səsdəydi, kim olur-olsun, bircə desin ki, "nə gözəl qızsan, səni oğluma alacam...".

Əbdülün maşınının səsi gəldi, qızların hamısı dönüb baxdılar. Ninni qolunu Dilbərin boynuna saldı, qucaqladı, Dilbər yekəpər Ninninin qucağında görünmədi, batıb çıxdı, Ninni yenə Dilbəri çimdikləyib titrək səslə dedi:

– Gəlir!

Maşın qızların yanında əyləndi, Aydın da Əbdülün yanında oturmuşdu. Aydının nişanlısı qaçıb qızların arasına girdi. Qızın sir-sifəti ağappaq işıq içindəydi, üzündən-gözündən sevinc yağmağa başladı.

Qızlar maşına minmirdi, ləngər vura-vura, bir-birinə qarışa-qarışa gedirdilər. Əbdül də əli rulda, maşının ayaqlığında dayanmışdı, qızların yerişiylə sürürdü:

– Aaz, adam olun, gəlin minin, ayaqlarınıza yazığınız gəlsin, a qırılmış, maşındı də, bunnan artıq nə istiyirsiz!

Amma qızlar öz yollarındaydı, xısınlaşa-xısınlaşa, pıqqıldaşa-pıqqıldaşa gedirdilər. Əbdül acıqlandı:

– Tfu, haram olsun sizə, dərs oxuyublar bunlar da. Maşının nə günahı var, aaz, öləndə-qalanda?! – belə deyib yekəpər qızı səslədi:

– Ninni!

Ninni geri döndü, Dilbər də döndü, gördü ki, Əbdülün əli Ninnini çağırır. Sonra Əbdülün əli yenə Dilbərin yaxasında gəzdi, saçlarında gəzdi, Dilbər də dörd yanında olanların hamısını unutdu...

Əbdüllə Ninni üz-üzə durmuşdular, Əbdül maşının ayaqlığındaydı, Ninni yerdə, bir boydaydılar, Əbdül gülümsəyə-gülümsəyə deyirdi:

– Başına dönüm, Ninni, axşam bazardan qayıdanda ikisini də ayır, körpünün yanında gözləyin bizi. Düzəlt, qadan alım, bir güllü yaylıq bizim boynumuza, – dedi. Aydına baxdı. Aydın da əlini qoymuşdu kəsik dizinin üstə, gülümsəyirdi.

Ninni: – Yaxşı, – dedi, qaçıb qızlara qarışdı.

Əbdül hələ də maşının ayaqlığındaydı, qızlar elə bil iynəydilər, sancılmışdılar Ninninin gövdəsinə. Ninni başını əyib qızlarla pıçıldaşırdı...

Bazara gedənlər çox idi, heç kəs maşına baxmırdı, beş-altı kişi Nəsib kişinin arabasında onların yanından keçdi. Əbdül qalxıb Aydının yanında oturdu:

– Əə, belə də dərd olarmı, – əlini rula çırpdı. – Daha nəyə gərəkdi bu andır? Tərsdiyə düşüb köpək oğlunun camaatı, minmir ki, minmir...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Axşamüstüydü, arvadlı-kişili, qızlı-gəlinli bazardan qayıdırdılar. Qızlar körpünün üstündə dayandılar, üçü onlardan ayrılıb, körpüdən yamaca endi...

Arvadlar, gəlinlər gendən-genə onları gördü, gəlinlər güldülər, arvadlar xısınlaşdılar, biri bərkdən dedi:

– Ninni durub yenə, qızlara əvəlik dərdirir!

Dörd yandan dörd yol gəlirdi, boylanıb dörd yolun dördünə də baxırdılar. Əbdülün maşınını görməyib çiyinlərini çəkdilər...

Havada balaca sazaq vardı, əvəliklər baş bulaya-bulaya yırğalanırdı, çiçəklər elə canlı-canlı titrəşirdilər ki, deyirdin indi danışacaqlar.

Dilbər də, Aydının nişanlısı da əvəlikləri görə bilmədi, bilmirdilər əllərini hansı ota uzatsınlar. Birdən-birəcə ağarıb, qabarını itirmiş əlləri qəribə bir çaşqınlıqla otlara sarı uzanırdı. Əvəliyə dəyirdi, bilmirdi nədi, çiçəyə dəyirdi, bilmirdi nədi, daşa dəyirdi, bilmirdi nədi...

Ninni bir daşın başında oturmuşdu; hamıdan çox o gözləyirdi, amma bilmirdi kimi gözləyir, nəyi gözləyir belə, nə davaya gedənlərin içində gözlədiyi vardı, nə qayıdanların, nə böyüklərin içində gözlədiyi vardı, nə böyüyənlərin... Əllərini iri döşlərinin üstündə çarpazlamışdı, yollara baxırdı.

Yolların o başında Əbdülün maşınının işığı yandı, Ninni ağır, kişi səsiylə hirsli-hirsli dedi:

– Gəldilər, aaz, keçin bu yana!

Bu xəbər Dilbər üçün də, Aydının nişanlısı üçün də elə gözlənilməz oldu ki, quruyub yerlərində qaldılar, ayaqlarını atıb, bir addım gedə *bilmədilər, çöküb otların arasında oturdular, Ninni onların oturduqlarını* gördü, hirs içində boğuq bir səslə çağırdı:

– Dilbər, it qızı, demirəm keç belə? Gəlib saçını biləyimə dolayacam, oğlan yanına gələn olub, qancığın qızı, qancıq! Boyuna bax bir bunun!

Dilbər qalxıb titrəyə-titrəyə aralandı, xeyli gedib otların arasında görünməz oldu.

Aydının nişanlısı ürkək gözləriylə çiçəklərin arasından baxırdı. Ninni ona sarı döndü:

– Sən də orda otu, – dedi, – səsini də çıxartma, bildin!?

...Maşın körpünün yanından burulub yamaca endi, işıqlarını söndürüb, otluğun qalınlığında qaranlığa qarışdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əbdül əlində güllü bir yaylığa bükülmüş bağlama gətirdi, Ninni heç başını da qaldırmadı. Ninninin qabağında diz çökdü, əlləri titrəyə-titrəyə yaylığı açdı:

– Bu sənin yaylığın, bu da şirinlik, ağzını şirin elə! – dedi. Dilbərin oturduğu yerə sarı yüyürdü.

Dilbərin Əbdülün gözlərinə dikilən gözləri Əbdülü görmədi. Bir cüt iri əllər idi, titrəyə-titrəyə Dilbərə toxundu. Dilbərin saçlarına toxundu, sonra Dilbərin alaqaranlıqda parıldayan göz yaşlarına toxundu...

Ninni daşın başındaca oturmuşdu, qəribə-qəribə pıçıltılar eşidirdi, otlar pıçıldaşırdı, çiçəklər pıçıldaşırdı, dağlar pıçıldaşırdı. Əlini uzatdı, elə bu pıçıltıların içindən konfetləri götürdü, yaylığı qatlayıb qoynuna qoydu. Götürüb xırtaxırtla konfet yedi, amma heç özü də bilmədi, ağlayırmı, ağlamırmı...

Maşına duz yükləmişdilər, daşduz idi ki, dərədən su çəkdi, dağdan nəm çəkdi, maşından gecənin qoynuna göz yaşı kimi duzlu damcılar yağdı.

Sonra bu damcıların səsinə at ayağının səsi də qarışdı. Ninninin ürəyinin səsi də bu səslərin içindəydi, dağların, qayaların geri qaytardığı at ayağının səsini də ürəyinin səsinə oxşatdı.

Birdən Dilbər də, Aydının nişanlısı da gözlərinin qabağına gəldi, ikisini də saldı təpiyinin altına, sonra da saçlarını qollarına dolayıb, çiçəklərin üstüylə sürüdü. Dünyanın bugecəki qəribə pıçıltıları Ninnini xəyaldan ayırdı, ayılan kimi söydü:

– Qancığın qızları, qancıq!

At ayağının səsi yavaş-yavaş aydınlaşırdı, Ninni qorxulu-qorxulu qalxdı, gördü dağdan atlılar çıxır, əlini ağzına qoyub ördəkdən də yaxşı ördək səsi çıxartdı, at yerişiylə bir göz qırpımında yox oldu, amma at ayağının səsi Ninnidən bərk gedirdi, Ninni qaçıb qurtara bilmirdi: – Məni quş elə, – deyirdi, – Allah, ördək elə, gələn Kor Cabbardı, öldürəcək məni!

Bayaq söydüyü, döymək istədiyi qızlar yadına düşdü, ayaq saxlayıb otluğa girdi, əlini ağzına qoyub ördək oldu.

Gecənin qoynunda bir ördək səsi cır-cır çığırırdı ki, – "atan gəlir, ay Dilbər, Kor Cabbar gəlir, ay qaragünnü!"

...Dilbər oturmuşdu əvəliklərin arasında, Əbdülün bu neçə ildə ardınca uzanan qolları, indi boynuna dolanmışdı. Dünyanın nə göz yaşı qalmışdı, nə hönkürtüləri, nə acığı qalmışdı, nə qorxusu, dünya Dilbərlə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əbdülün eviydi, qapısı yox idi ki, döyəydilər, çəpəri yox idi ki, aşaydılar, nə Kor Cabbar yaddaydı, nə qamçısı. Gecəyə at ayağının səsi yağırdı, yağmalıydı; dünyanın atıydı, Dilbərgilin qarşısından keçməliydi, gəlib keçirdi. Bir ördək çığırırdı, dünyanın ördəyiydi, çığırmalıydı..

Aydın kəsik dizinin üstündə durub boylandı, ördəyi tanıdı, dağların ətəyini axtaran at ayağının səsini də, amma nişanlısının ulduz kimi yanan gözlərini qorxutmaq istəmədi, təzədən uzandı, nişanlısının otların, çiçəklərin arasında işıq saçan gözlərinə yaraşası bir səslə dedi:

– Elə bilirdin, öləcəm, qayıtmayacam, yox?!

Nişanlısının saçları tərpəndi:

– Yox, yox!

Aydın onun quzuqulaqların, yemliklərin, əvəliklərin üstünə dağılan saçlarını oxşadı:

– Sənə qurban elədim ayağımı! – dedi.

Elə bu vaxt gecənin bağrını yaran bir səs eşitdi:

– Qalx ayağa, it oğlu, it!

Bu adam səsi ördəyin çığırtısını da kəsdi, at ayağının səsini də. Dünyanın qəribə pıçıltıları da elə bil çilçıraq idi, bu adam səsi götürüb o çilçırağı yerə vurdu, pıçıltıları çilik-çilik elədi.

Ninni otların, çiçəklərin üstüylə qaçırdı, amma bu adam səsi ondan bərk gedirdi, Ninni qaçıb qurtara bilmirdi:

– Məni quş elə, Allah, ağrın alım, ördək elə, Kor Cabbardı!

Sonra qamçı səsi gəldi, dağlar, qayalar bu səsi də qaytardı. Ninni bu səsdən qaça bilmədi, otların arasına yıxıldı.

*Elə bil Kor Cabbar dağı döyürdü, qamçının səsi iniltiyə dönmüşdü,* dağın bağrından çıxırdı.

Əbdülün boyuna-buxununa yaraşmayan iri əlləri, Kor Cabbarın qamçısıyla çırpışmaqdaydı.

Atasının gəlməyi, qamçının səsi, Əbdülün əllərinin iniltisi hələ də Dilbərə çatmırdı. Qapısız, bacasız dünyanın harasından gəldi görəsən, bu adam! *Dünyanın pıçıltıları, dünyanın ördəyi, atı hanı görəsən!?*

Əbdül yıxılanda Dilbər özünü qamçının altına atdı:

– Baba, ağrın alım, öldür məni!

Aydın qoltuqağacıyla yüyürürdü, ota ilişirdi, yıxılırdı, daşa ilişirdi, yıxılırdı. Gördü ki, çata bilməyəcək, qoltuqağaclarına baxdı, amma Aydın istəsə də qoltuqağacı tüfəng olmadı ki, Kor Cabbara çataydı...



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Əbdülqarışıq Dilbərin gövdəsinə ağrılar yağırdı, amma bu ağrılar da Dilbəri öz dünyasından ayıra bilmədi, səssiz-səmirsiz qaranlığa yıxıldı, Kor Cabbar qızının qolundan tutub qaldırdı:

– Gedək, – dedi, – öldürməsəm səni, atamın oğlu döyüləm!

Dilbəri çəkib apardı, sonra atını axtardı, at yox idi, qamçı səsindən hürküb qaçmışdı. Dünyanın atıydı, qaçmalıydı, daa...

* * *

Əbdül qamçı izindən dağ-dağ olmuş əllərini anasından gizlədirdi, səhərin gözü açılmamışdan qalxmışdı, vurnuxurdu, maşını işə sala bilmirdi, hərdənbir Dilbərgilin evinə sarı baxırdı, Dilbərsiz eyvan elə-belə, adicə eyvan idi, balaca pəncərələri Dilbərsiz oxuya bilmirdi. Səhər açılmışdı, kəndin qırışları açılmamışdı hələ.

Dünənki gecə Əbdülün ürəyində döyüntüydü. Əllərindəki, kürəyindəki qamçı yerlərinin ağrısıydı, xatırlaya-xatırlaya ləzzətlə ağrıyırdı.

Sayalı arvadın səsinə ayıldı:

– Vurdumu səni, o kor köpəkoğlu, – dedi. Yaxınlaşıb oğluyla üz-üzə durdu. – Düzünü de, gedib başına uçuracam evini-eşiyini!

Anasının hirsi Əbdülü qorxutdu:

– Yox, – dedi, – niyə vurur məni, işin yoxdu sənin?

Sayalı arvad – dünyanı başına yıxaram! – deyib deyinə-deyinə uzaqlaşdı. Əbdül elə bildi, anası Kor Cabbarın üstünə gedir, çağırdı:

– Hara gedirsən?

Sayalı arvad ayaq saxlayıb geri döndü:

– Telli arvad görünmür, – dedi, – evdə oturan döyül o, görüm nolub?

Sayalı qorxulu-qorxulu Telli arvadın qapısını açdı. Telli arvad yataqdaydı, qapıya sarı boylandı, Sayalını görən kimi nəfəsi təngiyə-təngiyə:

– Aaz, hardasan? – dedi. – Bir bağlı qapını açsanız, aaz, əzrayıl alıb üstümü, canımı dişimə tutub adam gözləyirəm, deyiləsi sözüm var Kamala...

Telli arvadın ağlı başındaydı, artıq hər şeyi olduğu kimi görürdü, amma bilmirdi bu vaxtacan hardaydı. Ona elə gəlirdi ki, yatıbmış. Qarı bu yaşında elə bil utanırdı. Sayalıya dikilmiş gözlərində xəcalət vardı, peşman-peşman dilləndi:

– Bu boyda da yatmaqmı olar, aaz, yatmışam mən bəxtəvər!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəfəsini dərib udqundu, Sayalı arvad qorxu içində eşiyə çıxdı, boğula-boğula qışqırdı:

– Telli arvad ölür, ay camaat!

...Kor Cabbarın həyətində mal-qoyun mələşirdi, gecəki hadisəni eşidib naxırçı Kor Cabbarın inəyini aparmamışdı, çoban da qoyunlarını.

Kor Cabbar qapıda var-gəl eləyirdi, qamçısı çiynindəydi, üstündə də Əbdülün əllərinin izi. Arvadı qapının ağzındaydı, iri addımlarla ona sarı getdi, boğazını uzadıb xırıldaya-xırıldaya dedi:

– Öldürmədim qızını, öldürmədim. Çünki atamın oğlu döyüləm, eşşəyin oğluyam. Öldürməyəcəm, qoy özünü ortalığa qoysun!

Arvadı qamçını onun əlindən aldı:

– Bəri ver, – dedi, – heyvərə, mal-qoyun qırıldı acınnan! Kinindən çatdayacaqsan bir gün, görürsən ki, sənin pis üzünnən mal-qoyunu da otaran yoxdu.

İnəyi, qoyunları təzəcə qabaqlayıb aparırdı ki, Sayalı arvadın səsini eşitdi:

– Telli arvad ölür, ay camaat!..

...Kənddə ayağı yer tutan Telli arvadın qapısına qaçırdı. Amma heç kəs gəlib Telli arvada çata bilmədi. Gələn gəlib gördü ki, ölüb.

Arvadlar yığışıb ağladılar, amma heç kəs Telli arvadı ağlamadı. Hamı Kamalı ağlayırdı.

Sədr də gəlmişdi, Nəsib kişi də, Aydın da, yan-yana dayanmışdılar. Əbdülün əlləri cibindəydi, üstündə Kor Cabbarın qamçısının izləri.

Telli arvadın Kamala deyəcəyi söz ölmüşdü. Sayalı arvad arvadların arasında yana-yana deyirdi:

– Söz demək istəyirdi, eşidə bilmədim, ürəyində qoydum.

Davadan qayıdanlar Telli arvadı çiyinlərində aparıb basdırdılar.

Telli arvadın sərçələrə atdığı daşlar çəpərlərin dibindəydi, yollardaydı, kənddəydi. Daşlara baxdılar, Telli arvadı xatırladılar, sərçələrə baxdılar, Telli arvadı xatırladılar. Qızlar güllü yaylıq bağladılar, təzə don geydilər. Arvadlar təzə donlu qızları görüb: – Tellinin yeri göynəyir, – dedilər.

Neçə ay idi, Telli qarı yox idi, Sayalı özünə yer tapa bilmirdi. Kənd Telli arvadsız darıxırdı. Telli arvadın dəli vaxtları üçün darıxırdılar.

Qocalardan heç kəs Telli arvad kimi xatırlanmadı. Çünki heç kəs gedənini onun kimi gözləmirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Neçə ay keçmişdi, uşaqlar hələ də Telli arvadın daşlarını sərçələrə atırdı:

"Qırğının bizdən uzaq,
Qanın bizdən uzaq!.."

...Taxıllar tel-tel olmuşdu, kəhrəbaya dönüb yırğalanırdı. Əvəliklər, quzuqulaqları özək verib toxum bağlamışdı.

Aydının qoltuqağaclarının izləri alma ağacı oldu, meynə oldu, kələm oldu, düzləri, düzənləri götürdü.

Aydın ayaq izlərinə baxdı, çiyni qalxa-qalxa güldü:

– Nə qədər yol getmişəm, əyə, mən!

...Kolxoza təzə maşın gəlmişdi. Davadan gələn maşının altına altlıq hördülər, dörd yanını zəncirlədilər, qoydular Telli arvadın evinin qənşərinə.

Sədr maşının yanındaca iclas çağırdı, maşının ayaqlığına çıxdı:

– Əziz camaatımız, – dedi, – gözümün işıqları! Döydüm də, söydüm də sizi. O ağırlığı ki, o ağır illərdə biz aparmalıydıq, apardıq da. İndi yaşamaq halaldı bizə. Vətən ki deyirik, ha, o Vətən dediyim torpaq, kəndimizin bu həndəvəri döyül, başı gündoğandadı, ayağı günbatanda. Məni də yandıran odu ki, çoxunuz kənd üçün ağladız, Vətən üçün yox. Amma Vətənin bu boyda olduğunu bilsəydiz, ağlamazdız, inandırıram sizi! Oğlannar böyütdük, bə bu igid oğlanlar öz evlərinimi qorusunlar, yoxsa bu boyda Vətənimi?!

Adamların arasında məktəb uşaqları var idi, yerlərindən çığırışdılar:

– Vətəni!

Sədr gülümsədi:

– Ay sağ olun, – amma sizin ağlamağınızdan o çıxmırdı, o çıxırdı ki, mənim oğlum gərək öz evini qoruya. Bə bir evdən də Vətən olar? Vətən, yoldaşlar, milyon-milyon evdən ibarətdi, – sədr dönüb Nəsib kişiyə baxdı, – elə döyül, Nəsib kişi?

Nəsib kişinin üzündə *təbəssüm vardı*, sədr udqundu, bu təbəssüm ona tanış gəldi, ha fikirləşdi, xatırlaya bilmədi ki, kim idi, bu cür soyuq-soyuq gülümsəyən?! Bilmədi nədən danışırdı, sözü harda qaldı, camaata göz gəzdirdi, davadan qayıdanları görən kimi yadına düşdü:

– Əsgərlərimizə bir heykəl düzəltdirərik, qoyarıq bax, bura, – dedi, əliylə maşının yanını göstərdi.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Davadan qayıdanlar əl çaldılar, camaat da onlara qoşulub əl çaldı. Sədr əlini qaldırdı, əl çalanlar dayandılar:

– Bizim bu maşın, – dedi, davadan qayıdan maşını göstərdi, – çox işlər gördü, toxum daşıdı, duz daşıdı, odun daşıdı, ot daşıdı, yağışda-qarda yüz boyun öküzün işini gördü, amma siz ayaq qoyub minmədiz ona, eybi yox, mən başa düşdüm, yaxşı elədiz bəlkə də; o sizin oğlanlarınızın, kişilərinizin yanınnan gəlmişdi. İndi hökumət təzə maşın verib sizə. Minin gəzin, kolxozumuzun da işini görsün, sizin də!..

Camaat əl çaldı sədrə. Uşaqlar bunu eşidib:

– Ura! – dedilər, yerlərindən qopdular, dırmanıb mindilər maşına.

Əbdül dayanıb sakitcə gülümsəyirdi. Qızın, gəlinin arasında Dilbər yox idi, Ninniydi, kişilərin çoxundan da hündür. Nə fikirləşirdi, nə kədərlənirdi, bomboş dayanıb tamaşa eləyirdi. Əbdül Ninniyə baxdı, çiyinlərini yığdı. Ninni də bir himdən, bir işarədən bir dastan anlayan idi. Gözlərini süzdürüb, çiyni qamçılı, atın yanında dayanmış Kor Cabbarı göstərdi. Əbdülün əlləri gizildədi, bu gizilti Kor Cabbarın qamçısının ağrısı deyildi, *o gecənin ləzzəti idi ki, Əbdülün canında gizildəyirdi.*

Camaat dağılışırdı. Əbdül Ninniyə sarı getdi:

– Dayan, Ninni!

Ninni dayandı, yuxarıdan aşağı Əbdülə baxdı:

– Qorxuram, – dedi, – lələmin başı üçün, kordan qorxuram!

– Bir təhər çıxart evdən, qadan alım, səndən başqa heç kəs bacarmaz bunu. Konfet alacam, yaylıq alacam sənə!

...Bu da Ninninin sənətiydi, ara düzəldərdi. Qızlardan da çox o döyülərdi. Anası yox idi, atası Əyri Hüsü salardı əsasının altına: – Dərin getsin, – deyərdi, – səni doğan arvad, o da baş tutan idi, tfu üzünə!

...Əbdül cavab gözləyirdi:

– Ninni, qadan alım!

Ninni gülümsədi:

– Bə o gecə qulaqların tutulmuşdumu, ədə, karmı olmuşdun?

– *Çağırdınmı, Ninni?*

– Bə məniydim də, o gecəki ördək. Nə qədər çağırdım ki, qalx, atan gəldi!

Camaat Ninniylə Əbdülü danışan gördü. Gəlinlər güldülər, arvadlar pıçıldaşdılar:

– Ninni qurur yenə!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kor Cabbar da atının başını çəkib tərs-tərs Əbdüllə Ninniyə baxdı. Ninni tələsik uzaqlaşdı...

* * *

Aydının toyu idi... Həyətin bir başında oturacaq düzəltmişdilər. Çalğıçılar dinməz-söyləməz əyləşmişdilər. Nağaraçının nağarası qucağındaydı, zurnaçıların zurnası dizlərinin üstündə, başlarını aşağı salmışdılar. Qopqoca kişilər idi, nə nağaraçının qol qaldırıb nağara vurmağına inanmaq olardı, nə zurnaçının zurnanı üfürməyinə...

Axşama yaxın idi, düzdən-düzənlərdən əl-ayaq yığılırdı. Kəndin yaşlı kişiləri həyətin bir səmtində əyləşmişdilər. Hamı susmuşdu, heç bir-biriylə də danışan yox idi...

Uşaqlar çəkinə-çəkinə çalğıçıların başına dolanırdılar. Qorxa-qorxa əllərini nağaraya vururdular, zurnaya vururdular. Çalğıçılar elə bil yatmışdılar.

Qonum-qonşu ikibir, üçbir gəlirdilər, gələn-gələn də keçib bir küncdə əyləşirdi, başını salırdı aşağı.

Uşaqlardan biri nağaraya bir şapalaq vurdu, nağara gumbuldadı, nağaraçı səksənib günahkar-günahkar dörd yanına boylandı, oturanların hamısı diksinən kimi olub dönüb baxdılar, təkcə zurnaçıyla züy tutan tərpənmədi.

Uşaqlar çəpərin dibinə sığınıb gülürdülər, gülmək lazım olmadığına görə uğunub getdilər. Yaşlıların da dodaqları qaçdı, bayaqdan dinib-danışmayanlar elə bil söz tapdılar.

Uşaqlardan biri gəlib dayandı çalğıçıların qabağında:

– Əmi, nolar, çal!

Çalğıçıların heç biri dinmədi, heç başlarını da qaldırmadılar, uşaq yenə dedi:

– Əmi, çal, nolar!

Çalğıçılar elə bil yenə eşitmədilər, uşaq yoldaşlarının yanına qayıtdı:

– Eşitmillər!

Nağaraya şapalaq vuran uşağın əlləri yenə dinc durmadı, uzandı, nağaraya bir şapalaq çəkdi.

Qocalar başlarını döndərdi:

– Eeeh, kimin uşağıdı, əə, bu utanmaz? – dedilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cavanlardan biri qalxıb uşağın qulağından yapışdı, uşağın qulağı uzanıb şapalağı boyda oldu, qabaqca onu, dalınca da yoldaşlarını qovub çıxartdı.

Elə bu yerdə davadan qayıdan oğlanlar danışa-danışa, gülə-gülə içəri girdilər, qulağı dartılan uşaq çəpərin dibində içini çəkirdi, qulağı qıpqırmızı olmuşdu, heç özününkünə oxşamırdı.

Davadan qayıdanlardan biri əyilib uşağın başını sığalladı:

– Kişi də ağlayarmı, əə? – dedi. – Oy, oy, oy! – uşağın əlindən tutub içəri apardı. O biri uşaqlar da dalınca yüyürüşdülər.

Davadan gələn oğlanlar içəri keçib sakitliyi gördülər, bir-birinin üzünə baxdılar, biri rusca yanındakına dedi:

– Poçemu ne iqrayut?

Yanındakı çiyinlərini çəkdi. Sonra bərkdən:

– Saz elə, usta, çal! – dedi.

Çalğıçılar davadan qayıdanlara baxıb gülümsədilər, amma yenə dinmədilər.

Qocalar yer-yerdən ayağa durdular, balacadan tutmuş böyüyə kimi davadan qayıdanlara yer göstərdilər. Aydının anası gəlib görüşdü:

– Başınıza dönüm, – dedi, – neçə ildi kənddə toy olmur. Gedənlərin çoxu gəlməyib hələ, ürəyi dolusu sevinə bilmir adam. Aydına deyirəm, sakitcə uşağımızın əlindən tutaq, gətirək evimizə, çalğısız-zadsız. Amma sədr elə demir.

Davadan qayıdanlar:

– Yox, – dedilər, – ana, toy eliyəcəyik, özü də oynayacağıq, əməlli-başlı!..

Əbdülün maşını, içi dolu qız-gəlin Aydıngilin evinin yanında dayandı. Sədr toy evinə gəldi. Sədr içəri girən kimi çalğıçılara dedi:

– Niyə çalmırsız, əyə?

Nağaraçı başıyla Aydının anasını göstərdi. Sədr çalğıçıların yanında dayanıb camaata üz tutdu, kəndin böyükdən-kiçiyə hamısı burdaydı:

– Yoldaşlar, – dedi, – bu gün Aydının toyudu, davadan sonra birinci toydu kəndimizdə. Altı-yeddi il olar qulağımız toy səsi eşitmir, bu günlərdə bu səsi eşidəcəyik. Elə evlərimiz var, hələ muştuluqlamamışıq, gəlinlərimizin gözü yoldadı. Elə də olmalıdı, çünki hələ gəlməyiblər. Mən özüm dörd qardaş yolu gözləyirəm. Onu da gözləyirəm ki, bəlkə də gəlmədilər. Bu, müharibədi, Vətən yolunda tökülən qanların içində mənim də qardaşımın qanı olmalıdı. Sevinək, oynayaq, qoy gələnlərimiz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bizi oynar görsünlər, ağlar yox. Vətən, yoldaşlar, bizim bu kənddən ibarət döyül, ucu-bucağı yoxdu Vətənimizin. Qoşa qarısınlar deyək, indi bir Yallı oynayaq!

Sədr belə dedi, balaca əynindən, balaca geyməsini çıxartdı. Aydının anası üzüntü içində sədrin yerində dayandı, kövrək səslə dedi:

– Bağışlayın, elim-günüm, oğlanlarımızı mən də sizlə bir yerdə gözləyirəm, bizim şadlığımız sizin şadlığınız olsun! – Aydının anası yenə danışmaq istəyirdi, amma sədr ona aman vermədi, balaca qollarını çırmalayıb ortalığa çıxdı, çalğıçılara sarı qışqırdı:

– "Bəri-bəri" yallısı!..

Qarazurnanın səsi kəndi başına götürdü. Nağara sümükləri səksəndirirdi. Evlərdə bir adam belə qalmadı. Nişanlılarını gözləyən qızlar, oğullarını gözləyən analar:

– Şükür birliyinə, ay Tanrı, – dedilər, – çox şükür!

Yallı Aydıngilin həyətinə sığışmadı, balaca sədr böyük bir yallının başında əlini yelləyə-yelləyə oynayırdı, qapının ağzına yapışmış qızlara:

– Açın qapını! – dedi.

Yallı qapıdan çıxdı, gələn-gələn yallının qatarına düzüldü. Aydının anası sədrin havada oynayan əlinə yaylıq verdi. Sədr yaylığı yellədə-yellədə qışqırdı:

– Aydını çağırın!

Aydın qoltuqağacında gəldi, birdən ağaclarını tullayıb qatara qoşuldu, davadan qayıdandan birinci dəfəydi Aydına qoltuqağacları lazım olmadı, yallının qatarıyla qol-qola tutub oynadı, birinci kərəydi ki, kəsik dizindən aşağı boşluğu unutdu, tək ayağıyla ürəyini boşaltmağa çalışdı...

Oğlanlardan biri kəndin ortasıyla sıralanan işıq dirəklərinə dırmaşıb lampa düzürdü, yallı bu işıqların altıyla kəndin ortasına sarı uzanmaqdaydı. İşıq yananda sədr dirəyin altında Nəsib kişini gördü, görən kimi sümükləri üşündü, kişinin üzündəki soyuq təbəssümü, gözlərindəki boşluğu tanıdı, yadına Telli arvadın gözləri, gülüşü düşdü, qolunu daha havada yellədə bilmədi, yanına saldı, sonra da həmin yaylıqla alnının tərini sildi. Birdən başını qaldırıb Nəsib kişiyə sarı qışqırdı:

– Nəsib kişi, qoşul qatara!

Nəsib kişi elə bil heç nə eşitmirdi, böyüyüb boşalmış gözlərini bir nöqtəyə dikib gülümsəyirdi.

Bu dəfə sədr elə bağırdı ki, çalğıçılar da dönüb Nəsib kişiyə baxdılar:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nəsib kişi, keç qatara, deyirəm!

Nəsib kişinin qənşərində yallının qatarı ayrıldı, iki əl hərəsi bir yandan Nəsib kişini dartıb yallıya qoşdu. Sədr hələ də öz-özüylə danışırdı: "Danlayandan sonra ağlamadı yazıq, ağlayıb yenə ürəyini boşaldırdı, dəli olar birdən kişi...".

Aydın sədrə sarı əyilib sakitcə dedi:

– Başını qatmaq lazımdı, bu da itirib özünü, tək qaldı, qurtardı...

...İşıqçı oğlan lampaları yandırmağındaydı, sədr bir dirəyin altında da Kor Cabbarı gördü. Kor Cabbar qızların dəstəsindən Dilbəri ayırıb evə göndərdi, sədr Kor Cabbarı da səslədi:

– Cabbar, qoşul qatara!

Kor Cabbar könülsüz-könülsüz keçib qol-qola tutdu, bir az keçəndən sonra hamıdan yaxşı oynayan Kor Cabbar oldu.

Dirəkdən asılan işığın qurtardığı yerdə, alaqaranlıqda Əbdüllə Ninni üz-üzə dayanmışdı. Əbdül deyirdi:

– Aparacağam bu gecə, evdən çıxartmaq sənin boynuna. Amma de görüm, necə çıxaracaqsan?

Ninni fikirli-fikirli:

– Nə bilim, vallah, – dedi, – ördək olsam, biləcəklər ki, mənəm, at olsam, yenə biləcəklər. Quzu olsam, qoyun olsam, deyəcəklər kimin qoyunu, quzusudu, daha da düşəcəklər üstümüzə. İt olsam, kəndin itləri qarışar bir-birinə, qızmı çıxartmaq olar Kor Cabbardan! Yaxşı, nolum, sən de?!

Susdular. Heç biri dinmədi, elə bu vaxt kəndin ətəyindən şanapipiyin səsi gəldi:

– Hipop, hipop!

Əbdüllə Ninni bir-birinə baxdılar, Ninni sevinc içində pıçıldadı:

– Hop-hop olacam!

Yallıya tamaşa eləyən qızlar, gəlinlər hop-hop quşunun səsini eşitdilər, bir-birinə sığınıb gülümsədilər. Hamı elə bildi Ninnidi. Gəlinlər qızlara sarı döndülər:

– Ninni aparıb deyəsən yenə; kim gedibsə üstlərinə, şanapipik olub Ninni.

Ninni tələsik qaranlıqdan çıxdı, özünü qızların arasına saldı:

– Mən deyiləm, – dedi, – lələmin başı üçün, quşun özüdü!

Bu yerdə şanapipik bir də səsləndi:

– Hipop, hipop...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ninni tez gəlinlərə sarı döndü:

– Gördüz, mən deyiləm, quşun özüdü?!

Hop-hopun səsini eşidib hamı boylanırdı, Ninnini axtarırdı, görürdülər ki, Ninni dayanıb tamaşa eləyir, başlarını aşağı salırdılar. Ninni də bir neçə kərə qəsdən Kor Cabbarın gözü qabağından keçdi. Aydın da şanapipiyin səsini eşidib boylandı. Əbdülü gördü, gülümsədi, Əbdül qaş-gözüylə işarə elədi ki, – aparacağam! Aydın da həmin işarələrlə cavab verdi ki, – apar!

...Dünyanın şanapipiyi çağırırdı: – Hipop, hipop!

Ninni cavab vermək istəyirdi, hop-hop quşundan da yaxşı bir səslə demək istəyirdi:

– Burdayam!

Qızların arasından elə ustalıqla çıxdı ki, heç kəsin xəbəri olmadı.

Yallı qızışıb kəndi başına götürmüşdü, davadan qayıdan oğlanlar yaralarını unutmuşdular, qolsuzlar qollarını, ayaqsızlar ayaqlarını unutmuşdu.

Aydının anası ağlayırdı, gülürdü, hönkürürdü, qəhqəhə çəkirdi, üzü-gözü eləydi ki, deyirdin şüşəsini yağış döyən pəncərədi, Aydının anası da o yağışlı pəncərənin arxasından baxıb gülür, bu göz yaşları da göz yaşı deyil, yağış damcılarıdı.

Hop-hop quşu hələ də kəndin ətəyində qərib-qərib oxuyurdu: – Hipop, hipop! – Əbdül birinci maşını gətirəndə stansiyanın dağlarında oxuyan şanapipiyi xatırladı, sonra Cəfər müəllimi...

Kəndin ortasında da bir şanapipik oxudu:

– Hipop, hipop.

Uşaqlar quşların səsini dinləyib, çığırışdılar:

– Tapdılar bir-birini!

Əbdül yavaşca-yavaşca aralandı, ikinci quşun səsini tutub yüyürdü. Ninni hop-hop quşu olub, hop-hop quşundan da yaxşı oxuyurdu:

– Gətirmişəm, burdadı, burdadı!

...Bir azdan şanapipiklərin mahnısının altıyla kənddən bir maşın uzaqlaşmaqdaydı, qapısız, çəpərsiz dünyanın üstüylə Əbdüllə Dilbəri Kor Cabbardan qaçırırdı. Əbdülün də, Dilbərin də qulaqlarında hop-hop quşu hələ də oxuyurdu. Əbdül dönüb yavaşcadan dedi:

– Şirinliksə almadım yazığa, bizim heyfimizi ondan çıxacaqlar.

...Elə bu vaxt Ninni gicitkanlığın içində oturmuşdu, içini çəkə-çəkə ağlayırdı:

– Hipop, hipop!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dilbərin anası özünü yallının qatarında atılıb-düşən Kor Cabbarın üstünə saldı:

– Qız yoxdu, – dedi, – qız getdi!

Kor Cabbar qollarını yanına salıb bağırdı:

– Həə! – Sonra qamçısını çiynindən açdı, amma davadan gələn oğlanlar onu dilə tutdular, Kor Cabbar gördü ki, qurtara bilməyəcək, boğula-boğula, xırıldaya-xırıldaya dedi:

– Atamın oğlu deyiləm mən, eşşəyin oğluyam, adam oğlu olsaydım, qızım papağımı yerə soxmazdı!

Sonra dönüb kirimişcə-kirimişcə içini çəkən arvadına baxdı, qamçısını silkələyib, dişini qıcadı:

– Ax, ax, ax, – dedi, – boğazladın məni!

Sədr tərini silə-silə yaxınlaşdı, Kor Cabbarla üz-üzə durdu, sakitcə dedi:

– Əl-ayaq tərpədərsən, oyun açaram başına, kənd üzünə həsrət qoyaram, Sibir bəri yanında qalar, bildin?! Onnan artığına verməyəcəydin qızı, get, Allahına şükür elə!

Kəndin ətəyində oxuyan şanapipik Ninnini axtarırdı, evlərin arasını dolaşa-dolaşa səsləyirdi:

– Hipop, hipop!

Ninni daha şanapipik deyildi, Ninniydi, gicitkanlığın içində oturub Dilbərin getdiyinə ağlayıb ürəyini boşaldırdı. Arabir az qalırdı, başının üstündə dolaşan şanapipiyə desin:

– Burdayam!

Kor Cabbar çəpərlərin arasıyla söyə-söyə, söylənə-söylənə gedirdi:

– Yenə o it qızının işidi!

Evlərin arasında vurnuxan şanapipiyi Ninni bildi, quşun ardınca düşdü. Şanapipik oxuya-oxuya Kor Cabbarı kənddən çıxartdı...

Ninnigilin həyətindən Dilbərin anasının səsi gəlirdi:

– Yetiminə niyə yiyəlik eləmirsən, nə işi var camaatda, onu-bunu ərə verincə, bir özünə gün ağlasın. Yaxşı döyül, Hüsü qardaş, qonşuluqdu...

Bir azdan Hüsünün səsi kəndi başına götürdü:

– Ay Ninni, adın qalsın, ay Ninni, dərin getsin səni doğan arvad, yanına aparsın səni, hardasan, çıx!

Dünyanın gicitkanlığının içi Ninni üçün rahat idi, qapısız, çəpərsiz dünyada nə istəyir axı bu adamlar? Dünyanın Dilbəriylə, dünyanın Əbdülüydü, əl-ələ tutub qaçıb çıxıb getməliydilər ki, getmişdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Üzün qara olsun, ay Ninni, qonum-qonşu yanında üzümü qara eləmisən. Hardasan, çıx!

Ninni, Ninnidən başqa hər şey olmaq istəyirdi, bircə adam olmayaydı: "Allah, məni şanapipik elə, daşnan vursunlar, canım qurtarsın, quzu elə məni, Allah, kəsib yesinlər, at elə, bağrım çatdayana kimi qaçam əllərinnən..."

– Çıx belə!

Ninni qorxa-qorxa, çəkinə-çəkinə gicitkanlıqdan çıxdı, birdən gövdəsi Əyri Hüsünün ağacının ağrısıyla doldu. Kişi səsiylə bağıra-bağıra atasına sarı getdi:

– Nə var, nə istəyirsiz, mənim nə günahım var, dədə?! O itoğlu gəl dedi, o it qızı da getdi, arada mən qaldım, mənnən nə istəyirsiz?!

Əyri Hüsü ağacını aşağı saldı:

– Belə evə gəl, – dedi. – Axırda Telli arvad kimi sən də dəli olacaqsan!

* * *

Nəsib kişi arabasını uşaq bağçasının qabağında saxladı, irili-xırdalı arabaya doluşdular, lap balacaları Sayalı arvad qucağına alıb arabaya qoyurdu. Nəsib kişinin atları da dinc atlar idi, quyruğundan yalmanına kimi beli tutası uşaq düzülmüşdü.

...Dilbərin anası qızını ərə verdiyi üçün Ninniyə güllü yaylıq, güllü don almışdı. Ninni də güllü yaylıq başında, güllü don əynində bulaq başındaydı. Güllü yaylıqlı, güllü donlu qızlar dörd yanını kəsmişdilər. Bir-bir soruşurdular:

– Ninni, ağrın alım, məni kim istəyir?

– Məni kim istəyir, Ninni?

– Ninni, kim baxırdı mənə toyda?

– Ninni, Elbəyə de, gözüm ondadı!

– Ayxanın ürəyini ara, dərdin alım, Ninni, ölsəm torpağınam, qalsam onun!

Ninni sevinc içindəydi, ağlamağa, dərd çəkməyə vaxtı yox idi, ərgən-ərgən, yeniyetmə oğlanlar böyümüşdü kənddə, elə bil dava illərində böyüməyə utanırdılar, birdən-birə böyüyüb ağaclara çatmışdılar, dünyaya qoyulan qapılarda qalmırdılar, dünyaya çəkilən çəpərləri aşırdılar.

– Ninni, başına dönüm, Aynuru istiyirəm!



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

– Ninni, Tutuda gözüm var!

– Ninni, Gültəkə aç ürəyimi, qadan alım!..

Nəsib kişinin arabası uşaqlarla dolu çəpərin dibiylə dolana-dolana kənddən çıxaçıxdaydı. Sayalı arvad arabanın dalınca gedirdi. Sədr, yanında da beş-altı adam dayanmışdılar. Nəsib kişinin hər tərəfində bir uşaq oturmuşdu, biri yüyəni almışdı, biri qamçını, o birilər Nəsib kişinin arxasında ayaq üstəydilər, az qalırdılar kişinin çiyninə çıxsınlar.

Səs-küyləri kəndi başına götürmüşdü. Nəsib kişi rahatca-rahatca gülümsəyirdi. Sədr gördü ki, bu təbəssüm Nəsib kişinin özünün təbəssümüdü, Telli arvadın deyil, dönüb Aydına baxdı. Aydın da sakitcə dedi:

– Yaxşı iş tapdın Nəsib kişiyə!

Nəsib kişinin arabası hasarların, çəpərlərin dibiylə kənddən çıxdı. Hasarların, çəpərlərin qurtardığı yerdə dayandı. Uşaqlar töküldülər, düzlərin, düzənlərin quşları səs-küydən hürküb topalaşa-topalaşa göyün bir qatına qalxdılar. Sayalı quşların ardınca baxdı, Telli arvadı xatırladı, quşların ardınca Telli arvadın daşı təzədən atıldı...

Uşaqlar göyün göylüyündə oyun çıxardırdılar, dünyanın qapısız, çəpərsiz yeriydi, qapısı yox idi döyəydilər, çəpəri yox idi aşaydılar, dünyanın uşaqlarıydılar, ayaqları tutanacan qaçırdılar, təzədən qayıdırdılar Nəsib kişinin üstünə. Nəsib kişi rahatca-rahatca gülümsəyirdi. Dünyanın bu bir dəstə uşağı Nəsib kişini dəli olmağa qoymurdu...

Arabaya bağlanmış atlar yan-yöresini otlamışdı, düzlərin-düzənlərin göylüyünə sarı dartınırdı.

Dünyanın atlarıydı, dartınmalıydı...

*1975*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DUZSUZLUQ

Gizir istədi ki, gözü kəsənəcən dünyanın boyu uzunu baxsın, amma arada dağlar vardı: boy-boya, çiyin-çiyinə verib dayanmışdı, Gizirin gördüyü yenə boz üzlü daşlar, qayalar oldu. Gecə-gündüz əynindən çıxartmadığı sınqlısı əyninə dar gəldi. Darıxıb düymələrini açdı. Yavaşca-yavaşca çöküb arxası üstə uzandı. Birdən-birə elə bil kiminsə gözəgörünməz ağırlığı Giziri yamaca sıxdı. Bu, əslində ağırlıq deyildi, göylərin sonsuzluğu idi.

Dağların başında qar vardı, amma istidən yaylaqlar boyu ilğım axırdı. Göyün sonsuzluğunda bir quzğun havadan asılmış kimi qanad belə tərpətmədən süzməkdəydi. Sonra biri də gəldi, qanad çırpa-çırpa, bir-birinə sürtünə-sürtünə, toxuna-toxuna üfüqə sarı əyilib dağların arxasında görünməz oldular.

Dağların bu boyu, bu böyüklüyü ki, kəndi-kəsəyi, düzü-dünyanı unutdurmuşdu, adama elə gəlirdi dağlardan o yana daha dünya yoxdu, quzğunlar da dünyadan qırağa düşdülər.

Birdən-birəcə göy üzü boşaldı, Gizir bu böyük göy üzündə ikicə quzğunun qaraltısı üçün darıxdı, dikəlib boylandı, amma dağlar aranı kəsmişdi. Quzğunlar təzədən qalxıb yenə dünya üzünə çıxdılar. Göyün göylüyündə oyun oynamağa başladılar. Bu, bayaqkı oyundan deyildi. Dimdik-dimdiyə, boyun-boyuna verib qoxulaşa-qoxulaşa enir, Yer üzünə çatar-çatmaz elə bil sürülərin, ilxıların, ən çox da Gizirin "acığına" təzədən qalxıb sevinc içində qışqırışırdılar. Bu, sevgi qışqırığıydı ki, bunu da yaylaqdakı bütün canlılar duyub ayıldılar.

Qaya quşları səs-səsə verib yamac quşlarını axtarırdı. Naxırdan bir qızıl inək çıxıb burnu halqalı, təpəl buğanın belinə sıçradı: "Səni istəyirəm...". Bir andaca təpəl buğanın gözləri qan çəkdi, qızıl inəyi burunlayıb bələni aşırdı.

Təpəl buğanın özü görünmürdü, amma hayqırtısı dağlara, daşlara dəyib böyüyə-böyüyə dərələr, sıldırımlar boyu yayılmaqdaydı. Gizir də qəribə bir aydınlıqla yol gedən bu səsin ardınca boylanırdı.

Sonra yamacın o üzündən bir ağ madyan çıxıb gözəl bir qız nazıyla nazlana-nazlana yamacı endi. Hörüklənmiş, çidarlanmış kəhərləri görüb kişnədi. Hər şey aydın oldu... Hörükdəkilər hörükdə, çidardakılar çidarda şahə qalxdılar, ağ madyanın səsinə səs verdilər. Dağları, dərələri kişnərti bürüdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağ madyan ayaq saxlayıb naz-qəmzə içində tamaşaya durmuşdu. Kəhərlərin kişnərtisi canına hopduqca sığallanırdı, tumarlanırdı. Ağ ipək tükləri canlanıb kişnərtiyə sarı açılırdı. Çidarlı ayğırlar atdana-atdana, bir-birinə dolaşa-dolaşa madyana sarı götürüldülər. Amma bunu kəhər qaçışına yox, qarşısı kəsilmiş bir selin sızıntısına oxşatmaq olardı. Madyana çatar-çatmaz bir-birinin üstünə düşdülər. Ağ madyan qulaqlarını qırpa-qırpa gözləyirdi. Duruşunda qəribə bir intizar vardı...

...Gizir məktəbin tinində dayanmışdı. Sədrin qızı oynaq, tox yerişiylə gəlib yanından keçdi:

– Göyərçin!

Naxırçı Vəlinin qızı da Gizirgilnən oxuyurdu.

Əslinə baxsan, naxırçının qızı Göyərçindən də yaraşıqlıydı. Amma ona fikir verən yoxudu.

Sədr qızı olmaq ayrı şeydi axı!

Göyərçinin yerişi, gülüşü, oturuşu, duruşu deyirdi: "Mən sədrin qızıyam". Naxırçı Vəlinin qızının oturuşu, duruşusa deyirdi: "Mən naxırçı qızıyam", Göyərçinin geydiyi bütün gözəl-gözəl paltarları yığıb versəydilər naxırçının qızına, bəzəyib-düzəsəydilər də sədrin qızına oxşaya bilməzdi.

Dərs başlanandan qurtarana kimi müəllimlərin səsi də, baxışları da deyirdi: "Göyərçin, sədr qızısan! Göyərçin, sən sədr qızısan!" Müəllimlərin çoxu Göyərçindən utanan təki idilər. Elə bil hamısı Göyərçinin yanında bir günah işlətmişdi. Ona görə də Göyərçin əlçatmaz idi. Amma naxırçı qızı, əlini uzat, çatsın.

Birinci sinifdən tutmuş, onuncu sinfə kimi oğlanların hamısı Göyərçinə vurulmuşdu. Boş sinif otağına yığışıb canlarına iynəylə "Göyərçin" yazdırırdılar.

– Göyərçin!

Göyərçinin əmisi oğlanları, dayısı oğlanları, əmzadaları, dayzadaları Gizirin başına tökülmüşdülər. Düzdü, sinifdə bütün qızların əmisi oğlanları, dayısı oğlanları vardı, amma onlar da istəyirdilər ki, Göyərçinin əmisi oğlanları, dayısı oğlanları olsunlar.

O gün orda bir dava başladı ki, qonum-qonşu yığışıb onları güclə ayırdı. Göyərçin bir daşın başına çıxıb gülürdü. Arvadlar deyinə-deyinə uşaqların hərəsini bir yana çəkdi:

– Arpası artıq düşüb qara geymişin, indidən kürsək yığır. Yaşına bax, eninə bax!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Dağları, daşları səs-küy bürümüşdü. Köhlənlər bir-birini gəmirə-gəmirə adam səsi çıxarırdılar.

Gizirin qardaşı Umud dükançı Xıdırın yaxasından yapışmışdı. Ağsaqqallar araya girib yaşlı, yumşaq səsləriylə Umuda öyüd verirdilər:

– O boyda dükan əlindədi, a bala. Bal tutan barmaq yalar.

– İşim yoxdu, nə yeyir, nə içir. İstəyir dünyanı yesin. Qonşuyuq, mən onun arvadının işlərini götürə bilmirəm. Öldürəcəm onu, qoy tutsunlar, bilərəm nəyin üstündə tutuldum.

– Ə, ac köpəkoğlu, sən mənim namusumu çəkənsən?

– Oğul, at kimindi, minənin. O belə yaşaya bilirsə, sənin atılıb-düşməyin artıqdı...

Gizirin kəhərlərə yazığı gəldi. Yəqin ki, qardaşını xatırladığı üçün idi. Bir qayanın başına çıxıb uzaqdan-uzağa göbələk kimi görünən alaçığa sarı baxdı, əlini qaldırdı. Toğrul alaçığın qabağındaydı.

Hörükdəki atlar dartına-dartına dörd dolanırdılar. Ayaqlarının izi iri bir dairə cızmışdı. Toğrul gəlib öz atının hörük ipinnən tutdu, gözlərini sığallayıb altdan yuxarı Gizirə baxdı. Qayanın başından Gizirin səsini eşitdi:

– Ə, sən canın, aç burax, savabı bəsdi ikimizə də.

Toğrulun kəhəri bir göz qırpımında özünü ağ madyanın üstünə saldı. Madyanın da gözlədiyi elə buydu. Bələn boyu götürülüb kəhəri də ardınca apardı. Çidardakı atlar daşa, çınqıla ilişə-ilişə madyanın çəhliminə düşdülər. Arxacda üç-dörd yabı vardı, biri başını qaldırıb mənasız-mənasız boylandı, kişnəmək istədi, səsi boğazında qaldı, yan-yörəsindəcə eşidildi.

Toğrulla Gizir yabının səsini eşidib güldülər. Gizir kədərlə Toğrula baxdı:

– Səsindəncə bilirsən ki, yox, eeyy!

Doğrudan da yabının səsindən sonra elə bil dünyanın bayaqkı nizamı pozuldu. Kəhərlərin Uğurun səsinə oxşayan səsi də, ağ madyanın, qızıl inəyin getdiyi səmt də elə bil mənasını itirdi.

Toğrul:

– O birilərini də axtalayacaqlar! – dedi, Gizir dikəlib dizi üstə durdu:

– Nə ləzzəti ee belə yaşamağın? Öldürsələr onnan yaxşıdı. Deynən əə, atdı də. Aldığını boşamayacaq, boşadığını almayacaq. Toy eləmirsən, nikah kəsdirmirsən. Atdı da! Bə nə istəyirsən axı?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Toğrul gözlərini dolandırıb ağ madyanı axtarırdı, amma heç yanda görünmürdü. Darıxıb arxası üstə uzandı, gözlərini yumub məzəli səslə soruşdu:

– Sən bilən, indi ağ madyan neynir?

Toğrulun sualı Gizirin ürəyindəndi, ləzzətlə gülümsədi, ayağa durdu:

– Neyniyəcək? Durub günün altındaca, gözlərini də yumub saçlarını darayır...

Sözünü tamamlaya bilmədi, ağ madyan bələndən çıxıb tamaşa eləyirdi. Elə sığallı, elə tumarlıydı, Gizirin dediyi kimi, elə bil daranıb-düzənmişdi.

Gizir:

– Sən öl, gəldilər! – dedi.

*Toğrul da qalxıb dizi üstə durdu:*

– Bəy xanımı gətirdi. Ha, şirin olmuyun sizi! Bunnara bax bir, əə! Xəbərin varmı, Xıdır arvadını boşadı.

– Pah!?

Gizir bu boşanma məsələsini dərindən fikirləşmək üçün arxası üstə uzanıb əllərini başının altına qoydu.

Quzğunlar hələ də göyün üzündə süzürdülər. Elə yumşaq, həm də elə uzaq idilər ki, elə bil Gizir yuxu görürdü, kəhərlə ağ madyan da, quzğunlar da onun yuxusundaydılar.

– Gərək sədrin qızını götürüb qaçaydım, nolardı olardı. Sən öl, bu gün elə yadıma düşüb ki, burnumun ucu göynəyir!

Toğrul gözlərini atlardan çəkib, yuxarıdan aşağı Gizirə baxdı:

– Göyərçinimi, əə?

Gizir başını tərpətdi, dinmədi.

– Sən öl, at olubsan. Kəhərdən pissən sən. Yenə kəhər madyanı qovur, bilir ki, hardasa çatacaq. Amma sən sədrin qızına çatammazsan, sən öl. Elə-belə məzələnirdi sənnən. Bilirsən o nəydi? Kəndin arvadlarına dərs deyərdi, o!

– Ə, bir qırıq uşağıydı, nə bilirdi ki?

– Ay avam! Ona ki o qədər göz baxırdı, tez böyüyəcəydi də!

– Sən də elə bir mənə ağıl verirsən. Fatmadan ötrü ağladığın yadından çıxıb deyəsən. Məktub yazmaqdan kənddə kağız qalmadı.

– Ə, kağız yazmağnan arvadını almaq olar? Gözün tutdu, əlini üstünnən çəkmə. Qız da qismət kimi bir şeydi, bir də baxdın yağlı əppəy



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olub, yoxdu. Sonra da gördün ki, buğaltının oğlunun əlindədi, üstünə də yağ çəkib yeyir.

Uğunub getdilər. Onların bu gülməyində demək istədikləri çox söz vardı ki, özlərinin xəbəri olmasa da, elə bu cür deyə bilirdilər...

Kəhər madyanın başına dolanıb kişnədi. Kəhərin səsi madyan üçün təzədən sevinc, rahatlıq, xoşbəxtlik oldu, ona görə də dayana bilmədi, yamac boyu götürüldü.

Gizir bələni aşhaaşda olan atların ardınca baxdı. Haçannan-haçana döndü, gözləri geniş-geniş açılmışdı, yaylağın rənginə düşüb al-yaşıla çalırdı:

– Beləcə, bu yamaclar boyu qovaydım, qovalayaydım, – dedi, – gəl sən köməklik elə, götürüm qaçım.

– Arvad olmaz onnan sənə.

– Olmasın!

– Sən öl, sən də hörüklənəsisən! – Yabıları göstərdi, – görürsən? – dedi.

Çidarlı atlar daş döyə-döyə kəhərlə madyanın ardınca gedirdi. Yabılar başlarını otdan qaldırıb döyükürdü. Dağları, daşları bürüyən kişnərti onlara çox uzaq, anlaşılmaz, dolaşıq bir duyğunu xatırladırdı.

Amma yabılar artıq otlamaq üçün, bir də minilmək üçün idi. Biri arada içini çəkdi,demək istədi ki, mən də bu ilxıdanam. Yabının səsinə təzədən gülüşdülər. Gizir Toğrulun qolundan tutdu:

– Gülmə, – dedi, – belə şeyə gülməzlər!

Toğrul bir-iki addım çəkilib Gizirə baxdı:

– Sən öl, qorxur! – dedi.

Gülüb əl-qolunu yelləyə-yelləyə üzüaşağı götürüldü. Gizir də ardınca.

Yamaclarda qəribə bir canlanma əmələ gəldi. Quşlar hürküşüb qayaların, daşların arasından qalxdı. Toğrulla Gizirin başı üstündə qanad çaldılar. Bunun elə beləcə oyun olduğunu quşlar da duymuşdu. Ona görə də qorxmaqdan daha çox sevinirdilər. Sevinclərini də qanadlarından bilmək olurdu. Çünki uçub getmirdilər, qanadlarınca titrədə-titrədə havada dayanırdılar.

Alaçığın qabağındakı itlər atdanıb-düşürdülər. Təkcə Xallı açıq idi. Toğrulla Giziri görüb uzaqdan-uzağa dişlərini ağartdı. Sonra gümrah-gümrah zingildəyib boynunu otluğa sürtdü. Bilmədi sevincini nəylə, nə cür bölsün. Boyu uzunu atlanıb-düşdü. Təzə küçükləmişdi, küçüyünü



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şəmil kişi yer qazıb dəlmə eləmişdi, orda saxlayırdı ki, böyüyüb gecə iti olsun.

Xallı qabaqca küçüyünün başına dolanıb zingildədi. Sonra qaçıb özünü Gizirin üstünə saldı, ayaqlarına dolaşa-dolaşa irişib-qırışdı. Gizir qamçısını yavaşcadan Xallının sırtına çəkdi:

– Rədd ol, – dedi, – xoşu!

Bir daşın başında oturdu, uzaqdan-uzağa Xallıya baxdı. Xallı əzilib-büzülüb dişlərini ağardırdı...

"Sağ ol Xıdır! Axır ki boşadı. Pişiyin könlü mərəkdəydi, it də qovdu mərəyə saldı. Daha elə rayondaca qalar. Görəsən, yenə həmin haqq-hesabdı?"

– Toğrul!

– Noldu yenə?

Gizirin səsi dəyişmişdi, elə bil nədənsə qorxdu, elə bil deyəcəydi ki, Toğrul, tufan gəlir, çovğun qalxacaq.

– Həmin haqq-hesabın üstündə?

– Nə?

– Xıdır nəyin üstündə boşuyub?

– Əə, nəyin üstündə olacaq, həmin haqq-hesabdı!

Yabılar yenə ağır-ağır başlarını otdan qaldırdılar. Yenə bir şey duymadılar. Yəqin ki, axtalandıqları üçünüydü, elə ağır tərpənir, elə ağır görünürdülər ki, deyirdin, indicə yamaca batacaqlar...

– Gizir!

– Ha.

– Bu yaxınlarda görmüsənmi Xıdırı?

– Yox!

– Sən öl qarnı yerə dəyir.

Sürü Şəmil kişinin ardınca sağına enirdi. Şəmil kişi qoyunun nə gələninə baxırdı, nə qalanına. Başını aşağı salmışdı. Elə bil dünya Şəmil kişinin vecinə deyildi. Elə bil dünyanın nə günəşi vecinəydi, nə quşu, nə çayı, nə yamacı.

Amma elə yeriyirdi, elə görünürdü, elə bilirdin dünyanın yiyəsi budu.

Günəşə, quşa, çaya, yamaca Şəmil kişidə bir ərk duyulurdu. Çiyninə aldığı çomağına bir quş qonmuşdu. Ağlayırdımı, gülürdümü, nəsə, özünü yeyib-tökürdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sürü arxaca çatan kimi başladı mələşməyə. Səs dağlara-daşlara dəyib o qədər çoxaldı ki, elə bil Şəmil kişi yıxıldı, sürü də Şəmil kişini ayaqlayıb, dırnaqlayıb keçdi.

"Duzsuzdu da, üzülmüş, duzdan ötrü eləyir. Bir aydan çoxdu xəbər eləmişəm ki, sürünün duzu yoxdu. Oxumuş-oxumuş adamlardı, başa sala bilmirəm, bu dilsiz-ağızsızı necə başa salım, nə deyim indi..."

Sağının vaxtı olduğundan itlər şöngüyüb ağızlarını yalayırdılar. Çünki sağın qurtarıb pendir tutulandan sonra itlərə pendir suyu verilməliydi. Xallının küçüyü yerin altından səs eləyirdi. Südünün vaxtıydı. Alaçığın üstündə irili-xırdalı yaylaq quşları da səs-səsə vermişdi. Çünki Şəmil kişi pendir tutacaqdı, sıxmanı qaldırıb çırpacaqdı, quşlar da çığırışa-çığırışa qırıntılarını, tör-töküntülərini dənləyəcəkdi.

Toğrulla Gizir yan-yana oturub, dinməz-söyləməz qollarını çırmalayırdılar ki, sağına başlasınlar. Gizirin barmaqları indidən göynəyirdi. "Yenə otur, barmaqlarınnan can ver, dözəmmirəm, bacarammıram. Daş daşıyım, qoyun sağmıyım. Sağ, qurtar, yenə çalış ki, bürüşüyünü açacaqsan".

Bir azdan üçü də sağına əyləşmişdi.

Dan yeri sökülməmiş yamaclara çıxan, günortaya kimi başını otdan qaldırmayan sürünün sonu elə burdaca qurtarırdı. Yəqin hər şey südün başındaydı.

Kəlin qoyun ki bu yamacdan o yamaca bir çəngə otun dadını duydu, bu boyda sürünü də ki, çəkib ardınca apardı, gedib bir çəngə qismətini tapıb yedi, hamısı süddən ötrüymüş. İndi Şəmil kişinin iri əlləri yelinindən yapışıb sıxırdı, oyşar vururdu. Kəlin qoyun ağrıdan iki qat olub bütün canını da süd eləyib vermək istəyirdi ki, Şəmil kişinin əlindən tez qurtarsın.

Səmiclər dolub köpüklənirdi. Naxırın, ilxının, itlərin, quşların, dağ çaylarının səsinə səməclərə dəyən südün körpə quzu səsinə bənzər sızıltılı, kövrək səsi də qarışırdı...

Üçü də dinməz-söyləməz sağırdı. Üçü də yaylağı beləcə qurulu qoyub ürəklərində obaya enmişdilər.

"Yaxşı, sən ol sədrin qızı Göyərçin, uç Tanrının yanına! Mən də olum mən, Allahın çobanı! Bakıdasanmı, Şəkidəsənmi, bilmirəm, səni tapmasam, haram olsun mənə. Göyüş müəllimə nə deyim, başladı ki, oxumaq heç vaxt gec döyül, həyat odu ey, dağların başında, havası sənin, suyu sənin, ye, iç! Amma tapacam səni, sədrin qızı! Yerə də girsən, göyə də çıxsan, demişəm, tapacam səni!"



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Toğrul ürəyində bir də dedi ki, "Xıdır arvadını boşadı".

Gizir başını qaldırdı, amma heç nə görmədi. Kəlin qoyunun yelini də əlində donub qaldı. Yumşaqca-yumşaqca qoyunun yelinini sığalladı...

Toğrul indi də ağ madyanla kəhəri xatırlayırdı. Dünya elə bil təkcə ağ madyanla kəhərin idi. Toğrulun gözlərinin önündə min oyundan çıxırdılar. Dünyanın böyük sevinciylə, gözəl-gözəl sevgisiylə yaşamaqdaydılar.

"Xıdırın arvadının bu işləri kənddən ötrü pisdi vallah, Gizir! Sən bilmirsən, kənddə gör nə qədər qız-gəlin var. Bəzənir-bərənir, bir də baxırsan, mindi avtobusa, "Xuduş, sağ ol" dedi, getdi rayona. Hamı da bilir ki, hara gedir. Qorxu yox, hürkü yox. Belə açıqca, belə asanca ki, adam mat qalır. Bu gün bu, sabah da o birilər. Ə, görüllər ki, yaxşı yedirdillər, yaxşı geyindirillər. Elə olacaq daa!"

Şəmil kişinin iri əlləri acıqlı-acıqlı oyşar vururdu. Elə bil süd kişinin ovcundan tökülürdü.

"Qarı düşdü yaman, əlim də çatmır. Sora nolar, nolmaz. Uşaq da qayıtmadı şəhərdən. Gəlməz, istiyir çıx Allahın yanına, ordan papaq elə ki, nənən çağırır, qayıtmaz! Bə bu yanımdakı uşaqları ana doğmuyubmu, allahsız oğlu, allahsız?!"

* * *

İri bir təhnəydi, itlər baş-başa verib, pendir suyu içirdi. Ağızları yalda, gözləri bir-birindəydi. Canlarına güclə sığışan qəzəblə, kinlə mırıldaşırdılar. Bir-birinin bəhsinə o qədər yemişdilər ki, qarınları bellərinə çıxmışdı.

Toğrul Gizirin əllərini ovuşdururdu ki, üyüşüyü açılsın. Ağrıdan Gizirin üzü qırış-qırış olmuşdu. Toğrul aradabir Gizirin əllərini buraxıb qıdıqlayırdı, amma Gizirin gülməyə halı yox idi.

Şəmil kişi pendir tuturdu. Yamac quşları çığırışa-çığırışa başının üstündə vurnuxurdu. İtlər hələ də mırıldaşa-mırıldaşa bir-birinin payını yeyirdi. Kinləri gözlərinə çıxmışdı, qanlı-qanlı bir-birilərinə baxırdılar.

Gizirin ağrısı azaldığından qırışları açılan kimi olmuşdu, dinməzsöyləməz dərələr, yamaclar aşağı baxırdı. Dərələr, yamaclar boyunca qəribə bir dinclik, yumşaqlıq uzanırdı. Hər şey ilğım içindəydi. Yamaclarda göy üzünün yumşaqlığı vardı ki, Gizir də, Toğrul da özlərinin xəbəri olmadan dincəlirdilər. Dincəldikcə də ağırlaşıb yerə çökürdülər. Elə bil qat kəsmiş yapıncının qatı açılırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İkisi də birdən əllərini başlarının altına qoyub yapıncının üstünə uzandı. Quzğunlar yenə göyün sonsuzluğundaydılar. Gizir sakitcə:

– Bayaqkılardı, – dedi.

Qalxıb dirsəkləndilər. İtlər doyub çəkilmişdi. Amma yenə kəsdirmişdilər təhnənin qırağını. Biri təzədən qayıdıb yeyən kimi o birilər də mırıldaşa-mırıldaşa başını təhnəyə salırdı. Toğrul Giziri dümsükləyib başıyla itləri göstərdi:

– Qırılmış elə yeyir ki, adam istəyir acınnan ölsün.

Gizir:

– Sən öl, – dedi, – dünyanı beləcə yal eliyib tökəsən təhnəyə.

Şəmil kişi əlini ətəyinə silə-silə onlara sarı gəldi. Yanlarındaca oturdu, Toğrula baxdı:

– Hə, deyirsən, sədri dəyişdilər, hıy?

On gün olardı Toğrul kəndə gedib qayıtmışdı. Hər gün beləcə dinməz-söyləməz sağın qurtarırdı, pendir tutulurdu, itlər yalınırdı. Şəmil kişi də beləcə soruşurdu.

– Hə, deyirsən, sədr...

– Sədr yox, baba, direktor.

– İkisi də bir şeydi. Deməli deyirsən, Ağ Qulunun oğlunu da bizə ferma müdiri qoydular, həə?

– Əşi, hamını dəyişdiriblər.

– İndi də bunnar yeyər bir-birinin bəhsinə. Gözdə ki, doyub çəkiləcəklər! – Gizir belə deyib göyə baxdı. Quzğunların özləri yox idi, səsləri gəlirdi, haradasa çığırışırdılar. Şəmil kişi də dirsəkləndi.

– Yaxşı, təzə sədr nə göndərəcəm, dedi? – Gözlərini yumub güldü.

Kişi də bu yaylaqlar, yamaclar üçün, yaylaqların quşu, sürüsü, ilxısı, iti üçün elə aydın, elə bəlli idi ki, gülüşü yenə yaylaqların sümüyünə düşdü, qoyunların çoxu baş döndərib baxdı, sonra gərnəşdilər. İtlər kişinin güldüyünü görüb təhnədən gözlərini çəkdilər, ağızlarını yalayıb yavaşca-yavaşca quyruq buladılar. Gözləri birdən qızardığı kimi, birdən də durulub dərinləşdi. Bayaqdan gözlərinin içi tikan bağlamışdı. Boşalıb yumşaldı. Daha çox Şəmil kişiyə bəslədikləri sevgiylə baxışdılar.

Şəmil kişi dikəlib yenə soruşdu:

– Başına dönüm, sədr nə göndərəcəm, dedi?

Şəmil kişi neçə gün idi söhbəti elə buracan gətirirdi: – "Sədr nə göndərəcəm, dedi?" – onlara da elə buracan lazım idi. Bu söhbəti də çox açıb, xırdalayıb köhnəltmək üçün burdaca dayanıb gülüşürdülər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şəmil kişi gözlərini yumub gülürdü. Gizir Toğrula baxıb göz vurdu. Sonra onları da gülmək tutdu, çox gülməli-gülməli şeyləri xatırlayıb uğunub-getdilər.

Dərələr, yamaclar boyu uzanan dinclik, sərinlik Şəmil kişinin üzündə də vardı. Gizir kişiyə baxıb gülürdü, ürəyində də Toğrula deyirdi: "Belə qocalmaq olarmı, əə?"

Kişinin gözləri elə canlı, elə doluydu ki, o boyda kəndin-kəsəyin adamları elə bil onun gözlərindən Toğrula baxırdı. Gizir də, Toğrul da səslərini udan kimi eləyib, gözlədilər. Kişi gülməyinin arasındaca – hıy? – dedi.

– Deyirdi, konsert göndərəcəm.

– Konsert nədi, əə, belə artistmi?

İkisi də birdən:

– Həə! – dedilər.

Şəmil kişinin nəyə güldüyünü Toğrul da, Gizir də yaxşı anlaya bilmirdilər. Eləcə sevinirdilər ki, kişi bu yaşında belə ürəkdən gülə bilir.

– Bə duz göndərməyəcək?

Bu, təzə söz oldu. Toğrul da, Gizir də təzədən güldülər. Çünki Şəmil kişinin nəyə güldüyünü də indi anladılar.

– Dedim, baba, dedim duz da yoxdu. Bilmədim yadında qaldı, qalmadı.

– Duzsuzun biri, de, – duzsuz!

...Yerin altından küçüyün səsi gəldi, zingildəyirdi. Üçü də susub qulaq asdı.

Küçüyün zingiltisi dağlara, daşlara dəydiyindən dəyişib uşaq ağlamağına oxşayırdı: "Buraxın məni!"

Şəmil kişi əyilib yerdən bir ləpik daş götürdü, deşikdən küçüyün gözləri görünürdü, kişi gülümsədi:

– Dan dəlir, əə, gözləri.

Küçük gözünü Şəmil kişinin qazdığı bu oymada açdı, qaranlıqdan başqa heç nə görmədi. Duyduğu, eşitdiyi bir Şəmil kişinin səsiydi, bir də anasının qoxusuydu ki, torpaqdan da, havadan da anasının qoxusu gəlirdi. Çünki gecələr anası oymanın ağzından bir yana getməzdi. Küçük də dünyanı bu iki şeylə tanıyırdı. Yağış da onlarıydı, gün də onlarıydı ki, oymanın balaca ağzından içəri süzülürdü.

İndi də Şəmil kişinin səsini eşidib adamını, dağını, daşını, çiçəyini, otunu tanıyıb görmədiyi işıqlı dünyaya çıxmaq istəyirdi. Şəmil kişinin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

səsini eşitdiyi üçün anasının da qoxusunu duymuşdu. Elə bilirdi indicə Xallı da gələcək, yatacaq oymanın ağzında, ordanca məməsini tapıb əməcək.

Xallı doğrudan da küçüyün zingiltisini eşidib vurnuxa-vurnuxa dörd dolanırdı. Amma sirindən-sifətindən axmaqlıq tökülürdü. Bilmirdin yaltaqlanırmı, qorxurmu. Daralıb kin bağlamış gözlərindən daha çox oğurluq yağırdı. Yığılıb dərisinə çəkildiyindən balacalaşıb bir qırıq olmuşdu. Gizir:

– Ə, bu qurumsağa oxşuyur, – dedi – bu nədi, bunun nə küçüyü ola!

Şəmil kişi arxacın ətəyinə bağlanmış qaraağızlı, iri, çal iti göstərdi:

– Qanıqdandı, ona görə tutmuşam.

Qanıq başını iri pəncələrinin üstünə qoyub böyük arxayınlıqla tamaşa eləyirdi. O qədər fikirli görünürdü ki, deyirdin, indicə dil açıb danışacaq. Dünya elə bil Qanığın da vecinə deyildi. Elə bil dünya deyilən şey bir parça torpağıdı, bir dəstə otudu, çiçəyidi, Qanıq da rahatlıqla uzanmışdı üstünə, dünyadan qırağa baxırdı. Şəmil kişiyə uzaqdan-uzağa qəribə bir oxşarlığı var idi ki, bunu Gizir deyə bilmirdi. “Allaha ağır getməsin, nə təhər oxşarlıqları var”.

– Nə bilirsən Qanıqdandı, baba?

– Yadında yoxdumu, üç gün ikisini də bir bağa bağladım?

Toğrul oymanın ağzını genəldirdi. İşıq böyüdükcə küçük oymanın dibinə sıxılıb zingildəyirdi, özü də ağappaq işıq içindəydi. Elə bil küçüyü işıqla döyürdülər. Qorxulu-qorxulu özünü ora-bura vururdu.

Şəmil kişi Toğrula:

– Get, geyin! – dedi.

Toğrul da, Gizir də bir şey anlamadılar, donuq-donuq Şəmil kişiyə baxdılar.

– Get, cır-cındırdan geyin, qorxudaq, qorxusunu bilsin. Görsün nə var, nə yox dünyada. Dünya dediyin özü boyda qorxudu.

Gizir bir az aralı daşın üstündə oturub tamaşa eləyirdi. Şəmil kişi sesləyə-sesləyə əlini oymaya salıb küçüyü tutmaq istəyirdi.

Küçük Şəmil kişinin səsinə sığınmışdı. Oymaya uzanan bu əllər də elə bil bu səsidi, qorxa-qorxa, titrəyə-titrəyə bu səsi yalayırdı. Kişi küçüyün gözlərini örtüb qırağa çıxartdı, sonra yerə qoyub boyuna-buxununa baxdı.

– Ə, bu heç Qanığa oxşamadı, ay Gizir. Qancıq qurumsaq iti nə vaxt dəyişdi, biz bilmədik?

– Bu dürəkdi, baba, yüz rəngə çalır?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Küçük dünyanın dağlarına, daşlarına baxırdı. Dünya küçüyün gözlərində titrəyirdi. Dünyanın otu-əncəri, gülü-çiçəyi böyük-böyük qaraltı olmuşdu. Elə bil dünya od tutmuşdu. Hər yan ağappaq işıq içindəydi. Küçük təzədən yerə girmək istədi. Amma oymanın ağzı bağlı idi. Başını qaldırıb zingildəyə-zingildəyə dörd yanına boylandı.

Dünyadan anasının qoxusu gəldi. Ayılıb bir az aralıda vurnuxurdu. Şəmil kişinin səsindəki, üz-gözündəki acığı duymuşdu. Belə işlərdə ustaydı Xallı. Elə bil Qanığı dəyişəndə ala itlə bir yerdə tutulmuşdu. Ona görə də yaxın düşməyə qorxurdu. Gizir gendən-genə tüpürdü:

– Utanır, ə, bu xanım. Ha, boyunu yerə soxum!

Küçük dağı, daşı, otu, çiçəyi canlı bildiyindən uçunurdu. Onu hələlik dünyaya bağlayan içdiyi südlə, udduğu havayla tanıdığı Şəmil kişinin böyük kölgəsiydi, səsiydi, bir də anasının qoxusuydu ki, hardansa burnuna dəyirdi.

Toğrul alaçıqdan çıxıb əlini belinə qoydu. Cındırından cin hürkürdü. Gizir güldü:

– Sən öl, Toğrul, belə hamısınnan yaxşıdı, – dedi, – sənin yerinə olsam, heç soyunmaram, axırı ölüm döyülmü?!

Şəmil kişi küçüyün yanından aralanıb əlini yellədi:

– Yavaş-yavaş üstünə gəl, qorxut!

Küçük Toğrula baxa-baxa qalmışdı. Gördü ki, dünya cır-cındır içində üstünə gəlir, özü də gəldikcə böyüyür, bir-iki ağız dünyanın cındırına hürürdü. Bu, küçüyün ilk hürməsiydi. Toğrul özünü küçüyün üstünə salıb cındırını silkələdi. Küçük var səsiylə qışqırıb, özünü ora-bura vurdu. Daşlar, qayalar, sonra da sıra-sıra dağlar küçüyün səsiylə bağırışdı.

Şəmil kişinin səsi gəldi:

– Toplan, tut onu!

Küçük indi bildi ki, adı Toplandı, indi anladı ki, gözünü açan gündən südnən içdiyi, anasının qoxusuynan duyduğu bu səs nə deyir. Özünü qaçıb aralanmaqda olan "cındır dünyanın" üstünə saldı. Dünya "yıxıldı", küçük cır-cındırını didişdirdi. Şəmil kişinin səsi küçüyün kürəyinə bir də dəydi:

– Toplan, Toplan, tut!

Xallı bir az aralı quyruğu üstə oturub tumarlı-tumarlı tamaşa eləyirdi. Aradabir hürürdü, bunun elə-beləcə oyun olduğunu bildiyi üçün səsi acıqsız, kinsiz idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Toğrul cındırını soyunmuşdu. Küçük Şəmil kişinin dizinin dibindəydi, qorxulu-qorxulu boylanırdı. Dünyanın daşı, qayası, gülü, çiçəyi yenə cır-cındır içində üstünə gələ bilərdi. Gözü dörd olmuşdu, dünyaya hürürdü.

Şəmil kişi əlini küçüyün kürəyinə çəkdi:

– Ağzını da yandırsaydıq, qurtarardı birkərəmlik.

Kişinin dediyi Gizirə də, Toğrula da aydın olmadı:

– Nəyi?

– Ağzını. Süd içdiyi qabı qızdır, qoy alaçığa. Özünü salıb içəndə ağzını yandıracaq. Onnan sonra acınnan ölsə də oğurluq eləməz evdən.

Gizir əlini-əlinə vurdu:

– Ax, nə gözəl! Bu, həə! Yanası ağız çoox, yandır, daa!

Şəmil kişinin yadına nə düşdüsə yenə güldü, amma bu dəfə içindən güldüyü üçün səsi çıxmadı, çiyinləri tərpəndi:

– Deyirsən təzə sədr başladı işə, hıy?

Toğrul gülüb başını silkələdi, sonra gülə-gülə göylüyü yumruqladı. Bu da o demək idi ki, "ə, bu kişi mənnən nə istəyir?".

Amma Şəmil kişi əl çəkmirdi:

– Sən başın, nə göndərəcəm dedi sədr?

Gizir elə bərkdən güldü ki, budəfəki gülmək söhbətin axırı olmalıydı. Yəni bu sözü bir də belə deyib belə gülmək mümkün deyildi.

Küçük Gizirin səsindən qorxub hürdü. Sonra da bir şey anlamadığından qulağının birini qaldırıb birini saldı, birdən-birəcə axmaq bir görkəm aldı. Gizir küçüyün hürdüyünü görüb birdən güldüyü kimi, birdən də kiridi:

– Bu yappıya bax, əə, bir!

Şəmil kişi Giziri çəkib yanında oturtdu. Toğrul gördü ki, indi də kişinin gözləri soruşur, "sən başın, sədr nə göndərəcək?" Dönüb Gizirə baxdı:

– Ə, mən öldüm – dedi.

Birdən qalxıb "konsert" deyə-deyə üzüaşağı yüyürdü, küçük də hürə-hürə ardınca düşdü.

– Konsert, konsert, artist!

* * *

...Bəkil daşın başına çıxmışdı. Özündən, quzularından başqa bir şey gözə dəymirdi. Səssizlik get-gedə elə ağırlaşırdı, elə bil Bəkili suya batırırdılar. Alaçıq görünmürdü, at görünmürdü, it görünmürdü ki, Bəkil də baxıb özünə gələydi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu səssizliyin içində bircə quzuların xırıltısı eşidilirdi. Xırpaxırpla otlayırdılar. Bu xırpıltı da sürüdən qırağa çıxmırdı. Bəkilə də güclə gəlib çatırdı. Elə bil balaca ilməli, uzun bir zəncir bir əldən uzanmaqda, bir əldən batmaqdaydı.

Bəkil əvvəl Bənövşəni, sonra fizika müəlliminin Bənövşəyə baxan gözlərini xatırladı. O vaxt sinifdəcə bağırmaq istəyirdi: "İt oğlu, it!".

– İt oğlu, it!

Səssizlik o qədər qatıydı ki, Bəkil öz səsini dağlara, daşlara, daha doğrusu, dünyaya dəyib qayıdandan sonra eşitdi. Amma onun dediyi sözlər elə bil şəklini də, mənasını da dəyişmişdi. Yəqin ki, dağlara, daşlara dəydiyindən idi.

Bənövşənin xəyalından, fizika müəlliminin Bənövşəyə baxan gözlərindən canını qurtarmaq üçün mahnı oxumağa başladı. Kimsəsizlikdən, qulaqbatıran səssizlikdən öz səsi də özününkünə oxşamadı. Elə bil içində kimsə vardı, oxuyan da odu. Susub arxası üstə göylüyə sərələndi. Günü görən kimi vaxt yadına düşdü, saatına baxdı ki, vaxtdı. Qulaqları cingildədi. Şəmil kişinin, Toğrulun, Gizirin səsini eşitdi.

Quzular bir-bir qanrılıb Bəkilə baxdı. Yadlarına süd düşdü. Mələşib Bəkilə sarı qaçdılar. Quzuların mələşməsiylə birdən-birəcə hər şey canlandı. Elə bil Bəkili sudan çıxartdılar, qulaqları açıldı. Göydən quşların, yerdən çayların səsi gəldi. Üzüaşağı götürüldü, quzular da ardınca...

Ürəyi boşalıb yüngülləşmişdi. Qaçdığı üçün bayaq yatıb ağırlaşdığı hava vıyıltıyla qulaqlarının yanından keçirdi. Bir azdan arxacın qoxusu gəldi. Buna Bəkil arxacın qoxusu deyirdi, amma quzular üçün analarının qoxusuydu.

Toğrul idi, Gizir idi, Bəkil idi, – yan-yana yapıncının üstə oturmuşdular.

Bəkil çörək yeyirdi, udquna-udquna:

– Ə, qulağım batdı, – dedi, – sən öl! Səhərdən danışdığım budu, tək bircə kərə ağzımı açıb bərkdən söymüşəm.

Gizirin üzü güldü:

– Kimi söydün, ə, özünümü?

– Yox, fizika müəllimini!

Gizir Toğrula baxdı:

– Dəli oldu, ə, bu!

Bəkil yenə udqundu.

– Yadında yoxdu, Bənövşəyə necə baxırdı?



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

– Ə, cəhənnəmə baxırdı.

– O baxanda Bənövşə necə tumarlanırdı?

– Demək sən yaxşı baxa bilmirsənmiş!

– Bə, döyəcəydin fizika müəllimini, ta da hər dərs göndərirdi ki, Gizir qaç, get, siqaret al.

– Sənin özünü də göndərirdi ki?

– Mən heç, sən onun yanında duranda həmişə gözləyirdim ki, indi vuracaqsan. O yekə əllərin qurudu, vurmadın. – Toğrul əyilib altdan-yuxarı Bəkilə baxdı:

– Yaxşı, ağlama.

Doğrudan da Bəkilin içini qəhər bürüdü:

– Sən öl, – dedi, – məni heç nə yandırmır, o it oğlunun Bənövşəyə elə baxmağı yandırır.

– Ə, key, sən bu dağların başındasan deyən Bənövşəni istəyirsən. Olaydın kənddə, illah da şəhərdə, indi buğaltrın oğlu kimi ala-bula geyinib lotuluq eləyirdin. Burda təksən ey, tək, onnandı.

– Bə siz?

– Biz də sənin kimi.

Sonra onun qolundan silkələyib anasının yanında atdanıb-düşən qotazlı quzunu göstərdi:

– Odey, haşa bərəkətinnən, istəyirsən qutuda saxla, böyüyüb qoyun olmayacaqmı?

– Hə.

– Vəssalam.

Küçük *zingildəyə-zingildəyə* vurnuxurdu. Bəkil küçüyü gördü, qaşıq əlində qaldı:

– Ə, bu çıxıb ki?! Nəyə oxşuyur, ə, bu?

Gizir arxacın ətəyi boyu bağlanmış itləri göstərdi, səsini içinə salıb:

– Mən ölüm, – dedi, – bir bax, gör, bu hansınnan ola bilər?

Bəkil fəhmlə itlərə göz gəzdirdi.

– Sən öl, hamısına oxşuyur.

Gizir arxacın ətəyinə bağlanmış ala iti göstərdi:

– İndi ona bax, mən deyirəm onnandı. Gözlərinnən biclik tökülür əclafın. Bilirsən o nədi? Bircə danışa bilə, milyoner olar, sən öl, satar sürünü, gələnə-gedənə!

Şəmil kişi də gəlib yapıncının bir qulağında oturdu, Toğrula baxdı:

– Xıdır arvadını boşuyub deyirsən, haay? Niyə?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nə bilim, deyillər, rayona gedirmiş.

– Nolar gedəndə?

– Yox ey, tez-tez gedirmiş, belə bir cür...

– Həə! Daa, deynən duza gedirmiş!

Bir anlığa hamısı kirişdi. Qımıldanmadan, tərpənmədən donub qaldılar. Bəkil də, Gizir də, Toğrul da bir-birinə baxmağa qorxurdular. Üçü də Xıdırın arvadının rayona "duza getdiyini" fikirləşib ürəklərində gülümsəyirdilər.

– Bə, sədr nə vaxt duz göndərəcək? Duzumuz yoxdu axı!

Toğrul buna cavab verməyə hazır deyildi, çünki Şəmil kişi "konsert"i soruşmalıydı. Amma Şəmil kişinin yerinə Bəkil soruşdu:

– Deyirdin, sədr konsert göndərəcək, noldu, bə?

Şəmil kişi yenə gözlərini yumub, çiyni qalxa-qalxa güldü. Amma kişinin budəfəki gülməyi ürəkdən olmadığı üçün uşaqlar gülə bilmədi. Kişinin bugünkü gülüşü işlənmişə oxşayırdı. Dünənkiydi. Bunu elə bil arxacdakı qoyun-quzu da duydu. Ona görə də heç bir canlanma olmadı. Çünki Şəmil kişinin səsi, gülüşü, yerişi, duruşu yaylaqdan elə-belə ötüb keçmirdi. Quşunnan keçirdi, qoyununnan-quzusunnan, atınnan, itinnən keçirdi...

Hər axşam sürüləri gətirirdlər, yığılırdılar alaçığa. Dünyaya duman çökürdü, göz-gözü görmürdü. Sürünü itlərə tapşırıb ocağın başına yığışırdılar. Yaş paltarları buğlanırdı. Belə çənli-çiskinli axşamların birində Şəmil kişi Bəkilin nazilib, uzanmış üzünə baxıb qəribə-qəribə közərən kösövlərin sərinliyiylə dedi:

– Amma səni yaraşdıra bilmədim bu yaylağa, Bəkil. Ağsan e, ağ. Rəngin dəyişmədi ki, dəyişmədi.

Gizir buğlana-buğlana başını qaldırdı, Bəkilə baxıb gülümsədi:

– Şəhər malıdı da, baba!

– Ayağıyın yeli qalxıbmı, bə?

Bəkil ayaqları sızıldaya-sızıldaya dedi:

– Yox!

Amma Şəmil kişi bunu – "hə" kimi eşitdi. Əllərini göz-gözü görməyən dumanda obalara sarı uzadıb deyindi:

– A köpək oğlu, yaxşı, səni adam bilib fermaya qoyublar. Bə niyə çıxmırsan arvadının yanınnan? Yaxşı, lap deyək ki, sənnən yuxarıda heç kəs yoxdu, bə Allahın da yoxdumu? Bilirsən duzumuz tükənib!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaylaq başdan-başa Şəmil kişinin səsindəki acığı, hirsi duyduğundan səs-səsə vermişdi, kəhərlər fınxırıb ayaq döyürdü, itlər hürürdü, qoyunlar-quzular mələşirdi. Onu gözləyirdilər ki, desin: "Sizə nolub, yaxşı?!"

Bəkilin ayaqları sızıldaya-sızıldaya balaca ocağın istisini nəfəs kimi canına çəkib açılırdı. Ağrı azaldıqca ocağın istisi yuxuya dönürdü. Bəkil ağır, şirin, soyuq yaylaq mürgüsü vururdu.

Şəmil kişinin bu deyintilərinin bir üzü də oğlunun qarasıncaydı. "Kef axtarırsan demək. Tapmayacaqsan, hara qayıdacaqsan onda? Harda nə üz qoymusan? Dünya dediyin yumruqdu, burnuna elə qoysun ki!" Sonra başını aşağı salıb buğlana-buğlana fikrə getmiş yaraşıqlı, ağıllı Gizirə, Toğrula, Bəkilə baxdı, acığı soyudu.

Amma bu dəfə konserti soruşanda özü də bildi ki, söz daha çeynəndi, ona görə də birdən-birə elə bil yoruldu, yorğun-yorğun dedi:

– Gəlsin görək, nolan şeydi, artistmi göndərəcək?

– Artist olar, baba.

– Ayağın ağrıyırmı, yenə?

– Hava tutulanda ağrıyır.

– Bilirsən neynə?

Bəkil əlləri dizlərinin üstündə gözləyirdi. Şəmil kişi quyruğu üstə şöngüyüb dünyanı qavramaqda olan küçüyü göstərdi:

– Onu ayağına öyrət.

Uşaqlar bir-birlərinə baxıb gülümsədilər.

– Bir Qara Qoca oğlu Qara Dəmir vardı, sizdən də uşaq olardım, yanında çobannıq eliyirdim. Yekə adamıdı, hər at götürə bilməzdi. Mərc gəlib bir bəyin beş çobanının, on itinin içinnən sürüsünü bölmüşdü, bilən olmamışdı. Qara Dəmir deyirdilər, amma sarıyağız, ağ kişiydi. Bir də baxırdın, sürünün ətəyində ayaq üstəcə yeriyə-yeriyə yatdı. Açdı gözünü, bir kələf də yuxu danışdı. Ağacının qabağında duran olmazdı. Bir tayfanı təkbaşına bələnnən aşırdığını özüm gördüm. Di gəl ki, ayağında yel vardı, tutanda o boyda kişi səhərəcən inildəyirdi. Deyirdi, biləm ki, dizimnən yeriyərəm, kəsərəm ayaqlarımı, yaradan haqqı. Qazaxöylü Ağ Ayna vardı, o vaxtların loğmanıydı, yanına apardıq. Dedi, Qara Dəmir, sənin dərmanın ya eşşək dərisidi, ya da it dərisi. İt dərisinə sığışmazsan, gərək eşşək dərisinə girəsən. Belə deyəndə Qara Dəmir bir sağına baxdı, bir soluna. Gördü camaat da qulaq asır. Nə təhər bağırdı: "Belə, dedi, eşşək dərisinə keçib-keçənlərin girsin! Dədən girsin it dərisinə! Sözünə bax, Ağ xoşunun!". Sonra qayıdıb gəldik, yenə yığışdıq başına.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Ə, dedi, bir bölük oğlum-uşağım var, söyüş yiyəsi olum? Desinlər eşşək dərisinə girən dədənin gorunu...". Bu Qara Dəmir neynədi? Bir küçüyü balaca vaxtından ayağına öyrətdi. Hər yatanda küçüyü gətirdi, qoydu ayağının üstünə. Küçük öyrəncəkli oldu. Yekə itiydi, yenə Qara Dəmirin ayaqlarının üstündə yatırdı. Qara Dəmir zarafata salıb deyirdi, elə öyrənmişəm quduz dəymişə, evdə də elə rahat yata bilmirəm.

Gizir yerindən durub, Bəkilə baş əydi, əl uzadıb təbrik elədi:

– Sən öl, – dedi, – səninki düzəldi!

Toğrul da gülüb Bəkilə baxdı:

– Bəlkə elə itin birin kəsək, salaq dərisinə?!

– Hə, hə, sən öl, ala itin dərisinə girsən, biclik də öyrənərsən, əla yaşayarsan, milyoner olarsan, sən öl!

Bəkil ağrılarını xatırladığından ayaqları təzədən sızıldadı. Amma bu ağrı elə bil həmişəki ağrı deyildi. Birinci kərəydi ki, Bəkil sevinc içində ağrıyırdı, ağrı daha onu qorxutmurdu, ümid yeri vardı, birinci kərəydi ki, Toğrulla Gizirin, üç onun yaşını yaşamış Şəmil kişinin, kəhərlərin, qoyunların, itlərin ayaqlarına həsədlə baxmadı.

Küçük duymuş kimi Bəkilə sarı döndü.

Bəkil:

– Ə, bunun adı nədi? – dedi.

– Toplandı.

*Bəkil dikəlib dizin-dizin küçüyə sarı getdi:*

– Toplan, gə görüm, gə görüm!

Küçük zingildəyib Şəmil kişinin ayaqlarına sığındı.

Bəkil altdan-yuxarı Şəmil kişiyə baxdı. Gözləri göyümsov idi. Şəmil *kişiyə elə gəldi ki, Bəkil üşüyür, çünki Bəkilin gözlərində yaylağın* qəribə bir sərinliyi vardı. Şəmil kişi:

– Quru yerdə oturma, – dedi – gəl yapıncının üstünə!

– Bu mənə yaxın gəlməz.

Gizir yumşaqca-yumşaqca Bəkilin başını sığalladı:

– Gələr, ürəyini sıxma, sən öl, qəşəng oğlansan.

Təzədən gülüşdülər. Şəmil kişi yenə sözlü-sözlü Bəkilə baxdı, haçandan-haçana dilləndi:

– Sən canın, professor necə dedi?

Şəmil kişinin bu sualı elə uzaq oldu ki, xeyli heç nə anlaya bilmədilər, dumanlı-dumanlı bir-birlərinə baxdılar. Kişi bir də soruşdu:

– Hə, bilet çəkdin, oturdun, sən başın, nə təhər deyirdin, neynədi professor?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəkil soyuq-soyuq gülümsəyirdi. Nə dağlar dağ idi, nə yaylaqlar yaylaq, gözünün qabağındaca örüşə yayılmış sürünü də görə bilmirdi. Kənddən-kəsəkdən qəbula gəlmiş uşaqları görürdü. Sonra professor yadına düşdü. Ağappaq kişiydi, gözlərində gözlük, oturub qorxa-qorxa, titrəyə-titrəyə bilet çəkib əyləşən uşaqlara tamaşa eləyirdi. Əlində qələm vardı, masanı tıqqıldadırdı. Yanında cavan bir müəllim əyləşmişdi, tez-tez əyilib professorun qulağına nəsə deyirdi. Bu pıçıltılar uşaqların çoxuyçun qiymət idi. "Hə, budu, professor, "beş" lazımdı. "Beş", hə, "beş!". Amma bu pıçıltılar Bəkil üçün elə böyük qorxu idi ki, qalxıb qaçmaq istəyirdi, düz yaylağacan.

Bəkilin ayaqları uzunu bumbuz tər süzüldü.

Gizir dizi üstə durub altdan-yuxarı Bəkilə baxırdı:

– Don vurdu, əə, – dedi, – bu üzülmüşü? – Sonra yavaşca-yavaşca Bəkilin dizlərinə vurdu, – keyidi bu! Ayə!

Birdən Bəkil Gizirin döşündən itələdi.

– Cəhənnəm ol, yavı! Gizir aşırılıb o biri üzünə düşdü, sonra bərkdən qəhqəhə çəkdi. Bu elə-belə gülmək deyildi. Elə bil kimnənsə acığını çıxırdı. Kənddə bu cür gülsəydi, direktorun oğlu, "buğaltrın" oğlu, kəndin bu cür adamlarının oğulları bu qəhqəhəni götürə bilməzdilər. – Əə, bu dana bizə sataşır, əə! – deyib dava-dalaş salardılar.

Şəmil kişi bayaqkı ağırlığıyla yenə dönüb Bəkilə baxdı.

– Hə, nə təhər oldu, professor nə dedi?

– Dedilər, hazırsanmı? Kirimişcə getdim, qabaq-qarşı oturduq.

– Aha?!

– Professor gözünü üzümnən çəkmirdi, elə bil ikisini yemişdim, birini ona verməmişdim. Baxdı, baxdı, birdən dedi: "Nə qəşəng gözləri var bu uşağın! Neçə verək bunun gözlərinə?"

Şəmil kişi gözlərini yumub uğunub getmişdi. Silkələnə-silkələnə gülürdü:

– Ay məzən olsun sənin, hey!

* * *

Dan yeri sökülmüşdü. Havada sazaq vardı, amma dörd tərəf ki, uca-uca, sıra-sıra dağlar idi, sazağın səmti bilinmirdi. Bilmək olmurdu ağ yeldəndimi, qara yeldəndimi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Otlar-əncərlər, güllər-çiçəklər boyu uzunu dikəlib sazağa sarı açılmışdı. O yamacın o otunnan, bu yamacın bu otuna qəribə bir duyğu, qoxu gəlirdi ki, otlar-əncərlər, güllər-çiçəklər də bu qoxunu, bu duyğunu duymuşdu. O yamacın o gülünnən, bu yamacın bu gülünə yellər sevgi gətirirdi, buna da Şəmil kişi "puçur yeli" deyirdi.

Quzuların dırnağıyla, Bəkilin ayağıyla sevgi gəlirdi. Bu yamacın otları bu sevgini udub ayılırdı. Quşlar, böcəklər, arılar güllərə, otlara sevgi daşımaqdaydı.

Bəkil bənövşə gülünün üstündə arı gördü. Gül arının ayaqlarıyla gətirdiyi sevgini öpə-öpə mayalanırdı. Bəkil Bənövşəni xatırladı, sonra fizika müəlliminin səsini eşitdi: "Boyl-Mariott qanunu. Qaz kütləsinin sıxlığı nə qədər azalırsa...".

Bəkil çiçəyin üstünə əyilib, sirli-soraqlı bir səslə:

– Ey, kəndimizin arısı, – dedi, – Bənövşə ərə getdimi?!

Bəkilin öz səsi yenə özünə yad gəldi. Çünki dünyanın özünün səsi vardı ki, şəhərlərdən çox-çox, kənddən-kəsəkdən xeyli uzaqlarda öz səsi üstündə dayanmışdı. Yəni nə maşın səsi vardı burda, nə qeybətlər vardı, nə söyə-söyə, söylənə-söylənə qoruqlar qoruyan qoruqçular vardı. Dağlar, yaylaqlar necə yaranmışdısa, elə eləcəydi...

Dünyanın öz səsi deyəndə də qarışqaların səsiydi ki, dünyanın ən böyük nizamıyla çıxıb dünyanın ən böyük istiqanlığıyla, doğmalığıyla bir-birini səsləyə-səsləyə çalışmaqdaydılar. Çiçəklərin səsiydi ki, arıların ayağıyla quzuların dırnağıyla, puçur yelləriylə mayalanıb, ağrıya-ağrıya puçur açırdılar, tumurcuq tökürdülər, daha doğrusu, torpaq uşağa qalırdı. Yalnız dərədəki çayların, göydəki quşların, qoyunların, quzuların, atların, itlərin səsi bu səslərdən ucaydı, bu səsləri də tamamlayırdı. Ona görə də Bəkilin öz səsi özünə yad gəlirdi.

– Ey kəndimizin arısı, Bənövşə ərə getdimi?!

Bəkilin səsi qarışqaların pərənini pozdu, öz yolları boyunca su kimi soğulub torpağa hopdular. Yerdəki quşlar yerdən qorxub göyə qalxdılar. Bəkilin səsindən yuxarıda cır-cır çığırışdılar. Bəkilin üz tutduğu arı bənövşə gülünün üstündən qalxıb, Bəkilin başına dolandı. Fizika müəlliminin, direktorun oğlunun, hesabdarın oğlunun kinindən də böyük bir kinlə Bəkili sancmaq istədi. Bəkil əl-qolunu ölçə-ölçə arının əlindən qaçıb daşların arasına girdi. Birdən-birə fikir verib gördü ki, dünyada hər şey yerli-yerindəymiş. Daş daşın yerindəymiş, qaya qayanın yerində. Bu göyün altında bu dağlar, bu güllər, çiçəklər, bu sürülər, bu atlar, itlər



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

elə beləcə olmalıymış. Burda bir Bəkil yad görünürdü. Elə ona görə də darıxırdı.

"Fizika müəllimi əl çəkdimi görəsən Bənövşədən? Sürünü gözlərimnəncə otarardım, öpərdim axşamacan. Yaxşı, bə Xıdırın arvadı kimin yanına gedir?"

Bəkil şəhər uşaqlarına oxşayırdı, ona görə də kəhər atlar şəhərdə yad görünən kimi, Bəkil də yaylaqda yad görünürdü.

Şeh tökülmüşdü, dərələrdən ilğım qalxmışdı. Yenə hər şey ağırlaşmaqdaydı. Səhər tezdən otdan-ota tələsən sürü yamaca sancılıb tərpənməz olmuşdu. Balaca buynuzlu, arıq üzlü keçi dönüb, ağzı otlu-otlu Bəkilə baxdı, adama oxşadı. Keçi, doğrudan da, elə diri, elə çoxbilmiş göründü ki, Bəkilin sümüyü səksəndi. Birinci kərəydi ki, öz təkliyindən qorxdu. Bu qulaq batıran səssizlikdə dağların, daşların, yaylaqların bu quruluşunda bir əl yeri gördü. Elə bildi, dünyanın bu quruluşunda da kiminsə əli var. "Boyl-Mariott qanununu desin Bənövşə xanım! Xanım deməyinə bax! Sənin nə dediyini də yaxşı bilirdim, müəllim, bilirdim ağ professorun qulağına nə deyirdin. Neçə verək bunun gözdərinə?! Başına dəysin sənin institutun?"

Sürü çayın qırağına enmişdi. Bəkilin yadına su düşdü, yuyunmaq istədi, qışqıra-qışqıra üzüaşağı yüyürdü. Balaca dağ çayı üzüyolalıqla sallanıb axırdı. Elə duru, elə gözəl idi ki, deyirdin, dağlarda, yaylaqlarda, otlarda, çiçəklərdə gözəl nə varsa, süzülüb bu çayla axıb gedir. Bəkilə elə gəldi ki, Bənövşə çayın harasındasa soyunub ayaqlarını yuyur. Nə fikirləşdi, nə fikirləşmədi, ağacını saz eləyib oxumağa başladı:

Telli-telli, güllü-güllü axan çay...

Toğrul bayaq Bəkilin səsinə qaşa çıxıb tamaşa eləyirdi. Bəkili belə görüb dinməz-söyləməz Gizirə sarı papağını qaldırdı. Gizir də o yandan qaşa çıxıb baxdı, qaça-qaça Toğrulun yanına gəldi.

Telli-telli, güllü-güllü axan çay.
Bənövşə ərə getdimi?!

Dünya Bəkilin yadından çıxmışdı. Çalıb-çağırırdı. Kənddən-kəsəkdən yaylaq bənövşəsi üçün uçub gəlmiş arı Bəkilin yadına söz salmışdı.

Qoyun-quzu ağzıotlu Bəkilin oyununa mat-məəttəl qalmışdı.

Dağları, daşları oyan çay.
Bənövşənin ayağını yuyan çay.
Bənövşə ərə getdimi?!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəkilin təmiz, cingiltili səsi vardı, çayaşağı, dağyuxarı yayılıb iki yerə ayrılmışdı. Dağların döşündə bir cür səslənirdi, dərələrdə başqa cür.

Gizir güldü, güldü, sonra özünü saxlaya bilmədi, daşların arasından çıxıb ağacını sinəsinə basdı, səsini Bəkilin səsinə bənzədib Bəkilin havasında oxudu:

Başına döndüyüm key üzülmüş!
Bənövşənin yerini bilməginən,
Adını deyə-deyə ölməginən!
Bənövşə fizika müəlliminin gözündədi,
Direktorun oğlunun cibindədi.

Göyərçin Fatmaya qoşuldu, Fatma Bənövşəyə
Uçdular əlimizdən.
Bə sən mənim Göyərçinimi gördünmü?

Bəkil quruyub qalmışdı, üzündə qəribə bir gülüş, key-key Gizirə baxırdı. Toğrul da o yanda ağacını dınqıldada-dınqıldada söz fikirləşirdi. Gördü Gizir kiridi, daşların arasından çıxıb əyilə-əyilə, oynaya-oynaya Bəkilə sarı gəldi:

Mənnən salam olsun çöl aşığına,
Nə tökərsən aşına, o çıxar qaşığına!
Göyərçin Fatmaya qoşuldu, Fatma Bənövşəyə,
Biz qoyunlara, atlara, eşşəklərə.
Çıxdılar əlimizdən,
Aya, cəhənnəmə çıxsınlar.
Getsinlər.
Fizika müəlliminin gözünnən baxsınnar,
Direktorun oğlunun cibinnən baxsınnar.
Fatma mənimiydi, Göyərçin Gizirin, Bənövşə sənin!
Bə sən mənim Xan Fatmamı gördünmü?

Şəmil kişi pendir tuturdu, səsə başını qaldırdı. Yabının birini mindi, yamaca qalxdı. Baxıb gördü, uşaqların bircə tamaşaçıları əskikdi. "Utanmırsızmı, dünyanın bu qurtaracağında mən sizə umudduyam. Siz də oyun oynuyursuz. Süd istəyillər bizdən, ət istəyillər bizdən. Quzu qoyuna



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qarışıb əmişsə, nolar sonrası. Görürsüz, bizim umudumuza qalıb ağzıotlu. Bir aydı duz deyin mələyirik. Qoyun-quzu çölə tökür içini duzsuz".

Yabı gördü Şəmil kişinin qamçısı daha sağrısına dəymir, dayanıb donuq-donuq Toğrulgilin qaraltısına baxdı. Bəkil Şəmil kişini görüb:

– Gəldi! – dedi.

Üçü də boyun-boyuna altdan-yuxarı Şəmil kişiyə baxdılar. Şəmil kişi eləcə başını bulayıb:

– Ay, ay, ay! – dedi.

Papaqlarını, geymələrini götürüb hərəsi bir səmtə döndü, tələsik sürülərin yanına getdilər.

Bəkil sürünün yanına çatıb bir daşın başında oturdu. İstədi bayaq dediyi şeirlərdən bir də desin, heç nə düzüb-düzəldə bilmədi. Dinib-danışmağa səsi gəlmədi. Yaylağa həmişəki kimi yenə sulu, nəmli səssizlik çökmüşdü. Sürü özünü doydurduğundan yenə elə bil ikiqat ağırlaşmışdı. Qayaların, daşların da ağırlığı boyunnan böyük görünürdü. Səssizlik, həmişəki kimi yenə elə qatıydı ki, Bəkil artıq yannan keçən çayın səsini də eşidə bilmirdi. Bu səssizliyi sındırmaq artıq çətiniydi. Aradabir quzu mələyirdi, çayın səsi gəlirdi. Bunun özü də əslində elə səssizlik idi. Bu səssizliyin ağırlığından da Bəkil yavaş-yavaş çöküb yaşıllıqda oturdu, sonra da uzanıb göylərə baxdı. Amma göyü görmədi, kəndi, kənddəki tay-tuşlarını, ala-bəzək geyimdə direktorun, buğaltrın oğlunu gördü. Sonra da şəhəri, şəhərdəki ağ professoru, uşaqları bir-bir seçib irəli çağıran, tez-tez ağ professorun qulağına qiymətlər pıçıldayan cavan müəllimi, nə qədər əlçatmaz olan şəhər qızlarını da göydə gördü. Darıxdığından ağlamaq istəyirdi ki, burmabuynuz qoç gəlib başının üstündən düz gözlərinin içinə baxdı. İri buynuzlarını yavaşcadan başına toxundurdu. Bu, Bəkil üçün çox şey demək idi. "Ağlama, yekə kişisən. Anan səni ev üçün doğmayıb ha. Təkcə Bənövşədən ötrü doğmayıb ha! Doğanda deməyib ha, ya direktor olmalısan, ya da buğaltr. Deməyib ha, səni şəhər üçün doğuram. Öldürmə özünü bir qızdan ötrü. Nolub, mən qoçduğumnan bu boyda qoyunun birinə gözümün ucunnan da baxmıram, bu ağlın yiyəsi olduğun üçün elə instituta girə bilmədin. Tutaq ki, sən də getdin şəhərə, şəhərri oldun. Yaxşı, sən ağa, mən ağa, bə qoyunnarı kim sağa? Qalx, qalx, vurub indi başını partdadaram. Qalx, gör bir çimdik duz tapa bilərsənmi!..".

– Məəə! – sürünün içinə mələşmə düşdü, hamısı yüyürüşüb Bəkilin başına yığışdı. Yəqin elə bildilər ki, Bəkil burmabuynuz qoça duz verir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Toğrul Gizirin əllərini ovuşdururdu ki, üyüşüyü açılsın. Bəkil balaca mis qabı südnən doldurub ayaqlarının üstündə küçüyə süd verirdi. Küçük səksəkə içində, kinli-kinli, tələsə-tələsə içirdi.

Şəmil kişi:

– Noldu, əə, sizin konsertiniz? – dedi, – yoxsa bayaqkı oyununuzamı deyirsiz konsert?

Gizir Şəmil kişiyə sarı gəldi:

– Bəkilə vergi verilib, baba! Hansı qoyunu əmib bilmirəm, olub haqq aşığı.

Bəkil dönüb:

– Siz hansı qoyunu əmmişdiz bə? – dedi.

Şəmil kişi gülüb, Bəkilə baxdı:

– Əə, bir oxu görüm, nə oxuyurdun?

Gizir:

– *O burda oxumaz, – dedi, – onunku arıdı.*

– Nədi?

– Arı!

– Arı nədi, Bəkil?

Dağların ətəyi boyu sarınıb yumşaqca-yumşaqca sürünən dumandan bir quzğun çıxdı, düz başlarının üstündən addayıb, qayalıqlara sarı *qalxdı. Gizir sevincək qışqırdı:*

– Bəkil, kənddən gəlir, soruş!

Quzğunun ardınca baxdılar. Toğrul istəyirdi gülsün, amma qəribə bir görkəmdə quzğunun keçib getməyini gözləyirdi. Gizirin belə deməyi doğrudan da Bəkilin ağlına batdı. Gördü, arıdan, çaydan, keçidən Bənövşəni soruşmağı necə yaxşıymış. Fikrindən bir qatar söz keçdi:

"Kəndimizdən ötən quzğun,
Qayalarda yatan quzğun,
Quzğun, Bənövşəm ərə getdimi?"

Gizir Şəmil kişiyə baxdı:

– *Tanıdınmı, baba?*

Gizirin səsində qorxuydumu, sirdimi, nəydisə bir titrəyiş vardı. Şəmil kişi papağını çıxardıb dizinin üstünə qoydu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bu gördüyünüz dağda, daşda dördcəydi. On beş-iyirmi il qabaq alçaqdan uça-uça bir əyriplan gəldi, gözümüzün qabağındaca quzğunun ikisi özünü əyriplana çırpdı. Tarap, ayağımızın altına düşdülər. Qaldılar ikisi. Artmır, bilmirəm nə kələkdi?

Uşaqlar əvvəlcə bir-birlərinə, sonra çəndə-çiskində görünməz olmuş kəndə baxdılar.

Burnuhalqalı təpəl buğa qızıl inəyin yanında hələ də kişilənməyindəydi. Ağ madyan dincəlib, rahatlaşmışdı. Çidarlı-çidarsız kəhərlərin arasında başını otdan qaldırmırdı. Yabılar bir-birinin boynunu gəmirib qaşınırdılar. Yaylağın belə bir çağında dağların ətəyindən zurna səsi gəldi. Bu elə gözlənilməz oldu ki, heç kəs inana bilmədi. Dağların döşündə nə qarazurna?

Naxırlar, ilxılar, sürülər baş döndərib boylandı. Kəhərlərin sümüyünə düşmüşdü, yerlərində qaynayırdılar. Bir himə bənd idilər ki, götürülsünlər. Yabıların yenə dünya vecinə deyildi. Quşlar perikib göyün bir qatına qalxmışdı. Qarazurnanın səsi havalandıqca quşları lap yüksəklərə qovurdu.

Bəkilgil ayağa qalxıb qəribə bir intizarla gözləyirdilər. Burmabuynuz qoç sürüdən çıxıb Bəkilin yanını kəsdirmişdi. Xallı hürə-hürə aşağı-yuxarı qaçırdı. İtlərin səsi bir-birinə qarışmışdı. Təkcə Qanığın yoğun, xırıltılı səsi bir xıl itin səsindən seçilirdi. Küçük gah Şəmil kişinin, gah da Bəkilin yanına yüyürürdü.

Toğrul istədi desin ki, "Bəkil, odu ey, Bənövşəni aparıllar!"

Sonra maşın səsi gəldi, bir az keçdi, nağara da vuruldu. Elə bil dağların, daşların içi boşdu, nağaranın səsi dağların, daşların içindən gəldi. Toğrul:

– Sən öl, konsert! – deyib, yüyürdü. Gizir də dalınca. Şəmil kişi əslinə baxsan, duz gözləyirdi, konsert yox. Amma bu konsert deyilən şey də Şəmil kişi üçün təzəydi, ona görə də eləcə baxıb gülümsəyirdi.

Sürü maşın səsinə öyrəşmişdi, maşın səsi eşidən kimi Şəmil kişinin başına yığışıb mələşirdi ki, – duz gəlir yaylağa. Doğrudan da belə bir səs tez-tez yaylağa duz gətirirdi. Bu nağara, zurna səsi nəydi bə?

İnəklər bilmirdi, hürksünmü, hürkməsinmi, çaxnaşıb hərəsi bir səmtə baxırdı.

Dağların ətəyindən bir avtobus çıxdı. Zurnaçı qarazurnanı avtobusun gah bu pəncərəsinnən, gah o pəncərəsinnən çıxardıb var gücüylə üfürürdü. Bəlkə də ömrü boyu zurnasının səsini belə yapışıqlı, belə aydın, belə güclü görməmişdi. Yəqin ki, belə ürəklə çalmağı da ona görəydi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kəhərlər daha yerlərində dura bilmədilər. Qarazurnanın səsi elə bil qara-qara, qotazlı-qotazlı qamçıydı, kəhərləri qamçıladı. Yallar, yamaclar boyu götürülüb zurnanın səsi harda qurtarırdısa, oraya qədər qaçdılar. Beləcə əldən düşənəcən dağları dörd dolandılar.

Avtobus alaçıqdan bir az aralı dayandı. Qabaqca alçaqboylu, gözlərində iri gün gözlüyü, şlyapalı, qara kostyumlu, ağ köynəkli, ala-bəzək qalstuklu bir adam düşdü. Düşən kimi də şlyapasını çıxarıb gülümsədi. Şəmil kişi qabaqda, uşaqlar da arxasında boy-boya verib dayanmışdılar. Baxan kimi bildilər ki, gözlüklü adam kimdisə yalannan güldü. Şlyapasını başının üstündə yelləyib bir-iki addım qabağa gəldi, ucadan dedi:

– Şərəfli əmək nümayəndələrinə eşq olsun!

Şəmil kişi Bəkilə baxdı:

– Kimə eşq olsun deyir?

– Bizə, baba!

– Sağ ool!

Sonra nağaraçı, dalınca da zurnaçı avtobusdan düşdülər. Zurnaçı kök idi, nağaraçı arıq, uzunboğaz bir kişiydi. Zurnaçı yerə düşən kimi zurnanı üfləyə-üfləyə bir sağa döndü, bir sola. Doğrudan da zurnanın səsində qəribə bir çağırış var idi: "Ayə, gəl, heey!"

Bəkil dağların döşündəki uzaq-uzaq binələrə baxdı. Zurnaçı tərini silirdi, zurnanın səsi hələ də yamacları dolaşmaqdaydı. "Ayə, gəl, heey!".

Qapı bir də açıldı, təzə ferma müdiri – Ağ Qulunun oğlu avtobusdan düşdü, sonra qapıya sarı dönüb baş əydi:

– Xanımlar bizim yaylaqlara xoş gəlib!

Gizirgil bunu eşidən kimi bir-iki addım qabağa gəldilər. Şəmil kişiylə yanaşı dayandılar. İtlərin hamısı kirimişdi, təkcə Qanıq özünü yeyib-tökürdü. Yabılar elə bil indi-indi ayılırdılar. Yaylağa düşmüş bu yad adamları görüb hürkmək istəyirdilər. Ona görə də çox gülməli görünürdülər. Sərpilə-sərpilə qaçıb aralanmaqdaydılar ki, bu da at yerişi deyildi, eşşək yerişiydi. Qanıq dartına-dartına hürürdü. Gözlüklü adam qorxa-qorxa Şəmil kişiyə yaxınlaşdı. Şəmil kişi də, uşaqlar da irəli durdular, əl verib görüşdülər. Gözlüklü adam yenə bayaqkı kimi gülümsəyib dedi:

– Rayon mədəniyyət evinin müdiri!

Şəmil kişi dönüb itə acıqlandı:

– Hə, öləsən səni, qonaqdı!

Qanıq qollarının üstünə uzandı. Kiriyib başladı hirsli-hikkəli ləhləməyə.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Avtobusdan qız səsi gəldi:

– Qorxmayın, bax, yatdı.

Bu cür nazik, bu cür öləzimiş qız səsini Şəmil kişi ömründə eşitməmişdi. Bəlkə elə Gizir də, Toğrul da eşitməmişdilər. Bu səs elə beləcə öləziyə-öləziyə dağlara, daşlara necə hopurdusa, Şəmil kişinin, Toğrulun, Gizirin, Bəkilin canına da elə hopurdu.

Qızlar qorxa-qorxa düşdülər. İkisi ferma müdirinin qoluna girdi, biri dallarınca gəldi. Ağ Qulunun oğlu dikəlib təntənə içində Şəmil kişiyə sarı yeridi. Yerişi çox şeylər deyirdi ki, bunu bəlkə də heç dilnən demək olmazdı.

– Duz gətirdinmi, əə, təzə müdir?

Ağ Qulunun oğlu yarıyolda dayandı. Qollarını çəkən kimi eləyib dikəldi. Qızlar arıq, nərmə-nazik idilər. Səndələdilər, az qaldılar Ağ Qulunun oğlunun qolundan sallana qalsınlar. Təzə müdir xırıldaya-xırıldaya güldü, qızları göstərdi:

– Budu ey duz, Şəmil kişi! Qoy sürünün qabağına, duz kimi yalamasalar, tüpür üzümə!

Şəmil kişi sözünü udub udqundu: "Təpənə dəysin sənin gətirdiyin duz. Duzsuz oğlu duzsuz!".

– İçib, əə, bu!

Bunu Ağ Qulunun oğlu da eşitdi.

Avtobusa sarı dönüb, gennən-genə qışqırdı:

– Siz də düşün əə, utanmayın!

Avtobusdan üç oğlan düşdü. Rəqs paltarındaydılar. Ayaqlarında məs vardı. Belləri elə nazik idi ki, üzükdən keçərdi. Elə yüngül görünürdülər ki, elə bil otların başında dayanmışdılar. Yüngülcə-yüngülcə dingildəyirdilər.

Ağ Qulunun oğlu onlara əl elədi, sonra yavaşcadan dedi:

– Rəqqasdılar.

Şəmil kişi yenə Bəkilə baxdı:

– Nədilər?

– Oynayandılar, baba, oyunçudular.

Ağ Qulunun oğlu qollarını qaldırıb oynatdı. Şəmil kişiyə baxıb güldü. Şəmil kişi az qaldı əl çalsın. Çünki yaxınlaşmaqda olan oğlanların görkəmi eləydi ki, əl çalınmaqdan ötrü yanırdı. Şəmil kişi uşaqlara sarı dönüb sakitcə dedi:

– Bunnar yaman qaçar, hə?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gizir də güldü, Toğrul da. Amma həmişəki kimi ürəkdən gülə bilmədilər. Qızların gəlməyi dünyanın bu genişliyində onları sıxmaqdaydı. Ürəklərinin harasındasa isti bir şey dolaşırdı. Amma hələ heç nə anlaya bilmirdilər. Bilmirdilər neyləməlidilər ki, qızları danışdırsınlar, əllərindən tutsunlar, dağnan, dərəynən tanış eləsinlər. Buna görə də utana-utana güldülər, Gizir dönüb Bəkilə baxdı ki, görsün niyə gülmədi Bəkil.

Bəkilin gözləri qızlardaydı. Qızların ikisi pıçıldaşırdı, biri də üzünün ağlığına, zərifliyinə yaraşmayan bir təbəssümlə Bəkilə baxırdı. Gizir Toğrulu dümsükləyib heyrətləmi, qorxuylamı, nəsə qəribə bir səslə pıçıldadı:

– Ə, buna bax, gör gözdəri nə tez aldı qızı! Şəhərdə bir ay qalmaq budu, bax!

Toğrul da dönüb, Bəkili dümsüklədi:

– Soruş, gör, Bənövşə ərə gedibmi? – kirimişcə-kirimişcə güldü, – lap fizika müəllimi kimi baxırsan sən öl.

Bəkilin əlləri qaranlıqmış kimi axtarıb Toğrulun əllərini tapdı, sıxdı:

– Mən ölüm işin yoxdu, bişirecəm onu!

Bu, birdən-birə Toğrulun da yadına çox şeyləri saldı. İndi bildi ki, qızlarla danışmaq üçün, əllərindən tutub, dağları-dərələri tanıtmaq üçün neynəmək lazımmış. O da Bəkilin əlindən yapışıb bərk-bərk sıxdı. Gizirin qulağına sarı əyilib nəsə pıçıldadı. Qızlar oğlanların pıçıldaşdığını görüb bir az da canlandılar. Dünyanın bu boyda açıqlığında nə vardısa, elə bu pıçıltılarda vardı.

Şəmil kişi də gözlərini qızlardan çəkib:

– Bəkil, – dedi, – bizim uşağın qoşulub qaçdığı qız da bunnaramı oxşayırdı?

Kişi çiyinlərini sıxıb gülürdü. Bəkilə elə gəldi ki, Şəmil kişi gülüb-gülüb axırda hönkürəcək. Çünki kişinin üzü yığılıb qırışmışdı, bu da ayrı şeyləri deyirdi.

Bəkil:

– Yox, baba, o yaxşıydı, – dedi.

Qızlar Bəkili göstərib yenə pıçıldaşırdılar. Toğrul elə bil harasa tələsirdi. Ürəyi döyünə-döyünə gözləyirdi.

Nağaraçı papağını çıxarıb nağaranın üstünə qoymuşdu, özü də oturmuşdu bir daşın üstündə. Başını qaldırıb göyə baxdı:

– Hava yoxdu, – dedi, – sıxılıram!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sonra yavaşca nağaraya bir-iki şapalaq çəkdi, altdan-yuxarı zurnaçıya baxdı:

– Nağara ətə döndü, – dedi.

Zurnaçı elə bil buna bənd idi. Zurnanı qaldırıb yerində fırlana-fırlana üflədi. Yaylaq təzəcə qaydasına düşməyindəydi. Zurnanın səsi yenə aləmi qatdı bir-birinə. Havası yenicə sənmiş kəhərlər oynaqlayıb təzədən götürüldülər.

Burnuhalqalı təpəl buğa qızıl inəyin yanında başını qaldırdı, bərkdən böyürdü. Bunun nə demək olduğunu hamı başa düşdü. Açıq-aşkar deyirdi: "Gələrəm, haa!" Ona görə də qonaqlar tələsik bir yerə toplaşdılar.

Yabılar döyükə-döyükə, geri baxa-baxa aralanırdılar. Bu da qorxub kimisə söyə-söyə qaçmağa çalışan adamlara oxşayırdı.

Ferma müdiri əlini qaldırıb ortalıqda dayandı:

– Yoldaşlar, – dedi, – rayonumuzun özfəaliyyət kollektivinin bir qrupu sizin qulluğunuzdadı. İndi o biri binələrdən də gələcəklər. Deyirəm, düzəldək, yaxşı bir tamaşa verək. Təzə rəhbərlik sizin qədrinizi bilir, yoldaşlar! Ə, bir ayran gətirin artistlərə! – Belə deyib özü də avtobusa tərəf qaçdı, əlində araq qayıtdı.

– İçəcəyik, – dedi, – xanım qızlar başda olmaqla artistlərin sağlığına. Amma gərək elə bir qonaqlıq verək ki, bunnara, ömür boyu yaddarınnan çıxmasın. Belə gözəl qızlar gəlib, daha nə istəyirsiz?!

Şəmil kişininsə istədiyi başqa şey idi. Bir duz idi ki, gəlib çıxmaq bilmirdi. Bir də kənddən ürək qızdırdığı bir adam istəyirdi ki, diz-dizə otura, dükançı Xıdırın tez-tez rayona gedən arvadını soruşa, görə doğrudanmı boşuyub Xıdır. Soruşa ki, dünyanın vəziyyəti necədi, qəzetlər nə yazır? Buğaltırın oğlu evdən qaçmışdı, tapıb gətirdilərmi? Ağ Qulunun oğlunun əskiyi vardı, nə təhər oldu, ordan dupduru çıxartdılar, fermaya qoydular? Qarının canı, başı nə təhərdi? Bu uşaqlar oxumağa hazırlaşıllar, mən də bir söz deyə bilmirəm, bə yerinə adam tapa biləcəksinizmi? Təzə kimlər köçdü, getdi şəhərə?

Bu sualların heç birinin cavabı Ağ Qulunun oğlunda yox idi. Çünki Xıdırın arvadının rayona tez-tez getməyi Ağ Qulunun oğlu üçün təzə bir şey deyildi. Qız vaxtı onu Ağ Qulunun oğlu almaq istəyirdi. Allada-allada bir vaxt gəzdi. Hasarların dibinnən, gicitkanların arasınnan yığılmadılar. Axırda da qoydu qaçdı, bilmədilər hara getdi. Biri dedi, oxuyur, biri dedi, tutulub. Biri dedi, qızın qardaşları yığılıb öldürüb, izini itirib. Xıdırın boyunu yerə soxum, at mənim altımda büdrəməsin, dedi, qızı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

aldı, arvad elədi. İndi də budu ey, xəlbiri göydə oynuyur. Günlərin birində Ağ Qulunun oğlu qayıdıb gəldi, anbarçı qoydular. İndi də ferma müdiri. Özünnən soruşasan ki, niyə belə? Anbarın bütün əskiyini yıxar sənin boynuna.

Qaldı o biri sual – dünyanın vəziyyəti. Ağ Qulunun oğlu üçün vəziyyət çox yaxşıdı. Dünyadan heç bir şikayəti ola bilməz Ağ Qulunun oğlunun. Gəzdiyini gəzir, yediyini yeyir, dediyini də deyir. Birkərəmlik də inanıb ki, dava-zad da tarixində ola bilməz.

Buğaltrın oğlunun evdən qaçması? Elə onun özü də qaçmışdı. Atası Ağ Qulu indiki buğaltrdan da pulluydu. Düzdü, elə öz pulunun qorxusunnan da ürəyi partdadı, öldü. Nolsun, varı ki qaldı oğluna. Oğlunun da pulu cibində, ağlı başında, qaçmağa yermi yoxdu?!

Ona görə də Şəmil kişi ürəyi sözlə dolu quruyub qalmışdı, nə desin axı?! "Uşaqları yerinnən oynadacaq, köpəyoğlu, duz demişik, qız gətirib. Kimə deyim, kimnən istəyim, bu dağın kəlləsində ki, bəs, Şəmil kişinin duzu yoxdu! Elə demə, denən, dilinin kəsəri yoxdu. Yaxşı, Ağ Qulunun oğlu, bu dağdan təpəsi aşağı çox baxmışam, çoxları gəlib keçib bu dağın ətəyinnən. Bir gözə bir dünya sığışar, gözünü tox elə, Ağ Qulunun oğlu! Atan çəkdi yedi camaatı, nə apardı, goruna söyüllər indi. Dindirib söylədən olmadı, gözün üstə qaşın var deyən olmadı. Noldu bə? Boğulurdu, xırıltısı yeddi ağaclıqdan eşidilirdi. Cırıq-cırıq eləmişdi özü öz boğazını. Çox yetimin qismətini yemişdi atan. Dava vaxtıydı, elə özünə dedim ki, qusacaqsan, Ağ Qulu! Elə qan da qusdu. Bağıra-bağıra, qusa-qusa öldü. Nə istəyirsən köpəyoğlu, budu daa, Allah. Elə bilirsən səndən soruşmayacaqlar? Uzun saçlının ahı yerdə qalmaz. Gül kimi qızı korradın... Qoyunu qurda tapşırıblar, nolar, atan məni tanıdı, sən də tanıyarsan".

– Şəmil kişi! – Ağ Qulunun oğlu araq süzürdü, – hamı içməlidi, deyirəm sən də iç! Bir dünya ki, beşgünlük ola, sən nədən qorxursan?

Ağ Qulunun oğlu Şəmil kişinin gözlərinə baxanda sümüyü səksəndi. Kişinin gözləri deyirdi, – "elə qovaram sizi burdan, iziniz-tozunuz qalmaz!"

– Yaxşı, özün bil, Şəmil kişi, içmirsən, içmə. Bə qonaqlığa nə deyirsən? Bir qonaqlıq düzəltməyəcəksənmi? Yolda qızdara söz vermişəm ki, sizə ağ ət kababı yedirdəcəm. Ağ ətsizmi yola salaq qızdarı?

Burmabuynuz qoç Bəkilin yanını kəsdirmişdi. Mədəniyyət evinin müdiri yaxınlaşıb qoçun buynuzunnan tutdu, gözlərini sığalladı. Qoç şeşələnib, geri çəkildi ki, vursun. Müdir, "Oyy, oyy" – eləyib, Ağ Qulunun oğluna sığındı. Qoç dönüb ətəyini yırğalaya-yırğalaya sürüyə sarı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

getdi. Ağ Qulunun oğlunun artıq kefinin yuxarı çağıydı, qoçun ardınca baxdı, səndələyə-səndələyə qızlara sarı getdi. Birinin başınnan tutub aşağı əydi, barmağını uzadıb, qoçu göstərdi:

– Odu, bax, ağ ət, onu deyirəm.

O biri qızlar da əyilib baxdılar, xısınlaşa-xısınlaşa güldülər. Mədəniyyət evinin müdiri əlini-əlinə sürtüb:

– Yaxşı ağ əti var! – dedi.

Ağ Qulunun oğlu qayıdıb Şəmil kişiylə göz-gözə durdu:

– Nə deyirsən, kişi! Biabır eləmə məni. Mən döyüləmmi cavabdeh, vəssalam!

– Ağ Qulunun oğlu, nə qədər erkək kəsək ki, qızlar ağ ətə doysun?

– Evin tikilməsin, yolboyu ağ ət deyib, ağ ət eşidiblər. Əlin açıq olsun, nolar, özüyünkünnən kəs. Hələ demirəm, nə gəzir sənin qoyunun sovxozun sürüsündə.

– Bəkil, mənim qoyunumnan üç-dördünü gətir, kəs!

Şəmil kişinin səsi ötkəm idi, kəsərliydi. Bu səsdə Ağ Qulunun oğluna deyiləsi çox söz vardı ki, bunu da uşaqlardan başqa heç kəs duya bilmədi. Ağ Qulunun oğlu əlini Şəmil kişinin kürəyinə vurdu:

– Sənin dörd erkəyinin yerini doldurmaq mənim boynuma.

Mədəniyyət evinin müdiri də qızlarla baş-başa verib uzaqlaşmaqda olan qoça baxıb gülüşürdülər. Rəqqas oğlanlar da solğun-solğun gülümsəyirdilər. Biri dikəldi, özünü çəkib qollarını açdı, birdən-birə yerindəcə elə oynadı ki, ayaqlarını görmək olmadı. Bu bir anlıq oyunu ilə çox şeyləri deyə bildi. Bunu da zəndnən belə yozmaq olardı ki, ağ ət yeyəcəyik!

Bəkil döndü ki, gedib erkəkləri gətirsin. Ağ Qulunun oğlu onu saxladı:

– Dayan, konsertdən sonra. Hələ bu gecə burdayıq. – Əlindəki stəkanı başınnan yuxarı qaldırıb dedi:

– Gəlin bunu içək, rayonumuzun fəxrləri olan əziz qonaqlarımızın sağlığına. Bizim incəsənətimizi, musiqimizi bütün dünyaya tanıdan, hətta, bu *dağların başına* da gətirib çıxardan xanımların sağlığına!

Bəkil birdən-birə hiss elədi ki, bu sözlərdən sonra "Ura!" demək lazım idi. "Ura" deyilmədiyi üçün Ağ Qulunun oğlunun sözlərindən sonra qəribə bir boşluq əmələ gəldi. Bəkil ürəyində qışqırdı. "Ura". Sonra Gizirə sarı döndü:

– Ürəyimdə "ura" dedim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mən də, sən öl! Yadındadımı, sinif rəhbərimiz üstümüzə qışqırırdı, ə, öldünüzmü, yatdınızmı, "ura" desəniz?!

Ağ Qulunun oğlu stəkanı bir də qaldırdı:

– Qaldırın, soyutmayın! Ayrannan arağın ayrı ləzzəti var!

Arağı başına çəkib, bağırdı:

– Heeyy!

Səsi doğrudan da yığnağı qızışdırdı. Bəkil stəkanını qaldırdı, içə-içə qızlara baxdı. Qaragözlü, uzun kirpikli qız da gözləri Bəkildə, stəkanını qaldırdı. Bəkilin heç özü də bilmədi ki, qıza nə vaxt göz vurdu. Qızın uzun kirpikləri yumulub açıldı. Amma qızınkı elə bil göz vurmaq deyildi, – "hə" demək idi. Çünki gözlərinin ikisi də birdən qapandı. Bəkilə də o qədər şeylər vəd elədi ki, Bəkil stəkanını boşaldıb quruyub qaldı. Qorxurdumu, sıxılırdımı, nəydisə, başını qaldırıb qıza baxa bilmirdi.

Amma bu, əslində nə qorxmaq idi, nə sıxılmaq. Qəribə bir ustalıqla, ağılla özü-özünə tədbir tökürdü, yol qururdu. "Deyərəm gəl, sənə qoçnan oyunumu göstərim. Aralanaram, bələni aşarıq..."

Özünün uydurduğu bu yaxınlığa əməlli-başlı ağlı kəsmişdi. Amma birdən fikirləşdi ki, bəlkə qız araq içdiyinə görə gözlərini yumdu. Başını qaldırıb yenə baxdı, qızın gözləri gülümsəyirdi. Bəkil göz vurdu. Uzunkirpiklər yenə qapanıb "hə" dedi. Ağ Qulunun oğlu bunu gördü, əlini-əlinə sürtüb:

– Ujee? – dedi, camaata baxdı, – ə, bunnara çoban-zad deməyin, cələ kəsəndi bunnar!

Bəkili birdən-birəcə sopsoyuq tər bürüdü. Ağ Qulunun oğlu, Toğrulla Gizirin baxışlarınnan çəkinib, zarafata döndərmək istədi:

– Zarafat eləyirəm, qoçaq oğlannardı. Birini də içək deyirəm, bunnaların sağlığına.

Arağı başına çəkib Bəkili qucaqladı:

– Bunnarın biri sənindi, hansını istəyirsən, seç. Elə burda da saxla. Qoy ağ ətdən yesin, kökəlsin.

Hamı gülüşdü. Nağaraçı da gülüb yavaşca-yavaşca nağarasını şapalaqladı:

– Ə, vallah, ətə döndü bu, səsi çıxmayacaq, – dedi.

Uzunkirpikli qız Ağ Qulunun oğlunun sözünə əməlli-başlı inanmışdı. Dönüb alaçığa, yamaclara, sürülərə, naxırlara, ilxılara baxdı:

– Soyuqdan ölləm, – dedi, – burda mən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şəmil kişi ağacına söykənib tamaşa eləyirdi. Bircə onu bilirdi ki, sürünün sabahkı südü batdı. Bu ayaqüstə süfrə açan, ayrannan araq içənlərdən bir şey anlaya bilmirdi. Elə bil əvvəl böyük oğlunun, onun dalınca da kiçik oğlunun çıxıb getdiyi şəhəri, şəhərin adamlarını görürdü. İndi bunnarın nə eləyəcəyini, konsertin necə olacağını başa düşmürdü. Ha çalışırdı ki, bir yol tapıb, bir söz deyib, bunnara qarışsın, heç cür mümkün eləyə bilmirdi.

"Zamana adamlarıdı da. Saqqalı ağarmış, sənin çaldığına kim oynaya bilər ki? Kimin sümüyünə düşər sənin çaldığın? Heç öz belinnən gələnlərdən baş aça bilmirdin. Hərəsi bir yana dağıldı. Elə bilirsən, Gizirgil getməyəcək bə. Bu qızları ki, belə gördülər, onnar da gedəllər. Qancıqlar oynadacaq uşaqları yerinnən. Səninki bilirsən nədi? O kəhər atdı ki, ipə-sapa yatmırdı, burub, yabı elədin. Küçüyün ağzını yandırdın ki, böyüyəndə oğurluq eləməsin. Yetim quzuları yad qoyunlara təlidin. Dünyada da belə şeylərdi dəyişməyən. Dəyişməyən şeylərsə indi kimə lazımdı? Bir halda ki, hər şey dəyişməkdədi. Ona görə deyirəm, sənin çaldığına kim oynayacaq. İndi bu qızlardan hansına nə deyə bilərsən. Odu, Xıdırın arvadı, hə?! Hə, yandır Ağ Qulunun oğlunun ağzını görüm, necə eləyirsən?!"

Beləcə, Şəmil kişi aranı dağa apardı, dağı arana. Özü də bilirdi ki, nə deyirsə, haqqına deyir. Gördü öz-özünü yaman kövrəltdi, üzünü arxaca tutdu, yadına düşdü ki, duz yoxdu, bütün qəhərini-zadı uddu. Gördü küçük ayaqlarına sığınıb titim-titim titrəyir, çünki küçük yazıq dünyadan təzəcə baş çıxardırdı ki, təzə-təzə adamlar, təzə-təzə səslər gəldi, töküldü yaylağa. Qanıq hələ də başını qollarının üstünə qoyub qannı-qannı qonaqlara baxırdı ki, – niyə olmaz axı, bunnara hürmək?

* * *

Alaçıqdan yuxarı bir yastanaya yığışmışdılar. Yamaca yapıncı sərib qızları da oturtmuşdular üstündə. Qızlar bir-birinə söykənib dağlara, daşlara tamaşa eləyirdi. Amma üzlərində, gözlərində qəribə bir mənasızlıq vardı ki, bunu da küçüyün gözlərindəki ifadəyə bənzətmək olardı. Küçük oymadan çıxanda dünyaya – adamlarına, atına, itinə, qoyununa, quzusuna baxıb beləcə mat-məəttəl qalmışdı.

Qızlar yallara-yamaclara elə baxırdılar ki, elə bil yaylaqda deyildilər, kinoya baxırdılar. Çünki kinoda olduğu kimi kipkirimiş oturmuşdular.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kinolarda olduğu kimi elə bil bu qayaların, dağların arasınnan nəsə çıxmalıdı, dərələrin gözəgörünməzində nəsə baş verməlidi. Dağların bu ucalığı, qayaların qara-qorxusu, bu yaşıllıq, bu çiçəklik onlara olduğu kimi görünmürdü; mənasını anlaya bilmirdilər. Belə olmamalıydı axı!

Keçən yay Kənd Təsərrüfatı Nazirliyinnən beş-altı adam gəlmişdi. Bağırışa-bağırışa gəldilər, bağırışa-bağırışa da getdilər. Elə bu yamaca çıxan kimi hərəsi bir yana dağılışdı, yığıb-yığışdırmaq olmurdu. Aralarında bir kök, dolu kişi vardı, gülün, çiçəyin üstüylə dığırlanırdı: "Ayə, deyirdi, qoyun ölüm, qalım burda, məni aparmayın ora. Ayə, mən arıq-uruq uşaq idim, quzu otarırdım. Qaragöz-qaragöz, qotazdı-qotazdı quzularım vardı. İnanmazsız, vallah, mən də quzu otarırdım. Yedim, yaşadım, şəhər məni bu günə saldı. Şəkərəm indi. Soruş bunnardan, gör bilirlərmi, şəkər nədi? Ə, bunnar bircə şəkər tanıyıllar, o da qənddi. Ooy, ooy, ooy!"

Kişi başını gülün-çiçəyin içinnən çıxartmırdı. Kişini belə görüb kövrəlmişdilər. Gəlib onu otluqdan qaldırdılar. Bu boyda, bu yaşda kişinin gözlərində yaş gördülər.

Şəmil kişi istədi onlara erkək kəssin, kabab çəksin, amma razı olmadılar. "Heç nə lazım deyil, dedilər, bircə qoyunnan-quzudan muğayat olun, ağrımağa qoymayın. Duzunu vaxtlı-vaxtında verin. Yağarrıqdı, suludu ruzgar, duzu çox istəyəcək heyvan".

İndi qızlar dinməz-söyləməz oturub baxırdılar. Yaylağın havasınnandımı, yoxsa geyimlərinin oxşarlığınnandımı, nəydisə, elə bil üçü də bir ananın qızıydı. Bəkil yoldaşlarınnan aralanıb qızlara sarı getdi. Gizir ardınca:

– Sən öl, dəmdi, – dedi.

Qızlar Bəkilə baxıb gülümsədilər. Üçünün də rənglənmiş kirpikləri birdən örtülüb-açıldı. Elə bil xor oxuyacaqdılar. Bəkil dəri gödəkçəsini soyunub bayaq gözləşdiyi uzunkirpikli, qaragözlü qızın çiyninə saldı. O biri qızlar sızıltıyla – ooy! – elədilər. Uzunkirpikli qız Bəkilin əlinnən tutub, – çoox sağ ol! – dedi, – "bolşoye spasibo!"

Mədəniyyət evinin müdiri qollarını açıb Bəkili göstərdi:

– Sonra da deyillər, çoban! Budu ey mədəniyyət!

Bəkil geri nə vaxt döndüyünü bilmədi. Başında uğultu vardı, birdənbirə əməlli-başlı keflənmişdi. Elə yeriyirdi, elə bil əriyirdi. Gizir qolunu Bəkilin boynuna saldı:

– Mən ölüm, – dedi, – birini də mənə!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qızlar dünyadan gözlərini çəkib oğlanlara baxırdı. İndi üzləri, gözləri mənalıydı. Üzlərində, gözlərində oyanmış gülüşü, əllərinin dediklərini, pıçıltılarını yozub şirin bir tarixçə düzəltmək olardı. Gizir, Bəkil, Toğrul da hərəsi özünə bir tarixçə düzəldirdi. Toğrul pıçıltıyla:

– Hazırdılar, – dedi, – sən öl!

O biri binələrdən atlılar gəldi. Atın belinnəncə yığnağa xeyli göz gəzdirdilər. Rəqqas oğlanlar atlıları görüb çiyin-çiyinə tutdular, birdənbirə ayaqlarının ucuna qalxıb bir neçə xal vurdular. Bu, yenə elə gözlənilmədən, elə sürətlə oldu ki, heç kəs heç nə deyə bilmədi. Şəmil kişinin səsi gəldi:

– Ə, bunnar öyrəncəklidi ki, Bəkil. Təzə adam görəndə oynamalıdılarmı?

Atlılardan biri ucaboylu, enlikürəkli adam idi, az qalırdı atın üstündə ayaqları yerə dəysin. Elə bərkdən güldü ki, altındakı at da titrədi:

– Şəmil kişi, həmişə şaddıqda, toyda, düyündə! – dedi. Atdan düşdü. At çırpınıb özünü düzəltdi. Ucaboy kişinin səsi hələ də dağları, daşları dolaşmaqdaydı. Elə əzəmətli, elə mərd, elə güclü görkəmi vardı ki, ona baxanda qorxaq qorxaqlığınnan, yalançı yalanınnan utanmalıydı.

– Sən ölməyəsən, qarazurnanın səsini eşitdim, sümüyüm oynadı. Yazıq olmuşuq, ə, biz!

Sonra Ağ Qulunun oğlunu gördü, ona sarı getdi. Elə getdi ki, elə bil Ağ Qulunun oğlunu ayaqlayıb üstünnən keçəcəydi. Yaxınlaşdı, gülümsəyib barmağıyla yavaşcadan Ağ Qulunun oğlunun çənəsinə vurdu, yumşaqca-yumşaqca dedi:

– Necəsən, yalquzaq? Qoyunu qurda tapşırdılar, həə?!

Ağ Qulunun oğlu yan-yörəsinə baxdı:

– Yavaş, Abdaloğlu, quyruğumu tapdalama yenə!

– Gözünə girsin quyruğun!

Dedi, çalğıçılara sarı döndü:

– Ə, siz allah, çalın, gönüm yanıb!

Zurnaçı alaçığın qabağından kösöv gətirib nağaranın altına tutmuşdu, nağaranın dərisini qızdırırdılar. Nağaraçı tələsə-tələsə nağaranın dərisini ovxalayırdı, ikisinin də üzü elə ciddiydi ki, elə bil, xəstə sağaldırdılar. Nağaraçı təzədən nağaraya bir-iki şapalaq çəkib:

– Yaxşıdı! – dedi.

Abdaloğlu əllərini qaldırdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qonaqlar məni bağışlasın, izin verseydilər, mən bir oynayardım. Bilirsiz niyə? Sümüyümə saz düşüb. Yuxumda da toy görmüşdüm, canınız üçün.

Dönüb napnazik, ceyrana oxşayan rəqqas oğlanlara baxdı:

– Of, sizə qurban olum, – dedi, – amma nə oğlanlardı! – Ancaq Abdaloğlu başqa söz demək istəyirdi.

Mədəniyyət evinin müdiri gözlüyünü çıxardıb şlyapasını düzəltdi. Ortalığa çıxıb boğazını arıtladı:

– Elə gəlişimizin səbəbi də odu ki, sizin könlünüzü açaq, katibin salamını yetirək sizə və deyək, biz sizinləyik!

Bəkil bu yerdə gözünü yumub qışqırdı:

– Urraa!

Gizir narazılıqla Toğrula baxdı:

– Kefləndi bu, biabır elədi bizi.

Bəkil "ura" deyənnən sonra qızlar əl çaldılar. Mədəniyyət evinin müdiri Ağ Qulunun oğlundan soruşdu:

– Bu oğlanın adı noldu. Yaxşı oğlana oxşayır.

– Bəkildi, deyəsən.

– Ay sağ ol, Bəkil!

Bəkilə sarı gəlib əl çaldı, Şəmil kişidən başqa hamı ona qoşulub əl çaldı.

*Abdaloğlu dönüb çalğıçılara baxdı:*

– Noldu? Paho, onu da mı biz çalaq deyirsiz, başla dayna.

Zurnaçı əllərini havada oynada-oynada qara zurnanı zilə çəkdi, muğamat başladı.

Abdaloğlu arxası çalğıçılara sarı ortalıqda dayanıb havanı gözləyirdi. Ona görə də qəribə görkəm almışdı. Elə bil ayağının altında nəsə vardı, üstündən atdanmalıydı. Qolları yarı qalxmış, dizdən azacıq qatdanıqlı, üzünün cizgilərinə qədər gərilmiş dayanıb gözləyirdi. Muğamatsa uzanmağındaydı. Abdaloğlu dikəlib qollarını yanına saldı, camaata baxdı, çarəsiz-çarəsiz dedi:

– Gönümü soydu bu, öldürdü məni, – çalğıçılara sarı döndü, – əə, adam oğlusan, yazığın gəlsin mənə, bir hava çal, oynuyum!

Zurnaçı əl saxladı:

– Nə çalım ey?

– Ə, zəhrimara qalsın sənin çaldığın. Muğamatı neynirəm bu dağın başında? Oyun havası çal, atam-anam, oyun havası olsun!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Üzünü döndərib yenə bayaqkı görkəmini aldı, qollarını azacıq qaldırıb dizlərini qatdadı. Gözlərini qıyıb başladı gözləməyə. Zurnaçı nağaraçıya baxıb çiyinlərini çəkdi. Dodaqlarını yalayıb qarazurnanı götürdü, bir yüngül hava çaldı.

Abdaloğlunun qəddi yavaş-yavaş düzəldi, köksünü ötürüb yığnağa göz gəzdirdi. Üzündə elə peşmançılıq vardı ki, elə bil kimisə doğma bir adama oxşadıb qucaqlamaq istəyirdi ki, gördü o deyil. Gizirgilə baxdı:

– Ay yaradansız! Bu, can gülüm, can çalır, əə!

Dönüb dedi:

– Qadan alım, ağır hava çal. Dingillədib yüngülsaqqal eləmə məni. Görürsən ağırtaxtalı adamam. Sən sümüyümə düşən bir hava tap, gedək sənə bir erkək bağışlayım. Ya da min dalıma, bu yamacları gəzdirim.

Gülüşdülər. Abdaloğlunun özü də güldü. Zurnaçı nazik, qara zurnanın səsinə oxşar səsiylə dedi:

– Bu havaya qoy bizim uşaqlar oynasın.

– Atam-anam, bu onnarın peşəsidi, onnar həməşə oynuyur. Mənim ürəyimə düşüb, yuxumda da görmüşəm, gərək oynayam. "Köçəri" havasını çal, "Bəri-bəri"ni, "Qönçəgülü"nü, lap "Gəlin köçdü"nü çal!

Zurnaçı yenə nağaraçıya baxdı. Nəsə bir hava çalmaq istədi; başladığı kimi də kəsdi:

– Yox, mən sənin havanı çala bilməyəcəm! – dedi, dönüb mədəniyyət evinin müdirinə baxdı: – Neyniyim, yoldaş müdir?!

Müdir acıqlana bilmədi, amma özünü acıqlı göstərdi:

– Necə neyniyim? Biz əməkçilər qarşısındayıq, tələblərini ödəməliyik! – dedi. Abdaloğluna sarı getdi. – Bu, özü klarnet çalandı. Dedik, klarnet yaramaz, çobanların yanına gedirik.

Abdaloğlu yoldaşlarına baxdı:

– Dəmirçioğlu!

Enlikürəkli, palıd kötüyü kimi bir oğlan gülə-gülə Abdaloğluna sarı gəldi. Qızıl dişləri vardı. Amma bu qızıl dişlər onun güclü, sağlam görkəmiylə heç uyuşmadı. Özü də bunu bilirdimi, nəydisə, dodaqlarını yummağa çalışırdı. Ona görə də qonaqlar elə bildilər ki, utandığınnan eləyir. Abdaloğlu onun qolunnan tutub çalğıçılara sarı getdi.

– Onda incimə, – dedi, – qarazurnanı alıb Dəmirçioğluna verdi. Sonra yapıncısını sərib zurnaçını üstündə oturtdu:

– Sən dincəl, tamaşa elə, – dedi, – nağaraçımız da var, gəlsinmi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nağaraçı dinməz-söyləməz başını tərpətdi, "yox". Abdaloğlu ortalığa çıxdı, yenə bayaqkı kimi dayanıb gözlədi. Dəmirçioğlu qızlara baxa-baxa qarazurnanı qaldırdı, ağırtaxtalı bir hava başladı. Abdaloğlunu elə bil suya çəkdilər. Suyun içindəymiş kimi qollarını qaldırıb ayaqlarını düzəltdi. Qarazurnanın xallarına, nağaranın xırdalıqlarına uyğun, bütün bədəniylə sına-sına meydanı dolaşdı. Nağaraçıyla üz-üzə gələndə yüngülcə başını tərpətdi. Bu da o demək idi ki, "yaxşıdı, çal!". Nağaraçı da altdan-yuxarı, tərs-tərs Abdaloğluna baxdı, yəni, "əşi, get işinə!". Abdaloğlu elə bil başa düşdü, gülümsəyib ağır gövdəsiylə sındıra-sındıra meydanı bir də dolandı.

Bəkilin burmabuynuz qoçu sürüdən aralanıb, düz yığnağa tərəf gəldi. Camaatın arasından keçib Bəkilin yanında dayandı. Qızlar əvvəl gülüşdülər, sonra əl çaldılar. Əyilib qoça baxa-baxa pıçıldaşdılar. Bəkil Giziri dirsəkləyib yavaşcadan:

– Sən öl, – dedi, – bağrım çatdayacaq mənim!

Qoç qorxu-hürkü bilmədən dayanıb düz camaatın gözlərinin içinə baxırdı. Qoçun bu görkəmini dilnən desəydik, yəqin ki, belə olardı. "Bu nə hay-küydü, eyy?"

Hamı elə bil fikirliydi, fikirləşirdilər ki, axırda nolmalıdı bəs? Hamı da hər şeyin qurtaracağında qızları görürdü. Qızlardan o yana fikirləşməli heç nə yox idi. Boy-boy, sıra-sıra dağlar idi. Sürülü, ilxılı, naxırlı yamaclar idi. Qızlardan o yanda elə səssizlik yatırdı ki, orda qoyun da, quzu da, çoban da zindan kimi ağırlaşırdılar, yerişlər ağır, gülüşlər ağır, səs ağır idi. Qızlardan o yanda qu desən, qulaq tutulurdu.

Şəmil kişinin də fikirləri düzü-dünyanı dolaşıb, yenə gəlib qızlarda dayanırdı. "Həə, uşaq da bunnara görə qaçdı, getdi. Dünyadı daa. Bir gör, sən Tanrın, heç çəkinillərmi, qorxurlarmı? Əslinə baxsan, elə düz eləyirlər. Nədən qorxsunnar ki? Vallah, halaldı bunnara. Tanımaza, bilməzə Ağ Qulunun oğlu kimisinə qoşul, gəl çıx dağlara. Qoçaqdılar, vallah. Bircə Bəkilgil bir şey eləyə bilsəydilər payızacan kefləri kök olardı. Düz hərəsinə də biridi. Ortadakına bax, gör nə duzdudu, qancıq. İki gün də duz olmasa, sürü batdı. Bəkil gözaltılıyıb deyəsən, gözünü yeyim, kişiqırığı. Amma ilişən də elə belə ilişir. Bizimki də tez-tez, dədə, rayona gedirəm. – Ə, küçük, nəyə gedirsən rayona? Sən demə, Xıdırın arvadı kimi, işi varmış rayonda. Yaxşı, get, görək nə vaxt qayıdacaqsan. Nəyin korluğunu çəkdin, pul, – verdim, enlibalaq tikdir – tikdirdim. Dik-daban al – aldım. Nədi-nədi ki, sədrin oğlu da geyinir. Dedim, geyin,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sədrin oğlunnan əskik döyülsən, ürəyiböyük ol. Hər şeyi oldu, bircə Allahı olmadı. Ona görə də arvadı tək qoydu damın altında".

Abdaloğlu işarə verdi. Dəmirçioğlu havanı dəyişib zilə çəkdi.

– Köçəri yallısı! – Abdaloğlu belə deyib boylandı. Atlılar meydana çıxdılar. Başda Abdaloğlu, Toğrul, Gizir böyük bir yallı düzəldi. Qamçıları yallının havasına uyğun yellədə-yellədə oynamağa başladılar. Abdaloğlu rəqqas oğlanlara da: – Gəlin! – dedi.

Rəqqas oğlanlar əvvəl bir-birlərinə, sonra ayaqlarına baxdılar. Onlar da o yanda qol-qola tutub oynadılar ki, yallını öyrənsinlər. Amma elə bil ayaqları sözlərinə baxmadı. Çünki çox yüngül idilər. Ona görə də yallının ağırlığına bata bilmirdilər. Qarazurnanın səsi elə bil onları atıb-tuturdu. Elə bil, nədənsə sallanıb yellənirdilər. Yavaş-yavaş yallıyla uyğunlaşdılar. Uyğunlaşdıqca da elə bil ağırlaşdılar. Elə bil otların, çiçəklərin başınnan düşdülər, ayaqları elə bil ömürlərində ilk dəfə yerə dəydi. Keçib qatara qoşuldular.

Dağlara, yaylaqların Şəmil kişisinə, kəhər atına, təpəl buğasına, Qanıq adlı itinə yaraşası gözəl bir yallı əmələ gəldi. Abdaloğlu, – hey, hey! – eliyə-eliyə qamçısını şaqqıldadırdı. Yallıdakıların sayı qədər qamçı bir yerdə tüfəng kimi açılıb dağlara-daşlara dəyirdi, qızlar əlləri üzlərində quruyub qalmışdılar. Nəfəs belə dərmədən tamaşa eləyirdilər. Şəmil kişi də canlanan kimi olmuşdu. Başını açıb bir daşın başında əyləşmişdi. Bir aydan çox gözlədiyi, tez-tez soruşduğu konserti indi görüb anlayırdı.

Yallının üzü qızlara sarı dönəndə hamı birdən, – hey, hey! – eləyirdi, qamçılar şaqqıldayırdı. Bu, yalnız qızlar üçün idi. Ona görə də "hey, hey" səsləri, qamçıların şaqqıltısı bu dəfə daha gümrah çıxırdı.

Toğrul oynayıb qızışdıqca elə bil yallıya sığışmırdı. Yallı ona dar gəlirdi. Təkbaşına nəsə eləyib özünü qızlara göstərmək istəyirdi. Güləşmək istəyirdi, dalaşmaq istəyirdi. Gizirlə qol-qola tutmuşdu, çiyninnən yapışıb silkələyirdi.

Abdaloğlu arada dönüb rəqqas oğlanlara baxırdı, az qalırdı qamçısınıca qoyub onlara əl çalsın.

Ağ Qulunun oğlu müdirin qulağına nəsə dedi. Müdir yallının qatarı boyu yüyürüb Abdaloğluna çatdı. Abdaloğlu qamçısını endirmək istəyirdi ki, əlinin altında müdirin dolu, ətli bədənini gördü, tez də fikrindən keçdi ki, ax, canında nə qamçı yeri var!

– Dəmirçioğlu, "kəmənd havası!"



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qatar pozuldu. Abdaloğlu Toğrulla Gizirin qolunnan tutub, meydanın ortasında üz-üzə dayandırdı. Gizirlə Toğrul ortalıqda dayanıb soyuq-soyuq bir-birinə baxırdılar. Uzunkirpikli qızların baxışları, dəlisov kəmənd havası Gizirlə Toğrulun arasına bölünməmiş pay qoymaqdaydı. Amma bunnan heç kimin xəbəri yoxuydu. Heç kəs bilmirdi ki, Gizirin çiyinlərində Toğrulun barmaqlarının yeri ağrıyır. Gizir qamçısını oynadıb gülümsədi. Amma onun bu gülüşü ayrı şeylər deyirdi. Bu ayrı şeylər də təkcə Şəmil kişinin sümüyünə damdı. "Köpək qızları uşaqları döydürəcək. Kimdə nə hayıfları var, bir-birinnən çıxacaqlar".

– Gizir, gözünüzə dəyər! Toğrul!

Ağ Qulunun oğlu acıqlı-acıqlı Şəmil kişiyə baxdı:

– Əşi, bir dayan görək sən də. Qan düşməyib ki!

"Namussuz oğlu, sənə dəyməlidi o qamçı. Kefini götürüb gətirmisən, duz deyin, mələyirik burda. Sənə dəyməlidi o qamçı, sənin sədrinnən tutmuş sədrinə kimi. Yarı yaşını ötüblər, vaxt tapıb qız seçə bilmillər. Sizə dəyməlidi o qamçı, elə dəyəcək də. Kağız verib oxumağa göndərdiz, noldu? Hə, onnar getdi, kimi tapacaqsız sonra? Biri mənimkilər, hanı? Hamının üzü daşdandı, üzüyumşaq adam tap görüm".

– Toğrul, dəlimi olubsuz, ə?!

Gizir sərpilib yanı üstə düşdü. Toğrulun qamçısı yaşıllıqda iz saldı, çiçəklər didik-didik olub ortalığa səpələndi. Ağrıdan bircə qışqırmaqları əskik oldu ki, qızlar da elə bil çiçəklərin yerinə çığırışıb dik qalxdılar:

– Ooy!

Toğrulun qamçısı bir də endi. Gizir atdanıb o biri üzünə düşdü. Toğrulun qamçısıyla bir yerdə otlar, çiçəklər qalxıb havada uçuşdu. Gizirin qamçısı altdan-yuxarı açıldı. Toğrul əlini üzünə aparıb gülümsədi.

Ağ Qulunun oğlu Şəmil kişinin qabağını kəsmişdi:

– Otur yerində, işin yoxdu sənin!

– Dost tanımazlar, düşmən tanımazlar, avara uşağı, avara. Özünün yağısıdı. Gör Tanrı götürərmi bunu? Dost dosta, qardaş qardaşa da elə qamçı qaldırarmı, gör bir?!

Şəmil kişinin səsi dəyişmişdi. Özünə, yaşına, saçına-saqqalına yaraşası köhnə, xırıltılı bir qəhər vardı səsində. – Başınıza dəysin sizin konsertiniz. Qız görmüyübsüzmü? Tfuu!

Gizirin qamçısı bir də açıldı, şimşək kimi Toğrulun kürəyinnən enib ucu otluğa dəydi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dəmirçioğlu gözünü yumub çalmağındaydı. Qanıq arxadaca özünü yeyib-tökürdü, gözləri qan bağlamışdı. Qoç mələyə-mələyə yamaca yayılmış sürüyə baxırdı. Bəkil narahatlıq içində gendən-genə Toğrulla Gizirin başına dolanırdı.

Gizirin qamçısı bir də açıldı. Toğrul qolunu qabağa atdı, qamçı qoluna dolandı. Gizir dartdı, qopara bilmədi.

Toğrul Giziri qamçıladı. Elə bil bu qamçı Ağ Qulunun oğluna dəyirdi, Toğrulu gözləməyib, prorab Hasana ərə gedən Fatmaya dəyirdi, mədəniyyət evinin müdirinə dəyirdi. Dükanda dükançı Xıdıra, kənddə sədrə, şəhərdə Bəkilin gözdərinə iki verən ağ professora, pıçıltıyla imtahan götürən institutun cavan müəllimine dəyirdi.

Şəmil kişi, Abdaloğlu, Bəkil yüyürüb Toğrulu tutdular. Gizir qalxıb qızlara sarı baxdı, gülümsədi. Şəmil kişi hərəsinə bir şapalaq çəkdi. Toğrul da, Gizir də dönüb ağrının-acının içindən camaata göz gəzdirdilər. Camaat da elə bil bunu gözləyirdi, hamı əl çaldı. Ortadakı qız yanınnan iki çiçək dərdi, solğun, zərif, özünə oxşar bir yerişlə gəlib çiçəyin birini Toğrula verdi, birini Gizirə. Təzədən əl çaldılar. Şəmil kişi Toğrulun üzündəki qamçı yerlərinə baxdı, sonra Gizirə sarı döndü. Onun da üzü dağ-dağ olmuşdu. Şəmil kişi yenə – tfuu! – eləyib keçib yerində oturdu.

Gizir də, Toğrul da hərəsi yığnağın bir tərəfində dayanıb başlarını aşağı salmışdılar. Qamçının yerləri indi-indi ağrıyırdı, ağrıdıqca da ayılırdılar. Başlarını qaldırıb baxmırdılar ki, birdən bir-birlərini görərlər. Qarazurnanın səsi artıq aydınlaşmışdı. İndi Toğrulla Gizirin peşmançılığı kimi səslənirdi.

Şəmil kişi gennən-genə acıqlandı:

– Gedin, üz-gözünüzü yuyun!

Qabaqca Gizir, sonra da Toğrul çaya endilər.

Mədəniyyət evinin müdiri yenə ayaqlarının ucuna qalxıb ağ əllərini ağzına tutdu, pıçıldadı.

Şəmil kişi bələnaşağı enməkdə olan Toğrulla Gizirin ardınca baxdı. Ağ madyanı, kəhəri, qızıl inəyi, təpəl buğanı da gördü. Qanığın səsini eşitdi. "Bir itcən ağılları yoxdu. Yedilər bir-birini. İt itdiyinnən belə şey eləməz".

Başını bulayıb yenə nəsə demək istədi. Gördü bu qədər camaatın içində sözünü bir Bəkilə deyə bilər, bir də Abdaloğluna.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Abdaloğlu hələ də ortalıqdaydı. Dörd yanına baxıb gülümsəyirdi. Yenə əlini qaldırdı, çalğıçılar dayandılar.

– Qonaqların bir xahişi də var, istiyillər indi də meydana Bəkil çıxsın. Deyirəm, meydanı soyutmayaq. Xanım qızlar nə deyir bə?

Qızların üçü də birdən Bəkilə baxıb əl çaldılar. Abdaloğlu:

– Ay yanasız sizi, – dedi, – elə bil öz sözündən özü utandı. Elə bil birdən-birə özünün yepyekə, qızların bapbalaca olduğunu hiss elədi, – nə deyirsən, Şəmil kişi?

– Nə deyim Abdaloğlu, görmədinmi neylədilər?

– Əşi, çəkişməsələr bərkişməzlər.

Abdaloğlu iri əllərini Bəkilin kürəyinə vurub aralandı. Bəkil üzü qızlara diz çöküb burmabuynuz qoça baxdı. Papağını hərləyib gözlədi.

– Tox-tox-tox!

Rəqqas oğlanlar daşın başına çıxıb qol-boyun oldular. Dəmirçioğlu çöl bayatısı – "Qayabaşı" çalırdı. Üzü-gözü eləydi ki, elə bil qarazurna olmasaydı, qəhqəhə çəkəcəydi. Nağaraçı xırdaca-xırdaca qaydaladırdı. Elə bil burmabuynuz qoçun yerişi üçün də ayrıca bir hava varmış. Qoç da bu havaya uyğun enli ətəyini yırğalaya-yırğalaya camaatın arasından çıxdı, gəlib Bəkillə üz-üzə durdu. Bəkil qoçun buynuzuna vurub, tox-tox elədi. Qoç dalı-dalı qızlara sarı çəkildi. Ətəyi qızlara dəyəndə dayandı. Birdən yerinnən atılıb götürüldü. Bəkilə çathaçatda ayaqlarını göylüyə sancıb dayandı, buynuzlarını yavaşcadan Bəkilin başına toxundurdu. Şəmil kişidən başqa heç kəs bunu gözləmirdi. Hamı qızların səsinə səs verdi:

– Urraa! Urraa!

Mədəniyyət evinin müdiri silkələnə-silkələnə gülürdü:

– Katibin qəbuluna gedib hamısını danışacam. Deyəcəm, yoldaş katib, istedadlar odu yaylaqda. Deyəcəm, yoldaş katib...

– Tox-tox-tox!

Qızlar əl çalıb çığırışdılar.

– Bir də! Bir də!

Təkcə Ağ Qulunun oğlu dinməz-söyləməz oturmuşdu. Tamam başqa şeylər gözləyirdi, Ağ Qulunun oğlu. Yaylağa gələn kimi qızlara ağ ət yedirdəcəydi, araq içib sağlıq deyəcəydi. Deyəcəydi ki, qızlar üşüyər, alaçıqda salın yerlərini. Ortancıl qızı ayırıb, oturdacaydı dizinin üstündə ki, yer soyuqdu, bura yaylaq deyəllər. Utanma, otur dizimin üstündə. Deyəcəydi, gördünmü, necə şirindi ağ ət?! Yoxsa qabaqlar



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yemişdinmi? Bir məni maç elə. Ay sağ ol! Daha əl çəkdim, yoxdu sənnən. Gəlib şəhərdə tapacam səni, ağ ət gətirəcəm sənə. Qoymaram daha ağ ətsiz qalasan.

Görürdü ki, bunnar daha olmayacaq. Gizirlə Toğrulun qamçısı Ağ Qulunun oğlunu qorxutmuşdu.

Qoç özünü Bəkilin üstünə saldı, çatanda yenə yavaşcadan buynuzunu Bəkilin başına vurdu.

– Urraa! Urraa!

– Bir də, bir də.

– Tox-tox-tox!

Qoç dayanıb Bəkilin gözlərinin içinə baxırdı. Qoçun gözləri qan çəkmişdi, qıpqırmızıydı. Xırdaca-xırdaca mələyirdi, daha doğrusu, imrənirdi, yəni deyinirdi. "Bəsdi, Bəkil, gəl çıxaq gedək sürünün içinə".

Bəkil hirslə qoçun buynuzlarına vurdu. Şəmil kişi yerində qurdalandı:

– Bəsdi, Bəkil!

– Tox-tox-tox! Gözünü çıxardaram, ha!

Abdaloğlu gülürdü. Çobanlar da, qızlar da Bəkilə qoşulub gennən-genə – tox-tox-tox, – eləyirdi. Bəkil papağını çıxardıb başını qoçun buynuzlarına sürtdü.

– Sən öl, dağını çıxardaram, üzülmüş! Tox-tox!

Qoç başını silkələyib geri çəkildi.

– Urraa! Urraa!

Ətəyi yenə qızlara dəyəndə götürüldü. Bəkilə çatanda özünü saxlamadı, dilsiz-ağızsız qəzəbiylə iri, burma buynuzlarını Bəkilin başına çırpdı.

Əvvəl uğultu gəldi, sonra dağlar bir-bir yerindən qopub ağır-ağır, yumşaq-yumşaq uçub töküldü, dünyaya qaranlıq çökdü, Bəkil üzü üstə otluğa düşdü.

Şəmil kişi Bəkilin yarasını tutmuşdu, amma qanı saxlaya bilmirdi, barmaqlarının arasından sızırdı. Şəmil kişi bu boyda camaatın arasında Gizirlə Toğrulu çağırırdı. Qoç mələyə-mələyə Bəkilin başına dolanırdı. Qızlar kəpənək kimi titrəşirdi. Ortancıl qızın gözlərinin qarası axıb yanaqları boyu iz salmışdı. Abdaloğlu Bəkili qucağına götürüb avtobusa sarı qaçdı:

– Tez xəstəxanaya!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gizirlə Toğrul özlərini yetirəndə artıq avtobus uzaqlaşmışdı. Burmabuynuz qoç Şəmil kişinin yanını kəsdirib mələyirdi. Bəkilin yarasını, Bəkilin yoxluğunu qoçun səsi çox gözəl ifadə eləyirdi. Gizir də, Toğrul da Şəmil kişinin üzünü görmək istəmirdilər. Qoca kişidi, bəlkə ağlayır elə. Dayanıb qana boyanmış otlara, çiçəklərə baxırdılar. Toğrul sakitcə dedi:

– Bərkmi vurub, görəsən üzülmüş?

Gizir Toğrulun səsinə başını qaldırdı, üzündə qaralan qamçı yerlərinə baxdı, əlini Toğrulun üzündə gəzdirdi:

– Ağrıdırmı? – dedi.

Toğrul da əlini onun üzünə çəkdi:

– Səninki də ağrıdırmı?

Hələ yuxulu kimiydilər. Başlarına gələnləri hələ aydınca anlaya bilmirdilər. Burmabuynuz qoçun səsi batmışdı, xırıldaya-xırıldaya mələyirdi. Sürülər də gendən-genə qoçun səsinə səs verib mələşirdi.

Yalnız burmabuynuz qoç duz üçün mələmirdi.

*1977*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# YEL ƏHMƏDİN BƏYLİYİ

*"Dünya duracaq yer deyil, ey can, səfər eylə..."*
***Nəsimi***

– Sabah Yel Əhmədin toyudu, – dedilər.

Kəndin camaatı qurdalana-qurdalana, üzdən-üzdən xırda işlər görə-görə bir yerə yığışdılar. Əhmədin toyunu fikirləşə-fikirləşə biri inəyini tumarlayırdı, biri sənək dibi döyürdü, biri kilid düzəldirdi. Üzdən-üzdən gördükləri bu xırda işləri atıb hamı bir-birinə sarı getdi. Kəndin camaatı bir yerə yığışıb oldu bir adam. Bir adam kimi də Əhmədin toyunu başladılar... Dabanları ağrıyanacan oynadılar, sonra da hərə öz evinə çəkilib taxtın üstündə oturmuşdu. Darıxdıqlarından ayaqlarını yelləyirdilər ki, indi nolacaq, görəsən?!

Toyun səsi bürkü kimi, hiss edilmədən çəkilib getmişdi, amma istisi-dingiltisi hələ camaatın canındaydı. Oyun havalarının avazı daş çəkici kimi küt-küt camaatın içində tıqqıldayırdı.

Üç gün toy çaldırdılar Əhmədə. Bu üç gündə elə bil camaatı sacda qovururdular. İndi taxtların üstündə oturub ayaqlarını yelləyə-yelləyə soyumaqdaydılar. Soyuyub, iştahsız-iştahsız ot qırpan gün toğlusu kimi əlləri təzədən xırda-xırda iş qırpırdı. İnək tumarlayırdılar, sənək dibi döyürdülər, çəpər kilidi düzəldirdilər, yarma çəkib, duz döyürdülər.

Amma Məzə Möylə qapının girəcəyində oturub hıçqırırdı. Balaca, yosma arvadı yanında dayanmışdı:

– Toydan sonra qulağım ağrıyır, – dedi yosma arvad, – nə pis adammış Əhməd?!

Möylənin hıçqırığı kəsmirdi, ona görə də cavab verə bilmədi. Toy səsi hələ də canında tıqqıldayırdı, hıçqırığı da bu tıqqıltıya qarışmışdı.

– Kor olaydım, topal olaydım, qolum quruyaydı, hıçqırmayaydım!

Möylə arasıkəsilmədən hıçqırdığına görə bilmədi bunu bərkdənmi dedi, ürəyindəmi dedi.

Arvad toyda çox oynamışdı, avazıyammırdı, hələ də oynamaq havasındaydı. Ərinin hıçqırmaqdan uzanıb artıqlamış boynuna baxdı, Əhmədin qarasınca söyləndi:

– Heç gəlib çıxmayaydı, dərin getmişin oğlu!

Qalxıb su gətirdi, əlini Möylənin alnına qoyub su içirtdi. Möylə qurtum-qurtum hıçqırırdı. Arvadı bir də soruşdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qalarmı, gedərmi, ağlın nə kəsir?

Möylə hıçqıra-hıçqıra altdan yuxarı arvadına baxıb çiyinlərini çəkdi:

– Gedənə oxşamır, – dedi.

...Neçə gün idi Molla Qazının evinə getmək istəyirdi, Qazı Mollanın. Amma oturub gözləyirdilər, Qazı deyirdi, qabaqca Molla gəlsin, Molla deyirdi, Qazı gəlsin.

Mollayla Qazının gözü görə-görə Əhməd bəy olurdu...

Toydan sonra təzə gəlinin qardaşları iri, düyünlü bir kötüyü arabaya qoyub Əhmədin qapısına gətirdilər. Kötüyü endirib:

– Əhməd, – dedilər, – bacımızı damın altında tək qoyub qaçsan, özündən küs!

Amma onların bu sözü Əhmədi daha da yerindən oynatdı. Aranın günlü-günəşli təpələri yadına düşdü. Atasının qəzəllərindən bir-iki qatar oxumaq istədi.

Damın çənəsinə söykənib Arana gedən yollara baxdı.

Sudan çıxmış kimi toydan sonra üşüməyə başlamışdı. Günəşli bir gün idi, amma Əhməd tərləyə-tərləyə titrəyirdi. Getmək istəyirdi Əhməd, yol istəyirdi. İstəyirdi qəzəl oxuya-oxuya aranın kəndlərini dolansın, Aranda alma qurusuyla çay içsin.

Kəndin ətəyindən atlılar çıxıb arana sarı at çapırdılar. Əhməd heç bilmirdi fikirləşirmi, fikirləşmirmi. Gördüklərini anlayammırdı. At necə görürdüsə, Əhməd də elə görürdü.

Qonum-qonşu Əhmədə baxıb pıçıldaşmağa başladı. Bir deyəndə kəndi pıçıltı bürüdü:

– Tutması tutub, qaçacaq Əhməd.

Kənd marığa yatıb əlini-əlinə sürtürdü. Sevindiyindən az qaldı Məzə Möylənin hıçqırığı dayansın. Amma Möylə kəndin bilmədiyi çox işləri bildiyi üçün Əhmədin qaçacağına inanmadı, hıçqıra-hıçqıra:

– Pulu var onun, – dedi, – pulun qoyub getməz. Atasının yox idi, onun var.

Atlılar nağıllarda olduğu kimi gündoğana sarı at çapırdılar. Bu, arana sarı dağlar, təpələr aşan yollara yaraşası gözəl bir səfər idi. Qəhərdən Əhmədin boğazı qurudu. Ayaqları qanad kimi gərildi, dabanları sızıl-daya-sızıldaya yola dartındı. Atlıların dallarınca ilğım axırdı. Sayrışa-sayrışa, tərpəşə-tərpəşə gedən ilğım atlıların ayaq izi kimi görünürdü...

Təzə gəlin eşiyə çıxan kimi gördü Əhməd bir himə bənddi, yenə qaçıb gedəcək. Anasının öyrətdiyi kimi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Əhməd, odun yar, – dedi, – Əhməd, suyumuz yoxdu, unumuz yoxdu. Boş-boşuna niyə dayanmısan, ocağımız qalanmayıb, qazanımız asılmayıb! Bir yana qaçsan özümü yandıracam!

Əhməd özü öz içində ayağa durmaqdaydı ki, arvadının buyruqları onu təzədən oturtdu. Ağızdan qışqırtı çıxan kimi kənddən çıxmağa hazırlaşırdı, yavaş-yavaş senib özü öz içinə yayıldı. Baltanı götürüb düyünlü kötüyü döyəclədi. Amma iş gördüyündən xəbəri yox idi. Bunu da at kimi eləyirdi, yəni elə bil bir at səhər örüşə çıxmışdı, axşam da yerinə qayıdırdı.

Arvadının buyruqları zəncir kimi Əhmədin boynuna bağlanırdı. “Qoy bu odunu da yarım, çıxıb gedəcəm”.

Atlılar çıxıb getmişdi. Günbatandan gündoğana sarı dalğalana-dalğalana axan ilğım atlıların ayaq izinə oxşaya-oxşaya havada qaynaşırdı. Sonra da bu ilğım bir dəstə buluda bənzər işıq topasına dönüb Əhmədin fikrində yanmağa başladı, işıqlana-işıqlana düzlərin çiçəyinə, ağacına, otuna, göylərin quşuna qarışa-qarışa, bulana-bulana Aran dağlarına tərəf uçdu.

Düyünlü kötük içindən çatdamağa başlamışdı. Kötüklə bir yerdə az qalırdı kənd də çatdasın. Hamı qaşlarını düyünləyib fikirlərini qırışdırıb gözləyirdilər ki, indicə baltanı atıb qaçıb çıxıb gedəcək. Uşaq böyüyə, böyük uşağa qarışa-qarışa çığırışacaqdılar:

– Ay, Əhməd getdi!

– Oy, Əhməd getdi!

Məzə Möylə yenə qapının ağzında oturmuşdu, qulağını da tutmuşdu kəndə. Hıçqıra-hıçqıra gözləyirdi ki, indicə çığırışacaqlar: “Əhməd getdi”.

Dönüb çəpərin dibində qurdalanan arvadına baxdı:

– Noldu, – dedi, – getmədimi?

– Yox, odun yarır.

Kötük mızıldana-mızıldana içindən çatdayırdı. Əhmədin arvadı kötüyün yarılmağına mat qalmışdı. Qardaşları yığışıb on gün əlləşmişdilər, kötüyü yara bilməmişdilər. Kötüyün yarılması Əhmədin arvadı üçün qorxudan da qorxuluydu...

Anası gəlinliyi bəzəyəndə dedi:

– Gördün yola-izə baxır, işə göndər, qoy qurdalansın, bəlkə yadından çıxa. Düyünlü kötük saxla qapıda, baltanı ver, qoy döyəclәsin. Uşaq olanacandı, onnan sora döysən də evdən çıxmaz...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əhmədin arvadı kötükdən tez çatdadı:

– Əhməd, öküzləri bağla! Əhməd, tövləni təmizlə! Əhməd, başına dönüm!

Su axdığını, axıb-axıb iş görmədiyini bilmədiyi kimi Əhməd də anlamaya-anlamaya iş görürdü...

Atlılar gözdən itmişdi, daha havada atların ayaq izinə bənzəyən ilğım qaynaşmırdı. İndi atlıların ardınca bir topa işıq gedirdi, Aranın sakit, kirimiş dağları ağappaq işıq içindəydi:

– "Gedəcəm, Sarıca Sarı qızı. Qoy kötüyü yarım, öküzü bağlayım, tövləni süpürüm. Gedəcəm".

Əhmədin arvadı Sarıca Sarı qızı gecə düşənəcən Əhmədi ora-bura buyurdu. Axşam düşənəcən də kəndin uşaqlarının səsi gəldi:

– Əhməd atdan yorğadı,
Əhməd alaqarğadı!

* * *

Əhmədin anası xəstəydi, heç toyda da oynaya bilmədi. Amma bir vaxtlar ağırtaxtalı, yaraşıqlı gəlin idi. Dinc, rahat üzü səhərdən axşamacan gülümsəyərdi. Yəqin elə ona görəydi ki, kəndin arvadları, qızları həmişə Əhmədin anasının başına yığışıb dərdlərini danışardılar. Əhmədin anası dərd danışan deyildi, dərdə gülən idi. Kirimişcə-kirimişcə səhərdən axşamacan gülümsəyirdi. Məzə Möylənin balaca, yosma arvadı yumulanda yumurtaya oxşayan balaca əllərini üzünə çəkib deyərdi:

– Bir danış daa, ay qahr olmuşun qızı. Hal balasısanmı, dinsənə. Dərd sənindi, mənə nolub, heç nədən özümə dərd gəzirəm. Dilin yoxdu, ona görə də ərin yanında durmur, dınqır ələk, dınqır saz, bir gün burdadı, üç il Aranda. Gözünü didəcək qarğalar...

Əhmədin anası yumşaqca-yumşaqca, qaynaya-qaynaya gülümsəyirdi. Bu gülümsəmək dərdindən idimi, yoxsa kənd demiş, doğrudanmı hal qızıydı, heç kəs bir şey anlaya bilmirdi. Əhmədin anasının dərdi kəndin zarafatıydı.

Dappır-duppurla toyları oldu. Onu Yel Həmidə verdilər. Əhmədin anası toyunda da gülümsəyirdi. Nənəsi, xalası, bibisi başına yığışıb köçürürdülər:

– Bunnar nəsilliknən gəzərgidi. Evdə oturan deyillər. Babası dan əppəyini Qaradağda yeyirmiş, günortasını Aladağda. Elə elə ki, evə bağlıya bilәsən. Boş yerə nəsillərinə yel nəsli demillər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Neyniyim mən, gedəndə gedəcək, gedəni necə saxlayım?

– İndidən belə demə, ocağa yovuşdur, uşaq olanacan başını qat.

Bir müddət Yel Həmidlə sevinə-sevinə, gülümsəyə-gülümsəyə yaşadı. Bir yazbaşı yer əkmişdilər, səhəri səpəcəydilər...

Yenə axşamüstüydü, Əhmədin anası ocaq qalayırdı. Yel Həmid damın çənə daşına söykənib üzü dağlara baxırdı. Quşu uçub keçən, suyu axıb, yelləri əsib keçən gördü. Gördü dünyada nə varsa, hamısı çıxıb gedir.

– Arvad, – dedi, – mən də gedim, arana dəyim, gəlim.

Əhmədin anası ocağı ətəkləyirdi, ətəyini salıb gülümsədi:

– Yox, – dedi, – Həmid, o getsə, heç nə deməzlər, bu getsə, heç nə deməzlər. Sən getsən, kənd pis baxacaq.

Amma Həmid aranın günlü-göyçək dağlarında avaza gəlib babalarından qalma qəzəllər oxuyurdu:

Bivəfadı çün bu aləm, kimnən istərsən vəfa?
Bivəfa aləmdə sən yari-vəfadar istəmə...

Köklərinə yel deyirdilər. Oğlan uşaqlarını beş yaşınacan ayaqlarına kəpənək tozu sürtüb böyüdürdülər ki, bərk getsinlər. Ulu babaları saqqallarını kösövlə ütüb qırxdığından üzləri göyə çalırmış. Üstlərində dəmir gəzdirməzmişlər. Yel nəsli kəndin yaddaşında belə qalmışdı...

Əhmədin anası ərinə baxıb gülümsəyirdi:

– Onda məni də apar.

Yel Həmid birdən-birə anladı ki, boynu daşa bağlanıb, dartına bilmir. Ona görə daha bərk qəribsədi. Aran dağları alın-yaşılın içində günlü-günlü, göyçək-göyçək onu çağırırdı:

– Səni necə aparım, sən mənnən ayaqlaşammazsan.

Bəs səpinimiz qaldı, hamı əkib-səpib.

Yel Həmid yenə fikirləşdi ki, boynu daşa bağlanıb. Beləcə qüssəylə axşam düşdü. Əhmədin anası gülümsəyə-gülümsəyə ocaq yerini qurdalayırdı.

– Həmid, – dedi, – babangil niyə üzünü kösövnən qırxırmış?

– Mən qırxa bilmirəm, üzüm yanır.

– Həmid, ogünkü mahnını oxu.

– Aran düşüb könlümə. Gedim Arana dəyim, gəlim.

– Yox, Həmid, qoymaram, getsək, bir yerdə gedək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yerlərinə uzanmışdılar. Əhmədin anasını yuxu aparmışdı. Həmid huşamı getmişdi, ayıq idimi, bilmirdi. Çayın, yelin, yarpaqların səsi gəlirdi, Həmid bir onu bilirdi ki, bu gedən ömür-gündü, evlərinin üstüylə səs eləyə-eləyə çıxıb gedir. Nə vaxt qalxdığını bilmədi, heybəsini götürüb qapıdan çıxdı.

Obaşdan idi, kəndin ayıq olan üç-dörd adamı Yel Həmidi qapıdan yel kimi çıxan gördülər. Hay-küy eləyib kəndi oyadanacan dağların ətəyində Həmidin qaraltısı qaldı, sonra o da yox oldu.

Həmidin nəslindən qalma əyilə-əyilə, yastılana-yastılana yeriməyi vardı. Heç kəs gördüyünə inanmırdı ki, bu yerişlə belə bərk getmək olar. Bu, Həmidin özünə də aydın deyildi. Getdiyini bilmirdi. Başının üstündə uçan quş, yanıyla axan çay, üstündən əsən yel aparırdı Həmidi. O vaxt ki, ayılıb görürdü gedir, daha bərk gedə bilmirdi.

Hay-küyə arvadı da qalxdı. Qalxıb yanını boş gördü. Qız-gəlin başına yığışmışdı. Ərinin qaçmağı üstünün açılması kimi bir şey idi. Ona görə də utanıb-utanıb axırda gülümsədi. Bu gülümsəməyinin içiylə bir-iki damcı da yaş axdı. Onda Yel Həmid Aladağın ətəyində günlü-göyçək, kirimiş dağlara yaraşası yumşaq bir səslə avaza gəlib qəzəl oxuyurdu:

Taqətim, səbrim tükəndi, yarsız mən neylərəm?
Əqlimi şeyda qılan ol çeşmi fəttan ayrılır.

Aranın dəmyə ağacları təki bərkiyib qurumuş aran kişiləri Aranın istisini-bürküsünü səksəndirə-səksəndirə evdən-evə çapıb qışqırırdılar:

– Yel Həmid gəlib, dərviş gəlib?

Sonra Aranın bir evinin eyvanında Yel Həmidə alma qurusuyla çay vermişdilər. Həmid alma qurusuyla çay içirdi.

– Hə, – dedi, – bunu yazanın dərisini soyublar.

Aranın dəmyə ağacları kimi quruyub bərkimiş adamları başlarını yellədilər. Yel Həmid çayını içib:

– Bir gedim, Aranın o kəndlərinə də dəyim, – dedi. Heybəsini götürüb yola çıxdı. Yenə əyilə-əyilə, yastılana-yastılana gedirdi. Deyirdin bu yerişlə Yel Həmid bir yana çıxa bilməz. Amma Həmid kəndin gözü görə-görə yox olurdu. Kənddən biri at minib ardınca düşdü.

– Dəymə, – dedilər, – sən allah, qoy atnan getsin görək bu nə sirdi.

Həmidə çatanacan atlı uzun bir yol getdi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bütün Aran Həmiddən qəribə bir nağıl düzəltmişdi. Özündən çox, onun nağılına inanırdılar. Bu nağılın qorxusundan idimi, sehrindən idimi atlıya elə gəldi ki, heç vaxt Həmidə çata bilməyəcək. Qorxulu-qorxulu atı qamçıladı. Bir şey anlamayan at büdrəyib yolun qırağına sarı sərpildi. Atlının papağı başından düşdü. Atın başına-gözünə döyüb qaytardı, enib papağını götürdü. Əlləri-ayaqları əsirdi, yüyəndən yapışıb mat qaldı.

– Lənət sənə, kor şeytan, – dedi, – təzədən mindi atı, qamçılayıb yola çıxartdı. Hava istiydi, atlıdan da, atdan da tər damcılayırdı.

Aranın alçaq təpəliklərinin arasıyla ilğım axırdı. İlğımın içində Həmidin qaraltısı əyilib-yastılanıb, görünüb yox oldu. Atlı atı qamçılayıb qaraltının ardınca çapdı.

Bu istinin, bu ilğımın içində Aranın tozlu burulğanı qalxdı. Yoldaizdə nə vardısa – çörü-çöpü təzəyəcən qaldırıb atlının da, atın da gözü qabağında burulub-burulub göyə dirək oldu. At fınxırıb dalı-dalı getdi, yoldan çıxıb özünü yemişan kollarına çırpa-çırpa düzənliyə sarı götürüldü. Atlı yaradanı da, onun yaratdıqlarını da söyə-söyə gəldiyi yolu təzədən gəlməyə başladı. Aranın alçaq təpələrinin arasında atlı az qalırdı özü-özünü dəli eləsin. Söyüşləri, deyintiləri qurumuş, sarı dərələri doldurmuşdu. At da, atlı da özü özlərindən hürkmüşdü. Təzədən yola çıxdı. Amma birdən-birə bilmədi bu təpələrin arasında neyləyir, axtardığı nədi. “Lənət şeytana!” – deyib xeyli fikrə getdi.

Atı da elə bil bayaqdan şeytan qovurdu, dincəlib gözlərini yola dikmişdi. Bu fikir-xəyal içində atlı başını qaldırıb axırıncı təpənin belində qaraltı gördü. Hər şey yadına düşdü. Atdan çəkinə-çəkinə dəhmərlədi, yola düşdülər. Bir də baxdı, qaraltı yox idi. O, təpənin belinə çatanacan bilmədi azmı keçdi, çoxmu, təpənin belində üzünü burula-burula enib gedən torpaq yola tutub çığırdı:

– Ay Yel Həmid, ay dərviş Həmid!

Atlını qəhər boğurdu, Həmidi çağırandan sonra az qaldı ağlasın. Həmidin ardınca kənddən zarafatla çıxmışdı. Artıq zarafatı, məzəsi qalmamışdı. Atı da, özü də canavar üstə çıxmış kimiydi. Beləcə, heç nə fikirləşməyə-fikirləşməyə bir bələn də aşdı. Qonşu kəndi görüb özünə gəldi. İstədi qayıtsın öz kəndlərinə, camaata desin ki, deyilənnər doğruymuş, çatmaq olmaz Həmidə. Bir kənd də ardınca düşsəydim, dəli olardım. Bir az da getdi, gördü Həmid kəndə çathaçatda oturub çayın qırağında ayağını yuyur. Yaxınlaşdı, salamı-kalamı unudub:

– Bu nə təhər getməkdi, ay Yel Həmid, – dedi, – doğrudan da yel aparırmış ki, səni.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həmidin ayaqları sudaydı, bayaq özü ilğımın içində necə görünürdüsə, ayaqları da suyun içində atlının gözünə elə görünürdü. Qollarını da dirsəyinəcən çirməmişdi, qollarını da suya saldı, dodaqlarının ucunda dua oxuyurmuş kimi nəsə dedi.

Ovcunda su götürdü, üzünü suya salıb quş çimirmiş kimi, kipriklərini qırpa-qırpa gözlərini çimizdirdi, ovcundakı suyu dirsəklərindən axıdıb təzədən su götürdü, suyu burnundan çəkib burnunu da yudu, yuyunub, yaxalanıb başını qaldırdı, xeyli üz-gözü tərdən işım-işım işıldayan atlıya baxdı:

– Nə deyirsən?

Atlı doğrudan da əvvəl bilmədi nə demək istəyir, bir az fikrə getdi:

– Nə qədər at sürdüm, ardınca çata bilmədim.

Həmid ayağını geyinirdi, arıq, sümüyü çıxmış ayaqları vardı, atlı baxa-baxa qalmışdı:

– Ə, sən allah, bir de görüm, kəpənəyi harasına sürtürdün ayağıyın?

Həmid dinməz-söyləməz heybəsini götürüb yola düşdü. Atlı kəndə qayıtmaq istəyirdi, nə fikirləşdisə, Həmidin ardınca getdi. Həmid gördü atlı da ardınca gəlir, birdən-birə yoruldu. Dönüb atlıya baxdı:

– Ayaqlarım qırılır, – dedi, – yoruldum.

– Bə nə təhər yeriyirdin, axı bayaq? – Atlı sözünü deyə-deyə fikirləşdi ki, yox, arada nəsə var, – sən inandığın, düzünü de, görüm arada nə var ki, dalınca çıxdım, çata bilmədim.

Həmid ayaqlarını sürüdü-sürüdü, sonra dayandı:

– Sən get, – dedi, – mən sənnən gedə bilmərəm, mən yorulmuşam, sonra gələrəm.

Atlı atından düşdü, Həmidin heybəsini alıb onu ata mindirdi:

– Sənin xəbərin yoxdu, səhərdən ardınca at çapıram ki, görüm nə sirdi axı bu?

– Nə sirr olacaq, mən də camaat kimi, yoldu gedirəm.

Atlı çiyinlərini çəkib fikirli-fikirli atı yedəklədi. Kəndə çatdılar. Həmid kəndi, kəndin adamlarını görən kimi istədi avaza gəlib oxusun, yəqin atın belində olduğundan idi, səsi boğazındaca yüz yerindən deşilib boşa çıxdı. Kəndin uşaqları Həmidi tanıyıb qışqırışdılar.

– Dərviş gəlir, Yel Həmid gəlir, Yel Həmid!

Camaat yola çıxdı, Həmidi atın belində görüb əvvəl bir-birinə baxdılar, sonra gülüşdülər:

– Dərviş də ata minərmi, – dedilər, – ay saqqalı yanmış!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaşlı kişilərdən biri yavaşcadan:

– Bunun babaları, – dedi, – saqqallarını kösövlə ütürmüşlər, elə qırxıllarmış üzlərini.

Atlı camaatın arasında başını ora-bura uzada-uzada deyirdi:

– Kənddən çıxan kimi ardınca at sürdüm, çatammadım, gəldim ki, çayınızda ayaqlarını yuyur, sonra gözünü də yudu.

Amma atlının demək istədiyi yenə bu deyildi, ona görə də bilmirdi nə deyir. Boğazında söz qalmışdı, bütün canı göynəyirdi.

– Ardınca at getmir, – dedi, – hürkür.

Kənd bir yerdə olduğuna görə atlının dediyi bu sirrə, sehrə heç kəs fikir vermirdi, su üstündə, bağ-bostan üstündə dünənəcən elədikləri dava-dalaşı unudub Həmidnən məzələnirdilər:

– Ə, bir oxu, ay Həmid, çoxdandı səsini eşitmirik.

Həmid istədi oxusun, yenə oxuya bilmədi. Atdan düşüb:

– Çayı kimin öyündə içəcəyik? – dedi, – kimin qurusu yaxşıdı? Alma qurusu istəyirəm.

Atlı bir qıraqda dayanıb düşüncələrə dalmışdı. Haçandan-haçana başını qaldırdı, gördü ki, Həmid bir həyətdə ağacın altında oturub çay içir. Atı minib kənddən çıxdı. Sakitlik idi, nə ilğım var idi, nə boğanaq qalxırdı. At yorğaya düşüb gözəl bir yerişlə kəndə tələsirdi.

Yel Həmid bir-iki stəkan çay içəndən sonra yavaş-yavaş avaza düşməkdəydi:

Dünya duracaq yer deyil, ey can, səfər eylə...
Aldanma anın felinə, andan həzər eylə...

Yaylaqda Həmidin gözünə görükən allı-güllü Aran təpələri əslində allı-güllü deyildi. Çöllər-çəmənlər vaxtından tez saralmışdı. Həmid qəzəl oxuyurdu, kəndin güləni gülürdü, danışanı danışırdı, dinc duranı yox idi, hamı qurdalanırdı. Həmid oxuyub-oxuyub yenə getmək istədi, getməyin havası Həmidin üstünə yuxu kimi enirdi. Gözlərini ovxalayıb, əlini üzünə çəkdi:

– Gedim, o biri kəndlərə də dəyim, – dedi.

Qaş qaralırdı, dünyanın dar çağı gəlirdi. Axşamın bu cür kədərli-kədərli enməyi də Həmid üçün getmək havasıydı.

– Qal, – dedilər, – axşam düşür, o kəndlərə yol uzaqdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həmid heybəsini çiyninə aldı. Qızın-gəlinin arasından qırmızı yanaqlı bir arvad çıxdı:

– Dərviş qardaş, deyinim var, meyxana eləmək istəyirəm, qal mənim meyxanamı eləyək. Səhər gedərsən.

...Gecədən keçmişdi, arvadın evi kəndin camaatıyla doluydu.

Uşaqlar axşamdan oturduqları yerdəcə yatmışdılar. Yuxarı başda, xalça üstündə səs-səsə verib avazla tənəkə döyən müridlərin səsindənmi, arvadların, kişilərin ayaq çırpa-çırpa oynadıqlarındanmı uşaqların çoxu yuxularında uçurdular.

Yel Həmid oxudu-oxudu, birdən havalandı, yellənib ortaya çıxdı, gözlərini yumub başladı oynamağa.

Qapının bir yanında soba yandırmışdılar, bir yanında samovar qaynayırdı. Kənd camaatı çoxmu irəli getmişdi, yoxsa dalamı qalmışdılar, meyxananı toy kimi başa düşürdülər. Meyxanada da toyda oynadıqları kimi oynayırdılar. Biri oynayıb-oynayıb qışqırdı:

– Molla əmi, bir "Tərəkəmə" də çal! Çoxdandı kənddə toy olmur.

Yel Həmid oynadı-oynadı, sonra bütün bildikləri, harda olduğu, hara gedəcəyi yadından çıxdı, elə bildi göydən asılıb, yel vurur, o da yellənir.

Bir xeyli ayaqlarını yerə döyə-döyə çırpındı. Samovarın dibində çöküb lüləsini açdı, su qaynaya-qaynaya əlini-üzünü yudu. Müridlərdən biri:

– Yel Həmid cəzv oldu, – dedi.

Oynayanların əlləri havada qaldı. Əvvəl gülüşdülər, sonra gördülər samovarın buğu Həmidi bürüyüb, yer-yerdən səs-səsə verdilər:

– Ə, bu yazıq yandı, özünü yandırdı, qoyma!

Müridlər:

– Dəyməyin, – dedilər, – yanmaz. Bunun babaları üzlərini kösövnən qırxırmış.

Camaat təzədən gülüşdü. Müridlər suçlu-suçlu camaata baxdılar:

– Siz Allah, toya döndərməyin arvadın meyxanasını.

Həmidin bütün bədəni ürəyi kimi çırpınırdı. Müridlər arvadı çağırıb Həmidi göstərdilər.

– Həmidə görə diləyin qəbul olundu, başa vardı, cəzv oldu Həmid. Taxtın üstündə yer sal, dincəlsin.

Qoluna girib taxta çıxartdılar. Həmidin gözünün qabağında bir cüt yalın ayaq od alıb qızarmış sobanın üstündə oynayırdı. Həmidin atasıydı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O vaxt altı-yeddi yaşı vardı, atası onu da Arana gətirmişdi. Hansı kənd idi, yadında deyil, meyxanadaydılar. Bir küncdə bürüşüb oturmuşdu. Müridlərin avazı, oxuduqları sözlər hələ də yadındaydı, indi də ürəyində müridlərin o vaxtkı avazıyla oxuyurdu: "Cənnətin bülbülləri oxur, "Allah" deyə-deyə".

Atası oynadı-oynadı, birdən qıpqırmızı qızarmış sobanın üstünə çıxdı:

– Allah, yanındayam, Allah, yanındayam, – deyə-deyə başladı sobanın üstündə oynamağa.

Həmid gördü ağlamaq istəyir, gözlərini yumdu. Camaat yenə gülüşürdü, bir-bir gəlib Həmidin əllərinə baxdılar. Gördülər yanmayıb, lap bərkdən güldülər. Axırda müridlər də güldülər. "Tərəkəmə" istəyən kişi əyilib samovarın lüləyini açdı, barmağını altına tutdu, ufuldaya-ufuldaya eşiyə qaçdı. Camaat da dalınca. Ordan da dağılışıb hərə öz evinə getdi. Ayrılıb tək qaldıqları üçün bunun nəsə sirli-sehirli bir şey olduğunu anlayıb düşünməyə başladılar. Bu da çox az çəkdi, yəni gözlərinə yuxu gedənəcən səksəkə içində qurdalandılar. Gördüklərinə inanmaya-inanmaya yuxuya getdilər...

Aranın dəmyə ağaclarına oxşar quru, sağlam kənd adamları dan yeri sökülən kimi oyandılar. Öküzü olan öküzünü, kəli olan kəlini, atı olan atını qoşdu, əkinə, səpinə getdilər. Onların işə getməyi, gördükləri işlər, elədikləri gaplar, günün çıxmağı, suyun axmağı kimi düşünülməmiş, qurulmamış, yalandan uzaq olduğu üçün bu cür nağıllar, bəzəmələr əl içi kimi açılıb, birdən-birəcə boş şey olurdu. Ona görə də dan yerinin təmiz, ayazlı havasında o əkindən bu əkinə məzələnə-məzələnə bir-birini səsləyirdilər:

– Aya, Yel Həmid gedibmi görəsən?

– Bu vaxta Yel Həmidmi qalar? İndi Qaraçöpdə qəzəl oxuyur.

İsti, ılıq əkinlərə səpdikləri toxumlar kimi hamı içindən-içindən cücərirdi, hamının səsi, əlləri, ayaqları, düşüncələri sağlam idi. Allahın özünə də adam kimi baxırdılar. Yəni "Varsa da özü bilər, yoxsa da. Özü bilən yaxşıdı. Mən inandığıma inanıram". Yel Həmid də onlara daha çox məzə üçün lazım idi. "Həmidin ardınca at sürüblər, çatammayıblar. Həmid qaynar samovarı başına tökür, yanmır. Həmid şüşə yeyir, Həmid od üstündə ayağıyalın oynayır. Babaları saqqallarını kösövlə..." Bunların çoxunu gözlərilə görsələr də bilirdilər ki, arada nəsə var. Amma bilmirdilər ki, arada olan nədi. Çox dərinə getmirdilər ki, birdən yalanı çıxar. Ona görə də məzələnirdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ay Vəli, ay Vəli, belin qırılsın, "Tərəkəmə" çaldırammadın müridlərə. Ara yerdə barmağını yandırdın.

Elə bu vaxt Yel Həmid Təkəli kəndiylə Qaraçöpün arasında yol gedirdi. Yolun dörd yanıyla əkinlər uzanırdı. Toxumlar balalamışdı, telləri bir qarış olub Yel Həmidin qulağının dibindəcə yellənirdi. Amma Həmid əkinlik, səpinlik deyildi. Bu boyda əkinin, səpinin qırağından bir boyun öküzün yanından keçirmiş kimi keçirdi. Həmidin özünün də xəbəri yox idi ki, oxuduğu qəzəllərin yarandığı vaxtı axtarır. Axtara-axtara bir də görürdü ki, gəlib yenə öz kəndlərinə çıxıb. Öküzləri boyunduruqda, əkinləri cücərməkdə... Bir az ağacın qırağında oturacaydı. Əhmədin anası qəhərini gülümsəməyiylə əridə-əridə deyəcəydi: – Daha getmə, dərdin alım, ay Həmid, mənə deyillər ki, sən pissən, sənnən qaçır ərin... Elə oradaca Həmid yenə qəzəlini oxuyacaydı: – Dünya duracaq yer deyil, ey can, səfər eylə.

Qalxıb söykənəcəydi damın çənəsinə, görəcəydi ki, sular axıb gedir, quşlar uçub gedir, dağların ətəyindən də bir dəstə atlı çıxdı, üzü Arana sarı atlarını çapıb getdilər.

Hələ Təkəliylə Qaraçöpün arasında yol gedirdi. Yol getməyi də meyxanada oynayıb-oynayıb cəzv olması kimi bir şey idi. Yəni yol getməyindən xəbəri yox idi. Bir təpənin başında özünə gələndə bir də görürdü ki, o biri təpənin başındadı. Özünə gələndə arvadı yadına düşürdü, tələsə-tələsə, "bir gedib o kəndə də dəyim", – deməyi də arvadını xatırlamağındanıdı. Kənddən çıxdığı üç ay idimi, beş ay idimi, bir il idimi, xəbəri yox idi. Heybəsində o kənddən bir qırıq, bu kənddən iki qırıq götürdüyü üç düzüm alma qurusunu, beş-altı narı, heyvanı bir də nə vaxt qayıdacağını bilməyə-bilməyə gözləyən Əhmədin anasına aparırdı:

...Əhmədin anasısa günləri sayırdı, bilirdi ki, yeddi, səkkiz aydı Həmid evdən çıxıb. Gülümsəyə-gülümsəyə zəminin qırağında oturmuşdu. Öz əliylə səpdiyi taxıl zəmisi dən tutub adam gözləyirdi. Elə özü də gözləyirdi, boyluydu, qarnı burnuna dəyirdi. Sünbüllər qaz kimi qığıldaşa-qığıldaşa səs eləyir, Əhməd də anasının qarnını təpikləyirdi. Beləcə oturmuşdu Əhmədin anası, gülümsəyə-gülümsəyə yollara baxırdı. Qonum-qonşu taxılını biçib, xırmanını döyürdü. Sonra yığışıb Əhmədin anasının da taxılını biçdilər.

Aran kəndlərinə baxanda bu kənd dağ kəndiydi. Adamları da Aran adamları kimi deyildilər. Alçaqboylu, enli adamlar idi. Elə bil böyüyə bilərmişlər, özləri istəməyib. Bir az sıxılıb içlərinə yığılıblar ki, dağ yeridi, üşüməsinlər.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Amma soyuqda da bu cür geyinirdilər, istidə də. Dünyanın istisi-soyuğu bir idi onlarçın. Aran adamları kimi hamı birdən məzələnməzdi. Məzə bir adamdan keçərdi. O da Məzə Möyləydi. Gülməyə, məzələnməyə hazırlaşa-hazırlaşa tələsmədən, ağırından oturub Möyləni söylədərdilər. Yenə qatarla xırmanın qırağında əyləşdilər. Məzə Möylə oturmadı, gendən-genə:

– Aaz, gözünü çək yoldan, – dedi, – Arannan adam gəlib, deyir, Həmidi evləndirdik, toyunu da meyxanaynan elədik.

Əhmədin anası gülümsəyirdi: Kəndin kişiləri də gülümsədi. Biri yerini bir də rahatlayıb:

– Ə, sən canın, dünya nədi deyirdi, o Yel batmış?

– Mənim də yadımda qalmır vallah, dayan, o uşağı çağırım, o yaxşı bilir. A bala, Həmid əmin dünya nə təhər yerdi, deyir?

– Dünya duracaq yer deyil, səfər eylə!

Bir az kirimişlik oldu. Birdən Məzə Möylə əlini əlinə vurub uğunub getdi. Sonra da oturanlar bir-birinin ardınca gülüşdülər:

– Ə, sən öl, bir gün dünyadan çıxacaq o.

Yaşlı kişilərdən biri dizi üstə qalxıb Əhmədin anasını səslədi.

Əhmədin anası gəlib xırmanın bir ətəyində əyləşdi, gülümsəyə-gülümsəyə kişilərə baxdı. Əhmədin anasını görüb qonum-qonşudan o biri arvadlar da ərklənə-ərklənə yaxınlaşıb onun yanında özlərinə yer elədilər.

Bayaqkı uşaq da dayanmışdı bir qıraqda, istəyirdi ortalığa keçsin. Baxdı daha soruşan yoxdu, öz-özünə Həmidin qəzəlindən bir qatar da dedi:

– Aldanma onun felinə onnan həzər eylə!

Kişilər:

– Ə, dayan, ə, dayan, – dedilər, – hancarı, a bala, nə təhər?

Aldanma onun...

Məzə Möylə keçib uşaqla yanaşı dayandı:

– Onun demir axı, deyəsən ayrı cürdü.

Kişilərin hərəsi bir söz dedi, heç nə düzəldə bilmədilər. Əhmədin anası gülümsəyə-gülümsəyə yerində qurdalanırdı, sonra elə oturduğu yerdəncə:

– Aldanma anın felinə, annan həzər eylə! – dedi.

Məzə Möylə ciyildəyə-ciyildəyə uğunub getdi, gülə-gülə gəlib arvadının yanında oturdu. Qolunu boynuna saldı:



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mən qapıdan girəndə sən az qalırsan bacadan çıxasan. Görürsənmi, xalxın arvadını.

Arvad təzədən yaşmanıb Əhmədin anasına sarı döndü:

– Aaz, Həmidə deyərsən, bir də gedəndə bunu da aparsan, qulağımız dinc olsun bir az.

– Hanı Həmid, gəlirmi ki? – Əhmədin anası gözlərinin yaşını qaynada-qaynada gülümsədi.

Möylənin arvadı:

– Baxtı qaranın qızı, ağlayanda da gülə-gülə ağlayır, – dedi.

Xırmanın üstündə bir bölük kəpənək uçuşdu, ora dəstələndilər, bura dəstələndilər, axırda biri Əhmədin anasının qarnının üstünə qondu. Sancılıb qanadlarını Əhmədin anasının ürəyiylə bir tərpədə-tərpədə uçundu. Sonra da qalxıb bir kərə xırmanı dolandı, Arana sarı üz tutub havanın göyļüyündə yox oldu.

Arvadlar kişilərə, kişilər arvadlara baxdılar. Məzə Möylənin məzəsi dilində qaldı. Arvadı özünü didişdirib:

– Boy, boy, – dedi, – şükür yaratdığına, ay Allah!

Arvadlı-kişili hamı bu bir anın içindəcə nağıl quraşdırmağa başladı. Möylə səksəkəli-səksəkəli gülüb:

– Qarnındakı da gedəcək, aaz, – dedi, – çıxan kimi "dədə" deyə-deyə gedəcək. İndidən yelinə kəpənək uçur...

Kəpənəyin gedəni getmişdi, qalanı arvadların şalına, kişilərin papağına qonurdu. Amma nə iş vardısa yalnız Əhmədin anasının qarnının üstünə qonan kəpənəkdə vardı. İllərin, ayların harasındasa başlayıb düzələ-düzələ, yarana-yarana gələn Yel nəslinin tarixi yerdən-göydən, Allahın özündən də çox kəpənəklə bağlıydı. Həmidin taxılını xırmanından evinə daşıya-daşıya kişilər də ona görə bir-birindən soruşurdular:

– Gördünmü, sən allah?

– Ə, "gördün" də sözdümü, qanım qurudu. Bunnarın bir nənəsi olub havaxtsa, oğlan uşaqlarını kəpənək tozuynan mayalayırmış.

Yel Həmidin xırmanı boşaldı, taxılını damına daşıdılar. Kişilər çıxıb getmişdi, arvadlar da təzə getmək istəyirdilər ki, Əhmədin anası gülümsəyə-gülümsəyə Möylənin arvadını səslədi:

– Geri qayıt, az, doğacam deyəsən!

Möylənin arvadı yosma bir arvad idi. Başına bağladığı əl hanasında toxunmuş güllü şal ayağına dəyirdi. Şal boydaydı Məzə Möylənin arvadı:

– Gülür yenə batmışın qızı. O Yel ölmüş gələndə baldırına bağla, bir də getməsin, – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağızdan-ağıza, qapıdan-qapıya, bacadan-bacaya kəndə hay düşdü ki, bəs, Yel arvadının qarnına günorta kəpənək qonmuşdu, axşam da doğdu.

Yel Həmidin evisə bu nağılların içində sirr sandığı kimi xırmanın qırağındaca qaralırdı.

Məzə Möylənin arvadı Yel Həmidin qaraltısınca məzələnə-məzələnə Əhmədin anasına quymaq yedirdirdi. Uşaq birinin qucağındaydı, çığıra-çığıra ağlayırdı. Anası quymaq yeyə-yeyə:

– Adı Əhməddi, – dedi.

Arvadların hamısı bir yerdən:

– Yox, – dedilər, – Həmidə uyğar olmasın, Əhməd qoyma, Yaqub qoy.

Əhmədin anası:

– Yox, – dedi, – Əhməddi, boyuma düşənnən adını Əhməd qoymuşam.

Arvadlar səs-səsə verdilər:

– Əhməd qoyursan, qoy, indi Yel eşidib harda olsa gələcək. Gələn kimi at üstünə, deynən saxla uşağı, qoy gözünü açammasın.

Məzə Möylənin arvadı:

– Qalan döyül, – dedi, – istəyir yüz uşağı olsun, tutması tutdu, gedəcək.

– Ağlın olsa, aldadarsan onu.

– Hancarı alladım, necə alladım, – dedi, Əhmədin anası.

– Belə, altına alaqarğa qoy.

Uşaq pişik kimi qışqırdı, arvadlar əllərini ağızlarına tutub xısın-xısın gülüşdülər. Əhmədin anası elə yaranandan gülümsəyirdi. Gülümsəyə-gülümsəyə bir də soruşdu:

– Nə qoyum altına?

– Alaqarğa qoy, deyinən sən doğmusan.

Arvadlar lap bərkdən gülüşdülər. Əhmədin anası:

– Heç elə şey olarmı? – dedi.

– Onda deynən, gördüm göydə küçük hürürdü.

...Ağızdan-ağıza, qapıdan-qapıya, bacadan-bacaya yayıldı ki, bəs Yel Həmid ildə bir kərə üstü kəpənəkli alaqarğa doğurmuş. Ona görə də Arana qaçır, qarğasını salır, gəlir.

Dağ kəndi yazda yer əkirdi, toxum səpirdi, sürü otarırdı, qışda qoyun doğuzdururdu, kirkirədə yarma çəkirdi. Yaz əkinlərinin, yaz səpinlərinin, göyə-göyərtiyə çıxan sürülərin, döl ayağında doğan qoyunların,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yarma çəkən kirkirənin yanıyla Yel Həmidin təzə nağılları düzələ-düzələ, yarana-yarana üzü bəri gəlməkdəydi. Amma Yel Həmid hələ gəlib çıxmamışdı.

Əhməd altı aylığında yeridi, bir yaşında yürüdü, elə bir yaşında adına yeli də qoşdular, oldu Yel Əhməd.

Dağ kəndisə qarğa görürdü, gülürdü, qapıda küçük hürürdü, gülürdü.

Məzə Möylənin yosma arvadı özünün düzəltdiyi, qurduğu nağıla çaşıb qalmışdı:

– Nə bilim, vallah, yəqin elə doğruymuş ki, belə də çıxdı. Ağla gələn başa gələr. Yeldən nə desən, çıxar, qonşu mənimdi, halına da mən bələdəm.

Dağ kəndinin uşaqları Yel Həmidin qapısından yel kimi elədən-elə əsirdilər, belədən-belə. Qapıdakı küçüyün gözünü dörd eləmişdilər, qorxusundan daha hürmürdü, miyoldayırdı. Kəndə qarğa heç, quş da qonmurdu. Nə ağacında, nə dağında alaqarğa bala çıxarırdı. Alalı, qaralı qarğa görən kimi haylayıb, huyluyurdular:

– Alaqarğa, bu dağınmı maralısan?

– Ağaqarğa, Həmidinmi balasısan?

Dağ kəndi Həmidin nağıllarına dirsəklənib dincələ-dincələ yerini əkirdi, toxumunu səpirdi, qoyununu doğuzdururdu, yarmasını çəkirdi.

Yel Həmid adına bağlanan söz-gapla hamının ömründən beləcə, gecəli-gündüzlü, aylı-günlü bir ömür kimi keçməkdəydi. Qocalan da bu nağılları danışıb qocala-qocala dincəlirdi. Uşaqlar üçünsə bu nağıllar paçaaşırma mindikləri qarğı atıydı. Həmidin adına düzələn söz-gapı minib evinin qabağında elədən-elə, belədən-belə çapa-çapa böyüyürdülər.

Yel Əhmədin də dörd yaşı vardı. Yel Həmidin getdiyi elə bil bu gün idi.

– Ay, gün də yel olub, – deyirdi kəndin camaatı, – gözümüz görə-görə uçur üstümüzdən. Həmidin getdiyi dünəndi, bu gün Əhmədin dörd yaşı var...

– Əhməd bala, mil dur görüm, ay sağ ol... Ə, bir sən allah, fikir ver!

Əhməd harda deyirdilər, orda mil durub, ağzı tərsinə, burnu tərsinə, gülməyi tərsinə, baxmağı tərsinə kəndin camaatına baxırdı.

– Daa bəsdi, qalx. İndi o toyuğu tut görüm.

Toyuq Əhmədi görüb elə bildi yumurtlayır. Yumurtlayırmış kimi çöküb qanadlarını salladı. Elə bil toyuq papaq idi. Əhməd papaq kimi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kirimişcə toyuğu götürüb qucağına aldı, gətirib kəndin camaatına uzatdı. Toyuq camaatı görüb dəli kimi partladı, əldən çıxıb qaqqıldaya-qaqqıldaya uzaqlaşdı. Kəndin camaatının yarısı toyuğa gülürdü, yarısı da elə-belə, bilmirdi nəyə gülür. Əhməd mil durandan sonra, toyuqları, kəpənəkləri əlini uzadan kimi tutandan sonra, Həmidin başının üstündə küçük hürməsi, alaqarğa yavaş-yavaş kəndin yadından çıxdı. Dağ kəndinin məzəsi təzə üz gətirmişdi, yəni indi də Əhmədlə məzələnməyə başlamışdılar. Uşaqlar Əhmədi görən kimi şərqi ilə oxuyurdular:

Əhməd alaqarğadı,
Ayaqları yorğadı...

Əhməd də atdana-atdana, uşaqların şərqisindən keçə-keçə özündən özü boyda böyük uşaqları bir-bir geridə qoya-qoya Aran yolunacan qaçırdı. Uşaqlar onda gəlib çıxırdılar ki, Əhməd çəmənliyin bir yerində oturub, başının üstündə də o qədər kəpənək var ki, hər çiçəyə biri düşər. Axşam da dağ kəndinin evlərində uşaqların sayı qədər Əhməd nağılı qoşulurdu:

– Bir də gördük geyməsini də qanad kimi belə eləyə-eləyə uçdu getdi.

– Aran yolunda otluğun içində tapdıq. Gözlərinə kəpənək qonmuşdu, burnuna kəpənək qonmuşdu.

– Eləydi, eləydi, kəpənəkdən görünmürdü, hərəmizə də bir kəpənək verdi.

– Alaqarğa da vardı yanında.

– Başının üstündə də küçük hürürdü...

Kəndin ağzı bir olmuşdu, bir ağızdan soruşdular:

– Bu qırılmış nə deyir, ay başına dönüm. Zarafat-zarafat, axırda dəli olacağıq hamımız.

Daha heç kəs Yel Həmidi gözləmirdi, hamının əli üzülmüşdü. Əhmədin anası gülümsəyə-gülümsəyə ağlayırdı. Xalası, bibisi yığılmışdı başına, hamısı birdən danışırdı. Hamısı da bir şey deyirdi:

– O da öldü, qaldı yollarda, qurda-quşa yem oldu.

– Hər nəydi, yenə adam idi başımın üstündə, – dedi Əhmədin anası, güldü də, ağladı da.

Arvadlar da istədilər ağlasınlar, amma Əhmədin anası həm gülüb, həm ağladığı üçün ağlaya bilmədilər. Əhmədin anasının elə bil gözü



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

başqa arvadın idi, üzü başqa arvadın. Gözünə baxan ağlamaq istəyirdi, üzünə baxan gülmək. Gözünə baxıb ağlamaq istəyənlər:

– Əri ola-ola, dul qaldı, baxtıqara, – deyirdi.

Üzünə baxıb gülmək istəyənlər:

– Cinnidən sənə ər olmazdı, neynirsən. Gələr öyüdü, gedər yoludu, – deyirdi.

...Bu vaxt Yel Həmid Aran kəndlərini bir də təzədən gəzməyə başlamışdı. Daha onu görən kimi, "dərviş gəlir, dərviş gəlir", deyən yox idi. Görən soruşurdu:

– Eləmi, hara gedirsən, başıyın üstündə küçük hürür. Evini Allah tiksin, nə desən çıxacaq sənnən.

Həmid hələ anlaya bilmirdi ki, "küçük" deyəndə nəyi deyirlər. Dinməz-söyləməz camaatın üzünə baxa-baxa camaatı daha da dolaşdırmışdı. İstəyirdi bir-iki qatar qəzəl oxusun, küçük gəlirdi dururdu gözlərinin qabağında.

Qaçağandan keçdi, Təkəlidən keçdi, gəlib o kəndə çatdı ki, bir vaxtlar qırmızıyanaq arvadın evində meyxana eləmişdi. Kənd bir-birinə dəydi. Uşaqlar dəstə bağlayıb kəndin arasında yelə döndülər:

Əhməd alaqarğadı,
Dabanları yorğadı.

Vəli öküzlərini yedəkləyə-yedəkləyə səpindən qayıdırdı. Həmidi görüb:

– Ə, bir əylən, – dedi, – eləmi bir oğlun olub, başı qarğa başıdı? Düzünü de, sən öl, dəlinin biriyəm, qamçının altına sallam səni. Dərviş-mərviş qanmıram mən.

– Nə oğul, oğlum-zadım yoxdu mənim.

– Nə qarğa? Qarğa çıxır deyillər sənnən.

– Ə, işinə get, ə. Get özünə iş tap.

– Yaxşı, buryamı gedirsən, get. Öküzləri açıb, indi gəlirəm...

Həmid çiynində xurcunu meyxana eləyən arvadın qapısının ağzında alma qurusu kimi qurumuşdu. Bir onu fikirləşirdi ki, Əhməd deyilən kimdi görəsən. Qarğa nədi, qarğaya oxşuyan oğul nədi... Arvad qapını açıb:

– Bıy, ay Həmid, sənsənmi, – dedi, – gəl içəri. Yenə meyxana deyin eləmişəm, gəl.

Arvadın beş-altı uşağı vardı. Sobanın bir tərəfində Həmid oturmuşdu, bir tərəfində uşaqlar. Böyüyü nə pıçıldadısa, balaca soruşdu:

– Bizə də qarğa gətiribsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həmid gülüb-gülüb dedi:

– Gətirmişəm.

Dedilər:

– Hanı bə?

Dedi:

– Xurcundadı.

Uşaqların böyüyü boğanaq kimi burula-burula özünü qapılara saldı:

– Dərviş bizə qarğa gətirib, alaqarğa gətirib bizə.

Aran kəndinin arıq-uruq uşaqları çəpər tikanlarının yanında tikan-tikan olub dayanmışdılar. Arvad çıxıb dedi:

– Rədd olun, dağılın evinizə, nolub, ətimmi görükür, gözünüzü dikib durubsuz.

– Qarğaya baxmaq istəyirik. Dərviş sizə alaqarğa gətirib.

Arvad içəri girdi ki, uşaqları xurcundan yapışıb bağırışırlar:

– Çıxart qarğanı, ver qarğamızı!

– Nə qarğa, a bala, zarafat eləyirdim, hardan çıxardım?

Arvad xeyli qapının ağzında dayanıb Həmidə baxdı. Gördü şümal saqqallı, qəşəng, yumru kişidi. Ürəyi birtəhər oldu, suyuldu, az qaldı durduğu yerdə ayağı sürüşsün. Uşaqları qovub çıxartdı eşiyə.

– Kişin hanı bə? – dedi Yel Həmid, hələ də xurcundan yapışmışdı. Əlini çəkib gülümsədi, – uşaqlar birtəhər eləmişdi məni.

Sobanın bu üzündə də arvad oturdu. İstidən idimi, nədən idisə üzü, gözü löyür-löyür yanmağa başladı:

– Batala qalsın elə kişini, meyxana elədiyimiz günün səhəri dedi, *gedim dağ kənddərinə qovurmadan*, pendirdən gətirim. Beş ildi gedib, gəlib çıxmır. Onnan kişimi olacaq, təzədən?

Yel Həmid xeyli fikrə getdi. Arvad da sobanın istisinin cırhacırında fikirləşirdi ki, deyim, evdi də, qalsın, uşaqlara atalıq eləsin. Fikrində taxtda yer də salmışdı. Amma alaqarğa məsələsi ondan o yana fikirləşməyə qoymurdu arvadı. Elə bu yerdə Həmid başını qaldırdı:

– Kişin hansı tərəfə getdi, dedin?

– Dağ kənddərinə gedirəm, – dedi?

Birdən Yel Həmid xurcununu götürüb yel kimi qapıdan çıxdı. Arvad özünə gələnəcən gördü Həmid yoxdu. Həyətdən uşaqlarının səsi gəlirdi:

– Ver qarğanı, aparma bizim qarğamızı.

Həmid itlərin, uşaqların səs-küyləri altında kənddən çıxdı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Axşamın alatoranlığı çökürdü. Toyuqlar qarğa kimi tara hopbanışırdı. Aran kəndinin dəmyə kişiləri acıqlı-acıqlı meyxana eləyən arvadın qapısına sarı gedirdilər. Arvadın böyük oğlunu görüb:

– Ananı eşiyə çağır, ə! – dedilər.

Həmid gedəndən sonra elə bil arvada soyuq dəymişdi. Dalını sobaya çevirib canını qızdırırdı. Amma elə "üşüdüm" – deyirdi. Qapını açan kimi kişilərin hamısı birdən bağırışdı:

– Evdədimi aaz, qarnı qarğalı köpəyoğlu?

– Yox, havaxtdı gedib.

– Yaxşıdı əlimizə keçmədi, öldürəcəydik avara oğlunu.

Söylənə-söylənə dağılışdılar.

– Ə, dalınnan yüz söz gəzir çölləmə köpəyoğlunun. Kəndə qoymuyun bir də onu. İy çəkə-çəkə də gəlib girib ərsiz arvadın evinə.

– Görürsənmi, qarğadan ayıqdı, qarnı qarğalı köpəyoğlu. Nə təhər xəbər tutubsa, qaçıb getdi...

Yel Həmid yuxularında necə gedirdisə, eləcə gedirdi. Yatırdımı, doğrudan da huşamı getmişdi, ayıq idimi, bilmirdi. Ruhu qanad açmışdı, dərəni, təpəni düz eləmişdi, yastılana-yastılana, əyilə-əyilə gedirdi. O vaxt özünə gəldi ki, qapılarının ağzındadı. Dağ kəndinin xoruzları da dan yerinin birinci banına çıxıb qanlı-qanlı banlayırdı. Evinin çürüyüb, yara bağlamış qapısına, əyilmiş çardağına baxdı. Hələ evə girməmiş darıxmağa başladı. Qarğabaşlı uşağı, göydə hürən küçüyü yadına salıb evinin üstünə sarı boylandı. Meyxana eliyən qırmızıyanaq arvadın dağ kəndinə qovurma, pendir üçün gedən ərini xatırlayıb yavaşcadan qapını döydü. Beş ildi arvadın qapısı döyülməmişdi. Bu səs üçün Əhmədin anasının başında oyaq bir yer varıdı ki, beş il idi, baca kimi açılıb qapıya baxırdı. Dik qalxıb özünü qapıya saldı. Qapını açan kimi gülümsədi:

– Gəldinmi? – dedi.

Yel Həmid xurcunu çiynindən endirib göz gəzdirdi:

– Arannan kişi gəlməyib ki, bura?

Əhmədin anası onsuz da həmişə gülümsəyirdi, indən belə də gülümsəyəcəkdi:

– Arannan gələn kişi sənsən daa, Həmid!

Həmid oturub xurcunu açdı. Bir gözü alma qurusuydu, bir gözü armud qurusu. Alma qurusunun üstündə beş-altı nar vardı, armud qurusunun üstündə beş-altı heyva.

– Ye, – dedi, – sənə gətirmişəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əhmədin anası armud qurusundan ağzına atıb çeynədi, gülümsəyə-gülümsəyə üz-gözünü turşutdu:

– Bir oğlumuz da olub, adı da Əhməddi.

Həmidin qulağının dibində Aranın arıq-uruq uşaqları bir də oxudular:

Əhməd alaqarğadı,
Dabanları yorğadı...

Qalxıb qorxa-qorxa taxta sarı getdi, yorğanı qaldırdı.

– Bə Arançı köpəyuşağı, deyirdilər, uşağın başı qarğa başıdı.

– Eləydi daa.

Həmid qorxusundan soyuq-soyuq tər tökdü. Arvad yaxınlaşıb onun keyiməsini soyundurdu:

– Ayaqlarını da yuyardım, – dedi, – amma yenə qaçacaqsan. Gəl uzan, yataq.

Soyunub uzandılar. Əhməd aralarındaydı, nəfəsi dədəsinə dəydikcə dədəsinin əti çimçəşirdi. Sonra o tərəfə keçirtdilər...

Əhməd yuxusunda kəpənək otarırdı. Gül dərirmiş kimi havadan kəpənək dərib uşaqlara paylayırdı. Sonra gördü ki, yer yarılır, torpaq cırıla-cırıla səs eləyir. Kəpənəklərin də qanadları cırılır. Qorxulu-qorxulu gözünü açdı ki, cırıldayan taxtdı. Qaranlıqda əlini gəzdirdi:

– Ana, burda bir kişi var.

Anası nəfəsini dərib:

– Dədəndi, dərdin alım, Arannan gəlib, – dedi.

Əhməd otağın alaqaranlığında divdən qorxunc görükən bu saqqallı kişi olmayanda dədə sözünü daha yaxşı başa düşürdü. İçini döyə-döyə ağlayıb anasını qucaqladı, özünə sarı dartıb qoynuna girdi...

Səhər açılmışdı. Dağ kəndinin üstünə ağappaq bir gün doğmuşdu ki, dünyanın diblərinəcən ağappaq işıq içindəydi. Əhməd böyük bir xırmanda öz-özünü oynadırdı. Xırmanın lap böyük, Əhmədin bapbalaca, yapyalqız olduğundan idi ki, deyirdin, kənddə Əhməddən başqa uşaq adında bir kimsənə yoxdu. Məzə Möylənin yumru arvadı qapının ağzında dayanmışdı. Dağı-daşı, düzü-dünyanı beləcə işıq içində görüb az qalırdı mahnı oxusun. Ayağının ucuna qalxıb qonum-qonşuya boylandı, baxdı ki, Əhməd xırmandadı, öz-özünə:

– Yaratdığına şükür, ay Allah, – dedi, – cindimi, nədi bu uşaq. Ay Əhməd, anan hanı bə?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əhməd qalxıb arvada sarı elə yüyürdü ki, arvadın əti ürpəşdi:

– Öyümüzdə bir kişi var!

Məzə Möylənin arvadı çəpərlərin arasıyla balıq kimi çırpınıb quyruq bulaya-bulaya özünü kəndin içinə saldı:

– Həmid gəlib, ay camaat, Yel gəlib!

Çöldəki çöldən, evdəki evdən Həmidin qapısına axışdı.

Hay-küyə itlər də səs-səsə verib bağırışa-bağırışa hürüşməyə başladılar. Kəndin camaatı elə bil ömürlərində it səsi eşitməmişdi. Hamı başının üstünə boylanırdı ki, bəlkə itlər Həmidin gəldiyinə görə hürür.

– Ə, fikir ver, itdər də ayrı cür hürür. Kəndə vəlvələ düşüb, Allah haqqı.

Hardasa bir şəppə-xeyir qarğa da başladı qarıldamağa.

– Ay yaradansız, kənd batacaq, canım üçün!

Bilmək olmurdu doğrumu deyirlər, zarafatmı eləyirlər. Ucundan tutub ucuzluğuna gedə-gedə özlərini inandırırdılar. Bu işlərin lap qurtaracağında qarğa məsələsinin də, küçük məsələsinin də, Həmidin özünün də mənasız bir şey olduğunu gözəlcə anlayırdılar. Həmid də, Əhmədin anası da qapının ağzında dayanmışdı, ikisi də bir cür gülümsəyirdi. Məzə Möylə kişilərin arasından irəli yeridi:

– Gəldinmi, əə, qarğa yosunnu?

Həmid udqundu, elə bil gülüşünü də uddu. Üzü bozarıb qırış-qırış oldu. Arandan üzü bəri "qarğa" söhbəti heç onu açmırdı. Boylanıb oğlunu axtardı, gördü xırmanın bir ətəyində oynayır. Əhmədin səhərin gözü açılmamışdan xırmanın bir qulağınaca sancılıb qurdalanmağı da "Arandan gələn kişi" üçün idi.

"Dədəndi, dərdin alım, Arandan gəlib...". Anasının səsi artıq Əhmədin başında mahnıya dönmüşdü. Başqa vaxt olsaydı, çöldə-çəməndə kəpənək qovlayardı. Amma Arandan gələn kişiylə Əhmədin arasında nə vardısa, xırmandan qırağa çıxmağa qoymurdu Əhmədi. İtlərin səs-küyünü, dağ kəndinin camaatını heç eliyə-eliyə Həmidlə Əhməd altdan-altdan bir-birilərinə baxırdı.

Məzə Möylə arvadlara sarı döndü:

– Çəkilin aaz, qırağa, qaçırdacağsız indicə, – deyib Həmidin qolundan tutdu, qapıdan araladı. Kişilər Həmidin başına yığışdılar. Məzə Möylənin arvadı xırdalaya-xırdalaya gülüb, uğunub getdi. Arvadlar da ona qoşuldular.

– Aaaz, sən allah, bir bax, özü də qarğaya oxşuyur baxtıqaranın, – dedi Məzə Möylənin arvadı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arvadların hamısı birdən:

– Həəə! – eləyib, əllərini üzlərinə çəkdilər.

Əhmədin anası qapıya söykənib xumarlana-xumarlana gülümsəyirdi. Məzə Möylənin arvadı onu sakitcə silkələyib:

– Nə soruşsa, – dedi, – hə de. Yaxşımı?!

– Yaxşı.

Yel Həmid oxlov udmuş kimi dümdüz olmuşdu. Kişilər gülüşə-gülüşə, məzələnə-məzələnə dağılışırdılar. Əhməd yenə kirimişcə quru yerdə qurdalanırdı.

Məzə Möylə yanından keçəndə dırnağının ucuyla başına bir çırtma vurdu:

– Nədi, əə, qarğa oğlu, qarğa!

Bu yerdə Yel Həmid boğula-boğula kişilərin ardınca qışqırdı:

– Murdar uşağı, murdar, sizin aranızda alaqarğa bala çıxartmaz. Adamsızmı siz ki, başımı sallayam, oturam? Danışdıqları sözə bax bir, qarğa doğur Həmid. Onu çıxardanın anası doğsun qarğanı, bacısı doğsun, atası doğsun.

Kişilər xırmana səpələnib, uğunub getdilər. Gözlərindən yaş gələnəcən xırmanda eşələnə-eşələnə gülüşdülər. Möylənin məzəsi bunun yanında heçdən də heç idi. Ona görə də, – ay öldüm, ay öldüm, – deyə-deyə gülürdü.

Həmidin avazla qəzəl oxuyan cingiltili, yapışıqlı səsi batmışdı, boğulub xırıldayırdı. Kişilərin gülməyi onu lap yandırdı tökdü. Əlinə keçən daş-kəsəyi xırmana yağdırdı.

– Qarnı qurtdu köpəyuşağı, qarğa axtarırsız, gəlin, yeyin, gəlin!

Amma Həmidin daşı heç kəsə çatmadı. Gendən-genə tamaşaya durub silkələnə-silkələnə, əyilə-əyilə gülürdülər. Məzə Möylə:

– Daha qaldı, – dedi, – sən öl. Başımızı yaracaq, qarğası başına dəysin onun...

O gündən kənddə noldu, Həmidi dəli eləməyə başladı, fışqırıq çaldılar, Həmid özündən çıxdı. Yüyürən Həmidi dəli eləmək üçün yüyürdü, gülən Həmidi dəli eləmək üçün güldü. Yüyürənin dalınca yüyürdü, güləni daşa basdı. Nə ağsaqqal tanıdı, nə qarasaqqal tanıdı, balacadan tutmuş böyüyəcən söydü. Uşaqlara da bu lazım idi, gözünü açan, ayağı tutan Həmidi axtardı:

Həmid atdan yorğadı,
Həmid alaqarğadı.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həmid də əlində yalama, tər tökə-tökə gündə yüz kərə kəndin o başından bu başına uşaq qovurdu:

– Nə var sizin var-yoxunuzu...

İt hürdü cinləndi, at kişnədi cinləndi. Göydə qarğa gördü, evə girdi. Əhmədin anası toyundan da qabaq gülümsəyirdi. Həmid indi gördü ki, Əhmədin anası gülümsəyir:

– Sən niyə gülürsən aaz, heyvanın belindən gələn?! – Saldı şapalağın altına. Bir kərə, iki kərə, axırda Əhmədin anası evdən qaçdı.

– Canıma ciri eylədim, – dedi arvadlara, – getməyi bunnan yaxşıydı.

...Artıq sular elə su kimi axırdı, quşlar quş kimi uçurdu, yellər yel kimi əsirdi. Heç nə "getdim" demirdi Həmidə. Günbatandan atlılar çıxırdı, Arana sarı at çapırdılar. Bu da elə beləcə atlılar idi, bir vaxtlar olduğu kimi, ardınca çağırmırdı Həmidi. Ayda, ildə bir kərə Əhmədi alırdı dizinin üstünə:

– Hə, de görüm.

– Aldırma onun filini...

– Aldırma yox, aldanma anın felinə.

– Hə, aldanma...

Yalnız onda alma qurusuyla çay içmək keçirdi könlündən. Aran yadına düşürdü. Görürdü ki, meyxana eliyən arvad sobanın qırağında oturub, yanaqları alma kimi qızarıb löyür-löyür yanır. Bu vaxt itləri Həmidin acığına hürdürürdülər. Uşaqlar Həmidin acığına qarğa qovurdu:

– Qarğa, Həmiddə qoz var, qarğa, Həmiddə qoz var!

Qamçısını götürüb çıxırdı, öküzlərini döyürdü, toyuqlarını ağaca dırmaşdırırdı. Ordan da ev-ev, qapı-qapı düşüb, gözünə nə görünürdü, söyüb daşa basırdı. Əvvəlki Yel Həmid deyildi daha, ayaqları daş kimiydi. Sözün-gapın axırına çatmaq üçün canını gəzdirirdi. Kənd artıq Həmiddən qaçmağa başlamışdı. Salam da verə bilmirdilər, salamın da altında nəsə gizlənmişdi Həmid üçün.

– Yazığı dəli elədik, əə!

*Kənddə nə qədər ağsaqqal vardı, yığışıb axşamın birində Həmidin* evinə gəldi. Qapını açan kimi Həmidin bağırtısı göyə çıxdı. Gömgöy göyərib ağlaya-ağlaya qışqırırdı:

– Onu çıxaranın anası doğsun qarğanı, qardaşı, bacısı doğsun, atası doğsun. Hə, qarğa doğuram. Mən doğmuşam qarğaları, birin də indi doğacam. Başımın üstündə küçük hürür, oy öldüm, ay ana öldüm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kəndin ağsaqqalları kor-peşman çıxıb dağılışdılar. Həmid qapıda qaldı. Bağırdı, bağırdı, sonra da başladı xırıldamağa. Çöküb qapının ağzına yıxıldı. Əhmədin anasının səsi kəndi başına götürdü:

– Həmid ölür, ay camaat! Həmidi öldürdünüz, canınız dincəlsin!

Kənd Həmidin qapısına axışdı. Ağ molla həyətə çatmamış quran oxumağa başladı. Dedilər:

– Sən niyə indidən başlayırsan?

– Sonra gec olar, – dedi. Ağ molla başladı ardını oxumağa.

Doğrudan da gec idi. Birdən-birə kəndə səssizlik çökdü. Axşamın alatoranlığında kəndin əl-ətəyindən uşaqların səsi gəldi.

Əhməd də uşaqlara qoşulmuşdu, atasının səsinə oxşayan cingiltili, *yapışıqlı səsi* aydınca seçilirdi:

Həmid atdan yorğadı,
Həmid alaqarğadı.

Artıq uşaqların qoşub düzəltdikləri "Həmid" mahnısının altında boşluq yaranmışdı. Ona görə də həmişəki kimi kəndə hopa bilmirdi. Elə bu axşamacan kəndin məzəsinə qarışıb parıldayan, işıldayan "Həmid" mahnısı indi arvadların hönkürtüsündən qarala-qarala kəndin, daha doğrusu Həmidin evinin üstüylə keçib boş-boşuna gedirdi.

Məzə Möylənin yumru arvadı Əhmədin anasından da bərk ağlayırdı. Əhmədi görüb, daha bərk ağladılar. Kişilərin də əli çatanı Əhmədin başını sığalladı:

– *İşiniz yoxdu, siz allah. Nə pis oldu, əə!*

Həmidi çiyinlərinə alıb qəbiristanlığacan dinməz-söyləməz getdilər. Hamı fikirləşib səbəb axtarırdı. Səbəbsə əslində çox böyük, çox dərində idi. Ona görə də heç kəs bir səbəb tapa bilmirdi. Nəsə gözləyirdilər. Yel Həmid öləndən sonra da nəsə eləməliydi. Təkcə Allahın başı çıxan işləri çox idi Həmidin. Kəndin gözünün qabağında çox stəkanlar yemişdi. Od üstündə oynamışdı, qaynar suda üzünü yumuşdu. Səhər dağda, günorta Arandaydı ki, bu yolu belə getmək üçün iki at bağrı çatdamalıydı. Bütün bunlara görə Həmidin qarnından qarğa yox, at da çıxa bilərdi, dəvə də.

Yenə nəsə gözləyə-gözləyə Həmidi sirr kimi qəbrə sallayıb üstünü torpaqladılar. Elə bil dünyada daha sirr qalmadı. Amma hamının içində iynənin gözü boyda işıq yanırdı. "Burda da durmaz, qaçar o" – hamı



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bunu fikirləşə-fikirləşə ürəyində gülümsəyirdi. Məzə Möylə neynir görəsən, nə yaxşı özünü saxladı, gülmədi?”

Gülməyin qorxusundan heç kəs başını qaldırıb Məzə Möyləyə baxmırdı. Başlarını aşağı salıb qayıdırdılar. Bayaqdan suyun altındaymış kimi camaat Məzə Möylənin üz-gözünü əyiş-üyüş görürdü. Məzə Möylənin başı suya düşüb axırdı elə bil. Gülməyini saxladığına görə boğulana oxşayırdı. Məzə içini deşirdi. Molla sözlərini uzada-uzada, öyə-öyə:

– Dəli eləyib, çərrətdiz yazığı, – dedi.

Camaat elə bil buna bənd idi, burunlarını çəkə-çəkə gülümsədilər. Məzə Möylə mollaya sarı döndü:

– Nə biləydik öləcək? Atamın yıxılıb öləcəyini bilsəydim, yüyrükdən asardım. Yadındadımı nə deyirdi? Məndə sığar... bilmirəm nə, mən nəyə sığmazam, əə? Kimin yadındadı siz allah, hanı o uşaq? – dönüb camaata baxdı, – a kişi, o yerə-göyə sığmırdı, sığmaram deyirdi. Şeytanlar xəbər aparmasın, ciniydi, nəydi, baş açammadıq.

Camaatın hərəsi üzünü bir səmtə tutub gülürdü.

Ağ molla yenə dediyini boğazında qaynada-qaynada:

– Allaha xoş getməz, – dedi, – hələ fatihəsin eləməmişik, siz gülürsüz.

Məzə Möylə daşın üstündə oturub altdan-yuxarı mollaya baxdı:

– Əşi, niyə xoş getmir, kasıb gərək evində ölsün. İndi Aranın yollarında ölüb qalmışdı. O nəsildən birinin qəbri varmı bu kənddə? Yox. Vəssalam. Heç olmasa, bunun qəbri qaldı. Oğlu da bilər nəyə and içir. Hələ ordan da qaçmasa yaxşıdı.

Kəndi gülüşmə bürüdü.

Molla da:

– Əstəğfürullah, – deyib, – ləzzətlə gülümsədi.

Səhərisi Məzə Möylə mollaya nə demişdi, arvadı da Əhmədin anasına onu dedi:

– Ürəyini sıxma, oğlun sağ olsun. Heç olmasa gəldi, üç-dörd il yanında yaşadı. Öləndə də bildin ki, harda öldü. Bunun kökünü qara geysin. Hansının qəbri qalıb, bunun ki, qəbri var. Sən elə elə ki, Əhməd onnara oxşamasın. Ağlayıb eləmə...

– Yox, – dedi Əhmədin anası gülümsəyə-gülümsəyə, – ona ağlıyıram ki, ölüsünə də, güldülər.

– O pisdimi? Vallah cənnətdikdi. Təki elə məni də gülə-gülə basdırsınnar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həmidin xatırlanası bir oxuduğu qalmışdı. Heybəsiydi, bir gözündə bir qırıq alma qurusu, bir gözündə də armud qurusu. Əl ağacıydı, arxalığıydı, papağıydı, bir küncdə tozlana-tozlana yaddan çıxmaqdaydı...

– Dədən nə təhər oxuyurdu, dərdin alım?

Dünya duracaq yer deyil, ey can, səfər eylə,
Aldanma anın felinə, andan həzər eylə.

– Oxu, ağrın alım, oxu. Dədənnən də yaxşı oxuyursan.

Sobanın qırağında oturmuşdular. Ocaq səs eləyə-eləyə çıxıb gedirdi. Bu da yazın gəlib getməyi kimi, suların axıb, yellərin keçib, ağacların, otların bitib getməyi kimi bir şey idi, Əhmədin anasının xəbəri olmadan Əhmədi getməyə hazırlayırdı. Həmiddən qalma qəzəllərə də yazın gəlib getməyi, suların axıb, yellərin əsib, ağacların, otların bitib, ocağın yanıb getməyi kimi dünyada həmişəlik qalacaq bir şey vardı. Əhməd oxuduqca özünün də xəbəri olmadan yüngülləşib yel kimi yüngül olurdu. Əkinlər, biçinlər, Məzə Möylə, kəndin camaatı, ağlı kəsməmişdən elçi gözləyən gənc qızları Əhməddən çox-çox aşağılarda qalırdı.

Günlərin birində Əhmədin anası bir də gördü Əhməd yoxdu. Dədəsinin arxalığını geyib, papağını qoyub, heybəsini, ağacını da götürüb getmişdi. Anası qapıda saçlarını yolurdu. Hamıdan qabaq Məzə Möyləylə arvadı özünü yetirdi. Əhmədin anasının qollarını tutdular ki, saçlarını yolmasın.

Camaat yenə yığışdı. Məzə Möylə üzünü mollaya tutdu:

– Gördünmü indi, Ağ molla? Bunun böyüyü də öləsidi, kiçiyi də.

– Evləndirmək lazımdı.

– Hə, evləndirək, hanı?..

Arı kimi çıxdılar kənddən. Əkinə-səpinə getmək də dağ kəndinin adamlarının böyüməyi, yaşa dolması kimi bir şey idi. Yəni dağ kəndinin adamlarının işə getməyi də arıların çöllərə-çəmənlərə uçub, güllərə-çiçəklərə qonmağı kimi bir duyğuydu...

Ağacda qarğa qarıldadı, güllərin üstündən kəpənəklər qalxdı. Kəpənəkləri, qarğaları görüb Məzə Möyləyə baxdılar:

– Ay Möylə!

– Əşi, andıra qalsın, kəpənəyini də, qarğasını da. Qoyun yaşayaq, görək necə yaşayırıq?

Məzə Möylənin məzəsi tutmurdu, kənd darıxmağa başlamışdı. Yel Həmidin evdən getməyi nə qədər gülməliydisə, Yel Əhmədin getməyi



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

o qədər kədərliydi. Ona görə də Yel Əhməd mahnıya gəlmirdi. Kənd Əhmədə mahnı düzəldə bilmirdi. Söz düşəndə elə onuca deyirdilər:

– Bu da getdi, ay başına dönüm, dünyanın işini görürsənmi?

Yaz cücərə-cücərə gəldi, yay gəldi, payız getdi. Kirkirələrdə yarma çəkdilər. Sobalar qalandı, ocaqlar suyun, yağışın, yelin səsi kimi səs eləyə-eləyə yol getməyə başladı. Amma kənd bunun getmək olduğunu bilmirdi. Ağırından oturub ocağın yana-yana, səslənə-səslənə getməyini qışın getməyi kimi gözləyirdi.

Hər şeyin – suyun, yelin, ocağın da getdiyini kənd adamlarının duymadığı bir vaxtda eşitdilər ki, Əhməd gəlib.

– Ola bilməz, əə?!

– Vallah gəlib.

– Atası kimi oxuyurmu o da? Nədi o? "Mən yerə-göyə sığmazam".

– Yox, deyir işləyirdim, dalaşdım, gəldim.

Qalxıb iki bir, üç bir Əhmədgilə getdilər. Atasının arxalığı, papağı, heybəsi-zadı yox idi, təzə paltarda qayıtmışdı. Əhmədin yanına birinci gələnlər, sonra gələnlərə qapıdan içəri girən kimi:

– Yaxşı pul gətirib, – deyirdi, – işləyirmiş!

Pul söhbətini eşidəndən sonra bir baxanlar Əhmədə bir də baxırdı.

– Nə yaxşı gəldin bə, a bala, o ki pulnanıdı?

Göstər görüm nə təhər puldu, gətirdiyin?

Əhməd bir dəstə pul çıxartdı: Kişilər pulun o üz-bu üzünə baxıb bir-birlərinə ötürdülər. Möylə:

– Ağ mollanın pulunnandı, – dedi.

Kəndin taxılı vardı, malı-atı vardı, pulu yox idi. Əhmədin pullarını görüb, birdən-birə anladılar ki, pul qazanmaq lazımdır. Bir-birinə qarışa-qarışa hamısı xorla soruşdu:

– Harda işləyirdin, Əhməd bala, haradı ora?

– Dəmirdən yol çəkirdik... Nəsə gələcək deyirdilər, mən gözləyəmmədim.

– Hə, bazara gedəndə eşitmişdim.

– Mən də eşitmişdim.

Arvadlar Əhmədin anasının başına yığışmışdılar. Əhmədin anası yataqdaydı. Saçları dən tutmuşdu, üzü alma qurusu kimi soğulub, qırış-qırış olmuşdu. Balaca vaxtından dodaqlarından getməyən gülüşü köhnəlib yanıq yeri kimi qaraya çalırdı. Əhmədin beş-altı ildən sonra birdən-birə gəlib çıxmağı xəstə yanına gətirilən nar təki idi. Sevincindən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

arvadın ürəyinə turşməzə tam damcılayırdı. Kirimişcə Məzə Möylənin arvadının əlindən tutdu:

– Kişilər dağılışmamış Sarı öyünə elçiliyə gedin, Sarıcanın "hə"sini alın! Ölməmiş Əhmədin toyunda oynayım!

Dəstələnib arvadlar qabaqda, kişilər dalda Sarı evinə getdilər. Hamının fikri Əhmədin pullarındaydı. "– Beş boyun öküz almaq olar o pula. İyirmi qoyun almaq olar!"

– Bəlkə biz də gedək, ay Möylə.

– Keçəlin baxtı ayağına dolaşar. Bizdə o baxt olmaz...

...Sarıların ağsaqqalı:

– O kökə qız vermərəm, – dedi. – Bunu bilə-bilə niyə qapıma gəlmisiz?

– Yaxşı *pul gətirib Əhməd. Beş boyun öküz almaq olar o pula. İyirmi* qoyun almaq olar. – Bir-birinə qarışa-qarışa hamısı birdən dilləndi.

– Pul gətirib?!

– Hə, mollanın pullarınnandı.

Sarı evi böyüyündən kiçiyinəcən fikrə getdi... Arvadları oturduqları yerdə qovzanıb bir də oturdular. Balacaları dingildəşib əllərini əllərinə sürtdülər.

Yeməyə əyləşirlərmiş kimi kişilərinin üzləri yumşalıb iştahlandılar:

– Hardan gətirib ki, o pulu?

– İşləyirmiş, dəmirdən yol çəkillərmiş.

– Dərvişin ipinə odun yığmaq olmaz. Dərviş *səsinin dalınca gedər.* Bu gün Aladağdadı, sabah Qaradağda.

– Atasının paltarında qayıtmayıb. Dərviş cildini dəyişdi, adına dərviş demə. Yaxşı oğlan olub. Pul dəyişib onu.

– Nə deyirik, anası bir qızdan da soruşsun.

Hal kimi kirpiyinəcən sapsarı bir arvad qızın-gəlinin arasına qarışdı, qayıdıb:

– Allah xeyir versin! – dedi.

Camaat dil-ağız *eləyə-eləyə dağılışdılar.* Əhmədin gətirdiyi pul, bir vaxtlar sobanın qırağında Əhmədi getməyə hazırlayan qəzəllərdən də güclü bir qüvvəylə kəndin kişilərini yerindən oynatmaqdaydı. Hamı birdən-birə iy çəkmiş kimiydi. Burunlarına Aran tərəfdən qazanc iyi dəyirdi. Hamı durna təki boğaz uzatmışdı. Görürdülər ki, dağ kəndindən yollar çıxır Aran tərəfə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Birdən-birə dağ kəndinin camaatı gecikməyə başlamışdı. Hamı hesab eləyirdi, dənini una vururdu, yumurtanı toyuğa vururdu, yağını, pendirini pula çevirirdi. Nəsə qurub-qurub düzəltməyə çalışırdılar. Ona görə də büdrəyirdi hamısı, daşa ilişirdilər, hamı elə bil qulunc olmuşdu, dolaşıq düşmüş kimiydilər. Mala-ata ot-ələf verməyə, qoyun-quzunu suvarmağa, itləri yallamağa, odun yarıb, ocaq qalamağa gecikmişdilər. Mallar böyürüşürdü, atlar kişnəşirdi, itlər hürüşürdü.

– Bəlkə biz də gedək, ay Möylə?

Möylə bayaqdan ürəyində "gedək" – deyirdi, amma:

– Hara gedək? – dedi, hıçqırdı.

– Nə çox hıçqırırsan, ay Möylə, nə yedin Sarıcagildə?

Kənd gözünü açandan Möyləni məzəsiylə görmüşdü. Möylə məzəsiylə yüngül idi, elə bil bir az yuxarılarda, kəndin üstüylə yeriyirdi. Aca gülürdü, toxa gülürdü, toyda gülürdü, yasda gülürdü. Birdən-birə qaşqabağını sallayıb qarala-qarala, hıçqıra-hıçqıra adamların arasıyla yeriməyi kəndi yığıb-yığnaldırdı, yavaş-yavaş bir olurdu kənd. Yəni dağ kəndinin camaatı yavaş-yavaş bir adama çevrilirdi. Ayrı-ayrılıqda dağ kəndinin camaatı bu işlərdən baş aça bilməzdilər. Eləcə oturub gözləyirdilər ki, Əhməd günlərin birində "can necə tərk eyləsin, ey can səni, çün canım canısan, ey canımız", deyə, oxuya-oxuya gələcək, bir az evlərinin çənəsinə söykənib küllənə-küllənə Aran yoluna baxacaq, Məzə Möylə deyəcək, kənd güləcək, "Əhməd, sənnən də qarğa çıxırmı?", "Qoyma, Əhməd getdi! Qoyma, Əhməd gəldi", bir gün də eşidəcəydilər ki, doğrudan da Əhməd gedib, anası da gülümsəyə-gülümsəyə saçını yolur.

Amma indi Əhməd Ağ mollanın puluna oxşar pul gətirmişdi. Gedənə də oxşamırdı. Məzə Möyləni də hıçqırıq tutmuşdu. Bütün bu işlərdən baş çıxartmaq üçün kəndin camaatı bir adam olurdu. Biri bu yandan bir söz deyəcəydi, biri o yandan iki söz deyəcəydi, hərədən bir söz, olacaqdılar bir adam.

Həmid qayıdıb gələndə də kənd yığılıb bir adam olmuşdu. Ona görə də Həmid bütün kəndi daşa basırdı.

Kənd məzə qaynada-qaynada Məzə Möylənin hıçqırığına yığışırdı. Bilənlər bilməyənlərə deyə-deyə elə bil əl-ələ tutub kəndin bu başından o başına getdilər.

– Möyləni hıçqırıq tutub!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kənd bir neçə gün gülümsədi. Möylənin hıçqırığı kəsmədi. Kənd bir adam kimi gülməyə başladı. Yel Həmid də yaddan çıxdı, Yel Əhməd də. Kəndin əkinindən-səpinindən, yerindən-göyündən gülüş səsi gəlirdi. Məzə Möylənin balaca, yosma arvadı da bir tərəfdən kəndin bir sözünü deyirdi. Yəni, kənd bunu da deməliydi:

– Bə bilmirsənmi, gülmə qonşuna, gələr başına, deyiblər. Harda nə yeyibsən, düzünü de?!

Nə təhər oldu, necə oldusa kənd ağzından qaçırtdı ki, Möyləyə qarğa baş-ayağı yediriblər. Uşaqlar Möylənin evinin dörd yanında atılıb-düşməyə başladı:

Qarğanın başı sənin, ayağı mənim!
Başı sənin, ayağı mənim!

Möylə hıçqıra-hıçqıra düşüb kəndi başa saldı...

Əhməd də pullarını saya-saya toy işlərini görürdü. Kənd Yel Həmidin sağlığında necəydisə, eləcə, bir deyib, bir gülürdülər. Bir Əhməd elə bil bu kənddən deyildi. Bir gün üzünü kəndə tutub:

– Allah cəzasını versin, – dedi, – Möylənin, mənim dədəmi Möylə öldürdü!

Möylənin yosma arvadı ağlaya-ağlaya Ağ mollanın yanına getdi:

– Bu nə işdi başımıza gəldi, ay molla.

Molla da kənddən idi, yəni kəndə qarışıb molla da gülürdü, əlini qurşağına salıb gülə-gülə:

– Duanı pulnan yazıram, – dedi, – Həmidin oğlu Əhmədə qoyun sat, pul al, gəti, dua yazım.

Dua da kömək eləmədi, Möylənin hıçqırığı daha da bərkidi. Kənd bir adam kimi birdən-birə gördü Möyləni hıçqırıq öldürür, bir az gülməyinə ara verdi.

Götürüb görücüyə apardılar. Görücü o yanına baxdı, bu yanına baxdı:

– Qarğa baş-ayağı yeməyinə ağlım kəsmir, – dedi.

Ordan da biliciyə göstərdilər. Bilici də kəndə qarışıb güldü:

– Eşiyə çıxardın, dediyimi eşitməsin, bunu alladın, üstünə oğurluq yıxın. Allada bilsəniz, hıçqırığı kəsəcək.

Belə, Möyləni hıçqırıq tutmuşdu, kəndi gülmək. Möylənin hıçqırığı gücləndikcə, kənd də uğunub gedirdi. Bilicinin sözü kəndi Möylənin hıçqırığından da pis güldürdü, uğunub hamı qarnını tutdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Heç onu allatmaq olarmı, – dedilər, – bicin biridi, bir belə vaxtın-nan özü onu-bunu allada-allada böyüyüb.

– Başqa dərmanı yoxdu, yoxsa hıçqıra-hıçqıra öləcək.

Pıçıldaşa-pıçıldaşa bilicinin yanından çıxdılar. Məzə Möylə də hıçqıra-hıçqıra:

– Nə deyir? – dedi.

– Heç nə. Deyir, Möylə keçən il mənim danamı oğurluyub, gətir-sin, dərmanını bilirəm.

Möylə əvvəl bir-iki kərə hıçqırdı, sonra elə hıçqıra-hıçqıra o qədər güldü ki, gözlərindən yaş axdı. Əliylə işarə elədi ki, kürəyimə vurun. Kənd tökülüşüb Möylənin kürəyinə döydü.

– O sizi doluyub, – dedi, – elə onun özü oğurluyub mənim danamı.

Kənd başladı yenə gülməyə. Bir-ikisi çıxıb Məzə Möylənin qaba-ğında oynadı.

Bir-ikisi də:

– Ə, qoy hıçqırsın, – dedi, – bu da bir işdi, hıçqırmaqla da adam ölərmi?

Bir-iki gündən sonra kənd gördü ki, Möylə əlində ağac, arvadını qovur.

– Ə, bir əylən, əə, niyə belə eləyirsən?

– Ə, bu dabanı çıqqaq köpək qızı, təzə xasiyyət tapıb, kəlməbaşı alladır məni, nə xatası var, bilmirəm. Mən də buna Yel Həmid olmuşam.

– Nə deyir ki, ay Möylə?

– Ə, qoymur dərdimi çəkəm. Deyir, axşam gördüm qoyunumuz danışır. Əvvəl üstünü vurmadım, dedim yaxşı, nə deyirdi qoyunumuz? Deyir, başa düşəmmədim, çox ütələk danışırdı. Bunnan sonra mən hıç-qıracam da, öləcəm də...

Kənd gülürdü, Möylə də daşın başında oturub hıçqırırdı. Artıq Əhmə-din pullarını fikirləşən yox idi, puldan soyuyurdu kənd. Onlar üçün pul adı aclıq kimiydi. Pulu düşündükcə ac qalacaqlarından qorxurdular. Onların anladıqları Möylənin hıçqırıqları kimi şeylər idi. Möylənin hıç-qırması da ki, ömürləri boyu qulaqlarının dibindən axan çayın birdən-birə tərs axması kimi təbii idi.

Bir müddət yeməyi də çəkinə-çəkinə yedilər. Yeyib hıçqıran:

– Allah, bu dərdi mənnən uzaq elə! – dedi, əllərini göyə qaldırdı.

Uşaqların payını yarımçıq götürdülər:

– Çox yemə, hıçqırarsan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kənd nəfəsini içinə çəkmişdi, qorxa-qorxa gülməyindəydi. Bu vaxt dedilər ki, Əhməd toy eləyir. Bu neçə ayda üz tutmağa heç nə yox idi ki, Möylənin hıçqırığı yaddan çıxaydı. Bir adam kimi yığışıb özlərini toy damına saldılar. Yetən – ə, bir "Tərəkəmə" çal! – dedi.

Kənd barmağının ucuna qalxmışdı, "Tərəkəmə" oynayırdılar. Bir kərə oynayan beş kərə oynayırdı, beş kərə oynayan on kərə. Bu oynamaq əslində Möylənin hıçqırığından, Əhmədin gətirdiyi pullardan uzaqlaşmaq idi. Oynaya-oynaya elə bilirdilər, qaçıb qurtarıblar. Ona görə də arvadların biri Möylənin arvadını da çağırdı ki, oynasın.

– Nə təhər oynayım, – dedi Möylənin arvadı, – hancarı oynayım, odu eey, mənim sazım çalınır! – bir küncdə boğazını uzada-uzada hıçqıran ərini göstərdi.

Kişilər əllərini uzadıb Möyləni ortalığa çəkdilər. Möylə hıçqıra-hıçqıra oynamağa başladı. Bir az keçdi, hıçqırığı da avaza düşdü, zurna, nağara Möylənin hıçqırığını çaldı, elə bil özü də öz hıçqırığına oynayırdı. Sonra gözlərindən yaş gəldi. Kənd başa düşəmmədi, hıçqırığına görəmi gözlərindən su gəlir, yoxsa oynayıb-oynayıb kövrəlibmi ağlayır...

Bütün toyların toy babası olardı bir vaxtlar. Balacalı-böyüklü kəndə quyruq bağlaya-bağlaya məzə çıxardardı... İndi Möylənin gününü görüb, – "kiş-kişlər olsun", – deyə-deyə kənd qulağını çəkirdi. Üç gün, üç gecə oynadılar, oxudular. Kəbin kəsiləndə Sarıca Sarıqızı Ağ mollaya dedi:

– Əhməd əlini Qurana bassın ki, bir də evdən getməyəcək, sonra kəbinə "hə", deyim.

Sarıca belə deyəndə Aranın üzüyola, tozlu yolları, yumşaq, dinc düzənlikləri, bağları, bağçaları, dədəsinin oxuduğu qəzəllər, çəkdikləri dəmir yoluyla, dəmir təkərli nə gələcəydisə, o, az qaldı Əhmədin yadına düşsün. Eləcə hamısı bir-birinin ardınca gözlərinin önündən keçdi, yarıdaca ilişib qaldı. Çünki toyun özü də o yerlər kimi gediləsi yer idi. Toyun özünün sonunda da işləyib gətirdiyi pullar təki şirinlik vardı ki, Əhməd indi ora can atırdı. Əlini Qurana basıb:

– Bu qızıl Quran haqqı, – dedi, – gətirdiyim pulla təzə ev tikdirəcəm, iki boyun öküz alacam, yer alacam, heç yana getmiyəcəm.

Ağ molla Əhmədlə Sarıcanın kəbinini kəsdi...

Əhmədin anasını qaldırıb toyda oynada bilmədilər. Üç gün elə yataqdaca qollarını qaldırıb göydə oynatdı. Qapını açıb gəlini içəri gətirəndə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

də gördülər ki, Əhmədin anası arıqlayıb çöpə dönmüş qollarını yorğandan çıxarıb göydə oynadır.

Çalğı çalıb-çalıb susmuşdu, camaat çalğısız-filansız qollarını qaldırıb Əhmədin anası kimi göydə oynatdılar...

Səhər açılmışdı, Əhmədlə Sarıca qalxıb gərdəyin dalında oturmuşdular, bir-birlərinə baxırdılar. Sarıca analarına oxşayan qızlardan idi, anası kimi sarışın saçları, göyümsov gözləri vardı. Yəqin elə buna görəydi ki, Əhməd elə bilirdi Sarıca nəsə demək istəyir, amma demir. Sarıcanın gözlərində söz qaynayırdı. Əhməd baxdı-baxdı:

– Danış görüm, – dedi.

– Getmə, yaxşımı?

– Yaxşı.

Əhməd elə buracan fikirləşə bilmişdi. Yəni bu günəcən bilirdi nolacaq. İndi toydan sonra birinci səhər açılmışdı. Oturub çaşqın-çaşqın Sarıcaya baxırdı. Sarıcadan o yanda qəribə bir boşluq yaranmışdı, birdənbirə, elə bil bir də axşam düşüb, bir də səhər açılmayacaqdı. Bu neçə ayda birinci kərəydi ki, dədəsinin oxuduğu qəzəllərdən bir qatar dedi:

Məsti-xabi naz olub, cəm et, dili sədparəmi,
Kim onun hər parəsi bir növi müjganındadır.

Elə bu qəzəldən sonra da yaddaşında Arana sarı təzə bir yol başlayırdı ki, Sarıca bunu duydumu, nədisə:

– Qalx, odun yar, – dedi, – ocaq qalayaq!

Əhməd qalxdı, elə bil birinci kərəydi eşiyə çıxırdı, damlarıyla üz-üzə qıpqırmızı bir gün doğmuşdu, otlara, çiçəklərəcən par-par parıldaşırdı. İstədi elə qapının dabanındaca oturub tamaşa eləsin. Sarıcanın səsini bir də öz içindən eşitdi: "Qalx, odun yar, ocaq qalayaq!" Qalxıb baltanı götürdü, tənbəl-tənbəl oduna sarı getdi.

Bu vaxtacan Əhmədi diri bütöv saxlayan gətirdiyi pullar idi. Yəni Əhməd başqa şeylər haqqında fikirləşmirdi: "İki boyun öküz alacam, yer alacam, ev tikdirəcəm. Sarıca gəlsin, oğlumuz olsun, adını Hümmət qoyacam..." Fikrindəki elə bunlar idi. İndisə, birinci gündən pulu da unutmuşdu. Elə bil bir qab suydu, içib qurtarmışdılar.

Əhməd odunu taqqıldadanda anası Sarıcanı yanına çağırdı:

– Bayaq oxuyurdu deyəsən Əhməd, hoə? Qoyma oxusun, bunnar oxuyub-oxuyub gedillər!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bilirəm, – dedi Sarıca.

– Hə, qızım, qoyma dədəsinin oxuduğunu oxusun. Bunun öhdəsindən bir sən gələrsən.

Sarıca eşiyə çıxan kimi Əhməd:

– Yardım, – dedi.

Tələsirdi, amma özü də bilmirdi hara tələsirdi. Sarıca əlini belinə qoyub başını silkələdi:

– Hara belə tələsirsən, nolub, qaça-qaçdı? Öküz alacaydın, hanı bə? Dam tikdirəcəydin, hanı bə? Yer alacaydın Ağ molladan, hanı bə? Bu gün-sabah uşaqlarımız olacaq, neynəmisən?!

Sarıca özündən sonra yaranmış boşluğu doldurmaqdaydı. Bir andaca iş Əhmədin başından aşıb-daşdı. Ağ molladan aldığı təzə öküzlərlə, Ağ molladan aldığı təzə yeri əkdilər. Sarıca qabaqda, o dalda səpdilər, becərdilər. Pulu vardı deyən, pulun üstünə pul gəldi. Baxdı pul da çoxalır, iş də, kənddən işçi tutdu, işlətdi.

Yeri yer çəkdi, sürüsü qoyun çəkdi, hər şeyi burdan ora oldu. Təzə ev tikdirdi. Eyvanda oturub tamaşa eləyirdi. Amma nəyə baxdığını bilmirdi. Təpədən-dırnağacan tutmuş, ancaq hələ dəyməmiş alma bağı kimiydi. Andan-ana, gündən-günə alma kimi böyüyüb qızarırdı. Gördü evi var, evlərdən hündürdü, yeri yerlərdən böyükdü, aşağıda da buyurulası adamları. Oxumaq istədi, yadına bir şey düşmədi, barmaqlarıyla məhəccərdə bir hava çaldı. Onu o işə göndərdi, bunu bu işə. Özü də istədi çöllərinə, çəmənlərinə baxmağa getsin. Eyvandan düşdü, gördü bu yeriş ona dar gəlir. Getdi bir yaxşı at aldı, gəldi. At belində kəndin içiylə keçirdi. Kənd camaatı Əhmədə baxıb-baxıb yenə bir adam olmuşdu, eyni şeyi fikirləşirdi. "Yel nəslinnən kim ata minmişdi, aya, kimin atı olmuşdu? Həmidin oğlu kimə oxşadı, balam?..".

Aşağıdan-yuxarı qazı salam verdi Əhmədə, molla salam verdi. Əhməd də yuxarıdan-aşağı salamlarını aldı. Mollanın da, qazının da varı-halı artıb-artıb dayanmışdı, indi özünə yer eləyirdi. Daha doğrusu, artıqlıq eləmişdi. Su qırağında qalıb çayın nəmini çəkən bir topa yun kimi kənddən nəsə çəkirdi. Elə ona görəydi ki, kənddə hərənin iyirmi-otuz qoyunu, bir qulaq yeri artıb eləmirdi. Camaat da elə bilirdi Əhməd dədəsi təki Aranda dərvişlik eləyir, sən demə dəmirdən yol çəkirmiş, kənddən bir az aralıda pullu yerlər varmış ki, Əhməd də bu boyda pul gətirdi.

– Ə, ağlın olsun, işləməknən bu boyda pul gətirmək olmaz. Oğurluyub o! Sən nə deyirsən, Möylə, sənin ağlın nə kəsir?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Möylə hıçqıra-hıçqıra camaatın arasında dayanıb Əhmədlə ata baxırdı. Bunu eşidəndə az qaldı, hıçqırığı kəssin, başıylaca dedi: "Hə".

Kimə pul lazım oldu, sələmiylə Əhməddən borc aldı. Bütün kənd bir adam kimi Əhmədə borclu qaldı. Bir adam kimi də harda gördülər, baş əydilər!

– Burda oturma, Əhməd, orda otur!

– Allah cibini dolu eləsin, kəndin ağasıdı!

On beş-iyirmi evlik balaca bir kənd idi. Bəyi yox idi, varlısı vardı. Varlısı da bir Ağ mollaydı, bir də Qara qazı. Kəndin gözü görə-görə Yel Əhməd bəy olurdu.

*Qamçısını silkələyib atın başını çəkdi. At kişnəyib ayaqlarıyla daş* oynatdı. Əhməd bir anın içindəcə bir köynək kökəldi. İçində ürəyi gərnəşdi.

Elə bu vaxt Əhmədin anası Sarıcadan soruşurdu:

– Hanı Əhməd?

– At almağa gedib.

– Niyə qoydun at alsın, at havalandıracaq onu!

Arvadın dediyi Sarıcanın ağlına batdı. Fırlanıb eşiyə çıxdı ki, Əhməd atın belində gəlir. Əhmədin sulanmış xam çöllər kimi doymuş görkəmini, altında oyur-oyur oynayan kəhər atını, yeddi mərtəbəli qotaz qamçısını görüb Sarıca da havalandı. Eşikdən içəriyə:

– Qoy alsın, – dedi, – oğurlamamışıq, ha!

Sağına baxdı, soluna baxdı, saçlarını tumarlayıb əlini belinə qoydu.

Möylənin balaca arvadı da əlini üzünə qoyub Sarıcaya baxırdı. Onun bu baxmağı daha çox yollara baxmağa oxşayırdı. Elə bil gedənini gözləyirdi Möylənin arvadı. Qonum-qonşunun balaca qızları Sarıcanın qabını yuyurdu. Sarıca:

– Həyəti də süpürün, – dedi, – sonra gedin!

Möylənin arvadı dönüb qəhərlənə-qəhərlənə evlərinə getdi, gördü əri qapının ağzında oturub hıçqıra-hıçqıra gözündən su axıdır:

– Kül başına, – dedi, – sən elə hıçqır, axırda məni də hıçqırıq tutacaq.

Amma bu dəfə Möylə doğrudan da oturub öz gününə ağlayırdı. İndən belə Möylənin ağladığını heç kəs bilməyəcəydi. Kənd də, Möylənin yosma arvadı da onun göz yaşlarını göz yaşı yox, su hesab eləyirdilər.

– Onnan mənə ər olmaz daha, başıma haranın daşını salım?! – *Möylənin arvadı ordan da o biri qonşuya getmişdi.*



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Gecə də hıçqırırmı aaz? – Qonşu arvad nə gülə bilirdi, nə kədərlənə bilirdi.

– Yatannan sonra sərin-sərin hıçqırır.

– Bir sirr uydurub alladammadınmı onu?

– Axırda mən də hıçqıracam, görərsən, allatmaq olarmı onu, aaz?

Qonşunun arvadı güldü. Möylənin arvadı ağlamsındı:

– Gərək o, qızıl üstə çıxa ki, hıçqırığı kəsə, ya da pul tapa. Gəlib çıxmayaydı Əhməd, onun pulunu gördü, hıçqırdı kişi...

Gözəl-göyçək bir yaz günüydü. Günəşin belə çıxmağında bağırtıya, qışqırtıya oxşar qəribə bir səs vardı. Günəşin belə çıxmağına görə də kəndin varından yoxunacan eşikdəydi. Uşaqlar hürkmüş kimi bir yerdə dayana bilmirdilər. Möylənin hıçqırığından başqa kənddə məzəli bir şey olmadığından uşaqların mahnılarının başı da, ayağı da Möyləydi. Əhməd yavaş-yavaş bəy ola-ola öz adını da, dədəsinin adını da kəndin əlindən almışdı. Qalmışdı Möylə. Uşaqlar da Möyləylə öz aralarındakı yolu küçük, quş, daylaq həssaslığıyla duyub elə yerdə dayanıb mahnı oxuyurdular ki, Möylə yaxşı eşitsin:

Möylə alaqarğadı,
Eşşək onnan yorğadı.
Qarğanın budu batdı,
Dəvələr şıllaq atdı.

Möylə cüt tutub yer əkirdi. Uşaqların səsi gəldikcə hıçqıra-hıçqıra öküzləri qamçılayırdı. Üzü-gözü su içindəydi. Arvadı da çayın yaxasıyla Möyləyə dan əppəyi aparırdı.

Bir vaxtlar Möyləylə arvadı kəndin bu başından düşüb, o biri başından məzə oynada-oynada, yalan qura-qura kəndi ipə sərib yelləyirdilər. Arvad indi də yalan içindəydi. Möyləyə su verəndə də, çimizdirəndə də fikirləşirdi ki, necə aldadım, ağlı kəssin.

Möylənin dan yeməyinə toyuq bişirmişdi. Yol boyu öz-özünə qurub düzəldirdi ki, nola Möylə qazanın ağzını açanda bişmiş toyuq gülə, Möylənin hıçqırığı kəsə, göndərəm yol çəkilən yerə, işləyə, pul gətirə.

Qurduğu yalana o qədər inandı ki, qazanın ağzını açdı. Sonra gördü ki, bir dəstə uşaq dəyirmanın ayağında balıq tutur. Yanlarından keçəndə könlü balıq istədi, çayın qırağında oturub ayağını suya salladı. Uşaqlar gətirib bir düzüm balıq verdilər. Bir əlində balıq, bir əlində Möylənin dan əppəyi, əkinə sarı getdi. Bişmiş toyuğun gülməyi yadından çıxmırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu fikir-xəyal içində gördü əlindəkilər tərpənir, qorxusundan az qaldı qazanı atıb qaçsın. Sonra baxdı ki, tərpənən balıqlardı. Hamısı düzümə düzülüb aşağıdan-yuxarı Allaha ağız açırdılar. Möyləni də bir dəfə belə görmüşdü... Gecənin gırt yarısı hənirtiyə gözlərini açdı ki, Möylə qapının ağzında əlini qaldırıb göydən asılı qalıb, duanı ürəyində elədiyindən ağzı açılıb-yumulurdu. Qalxıb kirimişcə arxasında dayandı:

– Ay kişi!

Möylə dik atıldı, sonra da qapının ağzına sərilib özündən getdi. Səhər Möylə yekə ağacla balaca arvadını nə qədər döydü, boynuna qoya bilmədi. Arvad:

– Mən yatırdım, xəbərim yoxdu, öldürsən də belə deyəcəm! – dedi.

O gündən Möylənin hıçqırığı daha da bərkitdi. Arvadı yenə bilicinin yanına getdi. Bilici:

– Allada bilirsən, allat, – dedi, – qorxutma, qorxu pisdi. Pozulmuş adamdı, dəli eləyərsən. O gərək ya qızıl üstə çıxa, ya da pul tapa. Başqa çarəsi yoxdu...

*Balıqları yanındakı gölməçəyə salıb çıxartdı. Bu heç,* bu, balıq ağlı kəsdirmək idi. Balıqlar da bir az yalanıb ağızlarını yumub-açdılar ki, bəlkə hava su oldu. Arvad gördü ki, Möylənin öküzləri əkinin o başından dartına-dartına gəlir, özü də başını salıb aşağı, cütdən yapışıb. Arvad baxdı-baxdı, nə fikirləşdi, nə fikirləşmədi, yeri eşib balıqları torpağa basdırdı. Balıqlar torpağın nəmini sorub tərpənmək istədilər ki, üzüb getsinlər. Tərpənə bilmədilər. Möylənin arvadı da yolunu dəyişib geri yandan ərinə dan əppəyi gətirirdi...

Möylə cütdən yapışmışdı, bir yeriyib beş hıçqıra-hıçqıra cütün iziylə gedirdi. Birdən yerdən balıq çıxdı. Cütün ağzıyla çevrilib Möylənin gözünün qabağında partlaşdılar. Möylənin əvvəl hıçqırığı kəsdi, az qaldı nəfəsi də kəsilə. Əyilib birini götürdü, gördü doğrudan da balıqdı, döndü ki, əkinçiləri çağırsın, arvadını gördü. Balığı tullayıb qamçısını götürdü. Arvadına bir-iki qamçı:

– Ə, belə-şelə qızı, sənə görə hıçqırıram mən. Atası belə olmuş, anası elə olmuş, qaçma, əylən. Səni boşamasam, kopoyoğluyam. Bəlkə onda kəsə hıçqırığım...

Elə bu vaxt Əhməd eyvanda oturmuşdu, alçaqdan-alçaqdan oxuyurdu: “Can necə tərk eyləsin ey can, səni...” Atı arpa yeyirdi, toxluğundan dərisi ceyran dərisinə oxşayırdı. Toyuq qanad çırpanda, pişik miyoldayanda, it hürəndə səksənib dörd oynayırdı, bu da toxluqdan idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yeməyi vardı, suyu vardı, tumarı vardı, borcunu verə bilməyib vaxt almağa gələnlər tumarlayırdılar. Bir hürkməyi qalırdı. Atı gərək durduğu yerə ot bağlıya, su bağlıya. Əhmədin atı alınandan arpa yeyirdi, bulaq suyu içirdi. Ac qalmadığı üçün himə bənd idi.

Əhməd oxuyurdu, oxuduqca fikirləşirdi ki, dəmir yoluna nəsə gətirəcəydilər, nəydi görəsən o? Sonra ağ əlcəkli, şlyapalı kişilərin düşdüyü bəzəkli fayton yadındaydı, at alandan sonra tez-tez xatırlayırdı...

Anası içəridə Sarıcadan soruşdu:

– Əhməddimi oxuyan, qulağım yaxşı eşitmir?

– Hə.

– Qoyma oxusun, gedəcək!

– Bu boyda varı-halı atıb hara gedir?

– Atası aclığınnan getdi, bala, bu toxluğundan gedəcək. Dədəsinin oxuduğunu oxuyur, qoyma oxusun. Bir iş tapşır, deynən kötüyü yarsın.

– Düyünnü odunumuz yoxdu, hamısını yarıblar.

Sarıca eşiyə çıxdı, gördü Əhmədin üz-gözü birtəhərdi. Əhməd oxuyub-oxuyub içindən-içindən çiçəkləyirdi.

– Gedim bir saz alım, Sarıca, – dedi, – çalıb oxumaq istəyirəm.

Sarıcanın günü-güzəranı elə sazlıq idi. Ağ eyvanda, ağ paltarında əlini belinə qoymuşdu. Özü də elə Əhmədə qoşulub oxumaq istəyirdi:

– Al, – dedi, – Əhməd.

Əhməd atını mindi. At Əhmədin yelinə uçurdu. Qamçısını silkələdi, atın başını çəkdi, kəndə göz gəzdirdi. Camaatın üzünə baxan kimi yadına düşdü ki, hamı ona borcludu, atın üstündə dikəlib qamçısını bir də silkələdi:

– Borcunuzu niyə qaytarmırsız, ay camaat?! – dedi. – İstəyirsiz ki, divana çəkəm hamınızı?!

Keçib qonşu kəndə saz almağa getdi. Kənd camaatı neçə vaxt idi bir sudan içə-içə, bir torpaqdan yeyə-yeyə, eyni şeyi fikirləşə-fikirləşə bir adam kimi yaşayırdı. Əhmədin belə deməyindən sonra dağılışıb pərən-pərən oldular. Hərə öz yerinə çəkilib ayrı-ayrı şeyləri fikirləşməyə başladılar. Biri dedi anasının yanına gedim, biri dedi arvadının yanına gedim, biri dedi özünə yalvarım.

Qızılı olan: – Qızılımı, – dedi aparım.

Anasının yanına gəldilər:

– Bəy oğluna qurban olum, kəndi dolandırır, kəndin ağasıdı, deynən bir az gözləsin!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sarıca xanım, başına dönüm, qulunam, kənizinəm, ərinə de, divanlıq eləməsin bizi, bir az vaxt versin, bunu da al, keçirt barmağına!

Biri xalça gətirdi, biri yastıq gətirdi, biri inəyini gətirib Əhmədin naxırına qatdı...

Əhməd qonşu kənddən saz çala-çala qayıdırdı. Yəqin saz çalıb-oxuduğundan idi, kənddən borclarının üstündən keçirmiş kimi keçirdi. Balacadan tutmuş böyüyəcən, hamının üzünə gülümsədi. Sarıca Sarı qızı eyvandaydı. Əhmədi görən kimi:

– Gör nə qədər şey gətiriblər, – dedi.

Amma Əhməd heç nəyə baxmadı, saz çala-çala eyvana qalxdı. Sarıcaya elə bil indi toy olurdu, sevincindən az qalırdı ağlasın.

– *Qara qazının ağ arvadına xanım demillər, mənə dedilər*!

Əhmədin ürəyi soyumurdu, çalırdı, oxuyurdu, oynayırdı, yenə o deyildi. Çaldığı da, oxuduğu da, oynamağı da bir vaxtlar sobanın qırağında hər şeyin səs eləyə-eləyə çıxıb getdiyini duyub oxuduğu atasının ləngərli qəzəllərindən çox-çox yüngül idi. Var-dövlət dingildədirdi Əhmədi, bu da əslində-kökündə bəylik olmadığı üçün dingildəyə-dingildəyə bəy olmağından idi. Çalıb-oxuduğu yerdə bir də gördü kəndin ətəyindən bir dəstə atlı çıxdı, dallarınca da dəmirdən yol çəkdikləri vaxt tez-tez yanlarına gələn bəzəkli faytona oxşar bir şey gedirdi. Sonra Əhmədin gözlərinin qabağında bir topa işıq oynadı, dəstələnə-dəstələnə, otluqları, təpələri işıqlandıra-işıqlandıra Arana sarı dağlar aşıb yox oldu. Əhməd sazı qoyub oturdu:

– Dədəm həmişə oxuyardı, – dedi. – Dünya duracaq yer deyil, ey can, səfər eylə.

Əhmədin səsi bayaqkı kimi cingildəmirdi, su çəkib nəmlənmiş kimi ağır olmuşdu.

Sarıca bayaqdan xanım havasındaydı:

– Əhməd, dedi, – eləmi, dədən bərk gedirmiş? Sənin də ayağına kəpənək tozu sürtübmü? Sən də deyirdilər eləsən.

Əhməd hardan gəlmişdi, ora qayıdırdı. Balaca, qara damlarında yol gedirmiş kimi səs eləyə-eləyə yanan sobanı, gecənin yarısı anasının yanında birinci kərə gördüyü atasının saqqallı üzünü xatırladı. Sonra gördü Məzə Möylənin qabağında mil durub. Məzə Möylə sayır, o da qaçır, qəzəl dedirdirlər, atasına qoşduqları mahnını oxudurlar, o da heç nə başa düşmədən oxuyur:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həmid alaqarğadı.
Dabanları yorğadı.

Başını qaldırıb acıqlı-acıqlı Sarıcaya baxdı:

– Borcu gətirmədilərmi? – dedi. – Divana verəcəm köpəyuşağının hamısını!

Sarıca kəndin gətirdikləri şeyləri, sonra da əllərini oynada-oynada barmaqlarındakı qızıl üzükləri göstərdi.

Əhmədin bayaq gördüyü atlılar kəndə sarı gəlirdilər, dallarınca da bəzəkli fayton, içində də əlində əsa, başında şlyapa bir kişi, ağ paltarlı bir qadın kəndin içiylə keçib getdilər. Uşaqlar çığırışa-çığırışa faytonun ardınca qaçışırdılar:

– Bəy dayı, xanım xala, bizə pul at!

Əhməd də, Sarıca da, bütün kənd də yuxu görürmüş kimi gözlərini döyürdü. Əhmədin atı ağzından arpa tökülə-tökülə faytonun ardınca kişnədi. Əhmədsə bir şeyə mat qalmışdı ki, onlar niyə Arana sarı getmirlər, tərs gedirlər? Əhməd üçün getməyin səmti Arana sarıydı.

– Xanım idi, o da əri, hə, Əhməd?

Əhməd başını tərpədib "hə" dedi. Amma hələ də fikirləşirdi ki, deyirdilər, dəmir yoluna nəsə gələcək, o "nəsə" nədi görəsən? Sarıcanın da, Əhmədin də bayaqkı havası alınmışdı. Sarıca öz əyin-başına baxıb:

– Mənə də o paltardan al! – dedi. – Nolub, nəyimiz əskikdi?!

– Özümüzə də fayton alacam, – dedi Əhməd.

Fayton alanacan sazı dınqıldatmadı. Eyvanda oturub bir neçə gün yollara baxdı. Amma hələ də mat qalmışdı ki, onlar niyə Arana sarı getmirdilər, tərs gedirdilər. Bu yanlarda yaylaqlardan başqa nə var ki?

Fikirləşdi, fikirləşdi, gedib bir cüt ağ at, Sarıcaya ağ paltar, özünə əsa, şlyapa, ağ kostyum, bir də bəzəkli fayton alıb gəldi.

Uşaqlar gördülər kəndlərinə yenə fayton gəlir. Çığırışa-çığırışa qabağına qaçdılar:

– Bəy dayı, bizə pul at!

Yaxınlaşanda gördülər Əhməddi. Səsləri boğazlarında, quruyub qaldılar. Böyükləri də hay-küyə düşdü. Yığışıb gendən-genə tamaşa elədilər. Biri:

– Yox, əşi, – dedi, – hökumət vermiş olacaq, belə şey satılmır. Bəylik belə verilir daa!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hamısı birdən:

– Hə, – dedilər, – bəylik belə verilir.

Bir sümük, bir dəri qalmışdı Möylə. Bir böyürdə hıçqırırdı...

Bir neçə gün keçmişdi, Əhməd faytonuna baxdı-baxdı, istədi götürüb saz çalsın, gördü havası gəlmir. Faytonun başqa havası vardı, sazda bu hava çalınmazdı. Ağ paltarları sandıqdan çıxartdı, özü də geyindi, Sarıca da. Şlyapanı qoydu başına, ağ əlcəkləri əlinə taxdı, əsanı götürdü, fayton havası buydu ki, Əhməd də, Sarıca da özləri bilməyə-bilməyə bu havaya oynayırdılar. Əhmədin var-dövləti də bu cür öz-özünə ayaq tutub yeriyirdi. Naxırı, sürüsü öz-özünə sağılırdı, yeri öz-özünə əkilib-səpilib becərilirdi. Naxırçısı vardı, çobanı vardı, əkinçisi, biçinçisi, ilxıçısı vardı.

İlxıçısı oturdu qabaqda, özü də, Sarıca da əyləşdilər faytona, Aranın tərsinə sürüb kənddən çıxdılar. Ağ molla Qara qazıya baxdı, Qara qazı Ağ mollaya.

– Bu Əhməddimi, a bala? – dedilər.

– Hə, – dedilər, – hökumət verib!

Fayton kənddən çıxaçıxdaydı, Əhməd Sarıcaya dedi:

– Ordan da gedərik, görək dəmir yoluna nə gətirəcəydilər.

Möylə yenə əkindəydi, yavaş-yavaş qulaqları da batmaqdaydı, neçə gün idi öz hıçqırığını da güclə eşidirdi. Elə bil uzaqda bir daş karxanasında daş dəlirdilər. Öküzləri açıb düzə buraxmışdı, əkinin üstə oturub, dizlərini qucaqlayıb kəndə baxırdı.

Möylənin arvadı da gördü Əhmədlə Sarıca faytona minib getdilər. Kənddən çıxıb yumalana-yumalana əkinlərə sarı qaçdı. Gördü bir dəstə uşaq yenə dəyirmanın ətəyində balıq tutullar. Nə fikirləşdisə, uşaqlara sarı getdi. Uşaqlar elə bildilər yenə balıq istəyir, bir düzüm balıq götürüb arvada uzatdılar:

– Yox, – dedi, – balıq istəmirəm. Sudan çıxın, qaça-qaça gedin Möylə dayınıza deyin ki, Əhməd getdi. Mən desəm, inanmayacaq.

Əhmədin getməyi də, bunu Möyləyə demək də məzəli bir şey idi ki, uşaqlar qabaqcadan bu məzəni duyub, əkinlərə sarı götürüldülər...

Uşaqlar çığırışa-çığırışa gəlirdilər. Möylə yenə dizlərini qucaqlayıb oturmuşdu. Hıçqırığı da uşaqların səsinə qarışıb uzaqdan eşidilirdi.

– Ay Möylə dayı, Əhməd getdi!

Möylə hıçqıra-hıçqıra dedi:

– Nə?

– Ay Möylə dayı, Əhməd yenə qaçdı!

Möylə əvvəl Yel Həmidi xatırladı, sonra Əhmədi qabağında mil duran gördü, özünü də gördü ki, camaatın arasında kefdə, məzədədi, ləzzətlə gülümsədi. Birdən-birə hıçqırığı nə təhər başlamışdısa, eləcə də xırp kəsdi. Papağını-zadı oturduğu yerdə qoyub, qalxıb kəndə sarı qaçdı. Tər içində özünü kəndə saldı ki, kənd balacasından tutmuş böyüyünəcən yola baxır.

– Ə, eləmi Əhməd gedib?!

Gördülər, Möylədi, özü də hıçqırıb eləmir. Çığırışa-çığırışa, gülüşə-gülüşə Möylənin başına yığışdılar:

– Gözün aydın, ay Möylə, nə yaxşı hıçqırmırsan?

– Əhmədin getdiyi doğrudumu?

– Hə, indicə getdi.

– Bə niyə tərs baxırsız?

– Arana sarı getmədi, bu yana getdi.

Möylə bir xeyli fikirləşdi:

– Bu o getməkdən döyül, – dedi, – bir kərə hıçqırdı, qorxu içində camaata baxdı, camaat da qorxa-qorxa Möyləyə baxdılar ki, görsünlər yenə hıçqıracaqmı...

*1977*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ŞEYTAN

Şeytan bir ovucun tozu oldu, dəyirmanın bacasından çıxdı. Şeytanın çıxmağıyla da hava dəyişdi, sazaq qalxdı, otlar-əncərlər sirli-sirli yırğalandı. Göyün üzündə buludlar oynaşdı, yollar, yamaclar rəngini dəyişib qaraldı. Sonra boğanaq qalxdı, ayağı yerdə, başı dağlardan hündür, burula-burula dərə yuxarı getdi. Kəndə girib fır-fır fırlandı, başından düşüb, ayağından çıxdı. Toyuqlar toyuq kimi yox, qulun kimi qışqırıb daldaya çəkildilər.

Ağca sənək çiynində sudan gəlirdi. Boğanaq qıçlarına sarınıb qucaqladı. Ağcanın gözəl biçimli bədənində qəribə bir qıdıq gəzdi. Hasarların dibindən baxan oğlanlar yola uzanmaq istədilər.

Arvadlar Fatı qarının başına yığılmışdı. Qarı Ağcanı görüb oxudu:

Ağ dəvə alçaq gedər
Qolunda qolçaq gedər,
Bu zəmanə qızları
Ərə tumançaq gedər.

Gözdən-könüldən uzaq bir kənd idi. O ev bu evin üstündəydi, bu ev o evin, bu evin damı o evin həyətiydi. Bir mollası vardı, bir qazısı. Molla qazılıq eləyirdi, qazı mollalıq. Dünya yadlarından çıxmışdı. Gələni, gedəni yox idi.

Kəndi dolanan boğanaq da əslində boğanaq deyildi, şeytan idi ki, bayaq bir dəstə un tozu olub dəyirmanın bacasından çıxmışdı. Ağcanın canında gəzən qıdıq da şeytan idi.

Hava şeytanlı olduğu üçün ha əkirdilər, ha biçirdilər, yenə ac idilər. Arvadların başına qeybət yağırdı, baş qarışıq idi, Allah yada düşmürdü.

Şeytan kənddən çıxıb özünü dərəyə saldı. Dərənin qaşında atlar vardı, hürküb götürüldülər. Şeytan bir uzun yalmanlı kəhəri minib qovurdu. Kəhər ayağı tutduqca bu qorxunun əlindən qurtarmaq istəyirdi. Amma bu qorxu havadaydı, bu havanın da əlindən hara qaçmaq olardı?

Kəhər bilirdi ki, yiyəsi cütçü Bəkir yer əkir. Başı şeytanlı özünü əkinlərə saldı. Bəkir cütü buraxıb atın qabağına yüyürdü. Kəhər onu görüb elə kişnədi ki, yağının yazığı gəldi. Amma Bəkir bilmədi ki, at deyir: "Şeytan var dünyada". Kəhərin gözlərini sığalladı:

– Nolub, – dedi, – sənə, çər dəymiş?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O biri əkinçilər də o yandan yüyürdülər, kəhəri araya aldılar. Havanın şeytanlı olmasındandımı, nəydisə, atın belə dəliliyi əkinçilərə xoş gəldi. Atla məzələnmək istədilər. Biri əllərini buynuz elədi, qoydu başına, ata sarı yeridi. Əkinin o başından-bu başına sazaq əsdi, əkinçilərin arasında balaca bir boğanaq burulub yox oldu. Kəhər dal ayağının üstünə qalxıb kişnədi: "Şeytan var dünyada".

Doğrudan da birdən-birə dünya məzəli olmuşdu. Gün qalxıb düz əkinçilərin başı üstündə dayanmışdı, amma dünyanı işıqlandıra bilmirdi. Göyün üzündə ağlı-qaralı buludlar vardı, məzəli-məzəli şəklə düşüb günün qabağında oynaşırdı. Boğanaq yerin çör-çöpünü götürüb dingildədə-dingildədə dəyirmana sarı aparırdı. Əkinçilərin canında elə bil barmaq gəzirdi, gülürdülər. Aralarında saqqallıları da vardı. Güldükcə saqqalları məzəli-məzəli tərpənirdi. Biri dedi:

– Ə, mən ölüm, bir buna barmaq elə!

Bir şeytanüzlüsü atın başına dolandı, ata barmaq eləyib çəkildi. Kəhər dal ayaqlarının üstünə qalxıb təzədən kişnədi. Əkinçilər qarınlarını tutub uğunub getdilər. İşdən-gücdən də soyumuşdular, beləcə, axşamacan gülmək istəyirdilər.

Bəkirin başında şeytan oynadı, qamçını götürüb atın üstünə düşdü:

– İtdərə yem eləyərəm səni, sazaqdan qorxan çər dəymiş! – Şeytan indi Bəkirin gözlərində oynayırdı. Kəhər Bəkirin gözlərindəki şeytanı görüb az qaldı çatdaya. Bəkir qamçını salıb:

– Tfu sənə, kor şeytan! – dedi.

Elə bununla da bir az onlardan aralı yenə boğanaq qalxdı, qıvrıla-qıvrıla, burula-burula dəyirmana sarı süründü. Boğanaq addadığından kəhər dincəldi. Bayaqdan elə bil havadaydı, indi yerə düşdü, ayağının birini qaldırıb, birini qoydu. Qızıl tükləri yapıxıb parıldaşdı. Başını Bəkirə sarı yelləyib oxrandı: "Şeytan minmişdi məni".

Əkinçilər də elə bil birdən-birə ayıldılar, bir-birlərinə baxıb:

– Bu nəydi ə? – dedilər. – Yaman güldük, xeyir olsun?..

Şeytan dəyirmanın boğazından ölü düşdü, diri çıxdı. Dəyirmançı unluğun qabağında oturmuşdu. Çax-çax baş ağrıdırdı, dəyirmançı gəlirini çıxarına vururdu. Şeytan un tozuna qarışdı, keçib oturdu dəyirmançının ürəyində.

Dəyirmançı başladı söyüb-söylənməyə, özü də bilmədi kimi söyür. Qalxıb o yana baxdı, bu yana baxdı, gedib çuvalları, torbaları açdı, çanaq-çanaq buğda götürüb öz çuvalına boşaltdı. Yenə dincəlmədi, arvadı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yadına düşdü, içində istilik gəzdi, sonra yadına düşdü ki, bu üyünən un Fatmanındı, indi gəlib aparasıdı. Fatmanı xatırlayan kimi elə bil dəyirmançının içindən boğanaq qalxdı. Başını qapıdan çıxartdı, gördü ki, doğrudan da Fatma bir uzunqulağı da qabaqlayıb gəlir. Qapını açıq qoyub, unluğun yanında oturdu. Şeytan dəyirmançının gözlərindən başını çıxartmışdı, yola baxırdı.

Fatma eşşəyi qapıda qoyub içəri girdi, istədi salam versin, dəyirmançının gözlərini görən kimi yerindəcə dondu. Şeytan dəyirmançının gözlərindən başını çıxardıb Fatmanı çağırırdı:

– Yaxın gəl, gəl, ay Fatma, gə-əl!

Dəyirmançı qalxıb Fatmaya sarı getdi, gülümsəyib əl verdi:

– Səhərdən oturub səni gözləyirəm.

Dəyirmançının əli istiydi, şeytan bu istiliklə uzanıb Fatmanın canına yayıldı. Dəyirmanın unlu, şeytanlı havasındandımı, nəydisə, Fatmanın nəfəsi təngidi. Elə nəfəsi təngiyə-təngiyə gördü ki, dəyirmançı enlikürəkli, şirin bir kişidi. Dəyirmançı Fatmanın rəngi dəyişən gözlərini görüb lap yaxına gəldi. Fatma gücsüz-gücsüz dartındı.

Fatma elə bil qırmızı örtüyün arxasından baxırdı, hər yan qıpqırmızıydı. Dəyirmançı onu bu qırmızı boyanın üstüylə çuvalların dalındakı taxtın üstünə çəkdi...

Dəyirmandan yanıq iyi gəldi. Dəyirmançı qalxıb dənliyə dən tökdü, yanıq iyi kəsdi. Fatma da çuvalların arasından çıxdı. Qırmızılıqdan bir nişanə qalmamışdı. Hər yan unlu idi, tozluydu. Gəlib unluğun yanında dayandı, başını aşağı saldı. Ərindən, uşaqlarından daha çox cütçü Bəkirdən utanırdı. Çünki bir zamanlar deyərdi: "Dünya yıxılsa da Bəkirə gedəcəm".

Dəyirmançı Fatmanın xurcununa un doldurdu, öz unundan da pay verdi, yola salıb dedi:

– Razı qaldınmı?

Fatma peşman-peşman eşşəyi qabaqlayıb kəndə qayıdırdı. Yanaqlarının qızartısı hələ getməmişdi. Fatı qarı bu qızartını görsəydi, deyərdi: – Fatmanı şeytan yoldan çıxartmışdı, üzündə şeytan rəngi varıydı. Deyəsən, dəyirmançıynan aşıq-aşıq oynayır.

Fatmanın eşşəyi cığırın yan-yörəsindən ot qopara-qopara gedirdi. Otun, ələfin belə çoxluğu eşşəyi tələsdirdi. Eşşək eşşək olsa da elə bilirdi ki, görünən ot yediyi otdan dadlıdı. Ona görə də yavaş-yavaş yerişini artırırdı, axırda başladı yorğalamağa. Fatma da yüyürüb eşşəyin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qabağına keçdi. O qabaqda, eşşək dalda kəndə sarı getdilər. Bəkir yenə gəlib Fatmanın yadına düşdü. Amma Fatma Bəkiri çox xatırlaya bilmədi, çünki bu xatirədə isti bir şey yox idi. Dəyirmançı gəldi durdu gözlərinin qabağında. Özündən xəbərsiz dayandı. Eşşək çatıb başıyla Fatmanı itələdi ki, gedək.

Fatma geri dönüb baxdı. Dəyirmançı qapının ağzında, dəyirman daşının üstündə oturmuşdu, qəlyanını tüstülədirdi.

* * *

Cütçü Bəkirin toyuydu. Kənd camaatı iki-bir, üç-bir toy evinə yığışırdı. Çalğıçılar əyləşmişdilər başda, amma hələ saz eləmirdilər. Şeytan dəyirmandan çıxıb quyruq bulaya-bulaya kəndə gəlmişdi. Kəndin havası da dəyişmişdi. Külək qalxmışdı, az qalırdı adam aparsın. Tozdan, torpaqdan göz açmaq olmurdu. Kəndin birdən-birəcə dəyişən bu havasında camaat da dəyişib qeybətə başlamışdı. Çalğıçılar da ləzzətlə qeybətə qulaq asırdılar. Cavanlar halay vurub, dəstə tutmuşdular. Kim yanlarında yox idi, onun ardınca danışırdılar. Ona görə də heç kəs aralanmırdı, göz-gözə durub, bir-birlərinə baxırdılar.

Qızlar, gəlinlər Fatı qarının başına yığışmışdılar. Fatı qarı da Fatı qarı deyildi, yüz qazana çalasıydı. Bu boyda vaxtından ürəyini şeytan suyolu eləmişdi. Şeytana papış tikib, üstündən də deşik qoyardı ki, şeytanın xəbəri olmazdı.

Şeytanın kefiydi, kəndin bu tozlu, torpaqlı havasıyla keçib camaatın ürəyində oturmuşdu. Nə deyirdi, onu da eləyirdilər. Qızlar oğlan axtarırdı, oğlanlar qız.

Arvadlar Fatı qarının başına yığışıb bic-bic pıçıldaşırdılar.

– Ağcadan ağlın nə kəsir, ay nənə?

– Ağca tumançaq gəzir. Belə, yel altınnan vurdu, başınnan çıxdı. Şeytan işidi. Nə bilmək olar, bəlkə də alladıb, toyunu çoxdan çaldırıb.

Toy damı dərənin qaşındaydı, böyük bir toyluq idi ki, içində at min, cıdır oyna. Sal dirəklərindən, iri kərənlərindən, pərdilərindən qurum sallanırdı. Bu qurumlara da heç kəs fikir vermirdi. Şeytan bacadan enib bu qurumlardan sallanmışdı. Qapı açıldıqca yellənirdi. Get-gedə hava qatıldı, camaat tərləyib yaxalarını açdılar. Qızların yanaqları allanmışdı, şeytan idi, qızların, gəlinlərin yanaqlarında gəzirdi.

Elə bil bir toy damı adam yox, bir toy damı şeytan idi, çaxnaşırdı. Dəyirmançı da gəlib əyləşmişdi bir qıraqda, Fatmayla üz-üzə. Şeytan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yenə dəyirmançının gözlərindən başını çıxardıb Fatmaya baxırdı. Sonra dəyirmançının gözlərinin biri qıyıldı, şeytan Fatmaya göz elədi. Fatmanın əli-ayağı yerdən üzüldü, rəngi qızardı. Fatı qarı Fatmanın qızarmış yanaqlarını da gördü, dəyirmançının qıyılan gözünü də. Əyildi sağa pıç-pıç, sola pıç-pıç. Dedilər:

– Nolub?

Dedi:

– Şeytan yoldan çıxardıb Fatmanı.

Fatmanın əri də burdaydı, toy evinin bir küncündə dava salmış oğlanlara baxırdı. Sonra silkələnə-silkələnə güldü:

– Şeytan hərləyir, – dedi, – bunları!

Dava böyüdü, birindən ikisinə, ikisindən üçünə, dostdan dosta, qohumdan qohuma, tayfadan tayfaya keçdi. Xəncərlər qınından çıxıb üz-üzə durdu. Sal-sal direklərdən, kərənlərdən, pərdilərdən sallanan qurumlar camaatın başı üstündə yellənməkdəydi. Şeytan dava görüb, qan duyub sevinc içində dırnaqlarını bir-birinə sürtürdü: "Siz dalaşa, biz tamaşa".

Bir kənd iki yerə bölünüb yüz-yüz ilin yağısı kimi üz-üzə durmuşdu.

Elə bu vaxt cütçü Bəkir içəri girdi, üz-üzə durmuş tayfaları görüb bağırdı:

– Mənim toyuma dava salanın anasını ağladaram.

Cütçü Bəkir su kimi iki tayfanın arasından keçdi, camaat kiriyib əyləşdi.

Bu kənddə şeytanın bircə qorxduğu adam var idi ki, o da Bəkir idi. Nə illah eləyirdi, Bəkirin ürəyinə girə bilmirdi. Allahdan elə qorxmurdu ki, Bəkirdən qorxurdu. Neçə dəfə camaatı dingillətdi ki, öldürsün onu. Heç kəs heç nə eləyə bilmədi.

Bəkir meydanı dörd dolanıb, çalğıçıların qənşərində dayandı. Sonra camaata sarı döndü:

– Ə, lənət şeytana deyin, çalın, oynuyun. Ölümnən toy bir kərə olur. Usta, saz elə! – İri qollarını, yekə əllərini açıb ağır taxtalı bir oyun oynadı. Bayaq dava salan oğlanları da meydana çəkdi, oynadıb barışdırdı. Qara-zurnanın səsi toy damını başına götürmüşdü. Camaat qocalı-cavanlı, qızlı-gəlinli təmizlənməkdəydi. Hələ Fatı qarı ki, yeməyi-içməyi yadından çıxardardı, qeybəti, pisliyi yox, özünü unutmuşdu. Özünü də ki unutdu, deməli, unudulan şeytandı.

Ona görə də şeytan camaatın ürəyində darıxdı, başladı fikirləşməyə ki, neyliyim. Dəyirmançını nə qədər qurdaladı, ayılmadı, dəyirmançı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

toya qulaq asırdı. Sonra Fatmanı qurdaladı, heç yaxın düşə bilmədi. Fatmanın gözü Bəkirdəydi. Bir zamanlar açıq-aşkar deyərdi: "Mənnən başqa birini alsa, dünyanın altını üstünə çevirərəm". Başını qaldırıb dəyirmançıya baxdı. İstədi bərkdən tüpürsün, – Tfu!

Əri də gördü, Fatma dəyirmançıya baxır, o da dəyirmançıya baxdı. Uzaqdan-uzağa salamlaşdı ki, necəsən?

Cütçü Bəkir qapının ağzındakılara sarı bağırdı:

– Açın qapıları, hava dəyişsin.

Şeytan "hop" eləyib camaatın içindən çıxdı. Toy damının bacası ağzında oldu. Qayıdıb təzədən baxdı, istədi yenə ensin camaatın içinə, qarazurnanın səsi şeytanı döyüb qovdu. Şeytan qaldı, neyləsin; kənd camaatının hamısı toydaydı, yatan yox idi, yuxusuna girəydi, toydan uzaq olan yox idi, ürəyinə girəydi. Axırda gedib kalafalıqda oturdu, başladı barmaqlarının ucuyla gicitkan dəni dənləyib yeməyə. Bir də baxdı Dəli Domrul gəlir. Hop, girdi Dəli Domrulun ürəyinə. Şeytan Domrulu yalnız oğurluğa göndərə bilirdi, başqa heç nəyə gücü çatmırdı. Yenə başladı pıçıldamağa: "Get, Bəkirin inəyini oğurla! Get, Bəkirin inəyini oğurla! Get...".

Dəli Domrul hasarların dibiylə əyilə-əyilə Bəkirin evinə sarı getdi. Qarazurnanın səsini eşidib dayandı. "Get, Bəkirin inəyini...". Domrul dönüb toy damına baxdı: "Get, Bəkirin..." "Uzundərə" havası çalındı, Domrulun sümükləri oynadı, şeytan da tərpəndi, çünki şeytan Domrulun sümüklərindəydi, canındaydı. Qarazurna yavaş-yavaş onu təmizləyirdi. Təmizlədikcə "Uzundərə" havası da aydınlaşırdı. "Get, Bəkirin...".

– Lənət sənə şeytan! –"Uzundərə" havasından tutub toy damına getdi. Şeytan başladı fikirləşməyə ki, neyliyim? Qazının evinin bacasından içəri düşdü. Gördü qazı da yatıb, arvadı da. Qazının üzü günbatana, arvadının üzü gündoğana. Bir-bir kəndin yeniyetmələrindən olub arvadın yuxusuna girdi. Arvad: – Ac, dilənçi köpək uşağı, – deyib bir-bir hamısını qovdu. Dəli Domrul oldu, yaxın qoymadı. Dəyirmançı oldu, arvad meyilləndi. Dedi: – Get, filan xanın, filan arvadın üzüyünü al gəti, sonra.

Dəyirmançı başılovlu getdi üzüyün dalınca. Şeytanın çarəsi kəsildi. Bəkir oldu, qazının arvadı Bəkiri görən kimi boynunu qucaqladı, sarmaşıq kimi sarmaşdı. Qazının arvadı uşaq deyildi, bildi ki, nəsə yuxusunda bir yarımçıqlıq var, başladı elə yuxusundan Bəkiri sələməyə. Qazı səsə ayıldı, gördü arvadı Bəkiri çağırır. Qazı kəndin qazısıydı, ha



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

fikirləşdi ki, arvad Bəkiri niyə çağırsın axı? Ac deyil, çörək istəyə, çılpaq deyil, geymək istəyə. Qazı barmağını dişləyib, arvadına bir şapalaq... Arvad qorxub elə bağırdı ki, şeytan şeytanlığıyla belə, dik atılıb bacanın üstündə oldu. Nökər qara qazının arvadının səsini eşidib qapıda hazır oldu. Su gətirdilər. Şeytan istədi suya qarışsın, arvad içsin onu. Sonra yadına düşdü ki, su şeytan götürmür. Acıqlandımı, darıxdımı, nədisə, kəndin içində at minib cıdır oynamaq istədi. Boğanağa qarışdı, yelə qarışıb bir deyəndə cütçü Bəkirin tövləsində oldu. Kəhər gözlərini yumub, ayağı üstə mürgü döyürdü. Barıdan sallanan boğanağı tanıdı. Elə kişnədi ki, camaat toy damında "Tərəkəmə" havasını oynayırdı, əl saxladılar. Biri dedi: "Qarazurnanın səsini eşidib, kəhərin sümükləri oynayır".

Amma Bəkir bildi ki, yenə şeytandı atı kişnədən, heç kəsə demək istəmədi, istəmədi ki, şeytanı camaatın yadına salsın.

Şeytan kəhəri mindi, ayaqlarını da uzadıb qarnının altından çarpazladı. Kəhərin xəbəri olmadı ki, tövlənin bağlı qapısından nə vaxt çıxdı. At qaranlıq gecədə nə qədər gücü vardı, götürüldü. Atdı da elə bilirdi dünya hardasa qurtarır, dünyanın qurtardığı yerdə də nə qorxu var, nə hürkü. Qulaqlarının dibindən küləklər ötürdü. Kəhər də küləklərin vıyıltısından canını qurtarmaq istəyirdi. Amma bu, külək-zad deyildi, şeytan idi, kəhərin qulaqlarının dibində yalmanını hörə-hörə nəfəs alırdı.

Kəhər az qalırdı ki, çatdasın, bir də gördü yenə tövlədədi, cütçü Bəkir necə bağlamışdısa, eləcə bağlanıb. Yal-quyruğunda şeytan hörgüsü, köpüklü-köpüklü dincliklə mürgü döyməyə başladı. Şeytan da camaat üçün darıxdı. Toy damının bacasının ağzına gəldi. Qarazurnanın səsi bir az enmişdi. Gəlin üçün ağır havalar çalınırdı. Şeytan istədi bacadan ensin, yaxın düşə bilmədi. Çünki camaat bütün pisliklərini, bicliklərini unutmuşdu, başları qarışıq idi, dəyirmançıyla Fatı qarı oynayırdı. Qarı olmuşdu huri-mələk. Nə dəyirmançının göz vurması yadındaydı, nə Fatmanın üzündəki şeytan qızartısı. Altmış il qabaqkı nazıyla sındırmaqdaydı ki, bu naz da ona qız geyimi qarılara necə yaraşırdısa, elə yaraşırdı.

Dəyirmançı Fatmanı yadından çıxartmışdı. Bir küncdə uşaqlarını başına yığıb oturmuş balacaboylu arvadına baxırdı. Uşaqları dəyirmançı dədələrini oynayan görüb sevinc içində gülürdülər. Balacaboylu arvadı da elə gülürdü, az qalırdı ürəyi getsin. Şeytan isə bacadan baxırdı, acığından, paxıllığından öz quyruğunu gəmirirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dəyirmançıyla qarının oyununun şirin yerində uşaqlar çığırışdılar ki, gəlini oynatmağa gətirirlər. Çalğıçılar əl saxladılar, hamı dönüb baxdı. Ağca ağ kəlağayı örtüyündəydi. Dilə, qələmə gəlməz gözəlliyi ilə toyu soyutdu. Toy damına qəribə bir tıqqıltı düşdü. Az qalırdı divarlar çatdasın. Bu tıqqıltını təkcə şeytan eşidirdi. Başını bacadan salladı, gördü bu tıqqıltı camaatın içindən gəlir. Toyun soyuduğundan bir az da sallana bildi. Ağcanı görən kimi əli-ayağı yerdən üzüldü, içini çəkdi. Bəkirdən başqa toy adamları da içlərini çəkdilər.

Şeytan gördü, camaat tərtəmiz boşalıb, ürəkləri apaçıq, istəyir lap bir karvan şeytan olsun, yerləşəcək. "Hop" eləyib qarının ürəyinə girdi, qarının ürəyində başladı pıçıldamağa: "Oynuyurdun, havanı niyə yarımçıq kəsdilər, ortalıqda qaldın". Qarının dəli cini tutdu, gözünü yumub ağzını açdı:

– Toyunuzu yasa döndərərəm, elə qarğıyaram otunuz bitib, suyunuz axmaz. Yaşımnan çox toy görmüşəm, hələ mənim sazımı kəsən olmayıb. Şeytana yük eləyərəm sizi.

Toy damının havası təzədən bulanmaqdaydı. Şeytan dəyirmançının gözlərindən başını çıxartmışdı, Ağcaya ayrı cür baxırdı. Arvadların, qızların üzündə şeytan rəngi dolaşmağa başlamışdı.

Şeytan Ağcaya elə vurulmuşdu ki, az qalırdı dəyirmançının gözlərindən yerə düşsün. Camaatın yuva elədiyi ürəyində də qərar tuta bilmirdi. Cavanların da ona görə az qalırdı ürəyi getsin.

Bəkirin dam dolusu səsi gəldi:

– Noldu, ay camaat, yenə? Öz toyumda özüm oynayacam, aclıq olacaq.

Şeytan dəyirmançının içindən qışqırdı:

– Gəlin oynasın!

Ağca ortalığa çıxdı, qol qaldırıb oynadı. Sonra başının dəstəsindən qızlar çıxdı. Başladılar şeytan qəmzəsiylə süzməyə. Kişilər, oğlanlar ancaq şabaş verə bilərdilər, başqa heç nə eləyə bilməzdilər. Ona görə də şabaş verdilər. Biri bir qızıl verdi, o biri iki qızıl, üç qızıl, dörd qızıl. Bu kasıb, ac camaatdan o qədər qızıl çıxdı ki, şeytan qəmzəli qızlar qızılların üstündə oynamağa başladılar. Qızılları görüb şeytanın özü belə məəttəl qalmışdı. Camaatın içində atdanıb-düşürdü. Qarazurnanın səsi artıq camaatı ayılda bilmirdi. Havaların heç biri daha sümüyə düşmürdü. Çünki hamının gözü qızıllardaydı. Çalğıçılar da qızıllara baxa-baxa çalırdılar. Ona görə də nə çaldıqlarını bilmirdilər. Qızılın rəngi camaatın üzünə çıxmışdı, hamı qızılı idi. Elesi vardı, qızıl dişlərini çıxardıb atırdı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şabaşa. Zurna bir hava çalırdı, oynayanlar tamam başqa havaya oynayırdılar ki, bu hava şeytanın da sümüyünə düşürdü.

Dəli Domrul dayanmışdı bir qıraqda, qızıllara baxırdı, şeytan da ürəyindəydi, pıçıldayırdı: "Get, Bəkirin inəyini oğurla, get!..".

Şeytan Domrulu qapıdan çıxardıb, hasarların dibiylə Bəkirin evinə göndərdi.

Şeytan bayaqdan ona görə hərlənirdi ki, Ağcanın ürəyinə girsin, amma allada bilmirdi.

Eşməbığlı bir oğlan ortalığa çıxdı, əlindəki qızılları Ağcayla oynayan qıza sarı uzatdı. Qızılın sarısıyla şeytan qızın gözlərinə girdi. Qız gözlərindən güldü. Oğlan əlini belinə qoyub dedi:

*– Burda kimi istəyirsən de, qızılla satın alım!*

Başqa qızıllı oğlanlar da vardı ki, hərəsi bir yandan qalxdı. Xəncərlər, bıçaqlar yenə qınından çıxdı. Şeytan Fatı qarının ürəyində dırnağını dırnağına sürtdü. "Siz dalaşa, biz tamaşa".

Bəkir yenə ayağa durdu. Bir sağa baxdı, bir sola. Camaat sərinləndi. Sonra da deyinə-deyinə, söylənə-söylənə dağılışdılar. Hamı verdiyi qızılın peşmançılığını çəkirdi. Əsəbiydilər, acıqlı idilər. Dava gəzirdilər ki, ürəklərinin acığını töksünlər.

Şeytanın bir ayağı camaatın içindəydi, bir ayağı toyda. Toy damında da Bəkir idi, Ağcaydı – başının qız dəstəsiylə. Şeytan Bəkirlə Ağcaya yaxın düşə bilmədi. Toy damının bacası ağzında boğanağa döndü, yel oldu, kəndi başına götürdü. Tozu torpağa qatdı. Fatı qarı yorğanın arasındaydı, başını bürüdü:

*– Yaxşıdı, – dedi. – Qoy elə daş yağsın!*

Ağcanı gəlin otağına gətirdilər, zil qaranlıq gecəydi, lopa yandırmışdılar. Şeytan dünyanın nəfəsi olmuşdu, üfürürdü ki, işığı söndürsün, işığa gücü çatmırdı. Qaçıb onlardan qabaq gəlin otağının bacasının ağzını kəsdirdi.

Bəkir Ağcanın örpəyini açmışdı, şeytan bacadan sallanıb içini çəkirdi. Ağca qollarını Bəkirin boynuna doladı. Çiçək kimi ləçək-ləçək, durna kimi dimdik-dimdiyə durdular. Bulaq kimi pıçıldaşdılar. Şeytan bir dəstə od oldu, bacadan qalxdı. Fırlanıb, soyuyub təzədən düşdü. Ağca başını qaldırıb bacaya baxdı:

– Bacada od gördüm, – dedi.

Bəkir Ağcanı qucaqlayıb öpdü:

– Gözünə elə görünür, – dedi. – Qorxma...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağca gərdəyin dalındaydı, diz-dizə əyləşmişdilər. Şeytan acığından, paxıllığından yenə quyruğunu gəmirirdi... Kənd qarmaqarışıq yuxular görürdü.

Fatma ərini yanında qoyub yuxusunda Bəkiri axtarırdı, dəyirmançını tapırdı. Dəyirmançı Ağcanı axtarırdı, Fatmanı tapırdı.

Fatı qarı yuxusunda hay salmışdı ki, Ağca qız çıxmadı, onu da aldadıbmış şeytan. Heç kəs evində, yatağında deyildi. Molla qazının evindəydi, qazı mollanın.

Yuxuları narahat olduğundan hamı oyanmaq istəyirdi, amma oyana bilmirdilər.

Şeytan bacadan enib Bəkirlə Ağcanın gərdəyinin qotazından asılmışdı. İçini çəkdi, ağlaya bilsəydi, oturub ağlayardı.

Ağca yarıyumulu gözlərini açıb, nəfəsi qırıla-qırıla, təngiyə-təngiyə pıçıldadı:

– Səs var, Bəkir!

Bəkir yenə gülümsədi:

– Qorxma, qadan alım, yengədi qapının dalında.

Şeytan obanın ən gözəl oğlanı oldu. Ağcanın yuxusuna girdi, Ağca tüpürdü, söydü, obanın ən varlı-dövlətli oğlanı oldu, ayaqları altına qızıl səpdi, özü də diz çökdü qarşısında, yaxın durmadı. Dəyirmançı oldu, yenə yaxın qoymadı...

Şeytan kəndin ən gözəl qızı oldu, Bəkirin yuxusuna girdi. Bəkir qızın üzünə baxmadı, Fatma oldu, baxmadı, iridöşlü, gensağrılı qazı arvadı oldu, üzünü döndərmədi.

Səhər açılanacan Bəkir də, Ağca da şeytanla əlləşdilər. Xoruz banında ayıldılar. Bir də qucaqlaşdılar. Şeytan yenə gərdəyin qotazından sallanmışdı, quyruğunu gəmirirdi. Acığından, paxıllığından buynuz çıxartmışdı.

* * *

Qarşı dağın dalından gün çıxaçıxdaydı. Dünyanın, varlığın tərtəmiz, şeytansız çağıydı. Çöllərin şehli, suların duru vaxtıydı. Kənd camaatı da elə bil yuxudan ayılmırdı, təzədən doğulurdu.

Bəkirlə Ağca qapının ağzında dayanmışdılar. Bəkirin heybəsi çiynindəydi, öküzləri boyunduruqda. Ağca başını aşağı salıb dinləyirdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Fatı qarını yaxın qoyma, içi dolu şeytandı. Uzaq dolan hamısınnan, hamı şeytan deyəni eləyir. Bostanımızı becərək, köçüb gedərik burdan.

Öküzlərini qabaqlayıb əkinə getdi.

Qızlar, gəlinlər sənək götürüb suya getmişdilər. Qocalar dünənki günahları üçün Allaha dua eləyirdilər.

Şeytan da kalafalıq gicitkanlarının arasında dünyanın bu təmizliyini görüb yanıb-yaxılırdı. Fürsət gözləyirdi.

Fatı qarı yerindən durdu, kəndi söyə-söyə, qarğışlaya-qarğışlaya çaya sarı endi. Şeytan bir uzun gicitkan oldu, kalafalıqdan başını uzadıb qarıya baxdı, elə bil dost-doğmaca nənəsini gördü, sevincindən atdanıb düşdü, quyruğunu ağzına aldı.

Qarı dilində söyüş, qarğış əyilib əlini suya vurdu, ürəyi sərinlədi – “oyy” elədi, sonra ovcunu qoşalayıb üzünü yudu. Şeytan gördü qarı yuyunur, enib kalafalığa girdi, gicitkanların arasında şeytan cücüləri oxuyurdu, onlara qoşulub oxudu. Qarı üzünə su vurub ayılan kimi oldu, gördü qızlar suya gedir, oğlanlar yuyunur, cütçülər yer əkir, səpinçilər toxum səpir, qocalar aftafa götürüb dua eləyirlər, tüpürüb dedi:

– Oh, iman axtarır imansızlar!

Ağca sənək çiynində evdən çıxdı, kənd tamaşasına durdu. Oğlanlar əl saxladılar, qocalar aftafalarını yerə qoydular.

Şeytan gicitkan dəni yeyirdi. Ağcanı gördü, dən boğazında qaldı, çeçədi, öskürdü-öskürdü, gözləri çıxdı düz təpəsinə, buynuzunun yanına. Qalxıb tüstülənə-tüstülənə özünü qarının üstünə saldı, qarı başdan-ayağa oldu şeytan. Ağcanın o yanına keçdi, bu yanına keçdi, güldü, irişib-qırışdı. Amma Ağca yendir eləyib baxmadı. Qarının hər sözü bir şeytan oldu, başladı Ağcanın dörd yanında atılıb düşməyə.

– Səndə gör kimlərin gözü var, a yerin-göyün gözəli! Ayağını yan qoy, qızıla tutsunlar səni.

Ağca tərs-tərs qarıya baxdı, yaşmağının altından dedi:

– Cəhənnəm ol, imanına it bağlayaram, imansız şeytan!

Qarı dayanıb əlini əlinə vurdu:

– Belə yarıyıb yarsıma, qaralı-göylü qal, qotur tap, dırnaq tapma. Nə görmüsən dəli Bəkirdə?!

Ağca qara bir daş götürdü, qarı qorxub yumalana-yumalana aralandı. Eşməbığlı, qızıllı oğlana rast gəldi.

– Gözün hardadı, – dedi – boy-buxun səndə, mal-dövlət səndə. Sənin qızılıyın qorxusundan məsciddə molla qalmayıb, hamısı qaçıb.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Amma o cür ceyranı ələ gətirə bilmirsən. – Çiyni qalxa-qalxa güldü. – Sən get, ürəyini ara, görəcəksən şeytan əyləşib ortasında. Atılıb düşdüyünə baxma, kür at tez yorular.

Ağca su doldururdu. Eşməbığ oğlan başının üstünü kəsdirdi:

– Bircə kəlməylə "hə" de, dünya malına doydurum, qızıla tutum səni. Dəli Bəkirdə nə görmüsən?!

Ağca başını qaldırdı, eşməbığ oğlanın gözlərində işartılar oynayırdı. Üzündə də gülüşə bənzər bir cür rəng var idi ki, bu rəng də elə bil üzündə yox, dərisindən bir az aralı, eləcə havadaydı.

Ağca ağlar səslə:

– Tfu üzünə! – dedi. – Dost deyib çörək kəsmisən Bəkirlə!

Söz eşməbığ oğlana əsər eləmədi, cibindən qızıllar çıxartdı, səpələdi:

– Bunnarnan şeytanın özünü allatmışam. Nə vaxt istəsən Fatı qarıya de.

Qarı onlardan bir az aralı çiynini qısıb silkələnə-silkələnə gülürdü...

* * *

Gün xeyli qalxmışdı. Qocalar dua eləyə-eləyə günah işlədirdilər. Səhərin tərtəmiz, dupduru şehi quruyanacan artıq nə qədər günahlar işlənmişdi. Qızlar vardı, bir ağaca çıxıb, min bir budaq silkələyirdi. Gəlinlər harda qeybət vardı, ora qaçırdılar. Ağca haqqında dedi-qodular, qeybətlər bitib göyərirdi kənddə.

Fatma uzunqulağı qabaqlayıb dəyirmana gedirdi, yaxınlaşdıqca ürəyi dözüm gətirmirdi, eşşək də yüyürürdü, Fatma da. Dəyirmançı dəyirman daşının üstündə oturub qəlyanını tüstülədirdi, gördü uzunqulaqla Fatma gəlir, içəri keçib, çuvalların arasında yer düzəltməyə başladı. Uzunqulaq dəyirmanın ağzına çatıb anqırdı. Fatma da istədi dəyirmançını çağırsın, o yanına baxdı, bu yanına baxdı, içini çəkdi.

Daha dəyirmançıya da, Fatmaya da şeytan lazım deyildi, özləri öz işlərini şeytandan da yaxşı qururdular.

Ağca Bəkirə yemək aparırdı. Şeytan da əl çəkmirdi, ayağını ayağının izinə qoyub düşmüşdü ardınca. Elə ona görə də Ağca səksəkəliydi, yarğanların altı, qayaların dibi, kalafalıqlar hənirtiylə doluydu. Şeytan dibdə-bucaqda oxuyan şeytan cücülərinə qoşulub yanıqlı-yanıqlı, gücsüz-gücsüz oxudu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fatma dəyirmana boş gedib, dolu qayıdırdı. Başını salmışdı aşağı. Eşşək də ayağını sürüyürdü, Fatma da. Dəyirmançı yenə daşının üstündə oturmuşdu, qəlyanını tüstülədirdi. Qəlyanın tüstüsü də şeytanyolu eləyib burula-burula qalxırdı. Dəyirmançı gördü Ağca gəlir, yerindən durdu, təzədən oturdu. Şeytan da bayaqdan bilmirdi neyləsin ki, Ağcaya yaxın düşə bilsin. Şeytan özü-özlüyündə bir ağıla gələ bilməzdi, onunçün şeytana bir adam başı lazım idi ki, gedib içində fikirləşsin. Dəyirmançını görən kimi oynaqladı, "hop" eləyib girdi dəyirmançının başına. Dəyirmançı nə fikirləşdi, nə fikirləşmədi, qalxıb Ağcanın qabağına endi. Ağca gördü ki, dəyirmançı gülür, sümükləri gizildədi. Sonra gördü ki, eşməbığ oğlanın üzündəki kimi dəyirmançının gülüşü də üzünün dərisindən bir az aralıdı. Az qaldı qorxusundan yıxılsın dəyirmançının ayağının altına. Şeytan sevindiyindən dəyirmançının başında çırtıq çaldı, dəyirmançının başı hərləndi, əl atıb Ağcanın qolundan tutdu:

– Un verərəm, dən verərəm, gedək dəyirmana.

Ağca qolunu çəkib yerdən daş götürdü, – Tfu! – eləyib daşı vurdu dəyirmançının başına. Dəyirmançının başı silkələndi, gözlərindən od çıxdı, qığılcımlar oynadı. Bu da əslində şeytan idi ki, dəyirmançının gözlərindən çıxıb qaçırdı.

Ağca ağlaya-ağlaya, hıçqıra-hıçqıra əkinlərə sarı gedirdi. Kənddə göyərən dedi-qodu üçün ağlayırdı, evlərində boşalmış çuvallar üçün ağlayırdı. Şeytan da qulaqlarını yeddi qarış çləmişdi, otların, əncərlərin arasından Ağcanın hıçqırtısına qulaq asırdı.

Dəyirmançı qayıdıb oturmuşdu əvvəlki yerində, başını tutmuşdu. Şeytan yenə "hop" eləyib girdi dəyirmançının başına. Dəyirmançının başı od tutub yanırdı. Şeytan dırnaqları ağzında, fikrə getmişdi. Dəyirmançının Bəkirə paxıllığı tutdu, ürəyindən keçdi ki, nolaydı Bəkir olaydım, Ağcanı qucaqlayaydım. Balaca bir işarə şeytana bəs idi, Bəkir olmaq şeytanın əlində nəydi ki? Dəyirmançının başından çıxıb, bir deyəndə Bəkirin yanında oldu.

Dəyirmançının başı soyumuşdu. Soyuq başla fikirləşdi, öz-özünə güldü. Dəyirmanın çaxçaxının səsini indi eşidə bildi. Gördü dən qurtarıb, daş boşuna hərlənir, gedib suyu kəsdi. Çuvalların arasında Fatmanın yeri görünürdü. Fatmaya verdiyi una, dənə heyfi gəldi, qalxıb onun-bunun çuvalından un götürdü, dən götürdü, əskiyini düzəltdi.

Şeytan Ağcanı bərk qısqanırdı. Ayağını qoyduğu torpağa qısqanırdı. Özü şeytan olsa da Allaha qısqanırdı. Artıq eşməbığ oğlana da,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dəyirmançıya da qısqanırdı. Özü istəyirdi heç olmasa yuxusuna girəydi, aldadaydı. Ağca da oyanıb utana-utana Bəkirə deyəydi:

– Bu nə işdir, ay Bəkir, üzüm yanında qara, şeytan aldatdı məni.

Fatma da bir vaxtlar kəndin gözəliydi. Bəkiri istəyirdi. Amma Bəkir Fatmanı almadı, – xan qapısında böyümüsən, səni saxlaya bilmərəm – dedi.

Fatmanın ürəyinə şeytan yol tapdı, yuxusuna girdi, aldatdı. Bir gecə aldatdı, iki gecə, üç gecə..., axırda Fatma yuxusunu çin elədi, yer ayaqlarına sürüşkən oldu, ayağını hara qoydu, sürüşdü. Kənd başladı qeybətə, pıçıltılardan qulaq tutulurdu.

Fatmanın əri əlinə ağac aldı, Fatmanı döydü. Fatma and-aman elədi, ağladı ki, pis işim yoxdu, qonşuya duza getmişdim.

Fatmanın əri gördü ki, Fatmanın gözlərindən belə-belə yaş tökülür, o da kövrəldi, inandı. Kənd də danışıb-danışıb yoruldu, Fatma köhnəldi. Bir belə vaxtından arvadların qeybətinə qulaq asardı. Anası kəndin böyüyünün arvadına qulluq eləyəndə o da oynayıb-oxuyub oyun çıxarardı ki, kəndin böyüyünü güldürsün.

Şeytanı da bu kənddə saxlayan mollaydı, qazıydı, Fatmaydı, Fatmanın ata-anasıydı ki, yavaş-yavaş da sayları çoxaldı, beləcə, kənd də böyüdü, adamları da.

Şeytan gəlib əkin cığırının ağzında oturdu. Cücülər var idi, çəyirtkələr var idi, əkin cığırıyla gəlib şeytanın içindən keçib gedirdilər. Öküzlər əkinin o başından qayıdırdı. Bəkir cütdən yapışmışdı, aradabir öküzləri haylayırdı:

– Tərpənin görək!

*Bəkirin səsi də şeytandan keçib daşlara, qayalara dəyə-dəyə, dağların ətəyiylə uzaqlaşırdı.*

– Tərpən, gözünə dönüm!

Gün qaşa qalxıb cütçü Bəkirlə üz-üzə dayanmışdı, alnındakı tər damcıları işım-işım işıldayırdı, elə bil üzü misdəniydi. Fikrində heç nə yoxuydu, bir ürəyiydi, bir özü. Ürəyi tərtəmiz, dupduru, çabalaya-çabalaya cüt öküzü kimi Bəkiri dünyanın şeytanından, bicliyindən, pisliyindən uzaq, əkinin bu başından o başına dartıb aparmaqdaydı. Elə dünya da buna görə yaraşıqlıydı.

Şeytan əkinin başında dönüb Bəkir oldu. Bəkir kimi üzü mis rəngində, alnında tər damcıları... Bəkirin alnındakı tər damcıları istiydi, amma şeytanın alnındakı tər damcıları sopsoyuq idi, ölü təri təki bumbuz. Şeytan adam olan kimi dünyanın səsini eşitdi. Quşların, insanların,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çayların səsini eşitdi. Qamçı səsi eşitdi, öküzləri döyürdülər, atları döyürdülər. Cütlər, kotanlar yardıqca torpaq səs eləyirdi.

Şeytan darıxdı, istədi qayıtsın. Amma sevgiydi də, gərək bu sevginin yolunda hər ağrıya qatdanıb adam donunda qalaydı.

Adam kimi yaşamağın çətinliyini şeytan hardan biləydi ki? Ömrü boyu dünyanı oynadıb özü də tamaşa eləmişdi. Nə var belə yaşamağa?

Şeytanın bu dünyada bir öküzlərdən xoşu gəlməzdi, bir sudan, bir də taxıl zəmilərindən. Amma itləri hürdürərdi, atları minərdi, keçiləri daşa dırmaşdırardı, pişikləri mərəyə çəkərdi. Adamları da salardı biri-birinin üstünə. Belə şeylər idi şeytanı yaşadan. Dəyirmançıydı, Fatı qarıydı, mollaydı, qazıydı. Bu cür adamlar olmasaydı, şeytanın dünyada nə işi vardı? Yalanlar, yalançılar idi şeytanı yaşadan. Şeytan da yalan içində atın atıb, daylağın çapırdı...

Dünyanın səs-küyü şeytanı dəli eləmişdi. Əkinin başından gah görünürdü, gah yox olurdu. Öküzlər şeytanı duymuşdularmı, nəydisə, qulaq çırpıb, quyruq bulayırdılar, yerlərindən də tərpənmirdilər. Əkinçilərin heç nədən xəbəri yox idi, öküzləri qamçılayırdılar.

– Tərpən, üzülmüş!

Bəkir yola baxdı ki, görsün Ağca gəlirmi. Heç kəs yox idi. Eşməbığ oğlan yadına düşdü, sonra da dəyirmançı. Kənddə gəzən qeybətlər uzun-uzadı pıçıltılarla qulaqlarında səsləndi. Elə bil kənd arvadları başına yığışmışdı, onların nəfəslərindən başını qaldıra bilmirdi. Qamçını çiynindən aşırıb öküzləri qamçıladı.

Şeytan Bəkirin donuna girib əkinin başında dayanmışdı. Cütçü Bəkir öküzləri qamçılaya-qamçılaya, söyə-söyə, söylənə-söylənə yaxınlaşmaqdaydı.

Əkinçilərin çoxu uzaqdan-uzağa şeytan Bəkiri də gördülər, cütçü Bəkiri də, amma bir şey anlamaq ağıllarına gəlmədi. Başlarını aşağı salıb əllərinin dalınca addımladılar. Çünki əlləri kotanın dəstəyinə bağlı kimiydi, əllərinin dalınca getməliydilər.

Şeytan Bəkir dayanıb dünyaya tamaşa eləyirdi. Cütlərin açdığı cığırlar şeytana tamam başqa cür görünürdü. Şeytan elə bilirdi dünyanı gəmirirlər... İki əkinçi yer üstündə dalaşırdı. Dünya pıçıltılarla doluydu ki, bu da şeytana çox tanış gəlirdi. Dünya qeybət eləyirdi.

Şeytan adam donuna girən kimi acdı. Xeyli bunun nə olduğunu anlaya bilmədi. Sonra yeyənləri gördü, başa düşdü ki, acmaq nə deməkdi. Sağına baxdı, gördü yeməyə heç nə yoxdu, soluna baxdı, gördü yoxdu, aşağı baxdı, yuxarı baxdı, gördü heç nə yoxdu. Birdən-birə "tfu!" – dedi.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Bu, şeytanın dünyada birinci cümləsiydi. Şeytanın bu bircə cümləsi hələ sönməmişdi, havadaydı.

Öküzləri qamçılayıb cütçü Bəkir də "tfu!" – dedi. Öküzlər şeytana yaxınlaşıb baş çırpdılar, quyruq buladılar, dayandılar, "öldür", – dedilər, – tərpənmərik.

Cütçü Bəkir başını qaldırıb tərini sildi, şeytan da tərini silib gülümsədi. Cütçü Bəkir gördü ki, qarşısında öz geyimində, öz görkəmində bir adam dayanıb. Bu adam ona tanış gəldiyi üçün gülümsədi. Bir-iki addım ona sarı getdi. Şeytan da həmin yerişlə yaxınlaşdı. Cütçü Bəkirin sümüyü səksəndi, yerindəcə donub qaldı. Şeytan da yerində donub qaldı. Çünki şeytan hələlik Bəkirsiz heç nə eləyə bilməzdi. Bəkir elədiyini eləməliydi. Cütçü Bəkir istədi desin ki, kimsən, ay adam? Səsi çıxmadı, udqundu. Şeytan da udqundu, o da istədi desin ki, kimsən, ay adam?

Ağca əkinin ətəyilə gəlirdi. Dünyada bir çaxnaşma varıydı. Atlar hürküb kişnəyə-kişnəyə kəndin başına dolanırdı. Cütçülər elə qaynaşırdı ki, deyirdin dünyanı qovururdular. Quşlar adamların başı üstündə çır-çır çığırışırdı. Balıqlar suların dibinə sinmişdi, qorxudan yerə girmək istəyirdilər. Öküzlər boyunduruqlardan qurtula bilməyib başlarını samılara döyürdülər. Çiçəklər, otlar nəfəsini içinə çəkmişdi. Ona görə də dünyanın qoxusu yox idi.

Heyvanların, quşların dilini bilmirdilər, başa düşəydilər ki, heyvanlar, quşlar deyirlər: "Şeytan girib aranıza!"

Quşların çoxu qorxudan göydəcə ölürdü. Ona görə də tappatapla göydən quş ölüsü tökülürdü. Amma nə kənddə kəndçi, nə çöldə əkinçi bunu anlaya bilmədi. Gülüb uşaqları göndərdilər ki, yığın, qazana doldurun, bişirək yeyək. Payımız öz ayağıynan gəlib.

İtlər bağında dartınıb özünü öldürürdü. Toyuqlar da banlayırdı, xoruzlar da. Quru qurbağaları özlərini öldürməyə yer axtarırdılar. Su qurbağaları bağırları çatlasa da suyun altından çıxmırdılar. Atlar kişnəmirdi, bağırırdı. Amma camaat bir qaşa yığışıb, heyvanların tamaşasına durmuşdular. Başını daşlara döyən öküzlərə, dünyadan çıxıb qaçmaq istəyən atlara, göydən ölü düşən quşlara, bağrı çatlayan qurbağalara, banlayan toyuqlara, bağında boğulan itlərə baxıb uğunub getmişdilər. Hürkən atları daha da hürkütmək üçün, cinli öküzləri daha da cinnətmək üçün atılıb-düşüb oyun çıxardırdılar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əkinçilər cüt öküzlərini qamçılayıb qışqırırdılar:

– Tərpənin!

Cütçü Bəkir öküzlərin yanındaydı, şeytan Bəkir də ondan bir az aralı. Ağca əkinin ətəyindən çıxıb cütçü Bəkirə sarı gəldi. Bəkirin yanındakı qaraltını da gördü, amma fikir vermədi. Qazının oğluna oxşatdı, həm də qorxdu ki, görəsən niyə gəlib.

Ağcanı görən kimi şeytanın içində hıçqırtı başladı. Cütçü Bəkir nə eləyəcəyini bilmirdi. Qorxulu-qorxulu Ağcanı səslədi:

– Ağca!

Şeytan da həmin səslə:

– Ağca! – dedi.

Ağca iki Bəkirin arasında donub qaldı. Bir istədi gülsün, desin: – Bu nədi, ay Bəkir, bu nə oyundu? – Amma bilmədi bu sözü kimə desin. Cütçü Bəkir irəli yeridi. Şeytan da irəli yeridi. Cütçü Bəkir təəccübündən, acığından boğula-boğula dedi:

– Bu kimdi, aaz?

Şeytan da həmin səslə dedi:

– Bu kimdi, aaz?

Ağca qorxusundan içini çəkə-çəkə diz çökdü:

– Dəlisənmi, nədi, Bəkir? – dedi, amma doğrudan da bilmədi cütçü Bəkir hansıdı.

Şeytan Bəkir də, cütçü Bəkir də qışqıra-qışqıra, bağıra-bağıra hərəsi bir yandan Ağcanı döyməyə başladılar:

– Deməli, deyilənlər doğruymuş, şeytanın balası?

Ağca Bəkirlərin əlindən çıxıb əkinçilərə sarı qaçmaq istədi. Amma şeytanın əlindən hara qaçmaq olardı ki? Şeytanın vurduğu ağrılar ağrı deyildi, sığallamaq idi. Ona görə də Ağca şeytan Bəkirə sarı sığınırdı.

Əkinçilər, cütçülər hərəsi bir yandan yüyürdülər. Bəkirləri ayırdılar.

– Nolub, əə, nəyiniz ortaq düşüb? Kimdi bu, Bəkir? – Bəkirlərin ikisi də başını qaldırdı. Əkinçilər bilmədilər gülsünlərmi, ağlasınlarmı, qaçsınlarmı, dursunlarmı? Özlərini itirib, donub qaldılar. Cütçü Bəkir əkinçilərə sarı döndü:

– Ə, görmürsünüzmü, – dedi, – hansı namussuz köpəkoğludu, bilmirəm.

Şeytan heç özü də bilmədi, nə vaxt dilləndi, nə dedi, tələsik cütçü Bəkirin sözünü kəsdi, cütçü Bəkirin səsiylə, ləhcəsiylə:

– Namussuz köpəkoğlu sənsən, arvad mənimdi, çıx yolunnan düz get!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əkinçilər də, Ağca da, cütçü Bəkirin özü də elə bilirdilər ki, bunların hamısı zarafatdı, hardasa qurtarmalıdı. Elə bilirdilər ki, yenə kəndin məzəsidi, it oynadırlar. Amma şeytan Bəkirin bu sözündən sonra birdən-birə qorxdular. Bir-birinə sığındılar.

Ağca yolunu itirmiş kimi əvvəl cütçü Bəkirə sarı getdi, sonra qayıdıb şeytan Bəkirə sarı gəldi. Əlləriylə üzünü örtüb hönkürə-hönkürə ağladı. Cütçü Bəkir dəli görkəmində əkinçilərə baxdı, ağlar səslə:

– Bu nə deyir, əə? – dedi. Şeytanın üstünə yüyürdü. Vurmaq istədi, üzü üstə əkinə düşdü. Qalxdı, yumruğunu yenə atdı, əlləri havada oynadı, elə bil kimsə qaldırıb onu şeytanın ayaqlarının altına yıxdı. Əkinçilər yenə Bəkirləri ayırdılar, çəkilib onlara bir də başdan-ayağa baxdılar.

Biri çiyinlərini çəkib:

– Sən öl, nağıldı! – dedi.

Əkinçilər buna yavaş-yavaş alışdıqları üçün gülmək istəyirdilər. Biri də Ağcaya sarı dönüb:

– Ağlama, – dedi, – aaz, qalx gör ərin hansıdı?

Əkinçilər artıq ayılan kimiydilər, dilləri açılmışdı. Biri yanındakına sarı dönüb yavaşcadan dedi:

– Ağlamağına baxma, hamısı onun işidi, arvad işinnən şeytanın da başı çıxmaz.

Əkinçilər yer-yerdən dilləndilər:

– Qalx, aaz, sənnən başqa kim tanıyacaq?

Ağca ayağa durdu, əvvəl cütçü Bəkirə baxdı, sonra şeytana. Əkinçilər yavaş-yavaş gülməyə başlamışdılar, pıqqıltıları eşidilirdi.

Şeytanın gözlərində qəribə bir yumşaqlıq, istilik vardı ki, Ağca xeyli gözlərini çəkə bilmədi. Şeytanın gözlərindəki bu yumşaqlıq Ağcanı ovundurdu, Ağca yüngülləşdi, hələ sevindi də. Şeytanın gözləri bircə anın içində, bir kərə baxmaqla Ağcaya çox şeyləri vəd elədi. Geyim-kecim, yemək-içmək, qızıl. Ağca dönüb cütçü Bəkirə baxdı, cütçü Bəkirin gözləri it gözlərindən də sərt idi. Ağca cütçü Bəkirin gözlərindəki dəlilikdən, əsəbdən qorxdu. İstədi şeytana sarı getsin, amma birdən-birə ürək eləyə bilmədi. Əkinçilərə baxıb yerə çökdü, yenə ağladı.

Əkinçilərdən biri irəli yeridi:

– Qardaş, Bəkir hansınızsınız?

Şeytan güldü:

– Ə, dəli olmusuz, tanımırsızmı məni?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağca qalxıb özünü şeytanın üstünə saldı.

– Ay Bəkir, nə iş idi, düşdük? – deyib boynunu qucaqladı.

Şeytan da Ağcanı qucaqladı. Beləcə təzədən şeytan olub əriyib, suyulub Ağcaya qarışmaq istədi, özünü güclə saxladı.

Şeytanın qolları arasında Ağcanın gözləri süzüldü, az qaldı ürəyi getsin.

Əkinçilərin hamısı birdən cütçü Bəkirə sarı döndülər. Dəliliklə cütçü Bəkirin arası bircə qarış idi, əsəbdən üz-gözü əyilmişdi, əllərini açıb yelləyə-yelləyə, boğula-boğula dedi:

– Ə, Əsəd, duz-çörək kəsmişik, bir belə yaşımızdan bir yerdə böyümüşük. Ayıb döyülmü, tanımırsanmı məni?

Əsəd əlini-əlinə vurdu:

– Pah, adam yiyəsi, belə də oxşarlıqmı olar ə? – Şeytana sarı döndü. – Mən ölüm, – dedi, – məni tanıyırsanmı?

Şeytan Bəkir güldü:

– Niyə tanımıram – dedi. – Ağ dərədə Uyğuroğlunun atının quyruğunu biz qırxmadığmı? İkimiz kəsmədikmi Qara Teymurun arvadının hörüklərini? Dəli Domrulun zəmisinə suyu biz açmadıqmı? Fatmanı alladıb, oynadıb sonra da atmadıqmı? Mollaynan qazıya biz satmadıqmı kəndi?..

Əsəd də güldü, yoldaşları da. Belə şeyləri özlərinə pislik saymırdılar. Ona görə də Əsəd şeytan Bəkiri tərifIədi: – Sağ ol, yaxşı yaddaşın var, az qala mənim yadımdan çıxmışdı, – dedi. Cütçü Bəkirə sarı döndü, özü də elə döndü ki, yəni əsil Bəkir tapıldı, sən deyilsən.

Cütçü Bəkiri yaş boğurdu, qəhərlənə-qəhərlənə, kövrələ-kövrələ dedi:

– Dəli Domrulun zəmisinə suyu açanda, mən çıxartmadımmı səni qarğınnan? Qara Teymur ki xəncərnən doğruyurdu səni, mən almadımmı əlinnən? Öküzüyün tayını kim verib, mən verməmişəmmi? Gəlib axırda səni göndərmədimmi Ağcanın elçiliyinə? Nə dönük çıxdın bə?!

Ağca şeytandan aralanıb cütçü Bəkirə sarı gəldi. Yenə gücsüz-gücsüz torpağa düşdü, cütçü Bəkirin ayaqlarını qucaqlayıb ağladı. Əkinçilər boyun-boyun verib, yenə Bəkirlərə tamaşa elədilər. Biri yavaşcadan dedi:

– Sən öl, iki olub Bəkir.

Bu, əkinçiləri bir az yüngülləşdirdi. Bayaqdan quruyub qalmışdılar, yerlərində qurdalanırdılar. Qımışdılar, sonra kirimiş-kirimiş güldülər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onların bu səssiz gülməyində qorxu var idi, heyrət var idi. Şeytan Bəkir də gülümsədi. Cütçü Bəkir ayılan kimi olub, gözlərini özü kimi qamçılı, ayağı quşburun çarıqlı, patavalı Bəkirə zillədi. Əsəd irəli yeridi, səsi nazilib sönən kimi olmuşdu. Gah o Bəkirə baxdı, gah bu Bəkirə. Nazik, titrək səslə dedi:

– Bəkir, sən öl, iki olmusan!

Amma Bəkirlərin heç birindən cavab almadı...

Dünyada qəribə bir tıqqıltı var idi. Şeytanın ayağının altında, başının üstündə, adamların içində nəsə çırpınırdı: "Tıq, tıq, tıq!"

Şeytanın başı suların, quşların, adamların səsiylə dolmaqdaydı. Şeytan adam olurdu. Adam olduqca da şeytanı qorxu bürüyürdü. Cütçü Bəkirin gözlərini də elə bil indi gördü, bir-iki addım çəkilib qışqırdı:

– Yaxın gəlmə!

Cütçü Bəkirin gözləri şeytanın üstünə yeriyirdi, şeytan istədi cildini dəyişib qaçsın. Amma gec idi, başına dolmuş suların, quşların, adamların, Ağcanın səsindən qurtara bilməzdi. Özünü Ağcanın üstünə saldı, qolundan yapışdı. Cütçü Bəkir də Ağcanın o biri qolundan yapışdı.

Ağca çırpınıb Bəkirlərin əlindən çıxmağa çalışdı. Əkinçilər bir istədilər qaçıb uzaqlaşsınlar, bir ayaqlarını qaçaraq qoydular. Amma bunu görüb cütçü Bəkir də, şeytan Bəkir də, Ağca da birdən qışqırdılar:

– Əsəəəd!

Hamı bir-birindən qorxurdu. Əkinçilər onlardan qorxurdu. Ağca Bəkirlərdən, Bəkirlər də bir-birindən qorxurdu. Əsəd ayaq saxladı, yoldaşlarını da əylədi:

– Belə olmaz, – dedi, – yazıqdı, arvad xeylağıdı.

Dedilər:

– Neyləyək?

Dedi:

– Kəndə aparaq.

Kəndə doğru getdilər. Qabaqda əkinçilər, dallarınca da Ağca, sağında bir Bəkir, solunda bir Bəkir.

Gündüzlər ürəklərə, gecələr yuxulara girən, toy damında qurum olan, dəyirmanda toz olan, dərələrdə boğanaq, düzlərdə yel olan şeytan adam olmuşdu.

Bayaq torpaq üstündə dalaşan əkinçilər indi bir-birindən utanırdı. Biri dönüb başını bulaya-bulaya dedi:

– Ə, bu dünyada nələr olurmuş, əə? Biz də nəyi qoyub, nəyi axtarırıq!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Kəndə hay düşdü ki, Bəkir iki olub. Ayağı tutan da, tutmayan da əkinçilərin qabağına yüyürdü. Bilənlər bilməyənləri görüb, bilməyənlər bilənləri görüb bağırışırdı:

– Əyə, Bəkir iki olub!

Gülənlər vardı, zarafata yozanlar vardı, qorxanlar vardı, arvadların çoxunda qəribə bir maraq əmələ gəlmişdi, əllərini üzlərinə çəkib, bic-bic gülümsəyirdilər. Birdən-birə Allah yada düşmüşdü. Allahın adını çəkirdilər.

– Allah, sən saxla, Allah, gözlərimiz nələr gördü?!

Şeytan Bəkir qaynaşan, çığırışan camaata tamaşa eləyirdi. Canında qəribə bir çaxnaşma vardı ki, elə bil bu camaat onun içindən çıxırdı. Birdən-birə hamı ona tanış gəldi. Adam anlaya bilmədi ki, bu nə tanışlıqdı belə. Camaatın arasında Fatı qarını gördü. Sevindiyindən quyruğunu ağzına almaq istədi, quyruğu yox idi, istədi barmağını dişləsin. Özünü güclə saxladı. Sonra dəyirmançını gördü, az qaldı özünü üstünə salsın. Baxdı, Fatma da dayanıb qabaqda. Şeytan Fatmanı çılpaq gördü, çünki yadında belə qalmışdı.

Əsəd camaatı görüb ürəklənmişdi, Bəkirgili göstərib güldü:

– Bir də gördük Ağcanı döyüllər. Yaxşı, biri Bəkirdi, bə biri kimdi? Özümüzü yetirib araladıq, qaldıq məəttəl. Baxdıq, Bəkir iki olub.

*Gülənlər daha gülmədi, zarafat eləyənlər bir də fəhmlə baxdılar.* Hamı birdən-birə içini çəkdi.

Ağca başladı ağlamağa.

Şeytanın gözü Fatı qarıdaydı, dəyirmançıdaydı, Fatmadaydı. Baxdı-baxdı gülümsədi, başını əyən kimi elədi. Qarı da, dəyirmançı da, Fatma da şeytan Bəkirin salamını aldılar. Qarı şeytan Bəkiri göstərib tez dedi:

– Budu Bəkir!

Yer-yerdən dilləndilər:

– Nədən bildin, Fatı?

Qarı and-aman eləyə-eləyə şeytana sarı getdi.

– Aaz, bu tayı məni tanıdı, o tayı yox. Ona bax, adamnan ötrü özünü öldürür.

Şeytan gülümsədi. Şeytanın bu gülüşü tor kimiydi, yeriyib-yeriyib camaata sarınırdı. Şeytanın gülüşündə qəribə bir işıq vardı ki, bu da şüa



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

idi, işıq yox. Bu şüa dolaşdıqca camaatın üzü göyərib, saralırdı. Şeytanı göstərib dedilər:

– Hə, budu Bəkir, o bizi tanıyır, biz onu. Əlimizdə böyüyüb, tanımırıqmı?

Cütçü Bəkir camaata baxdı, başını saldı aşağı. Birdən-birə anladı ki, Bəkir olduğunu heç kəsə inandıra bilməyəcək. Özü də özündən qorxdu, əllərinə baxdı. Sonra başını qaldırdı şeytan Bəkirə baxdı. Ağcaya baxdı. Ağca şeytanın qucağına sığınmışdı. Çox baxa bilmədi. İnandı ki, bu, Allahın işidi. Şeytanın gözləri yadından çıxmırdı. Şeytanın gözləri cütçü Bəkirin xəyalında min-min, milyon-milyon olurdu, ilğım kimi, hava kimi sıralanıb axıb gedirdi.

Cütçü Bəkir birdən-birə anladı ki, ancaq ölüb canını qurtara bilər. Başı aşağı, dinməz-söyləməz camaatın arasından çıxdı.

Molla dua oxuyurdu, qazı da gəlib ona qoşuldu, xorla dua oxudular.

Şeytan camaatın içində Ağcanın üzündən-gözündən öpürdü, qolları olduğundan bir az da uzanmışdı, dolanmışdı Ağcanın gövdəsinə. Bu cür istəyə alışmadığından Ağcaya da elə gəlirdi ki, onu iki adam qucaqlayıb. Şeytanın nəfəsi Ağcanı məst eləmişdi. Cütçü Bəkir bu cür şirin-şirin, kəsik-kəsik nəfəs almırdı. Ağca bu şirinlikdən huşunu itirməkdəydi.

Fatma kədərlə, üzüntüylə cütçü Bəkirin ardınca baxırdı, dönüb Ağcanı belə gördü, güldü. Dul arvadlardan biri bərkdən dedi:

– Bəxtəvərliyinə bax bunun, aaz. Camaat bir kişi tapa bilmir, bununkunun biri də iki olub.

Sonra Fatmaya sarı döndü:

– Aaaz, gör sən də iki eləyə bilərsənmi?

Arvadlar güldülər. Ağca çəkə-çəkə şeytanı evə apardı. Cütçü Bəkir evinin qabağında dayanmışdı. Ağcayla şeytan keçib evə gedirdilər. Şeytan cütçü Bəkirə baxıb gülümsədi. Bəkir qorxu içində, ağrı içində onların dallarınca baxdı, qorxulu-qorxulu da çağırdı:

– Ağca!

Şeytan Ağcanın canına hopmuşdu, canında qaynamaqdaydı. Ağca heç nə eşitmədi, keçib getdi.

Kənd cütçü Bəkirin tamaşasına durmuşdu. Yaşlılar Bəkirin iki olmasından qorxurdular. Bəla gözləyirdilər göydən. Elə bilirdilər Bəkirin tayı da göydən düşüb. Belə şeyi yalnız nağıllarda eşitmişdilər. Başları qarışıq olduğundan nağıllar da indi yadlarına düşürdü. Arvadlar kişilərin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

iki olmağını xatırlayıb qımışırdılar, kişilər iki olmaqdan qorxub fikrə getmişdilər. Biri yandan cütçü Əsədə söz atdı:

– Ay Əsəd, indi sənin novatındı, sabah da sən iki olacaqsan.

Əsəd döndü:

– Mən hələ subayam, – dedi. – İki olaram, iki arvad alaram. Bə sən iki olsan neynəyəcəksən o cür arvadnan, ayaq üstə güclə durursan?

Onun yerinə arvadı dilləndi:

– Mənim əvəzimə sən niyə qorxursan? İki olar, ikisi də ərimdi.

Uşaqlar cütçü Bəkiri gücsüz görüb, ağlar görüb daşlayırdılar. Çünki Bəkir yaşda kişi gərək ağlamayaydı. Bəkirin evinə, ağaclarına, kişnəyə-kişnəyə kəndi dörd dolanan atına, öküzlərinə baxıb kövrəlməsi, ağlaması gülməli olduğundan uşaqlar başına daş yağdırırdılar.

Bəkirin başı üstündə quşlar çır-çır çığırışırdı: "Şeytan var aranızda".

Arvadlardan biri uşaqlara acıqlandı. Uşaqlar əllərini saldılar. Arıq, sümükləri çıxmış bir arvad gendən-genə Bəkirdən soruşdu:

– Kimsən, ay yazıq, Bəkirsənmi?

Bəkir ayılıb donuq-donuq onun-bunun üzünə baxdı. Başı üstündə çığırışan quşları gördü, atının kişnərtisini eşitdi. Atına dadanan şeytanı xatırladı. Birdən-birə anladı ki, şeytan işidi. Gülümsəyib dedi:

– Şeytanam.

*Camaat şeytan sözündən yox, daha çox Bəkirin gülümsəməsindən* qorxdu. Qarı "boy", "boy" eliyib üz-gözünü didişdirdi:

– Daşlayın, ay camaat, – dedi, – daş altda qalsın.

Dəyirmançı yerdən daş götürdü:

– Daşlayın! – dedi.

Fatma da daş götürdü, amma ata bilmədi. Bəkirin yorulub qızarmış, böyümüş gözləri ona çox doğma gəlirdi. Dünyada hər şeydən baş açardı Fatma, ancaq iki Bəkirdən baş aça bilmirdi.

Camaat şeytanın adından qorxub daşını atırdı. Fatma qabağa durdu.

– Dayanın, ay camaat! – dedi, – şeytana daş atmazlar. Hamımızı eşşəyə döndərər, itə döndərər, bir-birimizi yeyərik. Dönüb Bəkir olan bunu eləyə bilməzmi?

Camaat əl saxladı, daşını atan atmışdı, atmayan kirimişcə yerə tulladı. Hamı günahlı idi, hamının suçu özündən böyük idi. Dönüb qorxa-qorxa bir-birlərinə baxdılar. Eşşək olmaqdan, it olmaqdan qorxdular. Kənd itlərinin də səsini indi eşitdilər. Fatmanın dediyi onları elə qorxutmuşdu ki, itlərə də it kimi baxmırdılar. Qorxa-qorxa da dağılışdılar. Ən çox



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qorxan Fatma qarı idi, əlləriylə üz-gözünü ovuşdururdu ki, birdən itzad olub eləyər.

Bircə Fatma qalmışdı, Bəkirlə üz-üzə dayanıb gülümsəyirdi. Bəkirin sümükləri təzədən səksəndi. Elə bildi Fatma da iki olub. Camaatın ardınca boylanıb əsil Fatmanı axtardı. Uşaqlar gendən-genə çığırışırdı:

– Ay şeytan, Allahın acığına bizə pay göndər, ay şeytan!

Bəkir Fatmaya baxıb gülümsədi. Camaat qorxu içində gözləyirdi. Gözləyirdilər ki, şeytan indicə tüstü olacaq, quş olacaq, tənəkə olacaq, papaq olacaq. Hərənin ağlına bir cür gəlirdi. Bəkir arxasına baxmadan aralandı. Cavanlardan biri yavaşcadan Fatmanın ərini səslədi:

– Ay Həmid, arvadına gözü düşdü şeytanın. Fatmaya baxdı, güldü. Çörəyin havayı gələcək.

Fatmanın əri çiyinlərini qısdı:

– Hardadı, – dedi, – Həmiddə o baxt?!

* * *

Şər qarışmışdı. Qoyunlar mələşirdi, mallar böyürürdü, itlər hürürdü. Balacadan tutmuş böyüyə qədər hamı yorğanını başına çəkmişdi. Elə bilirdilər şeytan yavaş-yavaş camaatı itə döndərir...

Şeytanla Ağca gərdəyin dalındaydılar. O gərdəyin ki, bir vaxtlar şeytan qotazından asılıb paxıllığından, acığından quyruğunu gəmirirdi.

Ağca gözlərini güclə araladı, istədi desin ki, bacamızda səs var, Bəkir! Dili söz tutmadı, qollarını şeytanın boynuna doladı.

Şeytan rəngini itirmişdi, hava rəngindəydi. Ağca da bu boşluğu, bu havanı qucaqlayıb bağrına basdı.

Şeytan yerin içində oturmuşdu. Daha adam olmaq istəmirdi. İstədi tüpürsün – Tfu! Yenə dünyanın tıqqıltısını eşitdi – tıq, tıq, tıq. Qulağını Ağcanın sinəsinə qoydu. Tıqqıltıdan az qaldı qulağı batsın. Şeytan birdən-birə kəndin adamları üçün, Fatma üçün, dəyirmançı üçün, qarı üçün darıxdı, burnunun ucu göynədi.

Kəndin səs-küyü azalmaqdaydı. Elə bil kəndi bir səbətə qoyub yavaş-yavaş gecənin dərinliyinə endirirdilər. Kəndin mollasından tutmuş qazısınacan şeytanın qorxusundan cıqqırlarını çıxartmırdılar.

Fatma Bəkiri unuda bilmirdi, alaqaranlıqda gözlərini kərənə zilləmişdi. Ərinin arıq barmaqları tikan olub canında gəzirdi, qalxıb oturdu, əri yavaşcadan soruşdu:

– Niyə qalxdın?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəkirə yazığım gəlir, kim olur-olsun, çörək aparacam ona.

– Hansına?

– Çöldəkinə.

Əri yerindən dikəldi:

– Qorxmursanmı?

– Yox!

– Yaxşı, onda get, uşaqlarımıza da pay istə, ruzu istə. Şeytanın əli bərəkətlidi, verdiyi tükənməz.

Fatma qalxdı, pendir-çörək götürdü, şalına bürmələnib qapıdan çıxdı.

Cütçü Bəkirin atı gəlib yanını kəsdirmişdi, Bəkirlə üz-üzə, ayaq üstə mürgü döyürdü. Bəkir artıq heç kəsə inanmırdı, gözünə kim görünürdü, elə bilirdi iki olub, hamının əslini axtarırdı. İnandığı bir cüt öküzü idi, atı idi. Özü-özündən qorxurdu. Qabarlı əllərinə, çarıqlı ayaqlarına inana bilmirdi.

Başını qaldıranda Fatmanı qarşısında gördü. Fatma yavaş-yavaş yaxınlaşdı. Bəkir istədi qışqırsın, səsi çıxmadı. Fatmanın əlləri Bəkirin üz-gözündə gəzdi. Bəkir üzüntü içində soruşdu:

– Fatma, sən də ikimi olmusan?

Fatma başını tərpətdi, Bəkirin çiyinlərindən basıb yanında oturtdu:

– Məni niyə almadın? – dedi. – Səniydin mənim istədiyim.

Elə bil Fatma ölübmüş, indi dirilmişdi, ona görə də səsi elə bil qeybdən gəlirdi.

– Eşməbığ bir qızıl verdi, bir yastığa baş qoydum. Amma dünya bir qızıla dəymədi. Molla cadu yazdı, allatdı, qazı söz verdi, allatdı, dəyirmançı dən verdi, allatdı. Səniydin istədiyim, niyə almadın məni?

Fatma ağlayırdı. Ərinin qara qamçısı altında gövdəsi qançır olardı, yenə ağlamazdı. İndi ağlayırdı. Göz yaşları Bəkiri ayıltmaqdaydı. Fatmanın göz yaşları Bəkiri Bəkir olduğuna inandırırdı. Fatmanın göz yaşları kəndi yuyurdu, qızıl öküzləri, kişnəyən atı, çığırışan quşları yuyurdu.

– Almadın, məni hamı allatdı.

Dünya Fatmanın gözü kəsdiyi qədər idi. Fatma bu başı, ayağı görünən dünyasında Bəkiri qucaqlayıb pıçıltıyla deyirdi:

– Mənim istədiyim Bəkir sənsən. Necə iki oldun? Bu nə işdi. Qarşıdan qış gəlir, neyniyəcəksən? Mən səni tanıdım.

Kəhər at otlayırdı. Bəkir qızıl öküzləri qoşub ayın aydınlığında yarımçıq tarlasını əkirdi. Xoruzların ilk banıydı. Fatma kəndə qayıdırdı. Seyrək-seyrək itlərin səsi gəlirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağca oyandı ki, şeytan Bəkir yanındaca oturub. Bir müddət yadına heç nə düşmədi. Bəkirin iki olmaq əhvalatı da elə bil yuxuydu. Sakitcə şeytana toxundu. Şeytan səksənib dik atıldı.

– Qalx, – dedi, – öküzləri qoş, əkinin vaxtıdı.

Şeytan başa düşdü ki, qalxmaq lazımmış. Qalxdı. Ağcaya baxdı. Ağca:

– Əsədgil getdi, – dedi, – qoş öküzləri.

Öküzlər qapıda ağacın dibindəydi. Biri axtalanmışdı, biri yox. Axta öküz üçün şeytan Bəkirlə, cütçü Bəkirin fərqi yoxuydu. Ona görə də şeytan Bəkiri görən kimi boyunduruğa sarı gəldi. Şeytan axta öküzü qoşdu. O biri öküz şeytan Bəkiri görüb başını silkələdi. Şeytan qulağından tutub dartdı. Az qaldı öküzün qulağı dibindən çıxsın. Şeytanın dalınca gəlib başını boyunduruğa saldı.

Ağca eşiyə çıxıb gördü ki, şeytan öküzləri tərs qoşub. İstədi gülsün, gülə bilmədi. İstədi ağlasın, ağlaya bilmədi. Axta öküz üçün tərs qoşulmağın, düz qoşulmağın da fərqi yox idi. Boyunduruqda tərs-avand dayanıb göyşəyirdi. O biri öküz şeytanın qorxusundan başını boyunduruğa döyürdü. Sonra qorxulu-qorxulu böyürüb yıxıldı. Şeytan bunun ölüm olduğunu bilmədi. Dönüb Ağcaya baxdı. Ağcanın üzündən-gözündən qorxdu. İstədi ki, durduğu yerindəcə yox olsun. Ağcanın səsi gəldi:

– Aç boyunduruqdan, aç!

Şeytan öküzü boyunduruqdan açdı, amma öküz qalxmadı, uzanıb qalan canını da tapşırdı. Şeytandan olsaydı daha adamlıqda qalmazdı. Hava olmaq, külək olmaq, boğanaq olmaq yüz dəfə adam olmaqdan yaxşıydı şeytan üçün. Amma Ağcanın tapşırıqlarından, əmrlərindən çıxa bilmirdi. "Qonşunu çağır, su gətir. Kəs öküzü, söy öküzü".

Qonum-qonşu əvvəl öküzün səsini eşitdi, sonra Ağcanın çığırtısını eşitdi. Axışıb qapıya gəldilər. Səhər təzəcə açılmışdı. Kəndin camaatı çəkinə-çəkinə, qorxa-qorxa dayanıb baxırdılar. Bəkirin iki olmağını Allahdan enmiş dərd hesab eləyirdilər. Ona görə də öz günahlarından, elədikləri pislikdən, uydurmalarından, qeybətlərdən çəkinirdilər. Elə bil hamı bir-birindən utanırdı.

Gördülər Bəkir öküzləri tərs qoşub. Bir-birlərinə baxdılar, gülmək istədilər. Amma qabaqca kimsə gülməliydi ki, hamı ona qoşulaydı. Gülən olmadığından başlarını aşağı saldılar. Yarıçılpaq, tumançaq uşaqları da yanlarındaydı. Uşaqlar öküzləri tərs-avand görüb uğunub getdilər. Böyüklər əllərini uşaqların başına qoyub onlara qoşuldular, güldü-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lər. Əyilə-əyilə, burula-burula uğundular. Uşaqların səsi eşidilməz oldu. Qəribə səs-küy əmələ gəldi ki, bu da axşamdan bəri keçirdikləri qorxuydu, canlarından çıxırdı. Bu səs-küy daxmadan-daxmaya, damdan-dama kəndə yayıldı. "Bəkir öküzləri tərs qoşub". Eşidən daxmadan çıxıb baxırdı, görürdü hamı gülür, o da gülürdü.

Şeytan dayanıb tamaşa eləyirdi, hamı güldüyü üçün o da başladı gülməyə. Adamlar adam kimi gülürdülər, çünki nəyə güldüklərini bilirdilər. Şeytan nəyə güldüyünü bilmədiyi üçün adam kimi gülə bilmirdi. Ona görə də adamlar şeytana baxıb dedilər:

– Ağlını da itirib Bəkir.

Qarının gülməkdən gözləri yaşarmışdı. Daha darıxmırdı, qeybət axtarmırdı, söz axtarmırdı; deməyə sözü vardı, baxmağa tamaşası:

– Dəli olub, – dedi, – dəlinin başında ağac ha olmur.

Camaat Bəkirin dəli olduğunu eşidib bir az rahatlandı. Çünki Bəkirin iki olmasını dərd hesab eləyirdilər. Onun dəli olması bu dərdin sonuydu. Dərdin sonunu, qurtarmasını gördükləri üçün bir az rahatlaşmışdılar. Bu kəndin adamları çox dəli görmüşdülər, dəlinin qorxusuz olduğunu bilirdilər. Amma bir adamın iki olmasını birinci kərə gördükləri üçün qorxurdular. Kəndə bir adamın iki olması lazım deyildi, amma dəli lazımıydı. Ona görə də camaat gülürdü, Ağca ağlayırdı.

Ağca irəli yeridi, ərinin başına bir qapaz vurdu, camaat təzədən güldü, şeytan da təzədən güldü. Ağca daş-kəsək götürüb camaatı qovdu, ağlaya-ağlaya:

– Ağlar qalın, – dedi. – Mənim kimi bir dərdiniz iki olsun.

Ağca sonra öküzlərin yanında oturub ağladı. Axta öküz gövşəyirdi. Ağca ağlaya-ağlaya fikirləşirdi ki, Bəkir niyə belə olub.

Yarıçılpaq, tumançaq uşaqlar atalarının-analarının öyrətdikləri kimi göyə baxıb oxuyurdular:

– Ay şeytan, ay şeytan, Allahın acığına bizə pay ver, qazanımıza qazanc ver, təndirimizə çörək ver.

* * *

Qonşu kəndin camaatı eşitmişdi ki, cütçü Bəkir iki olub. Atlı, eşşəkli, dəvəli, öküzlü axışıb gəlməkdəydi. Aralarında iki-üç ağsaqqal vardı. Başları çalmalıydı, saqqalları sinələrinə düşürdü. Uzaqdan bir-birlərinə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

elə oxşayırdılar ki, deyirdin bir ağsaqqal üç olub. Görünüşlərinə, görkəmlərinə baxanda deyirdin bunlar ancaq dəvəyə minməlidilər. Elə də dəvələrə minib hamıdan qabağa düşdülər. Cavanlardan biri soruşdu:

– Heç bir adamın iki olduğunu eşitmişdinmi, ay baba?

Kişinin saqqalı tərpəndi, ağ, topa saqqalın arasından qəribə, sehrli bir səs çıxdı:

– Nağıllarda olurdu belə şeylər, dünyada hamımızın oxşarımız var. Biz neynirik, onlar da onu eləyir. Bir də şeytana lənət, kimi istəyir, girir donuna.

Dəvələr yan-yana gedirdi. O biri ağsaqqalın da saqqalı tərpəndi:

– Bu cütçü Bəkirin arvadını mən nəsilliknən tanıyıram. Nəsli şeytan tutan nəsildi. Atası dəyirmanda bir şeytan gəlin tutubmuş. Sonra bilmirəm neyləyir, neyləmir, gəlin alov olur, buxarının başınnan çıxır...

Dəvələr yan-yana gedirdi. Üçüncü qocanın da yel saqqalını tərpətdi:

– O kənddən nə desən çıxar, – dedi.

Dəvələrin yanınca öküzlər gedirdi, öküzlərin yanınca atlar, atların yanınca eşşəklər. Dəvələrin belindən baxan eşşəklərin belindəkini bapbalaca görürdü. Eşşəklərin belindən baxan da, dəvələrin belindəkini bapbalaca görürdü. Elə bil eşşək minənlər yerdəydilər, dəvə minənlər göyün dördüncü qatında. Çünki eşşəklərdən sonra atlar ikinci mərtəbə sayılmalıydı, öküzlər üçüncü mərtəbə, dəvələr də dördüncü...

Ona görə də eşşəyin belindəkinin səsini dəvənin belindəki eşitmirdi. Biri eşşəyin belindən başını qaldırıb qocaya baxdı:

– Gərək mən iki olaydım, – dedi.

Birinci qoca aşağılardan soruşdu:

– O qatdan səs gəldi, nə deyir o?

– Deyir gərək mən iki olaydım.

Birinci qocanın qabaqca saqqalı titrədi, sonra çiyinləri silkələnə-silkələnə güldü, amma gülüşü aşağı qatlara xeyli sonra gəlib çatdı. İkinci qocayla üçüncü qoca da ona qoşuldu. Göyün dördüncü qatı gülürdü. Birinci qoca dedi:

– Yaxşı, iki olsaydın, neyləyərdin?

Birinci mərtəbənin eşitməsi üçün öküz minənlər atlılardan, atlılar da eşşəklidən soruşdu:

– İki olsaydın neyniyərdin?

Oğlan eşşəyin belində ayağını aşırıb, çəpəki oturdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– İki olsaydım, – dedi, – bir tayım "hə" deyərdi, bir tayım "yox". "Hə" deyib aldadardıq, "yox" deyib qorxudardıq. Qorxutduqlarımız bizi yedizdirərdi, aldatdıqlarımız qoruyardı.

Hərə bir söz dedi. Biri dedi:

– Mən iki olsam arvadı-uşağı ona tapşıraram, çıxıb gedərəm evdən.

Biri dedi:

– Düşmənniyəm, onsuz da məni öldürəcəklər. İki olsaydım onu öldürərdilər, mən qalardım.

Biri dedi:

– Ax, yaxşı olardı, mən yatardım, o qazanardı.

Birinci qoca göyün dördüncü qatında yenə silkələnə-silkələnə gülürdü. Elə ordan üzüaşağı dedi:

– Bizim kəndin camaatına iki olmaq yaramaz. Yola getməzsiz. Öldürərsiz bir-birinizi.

İkinci qoca dedi:

– Birin dərdi birdi, ikinin dərdi iki. İki olsan, dərdin də iki olar.

Üçüncü qoca dedi:

– İki olmaq Allahın qəzəbinə düşməkdi. Çünki Allah da təkdi. İki yox, dönüb yüz də olsan, yenə təksən. Doğulduğun təklik də səninlə doğulur. Tək yaranmağı Allah məsləhət görüb. O kənddə ki bir adam iki olub, demək göydən bəla enib.

...Kəndə qorxa-qorxa girdilər. Susdular, heç kəs səsini çıxartmadı. İtlər hürdü, qorxdular, quşlar oxudu, qorxdular. Kəndin adı pis çıxdığından səksəkə içindəydilər.

Camaat böyüklü-kiçikli gələnlərin tamaşasına durmuşdu. Çoxdandı bu kəndin nə xeyrinə gələn vardı, nə şərinə. Kəndə ki şeytan dadandı, yer tutub yuva saldı. Balacaları böyütdü, dəliqanlıları dəli elədi, qardaş qardaşla qanlı-bıçaq oldu. Qocalar öldülər, qalanlar yetənə yetdilər, yetməyənə daş atdılar. Qonaq gəldi, süpürgə bağladılar, qohum gəldi, qapıdan qovdular. Ona görə də gələn-gedən yox idi.

Kəndə vəlvələ düşdü. Dəvələriylə, geyimləriylə, saqqallarıyla bir-birindən seçilməyən qocaları görüb çığırışdılar:

– Şeytan gəlir kəndə, ay camaat, ona baxın, ona baxın, bir qoca üç olub.

Birinci qoca əlini saqqalına çəkdi:

– Günaha batırmayın bizi.

İkinci qoca camaatı başa salmağa çalışdı:

– Bəkirin babasıyla dost idik. Başına gələnləri eşitdik, gəldik.

Domrul cavanlara pıçıldadı:

– Yaxşı yeyiləsi öküzləri var.

Gözlərindən cin çıxan cavanlardan biri dedi:

– Dəvələri də yaxşıdı, – sonra yanındakılara göz vurub, qocalara söz atdı:

– Baba, sənin dəvənnən neçə eşşək çıxar?

Qoca bir dəvəsinə baxdı, bir oğlana:

– Sənin kimi eşşəkdən yeddisi çıxar, – dedi.

Kəndə lağlağıdan başqa bir şey lazım deyildi. Ona görə də uğunub getdilər.

Biri Fatı qarıya sarı gəldi, qocaları göstərib yarıpıçıltıyla soruşdu:

– Atam bunlaramı oxşayırdı, qarı?

Qarı əlini əlinə vurdu.

– Dərin getsin səni əkən kişini. Gündüz dua elədi, axşam oğurluq. Yüz kərə ət istədim, bir çimdik vermədi. Baban da at belindən düşmədi, at belində də öldü. Onu da dərin getsin, nəyləri qaldı?

Qarının bu sözləri oğlanın heç vecinə olmadı. Gülüb, qarını qucaqladı, sonra da başladı qıdıqlamağa. Fatı qarı uğunub getdi. Camaatın da qıdığı tutdu, bir gülüşmə düşdü ki, böyüklü-kiçikli hamı bir-birinə qarışdı.

Dəli Domrulun gözü qonaqların öküzlərinə düşmüşdü. Camaat gördü ki, Domrul qonaqların öküzlərinə başqa cür baxır. Göz elədilər ki, apar!

Qarını qıdıqlayan oğlan qarını meydana çəkdi:

– Bu qarını satırıq, – dedi, – baba. Damazlıqdı. Bir öküzə dəyişirik.

Qabaqca qarı güldü, sonra camaat, yenə hamı bir-birinə qarışdı. Oğlan dönüb Domrula baxdı, göz elədi ki, oğurla öküzü.

Vaxt var idi, Domrul dəvəni cibində gəzdirirdi, fili ovcunda. İndi dayanıb fikirləşirdi: "Bir adam necə iki ola bilər axı?".

Camaat qonaqlı-qaralı yığışıb xısınlaşırdı. Onların belə xısınlaşmasından, baxmağından dəvələrin, öküzlərin, atların sümükləri səksənmişdi. Dabanbasaraq yiyələrinin ardınca gəlirdilər. Təkcə eşşəklər bir şey anlamamışdılar, ona görə də lap axırda ayaqlarını sürüyürdülər.

Ağca qapının ağzındaydı, donuq-donuq camaata tamaşa eləyirdi. Heç nə anlaya bilmirdi dünyadan. Şeytan Bəkir də yanındaydı, soyuq-soyuq, dərdsiz-dərdsiz gülümsəyirdi. Qonaqlar gəlib çıxdılar. Xeyli şey-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tan Bəkirə baxdılar. Şeytan Bəkirin gözləri axırdı. Ona görə də ona baxan heç nə fikirləşə bilmirdi.

Birinci qoca camaata sarı döndü:

– Bu iki olub?

Hərə bir yerdən:

– Hə, – dedilər.

Şeytan birinci qocaya baxıb gülürdü. Qoca üzünü döndərib yenə soruşdu:

– Bə hanı o biri tayı?

– Getdi, – dedilər. – Dua oxuduq, getdi.

Birinci qoca əvvəl yavaş-yavaş, sonra bərkdən silkələnə-silkələnə güldü:

– Nolub sizə? – dedi. – Şeytan aldadıb hamınızı. Gözünüzə görüküb, yox olub.

Qonaqların hamısı bir-birinə qarışıb güldü. Üçüncü qoca birinci qocanın sözünü tamamladı:

– Şeytan kələk gəlib bunnara.

Camaat da gülürdü, gülə-gülə də Domrulu hazırlayırdılar.

– Axşam bunnarı buraxmayaq, öküzlərini yeyək.

Qocalar şeytan Bəkirə bir də baxıb pıçıldaşdılar; sonra camaata sarı döndülər:

– Bir adam iki olmaz, – dedilər – yalan sözdü.

Amma şeytan Bəkirin gözlərini unuda bilmirdilər. Başlarını sallamışdılar aşağı. Şeytan Bəkirin gözləri min-min, milyon-milyon parıltıyla axıb gedirdi.

Birinci qoca ikinci qocaya, ikinci qoca üçüncü qocaya, üçüncü qoca da öküz minənlərə dedi:

– Dəli olub Bəkir!

– Bəkir yox, kənd dəli olub.

Şeytan Bəkir yenə gülümsəyirdi. Qonaqlar gördülər daha görüşməyin, söz deməyin xeyri yoxdu, kədərlə başlarını yırğaladılar.

Camaat Bəkirin o biri tayının yox olmasından danışırdı. Fatma əli üzündə tamaşa eləyirdi. Camaat artıq Bəkirin iki olmasını unutmaqdaydı, amma Fatma yox. Ağcanın yanında gülümsəməkdə olan Bəkir baxa-baxa qalmışdı. Artıq hamı bunun zarafat olduğuna inanırdı. Ağca da gördüklərini yuxu hesab eləyirdi, camaat da. Əkinçilər də əkindən qayıdıb



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəkiri evdə gördülər. Qonaqlar onları da inandırdılar ki, şeytan alladıb sizi, gözünüzə görüküb.

Əsəd şeytan Bəkirə sarı baxdı:

– Obaşdannan yer əkib biznən, – dedi.

Heç kəs dərinə getmədi, ona görə də bir şey anlayan olmadı.

Kənddəki qorxu da yox olmuşdu. Cütçü Bəkirin çıxıb getməsini də yuxu kimi, nağıl kimi yozub-düzürdülər. Qarı ətəyi əlində and-aman eləyirdi:

– Mollaynan qazı da dua oxuyurdu, gördüm getdi, getdi, birdən yox oldu, yerindən burula-burula tüstü qalxdı. İmanım itin olsun yalan deyirəmsə.

Dişləri seyrək, gözləri gömgöy, tumançaq bir uşaq da yandan dilləndi:

– Mən də gördüm, yerindən alov qalxdı, istədim göstərəm, qorxdum.

Fatma camaatın arasından çıxıb əkinə sarı getdi.

Uşaqlar çığırışırdı:

– Ay şeytan, Tanrının acığına bizə pay ver.

* * *

Ağca şeytanı suya göndərdi:

– Qazanı götür, su gətir! – dedi.

Şeytan bilmirdi ki, suyu necə götürərlər. Gərək gözünün qabağında biri götürəydi ki, o da öyrənəydi.

Çayın qırağına endi, ha fikirləşdi, bir şey eləyə bilmədi. İstədi yox olsun, amma Ağcanın tapşırığı vardı, əmrindən çıxa bilməzdi. Çayın qırağında qızlar baxıb gülüşdülər. Qızların səsini eşidib oğlanlar da gəldi. Bəkiri suyla əlləşən görüb başladılar gülməyə. Qocaların dediyi yadlarına düşdü: "Dəli olub Bəkir".

Şeytan başını qaldırıb gördü gülürlər. O da güldü. Dayanıb gözləyirdi ki, nə desələr, onu eləsin. Oğlanlar neçə vaxtıdı belə bir lağlağı axtarırdılar. Biri əlini-əlinə sürtüb yerində dingildədi:

– Bəkir, qazanı sal suya, otu üstündə!

Oğlan necə dedi, şeytan da elə elədi. Su şeytanın qurşağından idi, axıb gedirdi. Elə bil şeytanın ayaqlarını qıdıqlayırdılar. Ləzzət içində suya qarışmaq istəyirdi.

Oğlanların, qızların səsinə camaat da tökülüşüb gəldi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəkir, soyun!

– Bəkir, oyna!

– Ay sağ ol...

Ağca özünü yetirdi, şeytanın qolundan tutub sudan çıxartdı. Utandığındanmı, hirsindənmi ağladı.

Şeytan bir camaata baxdı, bir Ağcaya baxdı. Anlaya bilmədi ki, niyə hərə bir söz deyir. Bilmədi Ağca niyə ağlayır. Hardan biləydi? Cildə girmək adam olmaq deyil ki. Bunun fikirləşməyi var, danışmağı var, ağlamağı, gülməyi var. Dünyanın kələkləri var ki, şeytan olsan da baş açammazsan. Adamlar var ki, şeytanı suya aparır, beləcə, susuz gətirir.

Şeytan dayanıb tamaşa eləyirdi. Hamı qaynaşırdı. Şeytanın ağlı yox idi, tapaydı ki, bu camaat hardan ona belə tanış gəlir. Bu nə tanışlıqdı belə. At minib cıdır oynadığı düzləri, hava olub ürəklərə keçməyini, dəyirmançının gözlərindən Fatmanı çağırmasını yavaş-yavaş unudurdu. Qeybət olurdu, dedi-qodu olurdu, bir vaxtlar kefnən yaşayırdı kənddə.

Ağca hirsli-hirsli şeytanı evə sarı itələdi.

– Məni qarğışa salanı Allah qarğısın.

Şeytan yenə döyüküb ona-buna baxırdı. Camaat pıqqıldaşıb gülüşürdü. Ağca qışqıra-qışqıra, söyə-söyə camaatı daşladı. Camaat qonaqları aparıb aralandılar.

Şeytan baş götürüb qaçmaq istəyirdi. Amma Ağcanın tapşırıqlarından, əmrlərindən canını qurtara bilmirdi. "Evə get, otur, camaatın arasına çıxma, danışma, gülmə".

Bu əmrlər, tapşırıqlar idi şeytanı adam cildində saxlayan. Nə deyirdilər, onu eləməliydi...

Buxarının qırağında oturmuşdular. Kösövlərin tüstüsü şeytan yolu eləyib əyilə-əyilə, burula-burula buxarıyla qalxırdı. Bu əyilə-əyilə, *burula-burula qalxan tüstü elə bil şeytanı çağırırdı ki, gəl ardımca.* Ağca şeytanın gözlərindən qorxub səksəkə içində dedi:

– Qalx, yat.

Şeytan qalxıb yerində uzandı, gözlərini yumdu.

* * *

Camaat qonaqları aparıb yerbəyer elədi. Yığışıb pıçıldaşdılar. Bir deyəndə qonaqların öküzlərini kəsdilər. Dəli Domrul soyub şaqqaladı. Alışma eləyib ev-ev payladılar. Hamıya da tapşırdılar ki, "öküz gördünmü,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

izini də görmədim". O gecə bütün evlərdə ət bişdi, uşaqlara da dedilər ki, Allahın acığına şeytan pay göndərib. Mollaya pay apardılar, qazıya pay apardılar. Tapşırdılar ki, qonaqlar öküzsüz gəlmişdi.

Qarı dil-ağız eləyə-eləyə qonaqlara yemək çəkirdi.

– Utanmayın, sıxılmayın, öz malınız kimi yeyin. Gəlmisiz, xoş gəlmisiz. Bu da bir iş idi, başımıza gəldi. Şeytan allatmışdı bizi. Yeyin, öz malınız kimi, utanmayın...

Qonaqlar aldanmışdılar. Kənd haqqında, kəndin camaatı haqqında pis fikirləşdikləri üçün peşmançılıq çəkirdilər. Yeyə-yeyə söhbət eləyirdilər: "Yeyib-içən camaatdı, oynaqdılar, zarafatcıldılar. Ona görə də qocalmırlar, qocaları Fatı qarıdır, onun da könlündən ər keçir. Başqalarında işləri yoxdu. Öldürən də özlərindəndi, ölən də..."

Beləcə, qonaqlar kənd camaatını tərifləyə-tərifləyə iştahla yedilər, yatdılar.

Kəndin camaatı kefdəydi, hamı toxuydu. Çalıb oynayırdılar. İşlərini şeytandan da yaxşı qurmuşdular. Nə isə... şeytanın adı bədnam.

Səhər açıldı. Dəvələr gəldi, çullandı, atlar gəldi, yəhərləndi, eşşəklər palanlandı, öküzlər gəlmədi. Qonaqlar bir camaata baxdılar, bir eşşəklərə, atlara, dəvələrə:

– Çox sağ olun, dedilər, ay camaat, çox razıyıq, doğrusu, belə bilməzdik sizi. Biz də yad deyilik ki, qohumuq, bir kökdənik. İndi öküzləri də gətirin, gedək biz. Şeytana lənət deyin, gözünüzə görünməsin.

Camaat bir-birinin üzünə baxdı, biri qabağa çıxdı:

– Çox sağ olun. Əlbəttə, qohumuq, yad deyilik ki. Amma gəlmirsiz, getmirsiz, yavaş-yavaş yad oluruq. Yaxşı yol sizə. Amma nə öküz?

Birinci qoca dedi:

– Hə də, bala, öküz.

İkinci qoca da, üçüncü qoca da utana-utana dilləndilər:

– Bu uşaqlar minib gəlmişdilər.

Camaatın içindən biri də qabağa çıxdı:

– Axı hara belə tələsirsiz, qalın bir-iki gün qonağımız olun. Niyə darıxırsız? Amma bu uşaqlar elə belə gəlmişdilər, öküz yoxuydu.

Birinci qoca gülümsədi:

– Yox, – dedi.

O biri qocalar da:

– Yox, – dedi, – öküzlə gəlmişdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Öküz minənləri çörək tutmuşdu. Ona görə də qısıla-qısıla dedilər:

– Yoox, bizim öküzümüz var idi. Minib gəlmişdik.

Camaatdan biri də qabağa çıxdı:

– Vallah, nahaq yerə tələsirsiz, – dedi, – ətimiz var, çörəyimiz var. Amma doğrudan, öküz yoxuydu.

Sonra camaatdan biri də aralandı:

– Özüm gördüm ki, bunnar dəvənin böyrünnən yayaq gəlirdi. Yoxuydu öküz.

Qocalar əllərini saqqalına çəkib bir-birlərinə baxdılar, çiyinlərini çəkdilər. Öküz minənlər başlarını aşağı saldılar. Üz-gözlərini ovuşdurdular. Doğrudan öküz varıydımı, yoxuydumu?

Biri qocalara sarı gəldi. Camaata sarı dönüb dedi:

– A kişi, mənim əməlli-başlı öküzüm vardı. Ala öküz idi, buynuzu da əyri. Yaxşı, bu nə təhər olan işdi?

Sonra bir də camaata baxdı. Gördü camaat utanan təkidi. – Başa düşə bilmirəm vallah, özüm də məəttəl qalmışam. Nə təhər axı mən yayaq gəlmişəm? Bə öküz?

O biri öküz minənlər də qabağa durdular:

– Çox razıyıq, – dedilər, – sizdən. Amma biz öküznən gəlmişdik, axı?

Qocalar əlləri saqqalında fikrə getmişdi. Bir şey başa düşə bilmirdilər. Birinci qoca ikinci qocadan soruşdu:

– Öküznən gələn vardı?

İkinci qoca əlini saqqalına çəkib:

– Nə bilim vallah, yerə baxmırdım heç, – dedi, dönüb o da üçüncü qocadan soruşdu:

– Sən də görmədin?

– Yadımda deyil, aşağı baxmırdım.

Camaat yavaş-yavaş qabağa çıxıb, hərə bir söz deyirdi. Sonra qarı çıxdı. Tumanı əlində qocaların, qonaqların qarşısında dayandı:

– İmanım itin olsun, yalan deyirəmsə. Onlar eşşəyə minmişdi, bunnar ata, siz də dəvəyə. Öküz yoxuydu.

Qonaqlar başını buladı. Dəyirmançı da qabağa çıxdı:

– İnanmırsansa, gedək qazının yanına, mollanın yanına. Onnar əli Quranlıdı, bəlkə onnara inanasız?

Qonaqlar qabaqda, camaat dalda getdilər qazının yanına. Domrul bir qıraqda dayanıb, gözüylə qonaqların dəvəsini yeyirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəkirin evinin yanından keçəndə gördülər ki, şeytan Ağcanın əlinə su tökür. Birinci qoca dönüb dedi:

– Bunnardan da soruşaq.

Camaat dayandı. Öküz minənlərdən biri soruşdu:

– Bəkir, bizim aramızda öküz vardımı, gördünmü?

Şeytan qabaqca başını tərpətdi, sonra da dedi:

– Vardı.

Öküz minənlər sevincək camaata baxdılar:

– Gördüz?!

Dəyirmançı da, qarı da qocalara yaxınlaşdı:

– Əşşi, – dedilər, – onnan niyə soruşursuz? Görmürsüzmü dəlidi yazıq? Çaydan bir qab su gətirə bilmədi.

...Qazı camaatı qarşıladı:

– Buyurun, – dedi, – Allahın qulları.

Qonaqlar qabağa keçdilər. Dəyirmançı eşşək minənləri bir yana ayırdı, dedi:

– Qazı sağ olsun, bunnar bizim kəndə nəynən gəlmişdi?

– Eşşəknən.

Dəyirmançı at minənləri göstərdi:

– Bə bunnar?

– Bunnar atnan.

Sonra da öküz minənləri göstərdi. Qazı dedi:

– Allahın qulu, bunnar elə belə gəlmişdi. Öküz yox idi.

Ordan da getdilər mollanın yanına. Molla onları görən kimi ayağa durdu:

– Rəml atdım, fal açdım, bildim nəyə gəlmisiz. Öküz yoxuydu.

Sonra öküz minənlərə sarı döndü:

– Günahkar bəndələr, üz tutun Allaha, deyin, elə belə gəlmişik, deyin, öküz yoxuydu.

Öküz minənlər əl qaldırıb Allaha üz tutdu:

– Tanrı, elə-belə gəlmişdik, öküz yoxuydu.

Domrul yenə dayanmışdı bir qıraqda dəvələrə baxırdı, dəvələr də ona baxırdı; O dəvələri başa düşmüşdü, dəvələr də onu. Domrul başa düşmüşdü ki, dəvələr qaçmaq istəyir, dəvələr də başa düşmüşdü ki, Domrul onları yemək istəyir.

Mollanın bu sözündən sonra camaat da nəsə eləmək istədi. O bunun qulağına sarı əyildi – pıç-pıç, bu onun qulağına sarı əyildi – pıç-pıç.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kəndi bu başından o başına pıçıltı bürüdü. Elə bil camaatın ayağının altında od vardı, ayaqları yanırdı. Heç kəs bir yerdə dayana bilmirdi. Hamı dingildəyirdi. Dəvələrin də qorxudan az qalırdı, bağrı çatlasın. Çünki, öküzləri də dəvələrin gözlərinin qabağında kəsmişdilər. Camaatın gözləri dörd yandan dəvələrə sancılmışdı. Dəvələrin dərisi deşilməkdəydi. Molla Quran oxuyurdu, qonaqlar dua eləyirdi:

– Ay Tanrı, səni anda saldıq, adına and içdilər. Keç günahlarımızdan, yaxşı, öküz yoxuydu.

Dəvələr daha dözə bilmədi, nərildəyə-nərildəyə dartındılar. Atlar kişnəyib ayaq döydü. Amma bu hay-həşir bircə eşşəklərin vecinə deyildi. Eşşəklər uzun kirpiklərini çırpa-çırpa mürgüləyirdi.

Fatma bir qıraqda dayanmışdı. Yavaş-yavaş hər şeyi başa düşürdü. Cütçü Bəkiri fikirləşirdi. Çox şeyləri başa düşdüyü üçün daha camaatın içində, evində-eşiyində dayana bilmirdi, dönüb yenə Bəkiri axtarmağa getdi.

Dəvələr bağını qırıb, qocaların qarşısında diz çökdülər. "Gedək, dedilər, gedək, bizi yeyəcəklər". Qocalar dəvələrə mindilər, dəvələr qalxıb, qocaları göyün dördüncü qatına qaldırdılar. Atlılar ata mindilər, eşşəklilər eşşəyə. Eşşəklər başladılar anqırmağa. Amma eşşəklər heç nə başa düşmədilər, günorta olduğu üçün anqırırdılar. Camaat dəvələrin, atların, eşşəklərin cilovundan yapışıb yalvar-yaxar eləyirdilər ki, getməyin, qalın qonağımız olun.

Domrulun gözləri hələ də camaata dəvə yedirirdi:

– Getməyin, qalın qonağımız olun.

Dəvələr, atlar, eşşəklər qonaqları kənddən çıxartdı. Dünya yenə dörd qat idi. Dördüncü qatda qocalar idi ki, dəvələrin belində, ikinci qatda atlılar idi, üçüncü qatda eşşək minənlər. Öküz minənlər indi yerdə birinci qatdaydılar. Dördüncü qatın səsi yerə çatmırdı. Dəvə minənlər atlılardan, atlılar eşşək minənlərdən, eşşək minənlər yerdəkilərdən soruşdu:

– Öküz doğrudan yoxuydu?

Yerdəkilər eşşək minənlərə, eşşək minənlər at minənlərə, at minənlər dəvə minənlərə dedi:

– Yox, öküz yoxuydu, elə belə gəlmişdik...

Sonra nə dördüncü qat dindi, nə üçüncü qat, nə ikinci, nə də yerdəkilər. Bəkirin iki olmağı da yadlarından çıxmışdı. O boyda kənddən bir adam yadlarında qalmamışdı. Çünki hamı bir-birinə oxşayırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elə bil bir adam yüz olmuşdu. Aradabir yerdəkilər başını qaldırıb eşşək minənlərə baxırdı, eşşək minənlər atlılara, atlılar da dəvə minənlərə. Bunlar da artıq bir-birindən şübhələnməyə başlamışdılar. Yavaş-yavaş iki olmaqdan, üç olmaqdan, dörd olmaqdan qorxurdular.

Yolun qırağı sıldırım qayalıqlar idi. Bir də gördülər bir qayanın altından səs gəlir:

– Ay Allah adamı, kömək eləyin! Allah xətrinə, əl uzadın, qaya üstümə yıxılır. Ay qaya yıxıldı, ay qaya uçdu.

Yerdəkilər səsə sarı yüyürdülər. Gördülər, bir Allah bəndəsi çiyinlərini verib qayaya, ağlaya-ağlaya yalvarır:

– Əl uzadın, kömək eləyin! Ömrüm boyu qulunuz ollam. Qaya üstümə uçur.

Yerdəkilər qayadan yapışdılar. Onlar da başladılar qışqırmağa:

– Kömək eləyin, qaya yıxılır!

Atlılar atdan düşdü, eşşəklilər eşşəkdən, yüyürüb qayanın altına girdilər. Allah bəndəsi hələ də bağırırdı:

– Baba, kömək elə, əl yetir!

Qocalar da göyün dördüncü qatından dəvələrə – "xass" dedilər.

Dəvələr "xass" eləyib yatdılar. Düşüb yüyürdülər qayadan yapışdılar. Allah bəndəsi qayanın altından çıxıb, qaçıb dəvənin birinə mindi, ordan-burdan da Allah bəndəsinə oxşar adamlar çıxdı. Dəvəyə əli çatan dəvəyə mindi, ata əli çatan ata, eşşəyə əli çatan eşşəyə minib uzaqlaşdılar. Qonaqlar qayadan yapışıb quruyub qalmışdılar. Tərpənməyə qorxdular ki, dünyanın köklü qayası yıxılacaq üstlərinə...

...Kənd toxuydu, şeytan Allahın acığına pay göndərmişdi. Dəvə kəsmişdilər. Ətləri varıydı, yeyib kef eləyirdilər. Dəliləri varıydı, məzələnirdilər:

– Bəkir, oyna görüm, ay sağ ol!

– Bəkir, Ağcanı necə öpdün. Ay sağ ol. Nə yaxşı oğlandı əyə bu!

Ağca da kəndə düşüb Bəkiri axtarırdı. Orda Bəkir, burda Bəkir. Gəlib gördü ki, əl çalıb Bəkiri oynadırlar. Başına-gözünə döyə-döyə evə apardı.

– Nə vaxt öləcəksən, canım qurtara.

Şeytan neçə ay idi beləcə, başıqapazlı yaşamaqdaydı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Kəndin camaatı şeytanı yenə araya almışdı. Hərə bir söz deyib oynadırdı. Tumançaq-tumançaq uşaqlar gilas yeyirdilər. Çiyidini də hərə bir yandan şeytana atırdı. Üzündən-gözündən cin yağan bir uşağın çiyidi şeytanın gözünə dəydi, şeytanın gözü kor oldu. Şeytan ağrıdanmı, qorxudanmı göyün bir qatına qalxdı, boğanaq kimi fırlandı. Yeddi ağac camaatdan o yana düşdü. Qışqıra-qışqıra özünü Ağcanın üstünə saldı. Camaat da ardınca, Ağcanın əli öyrənmişdi, qalxıb şeytanın başına endi.

– Öl indi, yaxşı oldu.

Buxarı deyinə-deyinə, hirs içində yanırdı. Şeytan ocağa yıxıldı, bir anın içindəcə göyümsov tüstü oldu, gülə-gülə, qışqıra-qışqıra bacadan çıxdı. Dünyanı qəribə bir uğultu bürüdü ki, camaat qorxu içində dizin-dizin süründü. Əl qaldırıb, üz tutub Allaha yarvardılar.

– Allah, kömək elə!

Ağcanın ürəyi gedib buxarının qırağında uzanmışdı. Üzünə su töküb ayıltdılar. Ağca boylu idi. Sancı tutmuşdu. Arvadlar kişiləri çıxartdı.

Ağca hal saçlı bir qız doğdu. Arvadların gözünün qabağında bu hal saçlı qız böyüməyə başladı. O, ona baxdı güldü, buna baxdı güldü. Kənddə hələ də uğultu vardı. Ağcanın bacasının ağzından boğanaq qalxmışdı, göyə dirək olub, acgözlüklə buxarını sorurdu. Arvadlar hal saçlı uşağı görüb qaçdılar. Kişilər eşikdən bağırdılar:

– Öldürün, şeytannandı.

Əli yabalı, belli-baltalı içəri girdilər. Uşaq böyüdü, atdanıb ocağa düşdü, bir dəstə tüstü oldu, bacadan çıxdı. O da boğanağa döndü, iki boğanaq hamının gözünün qabağında bir-birinə qarışa-qarışa, burula-burula dünyanın üstüylə uçdular. Təzə kəndlər, adamlar axtardılar ki, yaşasınlar. Çünki adamlar idi dünyada şeytanı yaşadan. Adamlar olmasaydı, şeytanın dünyada nə işi var idi?

Camaat qorxusundan eşiyə çıxmırdı. Dəyirmançı dəyirmana, suçu suya inanmırdı, molla Qurana inanmırdı. Səksəkə içində, qorxu içində dünyanın axırını gözləyirdilər.

Bir səhər tezdən camaat Fatmanın səsinə eşiyə çıxdı.

– Bəkir gəlib, ay camaat, cütçü Bəkir gəlib.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əvvəl qorxdular, daha da evin qaranlığına sığındılar, dedilər: "Yəqin Fatma deyil". Amma Fatma camaatı bir də səslədi:

– Bəkirin özüdü, ay camaat, əsil Bəkirdi.

Camaat ki heç nəyə inanmırdı, özləri özlərindən şübhələnmişdilər. Bu "özü" sözü, "əsil" sözü onları evdən çıxartdı. Çıxdılar ki, baxsınlar görsünlər əsil Bəkir necədi.

Bəkir – atı da, öküzləri də yanında – evinin qənşərində dayanmışdı. Camaat onu görən kimi tanıdı. Qaşqabaqlı, sərt. Bu neçə ayda kəndi bürümüş şeytan rəngi hamının gözünün önünə gəldi. Başlarını aşağı saldılar. Hər yan elə sakit, elə rahat idi ki, elə bil dünyaya indi gəlib çıxmışdılar.

Gün qarşı dağın dalından çıxıb camaatla üz-üzə dayanmışdı. Camaatın arasında bir günahsız adam yox idi ki, günahlılar ona üz tutaydı. Təkcə Bəkirdi, ona da üzləri gəlmirdi.

Ağca ağlaya-ağlaya Bəkirin ayaqlarını qucaqladı:

– Suçluyam, kor şeytana aldandım, murdarlandım. Mənim pisliyimə sən yaxşılıq elə, öldür məni.

Cütçü Bəkir boyunduruğa sarı getdi, öküzlər də ardınca...

*1978*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DƏYİRMAN

Dəyirmançı əlini qaldırdı, kəndin yük maşını yolun qırağındakı dəyirman daşının yanında əyləndi. Maşının ardınca evlərə-eşiklərə sarına-sarına gələn toz-duman maşını bürüdü, elə bil maşının ətəyi varmış, ardınca sürünürmüş, indi də ətəyini başına çevirdilər. Kəndin tozu maşından keçib dəyirmana sarındı. Dəyirmanın bacası tüstülüydü, toz tüstüyə qarışmadı, burulub-burulub burulğana oxşadı, enib açıq pəncərələrdən, açıq qapılardan, açıq ağızlardan içəri doldu.

Sürücü başını çıxardıb:

– Xeyirliyə əyləməzsən, bilirəm, – dedi.

– Sən canın bu qancığı apar azdır. Gələndə kabab çəkərəm sənə.

– İndi bir şeyin yoxdumu yeməyə?

– Basabasdı canın üçün, qayıdanda gələrsən.

– İşdi, birdən qayıtmadım, bəlkə nağd eliyəsən? Bu boyda günaha batırırsan məni. Neyniyib o yazıq yenə?

Dəyirmandan azca aralı daşa bir it bağlanmışdı. Başına nələr gələcəyini duyduğundan tüklərinə qədər göz-göz olmuşdu. Kinindən idimi, yoxsa qorxusundan idimi, gözləri qabağa çıxmışdı, üzündən aralı kimi görünürdü. Dəyirmançıyla sürücünün səsi də elə bil səs deyildi, daşıydı. Bu səslərnən elə bil iti daşa basmışdılar. Adam kimi bağırıb, adam kimi dartınırdı. Gözləri dəyirmançıyla sürücüdəydi, amma səsdən başqa bir şey görünmürdü. Təkcə küçüklərini görürdü, daha doğrusu, hiss eləyirdi ki, hardasa yeddi-səkkiz yaşlarında bir oğlan uşağıyla oynayırlar.

Sürücü bir də soruşdu:

– Ətmi oğurlayıb?

– Yox, kürsəyə gəlir tez-tez, çox it yığır başına. İtin əlindən tərpənmək olmur. Canın üçün, rayondan bura it gəlir yanına.

– Yeməyini az elə daa...

Sürücü belə deyib güldü, bir də istədi desin ki, mal yiyəsinə oxşuyar, özünü güclə saxladı.

– Qızdan kağız gəlirmi? – dedi.

– Kimnən?

– Qızını deyirəm. Yerini-yurdunu bilirsənmi?

Dəyirmançı başını tərpədib:

– Yox, – dedi. Sonra iki qatdanıb dəyirman daşının üstündə oturdu, – apar azdır, başına dönüm. Dünən bilmirəm kənd itiydimi, rayon itiydimi bunun yanına gəlmişdi, süd zavodunun direktorunu dişlədi, biabır olduq!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yaxşı, gətir, amma kababımı hazır saxla, arağıynan bir yerdə. Bu gün içmək istəyirəm.

Dəyirmançı itə sarı getdi, it yüz yerinnən əzildi, yaltaqlana-yaltaqlana dişlərini ağardıb qırışdı, bütün canıyla yerə sərilib o üzünə-bu üzünə aşırıldı. İtin bu hərəkətlərini bircə cümləylə belə yozmaq olardı: "Qabağında ölüm".

Dəyirmançı itin bağından darta-darta gətirdi, maşına çıxardıb taxtaya bağladı.

– Nə təhər eliyəcəksən? – dedi. – Harda azdırsan sənnən tez gələcək. İt üzü var bunda.

– Dağda daşa bağlayacam. Qoy canavar yesin.

– Canavar da yeməz bunu, dil tapacaq, bu elə lotudu...

Maşın tərpəndi. İt daha adam səsi çıxara bilmədi, zingildəyə-zingildəyə özünü ora-bura vurdu. Yenə dünyada nə qədər səs var idi – maşınların səsi, adamların, quşların, suların səsi daş olmuşdu. Bu səslərlə iti daşa basmışdılar. Dünyanın yaşıl, balaca, günlü bir yamacında yalnız iki küçüklə yeddi-səkkiz yaşlarında bir oğlan uşağı qalmışdı ki, bütün bu daşa dönmüş səsləri, qorxuları unuda bilib oyun çıxarırdılar. İt də bu daş səslərin, böyük qorxuların içində tək onları görə bilirdi. Bayaq kinindənmi, qorxusundanmı irəli çıxıb üzündən aralı görünən gözləri kəndin üstündən asılmışdı. Kəndin üstündən bir itin bir cüt gözləri iki küçüklə yeddi-səkkiz yaşlarında bir oğlan uşağının daş səsləri, böyük qorxuları unuda bilib oynadıqları oyunlara tamaşa eləyirdi.

Sonra dünyanın daşa dönmüş səsləri, böyük qorxuları yavaş-yavaş uzaqlaşdı, itin boğazına yox, içinə bağlanmış kəndir dartılıb-dartılıb qırıldı, bir itin bir cüt gözləri bu səslərdən, bu qorxulardan çox-çox yuxarılarda dünyanı dağ boyda gördü...

Boş maşın zarıya-zarıya boş yoxuşları qalxırdı.

Dəyirmançının yekə qaraltısı dəyirmanın qapısı ağzında göründü. Temir müəllim sağlıq deyirdi:

– Həə, ayağımız yer tutannan yola çıxmışıq, yol gedirik... Dəyirmanın çaxçaxının dibində üç adam oturub ciyər yeyirdi. Birinin adına elə "çaxçax" deyirdilər. Çaxçax deyilən çaxçaxın səsiylə Temir müəllimin sözünü kəsdi:

– Amma bir yana çıxa bilmədik, müəllim, yeridik, yüyürdük, elə yenə kənddəyik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Temir müəllim duruxdu, bütün başlar kötüklərin qırağından ona sarı boylandı, gülümsədi. Temir müəllim əlini qaldırdı:

– Baxma, o da getməkdi, – dedi.

Köhnə, suyu sovulmuş dəyirmanıdı, kababxana eləmişdilər. Balaca kötüklər kəsib ortaya – unluğun ağzına qoymuşdular. Diblərə yapıncı sərilmişdi. Kötüklərdə, yapıncıların üstündə oturub ciyər yeyirdilər. İyirmi-iyirmi beş adam idi, üç-üç, dörd-dörd bir-birlərinə sarı əyilib pıçıldaşırdılar. Nə kötüklər, nə də diblərə sərilmiş yapıncılar bir-birinə qarışmırdı. Balaca dəyirmanın alaqaranlığında üç-üç, dörd-dörd bölünüb onun-bunun sirrini açırdılar.

Bir kötüyün qırağında üç oğlan oturmuşdu, üçünün də barmaqları qızıllı, dişləri qızıllıydı. Boylarına görəydimi, qızıllı barmaqlarına, qızıl dişlərinə görəydimi, oturuşlarına, danışıqlarına görəydimi, nəydisə bir-birindən seçilmirdilər. Biri qanrılıb alyanaqlı, ağxalatlı göyçək kababçını səslədi:

– Ə, göyçək, ciyəri bir az qannı elə!

Çaxçaxın dibində oturanlar bir-birinə sarı əyildilər, him-cimlə qızıl oğlanları göstərdilər:

– Elə bil Amerikadan gəlib köpəyuşağı.

Alçaqboylu, enlikürəkli, qarasaçlı, sarıbığlı bir adam girdi içəri. Saçaqlı papağını çıxarıb gülümsədi:

– Aya, azara düşmüşəm, – dedi, – sən öl, üç dəfə burda çörək yemişəm, olmuşam xəstə. Qoyun-quzunun yanında da dayana bilmirəm. Bu nə işiydi, əə?! Bilmirəm yeməyə öyrəşdim, içməyə öyrəşdim, sizə öyrəşdim. Üç gündü qoyun-quzunun yanında dəyirman deyin mələyirəm.

Keçib bir küncdə əyləşdi, sırıqlısını çıxardıb yanına qoydu. Kəmərinə bağladığı gümüş xəncərini dizinin üstünə sarı çəkdi.

– Əə, xəncərini də aç, – dedilər.

– Yox, itə umuddu ol, ağacını yerə qoyma.

Dikəlib qapıya sarı baxdı:

– Ə, gülyanaq, gətir görək, amma qurutma, qannı elə! – gördü Temir ayaq üstədi, – sən canın az iç, – dedi. – Sənsiz ləzzəti yoxdu buraların.

Temir güldü:

– Hə, çoban qardaş, – dedi, – bu üç gündə nə fikrə gəldin, iki ikiyə bərabərdimi?

– Düz deyirmişsən müəllim, iki sədr iki çobana bərabər döyül. Bu üç gündə çox fikirləşdim, gördüm, doğrudan da, iki keçi iki qoyun döyül.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Dəyirmanı gülüşmə bürüdü, qızıl oğlanlar da gülümsəyib bir-birinə göz vurdular. Temir bir-iki addım çobana sarı getdi:

– Yaxşı, mən deyirəm təsir əks təsirə bərabərdi. Sən nə deyirsən?

– Nə nəyə bərabərdi?

– Yəni hansı gücnən sənin başınnan basıllarsa, sənin başın da həmən gücnən geri itələyir.

– Ə, bəsdi, ə, bu dərsi get, uşaqlara ver. Adamın başınnan elə basallar ki, yerə girər. Kimin gücü kimin gücünnən birdi, ə?! Sədrin gücüylə, Gülünün gücü birdi? Bir kəlmə cavab qaytardığına görə indi naxır otarır.

Hamı döndü, Gülüyə baxdı, Gülü dəmlənmişdi, qaşını-gözünü oynada-oynada yırğalanırdı. Yəqin ürəyində mahnı oxuyurdu.

– Ə, bərkdən oxu, Gülü!

Gülü adını eşidib cana gəldi, cırcırama səsinə oxşar bir səslə oxudu:

Dağların başı qardı,
Bir yarım vardı yalqız...

Çaxçax hamıdan bərk güldü:

– Ay qanın üstünə tökülsün, Gülü.

Beləcə, stəkanlar stəkanlara calandı, içdilər, içdikcə hamının səsi sınıb içinə düşdü. Dəyirman qaranlıqlaşdı. Ayağa durmaq yaddan çıxdığından hamı yavaş-yavaş ağırlaşıb zindan kimi oldu.

Günəş dağların dalına elə sevinclə enməkdəydi ki, elə bil dünya üzünə bir də çıxmayacaqdı. Dağların, buludların kölgələri böyüdüyündən yer üzü ləkə-ləkə olmuşdu. Dəyirmanın balaca bacası süd əmirmiş kimi günəşin son işığını sormaqdaydı. Amma bu işıqdan da heç kəsin xəbəri yoxuydu. Bir dəyirman baş yırğalanırdı, bir dəyirman əl can verirmiş kimi titrəyə-titrəyə, ölgün-ölgün qaynaşırdı. Sınıq-sınıq sözlər, yarımçıq-yarımçıq cümlələr stəkan səslərinə qarışıb çiliklənirdi. Yarımçıq-yarımçıq, çeynənmiş-çeynənmiş sözlərlə namusdan danışan var idi, əl var idi, başının üstündə pul silkələyirdi. Kəsilən toğlulara, bişən kabablara, əllərdə oynuyan pullara, qadın söhbətlərinə açılıb-acıxan gözlər iyirmi-iyirmi beş üzdən yox, iyirmi-iyirmi beş dəri üzlükdən baxan kimi baxırdı. Ciyər kababının qarasından hamı burnunun ucuna kimi ləkəliydi, amma heç kim burnunun ucundakı ləkəni görmürdü. Günahlılar yarımçıq-yarımçıq cümlələrlə, sınıq-sınıq sözlərlə: məndə günah axtarıllar, – deyə-deyə, yaxşılıqdan danışırdı. Günahsızlar vardı, – yaşa,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

halal olsun, – deyib günahlıları öpürdü. Bir kababçı içməmişdi, o da ayıq deyildi, pul yığırdı.

Dəyirmançı bayırda toğlunun dərisini soyurdu. Ciyər kababları qanına qədər bişib qurumaqdaydı. Kabab ocağının közü yanıb-yanıb yuxuya gedirmiş kimi peşmanlana-peşmanlana qaysaqlanırdı...

Elə bu vaxt, yəni günəşin bir də çıxmayacaqmış kimi sevinc içində dağların ardına endiyi vaxt, dəyirmanın balaca bacasının bir faraş dana iştahıyla süd əmirmiş kimi günəşin son işığını əmdiyi vaxt, əllərin pulla oynadığı, günahsızların günahlıları öpdüyü vaxt Temir müəllimin anası Güllü arvad Allahı söyə-söyə kəndin alatoranlığıyla dəyirmana sarı gəlirdi. Gəlib dəyirmançının başının üstünü kəsdi:

– Çal qurumsaq, başına yıxacam, bu xarabanı!

Dəyirmançının bıçağı özündən tez dikəldi.

– Allah eşitmir səsimi, əmcək kəsən köpəyoğlu!

– İtil burdan, qancıq, qarnını cıraram indi!

Güllü arvad atmayacağını bilə-bilə daş götürdü, dəyirmançı ayağa durdu:

– Qırarsan camaatın maşınını, ləçər! Get, yetimini baldırına bağla!

Güllü arvad gördü ağlayacaq, daşı yerə tulladı, birçəklərini kələağayısının altına elədi, sümük kimi boğazına ilişmiş qəhərini uddu, içi yuxusuz göz kimi acışdı:

– *Sən elə allahsızsan*, – *dedi*, – *yaradanın yoxdu, səni mən tanıyıram*. Sən dava vaxtı bir ovuc unu bir ovuc qızıla dəyişirdin. İndi də belə yaralıyırsan bizi. Allah götürür, yer götürməyəcək, heç fikirləşibsənmi?

– Get, ləçər, get, bərk yapış Allahdan!

Güllü arvad deyinə-deyinə dəyirmanın qapısına sarı döndü:

– Neynim, – dedi, – adı başına dəysin Allahın, adınnan başqa nəyi var?

Günün bircə damcı işığı qalmışdı dəyirmanda, unluğa düşüb titrəyirdi. Çoban itindən danışırdı, Gülü sədrdən danışırdı, qızıl oğlanlar puldan danışırdı. Yapıncının üstündə əyləşənlər boğazlarını kötüklərə sarı uzatmışdılar:

– Ə, bir başını bəri tut, səni öpüm, kişi oğlusan sən! – Temir müəllim Çaxçax kişiylə üz-üzə durmuşdu:

– Bax, bu stəkanı ki mən itələyirəm, stəkan da həmin gücnən məni itələyir.

– Bə niyə gedir?

– Ona görə ki, o balacadı, mən yekə. Onun çəkisi mənimkinnən azdı. Amma itələməyinə o da itələyir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çaxçax çaqqıldaya-çaqqıldaya güldü:

– Yaxşı, – dedi, – bir yerdə götürsək, kəndin adamlarımı güclü olar, sədrmi?

– Kəndin adamları.

– Ay sağ ol, bə niyə sədr qışqıran kimi hamı dağılışır?

– Eeeeh, sən başa düşməzsən, Çaxçax, səninki baş ağrıtmaqdı.

Dedi, səndələyə-səndələyə yerinə gəldi. Əlləri hələ ayıq idi, başının üstündə çırtıq çalıb sevinə-sevinə özünün sümüyündə olmayan bir havanı oynayırdı.

Güllü arvad qapının ağzında dayanmışdı.

– Bu kimdi, ə? – dedilər. – Kiminkidi? – Nova çəkin, boşdu nov.

Hamı dönüb baxdı. Heç kim heç nə seçə bilmirdi. Hamı gözünün işığını udmuşdu. Gün batdığından dəyirmanın boşalıb qaralmış balaca bacası kimi bütün gözlər bomboş idi. Toranlığın içində üç-dörd arvad qaraltısı gördülər ki, bu üç-dörd arvad qaraltısı da təkcə Güllü arvad idi. Qaraltı qabağa gəldi. Göyçək kababçı ocağın yanında kabab kimi yağlanıb qızarmışdı. Dönüb qaraltıya baxdı:

– Temir, anan gəldi!

Amma kababçının "anan gəldisi" Temirə çatmadı. Anasını gördü, amma bilmədi harda görür. Güllü arvad oğlunun qızarıb xallanan üzünə baxdı:

– Tfu üzünə, – dedi, – tfu üzünə!

Dəyirmandakılar əvvəl yavaş-yavaş güldülər, sonra bərkdən. Güllü arvad Temiri çəkə-çəkə qapıya sarı apardı:

– Gəl, səni əkən dərin getsin, gəl, uşaqların yemək istəyir. Südüm də yoxdu əmizdirim. Döşümnən əmdiyin burnunnan gəlsin. Üzün qara olsun Allahın yanında!

Temir deyinə-deyinə, söylənə-söylənə anasının qarşısına düşdü. Gün yoxuydu. Axşamın qaranlığı da giley kimi, deyinti kimi kəndin üstünə enirdi...

* * *

Gün çıxmamışdı. Elə ona görə də dünya üzündə qəribə bir intizar vardı. Daşdan tutmuş insana qədər yol gözləyirdi. Çöllərdə – otun-çiçəyin, ağacların, dağda – daşların, göydə – quşların, kənddə – cavanların, qocaların ömrü təzədən başlayacaqdı. Elə bil yer üzünü quyuya sallamışdılar, bir işıq gözləyirdi ki, tutub çıxsın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İşıq hələ yoxuydu, amma yer üzünü günəşin havası vurmaqdaydı. Ona görə də kəndin hənirtisi oyanırdı. Qonum-qonşu səhərin ayazında yuxusunu dağıda-dağıda bir-birini səsləyirdi. Bu günkü gün təzəcə başlandığı üçün bu səslər doluydu, güclüydü. Yeyilib-incəlmiş, heydən düşmüş axşam səslərini yatıb yuxusunu almış, ağırlaşmış bu cür dolu, güclü səhər səslərinin içində tanımaq mümkün deyildi.

Belə bir səs dəyirmanın yanından kəndin başına kimi yayıldı, kəndin üstündən hələ də asılı qalmış səhər mürgüsünü doğrayıb keçdi, dəyirmandan bir az aralı, yuxudan ayıla bilməyən, ayaq üstə üzüntü içində mürgü döyən yeddi-səkkiz yaşlarında balaca bir oğlan uşağını silkələdi:

– Ayat, gəti, hamısını gəti!

Ayatın ayaqlarının ucunda yatmış dəyirman küçükləri qalxıb bellərini iki qatdayıb gərnəşdilər. Altdan-yuxarı Ayata baxıb əsnədilər. Soyuq-soyuq çırpınıb bir-birinin ardınca dəyirmana sarı yorğaladılar. Ayat iyirmiyəcən toğlunu dinməz-söyləməz qabaqladı, bütün olanlar yuxuda olurmuş kimi mürgü içində səndələyə-səndələyə dəyirmana sarı getdi.

Dəyirmanın bacası tüstüləndi, qara-qarışıq, boz-bulanlıq tüstü dəyirmanın bacasını bürüdü, burula-burula, çırpına-çırpına göy üzünə yol eliyib qalxdı, boşluğun özündə də elə bil getməyə yol yoxuydu, ona görə də yüz yerindən əyildi. Tüstü də səhər səsləri kimi hələ işlənib yeyilmədiyindən doluydu, guruydu. Ocaq yandıqca işləndi, yeyildi, durulub daraldı, göy üzündə güclə seçilən balaca göy cığır qaldı...

Sovulub azaldığından balıq küyülü kimi daşların arasına girən, deyinə-deyinə, sına-sına sızan su, bir vaxtlar başı üstündə sevinclə, inamla dəyirman işlədən sağlam, gümrah bir çayın son nəfəsi kimi axırdı.

Qapının ağzında yarıyacan torpağa girmiş dəyirman daşı vardı. Fırlanmaqdan ötrü yana-yana yerə batmaqdaydı. Dəyirmanın novu hələ də dururdu. Amma susuzluqdan quruyub çatdamış boğaz kimiydi, otuz ildən çoxuydu su istəyirdi. Suyu sovulmuş çayın yatağı qaralmışdı, od düşüb yanmışa oxşayırdı. Su olmadığından nəmlənib ətdənmiş çay daşları çil basmış ölü balıqlara bənzəyirdi.

Bu fırlanım deyin yanan, yarıyacan torpağa girmiş dəyirman daşı, susuzluqdan quruyub çat-çat olmuş nov, çayın od düşüb yanmışa oxşayan qaralmış susuz yatağı, çil basmış ölü balıqlara oxşayan çay daşları qəribə bir dəyirman tarixçəsiydi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dəyirmançı gəlib dəyirman daşının üstündə oturdu. Bir az aralıda Ayatın otardığı toğlulara baxdı. Cibindən iri bir bıçaq çıxartdı, dəyirman daşına çəkdi. Bıçağın səsi bıçağın özü kimi səhərin sərinliyini, ağacına söykənib gözlərini yummuş Ayatın mürgüsünü, kənddə getgedə artmaqda olan səs-küyü kəsdi. Sonra bu səs bıçağın özü kimi toğluların sümüyünə sancıldı. Toğluların sümüyü səksəndi, ağzıgöylü bir-bir başlarını qaldırıb dəyirman daşının üstündə oturmuş iriəlli, qaraqabaq kişiyə baxdılar.

Kişi bıçağı itiləyə-itiləyə gözüylə toğluları saydı. Dəyirmanın qapısına söykənmiş ağxalatlı, göyçək kababçıya sarı döndü:

– Bazardımı bu gün?

– Hə.

– İyirmisi azdı.

– Bəsdi. Daha çox gələn olmur. Görmürsənmi qırğını? Arvadların yumruğu kişilərin boğazındadı, gələ bilillər ki?

Səhərin belə alayarımçıq açılmasının, Ayatın alayarımçıq mürgüsünün, dəyirman daşına çəkilən bıçağın özündən də iti olan səsinin hələ bütövlükdə elə bir mənası yoxuydu. Bütün bu yarımçıqlığı dəyirmandan azca aralı göylüyə sancılıb ölümünü duyduğu üçün iştahasız-iştahasız son öynəsini otlayan toğlular tamamlayırdı. Dəyirmanın dörd yanında gözə nə görünürdüsə, hamısının mənası bu bir bölük toğludaydı. Bıçağın səsinin də, dəyirmanın işlənib durulmuş tüstüsünün də, göyçək kababçının duruşunun da sonluğu bu bir bölük toğludaydı. Hər şey gəlib burda qurtarırdı.

Göyçək kababçı qulplu qazanların ağzını açıb qarışdırmağa başladı. Dünən kəsilən toğluların baş-ayağıydı, axşamdan bəriydi qaynayırdı. Toğluların üzlərini, başlarını qırxmışdılar. Dodaqları bişib çəkildiyindən çoxu gülürdü. Qaynadığı qazana gülürdü, göyçək kababçının göyçəkliyinə gülürdü, çömçəsinə gülürdü. Qazanın ağzından görünən dəyirmana, dəyirmanın bacasından görünən göy üzünə, göy üzünün günəşinə gülürdü.

Göyçək kababçı da birdən-birə gördü ki, baş gülür, o da toğlunun başına güldü:

– Hi-hi-hi, bişdikcə gülür, ə, bu!

Kababçı üçün də, dəyirmançı üçün də, yeyənlər üçün də, yedirənlər üçün də nə qoyunlar anaydı, nə toğlular bala. Qoyunlar da, toğlular da ətiydilər, kababıydılar, tikəydilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Ey toğlu, çöldə canavar yeyincə, evdə qazanda biş. Canavarı kökəldincə adamları kökəlt. Kabab ol, qoy üstündə sağlıq deyilsin, canavar ruhunu yeməzdi, amma dəyirmanda ruhunu da yeyəcəklər. Canavar qorxusu adam qorxusundan daha böyükdü".

Amma belə deyildi, dəyirmançının əliylə kəsilənəcən, qazana girib bişənəcən, kabab olub qızaranacan toğlular ayaq üstə can verirdilər. Adamlar da toğluları ölü-ölü yeyirdilər. Ona görə də canavar üçün daha dadlı olardı toğlular. Ayaq üstə ölmüşləri görən yox idi. Nə qədər ki gözləri baxırdı, nə qədər ki ayaq üstəydilər, mələyirdilər, deməli diriydilər hələ. Yoxsa deyərdilər: "Heyvan yazıqdı, ay kişi, vaxtında kəs, ayaq üstə ölənnən sonra kəsmə, dadını çəkir".

Dəyirmançı əlini qaldırıb saldı, yəni, "gətir". Ayatın gözü kişidəydi, toğlunun birini tutub dəyirmana sarı döndərdi. Bayaqdan bəri kişinin dəyirman daşına çəkib itilədiyi bıçağın səsi toğlunun boğazına sürtünməkdəydi. Ona görə də sonuncu səsiylə sonuncu kərə mələdi. Ayağını darta-darta bıçağa sarı getdi. Dəyirmançının dizinin dibində ayaqlarını qatdayıb yatdı. Elə bil arandan yaylağa yol gəlmişdi, son nəfəsini tövşüyürdü. Dəyirmançının əlindəki bıçaq göz gətirmişdi, iti, iliyə işləyən bir iştahla yuxarıdan-aşağı toğluya baxırdı. Sarı gözlü, balaca buynuzlu kəlin toğluydu, yavaş-yavaş ölüb qurtarmaqdaydı. Ağzında bir çəngə ot quruyub qalmışdı. Canı damar-damar olub səyriyirdi, sızıldaşmayan bir yeri yoxuydu. Sarı gözlü toğlunun özü öz canını yeməkdəydi...

Ayat bürüşdü, göylüyə uzanıb təzədən yatdı. Ayatın yatdığındanıydımı, yoxsa bıçağın qorxusundanıydımı, nəydisə toğlular yanından aralanmırdılar. İki daşın arasındakı bu gözəl yuxusuyla dünyanın bu səssizliyində, səhərin bu sərinliyində Ayat suya salınmış daş kimiydi. Arı təki baldan şirin yuxusuna qonub güllərin, çiçəklərin arasında qoxulana-qoxulana yatırdı.

Əslində Ayat çox rahat böyüyürdü. Geyməyə bahalı-bahalı paltarları vardı. Yeməyə bu boyda dəyirmanı vardı ki, baş-ayaqdan tutmuş ürək kababına qədər əlindəydi. Küçüklərə atırdı, küçüklər də yemirdi. Gözləri doymuşdu, toxuydular.

Dəyirmanın dörd yanında vurnuxan kənd uşaqları Ayata qəribə nisgillə baxırdılar. Bu cür geyimli, cibi pullu, kişi kimi yoğun səsli, ötüb keçən maşınların, – Ayat, yeməyə nəyin var, gələkmi? – deyə səslədiyi, dəyirmandakı kötüklərin üstünə çıxıb xırıltılı, yaşlı səslə mahnılar oxuyan Ayat, kənd uşaqları üçün balaca, amma bütöv bir kişiydi. Uşaqlar aşıq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rəfinin sazının səsinə, dəyirmançının bıçağının səsinə, kəsilən toğluların qanına, bişən kababların iyinə yığışıb gendən-genə çağırırdılar:

– Ayat, kabab gəti, yeyək!

Ayat boyuna dar gələn bir duruşnan üzünü çevirirdi onlara:

– Başqa şey versəm yeməzsizmi?!

– Onu anan yesin, yetim köpəyoğlu!

– Gəlib başınızı kəsərəm toğlu kimi, ac uşağı, ac!

Uşaqlar qalxışıb Ayatın oxuduğu mahnılardan, aşıq Rəfinin sazının, dəyirmançının bıçağının səsindən, kəsilən toğluların qanından, bişən kababların iyindən keçə-keçə dağılışırdılar, Ayatın səsinə oxşamayan duru, zil səslə mahnı oxuya-oxuya quzuqulağı, yemlik yeməyə gedirdilər:

İravanın atdarı,
Bağlıdı qanaddarı.
Ayatın anası Royza
Bir gün mindi xoyruza.
Getdi çıxdı Tiflisə.
Tiflisdə dəlmə-deşik
İçində meymun yaşar,
Meymunu yerə vurdu,
Yer ona yemlik verdi...

Bir yandan da bu sözlər Ayatı böyüməyə qoymurdu. Yetimlik Ayatın boynundaydı. Rəngindən, gözlərindən yetimlik baxırdı. Əslində Ayatın atası da vardı, anası da. Atası qulplu qazanlarda toğluların baş-ayağını qarışdıran göyçək kababçıydı. Anası dəyirman daşının üstündə oturub bıçaqdan da sərt olan iriəlli, qaraqabaq dəyirmançının qızıydı. Günlərin birində ərini də, Ayatı da, atasını da atdı, çıxdı getdi şəhərə. Təkdə-tükdə Ayatın üstünə kağız gəlirdi. "Qurban olum sənə, göygöz balam! Özüm qurtardım, səni qurtarammadım o əclafların əlindən. Yəqin yenə mahnı oxudullar sənə, qarınqulu eşşəklərdən ötrü. Gələcəm, atam-anam, gəlib səni elə oğurlayacam ki, Allahın da xəbəri olmayacaq. Burda hər şey yaxşıdı, bircə sən yoxsan. Səndən ötrü ürəyimin başı göynəyir. Ağlamaqdan sellər yudu içimi. Atam-anam göygöz balam, təmiz yadınnan çıxmışam, eləmi? Ağlama ha, möhkəm ol! Ağlayanda adam yekələnmir".

Göyçək kababçı kağızı oxuyub özündən çıxırdı, dəyirmançının qulağı eşidə-eşidə söyürdü:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Oğraş qızı, oğraş! Burda meydanın darıydı, həə, əl-ayaq açammırdın. İndi əlin-ayağın göydə oynuyur, bilirəm. Apararsan, gəlib Ayatınkını apararsan. Səni elə öldürüm, izini elə itirim ki... Bir az gözlə, başım qarışıqdı hələ!

Göyçək kababçının doğrudan da başı qarışığıydı. Toğlu kəsib, kabab çəkib, pul yığırdı. Dünyanın pulu da çoxuydu, yığıb qurtara bilmirdi. Dünyanın pulu qurtaranacan da Ayata məktub gəlməliydi: "Ömrüm-günüm, göygöz balam..."

– Baba, mənim gözüm göydümü?

– Həəə, atam-anam.

– Bə səninki?

– Yox, atam-anam.

– Anamınkı bə?

– Həə, göyüydü.

– Baba, bə uşaqlar niyə deyir, Roza, mindi xoyruza, getdi Tiflisə?

– Fikir vermə, kabab istəyillər, ona görə eliyillər.

Ayat beləcə, yol gözləyirdi ki, bir gün anası gəlib onu aparacaq, heç kəsin, hələ adamların içini görən Allahın da xəbəri olmayacaq... apararsan...

Dəyirmana kefə gələn, məzələnə-məzələnə maşınlardan düşən, bir günün içində mümkün olandan da çox şey götürməyə çalışan qızların heç biri Ayatın anası olmurdu. Ayat toğluların yanında udquna-udquna gözləyirdi ki, indicə o qızlardan hansısa, qurban olum, göygöz balam, – deyib, özünü üstünə salacaq, qaçıb çıxıb gedəcəklər. Ayat da daha hər səhər alaqaranlıqdan durmayacaq, dəyirmandan, kəsilən toğluların qanından, bişən kababların iyindən, ac uşaqların mahnılarından uzaqlarda anasının qoynuna girib, şirin bir şəhər yuxusu yatacaq.

Amma gələn yoxuydu. Ayat da naxırların səhər sağınınacan yatan, qapıdan-qapıya, yoldan-yola ayaqlarını sürüyən, itlərə daş atan, ayağıyalın, başıaçıq düzdən-düzə qaçan, aşıq Rəfinin sazının, dəyirmançının bıçağının, kəsilən toğluların qanının, bişən kababların iyinin, türk mahnılarının içində yaşayan tox, pullu Ayatın acığına mahnılar oxuyan uşaqlardan olmaq istəyirdi. İstəyirdi gendən-genə dayansın, kababı o istəsin: "Ayat, kabab gəti, yeyək".

– Ayat, nəyin var yeməyə?

Ayatın yanında dalbadal üç-dörd maşın dayandı.

– Baş-ayaq var.

– Al bu beşliyi, gəl bir "Bənövşə" oxu!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Maşınlar dəyirmandaşının yanından keçdi, təkərlər kəsilən toğluların qanına bulandı, keçib qapının ağzında dayandılar.

Kötükləri birləşdirdilər. Hamısı birdən, – Ya Allah! – deyib, əyləşdilər. Dəyirmandakı "kötüklər" içməmiş birləşməzdi. Amma bu gələnlər elə biriydi, birləşib gəlmişdilər. İşdəmi birləşmişdilər, vəzifədəmi, puldamı, bilinmirdi. Amma biriydilər.

Kababçı tərifləyə-tərifləyə baş-ayaq gətirdi:

– Sümük ye, sümüyün bərk olsun, dırnaq ye, dırnağın bərk olsun, damar ye, saçın uzun olsun, ciyər ye, gözün işıqlı olsun, ürək ye, ürəkli ol!

– Yaxşı, yaxşı, gəti. Sən elə şey tap ki, yeyim, gözə görünmüyüm. Onda deyim, hə. Yoxsa ürəkli olub neyniyəcəm? Uzun saçı neyniyəcəm, əə? Gözün işığını neynirəm, görməmək hamısından yaxşıdı.

Gülüşdülər. Sonra biri başını kötüyün üstünə sarı uzatdı.

– Sən öl, başını elə uzadıbsan ki, elə bil deyirsən kəs. Uzanan baş altdan-yuxarı irişdi:

– Deyirsən, bir şey tapım, yeyim, görünmüyüm? Ə, sən görünürsənmi ki? Heç olmasa, mənim yanımda elə demə.

– Sənə elə gəlir, görünürəm sən öl. Burdan gətirillər, burdan da yarı bölürəm. Lap istəyirsən seyfə girim, yenə görəcəklər.

Kötüyün ortasına bir baş da uzandı:

– Sənin heç olmasa yarını görüllər.

– Hə, daa. Dava da elə o yarısının davasıdı.

Ortada üç bişmiş toğlubaşı vardı. Başın biri hər şeyi yerli-yerində sakitcə dururdu. Biri ağlayırdı, biri gülürdü.

– Ə, başın gülür, göyçək!

Göyçək kababçı irişdi:

– Axşamnan gülür. O boyda qaynatmışam, güləcək da.

– Qaynatmaqdan döyül, mal yiyəsinə oxşuyar.

İçdilər, hallandılar, daraşdılar toğluların baş-ayağına. Dırnaqlarını diddilər, damarlarını sökdülər. İlikləri sordular. Başların əti getdi, sümüyü qaldı irişə-irişə. Üç toğlunun üç başı bir-birinə elə oxşadı ki, deyirdin bir almadı, yarı bölüblər. Biri tələsik başların yerini dəyişdi, bir-birinin üstünə qoydu:

– Əlli manat verirəm, – dedi, – tapın görüm, fikirli baş hansıydı, ağlayan baş hansıydı, gülən hansı?

Biri dedi: "Gülən odu", biri dedi: "Ağlayan budu". Ara qarışdı, səs-küyləri dəyirmanı bürüdü. Başını kötüyün üstünə birinci uzadan:

– Yuxarıdakı gülürdü, ortadakı fikirləşirdi, aşağıdakı ağlayırdı, – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Deyəsən tapdı, sən öl.

– Ver əlli manatı!

Sonra başladılar toğluların gözlərinin yağını yeməyə. Kababçı istədi deyə ki, gözyağı yeməyin, dalaşacaqsız. Deyə bilmədi, qorxa-qorxa axırını gözlədi. Çıxıb Ayata əl elədi ki, gəl, tez ol.

Yedilər, qurtardılar. Toğluların kəlləsində gözləri qarala qaldı.

– Sənin gözün məni götürmür!

Başını kötüyün üstünə birinci uzadan udqundu:

– Bu nə deməkdi?

– Sən hardan bilirsən ki, mən gözə görükmürəm? Sənsən gözə görükməyən ki, pulun da görükmür. Amma mənimki gözünə girir.

Kababçı tələsik Ayatı kötüyün üstünə çıxartdı:

– Tez ol, oxu, dalaşacaqlar!

Ayat qorxa-qorxa oxumağa başladı:

Səhər-səhər yar göründü,
*Açıl bənövşəm, açıl!*

Nə kababçını eşidən vardı, nə Ayatı.

– Gözə siz görükmürsüz, siz! Nə katib görür sizi, nə prokuror. Soxma məni gözə, bildin! Bir vaqon yağı bir gecənin içində yedin. Niyə görünmədin, bə?

– Ağıllı danış, əə, bəsdi çərənnədin!

Kötüyü aşırdılar, o kötük bu kötüyə dəydi, bu kötük o kötüyə. Dəyirman bir-birinə qarışdı.

Dağ başında qar göründü,
Yumul, bənövşəm, yumul!

Araq şüşələri divara dəyib çilik-çilik oldu, Ayatın başına səpələndi. İtələşə-itələşə qapıdan çıxdılar. Kababçı qorxa-qorxa birinin qolundan tutdu. Bir çəngə pul alıb baş əydi:

– Axşama qabırğa kababı var, gələrsiz, – dedi.

Dəyirmançı hirs, qəzəb içində aralanmaqda olan maşınların ardınca baxdı:

– Noldu bunnara?

– Göz yağı yeyib, köpəyuşağı, qırırdı bir-birini.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Dəyirmançı bıçağını yenə dəyirmandaşına çəkdi, toğlular yenə başını qaldırıb döyükdü, ağzı otlu-otlu mələşdilər.

– Ayat, ikisini yenə gəti!

Ayat toğlulardan ikisini ayırdı. Dəyirmançı əlini açıb ovcunu toğlulara sarı uzatdı:

– İrreh!

Bu nəydi? Belə də ölüməmi çağırallar? Belə ota çağırallar, paya çağırallar.

Yəqin duz var kişinin ovcunda. Qaragözlü toğlu xırdalaya-xırdalaya yüyürdü, ağzını kişinin ovcuna soxdu. Kişinin ovcu birdən-birə canavar oldu. Canavar olmuş ovuc toğlunu yıxdı, boğazının tükünü yumşaqca-yumşaqca daradı: "İrreh!". Qaragözlü toğlunun boğazına od düşdü, rahat-rahat soyudu, damarlarının qanı ləzzətlə axıb boşaldı. O biri toğluların qanı bir çökəyə yığılmışdı. Qaragözlü toğlunun qanı da qarışdı. Qan çökəkdən axıb süzülə-süzülə dəyirmanın altından keçən arxa töküldü, xınalana-xınalana axdı. Kababçı qapıya söykənmişdi:

– Bunun əti dadlı olacaq, – dedi, – özü gəldi bıçağa.

Telli qarı su doldururdu, səsi kəndi başına götürdü:

– Qanı suya tökmə, a qanına bələn! A qanın daşdara dağılsın! A yediyin qan-irin olsun, burnunnan gəlsin!

Dəyirmançı belini düzəldib Telli qarıya baxdı:

– Ağzı açıldı, qart qancığın.

– Kimin qarnını doyduracaqsan, a bayquş. Gül kimi qızını saxlayammadın, çöllərə salıb ellərə yem elədin. Qanı suya tökmə, a bu suyun ağırlığı-uğurluğu üstünə tökülsün!

Kişi hirslə əlini dizinə vurdu:

– Lənət sənə, kor şeytan!

Küçüklər qarıya sarı hürdülər. Ayat daş götürüb qarını yalamaladı. Qarı özü boyda oda döndü:

– Ey, yetim, gəlib bağanağını ayırram, ha! Bir bu ortalıq malına bax, aaz!

Dəyirmançının iri əlləri havada oynayıb bar-bar bağırırdı. Telli arvad dəyirmançının iri əllərinin nə dediyini başa düşdüyündən yer cırırdı, dəyirmana tərəf daş-kəsək yağdırırdı. Gəlini eşiyə çıxıb özünü qarının üstünə saldı. Qucaqlayıb evə sarı çəkdi. Qarı atırdın atılmırdı, tuturdun tutulmurdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bağlatdıracam onun xarabasını, qoy uşaqlar şəhərdən gəlsin, başına uçurtduracam. Cəhənnəm tərəzisi qurub, imansız! Kişi də qalmadı kənddə. Arağı qapıya düzdü, hamını ayağına apartdırdı.

Dəyirmanın balaca arxı rəngini dəyişə-dəyişə, deşilmiş damar kimi qanlana-qanlana kəndin içinə sarı axırdı. Toğluların qanı balıqları qovurdu. Balaca arxda minlərlə, milyonlarla canlı var idi ki, qorxu-hürkü içində qaçıb qurtulmağa çalışırdılar. Sudakı bu bulanlığı görüb qurbağalar quruya çıxdılar. Balaca kənd uşaqları kimi daşların, kəsəklərin arasından baxışdılar...

Qan Telli qarının qapısından keçib həyətləri dolana-dolana gedirdi. Temirin anası Güllü arvad da bir az aşağıda paltar yuyurdu:

– Boy, boy, – dedi, – uşağın paltarını qana batırdım. Qanına bələn, ay dəyirmançı. Bir damcı suyumuz var, niyə qana döndərdin, a qaniçən. A su deyə-deyə qal, yuyulmamış get o dünyaya!

Dikəlib dəyirmana sarı əl-qolunu ölçdü. Amma səsi dəyirmana çatmadı. Temir müəllim anasının səsinə eşiyə çıxdı. Elə bil dünyaya indicə gəlmişdi, heç nə anlaya bilmirdi. Anasının qarğışlarının, kəndin səs-küyünün, bu boyda günəşin ki, varlığınacan açılmışdı, nəyi vardı səpələyirdi, bütün bunların qarşısında quruyub qalmışdı. Qırx iləcən bir ömür yaşamışdı, yadında heç nə yox idi. Amma bir onu bilirdi ki, harasa getməlidi. Toğluların balaca arxa qarışan qanından da tez kəndə yayılan kabab iyi, Güllü arvadın, Telli qarının səs tezliyilə kəndi dolanan qarğışları Temirin yadına dəyirmanı salırdı: – yəni, dəyirman işləyir, ay camaat, toğlular kəsilib, ay camaat. Kabab var, araq var. Aha, araq!

– Nolub, aana?

Güllü arvad qanlı paltarları arxın qırağındakı daşa çırpdı, başını qaldırıb oğlunun göyə çalan üzünə baxdı:

– Həə, yüyür! Budu bax, çaya qan töküb xəbər göndəriblər, səni çağırıllar. Yüyür, sonra qalmaz sənə. Allah qan-irin eləsin yığdığını, a dəyirmançı!

Bu dedikləri Güllü arvadın ürəyini soyutmadı, üzünü Allaha tutub əllərini göyə qaldırdı:

– Yoxsan, yoox! Dərgahın dağılsın, yoxsan! Ağzım əyilsə də deyəcəm, yoxsan! İtdər yedi dünyanı, niyə eşitmirsən, ay kar olmuş?!

Temir yuxarıdan aşağı anasına baxdı:

– Başdama səhər ertə!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Belə deyə-deyə də fikirləşdi ki, necə gedəcəm dəyirmana, kimin yanına gedəcəm, nəylə alacam? Temirin səsi yumşağıydı, daha doğrusu, boşuydu. Bu səs əslində belə deməliydi: "Atam-anam, aana, bu gün bazar günüdü, gedim dəyirmana, bir söz demə".

Temir müəllimin mədəsi dilənçi ovcu kimi açılmışdı. Başına arağın tamı damcılayırdı. Otaqdan arvadının hıçqırtısı eşidildi:

– Aana, vurdummu dünən bunu mən? Niyə eliyir yenə bu? – Güllü arvad gözlərini suya dikmişdi, durulmasını gözləyirdi:

– Bilirsənmi, – dedi, – sən məni necə öldürürsən? Əridə-əridə, damcı-damcı alırsan canımı. Allahı da gözümnən sən saldın. Vermiyəydi səni də heç. Verdi, başına dəysin verdiyi.

– Qışqırtma məni! Vurdummu bunu dünən? Bə niyə gözünün qorasını tökür?

– Niyə ağlamasın, a səni əkən dərin getsin. Özünü ağlıyır da, bə kim ağlasın onun dərdini. Yeməyi yox, geyməyi yox. Aldığını dəyirmanda üyüdürsən. Gülsə, başına gülməzdərmi, deməzdərmi dəlidi?

– Aana!

– Getmə dəyirman dağılmışa! Bax, buna bağışla, bu ağ saçıma bağışla. Heç anan da döyüləm, yad anasıyam. Bağışla birçəklərimə!

Güllü arvad arıq, damarı çıxmış əlləriylə saçlarını yoldu. Hörükləri qocalığındanmı, yolunduğundanmı, bircə qırığıydı. Nazilib qılçıq bağlamışdı.

Temir müəllimin içini elə bil yuxarı dartdılar, göyür-göyür göynədi. Sonra elə bil içində ocaq çatdılar, içi qor bağladı, nəfəsi ağzından od kimi çıxdı. Arada dəyirman varıydı, ona görə də Temir heç nəyin dərininə gedə bilmirdi.

Anasına umudlu sözlər demək istədi, söz tapa bilmədi: "Yüzcə qram olsaydı".

Kəndin uşaqları qanla oynayırdı. Arxın qanlı suyunda əl-üzlərini yuya-yuya qanın qatısını gəzirdilər. Biri daşların dibinə lillənmiş qanın qatısından götürüb, üzünü qana buladı. Ayata sarı dişlərini ağardıb, mırıldadı. Ayat daş götürüb:

– Nə var, ə, it oğlu it?! – dedi.

Uşaqların hamısı qanlı-qanlı hürüşüb mırıldaşdılar. Sonra dönüb arx aşağı qaçdılar: – Gedək, görək, – dedilər, – qan harda qurtarır.

Amma qan kənddə qurtarmırdı, taxtalı, daşlı, məftilli, tikanlı çəpərlərin dibiylə qan su yerinə axırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xeyli aşağılardan iri çay keçirdi ki, arxın cücüləri, canlıları qaçıb iri çayda gizlənmişdilər. Arxın qanı suyundan çoxuydu, çayın suyu qanından çox. Ona görə də arxın iri çayda gizlənən canlıları iri çayın suyundan içib, qanından dadırdılar.

İri çayda balacalı-böyüklü, irili-xırdalı nə qədər yaşayan vardı, arxın çaya qarışdığı yerə yığışmışdı, qannan dadırdılar. Dadıb-dadıb arx yuxarı dırmaşanlar da vardı. Çox gedəni qan tuturdu, boğulub arxın dibinə yapışırdı.

Arxın çaya qarışdığı yerdə uşaqlar da atdanırdı, balıqlar da. Uşaqlar balıqlara görə atdanırdı, balıqlar qana görə.

Beləcə, dəyirmanın yanında küçüklər Ayatla oynayırdı, uşaqlar balıqlarla, balıqlar qanla. Amma Ayatın gözü uşaqlardaydı, küçüklər uşaqların yerini vermirdi, sonra anasını xatırladı. Yenicə kövrəlirdi ki, dəyirmançının səsi gəldi:

– Ayaaat!

* * *

Kəndin naxırı səhər sağınından qayıdırdı. Yelinləri boşalmış ac inəklər bostanlara, çəpərlərə boğaz uzada-uzada kənddən çıxırdılar. Dəyirmançının dəyirman daşına çəkdiyi bıçağın səsi naxırın qabağını kəsmişdi. İnəklər qızarmış iri gözlərini dəyirmançıya dikdilər. Yiyələrinin tanış səsini gözlədilər ki, gəlib onları bıçağın səsindən ötürsünlər. Arvadlar, gəlinlər deyinə-deyinə inəkləri dəyirmanın yanından addatdılar. Dəyirmançı dəyirmandaşının üstündə oturub kefə baxırdı. Arvadlara, gəlinlərə inək qarışıq göz vurub gülümsəyirdi. Elə bil bıçaq itiləmirdi, taziyanə vurub saz çalırdı. Ona görə də bıçağın səsi avaza düşmüşdü, kişi bıçağın avazıyla inəklərə qız-gəlin qarışıq söz atırdı:

– Ho, ho, ho! Gəlin, gəlin görüm hansınız yağlısınız!

Bıçağın səsi səmtdən inəklərin beli əyilən kimi olmuşdu. Bıçağın səsi inəklərin dərisinə sancılırdı. Yiyələri inəkləri sığallayıb qılıqlayırdı:

– Heç nə yoxdu, Maral.

– Qorxma, Qaşqa.

– Niyə özünü öldürürsən, gedib qarnını cırsan, buynuzunla.

– Get, imansız, get qəhbə qızına göz elə.

– Ho, Ceyran, ho! Dərdin allam. Mən də deyirəm, südünü niyə çəkib. Bu kaftarın yanından keçir, südmü qalar canında?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Tfu üzünə! Sat imanını, pul yığ, görüm nə aparacaqsan dünyadan.

– Ho, ho, ho! Ha gəlin görüm, hansınız yağlısız!

İnəklər yiyələrinin səsinə, qılığına inanmaya-inanmaya dabanbasma dəyirmanın yanından keçib gedirdilər. Gendən-genə dəvə nalbəndə baxan kimi dəyirmançıya baxırdılar.

Gülü qamçısını götürüb naxırın ardınca çıxdı. Evdən arvadının səsi gəldi, xırıltılı, kədərli səslə dedi:

– Dəyirmana girsən, dünyanı başına yıxacam!

Sonra da arvadın özü göründü. Saçlarına dən düşmüş, üzü-gözü səsindən də kədərli bir gəlin idi.

– Eşitdinmi, girmə dəyirmana, gözümdə yaş da qalmayıb ağlamaqdan.

Arvadının səsi Gülünü ovuşdurub yumşaldırdı. Amma dəyirman tərəfdən yol gəlirdi, dəyirman tərəfdən meh əsirdi, bacası tüstülənirdi, altından qanlı su axırdı. Maşınlar əylənirdi, dəyirman dolub-boşalırdı. Dəyirmana girmədən keçib gedəcəyini ağlına gətirə bilmədi. Arvadına sarı qamçısını silkələyib:

– Zingildəmə, aaz, – qamçını göstərib, – əlimdədi allahın, bax, – dedi, – gəlib dağını çıxardaram.

Üzüaşağı dəyirmana sarı endi. Yaxınlaşdıqca başladı titrəməyə. Dəyirmançı ayaq üstəydi, bıçağı əlinə çəkirdi ki, görsün itidimi? Gülünün də dünya gözünə dörd görünürdü. Bir adam on olmuşdu, on adam yüz. Elə bildi dəyirmançının əlindəki araq şüşəsidi. "Gəl araq iç, Gülü".

Arvadının ölezimiş səsi qulağına dəydi: "Gözümdə yaş da qalmayıb". Bu nə deməkdi?

"Girmiyəcəm dəyirmana, ayağımı bassam, başımı salsam, köpəyoğluyam!"

– Ay Gülü, aya, yan keçirsən, xeyir olsun? Salamın hanı bə?

Kababçı qapıya söykənmişdi, dəyirmançıya göz vurub gülümsədi:

– Sən öl, bu ki beş addım da olsa dəyirmanı keçə bildi, kişidi, vallah.

Şaqqanaq çəkib güldü, tox, sağlam səsiylə Gülünü bir də səslədi:

– Sənnənəm, aya. Sən öl, elə buna görə pul almıyacam, gəl.

Gülü qanrılıb kababçıya baxdı, gülümsədi. Gülüşü dodaqlarından üzünə keçmədi, dodaqlarındaca söndü. Çünki üzünün dərisini elə bil yandırıb, qanını çıxartmışdılar. İstədi bir söz desin, içindən səs gəlmədi, başınıca tərpətdi, yəni – yox.

Kababçı uğunub getdi:

– Bunun doğruluğudu, əə?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gülünün yanında bir maşın ayaq saxladı. Ogünkü qızıl oğlanlar idi, yayxanıb oturmuşdular. Biri başını maşından çıxarıb dəyirmana işarə elədi:

– Bir şey varmı, Gülü?

Gülü yenə dinmədi. Qızıl oğlanlar bir-birinə baxdı.

– Qudurub, ə, bu. Hər səhər it kimi quyruğu üstə oturub yolumuzu gözləyirdi. Eey! Dəyirmannan dirimi çıxdın, bir şey vermədilərmi? Ə, qayıt, biz ölməmişik ha!

Amma Gülü başını da qaldırmadı. Ayaqlarını sürüyə-sürüyə naxırın ardınca getdi. Elə bil astarını üzünə çevirmişdilər. Gün elə bil ona görə istiydi ki, Gülü araq içsin. Bu adamlar, bu maşınlar elə bil ona görə varıydı ki, Gülü araq içsin. Gülünün sol əli sağ əlinə araq süzməkdəydi. Amma hanı araq?

Başının üstündə günəş araq süzürdü, dağların qaşından enən sazaq arağıydı. Bulaq araq olmalıydı, arxın suyu araq olmalıydı. Amma hanı araq?!

"Yolunnan düz get, girmə dəyirmana". Bunun artıq Gülü üçün heç bir mənası yox idi. Bu da dəyirmanın qapısından göyçək kababçının çaldığı fişkırək kimi boşuydu, heç nə demirdi Gülüyə.

Gülü başını qaldırdı, bir inək on olmuşdu, on inək yüz, hər yan başdan-başa inəyiydi. Canını yığıb-yığışdıra bilmirdi. Elə bil sağ əli bir adamınıydı, sol əli bir adamın. Başı elə bil kimin idisə ancaq dəyirmanda olmalıydı, içib-içib düşməliydi dəyirmandakı kötüyün üstünə.

Gülü titrəyirdi, uşaq qorxudurmuş kimi dişi-dişinə dəyirdi. Başqasının olan baş, başqasının olan əl-ayağı saxlaya bilmirdi. Başqasının olan sol əli, başqasının sağ əlinə araq süzürdü. Amma hanı araq?

Gülü dayandı, dişi-dişinə dəyə-dəyə üzünü dəyirmana döndərdi. Birdən başqasının olan əlləri Gülünü soyundurdu. Papağını götürüb yerə vurdu, qamçısını tulladı, geyməsini çıxarıb yerə çırpdı. Əlləri bir yolla, ayaqları bir yolla, başı bir yolla yüyürüşüb özlərini dəyirmana saldılar. Gülü yarım saata getdiyi yolu beş dəqiqəyə qayıtdı. Gülünün başında arasıkəsilməz alqışlar oyandı, elə bil minlərlə adam Gülünün başına dolub, əl çalırdı.

Kababçı özünü içəri saldı, qarnını qucaqlayıb güldü:

– Gəlir! – dedi.

Qızıl oğlanlar da xısın-xısın gülüb kababçıya tapşırdılar:

– Araq yoxdu ha!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İçəri qaranlıq idi, göz-gözü görmürdü. Kababçının səsi gəldi:

– Noldu, əə, kişi?

Gülü qaranlığa üz tutub:

– Araq ver, qız köpəyoğlu! Söylətmə məni.

Kababçı da, qızıl oğlanlar da gülüşdülər. Çünki Gülünün söyüşləri dünyanın ən gülməli işlərindən də gülməliydi. Dəyirmanın içi də qaranlıq deyildi. Qızıllar oturub ləzzətlə qabırğa gəmirirdilər. Biri kababçıya göz vurdu:

– Sən canın, söydür, bir az gülək!

Kababçı tikələri şişə düzürdü, şişi qaldırıb Gülüyə sarı uzatdı:

– Görürsənmi bunu, – dedi, – qarnına soxaram!

Gülü alaqaranlıqda səsə sarı getdi:

– Araq ver, it oğlu, sənin arvadını mən yaxşı tanıyırdım!

Kababçı qəhqəhə çəkdi. Qızıl oğlanlar əllərini əllərinə vurub uğundular.

Gülü cibindən bir beşlik çıxartdı. Gülünün beşliyi lap gülməliydi. Kababçı gözü sulananacan güldü. Gülü ağzına nə gəlirdi, söyürdü. Amma bu söyüşlərin yiyəsi yoxuydu, arxasında adam dayanmamışdı.

– Araq ver, düdük, bıçağı qarnına soxaram!

– Mən ölüm bıçağını göstər.

– Göyçək...

– Bayaq araq varıydı, indi yoxdu.

Gülünün özünün xəbəri olmadan gözlərindən yaş axdı. Kababçı:

– Ay, yerə gir, – dedi, – o nə kişiliyidi, əə, eliyirdin? Harana yaraşır, əə? Pah! Yan keçir dəyirmannan. Adamı belə mələdəllər, bax!

Əlini uzatdı beşliyi alsın, qızıl oğlanlardan biri:

– Alma onun pulunu, – dedi, – Gülü, gəl, zarafat eliyir. Ə, sən bu dəyirmanın gülüsən. Hara çıxıb gedirdin?

Yanlarında oturtdular, araq süzdülər. Gülü gözlərini yumub başını stəkana sarı əydı, arı kimi arağın iyini içinə çəkdi. Gülünün içi "oof!" elədi. Bayaq elə bil havası çatmırdı, elə bil Gülünün boğulduğunu görüb, hardansa yuxarılardan araqlı hava endirdilər ki, Gülü boğulmasın.

Bir-iki sözlə sağlıq demək istədi, içindən səs gəlmədi. Birdən-birə başında zınqırov çalındı ki, bunu da təkcə özü eşitdi, gözlərini yumub dinlədi: "Girmə dəyirmana!". Kimin səsiydisə ona çox tanış gəlirdi. Arağı başına çəkdi. Elə bil Gülünün içində çiçək sulayırdılar. Gülünün içi çiçəkləyirdi. Gülü yepyekə, adam şəklində, paltarlı, əlli-ayaqlı bir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ürək kimi döyünməyə başladı. Gözlərini açdı, dəyirman işıqlanmışdı. Gülümsədi. Başı üstündə, qolları yanında, ayaqları altında bütöv bir adam kimi güldü. Stəkanına yenə araq süzdülər...

Gülünün arvadı uşaq da qucağında qaşa çıxdı, üzünü arxın qırağında hələ də qanla oynayan uşaqlara tutdu, ağlar-göynər səslə oğlunu çağırdı:

– Ay Əliş! Atan ölmüş yenə dəyirmana girdi. Gəl naxırın yanına get! Mal qoruğa dolacaq, əədə!

Əliş arxın qırağında çırpınıb-silkələnib ayağını yerə döydü, atasının qarasınca nə dedi, nə demədi, ağlaya-ağlaya naxırın ardınca getdi.

Anası sağına, soluna baxdı, ürəyini boşaltmağa adam tapmadı. Bayaq Gülüyə deyirdi, "gözümdə yaş da qalmayıb", – amma yəqin elə belə deyirmiş, yolun qırağınaca çöküb ağladı, gözlərindən sellər, sular axıtdı. Qucağındakı uşaq da durub-durub başladı ağlamağa.

Telli qarı ağacına söykənə-söykənə yola çıxdı. Gülünün arvadının başının üstündə xeyli dinməz-söyləməz dayandı. Nə ağrıdanıydı, nə arada ölüm varıdı, yeni yemək varıdı, içmək varıdı, ev varıdı, eşik varıdı, *Gülünün arvadı özü-özünün sağ canını ağlayırdı.* Telli *qarının üzünün* qırışları tel-tel olub tellendi, səsi titrəyə-titrəyə:

– Yenə dəyirmanamı girib aaz, o murdar? – dedi.

Uşaq anasının qucağından qanrılıb göz yaşı içində Telli qarıya baxdı, daha bərkdən ağladı. Anası uşağın gözünün yaşını silib:

– Ağlama, anam, ağlama, – dedi.

Bu həm də Telli qarıya cavab oldu. Qarı ağacını yerə vurdu:

– Tfu! Bu nə təhər kişilik oldu, ay başına dönüm! Qurulu evinə, gəlin arvadına, bəy oğluna, xan qızına niyə yiyəlik eləmir bunnar? Bu nə bəlaydı, endi? Allah yıxsın səni, ay dəyirman! Diddi, yedi camaatın içini. Nə pul qoydu camaatda, nə can qoydu. Bir uşaqlar şəhərdən gəlsin, dağıtdıracam o xarabanı!

– Yaxşı, sən də. O dəfə gəlmişdilər, neynədilər? Evə girməmiş dəyirmana girdilər.

– Qələt eləyillər. Çağırtdırmışam, gələcəklər. Kəndi qana çalxıyır dəyirman.

Qarı çəliyini də, ayağını da birdən yerə vurdu:

– Qalx, köpəyqızı, dur, götür ağacı!

– Götürüm, neynəyim?

– Get o dəyirman yıxılmışa, o sümsük köpəyoğlunu sal ağacın altına!

– Abrımı necə töküm, necə gedim ora mən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Aaz, abrınmı var sənin? Hanı? Bunamı abır deyirsən, aaz? Apar, abrını çırp o sümsük itin başına. Onnardan sizə ər olmaz, kişi olmaz daha onnardan. Öldür, öldürməsən o qapıda yatan itin qızısan! Qalx, ağlama bu yolların qırağında.

– Mən onu eliyəmmərəm.

– Aaz, Söyünün qızı niyə elədi bə? Camaatın gözünün qabağında yarmadımı ərinin başını? Həmidin qızı öz əlinnən öz evinə-eşiyinə od vurmadımı? Namusu itə atıblar, it götürmüyüb, bala. Öz qeyrətinizi özünüz çəkin. Ayağıtutan çıxıb gedir, bilmirsən hara gedillər. Qız-gəlin də qalır boylana-boylana. Hələ qorx ki, yeməyə əppək tappıyaq. Bir yerin ki, dəyirmanı şeytanın yığnaq yeri oldu, bu gün tapdığımız bir parça çörəyə də şükür elə.

Telli qarının sözləri gəlinin ürəyini soyudurdu: "Şükür elə". Gəlin əlini üzünə çəkdi, saçlarını düzəltdi, döndü, gülümsəyib:

– Çox şükür, – dedi.

Qurulu evinə baxdı, həyət-bacasına baxdı, uşağın bir də gözlərini silib üzündən öpdü:

– Elə bilərəm, – dedi, – heç ərim yoxdu. Mənimki də belə yazılıbmış.

Sarı Qasımın arvadı Pəri pəncərədən baxırdı. Gülünün arvadını belə görüb evdən xalça çıxartdı, eyvana saldı, başladı paltar tikməyə. Gülünün arvadının ağlamağı Pərinin qulağına sözlər pıçıldayırdı: "Bəxtəvər, əri qulluğundadı, dolanması havayı. Nə istəyir, eləyir. Gündə rayonnardadı".

Doğrudan da, hər şey Pərinin ürəyi istəyincəydi. – "Qasım, gəl! Qasım gələrdi. Qasım, get! Qasım gedərdi".

Sədr Pərinin xətrinə Qasımı süd zavoduna müdir qoydu. Pəri elə əvvəldən ağıydı, o heç. Qasım ki süd zavodunda işləməyə başladı, bir ilin içində evini də ağartdı, eşiyini də. Özü də ağarıb Pəri kimi oldu.

Dəyirman neçə il idi üyüdürdü. Amma Qasımsız. Qasım dəyirmana getməzdi. Ona görə kənddə deyərdilər: "Halal olsun Qasıma, yuxarıda yuxarıynan işliyib, aşağıda aşağıynan, yenə korlanmayıb. Birdəfəlik içməyə "yox", vəssalam. Dəyirman ki Qasımsız işləyir, halaldı ona".

Sarı Qasım olmuşdu kəndin birinci kişisi. Kəndin xeyirində də Qasım, şərində də. Ona görə ki, Qasım yağlıydı, yəni varlıydı. Yaxşı geyinirdi. Sonra çoxunun salamını almırdı, çoxuna salam vermirdi. Bu da kənd üçün qorxuydu. Qorxurdular ki, ə, bu salamımı almadı, sədrin yanında pisliyimə danışacaq.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Neyniyəsən?! Dəyirman işləyirdi, kəndin arvadları yer əkir, bostan becərirdi. Kişilərin çoxu günün diri vaxtını dəyirmanda keçirirdilər.

Kəndin uşaqları Sarı Qasıma oxşamaq istəyə-istəyə böyüyürdülər. İstəyirdilər Sarı Qasım kimi altdarında maşınları olsun, pulları olsun. Sarı Qasım kimi göyçək arvadları olsun. Elə anaları da istəyirdi uşaqları Qasıma oxşasınlar. Yəni sədrin qılığına girə bilsinlər. Yalanlamı, gerçəkləmi, oğurluqlamı, doğruluqlamı, qorxaqlıqlamı, nəylə olur-olsun, Sarı Qasım kimi dolana bilsinlər. İçməsinlər, dəyirmana girməsinlər.

Elə Gülünün arvadı neçə kərə Gülüyə demişdi: "Öl, boğazına çatı sal. Sarı Qasımı bəyənmirsən, amma hamı başına and içir".

Dəyirmandan çıxanda Gülünü ayıldan bircə Sarı Qasımın adıydı. Adını çək, Gülünü təzədən apar dəyirmana:

"Belə o arvadağızmı, aaz? Odumu kişi? Kişi odusa, mən nahaq çıxdım dəyirmannan. Gərək ölənəcən ordaca oturaydım. Yaxşı, bə arvadı harıya getmişdi o gün? Belədi bax! Məni dəyirmana sən göndərirsən, sən! Yaxşı eliyirəm, gedirəm! Sədrin yanında işləyirdim, işləyəmmədim. Yaxşı elədim! Traktorda işləyəmmədim, yaxşı elədim. İndi naxırçıyam, mal otarıram, yaxşı eləyirəm.

– Ordan da qovacaqlar, gedib Sarı Qasımnan çörək istəyəcəksən.

– Başını qaldır, dirəyə bax. Qamçını görürsən ki, allahındı, dirəkdən asmışam. Götürüb dağını çıxardaram".

Sarı Qasım həyət-bacada qurdalanırdı. Amma bu, iş görmək deyildi. *Evdarlıq, içməmək, arvad saxlamaq boynuna düşdüyündən qurdalana*-qurdalana kişilənirdi.

Pəri də zümzümə eliyə-eliyə paltar tikirdi. Paltar maşınının iynəsi elə bil Gülünün arvadının kürəyində gəzirdi. Dönüb Telli qarıya baxdı:

– İndi gəlsən qalxam, Allahın da, bəndənin də hayfını bu qısır xoşudan alam. Mənnən ötrü oxuyur, bilirəm. Mənə eşitdirir.

Pəri səhərlər geyinirdi-kecinirdi, dayanırdı güzgünün qabağında. Kişilərin gözüylə özünə baxırdı. Görürdü ki, ağdı, gözəldi. Sevinib dilində saz çalırdı. Sonra sevinci dönüb hikkə olurdu. Hikkəli-hikkəli pilləkəni enib kəndin içiylə addımlayırdı. Avtobusa minib gedirdi rayona. O rayonda olanda Sarı Qasım da zavodda olurdu. Süd qəbul eləyirdi, yağlılığını yoxlayırdı, yağ düzəldirdi.

Pəri kənddə, rayonda nə qədər adam vardı, bir baxmaqla hamını görə bilirdi. Özünü göstərə bilməyi də hamını görə bildiyindəndi.

Bütün bunlara görə də Pəri xalçanın üstündə oturub paltar tikə-tikə öz baxtına mahnı oxumaqdaydı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gülü bilmirdi əlində tutduğu neçənci stəkandı. Başı xırdaca işartılarla oğlu Əlişi fikirləşirdi, arvadını fikirləşirdi. Amma heç nəyin axırına çata bilmirdi. Əliş də, arvadı da başındakı dumana qarışıb yox olurdu.

"Getmə dəyirmana!". Sözünə bax köpək qızının. Atan verib mənə pulu? Allahını dirəkdən asmışam, götürüb dağını çıxardaram!

Gülünün öz sözləri öz başına çatmırdı. Yanındakı qızıl oğlanlara çatırdı, baş-başa verib dinləyirdilər. Sonra bir-birlərinə göz elədilər. Biri əlini dodaqlarına qoydu:

– Mən ölüm, dinmə, – dedi, – qoy danışsın, kefdi.

Gülünün içi günorta yağışından sonra buğlanan torpaq kimiydi. Araq Gülünün içini buğlandırırdı.

Dağların başı qardı.
Bir yarım vardı...

– Əliş, naxırın yanına get!

Oğlanlardan biri başını buladı:

– Deyillər bu, bir yaxşı oğlanmış. Dəyirman bu günə salıb bunu.

– Biz də belə olarıq, tələsmə. Biz də yaxşı oğlanıq. – Gülüşdülər.

Kababçı elə bil onların gülməyinə bənd idi, bir şiş kabab gətirdi:

– Qanı üstündədi, qannı-qannı yeyin!

Bu "qannı-qannı" sözü qızıl oğlanların, doğrudan da, iştahını artırdı. Hərəsi bir tikə götürüb çeynədilər. Dəyirman işləyirdi. Tikələri üyüdüb, sümükləri gəmirib, barmağını sorurdu dəyirman. Maşınlar gəlib-getməkdə, yerlər dolub-boşalmaqdaydı.

Dünya dəyirmandı, Məmməd bir dəndi,
Ha üyünəm indi, ha qalam indi.

– Hanı, aya, aşıq Rəfi? – kimsə çax-çaxın dibindən elə qarasına soruşdu.

Dağların başı qardı.
Bir yarım vardı...

Gülünü huş apardı, başı qollarının üstünə düşdü. Gülünün huşunda dünya bir quyuydu ki, dibi yox idi. Gülünü bu dibsiz quyuya tullamışdılar. Gülü ləzzətlə, ürəyi çəkilə-çəkilə üzüaşağı enməkdəydi.

Kababçı qabırğa kababı payladı. Dəyirman indi də sümük gəmirirdi, qabırğa sökürdü. Dəyirmanın dişlərinin şaqqıltısı Gülünün başına dəyirdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

“Oyan, Gülü, sümük gəmir, qabırğa sök”. Gülü quyuya enirdi, dişlərin şaqqıltısı Gülünün ardınca çata bilmirdi.

– Ə, göyçək, bura gəl!

Kababçı qaça-qaça özünü qızıl oğlanların stoluna yetirdi.

– Sədr bunu nəyin üstündə çıxartdı işdən?

– Bu, yeyinti texnikumunu bitirib, yaxşı yerdə də işləyirdi. Arada nolubsa, sədr buna bir şapalaq vurub, bu da qalxıb sədrə bir şapalaq vurub. Bir az traktor işlətdi, ordan da çıxartdılar.

Əlini uzadıb Gülünün başından basdı:

– Ay başı batsın bunun!

Gülü yenə oyanmadı. Çünki o boyda güclə ki araq basırdı Gülünün başından, kababçının əli araqdan çox-çox yüngül idi. Araqda dünyanın gücü vardı ki, bu güc bir az da qılıq kimiydi, Gülünü qılıqlayırdı. Gülünün də yerin təkinə belə ləzzətlə, yellənə-yellənə, yırğalana-yırğalana enməyi bu qılıqdanıydı.

Gülü gərnəşib o biri üzünə çevrilmək istədi. Amma elə bil əlləri ayrı yatırdı, ayaqları ayrı. Bu, yatmaqdan daha çox ölümə oxşayırdı, dünyanın boyu uzunu üzüaşağımı, ağzıyuxarımı enən də Gülünün ruhu idi. Gülünün ruhunun endiyi yerlərdə səssizlik idi. Təklik deyildi, dünya qaraltılarla, daha doğrusu, ruhlarla doluydu. Gülünün ruhu kef havasına dünyanın bacalarını gəzirdi. Gülüylə bir yerdə dünyanın o biri üzünə bir cür qışqırtı da gedirdi ki, bu qışqırtının səsi yoxuydu, səssizliydi. Arvadınınmı səsiydi, Əlişinmi səsiydi, yoxsa anasınınmı qışqırtısıydı ki, öləndən sonra dünyada qalmışdı. İndi Gülünün yanıyla o biri dünyaya gedirdi. Yatıb ayılandan sonra da dünyanın eninə-uzununa, yuxarısına-aşağısına donuq-donuq baxırdı, hər şey ona tanış gələ-gələ fikirləşirdi: “Yaxşı, o qışqırtı nəydi bə?”

Görürdü arvadı ağlayır.

– Allahın qarğışına keç səni, mənə ki bu günü göstərirsən!

“Yox, bu o döyül, o qışqırtı bu döyül, bu çərənnəmədi”.

– Əliş, sən nə mısmırığını sallamısan, əə? Pah, kişi olub, içmə deyəcək atasına.

Dəyirmanın qabağında bir maşın da dayandı, bir yoğun adam düşüb, boylandı:

– Bıçağın qannı, dəyirmançı! Hazırdımı mənimki? Deynən təzələsin.

Qapının ağzında dayandı. İçəri bir az da qaranlıqlaşdı. Gümrah, gur səslə:

– Ə, göyçək, harda oturum? – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elə bil Gülünü yelpikləyib yelə verdilər, qımıldandı.

Kababçı əlində şiş oynaya-oynaya gəldi, şişin birini yoğun kişiyə uzatdı. O da başını əydi, dişiylə şişdən bir tikə qopardıb bir anın içində şaqqıldada-şaqqıldada əzdi, əti sümüyə, sümüyü ətə qarışdırdı.

– Mənim yapıncımı sal, göyçək!

Kababçı şişləri gözünün üstünə qaldırdı, yəni "mənim gözüm üstə".

– Yox, dayan. Aşağıda qarnım yığılır, daralıram. Özü də elə bil aşağıda hamı əlimə baxır, yeyəmmirəm. Ə, Allah hər şeyimizi dolu eləyib, bir qarnımızdan başqa. Onu da biz dolduraq da. Açın kəmərləri! Mən iştah dərmanıyam, vətəndaş səmişinlər. Dəyirmançı, gəl bura!

Dəyirmançı dəyirman daşının üstündən qalxıb ona sarı gəldi. Kişi əlini onun çiyninə qoyub dəyirmana bir də göz gəzdirdi. Qızıl oğlanlar baş-başa verdilər:

– Kimdi bu?

– Ticarət şöbəsinin müdiridi. Hər bazar burdadı. Katib-zad işləyib qabaqlar.

– Yaxşı bax, neçə kilo olar?

– Nə təhər?

– Elə belə, gözəyarı, çəkisi nə qədər olar?

– Yüz iyirmi olar.

– Özünnən ağır pulu var.

Dəyirmana gələn kişilər bir-birini beləcə pıçıldaşa-pıçıldaşa tanıyırdılar. "Harda işləyir?", "Pulu varmı?" – vəssalam. Daha ad, ata, baba, nəsil lazım gəlmirdi.

Yoğun kişinin dəyirman dolusu səsi gəldi:

– Sən mənə de görüm, yuxarıdamı otursam çox yeyərəm, aşağıdamı?

Dəyirmançı gülümsədi, qaşqabaqlı adam olduğu üçün gülüşü elə bil üzünü ortadan iki yerə böldü.

– Yuxarıda otursan çox yeyərsən, – dedi, – aşağıda bürüşür, iki qat olur adam.

– Yaşa! Bəs indiyəcən niyə demirsən bunu bizə? Mən də deyirəm gözüm niyə doymur. Göyçək, bir kötük qoy yuxarı başa. Özü də hündür elə ki, ayağım yerə dəyməsin.

Yerdən yoğun kişiyə baxıb sırayla qımışdılar. Bu onların da yadlarına çox şeylər saldı. Elə bil hamını silkələdilər. Kəmərləri açdılar, nəfəslərini dərib, – oof! – elədilər. Hamının iştahı böyüdü. Yuxarı çıxmaq istədilər. Amma yuxarıda yer yox idi, yerlər tutulmuşdu. Kötüklərin üstündə ayaqlarını yellədə-yellədə qabırğa gəmirirdilər. Dəyirmanın bir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

küncündə bir iri kötük vardı ki, onu da gətirib ortaya qoydular, yoğun kişini oturtdular.

Yerdəkilərdən biri ağzındakı tikəni tələm-tələsik udub:

– Adam belə olar eey, – dedi, – gərək hər işi bacarasan. Heç gör bizim yadımıza düşürdümü ki, yuxarıda oturaq, yeyək. Deyirik, sümüyü gəmir, tikəni ud, harda olur-olsun. Ə, biz ki sürünürük diblərdə, yapıncıların üstündə. Yaşa, qardaş, min yaşa!

Dedi, aşağıdan-yuxarı stəkanını qaldırdı:

– İçirəm, sənin sağlığına!

Yerdən əyləşənlərin hamısı əllərini yuxarı qaldırdı:

– Sağ ol, – dedilər, – deyilən sağlığa!

Çaxçax kişinin səsi bu səslərin içindən yağdan tük sıyrılan kimi sıyrılıb çıxdı:

– Eşq olsun sənə, bülbül ol, qəfəsdə olma!

Biri yoğun kişinin "sağlığını" bir nəfəsə başına çəkdi, üzünü dəyirmançıya tutub:

– Ə, sən bizi qırıbsanmış ki, – dedi. – Ay yaradansız, meşə budu, böyründə, kəsib gətirsənə, altımıza qoyaq, biz də adam kimi yeyək.

Yuxarıdakıların dodağı qaçdı, gülümsədilər, aşağıdakılar sırayla gülüşdülər.

Yoğun kişi bir kötüyün üstündə sallama əyləşmişdi, bir iri kötüyün üstündə süfrə açmışdılar. Stəkanını təzədən doldurub yuxarıdan-aşağı uzatdı:

– Mən el adamıyam, nə qədər yuxarı çıxsam da yenə sizinnəyəm.

Arağı başına çəkdi, qabırğa gəmirə-gəmirə yerdəkilərə bir də baxdı, *ağzı sümüklü-sümüklü gülümsədi, sonra elə ağzı sümüklü-sümüklü* fikirləşdi ki, yerdə oturanlara bir az çox üz verdi, səsini dəyişib:

– Amma bir şeyi yadınızda saxlayın. Mənə çata bilməzsiz, çünki siz qalxdıqca mən də qalxacam. Bir də ki, sən öl, elə belə yaxşıdı. Siz orda, mən burda.

Aşağıdakılar yenə gülüb:

– Ye, halalın olsun, – dedilər, başladılar gəmirişməyə. Yenə Çaxçaxın səsi gəldi, üzünü yoğun kişiyə tutub:

– Bura bax, müəllim, – dedi, – bağışla məni, sənin baban kim olub? Bəy olubmu nəslində?

Çaxçaxın sözü yoğun kişini tutdu, yoğun kişi xeyli fikrə getdi:

– O yannarı bilmirəm, mən yetim olmuşam, – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kababçı təzə şişlər gətirdi, söküb süfrələrə tökdü.

Dəyirman başladı şaqqıldatmağa. O bunun iştahını artırdı, bu onun iştahını artırdı, gözləri bir-birində, tələsə-tələsə yedilər.

– Ə, Göyçək, ətin varmı?

– Var, odu ey, bir sürü yenə mələyir bayırda.

Yoğun kişi kababçıya baxdı, tikəsini bir uddu, iki uddu, kötüyün üstündə dikəlib əlini qarnına sürtdü, yoğun yapışıqlı səslə oxudu:

– Quzular burda mələr, Göyçək, Göyçək...

Aşağıda oturanların hamısı əllərini qarınlarına sürtüb xorla oxudular:

Quzular eşikdə yox, burda mələr,
Quzular dışda yox, dildə mələr.
Göyçək bala, göyçək...

Gülü yatıb doymuşdu. Ruhu qayıtmışdı özünə. Ona görə də dünyanın harasındasa dayanmışdı, yer idimi, göy idimi, xəbəri yox idi. Daha dünyanın quyusuna enmirdi. Yuxu görürdü, görürdü ki, bu kənddən o kəndə gedən telefon dirəklərindən birinə çıxıb, yapışıb qalıb, aşağı enə bilmir. Naxır da kəsdirib dirəyin dibini, ağır-ağır gövşəyirlər. Gülü inəklərin hərəsini bir adama oxşadır. Yuxarıdan-aşağı qorxulu-qorxulu qışqırır:

– Ə, ağrınız alım, əllərinizi açın, qucağınıza düşüm.

Amma inəklər endir eləmir, gövşəyə-gövşəyə gülümsəyirdilər...

Yoğun kişi nə fikirləşdisə boylandı:

– Temir müəllim görünmür, – dedi, – hanı? Onsuz yaxşı keçmir, nəsə, tutduramımırıq. Bax, görürsüz ki, yeməyimiz var, içməyimiz var, amma nəsə çatmır. Həə, indi bizə söz lazımdı, söz.

Yalan de, amma qəşəng de, yaraşıqlı de...

Qızıl oğlanlar yenə baş-başa verdilər:

– Bir belə yerin üstündədisə, beş elə də altındadı.

Yoğun kişi bir də belə baxıb gördü ki, Gülü qızıl oğlanların stoluna baş qoyub yatıb. Əlini əlinə vurdu:

– Paho, ə, bu burdaymış ki. Nolub, ə, buna? Sən öl, ölmüşə oxşayır. Ə, qardaş, tərpət onu!

Kababçı özünü yetirdi:

– Tərpətməknən qalxan döyül. Sən, qulağınaca "sədr gəldi" de, bəsidi.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tox adamın nəyi çatmaz – məzəsi. Kababçının da məzəsi qalxdı, şişin birini uzadıb Gülünün başından papağını götürdü, yoğun kişiyə sarı döndü:

– Gəlsənə bu batmışın papağını bişirim?

– Ə, tulla o yana, mıxda qalsın papağı.

Elə bu vaxt Gülü yuxusunda yenə dirəyin başındaydı. Nə təhər oldusa papağı başından düşüb bir inəyin buynuzuna keçdi... Dirəkdən aşağı yer üzünü gülüşmə bürüdü. Sonra bu, gülüşməyə oxşamadı, xırıltı-xırçıltıya oxşadı. Elə bil min-min adam ağzıyla buz sındırırdı.

Kababçı Gülünü silkələdi, camaata göz gəzdirdi. Əlini qaldırdı, yəni, kiriyin. Əyilib Gülünün qulağına pıçıldadı:

– Sədr gəldi, Gülü! Aya, naxır qoruğa dolub!

Gülü dik atılıb sırıqlısını götürdü. Xeyli harda olduğunu kəsdirə bilmədi.

Dəyirman gülürdü. Əvvəl Gülüyə elə gəldi ki, yuxusundakı gülüşmədi. Sonra da dirəyin başından salamat düşdüyünə sevinə-sevinə dəyirmandan çıxıb naxırın ardınca getdi.

"Sədr gəldi, Gülü!" – yəni, səni it kimi qovaram kənddən, sürgün eliyərəm. Naxırı niyə qoruğa doldurmusan, ə, alkaş köpəyoğlu! Bunnanmı mənə əl qaldırırdın? Sən öl, silərəm səni yer üzünnən, bir sürü yetiminə yazığım gəlir".

Amma bu səslərin içində ən aydını arvadının səsiydi. "Getmə dəyirmana, Gülü!"

Bu səslər yağış kimiydi, yağıb Gülünün başından vurub ayağından çıxırdı. Ona görə də Gülü sərinlənə-sərinlənə ayılırdı. Ayıldıqca da özünü görürdü, görürdü ki, var, ayaq üstədi. Səhər evdən çıxanda, qamçısını götürəndə, arvadının səsini eşidəndə də varıydı. Titrəyə-titrəyə dəyirmanın yanından keçdi, hələ varıydı. Bir maşın dayandı, xəbər aldılar, – bişey-mişey varmı? Gülü onda da varıydı. Ondan sonra yox oldu. Ayağının altındakı daşüzlü yollar da yoxuydu, kəndlərdən kəndlərə, ordan da şəhərlərə bükülüb gizlənmiş xəbər kimi, qeybət kimi gedən telefon xətləri də yoxuydu. Gülünün ruhu qalmışdı bircə. Qaçıb özünü dəyirmanın bacasına saldı, ordan da düşdü kötüyün üstə...

Gülü qapının ağzında ayaq saxladı. Kef, məzə, ləzzət içində gördü ki, əyilir. Gülüdə diri qalan, sağlam qalan, yaşayan bircə yıxılmaq qorxusuydu. Nə qədər ki Gülünün bu qorxusu diriydi, Gülü yaşayırdı.

"Yıxılaram, Əlişin başına gülələr, arvadın başına gülələr".

Dəyirmançı Gülünün gözünün qabağında toğlunun birini də kəsdi. Toğlunun gözləri çevrildi, işığı çəkildiyindən bir anın içindəcə suya oxşadı. Gülü dəyirmançıya nəsə demək istədi, dedi də, amma bilmədi nə dedi. Dumanlı-dumanlı gördü ki, dəyirmançı gülür. Özü də gülmək istədi, bilmədi güldümü, gülmədimi?..

Toğlunun qanı ayaqlarının ucundan axıb arxa qarışdı. Qanın rəngində qəribə bir əsəb, kin duyulurdu. Kinlə, əsəblə elə doluydu ki, elə bil süzülüb arxa qarışmasaydı, partdayardı.

Gülü addımını atıb qanı keçdi, arxa düzülmüş addamacın ucunda dayandı. Gülünün qorxusu ayaq üstədi. Bu qorxu rahatca Gülünü addamacdan addatdı. Dəyirmançı ardınca baxırdı:

– Sağ ol vallah, – dedi, – keçdi, kişi kimi.

Dünya şəkil idi. Gülü də bu şəkil dünyanın üstüylə yeriyirdi. Dünyanın belə yırğalanmağı da Gülünün içdiyindən deyildi, şəkil olduğundanıydı.

Çayı keçdi, yolun ortasında dayanıb boylandı ki, görsün naxır hardadı. Təpələrin ətəyində qaraltı gördü, – dedi, yox, naxır döyül, kənddi. Ha istədi ki yaxşı-yaxşı baxsın, gözləri axdı, yığa bilmədi. Hıçqırıb yolun qırağında qaz otaran uşağı səslədi. Uşaq qaça-qaça gəlib:

– Nədi, – dedi, – Gülü əmi?

Gülü bir də hıçqırıb gözlərini yumdu, gözləri sərinlədi, elə bil gözlərini suya batırıb çıxartdılar. Yenə ləzzət, kef içində əyilib düzəldi:

– Bir gör naxır hardadı, bala? Gör, Əliş qardaşın görünürmü?

– Naxır odu ey, Gülü əmi, təpənin ətəyində.

– O kənddi, bala.

– Yox, inəklərdi.

– O boyda inək olmaz. Kimin oğlusan, ə?

– Qara Saşkanın.

– Ay Saşka ölsün, o da dəyirmandadımı?

– Yox, anam qapını bağladı, qoymadı çıxmağa.

Gülü xırıldaya-xırıldaya güldü, sonra qarnını tutdu, bu, gülməkdən deyildi, içindən sancı qalxmışdı. Ağrı Gülünü ayıldıb yavaş-yavaş dünyanı göstərirdi.

– Gör sədr gəlirmi?

– Yox, gəlmir.

Gülü dönüb bayaq naxırın kəndə oxşatdığı qaraltısına doğru getdi. Telefon dirəklərinin altıyla ayıla-ayıla addımlayırdı. Birdən səs eşitdi:

– Aya, eey!



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Gülü dayanıb dörd yanına boylandı, düz-düzənlikdə heç kəsi görmədi. Səs bir də gəldi:

– Aya, ay yer adamı, ay zəhər tuluğu, ay yerə gir! – Gülü üz-gözünü ovuşdurub yenə boylandı, heç kəs yoxuydu.

– Yaxşı, kimsən, çıx görək, – dedi. – Qaz Əhmədin səsinə oxşuyur.

Lap başının üstündən dedilər:

– Qaz Əhməd kimdi, əə? Allahı yadına sal, yuxarı bax!

Gülü başını qaldırdı, işıqçı Vəlini telefon dirəyinin başında gördü, yuxusu yadına düşdü. İşıqçı Vəli ayağına keçirtdiyi dəmir caynaqları dirəyə sancmışdı, belindəki zəncirlə də özünü dirəyə sarıyıb rahatca dayanmışdı. Yuxarıdan aşağı:

– Nə var, nə yox aşağılarda? Hava-zad nə təhərdi?

Gülü:

– Yaxşı araq var, gol araq verim, – dedi, – elə bilirdi, doğrudan da, yanında araq var, – gəl!

– Yox! Ə, bir yerin ki adamı sən olasan, düşmərəm! Havaxt öləcəksən, ə sən, odu ey, naxır.

– Kənd döyülmü o?

İşıqçı Vəli dirəyin başında yırğalana-yırğalana güldü. Başını geri əyib belindəki zəncirdən sallana qaldı:

– Batala qal, ay Gülü, – dedi, – naxırdan da kənd olarmı? Gözlərin də tutulacaq içməkdən.

– Burdan elə görükür, bir düş, bax!

İşıqçı Vəli təzədən şaqqanaq çəkib güldü. Gülü sırıqlısını götürüb ayağa durdu. Sancı içini doğrayıb tökürdü. Başını qaldırıb yuxarı baxdı. İşıqçı Vəli onun arıqlayıb solmuş üzünü, balacalaşmış başını görüb:

– Ay Allah öldürmüş, – dedi, – nə günə salmısan özünü?

– Bir ordan bax, gör sədr görünürmü?

Vəli dirəyin başından dikəlib kəndə sarı boylandı:

– Görünmür, qorxma, kimsəsizlikdi. Səni araq əydi, Gülü, sən əyilməzdin. Mən düz üç gündü içmirəm, elə təmizəm ki.

– Yuxarıdasan, ona görə içmirsən, bir aşağı düş, gör necə içəcəksən.

Vəli yenə güldü:

– Elə bilirsən üç gündü burdayam? Malsan, ə, inəyə dönmüsən, bədbəxt.

Telefon tellərindən səsmi gəldi, nədisə Vəli qulaqlığı qulağına taxdı, bağırdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Alo, yox, yox. Sizə demirəm. Burda bir Gülü var, onunlayam. Gül yox, Gülü, Gülü! Həə! – yuxarıdan aşağı Gülüyə baxdı, – şəhərdəndi, elə bilir ona deyirəm.

Gülü canının ağrılarını çəkə-çəkə naxırın yanına getdi. Getdikcə də içi quruyurdu.

Naxır Gülünü tanıyıb ağzı otlu-otlu baxışdı. Əliş inəklərin döyük-düyünü görüb döndü, baxdı ki, atası gəlir, ona sarı qaçdı. Gülü də Əlişi görüb sınqlısının üstündə oturdu. Canının ağrısından tərləmişdi, alnında puçur-puçur tər vardı. Əliş yaxınlaşıb:

– Mən gedimmi, – dedi, – ata?

"Ata" sözü az qaldı Gülünü ağlatsın. Qarnını qucaqladı:

– Ağrıyıram, Əliş, qarnım cırılır!

Əliş diz çöküb dinməz-söyləməz atasına baxdı.Gülü:

– Kefli döyüləm, – dedi, – atam-anam, qorxma. Belimi ovuşdur.

Bura təpələrin ətəyiydi, bir az aralı dağlar başlayırdı. Yanlarından sızıldaya-sızıldaya balaca bir çay axırdı. O kənddən bu kəndə, bu kənddən o kəndə çalın-çarpaz yollar gedirdi. Amma gəlib-gedəni yoxuydu. Yəqin ki, kimsəsizlikdəniydi, yollarda ağlasığmaz, qəribə bir çığırtı varıydı. Elə bil kimisə çağırırdılar: "Gəl hey, heey!". Elə bu çığırtıyla bir yerdə yollar, təpələr, dağlar aşıb o üzə enirdi...

Gülü "oy, oy" eliyirdi, Əliş balaca əllərini yumruqlayıb atasının belini ovuşdururdu.

– Qaç, çaydan bir daş gəti, qarnıma qoyum, Əliş. Sənin ananın qarğışı tutdu məni. Of, ay ana, ay ana!

Əliş bilmədi atası "ana" kimə deyir. Çünki on bir yaşı vardı, nənəsinin öldüyü də on bir il olardı. Atasının "ay ana, ay ana" deməyi Əlişi kövrəltdi. Əliş də "ay ana, ay ana" deyə-deyə başladı ağlamağa.

Gülü ağrıdan tamam ayılmışdı. Dünya gözlərində apaydın olmuşdu, daha şəkil-zad deyildi. Bu yandan da ağrı qoymurdu ki, otura ləzzətlə baxa dünyaya. "İçmiyəcəm" sözünün qorxusunu duya-duya:

– İçmiyəcəm, – dedi, – ay Allah, bu ağrını kəs, köpəyoğluyam içsəm!

"İçmiyəcəm" sözünün qorxusu, doğrudan da damarları boyu dolaşdı, ağrısı azalan kimi oldu. İçməməyi ağlına sığışdıra bilmədi.

– Of, ay Əliş, içmiyəcəm anamın goru haqqı!

Çaydaşını köynəyinin altından qarnına qoyub qucaqlamışdı.

– Gör dəyirman görünürmü, Əliş? Gör bir adam varmı? Hay elə aparsınnar məni, öldüm!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Heç yanda adam yoxuydu, amma traktor səsi gəldi. Gülü dirçəlib səsə sarı döndü:

– Gör hardan gəlir, qaç qabağına. Naxır qoruğa dolacaq, Əliş! Oyy qarnım. Allah, qələt eləmişəm... Yuxumda quyuya düşürdüm, elə buymuş... Əliş, təpəl oğraşın malı qoruğa gedir, sədri üstümə söylətmə... Ə, gör o traktor kimindi, qaç qabağına. Oyy, burnumnan gəldi hər şey...

Əliş əvvəl bilmədi hara qaçsın, sonra yalamalayıb təpəl inəyi geri qaytardı, atasının yanına qaçdı, ordan da traktorun səsinə sarı götürüldü.

Qarnının ağrısı Gülüyə ot yoldururdu, ağrıdan yan-yörəsinin otunu yolub qurtarmışdı.

– *Haqqıdı mənə, Allah, arvad ahıdı məni tutan. İçməyəcəm səni,* araq!

Arağın adını çəkən kimi Gülünün içi elə bil bir yerə yığışdı. Yəqin elədi ki, araq içsə, ağrısı keçər. Əlişin ardınca bağırdı:

– Araq tap, Əliş, araq tap. Ölürəm, başqa çarəsi yoxdu, araq tap!

* * *

Güllü arvadın çallaşıb, qılçıq bağlayıb bircə qırıq olmuş hörükləri üz-gözünə dağılmışdı. Temirin arvadının hələ də hıçqırtısı gəlirdi. Temir həyətdə taxtanın üstündə oturmuşdu. Başı elə bil dəyirmanıydı. Başında sağlıq deyirdilər, stəkan-stəkana dəyirdi. Cingiltidən qulaqları batmışdı.

Kəndin səs-küyü çox uzaqdan eşidilirdi. Elə kirimişlik idi ki, elə bil yer-yurd suydu, bunların evi də suların üzüynən üzüb kənddən, kəndin səs-küyündən, dəyirmanından uzaqlaşmaqdaydı.

Güllü arvad yuxarıdan-aşağı oğluna baxdı, qurumuş əlləriylə arıq sinəsini taqqıldatdı:

– Sənin uşaqlarına görə yaşayıram, yoxsa elə bu gün ölərəm.

Temir başını aşağı saldı. Uşaqları məhəccərə söykənib qorxa-qorxa boylanırdı. Güllü arvad əllərini göyə qaldırdı:

– Mən nə pislik eləmişəm, ay taxtın dönsün! Bu nəydi başıma gətirdin? Pulunu görmürük, parasını görmürük. Mənə dərddən ötrümü verdin bunu?!

Temir cavab qaytarmaq istəyirdi, amma deməyə söz tapa bilmirdi. İçində sözsüz bir acıq dolaşırdı. Söz tapıb deyə bilmədiyindən kövrəldi. Əvvəl burnunun ucu göynədi, sonra bu göynərti bütün canını gəzdi, – ahh, – eləyib ayağa durdu. Gülünün arvadının bayaqkı səsi hələ də Temirin başındaydı: "Əliş, atan ölmüş yenə dəyirmana girdi". Ona görə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

də Temirin huşu dəyirmandaydı. Yapıncıların, kötüklərin üstündə oturan qaraltıları görürdü. Görürdü ki, Gülü stəkanı başına çəkib üz-gözünü turşudur.

– Bəsdi, ay arvad, bəsdi! Hə, kor olsun o Allahı ki, məni verdi sizə! Tüpürüm üzünə, saqqalına tüpürüm! Vermiyəydi heç, pah!

Güllü arvad taqqıltıyla diz çökdü:

– Əstəxfürullah de, köpəyoğlu! Allaha bax, əstəxfürullah de! – Əllərini qaldırıb göz yaşı içində yalvardı, – üzü qarayam, ay Tanrı! Neynim, qarnımnan qada çıxıb. Namazını qılmadım, avdasını eləmədim. Ağzım əyilsin, ayıblı olum.

Anasının quruyub taxtaya dönmüş qolları Temirə olduğundan çox-çox uzun göründü. Birdən-birə Allahın qorxusu ürəyini bürüdü, əti ürpəşdi, tükləri biz-biz oldu, sakitcə:

– Əstəxfürullah, əstəxfürullah! – dedi.

Güllü arvad əllərini boşaldıb dizlərinin üstünə qoydu, üzüaşağı iri-iri göz yaşı axdı:

– İman qazanırsan mənə, iman yiyəsi eliyəcəksən ananı, bəxtəvər olacam!

Temir gülümsədi, neçə il idi belə kövrələ-kövrələ gülümsəməmişdi. Anasına sarı getdi, çöküb anasını qucaqladı, burnuna torpaq iyi gəldi, istədi saçlarından öpsün, Güllü arvad çırpındı:

– Ağzını vurma üzümə!

Yanındakı dolçanı götürdü, əlini suya vurub birçəklərinə çəkdi, sonra başını əydi, hörükləri dolçaya sallandı.

– Kəsəcəm, – dedi, – bir də içsən kəsəcəm hörüyümü. Başıaçıq kənd-kənd gəzib alaşalvar eliyəcəm səni. Beləcə, oturub yolunu gözləyəcəm, gedirsən, get.

Temir uşaqlarına baxdı. Oğlunun ikisi də doluxsunmuş, məhəccərdən yapışıb dayanmışdılar. Böyüyü nə vaxtsa ağlamışdı, göz yaşı iz salıb üzündə qurumuşdu. Temir əvvəl kövrəldi, sonra bu kövrəklik birdən-birə acığa, hirsə döndü:

– Burnunu çəkmə, ə, – dedi, – arvad yosunnu! Boyuna bax bir bunun. Nolub, yas qurubsuz, ölmüşəmmi, ə? Bütün dünya içir, bir məndəmi göründü? Pah, yetim əlində qoğal!..

Temir əslində bu sözləri anasına deyirdi, dedikcə də rahatlanırdı:

– Saçını kəsəcək. Kəs! Yox, Temir oğurluq eləyir, adam öldürüb Temir, qana batıb, kef olmaz. Yeyib-içmək haramdı Temirə, – deyə-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

deyə qapıdan çıxdı. Əvvəl heç nə fikirləşə bilmədi, o vaxt ayıldı ki, dəyirmana az qalıb.

Telli qarı çayın qırağındaydı, suyun qanı çəkilmişdi. Bir dəstə paltarı suya salıb hirsli-hirsli daşa çırpırdı. Temiri görən kimi paltarı tulladı, əllərini qoşalayıb küllədi:

– Ala eyy! Yüyür, yüyür, payın ocaq başında qalıb. Küllər başına, a belə oğul! Bir anasını saxlaya bilmir, qurudub taxtalara yapışdırıb. Tfu üzünə!

Temir dayandı, istədi bir söz desin. Gördü ki, anası saçlarını dolçaya salıb gözləyir. Dinməz-söyləməz dönüb getdi. Gülünün arvadı yolun qırağında oturmuşdu. Temiri görən kimi gülümsədi. Amma elə gülümsədi ki, elə bil bayaqkı ağlamağının ardını ağlayırdı. Temir də gülümsədi, gendən-genə:

– Nolub, aaz, – dedi, – ərini oğurlayacaqlarmı, nədi, kəsdiribsən yolun ağzını?

– Çıxdaş olun ərlikdən. Bir sən ərsən, bir də o. Bəxtəvərmişik, xəbərimiz yoxmuş.

– Bura bax, içməyi-zadı söz eləmiyin, bunnarın hamısı sözdü, gözünüz doymaz sizin.

– Bir bunun dilinə bax, aaz. Belinə çöpdən dirək. Bir sənin arvadıyın gözü doymayıb, bir də mənim. Hə, maşallah de, göz dəyər, geyindirib-keçindirmisiz, biz də başqaları kimi rayonlar gəzmişik. Bizim kimilərin bəxti olmaz. Sizə eləsi lazımıydı, bax, – dedi, başıyla Sarı Qasımın evini göstərdi. Pəri pilləkənləri enib hikkəli-hikkəli ona tərəf gəldi:

– Ey, ortalıqda qalan, dilini qarnına qoy, evini başına yıxaram. Bu iylənmişə bax bir, gör könlünnən nələr keçir. Kim yaxın durar sənə, ay iylənmiş? Belə əlimin içinnən gəlir. Yoxsa gözün dalımca qalıb? Nahaq yerə, it də tüpürməz sənə, arxayın ol! Əyninə tuman tapa bilmir, könlünnən keçənə bax!

Temir ayaqlarını sürüyə-sürüyə aralanmağa çalışırdı. "Kəsəcəm saçımı, başıaçıq kənd-kənd gəzib alaşalvar eliyəcəm səni".

Birdən-birə anası başıaçıq, saçları kəsik gözünün qabağına gəldi. Gördü arvad dəliyə oxşayır, əti ürpəşdi. Ayaq saxladı. Gülünün arvadı qucağındakı uşağı başına qaldırıb Pərinin üstünə gedirdi, uşaq göm-göy göyərib qulun kimi qışqırırdı:

– Başına çırparam! Xoşu... Oğru ol, qəhbə ol, dilin olsun, buna deyiblər. Mənə lazım döyül, get, gözünə təp, bəlkə doya gözün! Ərin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

o döyülmü, onamı ər deyirsən? Elə ərim olsa, ağı içərəm. Bir arvadın adını kişi qoyub, ərə gedib. Mən arvadlığımla sənin başını kəsərdim. Amma o, tərəziyə qoyub satır səni. Get yaşa, sənin olsun elə yaşamaq!

Sarı Qasım qapıdan güllə kimi çıxdı, həyətdən bir ağac götürüb yüyürdü. Temir də burdan yüyürdü, Sarı Qasımın qarşısını kəsdi:

– Qayıt, Sarı!

– Çəkil, sənə qalmayıb!

– Qayıt deyirəm, kişilənmə!

Pərinin səsi kəndi başına götürmüşdü, artıq nə dediyi anlaşılmırdı. Boğula-boğula əlini yambızına döyürdü:

– Yan-yaxıl, a, armud qurusu, paxıllığınnan öləcəksən. Öl, yaxşı eliyirəm. Sənin kimiyəmmi, göbələk bitib üstündə. Hıx, çatda, öl! Budu eeyy, burdan gəlib, burdan çıxır!

Temir Gülünün arvadını dilə tutub evə gətirdi. Sarı Qasımın da, arvadının da qara-qışqırığına fikir verməyib aralandı... Arxadan Sarı Qasımın səsini eşitdi.

– Bir bu tulaya bax! Adam qabağı kəsir. Boğazotu köpəyoğlu. Sən get stəkan dibi yala!

Temir döndü, onun belə dönməyi çox şeylər dedi Sarı Qasıma. Temir hirsli-hirsli ona tərəf yeridi:

– Nə dedin, ə, qurumsaq? Bir də de görüm! Sən öl, arvadıyın yanında şalvarını çıxardaram.

Sarı Qasım arvadının qolundan tutub evə tərəf çəkdi:

– Belə gəl, aaz! Qudurub o, onu qovdurum məktəbdən, Gülünün gününə saldırım, o da baxsın!

– Onu sən bacarmazsan, Sarı, yanındakını göndər, o bacarar. İndi get, gir evə, qapını da bağla, Sarı düdük. İçmək də kişi peşəsidi, sənin işin döyül.

Amma tez də ürəyindən keçdi ki, yaxşı ki, içməmişəm, içmiş olsaydım, Sarı Qasım gözümü çıxartmışdı indi.

Temir elə bil bu vaxta kimi suyun altda yaşayırdı. Bütün kənd də elə bil suyun altındaydı. Heç kəsin səsi eşidilmirdi. Kənd dolusu ağız kənd dolusu şeylər deyirdi. Amma heç nə aydın deyildi. Hər şey suya qarışıb axıb gedirdi. Hər şey sudan görünürmüş kimi görünürdü.

Kəndin adamları – Gülü, dəyirmançı, kababçı, məktəb uşaqları, Sarı Qasım, arvadı Pəri, bütün kənd başdan-ayağa olduğundan böyük görünürdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər şey, daşlıqda daş, otluqda ot, taxtalıqda taxta, evlər, quşlar, insanlar suyun altda qaldığından şişmiş kimiydi.

Doğrudan da beləydimi? Bu haqda fikirləşməyə Temirin vaxtı yox idi. Gecə dəyirman bağlanandan sonra qayıdırdı. Anası dizlərinə döyə-döyə nəsə deyirdi, arvadı üzünü döndərib başını aşağı salırdı, çiyinləricə tərpənirdi. Uşaqlarının gözləri olduğundan çox-çox iri görünürdü, ağızları əyilirdi, yəqin ki, ağlayırdılar.

– Ağlamayın, it uşağı! Bu dünyada bircə sizə gücüm çatır, doğruyaram ikinizi də. Ağlamaqdan şişib küçüklər.

Deyinə-deyinə keçib yerinə uzanırdı. Həmişə də ayağı yerə gəlmirdi. Ayağı başından hündür, yataqda yırğalanırdı:

– Bir yastıq yenə qoy başımın altına, həyasız. Dilini kəsərəm səsini çıxartsan!

Amma iki yastıq da fərq eləmirdi. Qalxıb dik otururdu, yenə ayağı başından hündür olurdu.

– Başım aşağıdı, başımı qaldırammıram.

Böyük oğlunu çağırırdı:

– Gəl ayağımın üstündə otur, ə, ayağım qalxır.

Neçə iliydi atası bu kökdə gəlirdi, yerinə uzanırdı, o da qorxa-qorxa otururdu atasının ayağının üstündə, titrəyə-titrəyə gözləyirdi.

Temir də elə bil yuxuya getmirdi, can verirdi. Elə bil yuxu deyilən şey Temirin nəfəsiydi, çəkib nəfəsini çıxardırdılar, cəsədini də atıb gedirdilər. Ayılan kimi bir onu fikirləşirdi ki, indi nəynən içəcəm, kim olacaq, kimi tapacam dəyirmanda. Səhər açılan kimi özünü salırdı dəyirmana:

– Yüzcə qram, qadan alım, çıxart, yaz dəftərinə. Qurban olum, istiyirsən, bütöv elə. Qalanını saxla, dərsə gedirəm, indicə gəlirəm. Nə var, ə, düdük? Bura gələnin çoxu mənnən ötrü gəlir. Bu boyda oyun çıxardıram, düşmürmü mənə?!

– Tək ona görə verirəm, sən öl.

Gün günortadan əyilmişdi, amma Temir hələ içməmişdi. Elə bil içi yanmışdı, indi küllə doluydu içi. İçində qəribə sərinlik, quruluq vardı. Gözləri dağ dəlirdi, qulağı darı dənləyirdi. "Nə qırğınmış, ə, kənddə. Dindirmək olmur heç kəsi. Başın batsın Gülü, elə arvad saxlayallar?"

Öz arvadını yadına salmağa çalışdı, xatırlaya bilmədi, nişanlı vaxtları yadına düşdü. Arvadının o vaxtkı gözəl üzü, yumşaq, nazlı əlləri ruhunu ovuşdurdu. Birdən-birəcə dirilib canlandı, içi təzədən közərməyə başladı. İçi yenə dilənçi ovcu kimi dəyirmana sarı açıldı: "Araq ver,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qurban olum, istiyirsən gülüm. Gələnin çoxu mənnən ötrü gəlir bura, düşür mənə vallah, halal elə. Amma bu uşaqları qov, qadan alım, ə, bu qırılmışa dərs deyirəm, ayıbdı. Gedin dərsinizi oxuyun, canınızı alacam sabah!"

Temirin ürəyi son nəfəs kimi çırpınırdı. Ürəyinin səsi qulaqlarına düşdü, başı boyda səs beynini döyəclədi. Bütün aydınlığıyla gördüyü dünya birdən-birəcə yox oldu. Elə bil bütün kənd də Temirin ürəyi kimi çırpına-çırpına sonuncu nəfəsini yaşayırdı: "Bax, bax, yetişmişəm, çatıram. Bu, bu, bu sonuncu... indi, indi, indicə..."

– Oho, paho! Bə, belə şey olarmı, müəllim, gəl çıx da?

– Ay gəlib çıxmasın bunu. Gözümüz yolda qalıb səhərdən.

– Harda küllənirsən, yoldaş müəllim? İki ikiyə bərabərdimi, sən canın, həncəri deyirdin?

– Müəllim, bura gəl.

– Yox, mən ölüm bizim stola!

– Bu gün müəllim mənnən oturacaq!

Yoğun kişi təntənəylə enib Temirə sarı gəldi:

– Müəllim, de görüm, yuxarıda oturandamı çox yemək olar, aşağıda oturandamı?

Dəyirmanın araqlı havası Temiri ayıltmışdı, ürəyi yerinə düşmüşdü, qulaqları açılmışdı, başı soyumuşdu, başına elə bil ayaz dolurdu. Aşağıda oturanlar altdan-yuxarı gözlərini Temirə dikib maraq içində gözləyirdilər. Temir gülümsədi, yoğun kişinin oturduğu yerə baxdı:

– Yuxarıda çox yemək olar, – dedi.

Yoğun kişi Temiri bağrına basdı:

– Ə, məni istiyən, müəllimə araq! – çəkib yanında əyləşdirdi, – bir burdan aşağı bax, mən ölüm, necə görükür? Yemək olarmı orda? Ə, insanın nə qarnı var ki, çox ola, bir ovuc. Aşağıda oturursan, bürüşürsən, qarınmı qalar adamda? Başını dikirsən yerə, yeyirsən, durursan ayağa, vəssalam. Elə bilirsən başqasının qarnıdı. Qus indi. Düzdümü? Yox, bir de, görüm elədimi?

– Elədi!

Anasının böyüyüb iriləşmiş, ağlamaqdanmı, peşmançılıqdanmı bomboş boşalmış gözləri gözlərinə dikilmişdi. "Kəsəcəm saçlarımı..."

Yoğun kişi yoğun, kobud səsiylə qışqırdı, sonra da bərkdən güldü:

– Ə, yuxarı yaxşıdı, çıx yuxarı, otur kötüyün üstündə. Aşağı bax, xırda-xırda yeyənnəri görəcəksən, iştahan açılacaq. Tök arağı, işlət dəyirmanını. Sağ ol, müəllim. Yaxşı oğlansan, doğrudan da məəllimsən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yer-yerdən stəkanlar uzandı, Temir müəllimin stoluna beş-altı stəkan düzüldü.

Yoğun kişi:

– Bunnarın hamısı cərimədi, – dedi. – Hamısını bircə-bircə iç, gəl çat bizə.

– Özüm də cəriməyəm elə.

Yoğun kişi əvvəl aşağıdakılara baxdı, sonra yuxarıdakılara:

– Bir təhərdi, ə, bu, – dedi, – nolub buna? İç, məəllim, iç, özünə gəl, puldan da qorxma.

Temir başını buladı:

– Yox.

Dəyirmanı gülüşmə bürüdü, əvvəl yuxarıda oturanlar güldü, sonra aşağıda oturanlar. Daha çox hamı bir-birini güldürürdü, yəni bu görürdü ki, o lap ürəkdən gülür, bu da ürəkdən gülürdü. Ona görə də bu heç nədən başlayan gülüşmə xeyli uzandı.

– Ə, iç, dolama bizi.

– Yox, anam...

– Anaan? Ölübmü, əə?

Dəyirmanı yenə gülüşmə bürüdü. Kababçı irişə-irişə yaxınlaşdı:

– Doğrudan ölüb?

Temir altdan-yuxarı onun tərləyib yağlanmış qırmızı üzünə baxdı. Kababçının üzü şapalaqdan ötrü yanırdı. Gülümsədi, sakitcə:

– Yox, – dedi.

– Bə nolub, ə? Yoxsa qovullar səni məktəbdən? Axırı qovacaydılar daa.

– Yox, o da döyül.

Yoğun kişi stəkanı götürüb Temirə sarı uzatdı:

– İç, yaxşı, soyutma.

– Anam deyib içsən, saçımı kəsəcəm.

Təzədən gülüşdülər. Yoğun kişi kötüyün üstündə uğunub getdi. Sonra öskürək tutdu, öskürdü, lap boğulası oldu. Hərə bir yandan qalxıb kürəyini yumruqladılar, su içirtdilər, handan-hana özünə gəldi.

– Sənin anana nə deyim, ölmüşdüm, ə. Kəsir, qoy kəssin. Saçlı arvad var indi? Pudradan, kraskadan da al, deynən kəs! Saç heç, boş şeydi, mən də deyirəm nolub.

Temir dəyirmana uyuşa bilmirdi, daha doğrusu, dəniydi, üyünəmmirdi. Üyünmək üçün gərək qarşısına düzülmüş stəkanları bircə-bircə içəydi. İçib oynayaydı, aspirant olduğu vaxtlardan danışaydı. Nyutonun



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qanunlarını bəzəyə-bəzəyə danışaydı. Ayatı gətirib mahnılar oxudaydı. Bir üçlük çıxardıb Ayatın alnına yapışdıraydı, deyəydi məni istiyən, Ayata şabaş!

Birdən-birə anladı ki, içməyəcək, arağa ki bu qədər yaxındı, əlini uzatsa ki götürə bilər, yenə içməyəcək. Yoğun kişinin, Sarı Qasımın, dəyirmanın, dəyirmandakıların acığına, pullu adamların pullarının acığına, ən çox da anasının saçlarının xətrinə içməyəcək.

Kababçı:

– Ə, yetim, iç, – dedi, – görmədiyin günə düşübsən. İç, qorxma, kəsməz.

– Yox, mən anamı tanıyıram, kişi kimi, dedi, eliyəcək. Atamı da onun kişiliyi öldürdü.

– Bilirsən, atası necə içəniydi? Allaha ağır getməsin, içməkdən butulkaya oxşayırdı.

– Kəs səsini, Göyçək...

Yoğun kişi arağın birini qabağına çəkdi:

– Yaxşı, indi neyniyəcəksən, bizə də haram elədin.

Temirin üzündə yumşaq, doğma, ayıq bir gülüş dolaşırdı. İstədi desin ki, bilirsizmi, kənddə nə qırğın var, arvadlarınız küçələrdədi, yolun qırağındaca oturub gözləyirlər. Cavanlar yoxdu, qocalar da lənət oxuyur hamımıza.

Yoğun kişi ayağa durdu, stəkanı başından yuxarı qaldırdı:

– Vətəndaş səmişinlər, yoldaş gedərgilər, bunnan sonra sağlıqlar kəsilir, müəllim sağlıq deyir. Burda, sizin yanınızda söz verirəm, əgər müəllim içməsə sizin hamınıza bir yerdə on dəfə qonaqlıq verəcəm. Amma elə hesab eləməyin ki, içib deyirəm.

Yoğun kişi bunu dedi, bir-birinə oxşayan qızıl oğlanlara baxdı, onları yaxşı tanımadığı üçün bir az nigaran idi. Fikirləşdi ki, artıq-əskik bir şey eləməmişəm ki? Bir anın içindəcə qat-qat yığdığı, bacısının, xalasının evində saxladığı pullar yadına düşdü, xəyalında əlini pulların üstünə qoydu. Bir-birinə oxşar oğlanlara baxıb gülümsədi:

– Etirazınız yoxdu ki?

Qızıl oğlanlar da gülümsədi, qızıl dişləri elə cərgəylə, elə iştahla, elə açıq ürəklə parıldadı ki, yoğun kişinin ürəyi yerinə düşdü, öz-özünə:

"– Bizlərdəndilər, əşi, – dedi, – alandılar, özü də yekəsindən. Belələrini mən iki kilometrdən tanıyıram". Temirə sarı döndü: – Danışdıq, – dedi, – söz səndindi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Temir stəkanı götürüb ayağa durdu, bir xeyli gözlərini stəkana zillədi, az qaldı hər şeyə tüpürsün, çəksin başına. Bunu duya-duya oturanlara göz gəzdirdi:

– Bilirsiz də, dünənə kimi mən də içirdim.

– Aydındı.

– İndi içməmişəm, elə bilirəm sizi birinci kərədi görürəm. Tək sizi yox, elə kəndi də. Bayaq keçirəm evlərin arasınnan, uşaqlarınızı, arvad...

– Mən ölüm, Pərini də gördünmü?

Elə bununla da ara qarışdı, üç-üç, beş-beş bölünüb başladılar danışmağa. Qızıl oğlanlar əvvəl bir-birindən soruşdular ki, Pəri kimdi, – sonra qonşu kötükdən soruşdular ki, – bağışla, qaqaş, kimdi ki, Pəri?

Qaqaş deyilən utancaq-utancaq gülümsədi, yalan-gerçək özünü elə göstərdi ki, guya balaca vaxtından Pəriylə aşıq-aşıq oynayır.

– Bizdə bir Sarı Qasım var, onun arvadıdı, – dedi.

– Nə təhər şeydi ki?

Qaqaş kötüyün yanından baş barmağını göstərdi. Qızıl oğlanlar əməlli-başlı canlandılar, stəkanlarını toqquşdurdular. Sonra da qayıdıb Qaqaşın stəkanına vurdular:

– İçək, – dedilər, – Pərinin sağlığına!

Oğlanlardan biri stəkanını başına çəkib üz-gözünü turşuda-turşuda soruşdu:

– O Sarı Qasım deyirsən, nə deyirsən, durmur bəyəm, ölüb?

Qaqaş əyilə-əyilə güldü:

– Yox, Pəri bir az gəzəyəndi.

– Yaman gülürsən, sənin də deyəsən torbanda pişik var.

Qaqaş yenə əyilə-əyilə güldü. Bir-birinə oxşar oğlanların üçü də birdən:

– Başa düşdük, – dedilər.

Əslində çox şeyləri başa düşə bilmirdilər. Necə yəni gəzəyəndi?

– Bir başını bəri tut. Elə açıq-açığına gəzir?

– Lap elə də döyül, amma adamına baxır da. Sarı Qasım bir az arvad xasiyyətdi.

– Bura bax, sədmən...nə bilim, böyükləmən? Başa düşürsən dəə, hı?

– Mən heç nə bilmirəm, vallah.

– Noldu, nə tez?

Qaqaş da susdu, qızıl oğlanlar da. Xeyli dinməz-söyləməz yedilər, biri dumanlı-dumanlı boylandı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Pərinin sağlığı tutdu məni, – dedi, – keflləndim. Sonra Qaqaşa sarı dönüb barmağıyla yaxına çağırdı: – Sən onu bizə düzəldə bilərsənmi? Sənin də xərcini verərik. Lap istəyirsən, indi verim.

Qaqaş başını aşağı saldı, amma bilmək olmadı ki, acığımı tutdu, Pərinin namusunu qoruyub, kəndin təəssübünü çəkir, yoxsa razıdırmı...

– Hə, fikirləş, hələ burdayıq.

Yerdə oturanlardan biri gur səsnən soruşdu:

– Məllim, Sarı Qasımı da gördünmü?

– Gördüm, amma Sarı Qasım sizin arvadlarınızın hamısını...

Gülüşmə Temirin sözünü yarıda kəsdi.

– Yaman dedin, məllim.

– Sağ ol, Qasım!

– Olar, olar, özgəsinəərişdə kəsər o.

– Məllim, kimnən başlayıb, sən canın?

Bir səs-küy vardı ki, birdən-birə su gələydi, dəyirmandaşı başlayaydı işləməyə, yenə bu hay-küyün içində yalan olardı. Hamı dişində sümük tutmuşdu, danışa-danışa, bağırışa-bağırışa gəmirişirdilər. Heç kəsin sözü bütöv deyildi. Cümlənin yarısını deyib, yarısını sümüklə bir yerdə gəmirirdilər. Yemişdilər, içmişdilər, toxuydular. Nə ev yaddaydı, nə eşik. Çoxu çəkinə-çəkinə, istəmiyə-istəmiyə gəlmişdi. Dəyirmana girəndə ciblərindəki iyirmi-otuz manat balığa dönmüşdü, əllərinə gəlmirdi, çabalayırdı: "Əşi, bu gün də oturum, bir müddət ara verərəm". Yeyib-içib ağırlaşmışdılar. Ağırlaşıb hərə öz yerini tutmuşdu. Dəyirmana təzə gələndə balıq olub çabalayan pulları ciblərindən çıxmamış boğulmuşdu, ölü balıq idi. "Əşi, rəhmətliyin oğlu, çox ev-ev deyib çürütmə özünü, arvad da özünə, uşaq da özünə. Biz də uşaq olmuşuq, nə xeyrimiz var atamıza-anamıza?". Bayaq elə bil tikan üstündəydilər, indi elə bil hərə özünə bir şah idi, qızıl taxtda oturmuşdular.

Dəyirmanın bacası tüstülənirdi, kabab iyi kəndi başına götürmüşdü. Bir vaxtlar un tozu qalxardı. Amma əslində elə bir fərqi yoxdu, o da vardövlətdi, bu da. Dəyirman o vaxt da ac qarınlar doyurardı, indi də ac qarınlar doyururdu.

Gülü neynəsin? Temir neynəsin? Gördülər ki, dəyirmanın qabağında maşınlar dayandı, kişilər düşdü ki, işdahları özlərindən böyük, başlarında da toy havası, oynamağa girən kimi girdilər dəyirmana. Yemək, içmək, saz səsi, qız səsi, qəhqəhələr... Gülü neynəsin? Temir neynəsin? Hərə özünə bir kişidi. Niyə o yesin, mən qalım? Pulları olanda da "var" dedilər, olmayanda da. Axırda da belə. – "Mən anamı tanıyıram, atamı da



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

onun kişiliyi öldürdü...butulkaya oxşuyurdu...Arvadsifət köpəyoğlu, dediyi sözə bax".

Yoğun kişi dəm havasına nə fikirləşdi, nə fikirləşmədi, ayağa durdu, Temirin çiynindən basdı:

– Aşağı otur, ə, bir kəlmə sözü danışammırsan ki...

– Sən iç müəllim, doğru sözümdü. Pulun yoxdusa, pul verim.

– Mən dediyimi başa düşmədiz. Elə demirəm, arvadlarınızı döyəcək deyirəm Sarı Qasım. Bayaq gələndə Gülünün...

– Otur-otur, içməsən bircə belə də ləzzətin yoxdu, – dedi, – dırnağının ucunu göstərdi.

Temir indi hiss elədi ki, yoğun kişi keflənib, bayaq pis deyildi, amma dırnağının ucunu göstərəndə əlini çox gendən gətirdi, səndələyib kötükdən tutdu:

– Mən pullu adamam, – dedi, – nədən pulluyam, niyə pulluyam, bunun dəxli yoxdu, son qəpiyinə kimi özümə halal eliyirəm. Çünki mən yetim olmuşam, çox əziyyətlər çəkmişəm. Mən hökumətimə pis deyəmmərəm, ağzım əyilər. Hökumət məni oxutdu, adam elədi. Sən gülübeləmə, çoban. Həftədə azı üç kərə mən bu dəyirmana yeməyə gəlirəm. Ona görə ki, burda rahat yeyirəm, görənim azdı. Sizin sədr də o tərəflərə gedir yeməyə, çünki onu da orda tanımıllar. Pah, yedik dünyanı, sizə qalmadı. Bunu da kim eliyib, siz? Siz adam döyülsüz, mərdimazarsız. Yaxşı tanıyıram sizi. Bu boyda matıryal yazmısız əlimnən. Siz direktorunuzdan yazmısız, mənimkilər də mənnən. Bir bezin qırağısız hamınız. Çobana bax, adı çobandı onun, demaqoqdu.

Çoban ağır-ağır yerindən qalxdı. Kababçı özünü yetirdi, çobanın qolundan tutub yalvardı:

– Mən ölüm, fikir vermə, dava salma sən allah. Bizdən də yazıblar, bağlamağa bir şey axtarırlar. Qurban olum, otu. Sən öl, pulun yarısını almayacam.

Çoban dodaqlarının altında nəsə deyib oturdu. Kababçı özünü yoğun kişinin üstünə saldı. Boynundan qucaqlayıb elə ürəkdən güldü ki, bir anın içində hamı ayılan kimi oldu. Yoğun kişini kötüyə sarı çəkib oturtdu, qızıl dişləri kabab közü kimi işıldadı:

– Beş dənə ürək keçirtmişəm, – dedi, – şişə, ancaq sizdən ötrü. Əyləşin, əyləşin, indicə gətirirəm.

Yoğun kişi gözləri axa-axa közün üstündə buğlanmaqda olan kababa baxdı:

– Qabırğa ver, – dedi, – sümüyün də yeyəcəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kababçı qaça-qaça bir şiş qabırğa kababı gətirdi. Yoğun kişi kababın birini dişinə çəkdi. Sonra da xırtaxırtnan sümüyü çeynəyib uddu. Aşağılı-yuxarılı oturanlara göz gəzdirib:

– Bu da mənim dişim, – dedi. – Ə, mənim nəyim varsa dişimnən, dırnağımnan düzəltmişəm. Qorxa-qorxa, gizlənə-gizlənə qazanmışam. Qoyun rahat çörəyimi yeyim. Mənim pullarımnan arvadımın da xəbəri yoxdu, oğlumun da.

Kababçı başını bulaya-bulaya gəldi:

– Bu gün çox içdi bu, yadımnan çıxdı, fikir vermədim.

Temir dinməz-söyləməz oturmuşdu, daha araq-zad da istəmirdi. Amma kirimişcə onun-bunun üzünə baxa-baxa gözləyirdi, nəyi gözləyirdi, özü də bilmirdi. Temirin belə başlayıb belə də qurtarmaqda olan gününün bir sonluğu olmalıydı. Dörd ildə bütün günlərinin sonu araqla qurtarırdı. Məktəb direktorunun danlaqları, uşaqlarının, arvadının göz yaşları, anasının Allahnan davası, sonra kənd, kəndin adamları su altda qalırmış kimi arağın altda qalırdı. Nə məktəb direktorunun danlaqları çatırdı Temirə, nə arvadının göz yaşları, nə uşaqların, nə də anasının Allahla davası. Temirin içində böyük, geniş, amma qurumuş, sıxılmış, çat-çat olmuş bir azadlıq yaranmışdı birdən-birə. "Murdar köpəyoğlu, yekəqarın donuz. "Yetiməm". Hə, yetimsən. Yetimin qarnı doyar, gözü doymaz. Atan olsaydı da yetimiydin. Bağrım çatdasa da içmiyəcəm. Sənnən istəkan-istəkana vursam, bir köpəyoğlu da mən olum".

– Hə, neyniyək, məllim? Sənə noldu, ə? Özgə vaxt dilini bir qarış qırağa çıxardırdın, qalx, Ayatı çağır oxut, mən deyəndə ağlıyır. Yoxsa bu, buralara dava salacaq. Qalx, səhər yenə gələcəksən, gözünə tutmağa zəy də verməram, bax.

Yoğun kişi dəyirmandaşına dönmüşdü, yerindəcə fır-fır fırlanırdı. Kababçı onun qolundan tutub:

– Gedək eşiyə, – dedi, – havamızı dəyişək.

– Hava-zad yoxdu, araq ver, sümük gəti, qaytar mənim pullarımı. İt kimi qovacam hamınızı!

Kababçı qapının ağzına sarı getdi:

– Ayat, gəl bura, tez ol!

Ayatın yanında ikicə toğlu qalmışdı. Mələyə-mələyə Ayatın başına dolanırdılar. On səkkiz toğlunun çəhlimini axtarırdılar ki, dallarınca getsinlər. Necə oldu axı on səkkiz toğlu? Yerəmi girdi, göyəmi çıxdı, sumu oldu axdı, quşmu oldu uçdu, dənmi oldu üyündü, necə oldu axı? Ara-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vermədən mələyirdilər, necə oldu axı? Kabab iyi gəlir dünyadan, ət iyi gəlir, bağırsaqlar tökülür, sümüklər əzilib çeynənir, qabırğalar gəmirilir, amma toğlular yoxdu.

– Oxumağa çağırırsan?

– Gəl, başına dönüm!

– İstəmirəm.

– Gəl, dedim, döydürmə özünü!

– İkisi qalıb, onu da kəsim, sonra. Dalımca gələcəklər.

– Sən gəl, yekə-yekə danışma, işin yoxdu sənin.

Ayat ayaqlarını yerə döyüb ağladı, dönüb yollara baxdı. Hardansa traktor səsi gəlirdi.

Qapının ağzında dayanıb Temirə baxdı. Məəttəl qaldı ki, Temir niyə yerindən qalxıb oynaya-oynaya ona tərəf gəlmədi, qucağına götürüb gözünün yaşını silmədi. "Arım, balım, pətəyim" oxu, atam-anam, deyib papağının altına bir üçlük keçirtmədi.

Ayat qapının ağzında durdu, durdu, başladı içini çəkməyə. Hıçqıra-hıçqıra, – oxumuram, – dedi, – gedirəm toğluların yanına.

Ayatın göz yaşları Temiri yandırıb yaxdı, başını stola sarı əyib arağın iyini canına çəkdi.

Ayat ağlayırdı, dəyirmandakılar gülürdü.

– Ə, bu niyə belə eləyir, Göyçək? Anasınnan ötrü eliyir yəqin. Anan hardadı, a bala?

Kababçı irəli yeriyib Ayatın qulağından yapışdı, çəkə-çəkə ortalığa gətirdi:

– Qancığın qarnından çıxan, elə bil söz deyilmir buna!

Yoğun kişi hay-küyə başını qaldırdı, düz Temirin gözlərinin içinə baxdı:

– Qalx, get, uşağın yanında dur, oxu!

Temirin deməyə bir kəlmə sözü yox idi, əlləri əsə-əsə araq stəkanından yapışmışdı.

Kababçı diz çökdü, Ayatın gözünün yaşını silib üzündən öpdü:

– Oxu, atam-anam, – dedi, – oxumasan dəyirmanı alallar əlimizdən, pulumuz olmaz. Sən də daha balaca döyülsən ki, sən də yekə kişisən, oxu, ağrın alım, oxu. "Bir dost bulamadım"... onu oxu!

Ayat əllərinin arxasıyla gözünün yaşını bir də sildi, özünü düzəldib, boğazını uzatdı, xırıltılı, sınıq bir səslə oxudu:

– Bir dost bulamadım, gün axşam oldu...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elə bu vaxt toğlunun ikisi də dəli kimi mələyə-mələyə özünü dəyirmana saldı. Qızıl oğlanlar bayaqdan Pərini, Sarı Qasımı soruşa-soruşa Qaqaşla məzələnirdilər. Toğluları görən kimi biri yerindən qalxıb əl çaldı:

– Göyçək, – dedi, – onnarı tut, yeyək.

Çoban yapıncının üstündən dikəlib yoğun kişini göstərdi:

– Tutun ona verin, diri-diri yesin.

Kababçı tərs-tərs ona baxdı:

– Qurtar, dedim daa, sənə. Sən də keflləndin deyəsən.

– Ə, onun pullarını qatdıyıb gözünə soxaram. Yekəqarın qurumsaq, gör nə deyir mənə. Üstümü unnu görüb o, arvadının yanından oğurrayaram onu. Onun kimi yüz qoyunum var, yağlı-yağlı.

– Aşağı otur, yaxşı.

Yoğun kişinin dünya vecinə deyildi, dodağının altında söylənə-söylənə nəsə deyirdi. Aradabir başını qaldırıb boylanırdı, toğluların səsini də adam səsi kimi eşitdi:

– Kimdi o?

Ayat mahnını bir də başdan oxudu:

Bir dost bulamadım, gün axşam oldu...

Toğlular qapını kəsdirib mələyirdilər, dəyirmanın alaqaranlığında gözləri parıldayırdı. Kababçı özündən çıxıb əlindəki şişlə toğluları döyəclədi:

– Diri-diri şişə keçirərəm indi. Bunnar da vaxt tapdı.

Dəyirmançı dəyirmanın qabağında kabab odunu yarmalayırdı. Kababçı qışqırdı:

– Əşi, qurdalanma sən də orda. Cəhənnəm elə bu üzülmüşləri. Kəsirsən kəs, daa!

Yoğun kişi yenə başını qaldırdı:

– Kimi kəsirsən, əə?, – dedi, – dəyirmandaşının üstünə çıxıb oxuyan Ayatı da indi gördü, – müəllim oxuyacaq, bu da onun iyirmi beşliyi. Qalx, oxu!

Temir istədi əlində tutduğu araq stəkanını yoğun kişinin üzünə çırpsın. Bir arağa baxdı, bir kişiyə. Hiss elədi ki, bu çox ağır olar. Altından çıxa bilməz. Dayanıb sakitcə gülümsədi:

– Oxu, ə, ac oğlu, ac!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Temir qalxıb yoğun kişinin qolundan tutdu:

– Gəl bura.

– Nə?

– Gəl çıxaq eşiyə, havanı dəyiş.

– Oxuyacaqsan!

– Gəl, eşikdə oxuyaram.

Ayat kirimişcə dəyirmandaşının üstündə oturmuşdu. Toğluları harasa aparmışdılar. Sızıldaya-sızıldaya səsləri gəlirdi Ayatın qulağına. Qapının ağzını indi də dəyirmanın küçükləri kəsdirmişdi. Hələ qorxu-hürkü bilmirdilər. Qorxunu bilmədikləri üçün də yaltaqlanmırdılar. Tük belə tərpətmədən dipdiri gözləriylə tamaşa eləyirdilər. Elə rahatlıqla baxışırdılar ki, elə bil məclis hələ dünya görməmiş, qorxunu-hürkünü duymadıqlarından yaltaqlana bilməyən küçüklər üçün qurulmuşdu. Qorxunu da hardan biləydilər ki, gündüz axşama kimi Ayatla dünyanın ən gözəl oyununu oynayırdılar. Bir yanlarında analarıydı, bir yanlarında Ayat. Bu ikisinin arasındaca böyüməkdəydilər.

Ayat dəyirmandaşının üstündən küçüklərə baxırdı. Amma Ayatın gözləri küçüklərin gözləri kimi dinc deyildi. Canının bütün qorxusu gözlərinə yığılmışdı. Çünki Ayat qorxunun nə olduğunu bilirdi. Qorxunun nə olduğunu bildiyi üçün də yaltaqlanmağı bacarırdı. Dünyada heç kəsin sözü, heç kəsin istəyi Ayatı oxşuyub böyüdə bilmirdi. Ona görə də Ayatın üz-gözüylə boyu arasında on yaş ara vardı. Ayatın üz-gözü boyundan on yaş böyük idi.

Dəyirmanın bu yığnağı, araqlı havası, gözünü açandan əli ətli, şişli görmüş atası, səhərdən axşamacan ölümünü duyub gözlərinin içinə baxa-baxa mələyən toğlular, dəyirmandan ölü çıxıb səndələyə-səndələyə hasarların dibiylə gedən, söyə-söyə, söylənə-söylənə dünyanı daşa basan kefli, tüklü kişilər Ayat üçün ən böyük qorxuydu. Bu qorxunun içində Ayatı yaşadan, öyüd verib tərbiyə eliyən pul idi. Ayat bu yaşında pulun nə olduğunu bütün gözəlliyilə anlayırdı. Hər gün səsi batana kimi mahnı oxumağı da puldan ötrüydü.

Anasına oxşatdığı qızları ki, dəyirmanın balaca novluğuna çəkərdilər, Ayat toğluları ordaca qoyub iməkləyə-iməkləyə dəyirmanın altındakı su yolundan keçirdi, daşların üstündəcə oturub tamaşa eləyirdi. Anasına oxşatdığı qızlar ki, paltarlarını artıq bir şey kimi bir-bir çıxardıb hara gəldi tullayırdılar, Ayatın gözünün qabağındaca tüklü-tüklü kişilərlə qucaqlaşırdılar, onda Ayatın boyu qalırdı daşların üstündə otura-otura, üzü böyüyürdü, gözü böyüyürdü, səsi böyüyürdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ayat görürdü ki, göydə quşların, yerdə küçüklərin, toğluların da anası var, hələ Temir yekəlikdə kişinin də anası var ki, neçə kərə gəlib dəyirmanın başına daş yağdırmışdı, yeri-göyü Allahnan yanımışdı: "Özüm öz əlimnən öldürəcəm səni, a köpəyoğlu, sən ki, məni belə yandırırsan. Allahın cavabını özüm verərəm, girmə bu dəyirman yıxılmışa".

Bunları görəndən sonra kəsdirirdi dəyirmançının saqqalının altını:

– Bə mənim anam hanı, baba?

– Çıx get toğlunun yanına, sarsaq oğlu, sarsaq, mən nə bilim hanı sənin anan. Sən yaxşı bilərsən!

"Sənə qurban olum, göygöz balam, yenə oxudullarmı səni o əclaflar..."

Temir yoğun kişinin qoluna girmişdi, çəkə-çəkə dəyirmandan çıxardırdı. Çoban yerindən dikəlib dallarınca baxdı:

– Qarnına vur, başqa yerinə vurma, nəyi varsa, ordadı.

– Dalaşan döyüllər, əşi, indicə öpüşə-öpüşə qayıdacaqlar.

Yoğun kişi qapıdan çıxanda küçüyün birinə bir təpik ilişdirdi. Ayat da qışqırdı, küçük də. Küçük bir qırağa çəkildi, zingildəyə-zingildəyə boynunu təzədən yoğun kişiyə sarı uzatdı, gözləri peşmançılıqla dolu başladı astaca-astaca quyruğunu bulamağa.

Qorxu budu, bax!

Qızıl oğlanlar da keflənmişdilər. Qaqaşın kötüyünü çəkib yanlarına gətirmişdilər. Biri durub, biri başlayırdı.

– Pərini gətirə bilməzsənmi bura?

– Yox, əşi, lap elə də döyül.

– Bəs Sarı Qasım da gəlməz?

– Onu neynirsiz?

– Gələr, gəlməz?

– Nə deyim, vallah.

– Sarı Qasımı gəti, bu yüz manat sənin. Kimin sözüynən gələr?

– Gəlsə, sədrin sözüynən gələr, o da burda yoxdu.

– Mən bu gün Pərini görməliyəm, nolur-olsun.

– Axı Sarı Qasımnan nə Pəri? O gəlsə, Pərini də gətirməyəcək ki, – Qaqaş belə deyib uğunub getdi. Bu cür ürəkdən gülməyi də çoxu o biriləri güldürmək üçün idi.

Ucaboylu, dar, qısakürəkli, beli azacıq əyilmiş bir oğlanıdı Qaqaş. Oturanda da, duranda da çiyni boynuna sarı dartılı olardı. Üzünün rəngini



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ayırd eləmək çətindi. Sarıyanızdımı, qarayanızdımı, bilmək olmurdu. Sarılığı da varıydı, qaralığı da. Bu rənglərə bir də qəribə bir solğunluq qarışmışdı. Gülüşü solğunuydu, boza çalırdı. Gülәndә üzünün cizgiləri elə dartılırdı ki, bu, əslində ağlayanda belə olmalıydı. Uzun, şümal saçları varıydı, arxaya daranmışdı. Alnı açıq idi. Uzunsov sifəti daha da uzun görükürdü.

Güldü, gülə-gülə də yüz manata baxıb fikirləşdi ki, Sarı Qasımı necə gətirmək olar. Gördü baş tutan iş deyil. Yazıqlaşıb çiyinlərini lap daraltdı.

Qızıl oğlanlardan biri yerindən qalxıb üzünü Ayata tutdu:

– Oxu ə, uşaq! Beş bayaq verdim, on da indi verirəm, mən bəsdi deyənəcən oxu!

Küçüklər qapının ağzında şöngümüşdü. Vurulan küçüyün quyruğu yavaşca-yavaşca qımıldayırdı, yəni – mənə bir qulluğunuz.

– Gəl bura, gəl onluğunu apar!

Ayat qalxıb onluğa sarı getdi. Ayatın qalxdığını görüb küçüklər də qalxdı. Narahat-narahat zingildəşdilər.

Qızıl oğlan əlini Ayatın çiyninə qoydu, yoldaşlarına baxdı:

– Bunun anası yadınızdadımı?

İkisi də birdən dilləndi:

– *Əntiqə şeyiydi!*

– Yaxşı anan vardı sənin! – Oğlan başını bulaya-bulaya Ayata baxdı. Ayatın gözlərinə yaş gəldi, giləlәnib üzüaşağı sürüşdü. Ayat dönüb qapıya sarı qaçdı. Kababçı onu tutub:

– Sən öl, səni öldürəcəm, – dedi, – qudurursan yekələndikcə!

Yoğun kişi kirpikləriylə daş qaldırırmış kimi güclə gözlərini açdı, dəyirmançını beş gördü, üzünü ayırd eləyə bilmədi, elə-belə, qaraltısından tanıdı ki, dəyirmançıdı. Dodaqlarını güclə yığışdırıb dəyirmançını söydü. İstədi küçüyə vurduğu təpikdən birini də ona vursun, təpiyi boşa çıxdı, sürüşüb yanı üstə yerə yıxıldı. Qalxmaq istədi, başı bədənini əydi, dümdüz uzandı.

Dəyirmançı başının üstündə gülümsəyirdi. Əlində balta vardı, bərk-bərk sıxdığından barmaqları qan çəkib qıpqırmızı olmuşdu. Baltanın görünüşündə küt, qəribə bir qorxu vardı. Nə baltanın görünüşündəki bu qorxu, nə də acığından qan çəkmiş barmaqları kişinin üzündə dolaşan gülüşlə uyuşmadı.

– Qusdursan yaxşı olar, – dedi, – yuxarı qaldır.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Köməkləşib yoğun kişini qaldırdılar. Yoğun kişi dəyirmançıya təpik ata-ata nəsə deyirdi. Temir onu çəkə-çəkə arxın qırağına apardı:

– Üzünə su vur, – dedi.

– Oxu, iki ildi sənə pul xərcləyirəm. Bayaqkı araqlar nəydi?

– Üzünə su vur, yekəqarın əclaf. İndi buraxsam, yıxılacaqsan.

Temir onu buraxıb geri çəkildi. Yoğun kişi ayaq üstə dura bilmədi, arxa düşüb dördayaq oldu. Temirin rəngi qaçmışdı:

– Busan bax, irinni, iyli köpəyoğlu. Bax, beləcə, dördayaq olub partdıyacaqsan, dağılacaqsan bir gün.

Aşıq Rəfi sazı da qoltuğunda dəyirmana çathaçatdaydı, güldü:

– Yorulmayasan, ay Temir, – dedi, – kimin camışıdı, aya, çimizdirdiyin? Mən ölüm, niyə eliyirsən?

Dəyirmançı yenə saymazyana başını qaldırdı. Temirə baxdı:

– Qusmasa ayılmayacaq, – dedi.

– Neyniyim axı qussun, əlimi ağzınamı soxum? Balta kimidi dişləri!

Aşıq Rəfi yenə güldü:

– Tut çiyninnən bərk-bərk silkələ, çalxalansın, qusacaq.

Yoğun kişinin əli-ayağı suya batdığından ayılan kimi olmuşdu. Çaydan bir daş götürüb dikəldi, var gücüylə Temirə sarı atdı. Daş Temirin qulağının dibindən güllə kimi keçdi. Temir yaxınlaşıb onun çiynindən yapışdı, əvvəl güldü, sonra qayım-qayım silkələdi, sonra qırağa çəkilib papağını çıxartdı:

– Qusdu, – dedi.

Ayatın səsi gəlirdi, ağlamsına-ağlamsına oxuyurdu:

Salam verdim, almadın,
Allahdan böyükmüsən?!

Aşıq Rəfi sazı qarnına sıxıb gülürdü, dəyirmana sarı dönəndə papağı başından düşdü. Kababçı qapıdan tamaşa eləyirdi:

– Aşıq, yenə itirə-itirə gəlirsən, – dedi, – bir papağın vardı, onu da saldın.

– Aşığınkı elə oldu, yüz itirdi, bir tapdı, – Ayatın səsini eşidib sıxıldı, kababçıyla üz-üzə durdu:

– Ə, Allahınız, yaradanınız olsun, qoyun bizə də bir şey qalsın da. Atalı-oğullu dünyanı dirigözlü yiyəcəksiz, siz!

– Qələtini elə, ə, payını kəsərəm, sən öl!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıq Rəfi tələsik özünü içəri saldı, əlini Ayatın başına qoyub: – Bəsdi, a bala, bəsdi, – dedi, – səsin də batıb, get dərslərini oxu. Nə qədər yığdın bu gün?

Ayat dinmədi, ayaqlarını sürüyə-sürüyə qapıya sarı getdi. Aşıq Rəfi onun balaca cibində qızaran onluqları gördü, burnunu çəkib xeyli ardınca baxdı. Sonra sazı köynəyindən çıxardıb dəyirmandaşının üstündə oturdu, kökləyə-kökləyə yeyənlərə baxıb gülümsədi:

– Deyir, gördün bir məclisdə adam azdı, ət çoxdu, ətin sümüklü-*sünnən ye. Yox, adam çoxdu, ət azdı, tikə ye.*

Yeyənlər onsuz da yeyib doymuşdular, məzələnə-məzələnə diş-lərində sümük oynadırdılar. Rəfi gördü fikir verən yoxdu, sözü dəyişdi:

– Ustaddar deyər, arvadlar üç qisim olur. Biri...

Qaqaş oğlanlara sarı əyilib pıçıldadı:

– Pəriyə yaxşı söz deyib, oxudun.

Biri qalxıb bir onluq çıxartdı:

– Pəriyə dediyini oxu!

Aşıq Rəfi onluğu alıb öpüb gözünün üstünə qoydu:

– Cibin dolu olsun, siftə elədik.

– Pərini, Pərini!

Rəfi sazı aşırıb “Gözəlləmə” üstündə zil səslə oxudu:

Ay camaat, bilmiyənnər bilsinnər,
Dodaqları ballı imiş Pərinin!
Siyah zülfü dal gərdənə tökülü,
Yanaqları xallı imiş Pərinin!

Onluq verən oğlan Qaqaşa baxdı, başıyla aşığı göstərdi:

– Bu da?

Qaqaş dəmdəydi, tökülüb itə-itə:

– Yox, əşi, – dedi, – qələt eliyir, onunku sözdü.

Aşıq Rəfi başını sazın üstə qoyub simləri zilə çəkdi, aşağılı-yuxarılı hamıya göz gəzdirdi:

– Pul görmürəm, əlim qalxmır.

Çobanın yoğun səsi dəyirmanı bürüdü:

– Ay üzün qara olsun sənin, bu doymadı, ə! Mələyir elə.

Aşıq “el havasına” döndərib bir-iki xal vurdu, çobana baxıb ayağını yerə döydü:

– Burda doyacayıq!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Heç orda da doymazsan sən!

Çobanın sözünə gülüşdülər. Aşıq Rəfi başını yenə sazın üstünə qoydu, bir-iki xal yenə vurdu, təzədən çobana baxdı:

– Səni danışdıran nə puldu, nə adam, qoyundu səni danışdıran. Ən pisi də budu.

Təzədən gülüşdülər, çoban da güldü, əlini cibinə salıb ayağa durdu, bir onluq çıxardıb aşığa sarı gəldi:

– Pulsuzmu görübsən, ə, məni?!

Səndələdi, az qaldı kötüklərə ilişə, dili dolaşa-dolaşa dedi:

– Ağlı olan başını qaldırmasın, qalxan kimi keflənir adam. Başınızı salın aşağı, yeyin!

Aşıq Rəfi əlini uzatdı:

– Bəri ver görüm, sonra yıxılsan da olar.

Çoban gəlib aşıqla üz-üzə durdu:

– Aşıq Rəfi, de görüm mən necə adamam?

– Pulu ver, sonra.

– De, verəcəm.

– Yox, canın üçün, verməsən demərəm, nağd olsun.

– Al, amma hələ cibinə qoyma. Əlində tut, de!

– Sən bilirsənmi necə adamsan? Sən susan.

– Nəyəm?!

– Su, elə-belə içməli su. Deynən, hə!

– Hə!

– Səni töküblər təhnəyə. Nə irəlin var, nə gerin. Bu yannan qaldıranda o yana axırsan, o yannan qaldıranda bu yana.

Çoban dörd yanına boylandı:

– Ə, başa düşmədim axı mən?!

Yerdən:

– Yaxşıdı, – dedilər, – su aydınlıqdı.

Aşağıda oturanlar aşağıdan, yuxarıda oturanlar yuxarıdan pul çıxardıb başlarının üstündə yellədilər:

– Aşıq Rəfi, bə mən?

– Bəs mən necə adamam?

– Pəri noldu, a, bəs? Sən öl, sazı alıb başına çırparam!

Rəfi dinməz-söyləməz başını qoydu sazının üstünə, tərifin ardını dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gül içində özü güldü, güllənib,
Onu görən çox karvannar əylənib,
İncə beldə gümüş kəmər tellənib,
Gül saçları telli imiş Pərinin!

– Sağ ol, aşıq! Ə, bu hansı Pəridi? Sarı Qasımın Pərisidimi?
– Hə.
– Ay yiyən ölsün sənin! Sarı Qasımın özü eşidibmi bunu?
– Çoox, hansı yığnağa düşür, irişə-irişə qulaq asır. Çaxçax səndələyə-səndələyə aşığa sarı gəldi, bir onluq çıxardıb başının üstündə tutdu:
– Aşıq Rəfi, ağla, verim.
Aşıq Rəfi solğun-solğun gülümsədi:
– Ay yaradansız, bə bu ağlamaq döyülmü? Bayaqdan ağlamırammı bə?!
Dəyirmanı təzədən gülüşmə bürüdü. Rəfinin özü də güldü, kişi pulu verib qayıtdı, çaxçaxın dibində oturub stəkanını qaldırdı:
– İçirəm, – dedi, – öz sağlığıma.
Biri çobanın yanından qalxıb dəyirmandaşının üstünə çıxdı, onluğu qabaqca camaata göstərdi, sonra aşığa:
– Mən özüm, – dedi, – bilirəm necə adamam, yüz yerdən saz vurula, söz deyilə, xeyri yoxdu. Bildiyimi dədəmə də verən deyiləm. Amma Aşıq Rəfi desin, görüm bəs bizim kababçı nə təhər adamdı?
Kababçı qapının ağzından aşığa sarı gəldi:
– Boğazın mənim əlimdədi, ha! Çörəyini kəsərəm!
Aşıq Rəfi sazı dınqıldada-dınqıldada camaata baxdı:
– Kişi var, – dedi, – od kimidi, tüpürsən qaralıb-qaralıb sönəcək, kişi də var, ot kimidi, tüpür, deyəcək yağışdı, başlıyacaq bitməyə...
– Kababçı hansından oldu?
– Bitənnən.
– Sən öl, sənin çörəyini kəsəcəm!
– Sağ ol, aşıq, işində ol, qələt eliyir!
– Pərini, Pərini de gəlsin!
Qaqaş bayaqdan fikirdəydi, nə fikirləşdi, nə fikirləşmədi, yüz manatı qızıl oğlanlardan alıb ayağa durdu:
– Sarı Qasımı gətirəcəm, amma üçünüz dostusuz, biriniz də prakror.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dəyirmandan çıxdı, dəyirmançı yenə odun dilimləyirdi. Temir oturmuşdu bir qıraqda, gözü yoğun kişidəydi, yoğun kişi ögüyürdü. Temir Qaqaşı görüb:

– Aya, hara? – dedi.

– Sarı Qasımı gətirməyə.

– Onu neynirsən?

Qaqaş əlini dişinə çəkib dəyirmana baxdı:

– Qızılların işi var onnan, – dedi.

Yüz manatı çıxardıb göstərdi, az qala yüyürə-yüyürə uzaqlaşdı. Temir heç nə başa düşmədiyindən ardınca baxa-baxa qaldı.

Dəyirmançı başını qaldırıb yoğun kişiyə baxdı:

– Öldü, ə, – dedi, – yazıqdı, həncəri olmasa, adamdı, başını tut.

– Dəymə, çox yeyib, qoy qussun.

Yoğun kişinin huşu başındaydı, tamam ayılmışdı. Ögüməkdən gözləri qızarıb üzü boyda olmuşdu. Olan-qalan gücü nəfəs almağaca çatırdı ki, boğulmasın. Bayaqdan əlini Temirə sarı qaldırıb nəsə demək istəyirdi, səsi yoxdu, səsini də qusurdu yoğun kişi. Böyüyüb üzü boyda görünən gözlərinin qabağındaca yollar əyiş-üyüş olmuşdu, dağlar uçub tökülürdü. Elə bil dəyirmanın qabağındakı bu küçükləri də, Temiri də, dəyirmançını da, kəndi, kəndin adamlarını da, gözünə nə görünürdüsə, yoğun kişinin gözündən gətirirdilər, qusurdu. Dəyirmançı yenə dedi:

– Ə, onun başını tut, yazıqdı!

Aşıq Rəfi zilə çəkmişdi, səsi dəyirmanın balaca qapısından güllə kimi çıxırdı:

Ağır yollar, ağır ellər gəzməyi.
Rəfi kimi cavan cannar üzməyi.
Qıya baxıb ala gözün süzməyi,
Min pulludan pullu imiş Pərinin!

Səs-küy bir-birinə qarışdı:

– Sağ ol, aşıq!

– Yaşa!

– Var ol, aşıq!

Qızıl oğlanlardan biri dik qalxdı.

– Aşıq, öldürdün məni! Al bu iyirmi beşlik də sənin!

Dönüb qapıya baxdı:

– Noldu, Qaqaş gəlmədimi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kababçı aşığa gedən pulları görüb pörtmüşdü, yanaqları löyür-löyür yanırdı. Ayatın başından tutub sıxdı, sonra da acıqla qapıya sarı itələdi:

– Di get, – dedi, – qancığın doğduğu, Aşıq Rəfi adamın anasını belə... ağladar, bax!

Küçüklərin – qancığın doğduqlarının elə bil donu açıldı, Ayatın boyu uzunu atdandılar, o yan-bu yanına keçib əlini-ayağını yaladılar. Sonra üçü də bir-birinə qarışa-qarışa, oynaya-oynaya çayın yaxası boyu uzaqlaşdılar. Elə bil hava da onlara bəndiydi, qaş qaraldı, alatoranlıq düşdü...

Yoğun kişini arxın qırağına uzatmışdılar. Dəyirmançı onun yaxasını açırdı. Temir dolçayla su daşıyıb yoğun kişinin başına tökürdü. Bunu elə tez-tez eləyirdi ki, elə bil kişinin başına od düşmüşdü. Sonra da əyilib ətli üzünü yumşaqca-yumşaqca şapalaqladı.

– Doludu, hə, köpəyoğlu?

Dəyirmançı yoğun kişinin çiyinlərindən yapışdı:

– Qaldır aparaq maşınına uzadaq, yatsın.

Köməkləşib qaldırdılar, maşına sarı apardılar.

Qaqaşla Sarı Qasım evlərin arasından çıxdı. Qaqaş uzana-uzana nəsə deyirdi, arada bir qolunu Sarı Qasımın boynuna salırdı. Kefdəydi, az qalırdı oynaya-oynaya gəlsin.

Sarı Qasım başıaşağı dəyirmançıyla Temirin yanından keçdi. Temir gülüb:

– Pah, – dedi, – dəmir atın, ə, ayağının altına, Sarı Qasım dəyirmana gəlib, dünyanın axırıdı.

Sarı Qasım dönüb kişilənə-kişilənə dedi:

– Qasım bu dəyirmanda yeyib-içəndə sən hələ əlifba keçirdin.

Öz sözümü özünün xoşuna gəldi, yoxsa qəsdənmi özünü dartdı, hünərdən gəlmiş kimi şəstlə içəri girdi.

Orta boylu, kök, yumşaq bir adam idi. Yerişində, gülüşündə qəribə bir ikilik vardı. Yəni addımını atanda belə həm addımını atmaq istəyirdi, həm atmamaq istəyirdi. Güləndə gözü onun-bunun üzündə qalırdı ki, gülümmü, gülməyimmi? Bu, çoxlarına utancaqlıq kimi gəlirdi, – Sarı Qasım həyalı adamdı, – deyirdilər.

Yumşaq adam olduğu üçün arvadını elə onun özündən soruşurdular ki, Qasım, belə bir şey eşitmişik, deyillər, Pərinin sədrnən yaxınlığı var. Ə, onu sal təpiyin altına.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qələt eliyir sizdən başqa onu deyən. Onu deyənin anasını, arvadını... Arvad mənimdi, mən bilərəm. Hansı köpəyoğludu söz çıxardan, getsin arvadına ərlik eləsin.

Sarı Qasım elədiyi, tutduğu işlərdən çox, eləmədiyi, görmədiyi işlərdən danışardı. Buna da kəndin çoxu inanardı, çoxu yox. İnananlar deyərdi, vallah, yaxşı adamdı Qasım, ürəyi təmizdi, qurddu döyül.

İnanmayanlar da çox sözün üstünü vurmazdılar, başlayardılar Qasımı dolamağa. Gözlər qıyılıb bütün yığnağı dolanardı.

– Qasımın arvadına söz deyənin şalvarını çıxardaram.

– Qasım, bir xəngəl bişir, gələk, yeyək. Eşitmişəm yaxşı xörək bişirməyin var.

Get-gedə Qasıma inananlar azaldı, inanmayanlar çoxaldı, dəyirman quruluca dönüb kababxana oldu. Qasıma inanmayanların hamısını harda itirdilər, dəyirmanda tapdılar.

Sarı Qasım qapıda görünən kimi aşağılı-yuxarılı dəyirmanda nə qədər adam var idi, səs-səsə verdilər:

– Ooo!!! Aya, yallah, yallah!!! Nə gözəl adam gəlib, ə!

Qızıl oğlanların qızıl dişləri səfə düzülüb cərgəylə parıldaşdı. Üçü də bir-birinə dolaşa-dolaşa ayağa durdular.

– İgidin adını eşit, üzünü görmə, amma biz gördük.

Sarı Qasım utana-utana qızıl oğlanların yanında əyləşdi,

– Bə yoldaş sədr hanı?

Qızıl oğlanların biri stəkana araq süzə-süzə:

– Elə indicə getdi, – dedi, – çağırdılar. Əşi, sədrin dilinnən düşmürsüz ki. Bunu içək sədrnən sizin ailəvi dostluğunuzun sağlığına!

– Mən içən deyiləm.

– Yox, bu elə sağlıqdı ki, gərək içəsən. Yəni heç içməmisən? Əsgərlikdə də içməmisən?

– Qabaqlar içirdim.

– Vəssalam. Allahın adını çağır, çək başına. Sədrin sağlığıdı, sonra xəbər verəllər, yaxşı düşməz, elə döyülmü?

Aşıq Rəfi də sazını yanına qoyub qabırğa gəmirirdi. Çoxbilmiş-çoxbilmiş Sarı Qasıma baxıb gülümsəyirdi.

Sarı Qasım stəkanını qaldırdı, toqquşdurdular, içdilər.

– Şirin olsun, Sarı Qasım!

– Şirin olsun!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hamı Sarı Qasımın ağzına baxırdı. Hamı bu təzə başlanmış işin sonunda çox maraqlı məsələlər gözləyirdi. Ona görə də Sarı Qasımın gəlməyi dəyirmanın havasını təzələyən kimiydi. Aşağıdan yenə çobanın yoğun, xırıltılı səsi eşidildi:

– Evdə nə var, nə yox, Sarı?!

Gülüşmə dəyirmanı bürüdü, qızılın biri yerindən durdu:

– Qurtardıq, – dedi, – bizim stolda oturannaran heç kimin işi yoxdu.

İkinci stəkandan sonra Sarı Qasımın gözləri süzüldü, beləcə, məzə içində qızıl oğlanlara bir də baxıb gülümsədi, dilini sürüyə-sürüyə:

– Sizi mənnən qiyabi də olsa Mansır tanış elədi, – dedi, – Qaqaşa baxdı, stəkanını götürüb ayağa durdu, – siz buyurduğunuz kimi, sədrnən biz yaxınıq. Özü də ailəvi yaxınıq. Mən onun arvadına bacı demişəm, o mənim. Amma mən bunnarın evi kimi ev saxlamıram, mən xanım kimi arvad saxlayıram. Kəndin gözü götürmür. Nə arvadımı götürüllər, nə məni. Sədrin bir də sağlığı olsun, sədr yaxşı oğlandı. Bunnarın gözü onu da götürmür.

Çaxçax kişinin səsi gəldi:

– Yaşa, Sarı Qasım! Pərinin sağlığına!

Çoban altdan-yuxarı tərs-tərs Qasıma baxırdı.

– Mənim arvadımın adına söz çıxardanın anasını ağladaram! – belə deyib yumruğunu süfrəyə vurdu.

Çoban yerindən durdu, yavaş-yavaş ona doğru gəldi. Aşıq Rəfi təzə mahnı başlamışdı.

Gün kimi aləmə yayılan Pərim...

Çoban Sarı Qasımla göz-gözə dayandı:

– Oğraşın biri oğraş!

Qızıl oğlanlar dik qalxdılar, çobana sarı yeridilər. Çoban əlini kəmərinə çəkdi, geyməsinin altından gümüş xəncər göründü.

– Doğruyaram, – dedi, – hamınızı. Çoxdandı namus üstündə adam ölmüyüb bu kənddə. Yox! Hələ hamı oğraş olmuyub! Gəlirsiz, düz fikirnən gəlin!

Kababçı özünü yetirdi:

– Əşi, otur yerində, sənə nə düşüb, xoruzlanırsan?

– Ə, üzü dalınnan qırmızı köpəyoğlu, hanı arvadın, ə? Qulağını kəsəcəm, eniyəcəm səni, qulağınnan tanısınlar ki, kişi döyülsən!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çəkib xəncərini çıxartdı. Bu vaxta qədər bütün hərəkətlər, gülüşlər, danışıqlar dediyindən daha çox başqa şeyləri deyirdi. Bütün gülüşlərdə, deyilənlərdə, hərəkətlərdə başqa məna var idi. Çobanın xəncəri elə bil birdən-birə bütün bu yalanların içindən sıyrıldı çıxdı, çıl-çılpaq, tər-təmiz böyük bir haqq kimi hamının gözü önündə oynadı. Xəncər dəyirmandakıların çoxu üçün qəribə bir canlı kimiydi ki, yalnız adını eşitmişdilər, üzünü indi görürdülər. Hamı yerindəcə quruyub sönmüş səsləriylə sızıldaşırdı:

– İşin yoxdu, qoy yerinə!

– Özünü xataya salarsan.

– Arvad da belə-belə olsun, arvad yiyəsi də.

Qızıl oğlanlar daha oturmadılar, bir çəngə pul çıxardıb kababçıya verdilər. Qaqaş Mansırı da, Sarı Qasımı da götürüb qapıdan çıxdılar.

Yoğun kişi maşınına uzanıb xoruldayırdı. Temir bayırda dəyirmandaşının üstündə oturmuşdu. Ürəyinə daman bir xata kimi gününün sonunu gözləyirdi.

Səslə-küylə dəyirmana bir traktor yaxınlaşmaqdaydı. Ayat qabaqda, Gülünün oğlu da ardınca özlərini dəyirmana yetirdilər:

– Baba, Gülü əmi ölür!

– Dədəm ölür, ay Temir müəllim!

Küçüklər – qancığın doğduqları traktorun başına dolanıb gümrah-gümrah hürürdülər. Gülü traktorda büzüşüb oturmuşdu.

Dəyirmançı başını qaldırıb nəsə dedi, güldü. Temir ayağa durdu, o da gülə-gülə traktora doğru getdi. Dəyirmandakılar eşiyə çıxdı, yırğalana-yırğalana, bir-birindən tuta-tuta traktora yaxınlaşdılar. Gülünü belə görüb uğunub getdilər.

– Ə, bu da ölən zibil döyül. Ay papağı hərmədə qalsın!

– Göyçək, mənim hesabıma araq ver ona, dirilsin.

Kababçı, doğrudan da, araq gətirməyə getdi. Temir əlini Gülünün alnına qoydu, gördü od tutub yanır. Sonra gördü dodaqları qanlıdı. Ayatgilə sarı döndü:

– Kim vurub, ə, bunu?

– Heç kim vurmuyıb, müəllim. Qarnı ağrıdı, ağrıdı, sonra ağzı qanadı.

Temir traktorçuya yalvarmağa başladı:

– Başına dönüm, bunu xəstəxanaya çatdır. Bunnara fikir vermə, ağılları başlarında yoxdu. Bu ölür vallah. Yaxşılıq itməz, sən canın, sür, əylənmə, ölür bu!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dəyirmanın qabağında ağız deyəni qulaq eşitmirdi. Biri gülürdü, biri sataşırdı, biri məzələnirdi.

Traktorun özü görünmürdü, səsi dünyanı başına götürmüşdü. Elə bil traktora ağır bir yük qoşmuşdular, gücnən çəkib aparırdı.

Meyid ağır olur. Temirin ürəyi sıxıldı. "Öldümü, nədi, baxdıqara".

Sarı Qasım yenicə qızıl oğlanların maşınına əyləşmək istəyirdi ki, camaatın arasından kimsə dedi:

– Sarı, özündən muğayat ol.

*Bununla da camaatın ağzı düşdü Qasıma tərəf, hərə bir söz dedi:*

– Sarı, yol bunnarı, yağlıdılar.

– Qasım, qonaqlara quymaq çal.

– Qasım yengədi, yengə. Of, nə oğlandı!

Temir Qaqaşın Sarı Qasımın ardınca getməyini, qızıl oğlanların niyyətini indi-indi anlayırdı. Heç özünün də xəbəri olmadı ki, Qaqaş Mansırın yaxasından nə vaxt yapışıb:

– Ə, tülkü, kəndi bazaramı qoymusan? Yüz manatamı satdın kəndi? Anannan başlasaydın, o, qurumsaq! Tanıyırsanmı bu oğraşları, hara aparırsan?

Qızıl oğlanlar maşından tökülüşdülər, hərəsi bir yandan Temiri tutdular, yıxıb təpiklədilər. Çoban özünü yetirənə kimi ağzını-gözünü qaraqançır elədilər. Maşına oturub kənddən çıxdılar. Qaqaş Mansır qaçıb aradan çıxmışdı. Sarı Qasımın heç nədən xəbəri yox idi, səkkiz yaza-yaza ağzı hara düşürdü, ora gedirdi:

– Mənim arvadımın adına söz çıxardanın anasını ağladaram. Paxıl köpəyuşağı.

Bir azdan Gülünün arvadının səsi kəndi başına götürdü:

– Dərdin alım, ay Gülü, noldu sənə? Dilimə yaralar çıxsın, Allah öldürsün məni, qarğışıma keçdin. Əliş, de görüm noldu dədənə? Hara apardılar? Ay Temir məllim, Gülü yoxdu, həmişə bir yerdə içirdiz, qardaş, başına dönüm, noldu Gülüyə?!

Temir arxda ağzının-gözünün qanını yuyurdu. Gülünün arvadının səsi göz yaşı kimi içini yandırırdı. Eyvanda oturub birçəklərini suya sallamış anası gözünün qabağına gəldi, gülümsəyib ayağa durdu, başına yığışmış adamlara:

– Eybi yoxdu, – dedi, – belə də olmalıydı, nəynənsə qurtarmalıydı günümüz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Hamı dağılışmışdı. Dəyirmançı dilimlədiyi odunları içəri daşıyırdı. Kababçı pulları dəyirmandaşının üstünə töküb sayırdı. Bircə Aşıq Rəfi qalmışdı, bardaşdan oturub kabab yeyirdi. Yeyib qurtardı, əllərini göyə qaldırıb:

– Çox şükür Allah, – dedi, – biz yedik azaltdıq, sən artır!

Kababçı pulları saydıqca söyürdü:

– Qudurdu köpəyuşağı, dünənkinnən iki yüz manat azdı. Yaxşı, mən bilirəm neyniyəcəm!

Aşıq Rəfi sazını köynəkləyirdi:

– Buna da şükür de, gözünü tox elə, yoxsa artırammazsan.

– Səni də qudurtdum, çörəkli eləmişəm, indi dərs verirsən mənə. Ayağını kəsərəm, onda bilərsən.

Ayağının dəyirmandan kəsilməyi Aşıq Rəfinin, doğrudan da, ayağının kəsilməyi kimi ağır idi.

– Vallah, sizdən çox razıyam, – dedi, Allah da razı olsun! Zarafatdan incimə, yığnağınkı zarafatdı. Ona görə eləyirəm ki, gələnin çox olsun. – Sazı çiyninə aşırıb qapıdan çıxdı. Dəyirmançıya, – gecən xeyrə qalsın, – dedi. Amma dəyirmançı cavab vermədi.

Həyətlərdən, evlərdən arvadların səsi gəlirdi. Ağlamsına-ağlamsına çığırışırdılar, deyilənlər bir-birinə elə uyğun idi ki, bir-birinə elə oxşayırdı ki, elə bil hamısı bir kişiyə deyilirdi:

– Neynədin pulu, səhər cibində əlli manat varıydı. A yaradansız, uşağın boğazını niyə biçdin, ac qoydun?

– Hara göndərmişdim səni, uşağa paltar almağamı, yoxsa dəyirmanamı?

– Oturmayacam səndə, yetimlərini də üstünə töküb getməsəm, it qızıyam.

Bir Gülünün arvadı bu axşam özgə şeylər deyirdi, bir də Pəri. Gülünün arvadı hələ də ağlaya-ağlaya qonum-qonşudan Gülünü soruşurdu:

– Ay camaat, qadanız alım, hara apardılar, necə oldu? Təkmişsən, ay Gülü, heç kəsin yoxmuş, təkmişsən!

Pəri boğula-boğula elə qışqırırdı ki, səsi arvad səsinə oxşamırdı:

– Sən də kişi oldun birdən-birə? Üstünə qaynar su töküb bişirəcəm səni! Ona görə getdin dəyirmana ki, qonşular əlinə xına qoysun? Gəlmə bu evə, hansı cəhənnəmə itirsən, it! Nəyimə lazımsan sən mənim?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hanı bə, sənin dostların? Allatmağa başlamısan indi də məni? Nolar, mən də çəkərəm o kefi.

Temir evlərinin qabağında dayanmışdı. Ürəyinə qəribə bir qorxu çökmüşdü. Ayıqlığının qorxusuydu. Evə girəcəyini, uşaqlarını, anasını, arvadını görəcəyini ağlına gətirə bilmirdi. Ayıq olduğu üçün qorxurdumu, utanırdımı, heç özünə də aydın deyildi. Birdən-birə gördü ki, təkdi, yalqızdı. Gördü, dünyada kəndləri təkdi, otaqlarda adamlar təkdi. Birdən-birə sevindi ki, oğlanlarını görəcək. Elə bil ömründə birinci kərəydi görəcəkdi. Sakitcə qapını açdı. Anası eyvandaydı, başını qaldırıb baxdı, Temiri tamam başqa cür gördü. Həmişəki kimi həyətin ortasında dayanıb xırıltılı, kefli səsiylə arvadını, uşaqlarını səsləmədi, söymədi. Altdan-yuxarı baxıb gülümsədi:

– İçmədim, aana, – dedi.

Güllü arvad doluxsuna-doluxsuna pilləkənləri endi. Gəlib oğluyla üz-üzə durdu. Üz-gözünü qanlı görüb əlini uzadıb yumşaqca-yumşaqca oxşadı, sakitcə:

– Dalaşıbsanmı, – dedi, – kim vurdu?

Temir müəllim dinmədi, ağrılarını unuda-unuda anasına baxıb gülümsəyirdi.

– Ağrıyırmı? Eybi yoxdu. Amma içmə atam-anam. Ömrümə az qalıb. Allahın yanında günahlarımız çoxdu, bəlkə sənə bağışlaya. İçmə, qoy rahat ölüm...

Kəndin bir sərin yay axşamıydı. Temir, anası, arvadı, iki də oğlu eyvanda bir-birindən utana-utana dinməz-söyləməz oturmuşdular. Temir əsgərlikdən gəlmiş kimiydi, başına gələnlərdən danışmaq istəyirdi, amma bilmirdi nədən başlasın. Gecənin yarısına kimi də beləcə oturdular.

Gecənin yarısına kimi də Gülünün arvadının səsi gəldi, ağlaya-ağlaya üzünü gecəyə tutub deyirdi:

– Dilim qurusun, ay Gülü, yaralar çıxsın dilimə. Dərdin alım, alxışımı eşitmədi, qarğışımı nə tez eşitdi Allah!

*1978*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# OT

## I

Bəlli Əhməd yerinə uzananda gün batmaq üzrəydi, işığı pəncərədən çəpəkinə üzünə düşmüşdü. Üz-gözünü qırışdırıb əlini yellədi, elə bil milçək qovurdu. Sonra dikəlib yastığı iki qatladı ki, başının altı hündür olsun. Yenə hikkəsindən içi düyün bağlamışdı, gözlərini yumub ürəyində "lənət şeytana", – dedi. Amma ağlı kəsmədi ki, gözlərinə yuxu gedə. Yadında-yaddaşında nə vardısa, hamısının altı üstünə çevrilmişdi. Bu qarışıqlığın içində öz-özünün səsini eşidirdi. Boyun damarlarının şişdiyini hiss eləyə-eləyə bayaq bar-bar bağırırdı... Arvadının bayırda dediyi son sözləri də indi anlamağa başladı.

– Bəsdi, a dava dağarcığı, bütün kəndi özünə düşmən eləmisən, bəsdi! Sədr sənə neyniyib? Harda qalın, otlu biçənək var, sənə verib. Başını salla, camaat kimi otunu biç, dolanmağını fikirləş.

Özünün cavabı yadında deyildi. Nəsə bağıra-bağıra dolaşıq şeylər dedi. Əyilib əlini ora-bura uzatdı ki, bir şey götürüb arvadına sarı atsın. Çox şeylər vardı: divara yaba, dırmıx, əl ağacı söykənmişdi, bir az aralıda kötüyə balta da sancılmışdı. Amma əllərini bütün bunların üstündəcə gəzdirə-gəzdirə əyilib-dikəldi, Allahı söyəndən sonra bir az soyuyan kimi oldu:

– Sənin Allahını!..

Oğlu həyətin o başında burnunu sallayıb dayanmışdı. Utandığından, xəcalətindən, daha doğrusu, atasının acığının səbəbini anlamadığı üçün elə durduğu yerdəcə sınıxır, anasının dediyi kimi "geri böyüyürdü". İtləri də yanındaydı, o da bir şey anlamadığından key-key ləhləyirdi. Kişi əlini ora-bura atanda it də, oğlan da birdən götürüldülər, amma hərəsi bir yana qaçdı. Allahın qorxusu, xofu arvadı bürüdü, ikiqat olub əlini üzünə çəkdi:

– Yox, – dedi, – nəsə olub buna, havalanıb bu!

Hirsindənmi, yoxsa səhərdən kərənti çəkirdi ona görəmi şər qarışandan qolları öz-özünə atmağa başlamışdı. Əzələləri titrəyir, qolları yay kimi dartınır, yorğunluğu canından tikan kimi çıxırdı. Arvadı deyinə-deyinə beş-altı qazı qabaqlayıb çaya sarı aparırdı. Qazlar da arvad kimi deyinirdi, elə bil bir-biriylə danışırdılar.

Oğlu evdən xeyli aralı iti çağırırdı:

– Gopçu, Gopçu! – dedi, sonra da uğunub getdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bütün bunlar – arvadının bu cür deyinə-deyinə qazları aparmağı, oğlunun iti çağıra-çağıra uğunub getməyi, itin – Gopçunun daha çox miyoltuya oxşayan hürməyi birdən-birə elə bil Bəlli Əhmədə onu dedi ki, gün axşam olub... Bayaq dedikcə demək, söydükcə söymək istəyirdi, danışdıqca qızışır, susmaq lazım olduğunu özü gözəl anlasa da, ağzını yığa bilmirdi. Fikrində, yadında olanların bir-birinə qarışması da ona görəydi... Yerinə uzanıb gözlərini yummuşdu. Dünən də soyunub təzəcə yerinə girmişdi ki, əmisi oğlu Hadı gəldi, elə divanın ayaq tərəfindəcə durub, arvad səsinə oxşayan nazik, cır səsiylə:

– Ə, sən nə vaxt ağzını yığacaqsan? – dedi. – Nə vaxt sözünə yiyəlik eləyəcəksən?

Arvadı evi yığışdırırdı, Hadıya yox, ərinə baxdı. Əri ağ qıymaçayla başını çəkmişdi, yatacağı da ağappaq idi. Bu ağlığa görə gözlərinin göyü elə üzə çıxmışdı ki, adamı üşüdürdü. Arvad ərinə baxa-baxa:

– Harda nə deyib yenə, bu ağzıyırtıq?

Bəlli Əhməd əllərini başının altında çarpazlayıb gözlərini pəncərədən bayıra dikdi. Arvad Hadıya sarı gedib aşağıdan-yuxarı ona baxdı:

– Sən Allah nə deyib?

– Yenə sədrin ardınca danışıb, birinin üstünə də beşini qoyub çatdırıblar.

Bəlli Əhmədin yalnız üzünün cizgiləri tərpəndi. Hadının gözlərinin qabağında elə bil birdən-birə arıqladı, dəyişib başqa adama oxşadı, ürəyində: – "Əcəb eləmişəm" deyə-deyə:

– Yaxşı, nolub? – dedi, – nə demişəm?

– Demisən ki, yeyir.

– Bəs yeyir daa. Hanı o ot tayaları? Axşam başına dolanırdıq, səhər görürdük yoxdu.

– Pah, nə ayıq adamdı, əə. Qazdı bu, bir şey olmamış qağıldayacaq.

– Sən də elə əzəldən qoyunsan.

– Başını qırxdırıb on beş sutka yatırtmasalar səni, mən heç nə bilmirəm...

Elə-beləcə, Hadını xatırlaya-xatırlaya, onun dünən dediyi sözləri bu gün daha yaxşı anlaya-anlaya mürgülədi... Yuxusunda gördü, kimsə onu itələyə-itələyə aparır. Otunu biçdikləri yarğana yıxılırdı ki, səsə gözlərini açdı, mürgüdən ayıla-ayıla qanrılıb pəncərəyə baxdı, qaranlıq çökmüşdü. Arvadı bayaqdan evdəymiş, oyatmasın deyə barmaqlarının ucunda qurdalanırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kişinin oyandığını görüb:

– Qalx, yerini salım, – dedi.

– Niyə qışqırır Hadı?

– Hadı döyül, arvadıdı...

Əhməd dincəlmişdi, bir çimir almaqla elə bil bütün gecəni yatmışdı, indi də elə bil səhər idi. Səhər tezdən olduğu kimi də ətrafdan sərinlik, təzəlik duyurdu. Göy gözlərinin içinə kimi gərnəşib gülümsədi:

– Hadının səsi arvadının səsinə oxşayırmış ki...

Özü də oğlu Dıqqı kimi gözü yumulu soyunub yerinin içinə girdi. Arvadı onun sümükləri çıxmış çiyinlərinə baxıb üzünü döndərdi, burnunu çəkə-çəkə evin küncünə sarı getdi...

"Milçəyin özü bir şey deyil, amma könül bulandırır..."

Sədr Hadıdan xəbər göndərmişdi ki, Əhmədə elə beləcə də de. De ki, suyu bulandırmasın, özü də içəcək.

Əhməd bundan sonrasını fikirləşmək istəyirdi ki, su qumu yuyan kimi, yuxu da Əhmədi yuyub apardı.

"Kərənti çəkəndən sonra oyaqmı qalmaq olar..." – Hadı deyirdi dünən. Çiyinlərində kərənti ayaqlarını sürüyə-sürüyə biçənəkdən qayıdırdılar.

– Mən də elə sənin kimi şalvarı ayağımnan yata-yata çıxardıram. Mənim gövdəmə baxma, sən sağlamsan vallah, – Hadı bir əliylə kərəntini tutmuşdu, o biri əliylə boydan-boya özünü göstərdi.

– Nəyim sağlamdı, – dedi Əhməd, – çürütdünüz məni.

– Mən sənin qədər hirslənsəm, ölmüşdüm indi.

Arxası üstə uzanmışdı, gözlərinin çökəyindən tər dənələri süzülürdü, ağzı yarıaçıq idi, aram-aram nəfəs dərirdi. "Xətrinə dəyməsin, ata, sənin çox şeydən xəbərin yoxdu, misal üçün, sən bilmirsən ki, biz ikiyə bölünmüşük..."

Oğlu yazırdı şəhərdən. Üç-dörd gün bundan qabaq palanın üstündə oturub oxuyurdu, məktubun bu yerinə çatanda bir şey anlamadığından xeyli baxa-baxa qaldı...

– Bəlkə mənnən özünü deyir, yəni o şəhərdə, mən kənddə.

İşə gedəndə Hadıdan soruşdu:

– Yox, – dedi Hadı, başını bulaya-bulaya – yuxarı məhləylə aşağı məhləni deyir, – əlini kəndin yuxarılarına tərəf uzatdı...

Elə özü kimi arıq, irigözlü, özündən nağıl quraşdırmaqda bütün kənddə ad çıxartmış kiçik oğlu Dıqqı ayaqlığında əynini soyunurdu ki,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yerinə girsin. Atasının mışıltısını nəyinsə su kimi axıb getməsinə bənzədirdi. Gözlərini yumub bir də dinlədi, bu dəfə mışıltını kərənti səsinə oxşatdı... Qulağının dibində anasının pıçıltısını eşitdi:

– Eşşəyi bağladınmı yerinə?

Elə bil səhər tezdən evdən çıxıb, uzanıb-uzanıb yolları, yamacları dolanan bir kəndirə düyün vurulurdu. Yorğunluqdan uşağın dizləri düyünlənməkdəydi. Elə gözüyumulu başını tərpətdi:

– Hə.

– Kirimişcə gir yerinə, atanı oyatma. – Özü də elə geyincəkli yerinə uzandı, bayırdan başlayıb nəyin harda olduğunu fikirləşə-fikirləşə fikrində qapı-bacaya göz gəzdirdi: inəklər naxırdaydı, on beş-iyirmi baş qoyun sürüdəydi, dananı gətirib özü saldı dama, qazları gətirdi; hansı qolu qurumuş vurmuşdu, axsayırdı biri, eşşək də öz yerində. Arvad eşşəyin sulu gözlərini xatırladı, sonra Bilal kişi yadına düşdü: "Yaxşı eliyib elə, girib yuxusuna, yapışıb yaxasınnan". Toyuqlara dən verib, baltanı da kötükdən çıxardıb gətirdi evə. Həmişə böyüklərindən eşitmişdi: "Baltanı bayırda qoyma, oğruya yaraqdı, itini də doyuzdur"... "Həə, it. Gopçuya yemək vermədim". Qalxdı, bir çörəyi yarı böldü, "itə əppək atmazlar, ələ öyrənər"... bu da böyüklər sözüdü.

– İtdimi bu, başına daş. Elə düz deyillər ki, ayaqqabıya oxşayır, – arvad bunu bərkdən dedi, it arvadın səsinə həddən artıq bələd olduğundan onun acığını, hikkəsini, səsini eşidən kimi quyruğunu qısıb bürüşdü, balaca qara burnunun üstünü qırışdırıb peşmançılığını ifadə elədi. Arvad bunu elə belə də anlayıb güldü, yarı çörəyi ona atdı. İt arvadın gülüdüyünü görüb elə bil bir anın içində cildini dəyişdi, zingildəyib ikiqat oldu... Qazlar qağıldadı. Kəndin dərinliklərindən hənirti qalxdı, səs-küy yavaş-yavaş artdı, itlərin səsi, qazların qağıltısı sıralana-sıralana kəndə yayıldı, bir də aydın oldu ki, hər şey bir-birinə bağlı, hər şey bir-birini tamamlamaq üçündü... Qazlar arvadı görüb səslərini – qağıltılarını dimdiklərində döyə-döyə, çeynəyə-çeynəyə təzədən gözlərini yumdular.

Arvad qayıdıb yerinə uzandı, bayaq harda qalmışdı, ordan fikirləşməyə başladı: it qalıbmış, onun da çörəyini verdi. Evdə-eşikdə hər şey qaydasındaydı. "Tfu pis gözlərə, nəyim əskikdi, evim, malım-qoyunum, ərim, oğlum, nolub, eşşəyəcən varımdı, bir sağlıq-salamatlıq istəyirəm". Özünün bu balaca təsərrüfatını – inəklərini, qoyunlarını, beş-altı qazı, eşşəyi, Gopçunu, – hamısını bir yerdə, bir baxış altında gördü, hamısı var-dövlət adı altında birləşib bir üz gətirmişdi, arvad bu ifadəni, bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

baxışı öz içindən görüb ürəklənirdi. "Sabah saçımı yolacam qabağında, özümü didəcəm ki, işin olmasın. Sənin nəyini yeyir sədr, nə gedir sən-nən? Nə gedir, bağdan gedir. Nəyimiz əskikdi, bir parça halal çörək tapırıq, qoy yeyək. Onun əli böyüklər ətəyindədi..."

Bilmirdi harası ağrıyır, amma əlini ürəyinin üstünə qoymuşdu. Diş ağrısı kimi ağrıdı, lap dərinliklərdən, elə bil özündən də uzaqlardan baş-layıb yaxınlaşır, sonra da bütün canına yayılırdı. "Ayıbını yer gizləsin, belə gəlin, işin-gücün bu qızğın çağında ağrımağa vaxt tapdı". – Desəydi ki, ağrıyıram, qonum-qonşu beləcə deyib başına güləcəydi. Hamı bir-birinin bəhsinə, acığına gecə-gündüz ayaq üstəydi, varlanırdılar.

Elə aydınlıq, elə kirimişlik idi ki, kəndin üstünə yağan ay işığı yağışa oxşayırdı... Gopçu gündüz biçənəkdə o qədər siçan tutub yemişdi ki, xirtdəyəcən tox idi. Para çörəyin düz böyründə yumruq boyda olan başını qollarının üstünə qoyub şirin-şirin mürgüləyirdi.

Ay da çörək kimi paraydı... Qazlar başlarını qanadlarının altına soxub tərləyə-tərləyə yatışırdılar.

Dıqqı yuxusunda eşşəyə minmişdi, əlindəki ağacla eşşəyin belini qıdıqlayırdı. Eşşək də elə bil bayırda bunu duymuşdu, tez-tez belinin dərisini səyridirdi. Gecədən keçdikcə yuxular dərinləşməkdə, hər şey öz dibinə çöküb lillənməkdəydi...

Biçənəklərdə yığılıb boy-boya vermiş tayalar kəndin dörd yanına meşə qaranlığı kimi qaranlıq yayırdı. Səhər tezdən yuxudan oyanıb eşiyə çıxan boylanıb, – otu apardılar, – deyəcəkdi, – oyaqdım, eşidirdim, beş-altı maşın qatara düzülmüşdü...

Dıqqı indi də yuxusunda ot tayasına dırmaşırdı. Doğrudan da ot taya-sına dırmaşırmış kimi atasının üstündən aşıb yerə düşmək istəyirdi. Ayaqlarını təzəcə yerə qoyurdu ki, atası oyanıb:

– Yat-yat, – dedi.

Uşaq əvvəlcə donub qaldı: bir anlığa yuxuda da heç nə görmədi, aşkara da. Barmaqlarını titrədə-titrədə oynatdı, dodaqlarını büzüşdürüb fıştırıq çaldı, qayıdıb təzədən yorğanın altına girdi.

Arvad da elə bil axşamdan oyaqmış, ayıq, axşamkı səsiylə:

– Deyəsən, ürəyim ağrıyır, – dedi.

Kişinin yuxusu tamam qaçdı, döndü, bir az aralıdakı taxtda arvadı-nın dolu bədəninin qaraltısını güclə seçdi, axşamkı hirsi, acığı yadına düşdü, kinli-kinli:

– Qursağın olar, – dedi, – səni kimi adamın ürəyi ağrımaz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səhərə yaxın idi, amma yuxulu olduqları üçün ər də, arvad da elə bildilər hələ axşamdandı. Arvad yenə əlini ürəyinin üstünə qoydu:

– Bilmirəm burda nə var, buram ağrıyır. Allahda işin olmasın, bax, onun ağrısıdı çəkirəm.

Arvad kişidən cavab gözləyə-gözləyə təzədən yuxuya getdi. Kişi səhərin gəlməsini havanın iyindən bilirdi, daha yatmaq istəmirdi. Xeyli beləcə uzandı. Birdən-birə ürəyində sədrə cavablar qaytarmağa başladı, amma bilmirdi ki, bu, nə vaxtın, hansı sözün cavabıdı. "– Kərəntimi alacaqlar əlimnən..?"

Xoruz da elə bu vaxt banladı. Kişi qalxıb saata baxdı:

– Yenə bir saat tez banladı bu əclaf, – dedi, elə tuman-köynəkdə bayıra çıxdı. Gopçu para çörəyi qollarının arasına alıb səliqəylə yeyirdi, yerə bir qırıntı da düşməmişdi... Səhərin ayazı su kimi sərin idi. Əhmədə hava dəyən kimi elə bil üzünü yudu, qırışığı açıldı, axşamdan bu vaxtacan yatmağın qaramatı üz-gözündən çəkildi. Ayaqlarının ucuna qalxıb ucu-bucağı görünməyən biçənəklərə baxdı. Elə bil hasardan boylanırdı. Sıralanıb boy-boya vermiş ot tayalarını alaqaranlıqda güclə seçdi.

– Apardılar, – dedi öz-özünə, – daşıdılar.

Bu, xoruz banından sonra bəlkə də bu boyda kənddə birinci səs idi. Eşşək də mürgüdən indi ayıldı, daş döşəmədə ayağının birini götürüb birini qoydu... Qazlar qağıldaşdı, bu da ki, səhər qağıltısıydı: təmiz, cingiltili, ac...

Kəndin camaatı da yavaş-yavaş oyanır, oyanan elə tuman-köynəkdəcə hasardan boylanırmış kimi ayaqlarının ucuna qalxıb biçənəklərə, ot tayalarına baxırdı...

– "Neyləməlidi axı sədr bunnan artıq? Kim ölüb acınnan?!"

Dünən işdən qayıdanda deyirdi Hadı, bu da daha çox camaata eşitdirmək üçün idi. Elə-belə aşıq kimi deyişə-deyişə gəlirdilər.

– Sənə nə vaxt yağ sürtdü, əə, sədr, səni nə vaxt yağladı?! – Əhməd belə deyib kinli-kinli Hadının üzünə gülümsədi. Yorğunluqdanmı, arıqlığındanmı üzünün dərisi dartındı, ağzı əyri göründü. Hadının birdən-birə acığı soyudu, ürəyində: "Bunun axırına çıxacaq sədr..." – dedi.

– Hı? Sənnən söz soruşuram. – Əhmədin gözləri birdən-birə çuxura düşmüşdü, çəkilib elə bil quyunun dibindən baxırdı. – Yoxsa dənciyinə bir şey atıb yenə?

Artıq kəndin içindəydilər. Hadı qapısına sarı döndüyünə görə ürəklənib:



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bə sənin dənciyindəki nədi? – dedi. – Kim verib? – Daha çox sığırçı Söyünquluya eşitdirirdi, bilirdi ki, indicə qaçıb sədrə xəbər verəcək. – Danışırsan da boş-boşuna. – Əhmədin əlindən belə tez qurtardığına görə şükür eləyə-eləyə geri yanına baxmadan uzaqlaşdı. Əhməd sözünü deyə bilmədiyindən hikkəli-hikkəli özünü evə saldı. Dünən axşamkı qışqırmağı da ona görəydi...

Balaca taxta qapını açdı, qazlar boğazlarını uzadıb qağıldaşa-qağıldaşa arakəsmədən çıxdılar. Qazların qağıltısı səhərin bu təmizliyinə şüşə kimi qırılıb tökülürdü.

– Sabahın xeyir, Əhməd!

Dəmir kişiydi, geyinib-keçinib eyvanda dayanmışdı. Üstündən gecə keçməmişdi elə bil; əyin-başında iş gününün nizamı vardı.

– Əyridəki taya görünmür, yenə satdılar deyəsən. Bayaqdan baxıram, gözümə dəymir. – Amma taya Dəmir kişinin gözünə dəyirdi, belə deməyi yalnız Əhmədi qurdalamaq üçün idi. – Yazmağın da xeyri yoxdu, ay Əhməd, yüz yaz, yüz de!.. – Yan-yörəsinə boylana-boylana, – bax beləcə, payızacan satıb yeyəcək çölün otunu, – əlini-əlinə sürtüb silkələdi.

Hadı bayaqdan dayanıb qulaq asırdı:

– Əyridəki taya o döyülmü, a kişi, niyə imanını itirirsən?

– Ay sənin də sabahın xeyir olsun, ay Hadı, doğrudanmı görünür? Yox, elə başa düşmə, gedib sədrin qulağına tərs çatar. Mən demədim ki, elədi. Əhməd ayaqlarının ucuna qalxmışdı, mən də baxdım gördüm...

Eşşəyin belinə şeh düşmüşdü, bozumtul, çal tüklərindən xırdaca-xırdaca damcılar asılmışdı, hava işıqlaşdıqca muncuq kimi parıldaşırdı. Başı sallaq, gözlərini yumub durmuşdu, qarnı acdıqca gün çıxan səmtdən təzə biçilmiş ot qoxusu duyurdu.

Hadı evinin üstündəki dikdirə çıxıb bayaqdan səhər dumanından təzəcə ayazımış düzənliyə baxmaqdaydı. İndicə Dəmir kişiyə, – aparmayıblar, yerindədi, – desə də özünün də ürəyinə gəldi ki, doğrudan da, aparıblar deyəsən. Bunu fikirləşə-fikirləşə hesabladı ki, bu il ona azı on ton ot lazımdı. Gözlərini biçənəklərdən çəkib kəndin içinə baxdı, sədri görmək istəyirdi. Camaat yavaş-yavaş qaynaşmağa başlamışdı. Traktor kimi kənd də bir azdan işə düşüb işləməyə başlayacaqdı. Hələ sakitlik idi. Dəmir kişi ağacına söykənə-söykənə yola çıxdı. Kişinin içində elə bil qurd qımıldanırdı. Ha istəyirdi özünü ələ alsın, bir söz deməsin, bacarmırdı. Ürəyində öz-özünə nə qədər dedi ki, "işin yoxdu, deyəcəklər Dəmir kişi yenə Bəlli Əhmədi qızışdırırdı", – özünü saxlaya bilmədi,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ayaqlarını sürüyə-sürüyə çayın qırağına endi, sovulub, bapbalaca olub, düymə boyda qalmış gözlərini suya dikib Əhmədi gözləməyə başladı.

Əhməd eşşəyi palanlayırdı. "Gəlin bizi – sovxozun halal zəhmət adamlarını başa salın ki, buraların yiyəsi sədrdi, o da nə istəsə, eləyə bilər, biz də çəkilək oturaq yerimizdə..." Bu dəfəki məktubu belə başlayacaqdı.

Toyuqlar hay-küylə tardan enib ütələnir, xoruz aralarında qanadını gərə-gərə səhərin gözü açılmamışdan kişilənirdi. Bəlli Əhməd eşşəyin tapqırını çəkib xoruza baxdı:

– Bir bannamağa lazımsan, andıra qalmış, onu da vaxtında banla.

Kök xoruz idi, yiyə-zad saymırdı. Əhmədin deyintisinə qanadlarını yerə sürtə-sürtə hikkəli-hikkəli qığıldadı.

– Qudurmusan sən, – qonum-qonşudan elə bildilər Əhməd bunu arvadına deyir, – başını elə kəsim ki, sənin! – Başını pəncərənin axşamdan açıq qalmış nəfəsliyindən içəri uzadıb, – xoruzu kəsərsən günortaya, – dedi.

Arvad üzü pəncərəyə, gözüyumulu yerinin içində oturmuşdu. Otağın indi-indi işıqlaşan alaqaranlığından əlini yellədi, yəni, – "yaxşı, get"... Uşaq yuxusundamı gülümsəyirdi, yoxsa üzünə təzəcə sökülən dan yerindən bir qırıq işıqmı düşmüşdü, üzü sevinc içindəydi.

Əhməd uzun qıçlarını eşşəyin belinə aşırıb, kərəntisini də götürüb həyətdən çıxdı. Dəmir kişi körpünün üstündə gözləyirdi, Əhməd yaxınlaşanda suyu göstərdi:

– Bax, – dedi, – gecə apardıqları otdu, çayın başınnan addadıblar.

Əhməd elə eşşəyin belindən aşağı, çaya baxdı. Çayın üzüylə bir lay ot axırdı, əvvəl bilmədi kişiyə nə cavab versin, eşşəyin belindən düşüb, kişinin yanında dayandı.

– Elə-belə də yaz, – dedi kişi.

Dediyinə inanmaya-inanmaya:

– Mən onu diz çökdürməsəm, – dedi Əhməd, – adımı dəyişib it adı qoyacam. – Yavaş-yavaş qızışırdı. Yenə nəsə demək istəyirdi, Hadı gəlib çatdı, qoşalaşıb kənddən çıxdılar. Çıxacaqda Tubu qarı ütələnə-ütələnə yaxınlaşıb eşşəyin noxtasından tutdu:

– Yaz, mən də qol çəkəcəm. Qoy gəlib yoxlasınlar. Gözümnən gördüm, gecənin yarısıydı, beş-altı maşın keçdi.

Hadı hirsli-hirsli eşşəyə bir təpik vurdu:

– Get oğlun yazsın, sən də qol çək. Burax eşşəyin başını!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arvad eşşəyin noxtasını buraxıb əlini belinə qoydu, başını silkələyə-silkələyə:

– Sən yuyulmamış çömçə kimi düşmə ortalığa, səni adam hesab eliyən yoxdu, – dedi.

– Keçənilki sədrdi daa. Niyə keçən il yaxşıydı, öpüb gözüyün üstünə qoyurdun, bu il pis oldu? Ona görə ki, oğluna havayı vermədi maşını. Hə?

– Sən get qab dibi yala, bəlkə qarnın doya, – qarı silkələnə-silkələnə uzaqdan-uzağa kül elədi. – Sənin atan da ələbaxanıydı.

Hadı kərəntisini dikəldib geri yüyürdü:

– İmanın-dinin qalmaz, atamda işin olmasın.

Tubu qarı tələsik özünü həyətə saldı. Ətəyini silkələyə-silkələyə eyvandan çığırmağa başladı. Nə dediyi anlaşılmırdı. Eləcə çığırtısı gəlirdi. Elə bil nəsə olmuşdu, elə bil: – ev yanır, köməyə gəlin, – deyirdi.

Bir dəstə əlikərəntili kişi kəndin içində sədrin başına yığışmışdı. Sədr əliylə biçənəkləri göstərirdi. Bəlli Əhmədin yaxınlaşdığını görüb hamı üzünü döndərdi. Hadının salamını da alan olmadı. Kimsə quru-quru öskürüb içini arıtdı. Əhməd udqunub eşşəyin belində özünü bir az da dartdı. Sakitcə, xırıltılı səslə:

– Gör o içini arıdan köpəyoğlu kimdi? – dedi.

– Əşşi, bəsdi, – dedi Hadı, camaata eşitdirə-eşitdirə, – adamlığın olsun, axırda salamımızı da almadılar, gördün?!

Əhmədin hikkəsi yenə kəlləsinə vurdu, yəqin hirsləndiyi üçündü, birdən-birə elə yüngülləşdi ki, eşşək elə bildi belində adam yoxdu, yalınca gedir.

– Kim idi öskürən? O içini qaynadan kim idi? De, adamımı tanıyım. O, öskürmək deyildi, o, söz idi.

– Eşşəyini sür, axırda elə ikiniz qalacaqsız, – Hadı başıyla eşşəyi göstərdi, – bir mənəm, mən də çıxıb gedəcəm yanınnan.

Əhmədin uzun ayaqları eşşəyin qarnının altında bir-birinə dəydi. Nəsə demək istəyirdi, sığırçı Söyünquluyla arvadını görüb susdu. Arvad gözünün ucuyla Əhmədə baxıb yaşmağının altından ərinə:

– Salam vermə, – dedi, – sədr baxır.

Söyünqulunun bir andaca içi kinlə doldu, qaşı-qabağı yerlə süründü. İndicə istəyirdi Əhmədlə zarafat eləsin: "– Ə, Bəlli, gecə yatmamısan deyəsən, yazmısan..." – fikrində hələ barmaqlarını qələm kimi tutub yazmağa işarə eləmişdi, arvadı elə deyəndə dilinin ucundan qayıtdı, arvadını da dartıb yolun qırağına çəkdi, üzünü döndərib yan keçdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*– Elə bil nalbənd yanınnan keçir, dəvə oğlu, dəvə... –* Əhməd də Söyünquluya yenicə demək istəyirdi: "Nə təhərsən, ə, qazycyən..." – gördü ər-arvad bir-birinə qısılıb divara sığına-sığına getdilər, eşşəkdən düşüb, qanrıldı, kəndin içinə tərəf baxdı. Biçinçiləri aparan maşın sədrin *"Villis"ilə dalbadal gəlib ortalıqda dayandı. Biçinçilər* üstüaçıq maşına dırmaşıb kərəntilərini tiyəsi yuxarı, sapı aşağı bir küncə yığdılar. Bəlli Əhmədin oğlu kərəntiləri bu cür leyləyə oxşadıb bir nağıl quraşdırmışdı. Kim harda görürdü: – a bala, – deyirdi, – bir o leylək nağılını danış...

Elə dünən sədr də dedi:

– Bura gəl, əə, atan kimi tərs olma sən də. Bir danış görüm. Nə yazmısan leyləkdən?!

Uşaq əvvəl bir şey anlayammadı, çünki bilirdi ki, nağılı yazmazlar, Xası müəllim də neçə dəfə demişdi, nağıl ağız ədəbiyyatıdı. Sədr qurama, düzəltmə, daha doğrusu, yalançı bir istiqanlılıqla belini azacıq əyib uşağa baxıb gülümsədi: "– Nə düşmüsən ortalığa, savadsız, ananımçi köpəyoğlu, başınnan elə basaram, yerə girərsən", – ürəyində uşağın atasına deyirdi, üzündəki ifadə də bir az bu fikrə çilət vururdu. Aşkara:

– Necə yazırsız? – dedi. – Sən bu pəncərənin ağzında oturub yazırsan, atan o pəncərənin ağzında, həə?

Kərəntiçilər bir az da üstə qoya-qoya uğunub getdilər...

O vaxt Bəlli Əhmədlə Hadı bir az aralıda çayın yaxasını biçirdilər. Əhməd əlini gözünün üstünə qoyub soruşdu:

– Bizim uşaqdı o?..

İndi biçinçiləri aparan maşın kənddən aralanmışdı. Kərəntilərin tiyələri səhər günəşinin şüası altında bərq vurur, yamaclara parıltı sancılırdı. Biçənəklər şehli olduğuna görə su kimi parıldaya-parıldaya ləpələnirdi.

– Yaxşı, sən bilən niyə belə elədi sığırçı Söyünqulu? – Əhməd bunu deyə-deyə fikrində ayrı şeyi dolandırırdı. "Yenə sədrə nə işi düşübsə... ona görə əzilir": – Hıı, Hadı əmioğlu, səncə nolar bu?

– Özünü bicliyə qoyma. Guya bilmirsən ki, oğluna iş istəyir? Neçə vaxtdı, özü sədrin odununu yarır, arvadı çörəyini bişirir.

Bayaq üstüaçıq maşınla gələn biçinçilər qatara düzülüb eyni ahənglə, – yəni hər nəfəs dərdikcə bir qol kərənti çəkə-çəkə bir az aralıdan axıb keçən çay iş gördüyünü bilməyə-bilməyə böyük işlər gördüyü kimi, üstlərindən keçib getməkdə olan Vaxtın nizamı, dəqiqliyilə ot biçməkdəydilər.

– Özün də, "ay yedilər, ay dağıtdılar", deyirsən, amma hər axşam bir eşşək yükü ot aparırsan evinə. Düz adamsansa niyə saxlayırsan eşşəyi,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

indi eşşək saxlayan var? – Hadı bunu o qədər birdən-birə, gözlənilmədən dedi ki, Əhməd üz-gözünü qırışdırıb xeyli fikrə getməli oldu. Pencəyini təzəcə çıxartmışdı, kərəntini götürüb ora-bura boylandı.

O işini bilir, sözü çox idi, amma Hadının dediyi o qədər ağlına batdı ki, kərəntini bir-iki vurandan sonra elə bil yoruldu:

– Gəl sən qabağa keç, – dedi.

Yerlərini dəyişdilər, Hadı qabaqda, Əhməd dalda eyni ahəngə düşüb kərənti çalmağa başladılar. Yaşıl yamacın hər səmtindən kərənti səsi gəlirdi ki, bu da çayların, küləyin, başlarının üstündə seyrək-seyrək qıy vuran quzğunun, təpələrin o üzündən gələn naxırçının səsi kimi buraların doğma bir səsi idi.

İş Əhmədin hikkəsini-kinini yuyurdu. Gödəkçəsini də çıxartdı, gümrah, yenilməz səslə:

– Kərəntiyə "peyğəmbər əli" deyənin atasına rəhmət, elə bil ovuşdurdular məni, – dedi, bərkdən qışqırıb şövqlə kərəntini endirdi. Səsi enlənə-enlənə, böyüyə-böyüyə təpəliklərə, yamaclara yayıldı. Bu eləbelə boş yerə qışqırmaq deyildi. Bunun mənasını Hadı yaxşı bilirdi. Əhməd ot biçdiyi yerdə qışqırırsa, deməli, sədr hardadısa buralardadı. Hadı başını qaldırıb boylandı.

Sədrin "Villis" maşını biçənəklərin yaxasıyla gəlirdi. Həmişə olduğu kimi indi də burulub Əhmədgildən xeyli aralı keçdi. Həmişə olduğu kimi, biçinçilər indi də Əhmədin səsinə səs verib çığırışırdılar, sonra da gülüşmə səsi gəldi. Əhməd gözünün ucuyla sədrin maşınının ardınca baxdı, gündən yanıb, qaralıb damar-damar olmuş, arıq üzünə, boybuxununa yaraşmayan, odun parçasına oxşayan əzələli qolları gərildi, çiyinləri qalxdı, boynu içinə batdı:

– Əl çəkmiyəcəm, – dedi, – gecədə birini yazacam.

– Nə keçəcək əlinə, nəyin yiyəsi olacaqsan, – Hadı nəfəsini dərib dikəldi, kərəntinin sapını yerə sancıb bülövü çıxartdı, itiləyə-itiləyə, – yazan Qaraxan müəllim kimi yazar, bir şerinə sədr bir maşın ot verdi, – dedi, – pulsuz-parasız.

* * *

Eşşək aralanıb yarğanın qaşında otlayırdı. Külək əsib çəni-dumanı çözələyirdi. Bayaqdan çən-çiskindən başı görünməyən dağların birdənbirə döşü açılmışdı. Dumanın, çənin açıldığını eşşək də hiss elədi, yönünü sazağa sarı döndərib, uzun kirpiklərini qırpa-qırpa təklik-tənhalıq yağan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gözlərini yaylaqlara zillədi, baxdı-baxdı, sonra qulaqlarını əl kimi yeləyə-yelləyə yanıqlı-yanıqlı anqırdı.

– Qəribsəyir, – dedi Əhməd, – keçən il bu vaxtlar yaylaqdaydı.

Eşşək keçən il yaylaqda günün elə bu vaxtı başını bir vedrə südə soxub içirdi. İndi yaylaqdan xeyli aşağılarda o vaxt içdiyi südün tamınımı xatırlamışdı, yoxsa ordakı tayımı yadına düşmüşdü...

Yazbaşı çoban Bilal Əhmədin yanına gəlib eşşəyini istədi:

– Eşşəyini ver, yaylaqdan enənəcən işlədim, – dedi, – üstündə bir motal pendir verərəm.

– Mənim eşşəyim tərsdi, qardaş, acığını tutduracaq, sən söyəcəksən ki, ay yiyəsi beylə-şeylə olmuş.

– Ayıb olsun sənə, mənim adamlığım yoxdumu-nədi, yiyəsini söyəm.

– Yox, qonşu, xətrinə dəyməsin, sən bir az ağzından dağınıqsan, söyüşcül adamsan, ona görə deyirəm. Min, apar, bir eşşək nədi ki, qurbandı sənə.

Çoban elə Əhmədin qapısının ağzındaca çomağına dirənib atdanıb eşşəyin belinə mindi.

Qara-qırmızı adam idi, üzü turpa oxşayırdı. Eşşəyə minəndən sonra qolunu qaldırıb silkələdi, Əhməd bunu heç nəyə yozammadı, bilmədi nə demək istəyir. Kişi dolu, bərk barmaqlarını yumub yumruğunu eşşəyin qulaqlarının arasından Əhmədə sarı uzatdı:

– Oğulsan, – dedi, boylanıb ora-bura baxdı, eşşəyin belinə bir az da sıxılıb, pıçıldadı, – sədrləri ki belə sıxışdırırsan, kişisən vallah! – Eşşəyin boynuna vurub döndərdi, bir az aralandı, nə fikirləşdisə qanrıldı, – eşşəkdən də nigaran olma, elə bil qazanca göndərmisən, bir motal pendir az deyil.

– Oğlun nə təhərdi, qazanıb-eliyə bilirmi, pul-zad göndərirmi, işi-gücü necədi? – Əhməd gülümsəyib əlini belinə qoydu.

– Yox, əşi, qazancı yoxdu, əksinə, mən göndərirəm, – ürəyində, – "ay köpəyoğlu, sancmasa ölər", – dedi.

Beləliklə, Əhmədin boz eşşəyi getdi düşdü yaylağa. Kənd elə bil eşşəkçün "zoopark"mış; yaylaq başdan-başa kef idi, anqırıb-anqırıb özünə bir-iki də tay tapdı, bir ayın içində kökəlib az qala at boyda oldu. At kimi də şahə qalxıb dörd oynayırdı. İşi-gücü də yox idi, gündə iki dəfə arxaca su gətirirdi, vəssalam. Hərdənbir Bilal kişi minib dağ yuxarı, çınqıllıqlarla sürüb çimməyə gedirdi. Çox vaxt, daha doğrusu, hava quraq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

keçəndə eşşəyi də çimizdirirdi. Dağların ağılkəsməz, gözgörməz yerində göz yaşı kimi dumduru gölə girib ikisi də dinməz-söyləməz çimirdilər... Günortaüstüydü, çobanlar sağına əyləşmişdilər. Eşşək təzəcə sudan gəlmişdi. Su qablarını belindən aldılar.

– İlahi, mal da yiyəsinə belə oxşayarmış, – dedi, su gətirən çoban, sağınçılara tərəf gəldi.

Onda eşşək çobanlardan azca aralı başını süd qabına salıb ləzzətlə süd içirdi.

– Aya, eşşək südü içdi! – Bilalın səsi dağı-daşı lərzəyə saldı, az qaldı kənddə də eşitsinlər. Hərə bir ağac götürüb eşşəyi budadı. Bilal da yüyürdü: – Başına vurma, yiyəsi ölmüşün əlindən qurtara bilmərik. – Özü eşşəyin qulaqlarından yapışıb üzünə tüpürdü: – Tfu, sənin ağzını!..

Eşşək ağzından süd dama-dama qaçıb aralandı. Axşamacan ağzını ota vura bilmədi; yanındakılar otdadı, o baxdı...Gecədən keçmişdi, Bilal yapıncısına bürünüb arxacın bir qırağına uzandı. Yuxu da bürüncək kimi bu sağlam, qırmızıyanaq, turpa oxşayan kişini birdən-birəcə bürüdü. Yatan kimi də yuxu gördü... Gördü eşşək ağzından süd damcılaya-damcılaya gəldi, kişiylə üz-üzə durub düz gözlərinin içinə baxdı. Eşşəyin ağzından süd iyi gəlirdi. "Utanmadınmı, – dedi eşşək, – bu çal vaxtımda məni niyə söydün?.." Kişi dik atılıb yapıncının arasından çıxdı, gördü eşşək, doğrudan da, düz ayağının ucunda dayanıb mürgüləyir. Qalxıb belinə bir-iki ağac vurdu. Eşşək ağrısını içindəcə çəkə-çəkə aralandı. Kişi: – "Lənət sənə, kor şeytan", – deyib təzədən yapıncıya büründü. Azmı yatmışdı, çoxmu, eşşək yenə yuxusuna girdi : – "Utanmadınmı, mənim ağzımı söydün?!" Kişi onsuz da səksəkə içində yatmışdı, gözlərini açan kimi yenə eşşəyi başının üstündə gördü:

– Sənin yiyən beylə-şeylə olsun, bəsdi daa... – Eşşəyi yenə döyəcləyib qovdu. "Nə zibilə düşdüm mən?!" Səhərəcən də gözlərinə yuxu getmədi. Obaşdan qalxıb sürünü yamaca çəkdi. Daha eşşək gözə dəymirdi. O gün sürünün yanında axşamacan özü öz yuxusuna güldü... Gecənin yarısı yenə yatmışdı, gördü eşşək hardansa qaça-qaça gəldi, başını bulayıb: "Utanmadınmı, qoca yaşımda ağzımı niyə söydün?!" – dedi.

Bilal kişinin bağırtısına o biri çobanlar tökülüşüb gəldilər. Aləm qarışdı bir-birinə, itlər səs-səsə verdi, qoyunlar mələşdi.

– Noldu, a kişi? Ay Bilal dayı!..

Eşşək ay işığının altıyla adam kimi geri yanına baxa-baxa aralanmaqda, Bilal kişi də daşa-kəsəyə ilişə-ilişə eşşəyi qovmaqdaydı.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ay Bilal dayı...

– Əə, bu yiyəsi ölmüş dəli eliyəcək məni, – alaqaranlıqda yerə çöküb özü-özünü didişdirdi, – ağlımı itirirəm mən, vallah!

– Nolub axı, neyniyib bu yenə?

Bir azdan gülüşmə arxacı bürümüşdü. Bayaq aydınlıq idi, indi göz-gözü görmürdü, bir-birinin üzünü görməyə-görməyə də uğunub getmişdilər. Bilal kişi də gülürdü. İşıqlaşanda gördülər, eşşək bir az aralıdaca dayanıb düz Bilal kişiyə baxır.

– Başınıza dönüm, aparın qaytarın bunu yiyəsinə, – dedi Bilal kişi...

İndi yayın axırıncı ayı idi, elə bil bu yerlərin havası da payızın mer-meyvəsi, biçənəkləri kimi dəyib yetişmişdi, yazbaşının havası təki nəmli, sulu deyildi. Yaylalardan üzüaşağı külək əsib biçinçilərin yanından gözlərini dağlara zilləyib darıxa-darıxa arxaclara baxan eşşəyin burnuna süd qoxusu gətirirdi. Eşşəyin də bayaqdan qulaqlarını boynuna yapıqdırıb yanıqlı-yanıqlı anqırmağı ona görəydi.

– Qızıl da versələr satmıyacam bunu, – dedi Bəlli Əhməd, eşşəyə baxdı. – Bu ki çoban Bilalın başına o oyunu açıb, qoy qocalsın, öz əcəliynən qapımda ölsün.

* * *

Günorta olduğundan biçinçilərin tərpənişində ağırlıq, ləngər əmələ gəlmişdi, səhərki hay-küy yox idi. Bölük-bölük olub yamaclara döşənmiş kərəntiçilər artıq hər şeyi unudub işə qaynayıb-qarışmışdılar; qolları saat əqrəbi kimi eyni ahənglə, bir qaydada enib qalxırdı, VAXT da üstlərindən elə beləcə, bu ləngərlə keçib getməkdəydi...

Əhməd elə deyəndə Hadı da dikəlib nəfəsini dərdi, qanrılıb eşşəyə baxdı:

– O vaxtdan mən də xətrini çox istəyirəm bunun, – dedi, – güldü. Eşşək birdən səksənib yerində dörd dolandı, ceyran kimi ayaqlarını gərib, boynunu döndərdi, elə bil ceyran kimi də qaçacaqdı. Hadı da, Əhməd də yola sarı boylandılar.

– Gopçu gəlir deyəsən, – Hadı belə deyib bir çəngə otla kərəntisinin ağzını silib bülövləməyə başladı. Gopçu da ağzında siçan otluqdan çıxdı. Şehə, suya batdığından tükü tükünə yapışıb, bir qırıq olub telefon dəstəyinə oxşayırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bu hürməz innən belə, – dedi Hadı, – bu qədər ki siçan yeyir bu, hürməz.

– Əvvəllər hürürdümü ki?

Gopçu onların özlərindən daha çox səslərinə, danışıqlarına quyruq bulayıb, "gəlmişəm", dedi.

– Uşaq hanı bə? – Əhməd o yan-bu yana boylandı, – acmışam yaman.

Sədrin "Villis"i biçənəklərin arasıyla kəklik kimi səkə-səkə keçib onlardan bir az aralı dayandı. Dıqqı maşından düşüb əlində də bağlama atasıgilə sarı gəldi.

– Aaax, satqın köpəyoğlu! – Əhməd oğluna sarı dişini qıcayıb, kərəntini bir yana, papağını bir yana tullayıb biçdiyi zoğun üstündə oturdu. Uşaq eşşəyin yanında dayanıb başını aşağı salmışdı, yaxınlaşmağa ürək eləmirdi. Hadı uşağa sarı getdi, bağlamanı alıb özünü də darta-darta gətirdi. Balaca əl qazanından xörək iyini canına çəkə-çəkə:

– Nolub, – dedi, – neynib fağır?

– Düşmənimin maşınında gəzir küçük! – Əllərini düyünləyib dişlərini bir-birinə sürtdü.

– Yaxşı, üz-gözünü açma uşağın.

Əhməd balaca qara qazanın ağzını açdı, axır vaxtlar bir saat tez banlamağa başlamış ları xoruzun budlarını görəndə, necə hirslənmişdisə, eləcə də yumşaldı:

– Nə soruşdu, əə, sənnən?

– Kim?

– Zəhrimar kim. Sədr!

– Heç nə.

Uşaq arıq, nazik qıçlarını qatlayıb biçilib yanqurumuş, alaçiy ot zoğunun üstündə oturmuşdu... Sədrin səsini öz içindən bir də eşitdi, – "axşam atan yazı yazırdımı, a bala? – Yox. – Bəs dünən? Dünən qardaşıma məktub yazırdı. – Ruçkası nə rəngdə yazırdı? – Yaşıl. – Vəssalam, elə odu!"

Uşağa çox şeylər aydın deyildi. Başa düşəmmirdi ki, sədr atasının yazı yazmasıyla, ruçkasının rəngiylə niyə belə maraqlanır, atası kimlə dava eləyir, nədi davasının adı... Çaşıb qalmışdı. İstədi ki, elə bu iki daşın arasında əmisindən soruşsun ki, – Hadı əmi, "Nuhdanqalma" nə deməkdi? Atasının qorxusundan dinmədi...

Gopçu bir az aralı, günün altına uzanıb özünü quruda-quruda arabir Əhmədə baxırdı. Uşağın da gözü atasındaydı. Bir az aralı, yamacın bir dikdirində iki-bir, üç-bir olub oturmuş biçinçilərin də sözünün başı-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ayağı Bəlli Əhməd idi. Dəmir kişinin oğlu Nuh da ağzındakı tikəni udub başıyla Əhmədi göstərdi:

– Amma zalım oğlu onu yaman yazmışdı.

– Nəyi? – dedilər.

– Yazıbmış ki, tikintinin qapısına bağlanan it də qocaldı, amma üstü hələ də örtülməyib.

Uğunub getdilər, qəhqəhələrini kəndin əl-ətəyində də eşitdilər. Əhməd təzəcə çörək kəsmişdi, ayağa qalxıb üzünü biçinçilərə sarı çevirdi. Hadı qazandakı xörəyi iki qaba çəkirdi.

– Aşağı otu, – dedi, – başına güldürmə camaatı.

– Yox, onnar mənə gülür, – dedi Əhməd, nə eləyəcəyini bilmədiyi üçün yerindəcə dörd fırlanıb, eşələnib təzədən oturdu. Hadı xoruzun budlarını da bölüb hərəsini bir qaba qoydu:

– Ayrı *yeyək, – dedi, – bir yerdə yeyəndə sən ac qalırsan.*

Dıqqı hələ də fikirləşirdi ki, görəsən "Nuhdanqalma" nə deməkdi? Atasının hirsini-hikkəsini duyub heç nə soruşa bilmədi, qalxıb eşşəyə sarı qaçdı. Gopçu da mürgüdən ayılıb gərnəşdi, o da Dıqqının ardınca götürüldü. Bir azdan üçü də multfilmlərdə olduğu kimi bir-birinə qarışa-qarışa çayın qırağında oynayırdılar.

– Nə yaxşı kəsdin xoruzu, xeyir olsun?

– Vaxtınnan bir saat tez bannayırdı, gic eləmişdi məni, – əlini gözlərinin üstünə qoyub təpənin ətəyiylə keçən yola baxdı, – Məti kişi döyülmü, ə, Daştəpənin dükançısı?

Hadının tikəsi əlində qaldı:

– Neynəyirsən? – o da yola sarı baxdı. – Odu deyəsən, yazdığını göndərəcəksən yenə?

– Həə, – Əhməd əlini döş cibinin üstünə qoyub boylandı. – Elə dediyin kimi yazmışam ki, bizimki sədr döyül, ağadı. Bu yaxınlarda da, yazmışam, özünə nökər götürüb, sığırçı Söyünquluyla arvadını qarabaş eliyib. Söyünqulu çöl işini görür, arvadı ev işini. – Udqunub civildəyə-civildəyə güldü.

Hadı da gülümsədi, elə bil birdən-birə kimisə söyüb-söylənib, hirsini boşaldıb dincəlmişdi. Üzə vurmasa da, ürəyinin dərinliyində Əhmədin yazmağından xoşu gəlirdi:

– Sən hər adama etibar eləmə, – dedi, – məktubu verərsən Mətiyə, o da aparıb qoyar sədrin ovcuna.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yox, mən adamımı tanıyıram. Məti yaxşı kişidi, üç-dörd məktub göndərmişəm onunla. Birini elə aparıb düz şəhərdən salmışdı. – Əhməd belə deyib diziüstə durdu, yenə yola sarı boylandı. – Bə bu heç axsamır, ay Hadı, Məti döyül, deyəsən.

– Görmürsən, yanını çəkə-çəkə gəlir, iməkləməyəcək ha.

Balacaboylu, seyrəkdişli, gülməli oldu, olmadı, hər şeyə, hər sözə gülən Məti kişi biçənəklərin arasıyla qalxa-düşə yaxınlaşmaqdaydı. Ayağının biri anadangəlmə gödək olduğundan elə bilirdin yerimir, balaca-balaca arxlardan hoppanır.

– Gəl, ay Məti, qaynanan nə çox istəyir səni, – Əhməd əllərinin ikisini də Mətiyə sarı uzatdı. Məti başını silkələyib pıqqıldadı, əvvəlini bərkdən güldü, sonra səsini içinə salıb uğundu:

– Bir qayınanam var ki, qoynunda alma gəzdirir, mənimçün. – Süfrənin bir qırağında oturub əlini Əhmədin qabına uzatdı.

– Ye, ye, – dedi. Əhməd xoruzun budunu ona sarı itələdi.

Məti xeyli Əhmədin üzünə baxdı, baxdı, sonra xoruzun budunu götürüb başından yuxarı qaldırdı, elə bil sağlıq deyəcəydi.

– Sən bu elin Koroğlususan, halal olsun səni doğan anaya. Gecə nə yazırsan səhəri ovcumuzdadı, hamısını bilirik. Məktubun varmı, ver aparım, – özü-özündən səksənib əlini ağzının üstünə qoydu, pıçıldadı, – ver, şəhərə gedirəm.

– Tələsmə, çörəyini ye, – dedi Hadı.

Məti kişi xoruzun budunu gəmirib dikəldi, Əhmədi bir də gözdən keçirib, onun ensiz, dar çiyinlərindən sallanan yoğun, köntöy, əzələli qollarına, düyün-düyün olub hərəsi bir yana əyilmiş kimi görünən barmaqlarına baxdı, barmaqları mürəkkəbliydi. Yenə əvvəlcə bərkdən güldü, sonra xırdalaya-xırdalaya, səsini yığa-yığa susdu:

– Onu ki o boyda xərcə salmısan, bəsdi!

Hadı göz görə-görə ağırlaşıb enlənirdi, yedikcə qurdalanır, otun içində elə bil özünə yuva düzəldirdi. Mətiyə yanpörtü baxıb gəyirdi:

– Sizin kənddə nə var, nə yox?

Məti yenə pıqqıldayıb güldü, yerini dəyişib dizin-dizin Hadıya sarı gəldi:

– Bizim kəndə elə yaxşı ad qoymusuz, "buynuzsuz inək". Bizim kənddə heç nə, nolacaq...

Susdular... Gopçu gəlib bir az aralıda quyruğu üstə şöngüyüb yeyənlərin ağzına baxırdı. Məti xoruzun budunu gəmirməkdəydi, dişlərini şaqqıldatdıqca Gopçu dalı-dalı geri çəkilirdi. Ağzında sümük:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bilirsiz, – dedi, – camaat bir-birinin acığına, bəhsinə nələr eləyir?

Nə Hadı dilləndi, nə Əhməd. Bu sözü son vaxtlar hamı deyirdi. Ata oğluna, ana qızına deyirdi. O kənd bu kəndə, bu kənd o kəndə deyirdi: "Ay bala, ay oğul, indi xeyirsiz övlad heç kimə lazım deyil, gör camaatın uşağı oğrun-oğrun qapıya nə qədər ot yığıb, səninki hanı bə?!."

– Bir-ikisi bizim kənddə də başlayıb yazmağa, – Məti belə deyib ayağa durdu, üst-başını çırpa-çırpa irişdi. – İstəmirdim deyəm, özümü saxlayammadım, – gözlərini yumub səssiz-səmirsiz uğundu, elə bil suyun altındaydı, üstüylə su axırdı, saçı-saqqalı, bığı kirpiklərinəcən bir səmtə yapıxmış kimi göründü, sonra əlini cibinin üstünə qoydu, – budu, bax, məktublarını aparıram, varındısa ver səninkini də aparım. – Bayaq gəmirdiyi sümüyü indi də Gopçu gəmirirdi.

Əhməd onun balağından dartdı:

– Aşağı otur, dörd yanım düşməndi, baxıllar!

Məti təzədən oturdu. Əhməd səliqəylə bükülüb otun üstə qoyulmuş pencəyinin cibindən çıxardığı məktubu elə tutmuşdu ki, elə bil quş idi. Dörd yanına boylana-boylana Mətiyə sarı uzatdı:

– Qayıdanda da sizinkilərə de ki, otdan yazsınlar, ot həm də ətdi, süddü. Hələ təzədilər, yazdıqca dərinə gedəcəklər.

– Sən oxumamış professorsan, heç kəs sənə tay olmaz. – Məti belə deyib təzədən ayağa durdu, – dediyini də çatdıraram bizimkilərə. – Papağını çıxarıb bir-iki kərə başını tərpətdi, bu onun sağollaşmağıydı, amma o biri biçinçilər elə bildi Məti papağını onlarçün qaldırıb onlara salam verir, hamısı birdən kərəntilərini yelləyə-yelləyə qışqırışdılar...

Xəlbirdən tökülürmüş kimi seyrək-seyrək bir-iki damcı yağış düşdü. Havanın, günün elə vaxtıydı ki, dörd tərəf adam kimi gülümsəyirdi. Bu bir-iki damcı yağışı görüb, hamı – kənddə kənddəkilər, burda burdakılar, yaylaqda yaylaqdakılar bir-birinin üzünə baxdı, – yəni, birdənbirə bu nəydi...

Yaylaqda Bilal kişi elə təzəcə demişdi ki, eşşək yuxuma girib, üzünə damcılar düşdü, qoyun sağa-sağa başını qaldırıb göyə baxdı:

– Boş şeydi, – dedi, – çoban alladır.

Əhmədin qara qoyunu bərənin alçaq yerini təzəcə bələdləmişdi ki, atdanıb qaçsın, Bilal kişi papağını yelləyib:

– Qoymuyun, – dedi, – yiyəsi ölmüş sürünün başını çəkib qaçırdacaq!

Bərəçi ağacla qoyunun burnuna vurdu. Qoyun fınxıra-fınxıra xeyli başını soxmağa yer gəzdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Gizlənməyinə baxma, – dedi Bilal kişi, – gözü ki aldı, qaçacaq. Onun yiyəsinə Bəlli Əhməd deyəllər.

– Ay gidi Bəlli, – dedi çobanın ən yaşlısı, – yadınızdadımı, sədr qonaqlarına qoyun kəsdirmədi ki, Əhmədin dəftərinə düşərik.

– Nolsun, aşkara biri kəsiləcəydi, gizlində beşi kəsildi. Budu, bax, Bəllinin xeyri...

Yaşlı kişi susub gözlərini qabdakı südə dikdi. Qara qoyunun ağrısı azaldığı üçün yenə boylanırdı ki, qaçsın. Bayaq burnuna dəyən ağacın ağrısıyla, Bilal kişinin acıqlı səsiylə, bərəçinin ətəyini yelləyə-yelləyə qışqırmağıyla keçib getməkdə olan vaxtın içində elə bir an vardı ki, qara qoyun da bütün canı-qanıyla bu anı, bu fürsəti gözləyirdi, atdanıb qaçsın... Yaşlı kişi südə baxa-baxa fikirləşdi ki, Bilal düz deyir, gizlində beşi kəsildi... Qara qoyun da elə bu vaxt düz onun çiyni üstündən atdanıb qaçdı, dalınca da beş-altısı; süd dağıldı, aləm bir-birinə dəydi.

– Ə, bunun yiyəsi ölsün, – dedi Bilal kişi, – bunun yiyəsi kəndi bir-birinə qatmayıb?

Yaşlı kişi yaşına yaraşmayan cəldliklə qalxıb qara qoyunun ardınca götürüldü, qarmağı atıb qoyunun ayağından yapışdı.

– Vurma, yiyəsi köçürdər bizi. – Bilal kişi hirsindən qapqara qaralmış yaşlı kişiyə doğru qaçdı. Yaşlı kişi nə eləyəcəyini bilmədiyi üçün qara qoyunun çənəsindən yapışıb var gücüylə sıxdı, amma acığı soyumurdu, elə bil onun özünü boğurdular. "Vurma!" Bilalın səsi çəkic kimi beyninə dəyirdi. Bilal çathaçatda kişi qoyunun dodaqlarını ağzına alıb gəmirdi. Kişinin də, qoyunun da ağzı bir anın içində al qana boyandı. Kişini ağzı qanlı-qanlı dartıb araladılar.

– Bu köpəyoğlunun malı bunnan üç kərədi üstümnən atdanır.

* * *

Hava apaydın idi, göyün bir yerindən ilişib qalmaq üçün bir parça bulud da yox idi, amma yağış damcılayırdı... Biçinçilər yeyib dincəldiklərindən tərpənişləri, hərəkətləri səhərkinə oxşayırdı. "Hey, heey!" səsləri yaylaqlaracan yayılmışdı. Bir Bəlli Əhməd Hadının ardınca həvəssiz-həvəssiz qolunu döyürdü.

– Mən bu gün ac qaldım, – dedi, sonra başını qaldırıb yola baxdı, Məti bir yanı üstə batıb çıxa-çıxa biçənəklərin arasıyla gedirdi. Elə bu vaxt sədrin "Villis"i təpələrin arasından çıxıb Mətinin yanında dayandı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əhmədin gözü görə-görə Məti sədrin maşınına minib uzaqlaşdı. Əhməd Hadının baxışlarındakı "birdən məktubu sədrə verər" fikrini anlayıb:

– Yox əşi, elə şey eləməz, – dedi, amma elə bil ürəyinin bir yanı sökülüb içinə töküldü.

– Sənin ağlın yoxdu, o təsərrüfatı gəzmir, maşına minib səni güdür, – dedi Hadı, – indi aparacaq Mətini düz rayona, üstünü gəzdirəcək.

– Nə danışırsan, əə? – Əhmədin səsi birdən-birə elə dəyişdi ki, Gopçu onu ayrı adam bilib səsinə hürdü, kərəntini atıb yaxınlıqdakı dikdirə qalxdı. Təpəyə dırmaşdığı üçün uzun, arıq bədəni əyiş-üyüş oldu, iri ağac gövdəsindən tərsinə bitmiş düyünlü, quru budağa oxşadı. Hadı başını qaldırıb soruşdu:

– Ha tərəfə getdilər?

– Odu, düşdü, – dedi Əhməd, – avtobus yolunda "Villis"dən düşdü. – İndi-indi özünə gəlirdi. Narahatçılığı çəkildikcə hikkəsi qalxırdı. Nəyə, kimə hirsləndiyinin də səbəbi o qədər aydın deyildi. Burnunu çəkə-çəkə gəlib kərəntini götürdü, – mən bu gün ac qaldım, – dedi bir də, – çolaq tülkü xoruzu basdı yedi.

– Yaxşı, işini gör, çörəyini ye, danışma.

Susdular. Dörd həndəvərdə yalnız kərəntilərin öz tiyəsinə oxşayan iti, parlaq, elə öz tiyəsi boyda kəsik-kəsik, qırıq-qırıq səsi qaldı.

Dıqqı eşşəyi çayın dərin yerinə salıb çimizdirirdi, amma eşşək elə bil suda deyildi, uzun kirpiklərini qapayıb ara-sıra sulu-sulu mürgüləyirdi... Daha çox oyuncağa oxşayan Gopçu yarğanın qaşından elə bil tamaşaya baxırdı.

– Gopçu, gəl səni də çimizdirim, – Dıqqı elə bil, doğrudan da məktəb yoldaşını çağırırdı. Gopçu da qalxıb burdan ora quyruq buladı, təzədən yarğanın qırağına çökdü.

Kərəntiçilərin cərgəsindən Dəmir kişinin oğlu Nuhun səsi gəldi. Kərəntisini başının üstündə bayraq kimi yelləyə-yelləyə bağırırdı:

– Ay Dıqqı, ay Dıqqı!

Dıqqı yarğanda olduğu üçün görünmürdü. Eşşəyin belinə dırmaşıb ayaqüstə durdu, yarğandan başı güclə çıxdı, kərəntiçilərə sarı əlini yellədi.

– Eşşəyi çimizdir, ay Dıqqı, çimizdir, bəlkə yağış yağa, yoxsa quraqlıqdan siçan yeyəcək bizi, – Nuh işini yarımçıq qoyub bir-iki addım çaya sarı endi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Çimizdirirəm! – Dıqqının təmiz, cingiltili səsi sevinclə, qayğısızlıqla doluydu. Eşşəyi sürüb çayın dibi görünən dayaz yerinə çıxartdı, ovcunu qoşalayıb eşşəyin belinə su atmağa başladı.

– Mənim uşaqlarım yaltaqdı, yaltaq! – Hirsindən Əhmədin dişi dişinə dəydi, belini düzəltdi, kərəntiyə dirsəklənib, – bilmirəm, – dedi, – getdilər kimə oxşadılar. Mən köpəyoğlu belə döyüləm axı.

Dıqqı qışqırıb səsini kərəntiçilərə eşitdirə-eşitdirə eşşəyin belinə su atmağındaydı. Gopçu sevindiyindən az qalırdı ikiayaqlı yerisin, arada-bir Dıqqı onun da üstünə su atırdı. Atasının hirslənməyini elə bil havadan duydu, qanrılıb baxdı.

– Tfu, boyunu yerə soxum!

Dıqqı çappıldada-çappıldada ayağını suya döydü:

– Neynirəm axı?!

Əhməd kərəntini tullayıb yerə çökdü, əlini ora-bura gəzdirib daş axtardı, bir çəngə ot götürüb silkələdi:

– Artist köpəyoğlu, kino göstərirsən?

– Eşşəyə soyuqmu dəyəcək, qoysan çimizdirə, – Hadının başını qaldırmadan dediyi sözlər Əhmədi qızışdırmaq üçün idi.

– Böyüyü də belədi, – dedi Əhməd.

– Hansı, qız?

– Yox, şəhərdəki gədə. O gün məktub almışam, yandırıb töküb məni. Yazır ki, ata, dinc dur, orda elədiyini burda üzümə vururlar, utanıram. Yazma, – deyir, – kəndin camaatınnan...

* * *

İki-üç gün bundan qabaq işdən qayıdırdı, körpüdən təzəcə addamışdı ki, gördü Dıqqı qaça-qaça gəlir, ardınca da Gopçu. Eşşək onları görüb, anqırıb kəndi başına götürdü. Axşamtərəfiydi, yəqin elə ona görə kəndin daşında da balaca bir səsə elə həssaslıq vardı ki, eşşəyin səsindən kənd daş-kəsəyinəcən zingildədi. Əhməd bir çuvala ot doldurub, eşşəyin belinə qoyub üstündə oturmuşdu: "Palandı daa, səni kimi maşınlarnan aparmıram. İndi o günə qaldın ki, eşşəyin palanını da sökəcəksən..." – Fikrində bu sözləri sədrə deyirdi. Eşşək anqıra-anqıra Dıqqıyla Gopçuya tərəf qaçanda ot çuvalı döndü, eşşək balıq kimi sürüşüb Bəllinin ayaqlarının arasından çıxdı. Əhməd boylandı ki, baxsın, görüb eləyən oldumu. Qonşu həyətlərdən arvad-uşaq səsi gəlirdi, böyükdən-kiçiyə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hamı gizlənib uğunub getmişdi. Eşşəyin ağzı-üzü qalmayacaydı ki, Bilal kişi yadına düşdü, söyüş dilinin ucundan qayıtdı. Dıqqı eşşəyi qaytarıb gətirirdi.

– Nolub, qonaq gəlib?

– Yox, məktub gəlib qardaşımnan.

Əhməd çuvalı təzədən eşşəyin belinə qoydu... "Ata, bir az pul göndər, vallah borc istəyirəm. Pula doğru sürətlə irəliləməkdəyəm. Artıqlamasıyla göndərəcəm, pullananda..." Bundan qabaqkı məktubunda yazmışdı bu sözləri. Anası, – can, can, – deyib kirkirənin üstündə oturdu. "Pula doğru sürətlə irəliləyirəm..." Dıqqı yalnız bu haqda fikirləşirdi.

– Bu lotuya bax, şəhər lotusuna, gör hansı yolla bişirir başımızı. – Əhməd o gün də işdən təzəcə gəlmişdi, çuvaldakı otu boşaldırdı. Belə deyə-deyə fikrində pullarının üstündən yüz manat ayırdı ki, sabah poçtun yanından keçəndə göndərsin.

– İki yüz göndər, sən oğluyun canı! – arvad kirkirənin üstündən qalxıb təzədən üzü o yana oturdu. Əhməd arxadan onun güllü şalının saçaqlarının silkələndiyini gördü, sonra arvadın çiyinləri daraldı, başı köksünə endi.

– Nə qan-yaş tökürsən yenə? Özünə oxşayır elə doğduqların da... – Palanı bir yana qoyub, eşşəyin dalına da bir təpik, – pula doğru irəliləyir, bu, – dedi, – pah, ölmə eşşəyim, yaz gələr, yonca bitər.

Eşşək yorğalaya-yorğalaya yoncalığın qırağıyla həyət qapısına sarı getdi, ardınca da Dıqqıyla Gopçu. "Pula doğru sürətlə irəliləyirəm..." Dıqqı fikirləşdi, fikirləşdi, bunun nə demək olduğunu birdən-birə anlayıb özünü kəndin ətəyində oynaşan uşaqların arasına saldı:

– Qardaşım "QAZ-24" alır! – ardınca da bitib-tükənməyən uzun-uzadı bir nağıl. Axşam da nə qədər uşaq vardı, o qədər evdə gecənin yarısınacan nağılın ardını quraşdırdılar...

Nəsə, bundan qabaqkı məktubu bir də təzədən fikrindən keçirib ot palanını təzədən eşşəyin belinə qoydu. Bir yandan qonum-qonşu, arvad-uşaq ona baxıb pıqqıldaşırdılar, bir yandan ac idi, bir yandan da oğlundan gələn məktub kişinin yenə hikkəsini qaldırıb başından aşıb-daşırırdı.

– Şəkil də göndərib, – Dıqqı ot palanının bir ucundan tutub bir əliylə də şalvarını çəkə-çəkə eşşəyin ardınca gedirdi, ikisinin də başında silindr, yekə... – uşaq əlini palandan çəkib bir anlığa ayaq saxladı, eşşəyin ardınca iri çevrə cızdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həyət qapısınacan dinməz-söyləməz getdilər. Arvad qapını onların üzünə açıb gülümsədi. Kişi arvadın üzünə baxan kimi elə bil nəsə yadına düşdü, bir anlığa duruxub:

– Cümşüd kimdi əə, – dedi – Allahsız, olma, sədrin oğlu Cümşüddən çəkdirib şəkili?! Dillən, küçük, əə, mənim düşmənimin oğlunnan?!

Dıqqı bayaq eşşəyi çimizdirəndə ayağını suda çappıldada-çappıldada nə təhər silkələnmişdisə, o gün də elə o cür, ayağını yerə döyə-döyə yuxarı mərtəbəyə dırmaşdı, ordan ağlamsına-ağlamsına nəsə dedi, heç nə anlaşılmadı.

– Ayıbdı, – dedi arvadı, qorxa-qorxa bir-iki addım kişiyə tərəf getdi, amma onu da başa düşdü ki, daha qorxmağın yeri deyil, – camaatı niyə gücnən özünə düşmən eliyirsən, – əliylə bütün kəndi göstərə-göstərə silkələndi.

Kişi də onu hiss elədi ki, bir az o yan-bu yan eləsə arvadın səs-küyü kəndi başına götürəcək. Arvadın bayaq, qapını açanda rahatlıq, dinclik, kirkirənin üstündə oturanda qəribçilik, göz yaşı yağan üz-gözü dəyişib daşa dönməkdəydi. Gözləri soyuq-soyuq ərinə dikilmişdi.

– Suya gedəmmirəm, bir qonşuya gedəmmirəm, hamı ağzını büzür. Yazmadığın, toxunmadığın adam qalmayıb...

Bu yerdə Bəlli Əhməd daha özünü saxlaya bilmədi, boynunun damarları şişənəcən bağırdı. Arvad da Dıqqı kimi ayağını pillələrə çırpa-çırpa, silkələnə-silkələnə yuxarı mərtəbəyə çıxdı. Şər tamam qarışanacan kişi özünə yer tapa bilmədi, yalnız kağız, qələm götürəndən sonra sakitləşdi. Salamsız-kəlamsız, birinci cümləni yazdı: "Qeyrətin olsun, a biqeyrət! Yaxşı, bunu hara, kimə yazım bəs? Mən burda səninçün əlləşib-vuruşuram, sən orda düşmənimin oğluynan şəkil çəkdirirsən. Əksinə, ay səy, qılığına gir, gör instituta nə qədər verib, kim düzəldib, öyrən, mənə xəbər elə, mən də yazım, çökdürüm dizə. Nədən utanırsan, ay mənnən olub mənə oxşamayan? O ağılda olduğun üçün hələ də yataqxanada qalmısan. Alim olmaqnan deyil ki. Sən dediklərimi öyrən, yaz, göndər mənə, sonrasıyla işin olmasın..."

– Nahaq elə açıq yazmısan, – dedi Hadı, – ailə yataqxanasıdı, əldən-ələ düşər...

İndi də danışa-danışa qızışıb ogünkü kimi özündən çıxmaqdaydı.

– Yoox, – dedi, – yaltaqdı mənim uşaqlarım, asılı böyüyürlər, bilmirəm niyə. Mən burda onun atasınnan boğuşuram, o orda bunun küçüyünnən...

– Bir az yavaş, eşidəllər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dıqqı eşşəyi çimizdirib gətirirdi. Gün əyilmişdi, çəpəki düşən işıqları eşşəyin belində bərq vururdu. Yenə Nuhun səsi eşidildi:

– Ay Dıqqı, eşşək əməlli-başlı ağarıb, atanı da çimizdir! – Gülüş səsləri, qəhqəhələr bir-birinə qarışa-qarışa dörd yana yayıldı. Biçilməmiş yerlərdən topa-topa quşlar qalxdı, gülüş səsləriylə birgə ətrafa yayıldılar. Gülüş səsləri kəsən kimi də yenə otluqlara tökülüşdülər. Bəlli Əhməd hirsindən az qaldı əynini soyunsun:

– Haram görükür, əə, nəyimə gülürsüz, yalaq köpəyuşağı?! – Əlini onlara sarı açıb göstərdi, – ovcumun içindəsiz hamınız...

Kərəntiçilər dörd yandan biçə-biçə bir səmtə yaxınlaşmaqdaydılar.

– Yanındakı kərtənkələyə bax, yavaş-yavaş zəhərini nə ötürür. – Nuh belə deyib dikəlib boylandı, gülümsəyib, – zarafat eliyirəm, ay Bəlli, – dedi, – həmişəki zarafatdandı daa, niyə inciyirsən indi?

Aralarında bir səs mənzili yol vardı. Hərəsi bu mənzilin bir başında bir-birinə baxıb duruxdular, ikisi də bir vaxtda eyni şeyi xatırladılar... Keçən il elə bu vaxtlar işdən qayıdan kimi Nuh Əhmədgilə gəldi. Əhməd ayağını isti suya salıb, çay içirdi. Suyun istiliyindəndi, yoxsa çay içirdi, ona görə tər içindəydi, boğazı uzana qalmışdı. Əhməd onu görən kimi istədi ayağa dursun, ayağı sudaydı:

– Gəl, gəl, – dedi, – gəl çay iç.

Nuh keçib oturdu.

– Gecə iki maşın otu öz əlimlə yükləmişəm. Söyünqulunun oğluyla.

– Hara? Kiminçün?

– Sədr elə yerimizdən qaldırıb apardı bizi.

– Nə maşınlarıydı?

– Tərsinə getdi maşınlar. Lap tərsinə, ağıl kəsməyən səmtə.

– Odu daa elə. Aparan maşının qabağına bayraq da sancmalıydı? Talan elə olur daa!

Nuh gedən kimi Əhməd elə ayağı isti suda, isti-isti yazıb üzünü də iki-üç kərə köçürüb cibinə qoydu. Daştəpəli dükançı Mətinin apardığı məktublardan biri də buydu... Amma sədr nə verdi, nə boyun oldusa, Nuh dediklərini dandı. Bir bölük camaatın arasında:

– Ayıbdı, – dedi, – Əhməd, nə vaxt mən sənin evinə gəlmişəm, nə vaxt demişəm ki, düzdü, bizim kolxozun otu daşınır, amma tərsinə daşınır? Götürüb elə-belə də yazmısan.

Söyünqulunun oğlu onlardan xeyli cavan idi, bar-bar bağırdı:

– Gecə ot oğurlayan qurumsağın oğludu. Əgər mən maşınlara gecə ot yükləmişəmsə atam-anam ölsün.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rayondan gələn inspektor uğunub getdi, camaat da ona qoşuldu. Sığırçının oğlu papağıyla tərini silib sədrə baxdı:

– Elə şey olub, yoldaş sədr?

Camaat yenə gülüşdü, sədr də gülümsədi:

– Yox, olmuyub elə şey, – dedi...

İndi Nuh o günləri xatırladığı üçün səhərdən bu qədər işləmişdi tərləməmişdi, birdən-birə sözünü dandığına görə puçur-puçur tər tökdü...

– O vaxt da zarafat eləyirdin? Dediyini dandın, yaladın tüpürdüyünü, – dedi Əhməd. – Atan da elə sənə oxşuyub. Şipiyonsuz siz!

– Atasında işin olmasın, atası yaxşı kişidi, – Hadı bunu Nuha eşitdirib, dodağının ucunda pıçıldadı: "Özüm elə-belə deyirəm, işində ol. Buna şükür, atası qırx qazana çalasıdı...".

Hadı altdan-altdan qızışdırdıqca, əksinə, Əhmədin hikkəsi soyuyur, haldan, həvəsdən düşürdü. Elə beləcə, göz görə-görə gün batdı, kərəntiçilərin hamısı kim hardaydısa, elə orda çöküb oturmuşdular. Gün doğandan başlayıb gün batanacan çəkən bugünkü günün bu cür gözəl sonluğu gəlib çatmışdı. Hamı dirsəklənib özünə – qoluna, gücünə doğma bir qibtə hissiylə otunu biçə-biçə keçib gəldiyi yerlərə baxırdı...

– Sən öl, mən bunu çox yerdə demişəm, sən professorsan, – Hadı oturub dincəlirdi, Əhməd ayaq üstəydi, basa-basa, ayaqlaya-ayaqlaya palana ot doldururdu. Hadı bu dediyinin ardınca da soruşacaydı ki, necə yaza bilirsən, hardan tapırsan o qədər sözü, baxdı, baxdı, nə fikirləşdisə, – camaatın, – dedi, – gözünün qabağında otu doldurma çuvala, ilişdirəcəklər axırda. Gəmidə otura-otura gəmiçiylə dalaşmaqdı səninki.

Biçinçilər evə qayıdırdılar. Əhməd eşşəyi minmişdi, Dıqqı qucağındaydı. Bu dəfə otu çox doldurduğundan eşşəyin palanı göydə dururdu.

– Bu gün eşşəyin ata oxşuyur, Əhməd!

Biçinçilərin yanından keçirdi, bilmədi kimdi söz atan, səsindən də tanıya bilmədi, elə qarasına:

– Sən də, – dedi, – dünən ata oxşuyurdun, bu gün eşşəyə oxşayırsan, sabahı deyəmmərəm. Səni də miniblər, xəbərin yoxdu. – Eşşəyin belindən qanrılıb hamıya bir-bir göz gəzdirdi, camaatın güldüyünü görüb özü də güldü, eşşəyi yorğalayıb keçib getdi.

– Apardılar, deyə-deyə özü elə bu cür aparır.

– Bicin biridi, bilir neynir.

– İndi qışqırannan qorxullar...

Biçinçilərin bu qırıq-qırıq, tələsə-tələsə dediyi sözlər elə bil bir adamın sözləriydi. Hamı bir anlığa bir adam kimi eyni şeyi fikirləşirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ona görə də Bəlli Əhmədin ardınca bu deyilənlər bir adamın dediyinə oxşayırdı.

Evlərin axşam ocaqları yanmağa başlamışdı. Daha doğrusu, evlərin çoxunda qaz sobası yanırdı. Bir-iki həyətdə ocaq qalanmışdı, hava qaraldığından bu bir-iki ocağın tüstüsü kəndin üstündən bir qarış yuxarı qalxan kimi qaranlığa qarışıb görünməz olur, elə bil təzədən qayıdıb çıxdığı həyətlərə dolurdu.

– Nə əcəb bizim arvaddan, həyətdə ocaq qalayıb?!

Dıqqı bilmədi atasının bu gözlənilməz sualına nə cavab versin. Atası onu bağrına basmışdı, eşşəyin üzü kəndəydi deyin, başını saxlamaq olmurdu, biçənəklərin arasıyla at kimi gedirdi. Əhməd üzünü Dıqqının cod, sərt saçlarına söykəmişdi, nəfəsi başının tən ortasını isidirdi.

– Başını da yumusan çayda?

– Yox.

– Bə başın niyə balıq iyi verir?

Dıqqı atasının səsindəki, qoynundakı istiqanlılığı bayaqdan duyub ürəklənmişdi. Qanrılıb altdan-yuxarı atasına baxdı. Atası onun tərsinə çevrilmiş tər-təmiz, göy gözlərinə baxıb gülümsədi.

– Ata, "Nuhdanqalma" nədi?

– Nəə?

Onun səsindən eşşək birdən-birə hürkdü, ikisi də az qaldı yıxılsın.

– "Nuhdanqalma", Xası müəllim mənə "Nuhdanqalma" uşaq deyir.

Bəlli Əhməd özünü eşşəkdən yerə tulladı, çığırtısından Daştəpəyə gedən işıq dirəkləri zağ-zağ əsdi:

– Küçük, niyə indi deyirsən bunu mənə?

Dıqqı neçə gündü fikirləşirdi ki, "Nuhdanqalma" nə deməkdi, indi birdən-birə lap çaşdı, gözlərini atasına dikib baxa-baxa qaldı.

– Onu bir Xası eliyərəm, beşi də yanından çıxar!

Xası müəllimin evi kəndin girəcəyindəydi. Əhmədin yaxınlaşdıqca səsini qaldırmağı da ona görəydi.

– Sən də onun oğluna sədrdənqalma de. Deynən ki, sənin də oğlun sədrdən qalıb...

Üç-dörd gün bundan qabaq səhər tezdən Hadı oxlov udmuş kimi dübbədüz gəlib Əhmədin çənəsinin altını kəsdirdi. Əhməd qazları qağıldaşdıra-qağıldaşdıra təzəcə yerindən çıxarırdı:

– Nolub?

Hadı gözünün altıyla Xası müəllimin evinə sarı baxdı:

– Sədr alaqaranlıqda ordan çıxdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Özü hanı bə? Xası... hardadı?!

– Xası yun satmağa gedib. Yaz. Sən öl, elə beləcə yaz ki, camaatın arvad-uşağına sataşır. Lap adıyla yaz.

– Mən elə şeyi yazammaram, Hadı, mənim nə işim var elə şeylə? – Gözünü dolandırıb düzlərdə boy-boya vermiş ot tayalarına baxdı: – Xortumunu sancıb kəndin qanını sorur. Budu əsas, yoxsa kim hardan, kimin evindən çıxır, çıxsın, adama deyəllər, sənə nə ağırlığı?.. – Duruxub diqqətlə Hadıya baxdı, – sədrdi, bəlkə ot izinə düşüb. Bəlkə gecə ot aparıblar, o da izini tutub, gedib onlara çıxıb?

– Sən iz itirmə, çaşdırma, sən tülküsənsə, mən sənin quyruğunam. Gözümnən gördüm, tələsik ikinci mərtəbədən düşürdü...

Səhər yenə kəndin içindən keçib işə gedəndə sədr qışqıra-qışqıra söylənirdi:

– Tutduracam, qapı-qapı axtartdıracam, kimdə ot tutdum, qurtardı! – Əhmədlə Hadını görən kimi səsini dəyişdi. – İş o yerə çatıb ki, a kişilər, sənək götürüb ömründə suya getmiyən gəlin də gecə şələ bağlayıb oğurlayır. İzinə düşüb getmişəm...

– Ə, qələt eliyir, – dedi Hadı, – Xası otu oğurluyub qonaq otağına doldurub? Onu qonaq otağınnan çıxan gördüm...

Dıqqı eşşəyin belində başını salıb dinməz-söyləməz burnunu çəkirdi. Bəlli Əhməd eşşəyin qabağıyla elə gedirdi ki, elə bil kimsə onu itələyə-itələyə aparırdı.

Xasının arvadı evin kənd işlərini də şəhər işləri kimi görə-görə, başında da şəhər havası səhərdən mahnı oxuya-oxuya axşamı eləmişdi. Səs-küyə, çığırtıya eşiyə çıxdı. Gün batabatda olduğundan son işıqları da Əhməd gələn tərəfdən çəpəkinə evlərin pəncərələrini döyürdü. Xasının arvadı əlini gözünün üstünə qoyub baxdı. Əhməd elə bayaqdan onu gözləyirdi, bağıra-bağıra bir də dedi:

– Deynən sənin də oğlun sədrdən qalıb... Sədrdənqalma!

Xasının arvadı əvvəl heç nə anlayammadı. Baxdı, baxdı, elə bildi Əhməd gülür, əlini yenə gözünün üstünə qoyub qışqırdı:

– Nə deyirsən, Əhməd qardaş? Xasınımı soruşursan?..

Dıqqı öləziyib zəifləmiş səsiylə:

– Anam gəlir, – dedi, elə bil özü özünə xəbər verirdi.

Əhmədin arvadı ərinin səsini eşidib gövdəsinə, köklüyünə yaraşmayan cəldliklə qaça-qaça özünü yetirməkdəydi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Səni doğan arvadın qarnı cırılsın, Əhməd! – Qonum-qonşuya, ən çox da Xasının arvadına eşitdirirdi. – Səni bu kəndin canına ciri doğdu. Bəsdi, üzümü qara elədin. Kimnənsən yenə?

– Qırxayaq köpəyoğlu! – Bu, onun ürəyində dediklərinin son cümləsiydi, həm də belə dedi ki, arvadı onun kimə dediyini bilsin. Arvad "qırxayağı" eşidən kimi:

– O da qudurub aa, – dedi, yaxınlaşıb qolunu eşşəyin boynuna saldı. Boynunu Dıqqıya sarı uzadıb pıçıldadı: – Dıqqı, neyniyib ki, Xası müəllim?

Dıqqı doğrudan da kövrəlib ağlamsındı:

– Məktəbdə mənə "Nuhdanqalma" deyir.

– Kimnən qalma?.. – arvad əlini ağzına tutub pıqqıldadı.

– Nuhdan...

– Aa, bəs biz sənəyə demirik, Nuhdanqalma sənək?

– Dayan bir, evdə soruşacam sənnən, – Əhməd birdən-birə kirimişdi, boynunu sallayıb eşşəyin qabağıyla gedirdi, qanrılıb dişlərini qıcadı.

– Nəyi soruşacaq, aaz, bu, mənnən?!

– Azzar soruşacam, bəlkə Dəmirin oğlu Nuhu deyir.

Arvad əlini üzünə çəkdi.

– Ayıbını yer örtsün sənin, bir o qalmışdı. Danışdığı sözə bax.

Evlərin arasıyla dinməz-söyləməz keçib gedirdilər... Dəmir kişi öz alaqapısına söykənmişdi, səhərdən beləcə dayanıb gözləyənə oxşayırdı, görünüşündə dözülməz üzüntü vardı... Yaşının elə vaxtıydı ki, gərək ağır oturaydı, salam verib, salam alaydı, hal-əhval soraydı, bağ əkəydi, nəvə dindirəydi, keçmişini xatırlaya-xatırlaya quzu otaraydı. Amma kişi Əhmədi görən kimi civə təki qaynayırdı, yerinə düşdü, düşmədi düymə gözlərini qıyıb soruşurdu: "– Noldu?" əlinin birini kağız kimi, birini qələm kimi tutub ora-bura boylana-boylana pıçıldayırdı, – yazmadın bəs?

İndi də Əhmədin yolunun üstünə çıxdı, yenə əlinin birini kağız elədi, birini qələm, biri altda, biri üstdə pıçıldadı:

– Noldu, cavab gəldimi?

Əhməd dinmədi, kişinin üzünə də baxmadan keçib getdilər.

Əhmədin sözü arvada bərk əsər eləmişdi. Bayaqdan Nuhu fikirləşirdi, elə bil Nuh hardansa kəndə indi gəlib çıxmışdı.

– Dəmirin oğlu Nuh getsin öz arvadına ərlik eləsin, – dedi dodağının ucunda.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əhməd eşşəyin palanını alırdı, dönüb arvadına baxdı. Arvad istidənmi, utandığındanmı qızarıb göyçəkləşmişdi, kişi istədi deyə ki,su qoy çimək, amma:

– Dayan bir, sənin dərini soyacam, – dedi.

– Özün də adını yazıçı qoymusan, bilmirsən "Nuhdanqalma" nə deməkdi, yəni çoxdanın uşağı, çoxbilmiş... – Elə bil arvadın içini qıdıqlamışdılar, Nuh gözünün qabağından çəkilmirdi. "– Ay qız, – dedi ürəyində, – heç fikir verməmişəm, Nuhun saçı ağarıbmış. O məni Əhməddən də hələ nə qədər qabaq istəyirdi...". Qaz, toyuq eşşəyin başına yığışıb qığıldaşır, atdanıb eşşəyin tüklərinin arasından ot-əncər dəni dənləyirdilər. Nuh kərənti də çiynində onların evinin yanından keçirdi. Əhmədi həyətdə kötüyün üstə oturan görüb:

– Az, onu döy, ay Pəri, döy, ağlı gəlsin başına... – dedi.

Arvad özündən asılı olmadan əlini üzünə çəkib sığalladı, örpəyini düzəltdi, üzü-gözü necə vardı, eləcə də qaldı. Hirsli, sərt, qayğılı... Ürəyindəsə gülümsədi, içinə işıq düşdü. Əhməd heç başını da qaldırmadı, bayaqdan necə oturmuşdusa, eləcə yerə baxırdı. Dıqqı hıqqıldaya-hıqqıldya palan içi tökürdü, – otunu çıxardıb bir yana yığırdı. Eşşək boynunu döndərib səliqə-sahmanla indicə gətirdiyi otdan dartıb xımır-xımır yeməkdəydi... "Nuhdanqalma" söhbəti Pərinin birdən-birə əl-ayağını yerdən üzmüşdü. Neçə illərdi həyət-bacanı, ev-eşiyi saat kimi qurub işlədən arvad birdən-birə bilmirdi neyləsin, nədən başlasın.

– Mütrüb qızı mütrüb, sənin başını kəsərəm haa! – Əhməd əlləri dizində kötüyün üstündən qalxmaq istəyirdi, eləcə gərilib, dartınıb qurumuşdu, ora-bura boylanıb qapı dirəyinə söykədilmiş baltaya baxdı. Arvad bayaqdan qıdıq içindəydi, özünü saxlaya bilməyib güldü:

– Sən gerçəkləyirsən ha.

Nuh yenə gözünün qabağına gəldi... Əhməd kimi ərin birdən-birə, özü də heç nədən qısqanmağa başlaması, neçə illərdi ev, uşaq qayğısından gözü açılmayan, qırx yaşı elə bu günlərdə heç kəsin xəbəri olmadan, dinməz-söyləmməz keçib getmiş Pəri üçün elə maraqlı, elə gözlənilməz, elə sirli-sehrliydi ki, axşamın bu sərinliyində heç nədən isti-isti, puçur-puçur tərləməkdəydi, gülməyini heç cür saxlaya bilmirdi, bu ağır gövdəli arvad birdən-birə yüpyüngül olmuşdu; ayaqları yerdən üzülür, Əhmədin səsi çıxan kimi pıqqıldayıb gülürdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Milli Kitabxana

## II

İyirmi il bundan qabaq kənd başladı pıçıldaşmağa ki, bəs Pərini Əhməd istəyir. Neçə vaxt idi qız-gəlinlər məzələnirdilər. Pəri xəbər göndərdi ki, Əhməd getsin tayını tapsın... Əhməd də elə indiki kimi, indikindən də bir az arıq, boynu bir az da uzun, şüvərək oğlan idi. Səhərdən axşamacan kəndin içiylə dübbədüz, böyüyün də, kiçiyin də, arvadın da, qızın da işinə qarışa-qarışa o yana-bu yana keçirdi. Pərinin anası da elə Pərinin özü kimi ağırtaxtalı, ərsevən, ərəbaxan qadın idi.

– Niyə bəyənmirsən, nolub ona, a qızım? – dedi, – gör boyu harda durur, istəyir, var get.

– Allah vurub onu, – dedi Pəri, – qurda oxşuyur o, qızlar adına gödənyırtan deyillər.

– Kişi elə olar, yoxsa Hadı kimi ağzı əsgili, arvadağız, eləmi yaxşıdı?

– Mən istəmirəm onu...

Amma Əhməd neçə gün idi dikdə dayanıb Pərigilin qapısına baxırdı. *Pərinin atası evin bir küncündə oturmuşdu, eşiyə çıxammırdı:*

– Ona de, rədd olsun ordan, məni qana salmasın!

Pərinin anası evdə yır-yığış eləyirdi, kişiylə üz-üzə durdu:

– Nə pislik eliyib sənə? Qız istəmək nə vaxtdan xata olub? İşiyin ardınca get, gülünc eləmə özünü...

Əhməd kəndin içində günün günorta vaxtı Pərinin qabağını kəsdi:

– Azz, a şallı-güllü, heç atdanıb düşmə, mən səni alacam – Pərinin yan-yörəsindəki qızlar gülüşüb aralandılar.

– Get tayını tap, – dedi Pəri, – indi daş-kəsəyi başına yağdırram.

Əhməd uzun boynunu ona sarı bir az da uzatdı, gülümsəyib yavaş-cadan:

– Keçi körpünü bəyirə-bəyirə keçər, – dedi.

Dönüb qızlara əl elədi, təzə-təzə öyrəşdiyi əsgər addımlarıyla aralanıb kəndin içinə getdi. Bir-iki gündən sonra əsgərliyə gedəcəydi, ona görə də yerişini dəyişib indidən əsgər kimi yeriməyə başlamışdı. Bir neçə gündən sonra anasını Pərigilə göndərdi. Pərinin anası:

– Bir az gözləyin, – dedi, – qız ölmüş daş atıb, başın tutur.

– Bəlkə ayrı gözaltısı var? – Əhmədin anası kök, ağır gövdəsini taxtın üstünə yıxıb hıqqıldadı, mütəkkəyə dirsəklənib gözünü sobanın üstündə özü öz buğunda tərləyə-tərləyə sızıldayan çaydana dikdi, az qaldı çay istəsin: "Bir stəkan çay ver..." Oğlunun sözü yadına düşdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Uzun barmaqlarını anasının gözünün qabağında silkələyə-silkələyə dönə-dönə tapşırmışdı: "Bax, yemək qoysalar da yeməzsən, deyərsən toxam...".

Havada bürkü vardı, soba da sərin-sərin yanırdı, otaq istiydi. Əhmədin anası mütəkkəyə dirsəklənən kimi mürgüləyib bir anın içində mışıldadı, başı əyilib taxta dəyəndə ayılıb, – hey? – elədi... Bütün kənd arvadın halına bələd idi, harda oturar, orda qalar, mışıldaya-mışıldaya mürgüləyər, birdən-birə də ayılardı. Adına da elə ona görə "pişi" deyirdilər, Pişi Öygül... Başı taxta dəyən kimi oyandı:

– Hıy, – dedi, – adamı var qızın?

– Yox, ay Pişi, olsaydı hamı bilərdi. – Qapıya sarı boylanıb əlini dodaqlarının üstünə qoydu. – Mən razıyam, onnan artığınamı verəcəm? Bu kənddən o kəndə boyu seçilir, nolub sənin oğluna?

– Bıy, axar günün durulsun, nə yaxşı oldu, mənimki elə sənsən. Onda bir şey qoy stolun üstünə, yeyək.

Pərinin anası qalxıb alma qaxı, armud qurusu, üç-dörd dənə konfet gətirib stolun üstünə qoydu:

– Aran payıdı, ay Pişi, ye, sən oğluyun canı...

Əhməd daranıb, güzgülənib təzəcə eyvana çıxmışdı ki, gördü anası gəlir, enib ona sarı getdi.

– Noldu, ay Pişi?

Arvad özünü ağacın altına sərilmiş kilimin üstünə saldı.

– Anası razıdı.

Əhməd əyildi ki, anasını öpsün, nə hiss elədisə tələsik dilləndi:

– Yedin, aaz, orda? Demədim sənə yemə, demədim denən ki, toxam? – Ayağını yerə döyüb tozu torpağı bir-birinə qatdı.

– Nə yemişəm ki?

– Nə təhər adamsan, aaz, sən, umsuq?! – Səsini dəyişib yaşlı, əkə kişilər kimi dörd yanına boylandı. – Bir böyüyü-kiçiyi də yoxdu ki, gəlib ağıl versin.

Arvad balaca əl yastığını kilimin üstündən götürüb altdan-yuxarı oğlunun üzünə çırpdı:

– Əl çək yaxamnan, "qaradaban", buna bax bir, bu arvad alacaq, mən də acından öləcəm, yemiyəcəm. Yaxşı elədim, yedim. – Cibindən alma qaxı, armud qurusu, konfet çıxardıb kilimin üstünə tökdü. – Oğurluq eləmirəm ki...

– Deyəcəklər, bu arvad elə həmişə acdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ac döyül, bə nədi... Acam daa. Kim gətirdi, mən yedim, kim qazandı? Axşam atanı gördüm, sabah gözümü açdım ki, yoxdu...

* * *

Düz on səkkiz il bundan qabaq əri qırxı hələ çıxmamış qundağı bir dəstə yemişan kimi burnuna tutub iyləyəndən sonra öpüb:

– Bu lap vaxtında gəldi, – dedi, – mən gedirəm, yerim boş qalmaz daha. Yanında yatırt, həyan olar sənə, hər nədi, yenə kişi qırığıdı...

O vaxt adına "pişi" demirdilər, eləcə Öygül idi. Ağırtaxtalı, sağlam, yeriyəndə ayağının altında yer yırğalanan gözəl Öygül. Qapıbir qonşusuna ərə gəlmişdi...

Gözlərini açandan bir yerdə böyüdülər. Əvvəl "evcik-evcik" oynadılar, sonra yavaş-yavaş özləri böyüdükcə oyunları da böyüdü, daha oyun qalmadı oynamasınlar. Günlərin birində anası qızı geri çəkdi ki, qaragünnü, bəsdi, daha bir yerdə oynamaq olmaz, xatası çıxar. Amma artıq gec idi, xatası çıxmışdı. Öygül qonum-qonşunun gözü qabağında bir həftənin içində kökəlib enləndi. Anası döydü, şapalaqladı:

– Nə işdi, nə oyundu, qaragünnü, açdın başıma?!

Öygül eləcə burnunu çəkə-çəkə gülümsəyirdi...

Axırda *"iti öldürənə sürüdəllər"*, – deyib Öygülü həmin oğlana qoşdular, bu qapıdan çıxardıb, o qapıya apardılar... İndi bir aydan çox idi ki, – yəni bu qapıya gəldiyi gündən hesablansa, vaxtından da iki ay qabaq Əhməd adında bir oğlan doğmuşdu. Əhmədin atası ucaboylu, enlikürəkli, uzunsifət bir kişiydi, elə çənəsinin yekəliyinə, sifətinin uzunluğuna görə adına ayğır Hasan deyirdilər.

...Ayğır Hasan gözlərini yumub qundağı bir dəstə yemişan kimi burnuna tutub qoxulayırdı. Öygül bir-iki addım aralı dayanmışdı, sevindiyindən, bəxtəvərliyindən az qalırdı ürəyi getsin, nəfəsi təngiyə-təngiyə gülümsəyirdi. Səhər tezdən qalxıb yemək bişirib, bağlama bağlayıb, yüngülcə hazırlıq görmüşdü. Ayğır Hasanı davaya da əkinə göndərirmiş kimi yola salırdı. Hələ ayrılığı dərk eləyə bilmirdi: "Bu gün gedər, sabah qayıdar..." Ayğır Hasan qapıdan xeyli aralanmışdı, geri baxmadan gedirdi, amma içində nəyinsə qırıldığını hiss eləyirdi, bayaqdan istəyirdi dönüb bağırsın: "Əhməəəəd!" Bir dəstə kişi evlərin arasından keçib kənddən çıxdılar. Ayğır Hasan daha dözə bilmədi, birdən-birə dönüb üzünü kəndə tutub elə bağırdı ki, kişnərtiyə oxşadı:

– *Öygüüül! Əhməddən muğayat ol, Əhməd amanatıı!*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Davanın axır illərinəcən kağızı gəldi. Elə yazırdı ki, "gələcəm". Amma gəlmədi. Öygül qonum-qonşuda ağlaya-ağlaya, gözləyə-gözləyə, – ay qız, – deyirdi, – hər kağızında yazırdı ki, gələcəm, bə niyə yalançı çıxdı bu? – Quş kimi elə yolların qırağına qonub gözləyirdi. Əhməd böyüyəndən sonra gözü yoldan çəkildi, bir neçə il də evin bir küncündə oturub öz içindən yollara baxmağa başladı...

İndi kilimin üstündə bardaş qurub, küsüb üzünü yana döndərmişdi:

Qarnımnan çıxıb qada,
Kimlərə gedim dada?

Arvad ağlamsınıb belə deyəndə, Əhməd çöküb onun yanında oturdu, kilimin üstünə tökülmüş armud qurusundan götürüb:

– Ay Pişi, – dedi, boynunu uzadıb anasının şalının ucundan öpdü, – özünü gördünmü?..

Beş-on gündən sonra kənd yenə başladı pıçıldaşmağa ki, bəs, Dəmir kişinin oğlu Nuh da Pərini istəyir. Öygülün çığırtısı kəndi başına götürdü. Əhmədi də yanına salıb düz Dəmir kişinin qapısına getdi:

– Mənim oğlumun yolunu kəsənə, mənim oğlumun isdəyini istəyənə elə qarğış eliyərəm, yarı yolda qalar.

Dəmir kişi balaca, kirpikləri sarı, düyməyə oxşayan gözlərini onlara dikib gülümsəyə-gülümsəyə xeyli baxdı: "Arvaddı, qışqırır, qoy qışqırsın. Bir az gözləyək, görək ayğır Hasanın dünyaya faraş gələn bu uzundraz oğlu nə deyir. Hi-hi-hi..." Dəmir kişi ürəyində ləzzətlə güldüyü üçün aşkara çiyinləri tərpənirdi. Əhmədin əlində yekə bir ağac vardı, ağacı yerə döyə-döyə kişiyə tərəf gəldi:

– Nuhu çağır, görüm nə demək istiyir?..

– Nə danışırsan, Əhməd, bala, Nuh qələt eliyir. Hər deyilənə inanmayın.

Kəndin böyüyü-kiçiyi, oğulu-uşağı qapı-bacaya dırmaşıb tamaşa eliyirdi. Pərinin anası bayırdaydı, amma qızın özü pəncərədən baxa-baxa saqqız çeynəyirdi, nə fikirləşdiyini də anlayammırdı. Bu da ona görəydi ki, ərlik yaşına çatsa da, ərə getməyin nə demək olduğunu hələ dərk edə bilmirdi. Ərə getmək onunçün hələlik bu qonşudan o qonşuya getmək kimi bir şey idi.

– A qaratalaqlı, inək kimi nə gövşüyürsən, sənin yaşında məni evə sala bilmirdilər, oğlan axtarırdım elə. Sənin üstündə qırır camaat bir-birini, bir cana gəlsənə!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əhmədlə anasını Dəmir kişi dilə tuta-tuta evə apardı. Çay-çörək qoydular. Öygül arvad qonaq çağırılıbmış kimi dırmaşıb taxtın üstə çıxdı, bardaş qurub, mütəkkəyə dirsəkləndi:

– "Hə"sini almışam, – dedi, – qızın, siz gecikibsiz. – Bir anın içində yuxu onu bürüdü.

Nuhun anası gülüb:

– Kim deyir, ay Pişi, vallah bizim xəbərimiz yoxdu, – dedi, o, sözünü deyib qurtaranacan da Əhmədin anası mürgüləyib bir çimir yatdı, başı sinəsinə əyiləndə oyandı, oyanan kimi də:

– Anası razıdı, – dedi...

Beləcə, söz-söhbət yat-bat oldu, heç kim bilmədi bu nə söz idi kəndin içinə yayılmışdı. Nuhun özü də baxışlarında heç kəsin gücü çatıb duya bilmədiyi kədər, başını silkələyib:

Yox, – dedi, – mənim elə fikrim olmuyub, mən elə söz deməmişəm.

Nuhu da Əhmədlə bir yerdə əsgərliyə çağırmışdılar. Kənd yığışıb onları yola salırdı. Qaraxan müəllim saz çalıb oxuya-oxuya daş yolda ayaqlarının ucuna qalxıb oyunlar çıxartmaqdaydı. Əhməd camaatın başının üstündən o yan-bu yana boylanıb birdən-birə Pərigilin evlərinə sarı qaçdı. Pəri yenə pəncərədən baxa-baxa saqqız çeynəyirdi. Əhmədin gəldiyini görüb pəncərədən aralandı:

– Gəlir, – dedi anasına.

– Kim?

– Öygülün oğlu...

Pərinin atası o biri otaqda taxta yonurdu, bunu eşidib balta də əlində eşiyə çıxdı. Özü də elə baltaya oxşayan, qaraqabaq, qaradinməz, kəsərli kişiydi, – "bu zatıqırıq qurumsaq bizi lap ayaqlıyıb, heç eliyib! Başını kəsəcəm küçüyün, donuz qibləsinə...". Öz-özünə deyinə-deyinə, həm də arada Pərinin adı olduğundan öz-özündən utana-utana Əhmədə tərəf getdi, Əhməd kişinin qırımından çox şeyləri anlayıb həyət qapısından içəri keçmədi, elə qapının ağzından:

– Abı dayı, – dedi, – gəldim, siznən də görüşüm.

Ayğır Hasan bir anlığa kişinin gözünün qabağına gəldi. Əhmədin səsi eyniylə atasının səsiydi; xırıltılı, ilişiyi olan səs...

– Yaxşı yol, a bala. Sən yaxşı oğlansan, amma bir az yersiz işlərin var.

Əhməd az qaldı Pərini kişiyə tapşıra, dilinin ucundan qayıtdı, ayaqlarını cütləyib kişinin qabağında şax dayandı:

– Eybi yox, Abı dayı, yersiz işlərim də yerinə düşər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əsgərliyin dördüncü-beşinci ayı idi. Haraydısa, dünyanın qurtaracağıydı. Əhmədgili əleyhqaz geyindirib qaçırdırdılar... "Artıq hava yoxdu, boğulsanız da budu, on kilometri bu havayla qaçmalısınız, az-az işlədin...". Əhməd serjantın bu sözlərini fikrində dolandıra-dolandıra hər on addımdan bir yüngülcə nəfəs derir, uzun qollarını yelləyə-yelləyə qaçırdı...

– Amfibiya!..

Mənzil başında Əhmədin halı özündə deyildi, bilmirdi serjantın səsi hardan gəlir, tər içində tövşüyə-tövşüyə gözünü döyürdü. İstəyirdi yanındakından soruşsun ki, amfibiya nə deməkdi, elə bu vaxt Hadıdan məktub gəldi. Yazırdı ki, bəs, Əhməd, nə durmusan, başını orda islat, burda qırxdır, Pərini indi də Qaraxan müəllimin oğlu istəyir. Əhməd oturub bir məktub Qaraxan müəllimə, birini də oğluna yazdı... "Qaraxan müəllim, bilmirəm, nə yollasa həkimnən kağız aldın ki, oğlum kardı, ona görə də əsgərlikdən saxlatdın. Neynədin, özün bilərsən, amma gün kimi aydındı ki, sənin oğlunun qulaqları darı dənləyir. Mən hal-hazırda Vətən keşiyində dayanmışam. Bunun nə demək olduğunu yaxşı-yaxşı fikirləş, sonra kar oğluna başa sal ki, sovet əsgərinin nişanlısına göz dikməyin axırı nə olar. Düz ordu generalına yazaram, hamınızı kənddən köçürdəllər..." Ayrı varaqda da Qaraxan müəllimin oğluna yazıb göndərdi. "Bura bax, əə, sarısulu gədə, sənin haqqında çox şeylər bilirəm. Elə eləmə ki, hamısını açım, yazım lazım olan yerlərə. Sədrin qızının oturduğu stola mıxı sən çalmışdın, qız da bilmədi, üstündə oturdu, ona görə də axsayır indi. Sən öl, səni elə burdan tutduraram. Kənddə şpiyonlarım var, addımını hara atdın, biləcəm..."

Qaraxan müəllim məktubun ikisini də birdən aldı. Oxuyandan sonra az qaldı ürəyi gedə. Qalxıb evdən əlinə keçəni götürüb başılovlu özünü Öygül arvadın üstünə saldı. Öygül onu görən kimi üzünü yana çevirdi:

– Atasız görmüsüz həə, mənim oğlumu? Yiyəsizdi deyə söygülüsünü əlinnən almaq istəyirsiz, eləmi?! – Qaraxan müəllimin gətirdiyi bükülü şeyləri görən kimi sıyılıb kövrəldi, doğrudan da az qaldı ağlasın.

Qaraxan müəllim bükülüləri stolun üstünə qoyub, əyilib aşağıdan-yuxarı arvadın üzünə irişdi:

– Nə danışırsan, ay Öygül, ay Pişi! Qızmı qəhətdi mənim oğluma? Elə şey fikrimizdə də yoxdu. Uşaq lap istiyibsə də qələt eləyib, qanmıyıb. Sən Allah, Pişi, Əhmədə yaz ki, biznən işi olmasın, biz dost adamıq.

Arvad bükülüləri bir də gözdən keçirib:

– Sənin arvadıyın, – dedi, – yaxşı mürəbbələri olur, onnan niyə gətirmədin?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Paah, uşaqnan göndərərəm indi...

İstəyənlər çoxaldıqca Pərinin çiçəyi çırtlayırdı. Səhərdən axşamacan saqqız çeynəyə-çeynəyə pəncərədən baxan Pəri, indi bir yerdə duranda da dingildəyirdi. Kənd elə bil Əhməddən sonra haya düşmüşdü, hamının gözü Pərideydi. Kişilərin iş-gücü burunlarını çəkə-çəkə ot tayalarının, kərmə qalaqlarının, hasarların dibindən Pəriyə göz qoymaq idi. Pəri də bu baxışların altıyla koppuş, gözəl yanaqlarını allandıra-allandıra, sığallana-sığallana, yumşala-yumşala çox şeyləri indi-indi anlaya-anlaya səhərdən axşamacan su daşıyıb həyət sulayırdı. Bir az keçdi Pərini qonşu kəndlərdən də istəməyə başladılar. Amma onların cavabını elə yarı yoldaca kənd verib geri qaytarırdı: "O qızın nişanlısı var..." Beləcə, Əhməddən sonra haya düşüb bir-birinin bəhsinə Pərini istəyənlər yarı yoldanca qayıtdılar, get-gedə azaldılar, sonra heç qızın adını da tutan olmadı. Pəri darıxmağa başladı, ora boylandı, bura boylandı, bir neçə həftə pəncərədən baxa-baxa saqqız çeynədi, amma bu əvvəlki saqqız çeynəməkdən deyildi, əvvəllər saqqız çeynəyəndə kefindən mahnı oxumaq istəyirdi, indisə çeynədikcə elə bil harasa qaçırdı, az qalırdı özünü pəncərədən atsın, axırda da saqqızı tullayıb ağladı. Axşam üz-gözünü yuyub, daranıb-düzənib oturub fikirləşdi, birdən Əhmədi xatırladı. O gündən başladı Əhmədə məktublar yazmağa, amma göndərmədi, güllü, taxta sandığına tullayıb ağzını bağladı. Pərinin anası qızından da bərk darıxırdı, nigarançılıq içindəydi. Bir gün qalxıb düz Öygül arvadın yanına gəldi:

– Ay arvad, – dedi, – ay Pişi, belə olmaz, biz sənnən söz danışmışıq, oğlun adımızın üstünə ad qoydu getdi, amma bu vaxtacan bir barmaq kağız da gəlməyib qıza.

Öygül arvad bayaqdan onun əlinə baxırdı:

– Narın varmı, – dedi, – hə, nar? Ürəyim ağlarqalmış nar istiyir.

Pərinin anasının hirsi canını qızdırma kimi dolaşdı, alnına tər gəldi:

– Biz gor qonşusuyuq, – dedi, – sənin oğlun düşmənçilik eliyir. Qız istəməyi biz də görmüşük, ay Pişi. Ayğır Hasan səni beləmi istiyirdi? – əlini əlinin içinə qoyub arvada sarı uzatdı. – Mənimkini qapıdan qovlayırdılar, bacadan düşürdü, – kövrəlib ağlamsındı.

Öygül elə bil öz evində yox, qonşu evindəydi, qovzanıb yenə oturdu, öz şkafına, tərəklərinə müştəri gözüylə baxıb:

– Heç bilmirəm sənə nə verim, – dedi, – mənim evim qaz damına oxşayır, içində bir şey yoxdu. Sənin yaxşı mürəbbələrin olur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Allah xətrinə, heç nə istəmirəm, – dedi Pərinin anası, arvadın böyründə oturdu, – oğluna yaz ki, qızın üstünə bir tikə məktub göndərsin. Qonum-qonşu da bilsin ki, bizimkinin də yiyəsi var. Sonra nə istiyirsən verəcəm.

– Nar gətir, nar. Ürəyim ağlarqalmış nar istiyir...

Əhmədin gəlməyinə iki-üç ay qalmışdı. Yayın ortalarıydı, amma Pərinin dişi-dişinə dəyirdi, titrəyə-titrəyə yenə Əhmədə məktub yazırdı. Arıqlamışdı, bir vaxtlar əyninə dar gələn pal-paltarı indi tökülüb itirdi. Anası özünü bir də Öygülün üstünə saldı:

– Üzülüb əldən düşdü qarageymiş, yağ kimi əridi. Sənin oğlun mənim qızımın üstünə bircə belə kağız yazıb göndərmədi. – Barmaqlarının ucunu Öygül arvada sarı uzatdı.

– Mənə yazıb, – dedi Öygül arvad, – budu bax, qoynumdadı. Pərini soruşur, deyir nə təhərdi. Yaxın gəl.

Pərinin anası gülümsəyib əlini üzünə çəkdi:

– Allaha şükür!.. – Əlini dirsəyinəcən önlüyünün cibinə salıb bir nar çıxartdı. Öygül arvadı elə bil qorxutdular, bir anın içində rəngi dəyişdi, əlini nara sarı uzadıb gözlərini yumdu, barmaqları nara dəyənəcən mürgüləyib huşa getdi, arvadı elə bil quyuya sallayıb çıxartdılar. Pərinin anası ürəyində, "şükür, – dedi, – ay Allah, yaratdığına şükür, arvad sözünü yarımçıq qoyub yatdı"... Kimin uşağıydısa Öygül arvadın yuxusunda nağara çalırdı... Arvadın barmaqları narın üstüylə süründü. Bu, arvadın yuxusunda çox uzun çəkdi. Əslində buna bir an da demək olmazdı, əlinin ağırlığı narın üstünə düşən kimi ayıldı. Bir an bundan qabaqkı əsəbi, ac, tamahkar görkəmindən əsər-əlamət qalmadı, apaydın bir səslə:

– Yazır ki, ay Pişi, tez-tez get, Pərini yoxla, – dedi, güldü, iri, qabaq dişlərini narın qabığına sancıb bir anlıq eləcə durdu. Sonra başını qaldırıb, tamam başqa bir səslə, – ağrıyıram, – dedi.

– İstəyirsən, Pərini göndərim çimizdirsin səni.

– Hə, hə, axar günün durulsun... Mürəbbə də göndər...

Pəri elə o gələn oldu, bir də evlərinə qayıtmadı.

– Getmə, – dedi Öygül, – öləcəm deyəsən, qorxuram, məni tək qoyma.

Əhməd əsgərlikdən qayıdanda Öygül arvadın ayaqları şişmişdi, tərpədə bilmirdi, elə yata-yata, oyana-oyana gününü keçirirdi. Günlərin birində qonum-qonşuda çığırışma düşdü ki, Əhməd gəlir. Öygül arvad da mürgüdən oyanıb çığırdı. Pəri bayıra qaçıb ala-qapıyacan yüyürdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əhməd gülə-gülə evlərin arasından keçib gəlirdi. Böyüklərin çoxu işdəydi, qız-gəlin hasarların dibinə düzülüb tamaşa eləyirdilər.

– Xoş gəlmisən!

– Gözün aydın!

Amma Əhməd heç kəsə baxmadan hələ əsgərlikdən də qabaq öyrənib yeridiyi əsgəri yerişlə irəliləyirdi. Pərini görüb gülümsədi:

– Nə var, nə yox, – dedi, – anam nə təhərdi, hanı bə? – Elə bil əsgərliyə gedəndə də Pərini anasının yanında qoyub getmişdi.

– Yaxşıdı, – dedi Pəri, – odu, evdədi.

Əhməd taxtın qabağında diz çöküb anasını qucaqlamışdı. Sonra *çamadanını açıb xeyli konfet çıxartdı, anasının ətəyinə tökdü.* Öygül göz yaşına qərq olmuşdu, gülə-gülə, içini çəkə-çəkə ağlayırdı. Ətəyindəki konfetdən götürüb yan-yörədən baxışan uşaqlara payladı:

– Alın yeyin, yenə verəcəm. – Sözünün arasında yenə mürgüləyib huşa getdi. Böyükdən-kiçiyə hamı arvadın sözünün arasında yatdığını bildiyi üçün dayanıb gülümsəyə-gülümsəyə onun oyanmasını gözlədilər.

– Ay Pişi, sənə kəlağayı da almışam, – Əhməd kəlağayını çıxardıb anasının dizinin üstünə qoydu. – Ay Pişi!..

Camaatın böyüklü-kiçikli bir an bundan qabaqkı gülüşü necə vardısa, eləcə, üz-gözlərində donub qaldı, yalnız rəngicə dəyişdi. Əhməd anasını bir də çağırdı:

– Ay Pişi! – Boylanıb camaata baxdı. Elə bil aradan illər keçmişdi, Əhmədin üzü göyə çalırdı. Uşaqlar gözləyirdilər ki, Öygül indicə oyanıb onlara konfet verəcək. "Yeyin, yenə verəcəm", arvad indicə belə demişdi. Əhmədin üz-gözündən sezilən pərtlikdə, peşmançılıqda, göyə çalan rəngində, çiyinlərini qısmağında, "– noldu buna?" ifadəsi vardı. Əllərinin ikisini də birdən göyə qaldırıb eləcə də dedi:

– Noldu buna?..

* * *

Bir neçə gün Əhməd səhərdən axşamacan əsgər paltarında kəndi dörd dolandı. Gözünə kim göründü, qohumu, yadı:

– Mən gələnəcən mənim anamı saxlaya bilmədiz, – dedi, – utanın, hamınıza ayıb olsun.

– A bala, – dedilər, – sən bir bəlli oğlansan, hamımız öləcəyik, kim qalacaq ki?



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

– Rəhmətlik ağıllı arvad idi, sən gələnəcən gəlin də gətirdi sənə, nə istəyirsən?

– Quş kimi çimir ala-ala yaşadı yazıq, quş kimi də uçdu, getdi...

– Yox, – dedi Əhməd, – mən bunun əslinə yetəcəm, görüm kim incidib mənim anamı. Nə qədər qohumu var, hamısının üzünə tüpürüm! Yaxın gəlmə, Hadı, – Hadı onun qoluna girib çəkib aparmaq istəyirdi, amma bu, Əhmədi daha da qızışdırırdı, – əlini çək.

– Əşşi, gəl bəri, yaxşı.

– Yox, niyə sənin anan xəstə ola-ola ölmədi, mənim anam öldü, yiyəsiz idi, ona görə, hı?

Hadı bilmədi nə cavab versin, söz tapmadığından camaata baxıb gülümsədi. Gülüşdülər. Dəmir oğlu Nuh da əsgərlikdən təzə gəlmişdi, o da hələ əsgər paltarındaydı, dedi:

– Düz deyir daa, sənin anan, – Hadıya baxıb göz vurdu, – biz əsgərliyə gedənnən "ölürəm" deyirdi. Odu eey, çayda qab yuyur. – Hamı dönüb baxdı, amma heç kim heç nə görmədi.

– Mənim davam sədrnəndi, – dedi Əhməd, – siz heç, sizin hamınız günəbaxansınız. Bir çürük alma götürüb bir kimsənin qapısını açmazsız, deməzsiz al, bunu sənə gətirmişəm. Sizinki odu ki, rayondan kim gəldi, əl çalasız. Sədrdən soruşacam ki, mən üç il Vətən keşiyində dayanmışam, bu da mənim əlaçı əsgər nişanım, tərifnaməm, de görüm mənim anam niyə öldü, bəlkə acınnan ölüb mənim anam?

– Ayıbdı, əə, arvadın adına söz çıxartma, – Hadının səsi bayaq qız səsi kimi yupyumşaq idi, tez-tez boğazını arıdır, elə bil mahnı oxumaq istəyirdi, amma tez-tez öskürüb içini arıtmağı əslində cavab tapıb deyə bilmədiyindən idi. Əhmədin nə istədiyinin kökünü anlamadığından çaşıb qalmışdı. "Bəlkə özü qəsdən hay-küy salır ki, sədr ona bir yaxşı iş versin", – ürəyində fikirləşdi, aşkara, – güldürmə, – dedi, – camaatı, indi acınnan ölən var, arvadın adına söz çıxardırsan?!

– Mənim qohumlarım qırılıb, – dedi Əhməd, çırpına-çırpına, silkələnə-silkələnə, – arvad yad qızının umuduna qalıb axırda.

– Yad niyə olur, arvadındı da...

Nuh Hadıya sarı əyilib pıçıldadı:

– Bəlkə içib?

– Yox.

Əslində Əhmədin özü də bilmirdi ki, doğrudan da anasınınmı xiffətini eləyir, yoxsa səbəbi, kökü özünə də aydın olmayan hikkəsinimi yatırtmaq, soyutmaq istəyir, hər nəydisə, daha çox qəribsəməyə oxşa-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yırdı... On-on beş il bundan qabağacan Öygül arvadın işi-peşəsi qapı-qapı gəzmək idi: "Artıq-urtuq nəyiniz qalıb, bir şey bişirməmişəm mən!" Qənd verərdilər, aran payı – alma qaxı, armud qurusu tökərdilər ətəyinə. Əhməd də anasının önlüyünə bükülə-bükülə, dolaşa-dolaşa başını önlüyün yekə cibinə soxub armud qurusu götürərdi. Əli anasının ətəyində alma qaxı yeyə-yeyə, kəndin uşaqlarını söyə-söyə, tüpürə-tüpürə böyümüşdü. Hadının atası Əhməd əsgərlikdən qayıdanda sağ idi, son günlərini yaşayırdı, Əhmədi çağırdı yanına ki, – a bala, sən boşsan, işsizsən, ona görə də heç nə xoş gəlmir sənə, adına dəli dedirtməmiş, özünə iş tap. Ya ot biç, ya ot daşı...

Amma Əhmədinki darıxmaqdan, qəribsəməkdən idi... "Ne uyezjay, qolubçik moy..." Hər axşam meşədən çıxıb taladakı balaca kəndə gələrdilər. Başı fırlananacan rəqs eləyərdi. Sonra da elə o axşamların, o kəndin, o yerlərin özünə uyğun rəngli, dolu, yapışıqlı, unudulmaz olan bir səs onunçün oxuyardı... "ne uyezjay, qolubçik moy, ni pokiday..." Hadının atasının dediyinə gəlib çıxınca, özünə yer tapıb, buralara təzədən alışınca, xeyli vaxt keçməliydi, çoxlarıyla üz-göz olmalıydı...

* * *

– Bir kərə mənim anamın halını xəbər almamısız, əsgər ailəsidi, qapısını açmamısız! – Sədr dolubədənli yaşlı kişiydi. Çaşdığından quruyub stola yapışmışdı. Aşağıdan-yuxarı Əhmədə baxıb nə dediyini anlamağa, başa düşməyə çalışırdı. Bir anın içində idarənin dörd yanı kəndin kişiləriylə doldu. Əhməd əyilib arıq, uzunsov sifətinə yaraşmayan sümüklü, iri yumruğunu stolun üstünə qoydu, – ona görə ki, – dedi, – siz ancaq özünüzlə məşğul olmusuz. Özünüzdən başqa sizi heç nə düşündürmür!

Sədrin səsi kəndi başına götürdü:

– Demaqoqun biri demaqoq. Çıx bayıra, ədəbsiz!

Pəncərənin qabağında bayaqdan özlərini heç nəyə fikir verməyən, heç nə eşitməyən, heç nə görməyən kimi göstərən kənd kişiləri elə bil bununçün yığışıblarmış, bir-birini itələyə-itələyə içəri doluşdular, üzlərində dərin peşmançılıq hissi, yəni "başımızın böyüyünə də belə söz demək olar?" – bunu sədrə başa sala-sala, anlada-anlada Əhmədin qolundan tutub eşiyə dartdılar. Əhməd də dartına-dartına deyirdi:

– Hanı sənin klubun, hanı sənin kinon, hanı hamamın? – Öz içindən "...ne pokiday zemlyu, rodnuyu..." mahnısını bir də eşidə-eşidə, – bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vaxtacan neynəmisən? – dedi. – Neynəmisən özünçün, oğlunçün, qızınçün eləmisən...

Axşam məktubu da elə beləcə yazdı ki, bəs, bu boyda kolxozu dəyirmana döndərib, özüyçün işlədir.

Bir ayın içində bir-birinin ardınca bir neçə belə məktub yazıb yola saldı. Günlərin birində də dedilər ki, sədri işdən çıxardırlar. Balacadan tutmuş böyüyəcən hamı mat-məəttəl qaldı. Kənd elə bil bir qapılı böyük bir evmiş, sədrin çıxmağıyla o evin birdən-birə qapısı açıq qalmışdı, sədrin elədiyi, gördüyü gizli işlər haqqında o açıq qalmış qapıdan xəbərlər çıxıb yayılırdı. Ağırgövdəli bu köhnə kişinin tikdirdiyi üçmərtəbəli evi də elə bil Əhmədin məktublarından sonra gördülər. Hamı əli üzündə bu üçmərtəbəli evə baxa-baxa qaldı.

– Pah atovnan! – Nuhun atası Dəmir kişi düyməyə oxşayan balaca gözlərini qıyıb, uzun-uzadı fıştırıq çaldı. – Daşın biri on manata yonulubsa gör hara vurub çıxır. – Elə bil Dəmir kişi buralı deyildi, elə bil buralara indi gəlib çıxmışdı. Amma bu üçmərtəbəli evin himi qoyulan gündən daşını Dəmir kişi daşımışdı. Elə hər gün də deyirdi:

– Biz qohumuq, ay sədr, yad deyilik...

Sədrin otuz ilin içində yığdığı yumaq çözələnirdi. Kəndin kişiləri səs-səsə vermişdi...

– Düzdü, boynuma alıram, mən aparırdım. Gecədə on maşın ot satırdım, qəpiyinəcən də verirdim özünə. Üstünnən beşcə manat da vermirdi ki, bəlkə gözüm qalıb. Gözünün içinə deyirəm, deməsin yalandı.

– Hə, malı-qoyunu da mən satmışam, – bunu deyən də bapbalaca kişiydi, ayağının birini irəli, birini geri qoymuşdu, elə bil əlində daş vardı, indi atacaydı, – amma sonralar məni çıxartdı, yerimə ayrı adam götürdü.

– Nəyin üstə çıxartdı? – Rayondan gələn komissiyanın sədri elə kəndə gəldiyi gündən gülümsəyirdi, indi də ləzzət içində gülümsəyə-gülümsəyə onun sözünü kəsdi. – Niyə çıxartdı axı sizi işdən?

– Nə bilim? – Balaca kişi birdən-birə fəhmlə anladı ki, danışıq başqa yön alır, özü də dolaşır yavaş-yavaş. Elə bil nəyisə iyindən bilmişdi. – Hər şey onun əlindəydi, – dedi, – nə istəsəydi, eləyərdi. – Sözünün yerinə düşdüyünü sözünü qurtarmamış hiss elədi, elə bil ayağının altına daş qoydular, dikəldi, balaca əllərini açıb qabağa uzatdı, sədəf kimi incə, xırda dişləri göründü: – Mən neynəyə bilərdim?

– Düzünü de! – Komissiyanın sədri neçə gündü eləcə gülümsəyirdi, birdən-birə bərkdən güldü, yəni – "bizdən gizli şey yoxdu, biz hər şeyi bilirik..." – diliylə də onu dedi, – onsuz da biz hər şeyi bilirik, düzünü de.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Balaca kişi elə bil dərsini bilmirdi, uşaq kimi gözlərini döyüb yerində yırğalana-yırğalana:

– Əliəyrilik eləyirsən, – dedi mənə. Mən axı, nə satırdımsa, gətirib verirdim.

– Aydındı... Bəs vaxtında niyə xəbər verməmisən lazımi yerlərə?

Balaca kişi elə bil bir anın içində arıqladı, üzü əl içi kimi işlənib açılmışa oxşadı:

– Siz mənim yerimə olsaydız, – dedi, – xəbər verərdiz?

Komissiya sədrinin gülüşü bayaqdan üzündə işıq kimi dolaşırdı, birdən-birə üz-gözündən kölgə keçdi.

– Mən deyim, – Əhməd camaatın arasından qalxıb bir-iki addım qabağa gəldi.

– Sən sözünü demisən, – komissiyanın sədri yenə gülümsəyib göz gəzdirdi.

Məktəbin dəhlizi adamla doluydu. Diblərdən – köşklərdən pıçıltı gəlirdi. Yay buraxılışı olduğundan partaları siniflərdən çıxardıb dəhlizə düzmüşdülər. Pıçıltılar daşların arasıyla axan su səsinə oxşayırdı, elə bil partaların arasıyla çay axırdı. Komissiya sədrinin gülümsədiyini görüb camaat da bayaqdan dalğa-dalğa gülümsəyirdi, dalğa-dalğa, yəni, əvvəl bir tərəf gülümsəyirdi, sonra bu gülüş öz hənirtisi, öz küyüylə birgə o biri tərəfə keçirdi. Komissiyanın sədri ağıllı, dünyagörmüş adam idi; onun belə istiqanlılığı, camaata qaynayıb-qarışmağı gərginliyi aradan götürmüşdü. Camaatda qəribə coşqunluq əmələ gəlmişdi; kimin yadında, kimin ürəyində nə vardısa, hamısını açıb demişdilər, fikirləşirdilər ki, daha nəyi desinlər. Ona görə də olanın üstünə olmayanı da qoyub danışırdılar. Sığırçı Söyünqulu da bir dibdə oturub yanındakılarla pıçıldaşırdı. Birdən-birə yerindən dik qalxıb:

– Yoldaş nəçənnik, – dedi, – mən sədrin cibində lüt-lüt qız şəkilləri də görmüşəm.

Komissiya sədri elə bil neçə gündü ona görə sakit-sakit gülümsəyirmiş ki, axırda belə güləcəymiş. Enlisifət, durugözlü, bığsız, istiqanlı adam idi. Uğunub getdi, əlçitini çıxardıb üz-gözünü qapadı, başını stolun üstünə qoyub xeyli beləcə qaldı. Camaat da gülüşürdü. Söyünqulu hələ də ayaq üstəydi. Nuh da o biri tərəfdən ayağa durdu, dedi:

– Söyünqulu, mən ölüm, düz deyirsən?

– Sən öl, düz deyirəm, hələ birini də mənə vermişdi. – Söyünqulu belə deyib arvadına baxdı. Onun arvadına belə baxmağı soruşmağıydı: "– yadındadı?.." Arvad da altdan-yuxarı irişib:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ətin tökülsün, – dedi. Amma onun da irişməyində "yadımdadı..." ifadəsi vardı...

Nisə arvad bayaqdan bütün bu deyilənlərin, deyilməyənlərin arasında bir şeyi fikirləşdi: "Gözüdağınıqdı, hər nədi, babalı öz boynuna, camaatı dolandırandı".

On-on beş il bundan qabaq Nisə gözəl bir gəlin idi ki, gözəlliyi adla söylənirdi. Bostan ətəyindən qayıdırdılar. Sədr atın belində qarşılarına çıxdı. Davadan bir-iki il sonraydı, camaatın üzü-gözü indi-indi durulurdu. Sədr qamçısını silkələyib:

– Boşaldın, – dedi, – kim nə aparırsa, boşaltsın bura!

Hərə öz qabını sədrin göstərdiyi yerə boşaltdı. Nisə dinməz-söyləməz atın yanından ötüb qoluna keçirdiyi səbəti döndərdi. O:

– Nisə! – Sədrin içində qaynayan həyəcanı at da duyub, yerində dörd oynadı. – Bəlkə o biri qapına da baxaq, – güldü, – bəlkə orda da gizlətmisən?

Nisə qanrılıb altdan-yuxarı sədrə baxdı:

– O qapının yiyəsi var. O qapının yiyəsi sənin kimi hər qurumsağın əlində ölən deyil, bu gün gəlmiyibsə, sabah gələcək. Sən get öz qapında hür!

Sədr atın belində elə bil dala çəkildi.

– Ay başın batsın, zarafat da anlamırsan.

– Get o zarafatı arvadınla elə...

"– Bəlkə o qapına da baxaq..." Neçə ilin o başından sədrin səsini eşidirdi. Boynunu azacıq qabağa uzatmışdı, elə bil bu xatırladığını kiməsə danışırdı. Ona görə də yuxudan indicə ayılmış kimi üzündə bozumtul, dumana oxşar bir rəng vardı.

Xası müəllimin arvadının üzündə də belə bir bozumtul rəng dolaşırdı... On dörd-on beş yaşı olardı, məktəbdən qızlı-oğlanlı ot yığımına getmişdilər. Sədr bir iri qayanın dibində dayanıb: – Tez olun, – deyirdi, – ay uşaqlar, yağış yağacaq. – Doğrudan da birdən-birə selləmə yağış yağdı. O vaxt Xası müəllimin arvadı yupyumru, qaraşirin, ayaqlarının ucunda gəzən bir qız idi, çığırışa-çığırışa yüyürüşüb sədrin dayandığı tayaya sarı qaçdılar.

– Gəlin, a bala, gəlin, islanmayın.

Tayaya girdilər. Xası müəllimin arvadı onda özünə gəldi ki, sədrin qolunun üstündə oturub, qalxmaq istədi.

– Otur, a qızım, otur, – dedi sədr, – yer yaşdı, otur, soyuq olar. – Sədrin əli qızın altında otu xışıldada-xışıldada səs eləyirdi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xası müəllimin arvadı indi də yerindən qovzanıb təzədən oturdu.

– Belədi, yoldaşlar, – dedi komissiyanın sədri, qələmi stola vurub yanındakılara sarı döndü. Bir-iki kəlməylə nəyisə həll elədilər, yalnız ondan sonra ayağa durdu.

Əhməd heç nədən yenə acıq-hikkə içindəydi. Hikkəsindən komissiya sədrinin nə dediyini o qədər də yaxşı anlaya bilmirdi. Elə bil yenə nəsə olmalıydı. Kənd soveti sədrini, ferma müdirini, briqadiri – onları da dindirmək lazımdı, elə onun hikkəsiydi Əhmədi coşdurub dingildədən. Yerində qurcuxub, qalxıb yenə oturdu, az qaldı qışqırsın ki, tutun bu köpək uşağının hamısını damlayın! Komissiya sədri yenə qələmini stola vurdu:

– Söz sizindi, – dedi, – öz aranızdan tanıdığınız, bildiyiniz bir adamı seçin, təyin eliyək...

Camaatın arasına çaxnaşma düşdü, elə bil güzdək zəmisi dalğalandı. Bir andaca hamı öz içinə çəkilib qohuma, nəslə ayrıldılar; hamı öz içindən öz nəslinə göz gəzdirdi: "Kimi seçmək olar? Bizim qırılmışda adam var ki..." Nuh yüngülcə öskürüb atasına baxdı. Atası da balaca gözlərini qıyıb quruyub qalmışdı, eləydi, elə bil indicə harasa atdanacaydı, ya da elə bil nəsə ağır bir şeyi itələyirdi ki, getsin. Birdən-birə Nuhun qolundan yapışıb aşağı dartdı:

– Sənə dedimmi partiyaya keç əsgərlikdə? – Gözünün ucuyla Əhmədə baxıb pıçıltıyla soruşdu: – Əhməd partiyaçıdı?

– Həə, – Nuh elə bil oxlov udmuşdu.

Dəmir kişi bunu eşidən kimi ayağa durub çəliyini yerə vurdu, haçasına dirsəklənib:

– Oğul, – dedi komissiya sədrinə, – mən bu kolxozun yolunda can qoymuşam... – Camaatın, demək olar ki, hamısı ürəyində xorla "ay tülkü..." – dedi. – Yəni mən pisini də tanıyıram, yaxşısını da. Bizim özümüzün öz yanımızda hörmətimiz yoxdu. Bizə başqa yerdən adam gətirin, qoy lap uzaqdan olsun, yad adam olsun...

Söyünqulu da arvadının qulağına elə onu deyirdi:

– Bəsdi onun-bununçün əl qaldırdım. Mənim kimim var ki, kimi seçim. – Elə yerindən. – Dəmir kişi düz deyir, özümüzdən olmasın, uzaqdan olsun, – dedi.

– Biz yaxşıyıq, amma özümüzə yox. – Dəmir kişi hələ də ayaq üstəydi, camaata bir-bir elə göz gəzdirirdi ki, hamı danışmaq istəyirdi. Dəmir kişi ürəyində şəhərdəki oğlunun qarasınca ayrı şey deyirdi: "Hələ dedim, alimliyini də almısan, gəl. Ayğırın oğlu sədrin ardınca düşüb, işi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaşdı sədrin". Üz-gözündə neçə rəng bir-birinə qarışmışdı. Dodaqlarının yanlarında gülüşə oxşar titrəyiş oynayırdı. "Bir araba kartofun üstündə dizin-dizin süründürdü məni köpəyoğlu, adam belə gedir bax, Süleymana da heç nə qalmayıb..." Bunu da sədrin qarasınca deyirdi ürəyində. Əllərini yanlara açıb xeyli beləcə qaldı ki, bu da ürəyində danışdığı üçün idi...

Bir at arabası kartofu gecənin yarısı kənddən çıxartdı, səhərəcən yol getdi. Elə deyilən yerə çataçat idi ki, sədrlə üz-üzə çıxdı.

– Bu boyda yolu gətirmişəm, ay sədr, gör neynirsən, əməyimi itirmə.

– Səni tutdurmuyacam, qul eliyəcəm, – dedi sədr. – Düşmən köpəyoğlu, talandı dövlətin malı!

– Sən dedin, mən də gətirdim.

– Nə danışdığındı, əə, nadürüst?

– Öldürsələr də belə deyəcəm, şər atacam üstünə, hələ deyəcəm on araba da satmışam... pulunu da vermişəm sədrə. Üzünə duracam at kimi.

Səhər təzəcə açılırdı. Sədrin atı araba atlarıyla burun-buruna dayanıb qoxulaşırdı. Dəmir kişinin gözünün qabağında sədrin rəngi qapqara qaraldı.

– Sən nə alçaq adamsanmış, Dəmir! Qaytar hardan götürmüsən, ora boşalt!

Sonra neçə dəfə sədrin yanına getdi:

– Mən köhnə adamam, sədr, imkan yarat, dolanım.

– Sən nadürüst adamsan, sənə varlanmaq olmaz...

Nədənsə birdən-birə camaat yenə dalğalandı, baş-başa verib pıçıldaşdılar. Söyünqulunun arvadı əl-qolunu ölçə-ölçə nəsə deyib yenə oturdu. Dəmir kişi özünə gələndə artıq sakitlik çökmüşdü. Oğlunu dümsüklədi:

– Nə deyir bunnar? – Nuh cavab verənəcən, – yeni bir anın içində kişi dişinin dibindən çıxanı dedi. Başını oğluna sarı əymişdi, amma üzü komissiya sədrinə tərəfdi. Bir vaxtlar yaxşı dolanmanın bir araba kartof şəklində əlindən sürüşüb getdiyini hiss eləyirdi.

– Sənnən adam olmayacaq, Nuh, sən də ələbaxansan. – Dişlərini qıcayıb səsini qısdığına görə sözlər dişinin dibindən dartına-dartına, doğrana-doğrana çıxırdı: – Sənə dedimmi, əsgərliyə gedən kimi partiyaya keç. Belin qırılsın, bir belə vaxtınnan bilirdim ki, sənnən adam olmuyacaq.

Komissiya sədri onlara tərəf baxmadan qırmızı örtük salınıb üstünə üç-dörd şüşə limonad, üç-dörd dəstə çölçiçəyi qoyulmuş stolu döyəclədi. Qaraxan müəllim yanındakına təzəcə deyirdi ki, o stol mənim dərs dedi-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yim stoldu, ayağınnan tanıyıram, tıqqıltını eşidib Dəmir kişiyə sarı qanrıldı:

– Siz də dalaşmağa vaxt tapmısız?

Dəmir kişi heç nə olmamış kimi oğlunu yenə dümsüklədi:

– Nə deyir bu camaat, fikrim özgə yerdəydi, Allah kəssin səni, partiyaçı olsaydın indi səni deyirdilər.

– Əhmədin adını çəkillər.

– Nəə? – Elə bil bayaqdan burda yoxmuş, gülümsəmək lazım olduğunu bir anın içində necə, nə vaxt, hardan bildisə, təzə-təzə çallaşmış pırpız qaşlarınacan gülümsədi, özünü elə dəyişdirdi ki, elə bil, "xoş gördük", deyəcəydi, – Əhməd bala bizim oğlumuzdu, – dedi, – əlimizdə böyüyüb, elə döyülmü, Qaraxan müəllim. Paah,eləmi yaxşı olar, o cür olsa. Kəndi tanıyır, bilir. Amma cavandı, belə işin altına vermiyək onu. Sən deyən yolagedən də döyül, adamnan. Çünki sözü üzə deyir. Acıqlı olsa da canlara dəyən oğlandı, elə döyülmü, ay Hadı, əmin oğludu, sən mənnən yaxşı tanıyarsan. Bu, ağır təsərrüfatdı, görüb-götürmüş adam lazımdı. Mən səni istədiyimnən deyirəm, Əhməd bala, bacarmazsan, hökumətimizin qabağında üzün qara olar. Bizim Nuh, – əlini oğlunun çiyninə qoydu, – bu, yenə çöl briqadiri işləyib, ot işinə baxan olub, təsərrüfatdan başı çıxır, amma...

– Yaxşı, özümüz bir şey fikirləşərik, sizin sözünüz düz gəlməz...

* * *

...Təzə sədr kəndə gələn gün Əhmədin qızı anadan olmuşdu. Özü də qapıda kötüyün üstə oturmuşdu. Üstünü vurmasa da qızı olduğuna görə qanı qaraydı. Bayaq it başını qapıdakı qazana saldığı üçün düz yarım saat iti qovmuşdu, axırda it qaçıb çıxıb getməkdən başqa çarə olmadığını duyub hasardan atdanıb gözdən itdi...

– Qayıtmaz daha, – öz-özünə deyinə-deyinə kötüyün üstə oturub nəfəsini təzəcə dərmişdi, harasıydısa, nəyiydisə, nəfəs aldıqca yanıq yeri kimi göynəyirdi.

– Nə mısmırığını sallamısan? – Nisə arvad idi, Pəriyə halva çalıb gətirmişdi, verib qayıdırdı.

"Gözüm qaldı daa bu arvadda mənim, ölənəcən də qalacaq..." Əhməd özünə gələ-gələ altdan-yuxarı arvadı gözdən keçirirdi. Bir anın içindəcə canlandı, gözlərinin dibinəcən rəngini dəyişdi, gülümsədi. "Yaşlı arvadın



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

belə canısulu olması günahdı vallah". Əhmədin gözlərinin dibində parıltılar oynayırdı. Bu həmin an idi ki, Əhməd öz gözlərinin dalında gizlənib arvada ayrı gözlə baxırdı. Nisə arvad yəqin bunu duyduğu üçün, – a bala, – dedi, – gözəl-göyçək qızın olub, bir yaxşı ad fikirləş, niyə kefsiz oturmusan?

Qapının ağzından alaqapıyacan yaşıllığın, – əl otunun, əl çiçəyinin arasıyla uzanan cığıra düşüb Əhmədin baxışlarını hiss eləyə-eləyə aralandı. Özü də tökmə, dolu, biçimli bədənindən utandı, bilmədi necə yerisin. İçindən bir-iki kərə hönkürtü qopdu, özü öz fikrində saçlarını yola-yola ağlayırdı: – Gəl çıx, – deyirdi ürəyində, – oğlum yerində olanlar da böyüdü, kişi oldu, gəl çıx!..

Yan-yörədə heç kim yox idi, ona görə göz yaşlarını saxlayammadı. Evlərin arasından beş-altı arvad-uşaq çıxdı. Nisə arvad onları görən kimi çayın qırağına endi, üzünə su vurdu, arvadlar da enib çayın qırağına düzüldülər.

– Ay Nisə!..

– *Ay Nisə xala...*

Nisə arvad üzünə bir də su vurub başını qaldırdı, gözlərinin yaşı tamam ayrı şey kimi sudan seçilirdi, arvadların hamısı birdən:

– Niyə ağlayırsan, – dedilər, – ay Nisə? Nolub?

Nisə arvad Əhmədin baxışlarını xatırlaya-xatırlaya:

– Heç, – dedi, – ürəyim dolmuşdu, heç nədən ağladım...

Əhmədin iti kəndin çıxacağındakı dikdirdə quyruğu üstə şöngüyüb kötüyün üstündən hələ də tərpənməyən Əhmədə baxır, aradabir zingildəyirdi. Sonra qalxıb əzilə-əzilə, əyilə-əyilə evin başına dolandı, hələ xeyli də dolanacaqdı ki, görsün Əhmədin acığı soyuyubmu? Əhmədin acığı, doğrudan da soyumuşdu, amma iti görəndə yenə ayağını yerə döyüb qışqırdı:

– Sən bir bu qapıya gəl! – amma iti aldadammadı, it onun səsindən bildi ki, artıq acığı soyuyub, Əhmədin düz ayağının ucunacan sürünə-sürünə gəlməyi də ona görəydi... Alaqapı da elə bu vaxt açıldı, Hadıydı, içəri girən kimi əllərinin ikisini də yalınca göyə qaldırdı, – "təzə xəbər var", demək idi. İt Əhmədin ayaqlarının ucundan dikəlib oğru üstə çıxıbmış kimi yeri eşə-eşə uzun-uzadı hürdü, bu da itin bayaqkı danlaqdan sonra iki daşın arasında qulluq göstərməyiydi. Hadı quruyub qaldı:

– Qudurub, əə, bu didələmçəngə!

– Bilirsən nə tülküdü bu?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İt indi də iməkləyə-iməkləyə Hadıya sarı getdi...

– Təzə sədrimiz gəldi.

Əhməd Hadının üz-gözündən bundan artıq bir şey anlaya bilmədi, yəni həmişə olduğu kimi Hadının üz-gözü deyə bilərdi ki, "bizim adamdı, suya sal, iç, ya da bicin biridi, yeməyə gəlib..." İkisi də susub bir-birinə baxırdı. Hadı üz-gözünü turşudub çiyinlərini çəkdi:

– Yaman sərt adama oxşuyur, – dedi. Birdən-birə səsi dəyişmişdi, elə bil Əhmədin qabağında suçunu boynuna alırdı.

– Sərt olub neyniyəcək? – Əhməd özü öz sözünə qızışıb bir anın içində özündən çıxdı. – O yan-bu yan eliyər, bunu da onun dalınca göndərərəm!

– Yoox, fikir verdim, adama baxmır, adamın başının üstünnən bilmirsən hara baxır.

– Haralıdı? Sən haralı olduğunu de, mən biləcəm nə təhər adamdı.

– Elə adamın bir yeri olmaz, nəysə, qorxdum mən...

O vaxtdan iki-üç il keçmişdi, yenə də hərə bir söz deyirdi, düzünü heç kim bilmirdi. Bilmirdilər arvadı-uşağı varmı, ev-eşiyi hardadı. İdarə otaqlarının bir gözündə qalırdı. Ayda bir-iki kərə bir-iki günlüyə çıxıb gedirdi; biri deyirdi həkimə gedir, biri deyirdi evinə gedir...

Bir yandan da il quraq gəlmişdi.

– Bu neçə ildə də o biri sədrin üzünə çörək tapdıq, – deyirdilər, – acından qıracaq bizi bu qaraqabaq.

Siçan elə artmışdı ki, adama dırmaşırdı. Sədr atın belində zəminin qırağıyla gəlirdi. Ot-əncər quruyub çöp bağlamışdı. Hadı arvadıyla bir yerdə tələsə-tələsə tayadan ot yoluşdururdu. Təzəcə demişdi ki, sədr yoxdu kənddə, bir-iki ayaq aparsaq malın üç öynəsidi. Arvad birdən boğuq səsiylə:

– Evin yıxılsın, sədr gəlir! – dedi.

Hadı əlləri tayada bir anlıq quruyub qaldı. Birdən dönüb tayanın dibində oturdu, arvadının qolundan yapışıb özünə sarı dartdı:

– Otur qucağımda, tez!

Arvad onun nə istədiyini hələ işarədən anlamışdı, arıq gövdəsini kişinin qucağına yıxıb qolunu boynuna saldı. Gün əyilmişdi, sədr də elə günün əyildiyi yerdən gəlirdi. Atın kölgəsi arvadın üstündən qırıla-qırıla, əyilə-əyilə keçib tayaya dirəndi. Arvad Hadının boynuna sarmaşmışdı, Hadının başı otun içindəydi, görünmürdü. Arvadın üzülmüş, nimdaş, kirli paltarı çirmənmişdi, arıq qıçları otun içində heysiz-heysiz tərpəşirdi... Sonra atın tayaya dirənmiş kölgəsi sürüşüb tayanın o biri üzünə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

aşdı. Bayaqdan atın kölgəsi arvadın üstündəydi, kölgə çəkilən kimi arvadın kürəyi isindi:

– Getdi deyəsən.

– Gözlə, qoy lap uzaqlaşsın...

Sədr zəminin qırağıyla qayıdırdı, ürəyi ağzına gəlmişdi, az qalırdı öyüsün. Kürəyindəki qəlpə yarası sızıldamağa başlamışdı, sonra ürəyi sancdı, bərkdən, – tfu, – tüpürüb düşüb atı yedəklədi:

– Kişi ol, əə, binamus! – sözü deyəndən sonra yüngülləşdi. Səsinə otun-əncərin arasından siçanlar baxışdı.

Hadının arvadı tayanın dibində oturub ağlayırdı:

– Biabır oldum mən, necə çıxım indi o kişinin üzünə?!

– Dolanma budu, bax, bəs nə, pul bilirsən itin harasındadı? Gərək dişinlə çıxardasan. Qalx, götür o şələnin birini!

– Qızıl da olsa, götürmərəm... – dedi, amma sədr gözdən itəndən sonra dinməz-söyləməz şələni götürüb getdi. Üç-dörd gündən sonra Hadı sədri görüb, üz-gözünü utandıra-utandıra:

– Bağışla, yoldaş sədr, – dedi, – cavanlığımız yadımıza düşmüşdü.

Sədr zəminin qırağında öz-özünə dediyi sözdən başqa söz tapa bilmədi:

– Kişi ol, əə, – dedi, – oğurluğun təzə yoludu bu da?!.

* * *

O vaxtlar artıq Əhməd Bəlli Əhməd olmuşdu. Yan-yörədəki kəndin-kəsəyin camaatı bu kənddən keçəndə balacadan da, böyükdən də soruşurdular:

– Sizdə bir Bəlli Əhməd var, nə təhərdi, kefi necədi, təzə sədrnən yola gedə bilirmi? Sədr qulluq verdimi ona?

Sonra da yavaş-yavaş yanına gəlməyə başladılar.

– Sən bir Bəlli oğlansan, al, bu da sənin payın, yanına məsləhətə gəlmişik. Sədrnən dolana bilmirik, bir çəngə otun üstündə iki adam tutdurub. Qələmini bula, bəlkə sən bir əlac eliyəsən...

Bəlli Əhməd onda təzə ev tikdirirdi. Birinci mərtəbəsi tikilib qurtarmışdı, yuxarıdan-aşağı Hadıya:

– Faktı düz vermillər, – dedi, – yazıram, yoxlama gəlir, yoxlayır qayıdır, – özü ikinci mərtəbədə dayanmışdı, ustaya daş verirdi, Hadı yerdə palçıq qarışdırırdı. Usta Əhməddən daşı alıb bayaqdan fikrə getmişdi. Neçə gündü bu söhbətdən bir şey anlaya bilmirdi, ha istəyirdi soruşsun,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ürək eləmirdi. – Hə, faktı düz vermillər, – Əhməd yenə belə dedi. – Mən gedib o kənddə yaşayan deyiləm ki, görəm doğrudan da nə var, nə yox. – Usta üzünü yana döndərəndə başıyla hasarın dibində otlayan qoyunu göstərdi, – indi də bunu gətiriblər ki, təzədən, – əlini qələm kimi tutub yazmağa işarə elədi. Hadı da aşağıdan-yuxarı ustanı göstərdi:

– "Dana əmir", – dedi, yəni usta başa düşər birdən.

Usta daşı qoyub geri qanrıldı, hirsli-hirsli Hadıya baxdı:

– Dana özünsən, ə! – Gözlərinin dibi qızarmışdı.

Əhməd gülüb:

– Səninlə deyilik, – dedi, – ayrı şeydən danışırıq. Qonşu inəyini satmışdı, yenə qaçıb gəlib inək. Hadının dediyi odu.

Hadı daşın üstündə oturub gülürdü:

– Yolda da inəyi tutub əmiblər...

– Gülərsən daa, – ustanın fikrini yayındırmaq üçün dedi Əhməd, – nə vecinə, evini tikdirib oturmusan...

Kənddə təzə evlər çox idi, kənd böyüyüb, gözəlləşmişdi, amma baş qarışıq olduğundan bunu görən yox idi, daha doğrusu, görən də kəndi bir yerdə, bütöv yox, ev-ev ayırıb görürdü, ona görə də elə bir dəyişiklik hiss eləmirdilər. Neçə il idi, kəndin camaatı əmək gününə kartof, ot, taxılla bir yerdə pul da alırdı. Amma elə almaq istəyirdilər, sədrin yanına gedən – ver, – deyirdi, – əskikliyim çoxdu...

– Özünə bir it al, itsiz qapı olmaz, – Hadı bayaqdan palçıq qarışdıra-qarışdıra aranı qatmaq istəyirdi. Başını qaldırıb gülümsədi, onun nə demək istədiyini Əhməd bilirdi, usta yenə bir şey anlayammadı. – Amma elə it al ki, hürən olmasın.

Usta yarıyaşını keçmişdi, ağlı kəsəndən daş yonur, hörgü hörürdü. Üzüboz, ağır, azdanışan adam idi, daş parçası kimi kələ-kötür əlləri elə bil daşdan qırılmışdı. Daşdöyən çəkic səsi kimi küt səslə:

– Sənin dediyin pişikdi, əgər it hürmürsə, bə neynəməlidi? – Neçə gündü onsuz da Hadının əlindən yanıqlı idi. Daş yona-yona, – axx, – dedi, – nə yonardım səni... – Yuxarıdan-aşağı gözlərini Hadıya dikdi, yenə fikirləşdi, – "nola bilər axı bu it məsələsi..."

* * *

Gecənin yarısıydı, Əhməd kilosunu bir manatdan hesablaya-hesablaya xurcuna kartof doldurur, eşşək də qaranlıqda gözünü döyə-döyə kartof yeyirdi. Onların hənirtisinə it də gəlib çıxdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Hürəcək, – dedi öz-özünə Əhməd. Ağzı eşşəyin qulağına yaxın idi, elə bil eşşəklə danışırdı, – əclaf hürüb camaatı üstümüzə gətirəcək, – qalxıb itə təpindi, səsini boğa-boğa, – rədd ol, sürüş yerinə, – dedi.

İt zingildəyə-zingildəyə qaçıb qaranlığa qarışdı, bir neçə addımlıqda şöngüyüb qulaqlarını şəklədi, əvvəl at ayağının səsini eşitdi, sonra qamçı şaqqıldadı. İt cingiltili, gümrah səslə hürüb etibarını bildirmək üçün Əhmədin yanına qaçdı.

– Batdım! – Eşşəyin boynunu qucaqlayıb qulaqlarının arasından qaranlığa baxdı, – quduz dəymiş düz üstümə gətirəcək. – Əlini uzadıb itin ağzından yapışmaq istədi ki, səsini kəssin, it daha da ürəklənib hürə-hürə eşşəyin başına dolandı. Atlılar itin səsinə sarı çapdılar.

– Kimin itidi, tanıya bildinmi səsinnən? – Sədr yanıyla çapan Dəmir kişidən soruşdu.

Dəmir kişi dediyinə peşman ola-ola:

– Deyəsən Əhmədin itidi, – dedi...

Əhməd eşşəyin qulaqları qalanacan dartıb çaya salmışdı, suyun dərin yerindəydilər. İkiəlli eşşəyin burnundan yapışıb yarğanın altında atlıların keçib getməyini gözləyirdi. İt onsuz da bayaqdan çaşıb itlikdən çıxmışdı, bilmirdi neyləsin. Hürə-hürə, zingildəyə-zingildəyə tamam tərsinə qaçıb atlıları da ardınca apardı, yarğanın o yan-bu yanında xeyli vurnuxdular, sonra hər yana səssizlik çökdü. Aradabir ay işığına atdanan balıqların şappıltısından başqa heç nə eşidilmədi.

Suda olduğuna görə eşşəyin yükü yüngülləşmişdi, amma sudan çıxanda elə ağırlaşdı ki, dalı əyildi, yükün əvvəlki ağırlığına alışanacan xeyli ayaqlarını sürüməli oldu. Sonra özünü düzəldib komalıqların, gicitkanlıqların arasıyla evə tərəf gedən tanış cığıra düşdü, suyu süzüldükcə yüngülləşdiyinin ləzzətini duyub yorğaladı...

"Sədrin yanındakı Dəmir kişiydisə iti tanıdı..." Eşşək alaqapını başıyla açdı. Pəri yükü eşşək qarışıq anbara saldı. İt bayaqdan gəlib qapının ağzını kəsdirmişdi. Əhmədin boylandığını görüb küncün qaranlığında quyruq buladı:

– Burdasan əclaf?! – Əlindəki beli itin başına çırpdı, itin gözləri altdan-yuxarı düz onun gözlərinə dikilmişdi, bir anlıq eləcə də qaldı, sonra Əhmədin gözləri görə-görə köz kimi qaralıb söndü. Belin ağzı bıçaq kimi itiydi, itin heç səsi də çıxmadı. Sürüyə-sürüyə aparıb yerə basdırdı; – "mənim itim çoxdan yoxdu, Dəmir kişi bilir ki, bunu..." – Sabah soruşsalar belə deyəcəydi. Bunları fikrində dolandıra-dolandıra qayıdırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elə bildi arxadan kimsə gəlir, hənirtiyə geri döndü, qapının küncündən itin bayaq ona dikilən gözlərini təzədən gördü, az qaldı qışqırsın, özünü həyətə saldı, canı lərzəyə düşmüşdü, titrəyə-titrəyə əlüzyuyana sarı gedib üzünə su vurdu, içəri keçib paltarını dəyişdi, təzədən çıxıb ətrafa göz gəzdirdi: – "Uşaq kimi qara basırdı məni, – dedi öz-özünə, – bu nəydi belə?..". Qorxusunun çəkildiyini hiss edib gümrahlaşdı. Pəri də eşşəyin yükünü yerbəyer eləyib anbardan indi çıxdı.

– Bizim bir aydı itimiz yoxdu, – geyinib kötüyün üstə oturmuşdu, dartıb arvadı da yanında oturtdu. – Soruşan olsa, belə deyərsən!

– Bayaq atlılar keçdi, elə qorxdum ki...

– Deyərsən başını qaba-qaşığa salırdı, qovduq, – elə bildi, it yenə altdan-yuxarı ona baxır, əti ürpəşdi, dinməz-söyləməz qalxıb içəri keçdi. Özünü sakitləşdirə-sakitləşdirə yerinə uzandı, nə vaxt yuxuya getdiyini də bilmədi. İti necə öldürmüşdüsə, yuxusunda təzədən gördü. Amma itin gözləri yuxuda adam gözlərinə oxşayırdı, kim idisə altdan-yuxarı ona baxırdı. Sonra aşkarda necə eləmişdisə, yuxuda da itin ayaqlarından yapışıb sürüyə-sürüyə eşiyə çıxartdı. Geri dönəndə gördü ki, sürüyə-sürüyə apardığı öz qızıdı, yuxusunda da qışqırdı, aşkara da. Qız da yuxusunda görürdü ki, atası onun saçlarından yapışıb sürüyə-sürüyə aparır. Atasıyla bir yerdə o da qışqırdı. O gündən qızın dili dolaşdı, axşam dil-dil ötən uşaq səhər gördülər ki, pəltəkləyir.

Səhər tezdən idi, Pəri uşağın danışığına mat-məəttəl qalmışdı, üz-gözünü cıra-cıra bayaqdan:

– Allah, mənə ölüm ver, – deyirdi. Sonra uşağın başını dizlərinin üstünə qoydu, – ağzını aç, baxım.

Uşaq balıq kimi ağzını açıb-yumdu, sonra kəkələyə-kəkələyə nəsə dedi.

Əhməd bayırda qurdalanırdı: payız həyətiydi, ha yığırdı, yığışdırırdı, böyür-başdan yenə iş çözələnirdi.

– Uşaq qorxub, – dedi ürəyində, öz yuxusu, qışqırmağı yadına düşmürdü. Yalnız uşağın qışqırtısı yadındaydı. Pəri uşaq da qucağında qapıya çıxdı. Səhərə yaxın xeyli dilləşmişdilər, amma Əhmədin qışqırmağını boynuna qoya bilməmişdi, ona görə də səhərki söhbətə bir də qayıtdı:

– Axı, mən sənin çığırtına oyandım, o nəydi bə?! – dedi arvad.

– Çığıran mən deyildim, ay öküz, uşaq idi. Sən niyə uşağın yanında yatmırsan ki, girirsən mənim yanıma, elə bil qaçacam mən?..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Maşın səsi gəldi. Əhməd, – sədrdi, – deməyə macal tapmamış, həyət qapısı açıldı. Dəmir kişi başını içəri salıb istiqanlılıqla gülümsədi, özünü daha yaxın, daha doğma göstərmək üçün Pəriyə sarı döndü:

– Nə təhərsən, qızım? Gəl, ay sədr, gəl, bunnar da yad adam döyül-lər, bizim adamlardı, – Əhmədin üz-gözündəki hikkəni görüb çiyinlərini büzüşdürüb yüngülcə silkələndi; yəni mənim günahım yoxdu.

Sədr qapıdan içəri girənəcən Əhməd Pərinin qucağından uşağı götürdü:

– Hazırlaş! – dedi. Bu, araya çaşqınlıq salmaq üçün idi ki, Əhmədin elədiyindən özünün də xəbəri yox idi. Dəmir kişi doğrudan da çaşıb qaldı.

Sədr qapının ağzında dayanmışdı, üz-gözünü elə qırışdırmışdı ki, elə bil dişi ağrıyırdı. Bir-iki addım Əhmədə sarı gəlib həyətə göz gəzdirdi:

– Gecə bostannan kartof aparıblar.

Əhməd uşağı anasına elə ehtiyatla verdi ki, Dəmir kişi daha özünü saxlaya bilmədi, boğazını uzadıb yavaşcadan soruşdu:

– Nolub uşağa?

Əhməd elə bil Dəmir kişini görmürdü, ya da özünü elə göstərirdi, elə bil o da bu evin adamıdı. Keçib sədrlə üz-üzə dayandı, əl-qolunu ölçə-ölçə:

– Bilirəm, – dedi, – yoldaş sədr, bilirəm aparırlar, tək bu gecə yox, hər gecə aparırlar.

– Axı, biz səni görmüşük gecə. Bostanın qırağında hürən sənin itindi, eşşəyi də yükləyib gətirirdin.

– Mənim hürməyə itim yoxdu, yoldaş sədr, Dəmir kişi bilir ki, bunu. – Dönüb Dəmir kişiyə baxdılar. Dəmir kişi nəsə demək istəyirdi ki, Əhməd əllərinin ikisini də qaldırıb:

– Hə, – dedi, – eşşəyim var, düzdü.

Sədr xeyli yerə baxdı, elə yerə baxa-baxa da:

– Oğru yox, – dedi, – gödən yırtansınız hamınız, çarıq oğurlayan-sınız. Altı ildən çoxdu siznən işləyirəm, baş aça bilmədim sizdən...

* * *

Bir neçə ay Əhməd oturub sədrdən yazmaq istədi, amma bilmədi nə yazsın. Payızacan elə bu haqda fikirləşdi... Biçin qurtarmışdı, ot yığımının axır-uxuru idi, təpələr baş kimi qırxılmış, yazdan bu yana otun-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ələfin çoxluğundan daralmış, basıb doldurulmuş kimi görünən düzənliklər, çöllər, yamaclar seyrəlib açılmışdı. Əhmədlə Hadı bir yamacda maşınlara ot yükləyirdilər. Sürücü maşının üstündə otu ayaqlaya-ayaqlaya düzəldir, arabir özüyçün mahnı oxuyurdu. Əhmədin eşşəyi bir az aralı yeyib doymuşdu, uzaqdan ovuc içi kimi görünən qonşu kəndə sarı burnunu çərməyib havanı iyləyirdi. Birdən-birə yüngülləşib dırnaqlarının ucuna qalxmışdı ki, anqırsın, amma bir-iki kərə içinicə çəkib, başını aşağı salıb gözlərini yumdu. Sürücü maşının üstündən:

– Eşşəyin ağlayacaq, – dedi, – Əhməd.

Əhmədin fikri tamam başqa yerdəydi, bayaqdan haldan-hala düşməkdəydi:

– Bura bax, kimnən eşitmisən? – Yabaya söykənib tərini sildi. – Sən öl, biz bunu sübut eliyə bilsək, əlli-ayaqlı gedər o! – Həyəcanından tər tökməkdəydi.

– Necə sübut eliyəcəksən, öz şoferinin belinə minib çayın bu üzünnən o üzünə addıyıb.

– Yaxşı, at görək...

Sürücü maşının üstündən nə qədər boynunu uzadırdısa bir şey eşidə bilmirdi. Əhməd ot yabasını ot qarışıq başının üstünə qaldırıb altından Hadıya baxıb işarə elədi: "– Yuxarıkı bilməsin..." Beləcə axşam düşənəcən dinməz-söyləməz işlədilər. Axşamacan da Nisə arvadın oğlu Aydın, belində də sədr Əhmədin gözünün qabağından çəkilmədi...

Axşam Hadı ot maşınıyla getdi, Əhməd eşşəyə bir şələ də ot vurub əl-ayaq işləməyən yolla qayıtdı. Dəmir kişi kəndin girəcəyində onu gözləyirdi. "Heç kim bilməsə də bu tülkü biləcək..." – Əhməd bunu fikirləşə-fikirləşə kişiyə çatanacan başını qaldırmadı. Dəmir kişi düz yolun ortasında dayanmışdı, Əhməd yaxınlaşan kimi əsasına dirənib acıqlı-acıqlı ona baxdı:

– Sən, – dedi, – səhər işə gedəndə niyə elə çox baxdın mənə? Sözün var, sözünü de! – Elə bil Əhməddən, doğrudan da, alacağı vardı, bu sözün ardınca da borcunu istəyəcəydi. Üz-gözünü turşudub ayaqlarının ucuna qalxmışdı.

Eşşək aradabir boynunu döndərib öz şələsindən ot qırpa-qırpa evlərin arasından keçib alaqapının ağzında dayandı. Qapının bircə tayı açıq idi. Bunu eşşək də hiss edib adam kimi yanpörtü keçdi, ot şələsini səliqəylə içəri addatdı. Dəmir kişi boğazını bir az da uzadıb quruyub, bərkiyib taxtaya dönmüş barmaqlarıyla sinəsini döyəclədi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sözünü burda saxlama, yoxsa içini deşər. Adamı sözdü çürüdən. Əhmədin dinmədiyini görüb düz onun çənəsinin altınacan yeridi. – Dedin itim yoxdu, – barmaqlarının ucunu yavaşcadan bir-iki kərə dodaqlarının üstünə vurdu, – mən də kiridim, qurdalamadım ki?

– Əşi, qurdalayıb neyniyəcəksən? – Əhməd bunu elə-belə dedi, əsil sözünün ürəyində olduğunu bildirə-bildirə boylandı, arvadını qapının ağzında görüb yüngülcə əlini yellədi: "Keç içəri..." Arvad içəri keçib qapını çəkdi, amma azacıq aralı qoydu. Əhməd gözlərini yenə Dəmir kişinin üzünə dikdi.

– Sən mənnən əl çək, haa, mənim ağacıma minən... – Dəmir kişi hirslənmişdi, acığından özü öz səsini eşitmirdi.

Əhməd onun hirsləndiyinə gülümsəyə-gülümsəyə:

– Bir şey soruşacam, – dedi, – sənnən, gərək düzünü deyəsən.

Dəmir kişi çaşıb qalmışdı, boynunuca uzadıb çəkirdi; qurdalandı, nəfəsini dərib çiyinlərini yığdı, bərkindi, elə bil yük götürəcəydi... "Bəlkə sədrə dediklərimi çatdırıblar buna", – fikirləşə-fikirləşə:

– Hamı ailə dolandırır, a bala, – dedi, qonum-qonşu yanındakı günahlarından, kənd soveti sədrinin, rayondan yoxlayışa gələn adamın qulağına elədiyi pıçıltılardan nigaran idi, ona görə cavabını bəri başdan verirdi, yəni "xəbərçilik eləyib haqq almışam, sən də onnan-bunnan yazıb haqq alırsan..." – Heç kim əl-üzünü yuyub, suçunu suya çəkməsin, hamının üzü üz görüb qayıdıb! – Əhmədin nə soruşacağını bilmədiyi üçün nə deyirdi, yerinə düşmürdü, çaşıb qalmışdı.

– Sən oğluyun canı, sədr şoferini minəndə sən gördünmü? – Əhməd barmaqlarını qələm kimi tutub Dəmir kişinin gözünün qabağında gəzdirdi, – lazımdı mənə.

Dəmir kişi silkələnə-silkələnə gülüb çəpərin dibindən oturacağa sarı getdi:

– Gəl bura, gəl oturaq. – Əlini ləzzətlə sırıqlısının cibinə salıb tənbəki kisəsini çıxartdı. – Mən də yolu kəsmişdim ki, dalaşım sənnən. – Başını bulaya-bulaya yenə güldü. – Nolar minəndə, adam adama yaxşılıq eliyər, bəs, suya düşsün, axsın deyirsən?!

Əhməd yaxınlaşıb bir-iki addım aralı dayandı:

– Yox ey, özün öz gözünlə görmüsən, görməmisən?

Dəmir kişi elə bil birdən-birə cavanlaşmışdı, gözləri oyur-oyur oynayırdı:

– Mən görməmişəm, – dedi, – bizim Nuh görüb. – Səliqəylə kəsdiyi qəzet parçasını dilinə sürtüb tütün eşdi. – Özün ağıllı oğlansan, söznən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

neyniyə bilərsən, şəkil olsaydı, həə, başqa məsələ, altınnan da yazardın... – dörd yanına boylanıb, uşaq səsi çıxarda-çıxarda pıqqıldadı.

Elə bu vaxt sədrin maşını döngəni burulub yanlarında dayandı. Sədr elə gendən-genə maşındanca:

– Əhməd, – dedi, – o tayanın hamısını yükləyə bildizmi, yoxsa qaldımı yerində? Yol qırağıdı, daşıyıb aparacaqlar.

– Ay yoldaş sədr, elə mən də onu soruşurdum indicə, – Dəmir kişi belə deyib bir-iki kərə baş endirdi.

– Qalmadı, – dedi Əhməd, – hamısını yüklədik. – Fikri sürücünün yanındaydı, azacıq yana sarı əyilmişdi ki, sədrin böyründən onun üzünü yaxşı görsün...

Axşam düşmüşdü, qaranlıq qarışhaqarışdı. Ot maşınları işin axırıncı ayağını gətirirdilər. Kəndin içi elə bil çölündən qaranlıq idi. Maşınlar yaxınlaşdıqca qaranlığa qarışırdı. Sədr bayaqdan Dəmir kişiyə baxıb nəsə demək, daha doğrusu, onun cavabını vermək istəyirdi ki, qoca kişisən, niyə özün-özünü aldadırsan? Bu yaşda gərək ikiüzlülük eləmiyəsən, qoca ki bu cür yaltaqlıq, biclik elədi, daha de ki, dünyanın axırıdı. Amma onu da bilirdi ki, artıq gecdi, bu cavabların yeri deyil. Başını aşağı salıb sakitcə:

– Sür! – dedi.

Əhməd maşının ardınca qışqırdı:

– Aydın, sənnən işim var, bir azdan yanına gələcəm.

Dəmir kişi hasarın dibində oturmuşdu, bayaqkı söhbətinə qayıtmaq istəyirdi, amma bilmirdi nədən başlasın.

– İndidən nahaq dedin ki, gələcəm.

– Yox, sən bilmirsən, qoy narahat olsunlar, – Əhməd belə deyib maşının ardınca baxdı. Sədrin maşını kəndin içiylə keçirdi...

– Aydın, bu Dəmir kişinin neçə yaşı olar? – dedi sədr.

Sədr Dəmir kişidən yenə nəsə demək istəyirdi. Aydına baxdı, yenə onun həmişə təəccüb, sual yağan gözlərini görüb gülümsədi:

– Bilmədim səni kimə oxşadıram, Aydın, kimdisə çox yaxın adamdı. Ha fikirləşirəm, tapa bilmirəm.

Dünənki kimi Aydının üz-gözündə yenə sual dolaşırdı, daha doğrusu, üç ildi sədrin maşınını sürürdü, ona görə də kəndin camaatı tez-tez ondan soruşurdu ki, bir öyrən görək, bu adam niyə təkdi? Aydın da üç ildi səhər-axşam soruşmaq istəyirdi, amma özüylə bacara bilmirdi, üzü gəlmirdi: ailəsini heç soruşa bilməzdi, necə soruşaydı ki, arvadın varmı? Yarıyaşını ötmüş adamdı, uşaq deyildi ki, ata-anasını soruşsun. Sədrin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

düşüncəli, fikirli görünüşü, kökündə istiqanlılıq, yumşaqlıq dolaşan zəhmli gözləri, ağır, xırıltılı danışığı Aydını bundan o yana yaxınlaşmağa qoymurdu...

Dünən də beləcə, kəndin içiylə keçirdilər. Sədr dünən də, – tapammıram, – dedi, – Aydın, bilmirəm kimə oxşadıram səni, – dönüb ona baxdı, dişağrısı kimi bayıra çıxmayan, daha da adamın içinə dolan, tanış, doğma bir ağrı kürəyinin dərin qatlarından qalxıb bütün damarları boyu yayıldı, gülümsəyib çiyinlərini çəkdi. Araya səssizlik çökdü, daha doğrusu, bir anlıq arada boşluq yarandı ki, Aydın bu boşluğu özünün də anlamadığı bir fəhmlə duyub:

– Yoldaş sədr, – dedi, – siz allah, deməyin ki, bu nə axmaq adamdı soruşur. Bəs, ailənizi niyə gətirmirsiz, özləri kəndə gəlmək istəmirlər?

Sədr dinmədi. Bayaqkı gülüşü donub üzündə qalmışdı, elə bil üzündə nəsə əriyib damcı-damcı yox olmaqdaydı ki, oldu, sədrin üzündə bayaqkı gülüşün quruca yeri qaldı.

Aydın dediyinə peşman olmuşdu, öz səsi başına düşüb küt-küt tıqqıldayırdı. Kənddən çıxıb tayaların dibinə çatanacan sədr dinmədi, işçiləri görəndə qırışığı açıldı, maşından düşüb onlara sarı getdi.

Aydın indi maşının pəncərəsindən baxa-baxa sədrin dünən haldan-hala düşən görkəmini xatırlaya-xatırlaya susmuşdu... Hadıyla arvadı dükandan gəlirdilər. Hadı bir az qabaqda iri gövdəsini yırğalaya-yırğalaya üzüaşağı enirdi, arvadı da ardınca. Sədrin maşınını görəndə Hadı dayandı ki, maşın keçsin, amma arvadı tələsik yoldan çıxıb daşa-kəsəyə ilişə-ilişə, arıq, çəlimsiz ayaqlarını sürüyə-sürüyə tamam tərsinə getdi. Hadı yolun qırağında dayanıb gülümsəyirdi. Kök, enli sifəti, rəngi bilinməyən yaşarmış gözləri anlaşılmaz bir işıq içindəydi. Elə bil qulluqda dayanmışdı, indicə, "buyurun" deyəcəydi. Aydın onun bu görkəminə gülüb çiyinlərini çəkdi. Sədr gözlərini yummuşdu; Hadıyla arvadını da davanın ağır günləri kimi xatırlayırdı... Hadı başını otun içinə soxub çşələnirdi, arvadın donu çirmənmişdi, arıq, çəlimsiz qıçları heysiz-heysiz tərpənirdi... Sədr xeyli özünə gələ bilmədi, onları da elə bil səngərdə görmüşdü.

Kənddən çıxdılar, bostanın qırağıyla otu-çiçəyi şüşə qırıntıları kimi parıldaşan yamaca sarı döndülər... Sədrin kürəyinin arasındakı qəlpə yarası sızıldadı... Elə bu cür təpəliklər idi, döyüşdən təzəcə çıxıb səngərə doluşmuşdular, hər yana səssizlik çökmüşdü, amma bir az bundan qabaq elə bu yamacın, bu təpəliklərin altı üstünə çevrilirdi. Elə bayaqkı gərginliyə, atışmaya görəydi ki, heç kəs bu səssizliyi duya bilmirdi. Sədr



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bağır başını səngərə söykəyib gözlərini yummuşdu, üz-gözünü qırışdırıb ağrı-üzüntü içində atışmanın kəsdiyini duyub dincəlmək istəyirdi. Canında ardı-arası kəsilməyən uğultu vardı, indicə qışqıracaqdı...

– Mən oğlumu çimizdirirdim, anası su tökürdü, beləcə tutmuşdum, – sədr Bağır Fərzəliyevin səsinə gözlərini açdı. Fərzəliyev əlini qaldırıb havada saxlamışdı, elə bil əlində salxım tutmuşdu, – anası beləcə, su tökürdü, birdən dedilər dava başlayıb. Mən uşağı sulu-sulu bağrıma basdım.

– Mən də ot biçirdim, bax, belə bir yamac idi. – Bunu da Aleksey dedi.

– Mən də quzu otarırdım, bir sürü quzuydu. – Türkmən Ata papağını çıxartmışdı, astaca-astaca başı buğlanırdı. Əlini uzadıb, sədrin ayağından çəkdi. – Bağır, sən neynirdin dava başlayanda?

Poçtalyon da elə bu vaxt gəldi. Qalxıb onun başına yığışdılar.

"...Gözün aydın, gözəlçən ərə getdi..." Bircə cümləydi, ha oxuyurdu, bir şey anlayammırdı, başını qaldırıb Fərzəliyevə baxdı, ağappaq ağarmışdı, qəribə bir görkəmi vardı, ağlamağa da oxşayırdı, gülməyə də.

– Nolub, Bağır? – Fərzəliyev boynunu onun əlindəki kağıza sarı uzatdı: "Gözün aydın, gözəlçən ərə getdi..." Dikəlib Bağırla üz-üzə durdu. – Arvad işidi, – dedi, – kişi belə şeyi yazıb göndərməz. – Sonra Bağırın çiyinlərindən tutub silkələdi: "Möhkəm ol, gedəni saxlamaq olmaz, bəlkə də getməyi yaxşıdı, o da bir yük idi...".

"Həə, enlikürəkli, irigözlü, ağıllı Fərzəliyev...". Sədrin yaddaşında nəsə tərpəndi, dönüb Aydına baxdı: – Ay sənin, tapdım axır ki, sən mənim cəbhə dostuma oxşayırsan, a kişi, Fərzəliyevə oxşayırsan. Sonra bir-birimizi itirdik...

Tayaların arasında maşından düşdülər. Naxırçı Söyünqulu bostan qarovulçusu idi, onlara sarı gəlirdi. Sədr tayaya söykənmişdi.

– Maşında adam yorulduğunu bilmir, – dedi, ayaqlarını uzadıb ota dirsəkləndi. "...Gözəlçən ərə getdi...". Bir il idi evlənmişdilər. Gəlinin boynunda uşaq vardı. Onu yola salmağa gəlin də gəlmişdi, camaatın arasında kəlağayısının ucuyla gözünün yaşını silirdi. Bağır da qatarın pəncərəsindən baxır, baxışlarıyla tez-tez gəlinin qarnına işarə eləyib gülümsəyirdi. Bir gəlin bilirdi ki, bu, "muğayat ol" deməkdi. Arabayla kənddən çıxanda da belə demişdi, "sən allah, bu gözəl insannan muğayat ol...".

– Mənim ailəm yoxdu, oğul, – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aydının dünənki sualının cavabını indi verirdi. Bu, Aydın üçün elə gözlənilməz oldu ki, maşından düşüb tayaya sarı getdiyi yerdə quruyub arada qaldı. Naxırçı Söyünqulu da elə bu vaxt gəlib çatdı:

– Nolub, – dedi, – Aydın, maşın xarab olub yenə? – Keçib sədrin yanında oturdu, oturan kimi elə bil cildini dəyişdi, tamam başqa adam oldu, – neynim, ay yoldaş sədr, evin yox, qapısın-bacasın süpürəm, ocağın yox, odunun yaram... – Hələ bostanın ətəyindən maşını görəndə fikirləşmişdi bunları, ona görə də elə bil kağızdan oxuyurdu. Sonra da istədi deyə ki, "Aydını sağ olsun, o gün gördüm dalına götürüb səni, çaydan keçirir..." – Əhmədin sözü yadına düşdü: – Söyünqulu, deyirlər, sən gözünlə görmüsən, çayın ha tərəfiydi, enli yeriydi, ensiz? – Barmaqlarını qələm təki tutub Söyünqulunun gözünün qabağında gəzdirdi, – lazımdı mənə.

Söyünqulu da məəttəl qaldı ki, çaydan keçmək nəyə lazım ola bilər? İndi ona görə də susdu, birdən-birə sədrin gözlərinin dərinliyində oyanan istiqanlılığı, yumşaqlığı görüb:

– Mənə bir az ağac-taxta lazımdı, başına dönüm, ay sədr, – dedi.

– Yaxşı, hamam üçün ağac gələcək, onda yadıma sal, verərəm. – Söyünqulu dikəlib bir-iki diz ona sarı getdi. Sədr onun saçaqlı papağından belə aşıb-daşan sevincini duyub necə dil-ağız eləyəcəyini deməmişdən bildi:

– Danadişi varmı bostanda?

Elə bil Söyünqulunun boğazında nəsə qaldı, udqunub geri, bostana baxdı:

– Var.

Sədr qalxıb bostana sarı getdi... Aydın fikirli-fikirli maşını qurdalayırdı.

– Sənin atan da qonaqcıl adam idi, ay oğul. Sən ki bizim bu sədrə belə yaxşı qulluq eliyirsən, sağ ol. – Sədrə eşitdirirdi, gördü aralanıb, boğazını Aydına sarı uzadıb pıçıldadı, – o gün gördüm, dalına götürüb çaydan keçirdirsən, elə kövrəldim ki...

Aydın onun səsindən anladı ki, artıq söz eləyiblər bunu. Başını elə qaldırdı, Söyünqulu dala çəkilməli oldu, bu sözün altında nəsə olduğunu fikirləşə-fikirləşə:

– Oğlumun canıyçün pis fikirlə demirəm, – dedi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Hasarın dibində elə oturmuşdular ki, elə bil oğurluq mal gizlədirdilər. Dəmir kişi yenə dedi:

– Şəkil olmasa xeyri yoxdu.

Əhmədin arvadı ərinə göz qoysun deyə bayaqdan bəri həyətdə özünə iş axtarırdı. Nuh eyvana çıxdı, atasıyla Əhmədi hasarın dibində görüb enib onlara sarı gəldi.

Artıq gün batmışdı, dağlar tərəfdən göy üzü pəncərə kimi bağlanır, yal-yamac elə o səmtdən qaranlıqlaşırdı.

– Özün ağıllı oğlansan, – Dəmir kişi əlini Əhmədin dizinin üstünə qoydu, – nolsun ki, biri-birinin dalına minir. Bunun kimə nə ziyanı var? Talamaq, satmaq, yemək ayrı şeydi, sən adını belə qoy, belə yaz.

– Evi yox, eşiyi yox, mən necə yazım ki, yeyir, talayır, – Əhməd bunu elə kədərlə dedi, elə bil qızıl itirmişdi. – Sən bilirsən ki, mən milçəkdən dəvə düzəldənəm, – barmaqlarını qələm kimi tutub yenə havada yazı yazdı, – amma arada heç nə yoxdu axı, zalım oğlu elə bil dərvişdi. Fakt ayrı şeydi, bildin?!

– Onda şəkil lazımdı.

Toranlıq çökmüşdü, alaqaranlıq idi. Nuh onlara sarı gəlirdi, Pərini darvazanın ağzında görüb dayandı, başıyla onlara işarə eləyib:

– *Yenə kimi evləndirirlər?* – *dedi, o da barmaqlarını qələm kimi* tutub Pərinin gözünün qabağında gəzdirdi:

– O Dəmir var, ha? – atasını göstərdi, – bax, o qoca kişi, – çiynini qısıb yalan-gerçək silkələnə-silkələnə güldü, – bax, o, əgər yazıb-oxumağı bacarsaydı, indi professor idi.

Pəri qapıya söykənmişdi, gülürdü. Üz-üzə durmuşdular. Əhməd qanrıldı, elə uzaqdan-uzağa:

– Dişlərini ağartma haa, – dedi, – çıxardıb bir-bir təpənə çalaram! – Elə bil Nuhu görmürdü, acıqlı-acıqlı əlini yellədi: – Keç içəri, veyilin biri, veyil! – Başını əllərinin arasına alıb fikrə getdi...

– Bilmirəm kəndin dərdi bunamı qalıb?! – Pərinin dediyini yalnız Nuh eşitdi...

Həyətdə bayaqdan su qaynayırdı. Pəri qulplu qazanda su qoymuşdu ki, Əhmədi çimizdirsin, ya da heç olmasa, ayağını yusun: “Onun-bunun az dərdini çək, sənə neynib axı sədr? Allaha şükür, nəyimiz əskikdi...” – bu sözləri dünən ağlamsına-ağlamsına onun arıq, damarları çıxmış ayaqlarını yuyanda deyirdi. Amma indi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Heç nə, arpaları artıq düşüb, – dedi, – vallah. Ac olsaydı indi evə qaçmışdı. Odu eyy, çayını qoymuşam, xörəyini çəkmişəm, qazanda su asmışam, çimizdirim.

– Belə arvaddan danış, bax. Bizimki elə yatır.

– Hardan yatır yazıq, günortadan paltar yuyur...

Əhməd handan-hana başını qaldırdı, alaqaranlıqda başı yumruq boyda göründü.

– Onda gedək Aydının yanına, açaq məsələni. – Ayaq səsindən bildi ki, gələn Nuhdu, – Nuhu yanımızda görsə, heç boynuna almaz, elə özümüz gedək.

Qalxıb dinməz-söyləməz aralandılar. Nuh arxadan nə qədər çağırdı, dönmədilər.

Aydıngilin evi kəndin ortasındaydı. Günün də elə vaxtıydı ki, Əhməd də, Dəmir kişi də gərək bu vaxt öz evlərinə tərəf gedəydilər, bu tərəfə yox. Ona görə də hamı soruşurdu:

– Xeyir olsun, hara belə, günün bu vaxtı?

Aydıngilin qapısının ağzında elə bil ikisi də birdən anladı ki, nəsə çatmır, başlarını qaldırıb bir-birinə baxdılar.

– Aydın dəlinin biridi, – dedi Əhməd, yarıpıçıltıyla, əlini də dodaqlarının üstə qoymuşdu ki, eşidən olmasın. – Qovar bizi, iş görmək lazımdı, belə yox.

Nisə arvad onları görüb həyət qapısına sarı gəldi.

– Niyə gəlmirsiz, – dedi, – qapıda niyə durmusuz? – Əhmədi elə gendən-genə gözünə dəyən kimi tanımışdı, birdən-birə canında dolaşan isti duyğunun əslində nə olduğunu anladığı üçün utana-utana yaxınlaşdı, yaşmağını çəkib yaşındı, qapının arasından, – gəlin, – dedi.

– Aydın evdədimi? – Dəmir kişi alaqapıdan həyətə boylandı, gündə üç-dörd kərə gördüyü küncdəki ot tayasını birinci kərə görürmüş kimi işarə elədi: "Sağ olsun, Aydın sədrə yaxındı, yaxşı ot yığıb, bu qışa bəsdi".

Əhmədin gözləri arvada dikilmişdi, alaqaranlıqda bərq vururdu: "xala" demək istəmədiyindən duruxub qalmışdı, quruca adını da deyə bilmirdi:

– Aydın gəlibmi? – Birdən-birə səsi elə dəyişmişdi ki, Dəmir kişi də mat-məəttəl qaldı, dönüb altdan-yuxarı Əhmədə baxdı.

– Yaxşı, qızım, sonra gələrik, – dedi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aralandılar. Qaranlıq qarışmışdı. Çəpərlərin zil qaranlığıyla geri qayıdırdılar.

– Özüm qəsdən, sonra gələrik, dedim, qoy gözləsinlər, sən demiş, qoy nigaran qalsınlar. – Dəmir kişi Əhmədin qolundan tutdu, – görmürəm heç nə. – Yola çıxanacan qolunu buraxmadı.

Əhmədin halı özündə deyildi. Nisə arvad axşamın bu alatoranlığında yenə gözünə necə görünmüşdüsə əsgərlikdən təzə gələndə olduğu kimi qəribsəməyə başlamışdı, darıxdığından az qalırdı ağlasın. Dəmir kişi bayaqdan nəsə deyirdi, amma Əhməd onu alaçiy eşidirdi.

– Niyə dillənmirsən? – Dəmir kişi bayaq oturduqları yerdə ayaq saxladı. – Qapılarındakı tayanı da özüm qəsdən dedim, şər atdım, qoy şərdən qorxsunlar, – güldü.

– Bildim qəsdən deyirsən.

Hadıyla Nuh bayaqdan onları gözləyirdi. Yaxınlaşdılar.

– Sağdan Qaraxanı çağıraq, sədrdən bərk narazıdı, zəncir gəmirir. – Əhməd indi-indi özünə gəlirdi. Dəmir kişi barmağının birini qatdayıb gözləyirdi ki, görək başqa kimi deyir.

– Bu tərəfdən Xası müəllimi... düşməndilər.

Dəmir kişi barmağının birini də qatdadı.

– Sığırçı Söyünqulunu da çağırmaq olar. Bu gün beş-altı adamın yanında açıq-aşkar adıyla söyürdü. Gecə atı yükləyib kartof aparırmış, tutub əlindən alıb.

Elə ordan Nuh Xasının, Hadı da Qaraxanın ardınca getdi... Söyünqulu da atın belində bostan qırağından gəlirdi. Əhmədi görən kimi coşdu:

– Sənə Əhməd demərəm, bunu da o biri sədrlərin ardınca göndərməsən. A kişi, – o yan-bu yana boylandı, – mən gecə-gündüz qarğa-quzğun qovlayıram, danadişi dənləyirəm, siçan öldürürəm, düşmür mənə bir qab kartof? Sənnən soruşuram, Dəmir kişi, düşmür? Bəs bizim bu sonsuz sədr niyə məni güdür? Mən axı naxırı buraxdım bura gəldim ki, burda xeyrim çoxdu...

– Gəl bura, lazımsan!

Bir azdan o birilər də gəldi. Həyət qapısından keçib Əhmədgilə yığışdılar. Əhmədin kiçik oğlu Dıqqı onda doğrudan da dıqqılıydı, beşikdə öz əl-ayağıyla oynayırdı. Nuh beşiyə sarı əyilmişdi. Başını silkələyib, "pışt" elədi ki, uşağı güldürsün, amma uşağın yerinə anası güldü, uşaq da ayağının baş barmağını ağzına alıb gözlərini Nuha dikdi... O birilər evin bir küncündə baş-başa vermişdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bu dəfə qalxaq, iki ayağımızı bir başmağa dirəyək, özümüzdən seçək, nə vaxtacan ordan-burdan gəlsin? Seçəyin elə Əhmədin özünü, – Qaraxan müəllim göz gəzdirib üzünü Dəmir kişiyə tutdu, – nə deyirsən, ay Dəmir kişi?

Dəmir kişi səbəbini özü də bilmədən qalxıb yenə oturdu.

– Eləmi yaxşı olar, – bu iki-üç sözün arasında onu da fikirləşdi ki, "Ayğır Hasanın oğlu qurddu, gödənyırtandı, seçsək, adamın gönünü soyar" – seçək, – dedi, – qalxaq, kürək-kürəyə, əl-ələ verək, o olmasa Nuhu seçək, nə deyirsən, Əhməd, mən ona görə Nuhu deyirəm ki, özümüzdən olsun. Pah, sənin olmağın daha yaxşı. Sən Nuhdan sərtsən, üzün bozdu, amma dolandır; tikintini ver Qaraxana, müəllimlikdən bir şey çıxardammır, Xasıya anbarı ver, sən də eşit, ay Nuh, Söyünqulunu elə dana briqadiri, məni fermaya qoy, amma dolandır, kim nə bilir, sabah kimin başı əldə olacaq?

Söyünqulu birdən-birə elə bil kefləndi, coşub bayaqkı kimi dəm havasına iri, yabaya oxşayan əllərini özününkü deyilmiş təki bərk-bərk silkələyib aradakı stolun üstünə qoydu:

– Mən hər axşam evə əliboş qayıdıram, bu sonsuz...

– Yavaş, ay Söyünqulu, – Dəmir kişi əlini dodaqlarına vurdu, – suss!..

Bir ara heç biri dinmədi, otağa səssizlik çökmüşdü. Nuh beşiyə söykənib elə ordan tamaşa eləyirdi.

– Mən bir dişi dana verirəm, – sığırçı Söyünqulu bunu tamam başqa səslə dedi, başını ortalığa uzadıb gülümsədi.

– Mən də əlli manat pul, – Xası boynubatıq, qolları gödərək, hirslənəndə də üzü gülən, sarıyanız bir adam idi, bir əllilik çıxardıb hamıya göz gəzdirdi, – son köpüyüm də olsa, verəcəm, – dedi. – Vermiyən kopoğludu...

Bir əllilik də Qaraxan müəllim çıxartdı, dodağının altında yavaşcadan:

– Mənim ağlım bir şey kəsmir, – dedi, – bu işdən.

Qalxıb Aydıngilə getdilər. Aydın qapının ağzında gözləyirdi, onları görən kimi irəli yeridi:

– Bayaqdan qapının ağzındayam, deyirəm nolub görəsən?

– Nolacaq, a bala, biz qohumuq, dostuq, sənin rəhmətlik...

– Gəlin, gəlin içəri, anam da bayaqdan gözləyir, – Əhməd udqunub dörd yanına göz gəzdirdi ki, görsün Nisə arvad hardadı, heç kəsi görəmmədi. Aydın nigarançılıq içində Dəmir kişinin qolundan tutub evə sarı çəkdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yox, – dedi Dəmir kişi, gülümsədi, o birilər də sırayla gülümsədilər, – işimiz düşüb sənə, hə desən, gedərik də, oturarıq da, bu qara başım da sənə qurban.

Aydın əllərinin ikisini də qapıya tuşudub arada dayanmışdı: "Buyurun". Dəmir kişi belə deyəndə qolları yanına düşdü, çiyinlərini çəkib dörd yanına baxdı, hasarın dibində dayanmış "Villis" maşınından başqa heç nəyə gümanı gəlmədi.

– Bəlkə maşın lazımdı?

– Yox, sən tələsmə hələ, – Aydını araya alıb maşına tərəf apardılar.

– Hə, maşın xarab olub suda qalanda mən bostanın qırağındaydım, – Söyünqulu belə deyib əlini maşının üstünə qoydu. Dəmir kişi boğazını Aydına sarı uzatdı:

– Yaxşı eləmisən, a bala, dava görmüş, yaralı adamdı, suya salmıyacaydın ha.

Aydının əvvəl sümüyü səksəndi, sonra canında üşütmə gəzdi, maşına söykənib başını aşağı saldı:

– Nolub axı? – səsi birdən-birə dəyişmişdi, dikəlib maşından aralandı, üzünü qapıya tərəf döndərdi: "– Rədd olun burdan, it uşağı!". Görkəmi, üz-gözü eləydi ki, əslində bunu deməliydi. Qaraxan müəllimin yağlaşov sifəti pəncərədən çəpəki düşən işıqda gülümsəyirdi.

– Aydın, bala, sən gərək bizim sədrimizi bir də götürəsən dalına, – Dəmir kişi yığdıqları pulu dəstəylə çıxardıb Aydına uzatdı, gördü Aydın götürmür, maşının üstünə qoydu.

– Mən də bir dişi dana verəcəm, – Söyünqulu belə deyib əlini döşünün üstünə qoydu, bu da onun and içməyiydi.

– Biz sənin müəllimin olmuşuq, bir şey bilməsək, deməzik, belə lazımdı, şəklini çəkməliyik, bildin? Yəni, camaatı minir. – Xasıyla Qaraxan yan-yana dayanmışdılar, bunu birnəfəsə xorla dedilər.

– Pulunu götür, kişi! – Aydın Dəmir kişinin qolundan tutub pula sarı çəkdi.

Əhməd bayaqdan dinmirdi, bu məsələnin yaxşı qurtarmayacağını hiss elədiyi üçündümü, nədəndisə tər içindəydi. Əllərini qabağa elə ehtiyatla uzatdı ki, elə bil əlində quş tutmuşdu:

– Aydın, – dedi, – bu balaca kənd bizim vətənimizdi, burdan başqa bizim haramız var?! Bir az da dərinə gedəndə hamımız qohumuq, lap qohum olmasaq da bir məhlədənik, gərək əl-ələ verək...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sədr sizə nə pislik eləyib? – Aydın Əhmədin səsini titrədə-titrədə vətən haqqında dediyi sözlərdən yumşalmışdı, nəsə bir yaxşılıq eləmək istəyirdi.

– Sənə pislik eləməyib, bizə eləyib, biz səninlə eloğluyuq... onunla yox – Xası müəllim sözünü kəsib ayağını yerə döydü.

– Birinci kərə döyül ki, a bala, belinə götürürsən, bir də götür, demirik ha, düşmən ol sədrlə. Yenə çox istə, öz işindi. – Dəmir kişi bilirdi ki, düzələn deyil, əlini pulun üstünə qoymuşdu.

– İstəyirsən, mən dalıma götürüm, – Söyünqulu arada dayanıb boynunu əydi, elə bil doğrudan da belinə adam götürəcəydi. – Sən ondakı kimi maşını çayın ortasında xarab elə, mən də orda olum, boylam, sədri götürüm dalıma. Mənnən çəksinlər şəklini, nolar, daha yaxşı.

Aydının birdən-birə elə bil boynu içinə batdı, yığılıb-bürüşdü, səsini boğa-boğa:

– Rədd olun burdan, – dedi – it uşağı, alçaq uşağı! – Əlini maşının yan-yörəsində gəzdirdi, bir dəmir qırığı tapdı. Dəmir kişi pulu götürüb aralandı. Nuhla Hadı həyətə girməmişdilər, bayaqdan evlərin arasında gözləyirdilər, səs-küyü eşidib gəldilər.

Aydın Söyünqulunun yaxasından yapışıb silkələyirdi.

– Başını qabağa tut, Söyünqulu! – Əhmədi aralamaq əvəzinə Söyünqulunu daha da Aydına tərəf itələyir, aradabir də pıçıldayırdı: – Qabağa tut, qoy yarsın!

Nisə arvad çığıra-çığıra özünü çatdırdı:

– Nolub, ay camaat, ay başınıza dönüm? – Aydını aralayıb apardı. – Mən də süfrə açmışam ki, indi gələcəklər...

Əhməd Nisə arvadın qolundan yapışmışdı, bir anlığa doğrudan da bura nəyə gəldiyini, nə baş verdiyini unutmuşdu, heç nə anlayammırdı. Elə dayanmışdı, elə bil, pəncərədən düşən işığın altında Nisə arvada şeir deyəcəydi. Birdən Nisə arvad bərkdən ağlamağa başladı. Hamısı tələsik həyətdən çıxdılar...

Orda-burda itlər hürüşürdü. Kimin qızıydısa uzaqdan-uzağa Nisə arvadı səsləyirdi:

– Nolub, ay Nisə xala, niyə ağlayırsan?

Onlar çəpərlərin qaranlığıyla qayıdırdılar.

– Mənim ağlım yoxdu daa, siznən iş görürəm. Siz adamsız?! – Əhməd belə deyib dönüb evinə tərəf getdi. O birilər ardınca baxa-baxa qaldı. Pəri həyət qapısının ağzında gözləyirdi. Əhmədi görən kimi soruşdu:

– Nisə arvad niyə ağlayırdı?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əhmədin səsi kəndi başına götürdü:

– Nə var, niyə yapışmısan qapıya yarasa kimi... Niyə güdürsən məni?!

Xasıgil də təzəcə dağılışırdılar. Əhmədin səsini eşidib ayaq saxladılar ki, görsünlər Əhməd daha nə deyəcək. Əhməd doğrudan da nəsə deyirdi, amma nə dediyini anlamaq olmurdu.

III

– Yoox! – dedi Bəlli Əhməd, qapının ağzında dizi üstə durub balta sapı yonurdu, arvadı da yanında xəmir yoğururdu. Söhbətləri əvvəl nə şəkildə olmuşdusa, arvadın içi elə bil qaynayırdı. Ona görə də tərləyib pörtmüşdü.

– Yoox! – dedi Əhməd, səsini uzada-uzada: – Sən Nuhun üzünə çox xoş baxırsan.

Pəri daha özünü saxlaya bilmədi, uğunub getdi, əlini xəmirli-xəmirli üzünə çəkdi, üzü-gözü un oldu.

– Dərini soyaram haa, sənin. Yəni mən bilmirəm ki, "Nuhdanqalma" nə deməkdi, azdırmaq istiyirsən məni?

Pərinin üzü-gözü elə dəyişdi ki, Əhməd duruxub başını aşağı salmalı oldu.

– *Özümü yandıraram, – dedi Pəri, – mənim adıma söz çıxartma.*

Əhməd onun ağlayacağını səsindən bildi, təzədən diz çöküb balta sapını yonmağa başladı. Amma Pərinin ürəyinin dərinliyində yenə gülüş qaynamaqdaydı. Özünə də aydın olmayan, səbəbini anlamadığı bir maraqla ayağının ucuna qalxıb boylanmaq istəyirdi.

– Oğru yadına daş salır, aaz, bu! – deyib yenə güldü.

Əhmədin başı ilan başı kimi döndü. Balta sapı nazilib indi-indi ələ gələsi olmuşdu, ikiəlli yapışıb silkələyə-silkələyə ayağa durdu... Həyət qapısı da elə bu vaxt açıldı, Dıqqıyla Gopçu bir-birinə qarışa-qarışa, dolaşa-dolaşa içəri girdilər.

– Bacı gəlir! – Elə onun ardınca Gopçu da bir-iki ağız hürdü, elə bil o da deyirdi: "Bacı gəlir". Sonra motosiklet səsi güclənə-güclənə, arta-arta yaxınlaşıb qapının ağzında dayandı. Gopçu sevindiyindən özünü yırtırdı, bilmirdi neyləsin. Əhməd də, Pəri də eyni cür gülümsəyə-gülümsəyə həyət qapısına sarı gedirdilər. Dıqqı da yanlarınca. Əhməd üzünü döndərmədən elə gülümsəyə-gülümsəyə:

– Eşşək hanı, əə? – dedi.

– Çöldədi, indi gəldim yanınnan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Payızdı ha, canavar olar!

Qapı açıq idi. Qabaqca yeznənin başı göründü, "keç" – deyib çəkildi. Qız, qucağında da uşaq içəri girdi. Qaşı-qabağı yerlə gedirdi. Qızın üzünü görən kimi Əhməd də, Pəri də yolun ortasında dayandılar. Pəri çəkinə-çəkinə soruşdu:

– Nolub, ay qız?

Qız dinmədi, uşağı qucağında elə silkələdi ki, elə bil tullayacaydı. Yeznə üzünü yana döndərib çəpərə baxdı. Əhməd, əlində də balta sapı, quruyub qalmışdı. İyirmi il bundan qabaqkı balaca qızını xatırlayırdı.

...O vaxt, iti öldürdüyü gecə, elə bilirdi qızın qışqırtısına oyanıb, əslində öz çığırtısına oyanmışdı, oyanan kimi: – İt yuxuma girmişdi, – dedi arvadına. Arvadı uşağa su içirdirdi ki, ayılsın, amma uşaq ayıla bilmirdi, içini çəkə-çəkə hıçqırırdı. Arvad dönüb ərinin bir gecənin içində böyümüş gözlərinə baxdı:

– Qorxutdun uşağı. Niyə qışqırdın?

Kişi qalxıb yerin içində oturmuşdu:

– Qışqıran mən deyildim, ay öküz, uşaq idi... – dedi.

Qız o vaxt olduğu kimi indi də içini çəkə-çəkə hıçqırırdı. Keçib xəmir teştinin yanında kötüyün üstə oturdu. Pəri yeznədən soruşdu:

– Nolub, a bala, yenə?

– Əşşi, nə bilim... – Yeznə də keçib divara söykənib başını aşağı saldı. Bir anlığa hər yana sakitlik çökdü. Birdən-birə qız yoğun, hör-hör səsiylə, kəkələyə-kəkələyə:

– Səə-niiin... piis-li-yiini.., – dedi, boynunu da, əllərini də atasına sarı uzatdı, – həəə-ə-r ye..rdə... – xeyli – anası əlinin xəmirini önlüyünə silib, diz çöküb uşağı onun qucağından alanacan kəkələdi. Qız özünü-sözünü ancaq indi yığışdıra bildi. Əlini o yandan belə dolandırıb, qaytarıb şappıltıyla üzünə çırpdı. – Baaa...xx, bu üüzümə vuu...rurlar.

– Nolub, Ayvaz? – Bəlli Əhməd pərtliyindən dişini-dişinə sürtürdü. – Nə deyir bu?

Ayvaz divarın suvağını qaşıya-qaşıya:

– Sədr işdən çıxardır məni, – dedi.

– Niyə?

– Bizim kənddə də başlayıblar yazmağa, mənnən görür.

– Hə, onun da üstü açılır yavaş-yavaş, dalı görükür onun da.

Bir anın içində pərtliyi, hirsi-hikkəsi keçib getdi, ağzının bir yanıyla, – hı, – eləyib gülümsədi, divarın dibinə atılmış palazın üstə oturdu,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

həvəslə, ləzzətlə ayaqlarını uzadıb qızına baxdı. Qız gördü ki, atası baxır, uşağı yenə elə silkələdi ki, özünün də, uşağın da dişi dişinə dəydi...

*Ayvaz hesabdarlıq texnikumunu bitirmişdi. Daştəpə kolxozunda* hesabdar işləyirdi. Sərtüzlü, qalınbığlı, qaradinməz bir oğlan idi. Qurşaqdan yuxarısı o qədər iri idi ki, oturanda deyərdin, bundan yekə, bundan boylu-buxunlu adam olmaz. Qıçları gödək idi, ayaqlarıyla gövdəsi arasında o qədər uyğunsuzluq vardı ki, iki yerə bölünmüş kimi görükürdü. Dükançı Mətinin tarixçi oğlu. "Ayvaz qədim insan qalığıdı", – deyib neçə il idi kəndi-kəsəyi güldürürdü, – "pişik pələngdən qalıb, kərtənkələ dinozavrlardan, Ayvaz oğuzlardan..." Ayvaz da üç-dörd il gülənlərə qarışıb güldü, amma qızı anadan olan gün bu zarafata dözəmmədi, elə gülümsəyə-gülümsəyə gəlib dükançı Mətinin oğlunun yaxasından yapışdı, kəndin camaatı nə qədər əlləşdi, dükançı Mətinin oğlunu onun əlindən ala bilmədi. Birdən dükançı Mətinin oğlu elə qışqırdı ki, Ayvazın özü də məəttəl qaldı, əlini çəkib daşa söykəndi. Ordan da dükançı Mətinin oğlunu xəstəxanaya apardılar; beli qırılmışdı. Üç ay dalı üstə qaldı. O kənddən, bu kənddən beş-altı ağsaqqal, qarasaqqal, başda da Bəlli Əhməd dükançı Mətinin yanına minnətə gəldilər:

– *Barış, ay Məti, Ayvaz da bir yetim oğlandı, bir az pulu var. Al,* evinə-eşiyinə xərclə, barış, amma...

– Biz dostuq, Əhməd, nə deyirəm, barışaq, o sənin qızının əridi, elə bilərəm mənim də qızımın əridi, – dedi. Məti elə bil evində də daxılın dalında dayanmışdı. – Amma xərcim çox çıxır. Bunun işdən qalmağı var, gündə iki dəfə rayona getməyi var. Yeməyi var, xaşdan, baş-ayaqdan ayrı nə yeyir ki... Bu pul azdı, bir belə də gətirsin, onnan sonra gözüm üstə, barışım. Kim yetim deyil ki, Əhməd, özün dünya görmüş, yazan adamsan, hamı yetimdi. – Dükançı Məti salamat ayağının üstə qalxmışdı. – Sənin göyün (kürəkənin) məni yaman xərcə saldı, – dedi, gülümsədi...

Elə bil bu gün idi. Əhməd dükançı Mətinin səsini eşidə-eşidə gözünün ucuyla Ayvaza baxdı. Ayvaz bir əliylə divarı qaşıyırdı, barmaqları divara hörümçək kimi yapışmışdı. O biri əlini yanına salmışdı, düz dizinə çatırdı. Pencəyi əyninə dar idi, amma şalvarın balağından xeyli kəsdirmişdi, ona görə də eni, boyunu tutmurdu...

– Yazan dükançı Mətinin oğludu, – dedi, divarı qaşıya-qaşıya, – *amma mənnən görür sədr.*

– Oo... İnnaaan da yooox, səəə...nnnən, – qız yenə boynunu da, əllərini də uşaq qarışıq atasına sarı uzatdı. – Haaaa...mı deee...yir... səəə...n öyrəəəə... dirsəə...n!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pəri peşqunun üstündə kündə salırdı, Dıqqı motosikletə minmişdi, Gopçu da yanındaydı, ayaqlarını təkərə söykəyib Dıqqının atdanıbdüşməyinin səbəbini anlamağa çalışırdı.

– Deyir gedib qayınatannan dərs alıb gəlirsən. Get, o da sənə iş versin. – Ayvaz belə deyib suçlu-suçlu yerə baxdı...

Üç-dörd il bundan qabaq Əhməd işdən gəlib kərəntisini təzəcə bir yana qoyub, eşşəyinin ot şələsini təzəcə boşaltmışdı ki, arvadı, ardınca da qızı gəlib onun yanını kəsdirdilər.

– Neçə kərədi qıza sataşır, köpəyoğlu, – arvad özünü hirsli göstərməyə çalışırdı, amma gözlərinin dərinliyində apaçıq sevinc parıldayırdı, az qalırdı sözünün ardınca da, “Allaha şükür”, desin, – söz atır qızıngəlinin içində.

Anası belə deyəndə qız iri gövdəsini silkələyib nəsə demək istədi, sözünü o an düzəldə bilmədiyi üçün susub divara söykəndi. Kişi də işin mənasını anlayıb, arvadı kimi gözlərinin dərin qatlarında gülümsədi, amma tez də öz-özünü hirsləndirib lap bərkdən dedi ki, qonşular da eşitsin:

– Kim?!

– Nə bilim, daştəpəlidi deyir, – arvad qıza sarı döndü, oğlanın adı nı bilə-bilə qızdan bir də soruşdu. – Adı nəydi onun, a bala? Ağlama! Yiyəsiz döyülsən ki, niyə ağlayırsan? – Qız ağlamırdı, anası belə deyəndə istədi ağlasın, ağlaya bilmədi, kəkələyə-kəkələyə nəsə dedi. Arvad kişiyə baxdı. – Ayvazdı, – dedi, – adı.

– Nə Ayvaz, kimlərdəndi?

– Bilmirəm, qıpıq Ayvaz deyirlər.

Kişi xeyli dinmədi, elə bil nəyisə yadına salmağa çalışırdı, gözlərinin yanları xırda cizgilərlə örtülmüşdü. Arvad da dinməz-söyləməz gözlərini altdan-yuxarı ərinə dikmişdi... “Qız qarıyıb qaldı, bilmirəm başıma kimin daşını salım. Bir adam irəli çıxıb istəmir, elə bil qırılıb hamısı”. Neçə ildi tez-tez ərinə belə deyirdi. İndi ərinin bundan da nəsə bir şey düzəldəcəyini duyub ümidlə gözləyirdi.

– İş vaxtı olub bu? İş vaxtı sataşıbsa əlimnən çıxa bilməz!

– Hə, – dedi arvad, – bəs nə, alaq vururlarmış bostanda.

– Eşidən, görən olub? Şahidi var?

– Əşi, günün günortaçağı, hamının yanında, həə. Bir dəfə qızı göstərib dilini çıxardıb, bir dəfə də üstünə pazı tulluyub...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Əhməd Daştəpəyə çatanda axşam təzəcə düşmüşdü. Ayvazın anası nə qədər elədi Əhməd evə keçmədi. Qapının ağzında dayanmışdı:

– Bizim qızın adına söz çıxardıblar, bacı, oğlun neçə vaxtdı qızın ardınca düşüb, harda görür, söz atır. Belə yaxşı deyil, onun mənim kimi atası var. Elə eləməyin ki, axırda düşmənçilik olsun. Elçinizi göndərin! – Sözünün axırını elə dedi, elə bil nəsə yeyirdi, elə deyə-deyə də uzaqlaşdı.

Beş-on gündən sonra doğrudan da elçi gəldi... Daştəpənin sədri də elçilərin arasındaydı.

Qızı verdilər Ayvaza. Ayvazın anası:

– Deyillər qızın bir az dili ağır işləyir, canın sağ olsun, dilsiz gəlin daha yaxşı. Qoşa qarıyın, – deyib oğlunun iri, uzunsov üzündən öpdü...

Sədr Bağırı da elə həmin günün səhəri işdən çıxartdılar.

– Sədri dəyişiblər, – Dəmir kişiylə Hadı dalbadal içəri girdilər.

– Yox əşi, haçan? – Əhmədin qisməti əlində qalmışdı, heç nədən xəbəri olmasa da, bilirdim, – dedi, – dəyişməliydilər.

Kənddə hərə bir söz deyirdi; biri deyirdi, sədr Bağırı böyüdüblər, başqa işə keçiriblər. Biri deyirdi, buranın havası düşmürdü ona. Biri deyirdi şoferini mindiyinin üstə çıxartdılar. Çoxu da dedi, Əhməd çıxartdırıb.

Amma təzə sədr Aydına başqa maşın verəndə məsələ bir az da aydınlaşdı.

– Sən get ot daşı, kartof daşı, – dedi sədr Aydına. – Məni də dalına götürüb çaydan keçirərsən sədr Bağır kimi, sonra da...

Aydının səsi kəndi başına götürmüşdü:

– Tüpürərəm bu kəndin çörəyinə, köçüb gedərəm...

Təzə sədr onu güclə sakitləşdirə bildi:

– Zarafat eləyirəm, Aydın. Əl-ələ verib işləyəcəyik. Bəlkə də mən səni aldım belimə, nə bilmək olar... – Sonra da üzünü bütün kəndə tutub: – Sizin hamınızı bircə-bircə tanıyıram, – dedi. – Əhməd yazandı, lap yaxşı, nədən istəyirsən yaz, Əhməd. Mən işimi bilən adamam, kim istəyir yazsın, nə istəyir yazsın. – İşgüzar, gülərüzlü, sağlam adam idi. Soyuqqanlı, inandırıcı danışığı vardı, kimə baxırdısa elə baxışlarıyla ayağa qaldırırdı. – Dəmir kişi, pul yığıb, dana verib Aydının yanına getdiyinizi də bilirəm. Elə öz içinizdən gəlib dedilər, yəni bunları bilə-bilə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sizə sədr olmağa ona görə razılıq verdim ki, siz işlək xalqsız. Kim hara istəyir yazsın, amma işləsin...

Axşamüstüydü, idarənin qabağına yığışmışdılar. Təzə sədr belə deyib susub camaata göz gəzdirib gülümsədi. Bir anlıq səssizlik çökdü, sonra elə bil kimsə işarə elədi, Bəlli Əhmədən başqa hamı əl çaldı...

İndi Ayvaz divarı qaşıyırdı, qız üzünü köndələn tutub seyrək-seyrək hıçqırırdı, anası kündə sala-sala deyinirdi:

– Yazanda sənə nə verillər axı. Heç özü də bilmir, nə yazır, kimə yazır. Yüz dəfə, min dəfə de. Hər yandan qovub üstünə göndərəcəklər, – dikəlib əlini xəmirli-xəmirli qızına sarı uzatdı. – Bax, beləcə tökülüb üstünə gələcəklər.

Qız elə bil bayaqdan bunu gözləyirdi, qalxıb qucağından uşağı oturduğu yerə qoyub ağlaya-ağlaya evə keçdi. Bəlli Əhməd bilmədi kimə nə desin, hirslənməyin yeri deyildi, çarəsiz-çarəsiz gülümsədi.

Ayvaz divara söykənmişdi, baxışları birdən-birə tikan bağladı:

– Bayıra çıxmaq olmur, – dedi, – əvvəllər mənim özümə sataşırdılar, indi də sənə sataşırlar. Birinin yenə basıb belini qıracam, xərcə düşəcəm.

Əhməd uşağı qucağına alıb ona sarı getdi, yaddaşının dərin qatlarında təzə sədrin səsini eşidə-eşidə:

– İstəyirsən düzəldim, gəl, bizim kənddə işlə, – dedi. Arvad əli xəmirdə, kişi kimi üz-gözünü qırışdırıb ərinə baxdı:

– Kim eşidəcək sənin sözünü? Kim sənə iş düzəldər?

– Sən kəs səsini, başını xəmirə soxaram indi. – Bayaqdan özünü güclə saxlayırdı. Arvadına hirslənəndən sonra xeyli özünə gələ bilmədi; hikkəsinin ağzı açılmışdı, elə söymək istəyirdi.

Qız başını pəncərədən çıxardıb bağıra-bağıra nəsə dedi. Uşaq onun səsinə bərkdən ağladı...

– Əhməd, sən dayan, işim var səniynən. – Camaat iclasdan çıxırdı. Təzə sədr belə deyib Əhmədin başının üstündən bayıra baxdı. Əhməd qayıdıb oturdu. Otaqda ikisi qaldı. Sədr seyfdə nəsə axtarırdı. Sonra siyirməni açıb iri bir məktub çıxartdı, başını qaldırıb gülümsədi: – Darıxmırsan ki? – Seyfi yenə açdı, məktubu iki-üç yerindən möhürləyib, seyfə qoydu. – Belə, belə işlər, Əhməd kişi...

Əhməd elə bildi sədr indicə yumruğunu stola vuracaq, bayaq gülümsəyirdi, indi üzü bozarmışdı.

– Rayonda məktublarını göstərdilər mənə. Yenə yazmısan ki, otu daşıyıb aparıllar... Elədi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Elədi. – Əhməd təzə sədri anlaya bilmədiyinə görə narahat idi. Sədrin üzü gülürdü, amma gözləri soyuq içindəydi. Şübhəli-şübhəli boynunu sədrə sarı uzatdı, çiyinlərini oynadıb bərkindi, elə bil hardansa atdanacaqdı. Sədr birdən qəhqəhə çəkib güldü, Əhmədin sümükləri səksəndi.

– Bəs otu biçmişik ki, aparaq daa. Aparmasaq çürüyər axı. – Yenə gülüb əlini Əhmədə sarı uzatdı. – Amma yaxşı yazırsan, xoşum gəlir, yaxşı cümlələrin var. Yazırsan ki, "bizim çayımızla su yox, ot axır", rayonda yığışıb oxuyub o qədər gülmüşük ki... – Sədrin gülümsəməyinin alt qatında, daha doğrusu, dişinin dibində tüpürmək vardı, "tfu, üzünə!.." – bunu gizlədə-gizlədə sakitcə, – gəl elə eləyək ki, arada inciklik olmasın, bizim oğlanlarımız da dostdu, biz də dost olaq, – dedi. – Yazmaqdan bir şey çıxmayacaq, boş yerə su bulandırma, narahat eləmə camaatı. Gəl, yaxşı bir iş verim işlə.

Üz-üzə oturmuşdular. Əhməd dik qalxıb özünü bir az da dartdı, boyu elə bil bir qarış da uzandı. Bağıra-bağıra:

– Sən məni susdurammazsan, – dedi. – Sən işi mənə rüşvət verirsən!

Bayaqdan dağılışmaqda olan camaat, sən demə əksinə, bir yerə yığışırlarmış, bir-birinə gözlərinin ucuyla baxa-baxa, kəndin içində ayaqlarını sürüyürmüşlər ki, görək bu işin axırı nolacaq. Əhmədin səsini eşidib çiyin-çiyinə, baş-başa verib pıçıldaşdılar:

– Dəymə, – dedilər, – kəndə belə adam lazımdı...

Bir azdan Əhməd bağıra-bağıra, söylənə-söylənə hikkəsini bütün evlərə-eşiklərə eşitdirə-eşitdirə kəndin içiylə keçirdi:

– Nə qədər mən bu kənddəyəm, qatır gəlsə dırnaq salacaq... – Dedikcə qızışırdı, ona görə də geri qayıtmaq istədi, boylanıb əl-qolunu ölçə-ölçə yan-yörəsinə, qapı-bacalara göz gəzdirdi. Qaraxan müəllimlə, sığırçı Söyünqulunun qapısının ağzından keçirdi, heç kəs yox idi. – Evə yığışın, dolun evə, Əhməd də sizin davanızı eləsin.

Camaat gördü ki, sədr idarənin qabağında dayanıb baxır. Ona görə də əl-qolunu ölçə-ölçə hərə Əhmədə bir söz dedi. Hadı da çəpərin qaranlığından çıxdı, Əhmədin qolundan tutub evə sarı dartdı. Bütün hərəkətləriylə, "dəli utanmaz, yiyəsi utanar" – fikrini ifadə eləyirdi, yəni, demək istəyirdi ki: "Ey sədr, mən də səninləyəm".

Bir neçə gündən sonra Əhmədi rayona çağırdılar. Orda da sədrə oxşayan cavan bir oğlan gülüb:

– Yazırsan ki, – dedi, – otu aparıblar, elədi?

– Elədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bəs aparmalıdırlar daa, Əhməd müəllim. Dinc yaşayışımızdan, azadlığımızdan belə sui-istifadə etmək düzgün deyil. Bu, təsərrüfat işidi, bunun yüz cür yolları var; burdan aparmalıdı, ordan gətirməlidi. Heç kəs özbaşına deyil axı. Şəxsən sənin bir şeyə ehtiyacın varsa, şəxsən səni incidirlərsə, bu ayrı məsələ... Həqiqəti demək, əlbəttə, lazımdı, amma belə yox daa... – qoca kişilərin ağır gülüşünü gülüb, – nə təhəri yazmışdın? – dedi. – Həə, bizim çayımızla su yox, ot axır? Ot. Bununla nə demək istəyirsən axı?

– Yəni çayın başınnan gecəyarı...

– Əşi, burax bu nağılları. Yazmaq istəyirsənsə məqalə yaz, çap elətdirək. Şeir yaz, nədi adı onun, sizdə biri var, şeir yazır, pis də yazmır.

– Qaraxan müəllim.

– Ay sağ ol, sən də yaz, qoy müğənnilərimiz, aşıqlarımız məclislərimizdə oxusunlar. Yoxsa nə çıxsın bundan. Özün də əsəbiləşirsən, bizi də əsəbiləşdirirsən. Elə deyil?

Əhməd sədrin yanında olduğu kimi birdən-birə yerindən qalxdı, amma burda gülümsəyib boğazını arıtladı.

– Oldu, – dedi.

– Yəni nə? Necə başa düşək?

– Anladım...

Axşam avtobusuyla qayıdırdı. Elə bil nəsə itirmişdi, elə bil nəyisə rayonda qalmışdı, gözü geri yanındaydı... Gün batmaq üzrəydi. Hamı hər şeyi yaxşı bildiyindən heç kim heç kəsdən heç nə soruşmurdu. İşdən təzəcə gəlib qapı-bacalarında qurdalana-qurdalana axırda nə olacağını gözləyirdilər. Əhmədin rayondan qayıtdığını görüb başlarını qaldırdılar, ordan da Sığırçı Söyünqulunun qapısına sarı baxdılar, yəni bugünkü günün axırı, bütün məsələləriylə birgə Söyünqulunun qapısına gedib dirənirdi. Əhməd hələ bir şey başa düşməmişdi, amma evlərin arasıyla elə gedirdi, elə bil yağışdan çıxmışdı. Nuh onu görüb uzaqdan-uzağa əlinin işarəsiylə soruşdu: "noldu?"

Nisə arvad kəndin içiylə gəlirdi. Heç kəsin, hətta arvadın özünün də xəbəri yox idi ki, əslində Əhmədə görə çıxıb evdən. Əhməd də bütün olanları, olacaqları unudub gözlərini arvada dikdi, arvad çaşıb yerişini dəyişdi, yola baxa-baxa bayaqdan kimi gözlədiyini, indi də evdən niyə görə çıxdığının mənasını anlayıb bir anın içindəcə tərləyib suya döndü, evindən-eşiyindən, oğlundan, özündən utana-utana bilmədi hara gedir.

Əhməd ağlı kəsənəcən "Nisə xala" dediyi bu özündən iyirmi yaş böyük, biçimli, dolubədənli arvadı bayaqdan ürəyində çağırırdı: "Ay



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nisə?!." Dıqqının səsinə özünə gəldi, uşaq altdan-yuxarı ona baxıb burnunu çəkirdi.

– Nolub, əə?

– Söyünqulu əmi qazımızın üçünü öldürdü.

– Niyə?

– Bilmirəm, öldürüb qapımıza tulladı. Anam da ağlayır...

Elə ordan düz Söyünqulugilə getdi. Söyünqulu yanına bir əlağacı qoyub bayaqdan gözləyirdi. Camaatı elə bil qapı-bacasından güclə çıxardırdılar. Hamı həyətindən həvəslə, maraqla çıxa-çıxa özünü güclə çıxana oxşadırdı.

– Qazı niyə öldürmüsən, əə, dilənçi köpəyoğlu?! – Əhməd Söyünqulunun bəzəkli alaqapısını təpiyiylə açdı.

Söyünqulu əlağacını götürüb ayağa durdu. Amma ağacı elə tutmuşdu, əslində Əhmədə verirdi ki, al, sən vur.

– Qoruğu batırıb sənin qazın, toyuğun. Dövlətin malı nədi səninçin?!

Əhməd Söyünqulunun ağacından yapışıb dartıb əlindən aldı:

– Niyə öz danalarını demirsən, əə?

Söyünqulu başını qabağa uzatmışdı, gözlərini qırpa-qırpa, daha doğrusu, qorxa-qorxa sakitcə gözləyirdi ki, Əhməd nə vaxt vuracaq. Dörd yan adamla dolmuşdu, Dəmir kişi lap irəlidəydi, o da başını qabağa uzatmışdı, səmt düşən kimi Söyünqulunun qulağına pıçıldayırdı: – "Elə elə ki, başını yarsın".

Pəri də özünü elə bu vaxt çatdırdı:

– Görmürsənmi hamı qəsdinə durub?! – Ağacı Əhmədin əlindən alıb bir qırağa tulladı, Hadı da camaatın arasından indi çıxdı, Əhmədin qolundan tutub bütün hərəkətləriylə yenə, "dəli utanmaz, yiyəsi utanar", fikrini bildirə-bildirə dartıb bayıra çıxartdı...

Son günlər bütün kənd Əhmədin üzünə qabarmağa başlamışdı. Ona görə də Əhməd bu neçə gündə camaatı bir adamın üzü kimi xatırlayırdı...

Bir neçə gündən sonra da naxırçı Əhmədin inəklərini naxıra qatmadı.

– A bala, niyə aparmırsan?

Naxırçı gördü ki, yan-yörədə xeyli adam var, təzə sədr də idarədən çıxıb onlara sarı gəlir, ürəklənib çomağını quyruq kimi çəmbərləyib çiyninə aldı, başını silkələyə-silkələyə:

– Mən sənin malını otarammıram, – dedi. Hər şeyin qaydasında olduğunu, daha doğrusu, sözünün yerinə düşdüyünü hiss eləyib gülümsədi. – Otarammıram, vəssalam.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Niyə həmişə otarırdın, indi otarammırsan?

– Sənin inəklərin naxırın başını çəkib ayrı yerlərə aparır.

Sədr bir anlıq ayaq saxlayıb elə-belə, yanpörtü:

– Əhmədi incitməyin, – dedi.

Əhməd təzəcə qışqırmaq istəyirdi ki, sədrin sözünə susdu, içinə qəribə bir kövrəklik çökdü, bu neçə ildə birinci kərə anası Öygülü xatırladı, burnunun ucu göynədi...

Dıqqı da ona görə neçə gün idi çəpərlərin dibində inəklərini otarırdı. Bu gün də Ayvaz gəlmişdi ki, bəs sənə görə məni də işdən çıxardırlar.

– Elə qanun yoxdu, heç kəs heç nə sübut eləməyincə heç kimi işdən çıxarda bilməz... – Susub başını aşağı saldı, elə bil ipdən asılmışdı. – Sən çəkinmə, kəndin içində, məclislərdə, yığnaqda söy məni, pislə, denən mənim onunla nə işim, heçim ayrı, köçüm ayrı...

Qız başını pəncərədən çıxardıb atasının səsinə oxşar səsiylə yenə nəsə dedi. Əvvəl Dıqqının səsi gəldi, sonra həyət qapısından iki inək girdi, ardınca ağ eşşək, bir sürü də qaz. Qazlar xeyli özlərini yeyib tökdülər. Pəri əlini önlüyünə silə-silə Ayvaz qarışıq bütün həyəti göstərdi.

– Bax, yaxşı bax, – dedi ərinə, – hamısı sənin üzünnəndi. Ayağını qoymağa yer verməyəcəklər sənə. Sabah-biri gün şəhərdəkini də qovacaqlar.

Qızı elə bil bayıra tulladılar, əlini əlinə vura-vura:

– Hə, hə, – dedi, sonra da başladı özünü didişdirməyə. Anası çatıb qızın qollarından tutdu. Ayvaz dinməz-söyləməz dönüb həyət qapısından çıxıb getdi.

Əhməd nə deyəcəyini bilmirdi, amma elə-belə bağırmaq istəyirdi ki, Ayvazın motosikletinin səsi kəndi başına götürdü. Qız ulaya-ulaya ağlayırdı.

– Nolub, – dedi anası, – hara gedir, qaçmır ki, uşaq kimi dalınca ağlayırsan.

Sonra baş-başa verib alaqapıdan Ayvazın dalınca baxdılar.

* * *

Təzə sədr kəndə gələn gün axşamacan idarədəcə oturub pəncərədən kəndə baxdı: "Nə çox it var..." – dedi ürəyində. Amma kəndin özü bilmirdi ki, iti çoxdu. Doğrudan da it çox idi. Bütün yay boyu yedirdib tumarlayırdılar ki, qışda yaxşı boğuşsunlar. Ona görə də boşluqdan, toxluqdan səs-səsə verib boş-boşuna hürürdülər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Payız ağzıydı, yer-yurd saralmışdı...

İtlərin səsinə qulaq asa-asa nədən, kəndin hansı səmtindən, hansı işindən necə başlayacağını fikirləşirdi. "Bir Əhməd var orda, o qədər məşhurdu ki, adına Bəlli deyillər, sən onun yan-yörəsini təmizlə, təklə onu, qoy tək qışqırsın..." – rayondan yola salanda dedilər.

Birinci Dəmir kişini çağırtdırdı.

– Otur, kişi! – Özünü daha da zəhmli göstərmək istədi, amma Dəmir kişinin yarıqıyılmış gözlərinin dərinliyində bir cür gülüş oynayırdı ki, bu cür baxan adam baxıb, baxıb sonra da deməliydi: "O gün sənə bir bağlama göndərdim, çatdımı?.." Sədr buna bənzər bir şey hiss edib səsinin daha yoğun yerilə: "otur, orda" – dedi.

Dəmir kişi əsasını bir-iki kərə döşəməyə vurdu, stolun aşağı başında əyləşib gülümsədi. Sədr onun, doğrudan da, dəmir parçasına oxşayan, yaşanıb yanmış arıq üzünə baxan kimi bildi ki, zəhmi ona təsir eləmədi.

– Sən köhnə adamsan, – dedi, – niyə hər yetənlə oturub durursan? – Səsinin birdən xeyli yumşaldığını duyduğundan pərt olub əlini telefon dəstəyinə uzatdı, özü də bilmədi haranın nömrəsini yığır.

– Əhmədi deyirsənsə, elə bu günnən yoxam onunla, – başını qaldırıb gülümsədi, üzünün daha çox çapığa oxşayan qırışları işıqlandı, – oğlumun da arası yoxdu.

Sədr qanrılıb pəncərədən bayıra baxdı. Ara-bərədə heç nə yox idi, amma itlər yenə qurbağa kimi səs-səsə vermişdi. İstədi deyə ki, nə çox it var bu kənddə? Bunu demək istəyə-istəyə:

– İstəyirəm, – dedi, – oğlunu ferma müdiri qoyam, ağlın nə kəsir, sənin yaşın keçib.

– Pah, eləmi, yaxşı olar, ay sədr, canın sağ olsun. Sən bizi dolandır, biz də sənin başına dolanaq...

Beləliklə, Qaraxan müəllimi tikintiyə, Xasını anbara, Sığırçı Söyünqulunu da dana briqadiri qoydu.

– Bunu istəyirdiz, bu da məndə.

Qaraxan müəllim arıq adam idi, amma neçə gündü kök adam kimi oturub-dururdu. Sədr belə deyəndə əlini sinəsinin üstə qoyub sədrin gözünün qabağında baş endirdi. Təzə işə düzələndən Qaraxan müəllimin içində hər şey barmağının ucuna qalxmışdı, elə bil oğurluğa gedirdi...

– Söyünqulu, sənsən?

– Hə, mənəm, başına dönüm.

– Əlindəki ağacı alıb bilirsən neyliyərəm?

– Niyə, başına dönüm, mən səni istiyən adamam...



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

– Dünən bostanın qırağında nə demisən... Qurd düşüb... Hı? Onu istəyirsən ki, bu yaşında başını qırxdırıb salam donuzluğa?

Beləcə bir-iki ayın içində hərəsini bir-iki kərə çağırtdırıb özününkü elədi... Bir Hadı qalırdı, Hadıyla da nə təhər oldu, necə oldusa elə birinci gündən yaxın oldular, elə birinci kərə görüşən kimi Hadı ayaqlarının ucuna qalxıb boğazını sədrin qulağına sarı uzatdı, nə dedi, nə demədi, sədr uğunub getdi.

– Ay camaat, sizin bu Hadı nə çox anekdot bilirmiş, – əlini əlinə vurub təzədən güldü.

Amma camaat uşaq deyildi, görə-görə gəlirdi, yaxşı bilirdi ki, sədr əslində Əhmədin birdən-birəcə arıqlayıb boğazının daha da uzandığına, gözlərinin böyüdüyünə, Söyünqulunun "istiqanlılığına", Xasının "qulluğunda olum" fikrini ifadə eləyən görkəminə "ura" deyib əl çalmağa hazır olan adamlara gülürdü.

– Ə, yaxşı, o, dedi, siz də inandınız, Hadı nə bilir anekdot nədi?

Camaat da üz-gözüylə tamam ayrı şeylərə çilət vura-vura, hər şeyi bilə-bilə özünü elə göstərirdi ki, guya heç nə bilmir...

* * *

– Sən mənə əmioğlu deyilsən, Hadı, sən mənə kopoğlusan!

Əhməd o gün düz Hadının evinə gedib başının üstünü kəsdirdi. Hadı çay içirdi. Arvadı qapının küncündə dayanmışdı, hirsindən bilmirdi neyləsin, elə ordan qaş-gözüylə Hadıya işarə eləyib barmağını barmağına keçirdib dartdı, sonra da əllərini silkələyib yanlara açdı, içindəki qışqırıqdan arıq, həmişə ağrılı, üzüntülü görünən üzü qırış-qırış oldu, yəni kəs aranı, birdəfəlik üzülüş! Hadıya da elə bu lazım idi, ayağa qalxıb ürəyində: "hayıf ki, sədr eşitmir" – deyə-deyə bağırdı:

– Biz düşmənik bu günnən, əmioğlu yox. Mən indi ayılmışam. Camaatla düşmən idim sənin üstündə.

Qapının küncündə gözünü ərinin ağzına dikmiş arvadı elə bil sığalladılar, gözləriylə, "yaxşı eləyirsən..." deyə-deyə:

– Yaxşı eləmirsiz, – dedi, – ayıbdı. – Yaxınlaşıb ərinin qolundan tutdu.

– Sədrə güvənirsən, əə? Yəni sədrə yaxın olmaq bu qədər çətin işdi, istəsəm, elə yaxın ollam, aramızdan su keçməz. Tfu sənə! – Əhməd fikrində bayaqdan Hadının qapısını çırpıb çıxıb gedirdi, amma nədənsə qapını açıq qoyub getdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Axşamdan xeyli keçmişdi, qalxıb əsgərlikdə aldığı qırmızımtıl şalvarını, qara pencəyini, ala-bula köynəyini geyib, bir sözlə, əyin-başında bir neçə rəngi bir-birinə qarışdırıb, üstündən də sarı qalstukunu bağlayıb, şlyapasını qoyub çıxdı. Görənləri çaşdıra-çaşdıra, iri addımlarla, düz sədrin qapısına getdi. Özünü şax tutmağı yalnız qapını döyənəcən çəkdi. Ayaq səsləri eşidildi. Əvvəlcə ayaq səslərindən daha çox danışığa, pıçıltıya oxşadı, elə bil beş-on adam baş-başa verib dilini sürüyə-sürüyə xısınlaşırdı. Əhmədi elə bil gicitkan dalayırdı, üz-gözünü qırışdırıb yağışın altında dayanmış kimi büzüşüb gözləyirdi. Ayaq səsi qapıya çatanacan nə deyəcəyini fikirləşdi: "Bizim uşaqlarımız da dostdular..." Elə bu yerdə sədrin arvadı qapını açdı. Əhmədi görən kimi gülümsədi, amma bu gülüşü üz-gözünə yayılmadı, necə açılmışdı, eləcə də qalın qaymaq dodaqlarında qaldı. Çünki, bu əslində gülüş deyildi, söz idi, sədrin arvadı ürəyindən keçənləri ifadə edirdi: "Belə boynunu bükərsən, bax, qapının ağzında...", – dönüb təntənə içində o biri otağa keçdi, bir azdan qayıdıb yenə gülümsədi, artıq gülüşü bütün üz-gözünə yayılmışdı, çünki daha heç nə demirdi.

– Qonağı var, deyir sabah idarəyə gələr, danışarıq.

Qapı azca aralıydı, Əhməd qapının arasından yelənicə görünən xalçanı tanıyıb quruyub qalmışdı. Hadının cehizlik xalçasıydı... "Nə vaxt gətirib, bu qurumsaq..." Arvad bayaqdan elə bilirdi Əhməd ona baxır, amma Əhməd telefonla danışırmış kimi, gözləri baxdığı yeri görmürdü, bomboş idi, arvadın sümüyü eyməndi, qapını yavaş-yavaş çəkib örtdü.

Hava sərin idi, amma Əhməd tərləyirdi, düz qalstukunun altıyla üzüaşağı cücü kimi tər damcıları yeriyirdi. Silkələnib üst-başını düzəltdi. Bayaq qapının ağzınacan necə şax, diri gəlmişdisə, özünü düzəldib eləcə şax, diri addımlarla aralandı. Həyət qapısından çıxanda niyəsini, kökünü, mənasını özü də yaxşı anlamadan:

– Şovinist köpəyoğlu, – dedi. Deyən kimi də elə bil neçə ildə axtardığını indi tapdı. Ayağının altında nəsə qalıbmış kimi addımını göydə saxladı, dönüb yolun o biri tərəfinə keçdi...

Alaqaranlıqda Qaraxan müəllim Dəmir kişidən soruşdu:

– Bu niyə tüyünür gecənin yarısı?

– Mən nə bilim, ay Qaraxan, sən bilərsən, müəllim olmusan özün də. Yəqin yazacaq yenə.

– Sədrə indidən demək lazımdı, yazmamış...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu vaxt Əhməd oturmuşdu evin bir küncündə, pencəyini çiyninə salıb, gözlüyünü taxıb fikrə getmişdi, istəyirdi elə birinci cümlədən yazsın ki, "şovinist..." Amma bunun nə demək olduğunu özü də dərindən anlaya bilmirdi, ona görə də quruyub qalmışdı. Ot deyildi, kartof deyildi ki, yazaydı oğurladılar, apardılar. Fikirləşdi, fikirləşdi, axırda elə bil bunun nə demək olduğunu tapdı, sevindiyindən zingildədi. Gopçu təzəcə mürgüləyirdi, qulaqlarını şəkləyib pəncərədən içəri baxdı. Dıqqı yatmışdı, Pəri ayaqlarının ucunda yaxınlaşıb qapını araladı.

Əhmədin bayaqkı zingiltisi içinə düşmüşdü, elə içindən zingildəyə-zingildəyə yazdı: "Şovinist, öz qohumlarını irəli çəkir..."

Otaqdakı hənirtidən bildi ki, arvadı qapının arasından baxır, üz-gözündə bir cizgini belə dəyişmədən dilinin ucuyla:

– Hadının cehizlik gəbəsini sədrin evində gördüm, – dedi.

– Onu yazma, – arvad başını qapıdan içəri saldı. – Elə olmaz birdən, dünən Hadının arvadı qapıda xalça çırpırdı, həmin xalçaya oxşadı. Onu yazma, düz çıxmaz. – Kişinin dinmədiyini görüb içəri girməyə ürək eləmədi, gəldiyi kimi barmaqlarının ucunda qayıtdı.

Elə ardını təzəcə yazmaq istəyirdi ki, indidən ölçü götürməsəniz iş başında ancaq öz "milləti" qalacaq, yəni dayısıoğlu, xalasıoğlu, saymaqla qurtarmaz, elə bir ucdan gəlirlər. Əvvəlkilər ağalıq eləyirdilər, bu şovinistlik eləyir... Elə bu yerdə pəncərədə işıq oynadı, sonra da motosiklet səsi özünü dağıda-dağıda yaxınlaşıb susdu. Qapıya ikisi də birdən çıxdı. Ər-arvad bir-birinə dolaşa-dolaşa həyət qapısına sarı getdilər. Qapının o üzündən hıçqırtı səsi gəldi. Arvad qızının səsini tanıyıb, "boy" – eləyə-eləyə özünü qapıya saldı. Qapı açılan kimi Ayvazın qurşaqdan yuxarı iri gövdəsi göründü, dəmir darvazanın sivəsindən yapışmışdı, bir anlıq beləcə duruxub qonum-qonşunun pəncərəsindən, həyətindən düşən alaseyrək işığın altında dörd yanına boylandı, birdən dayandığı yerə zəncirlənibmiş kimi dəmir qapını silkələyə-silkələyə qışqırdı:

– Ləçərinizə yiyəlik eləyin, küçüyünüzü qapınıza bağlayın! O dəfə də demişəm, indi də deyirəm, belini bax, beləcə əyib qıracam! – Əllərini qaldırıb doğrudan da nəsə əyirmiş kimi güc verdi, uzun sifəti neçə yerindən əyildi, iri dişləri bir-birinə sürtülüb xırçıldadı. Pəri arvad qorxusundan motosikletin yanında diz çökdü. Bir anın içində kənd tamaşaya durdu. Hasarların dibinə, ağacların alaqaranlığına doluşub elə bil kinoya baxırdılar.

– Neyniyib, əə, mənim qızım sənə? Anqırıb kəndi bura tökürsən.

– Sənin qızın dillidi, atamı söyür, nəslimi, kökümü söyür.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Əə, indi sən ata qədri bilən olmusan, şovinist köpəyoğlu.

Sədr də eyvanına çıxmışdı, arvadıyla məhəccərə söykənib uğunub getmişdilər.

– Ağzını dağıtma, sən də demaqoq köpəyoğlusan, basıb qırram indi belini, – darvazanın qapısından yapışıb yenə silkələdi. Əhmədin hasarı boydan-boya, ta Hadının qapısınacan lərzəyə gəldi.

– Yox, sən ona görə eləyirsən ki, sədr sənə yaxşı iş versin. Get, namərd köpəyoğlu.

Ayvaz dəmir darvazanı bir də silkələdi, özü də silkələnə-silkələnə, bağıra-bağıra motosikletin buynuzundan yapışdı.

Pəri qızını da götürüb aradan çıxmışdı. Dıqqı yuxudan oyanıb qapının ağzında dayanmışdı, hasarın Hadı əmisigilin qapısınacan silkələndiyini bir o görürdü, bayaqdan dodağının altında: "oy daa" deməyi də ona görəydi. Gopçu bu tanış, doğma adamların hay-küyündən heç nə anlamadığından bilmirdi hürsünmü, hürməsinmi... Ayvaz motosikleti işə salmamış, dartıb yönünü öz kəndinə sarı çevirdi, bağıra-bağıra sürüb kənddən çıxdı...

Səssizlik çökdü. Eşşək neçə gündü elə ayaqüstəcə can verirdi, motosikletin səsi kəsilən kimi ayaqları qatlandı, uzanıb gözlərini pəncərəyə dikdi. Gopçu balaca ayaqlarını divara söykəyib pəncərəyə sarı dartındı... Arvadıyla qızı qapıda oturub işin axırını gözləyirdilər, qız içini çəkə-çəkə ağlayır, anası dodağının altında nəsə deyirdi. Əhməd qapıdan içəri girən kimi güldü, yaxınlaşıb onlara sarı əyildi, arvad gördü kişi gülür, əli üzündə qaldı.

– Qorxmuyun, bir şey yoxdu, özüm tapşırmışdım ki, belə eləyərsən, – yanlarında oturub papağını çıxartdı. – Nə yamanmış bu zalım oğlu?!

Qız bir xeyli kəkələyib:

– Bi-irdən gee-rçəək... ooo-lar. – Əlini dolandırıb boşluğa çırpdı, elə bil kiminsə başına vururdu.

– Yox! – dedi atası. – Sədr yaxasından əl çəkmir, bəlkə indi bir yaxşı iş verdi, – amma ürəyində onu da dedi ki: "Gerçək eliyənə oxşayırdı köpəyoğlu".

Anası qızın qolundan tutub içəri apardı, qız yenə nəsə demək istəyirdi, səsi bir qəlibə düşmədiyindən, yəni söz ola bilmədiyindən heç nəyə oxşamırdı; nə ağlamağa, nə gülməyə. Amma atası onun səsinin dibindəki, kökündəki sevinci duyub rahatlandı, əlini oğlunun başına qoyub yüngülcə sıxdı:

– Niyə yatmırsan, əə?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dıqqı bayaqdan tövlənin balaca bacasına sarı dartınan Gopçuya baxırdı, itin hərəkətindən bir şey anlamadığından duruxub qalmışdı. Atası belə deyib gözünün ucuyla oğlunun özü kimi arıq üzünə, uzun boynuna, göy gözlərinə baxdı. "Nuhdanqalma..." Bir anın içində hikkəsi başına vurdu, yenə əlinə keçəni bir-birinə qatmaq istəyirdi ki, Dıqqı:

– İt pəncərədən içəri baxır, – dedi, – bayaqdan baxır.

Gopçu elə bil onun dediyini anladı, zingildəyə-zingildəyə təzədən tövlənin bacasına sarı atdandı. Əhməd özünü tövləyə saldı. Gopçu artıq hər şeyin hamıya aydın olduğunu duyub gümrah, cingiltili səsiylə yan-yörəsinə baş döndərə-döndərə hürürdü. Arvadı da, qızı da hay-küyü eşidib tövləyə yüyürdülər... Eşşəyin dişləri ağara qalmışdı. Əhməd onları görəndə az qaldı, "Allah rəhmət eləsin" deyə, oğluna sarı döndü, sakitcə:

– Sənlə yaşıd idi, – dedi.

– Neyniyəcəksən? – arvad soruşdu. – Gecədən keçib.

– Hava soyuqdu, iylənməz, sabah doğruyub itlərə verərik.

– Yox, burda saxlama, bir damcı südü qalmaz inəyin.

İnəklər kişinin indi yadına düşdü, yaxınlaşıb əlini ağ inəyin belinə çəkdi, inəyin tükləri biz-biz olmuşdu.

– Ölünün zəhmi ağırdı, sabahacan inəyin ikisi də süddən kəsilər. Yazıq, qocalmışdı lap, – arvad belə deyib azacıq əyildi, oğlunun üzünə baxıb gülümsədi. – Sənin neçə yaşın var, ədə?

Dıqqı burnunu çəkə-çəkə:

– On iki, – dedi.

"Nuhdanqalma..." Əhməd bu iki daşın arasında yenə Nuhu xatırladı, acıqlı-acıqlı:

– İrişmə, – dedi arvadına, – arsız-arsız, tut ayağınnan, çək eşiyə...

Eşşəyin dal ayaqlarından yapışıb dartdılar. Dıqqının bayaqdan yenə fikrində nağıllar cözələnirdi:

– Ayvaz yeznə olsaydı, eşşəyi birəlli sürüyərdi, – dedi. – Bayaq hasarımız az qalırdı yıxılsın, oy daa...

Eşşəyi sürüyüb həyətin bir küncünə gətirdilər... Qazlar qaqqıldaşıb səs-səsə verdi, elə bil uçuşurdular, səsləri hardansa yuxarılardan gəldi. Gopçu arada ölü olduğunu duyduğundan elə bil çayın o tərəfində qalmışdı, qaranlığa girə bilmir, həyətin harası işıqlıdı, ordaca zingildəyə-zingildəyə o baş-bu başa qaçırdı...

– Yadındadımı? – dedi Əhməd arvadına, – Dıqqı üç ayını təzəcə çıxmışdı, bu da qoduq idi. – Ayağını eşşəyin başına qoydu, – bambalaca.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arançıdan iki qab kartofa aldım, – sözünün altında nəsə vardı, amma özü də aydın bilmirdi ki, nədi sözünün canı, nəydisə fikrinin, düşüncəsinin lap dərinliyində arvadına qarşı yenə hikkə qaynayırdı.

– Yadımdadı, – dedi arvad, ərinin hikkəsini duymadan, – uşağın gül kimi adı vardı,Vidadi. Nuh başına daş düşmüş uşağa ad qoydu, Dıqqı...

– Hə, – dedi kişi, xırıldaya-xırıldaya, – camaat da elə ona görə "Nuhdanqalma..." deyir, tfu, cəmdəyinə. Arvada etibar eliyənin ölüsünədirisinə lənət!

Söz tikə kimi ilişib arvadının boğazında qaldı, içini çəkə-çəkə:

– Bir dəli şeytan deyir, indi get, camaatın gözü görə-görə gir Nuhun evinə, çıxma!.. – dedi, eşşəyin yanındaca yerə çökdü.

Qız atasının nə dediyini anasının sözündən sonra anladı. Hadıgilin evinə sarı boylanıb o da diz çökdü, bərkdən gülüb:

– *Aaaa!.. – dedi, – Həə?*

Arvad donub pəncərənin işığında suyun altında dayanıbmış kimi ərinə qaramat atdı:

– Kül olsun belə ərin başına, heç nədən adıma söz çıxardır.

Əhməd bilmirdi neyləsin, Dıqqının boynunun ardından yapışıb açıq qapıya sarı itələdi, elə bil Gopçunu da itələdilər, qaçıb qaranlığa girdi.

Əhmədi bayaqdan elə bil qeybdən çağırdılar, başını qaldırıb göyə baxdı; göyün belə aydın, belə aylı, ulduzlu olacağını ağlına gətirməzdi, amma bu gözəllikdə ayı da qonşunun – Nuhgilin həyətində yanan işıq kimi gördü. Nisə arvadı xatırladı, fikirləşə-fikirləşə yenə pəncərənin işığında elə dayandı ki, elə bil şeir deyəcəkdi... Bir müddət beləcə donub qaldı, sonra yenə öz yerinə keçib qələmi götürdü, amma bilmədi nə yazsın. "Şovinistdi, özünün qohumlarını – bacısı uşaqlarını irəli çəkir..." Bayaq yazdığını indi ha oxuyurdu, bir şey anlaya bilmirdi; Nisə arvaddan başqa yadında heç nə yox idi...

* * *

Qış birdən düşdü. Üç gün idi qar yağırdı. Yağırdı, amma hələ havanı soyuda bilmirdi. Torpağın canı sulu, isti olduğundan yerdə qar qalmırdı. Yalnız dördüncü gün yer ağarmağa başladı. Yan-yörə ağardıqca da hava soyudu, axşamüstü bərk ayaz qalxdı. Dibinin daşı üzünə çıxmış balaca arxların suyu donub qaysaqlanmışdı; sərçələri güclə saxlayırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gopçu həyətin bir küncündə ağ eşşəyin sümüyünü gəmirirdi. Özü boyda sümük idi, ətini yeyib qurtardığından yeyənə yox, sümükdən nəsə düzəldənə oxşayırdı. O yan-bu yana çevirə-çevirə gəmirirdi.

Bəlli Əhməd eşşəyi bölüb, dörd qol eləyib, it ağzı çatmayan yerdən, həyətin lap qurtaracağındakı söyüdün budaqlarından asmışdı. Qolun birini gəlib Bilal kişi apardı... Balaca, goppuş, qırmızımtıl yumruğunu ağzı bərabərində qaldırıb Əhmədə sarı uzatdı:

– Bəlli, – dedi, – o heykəl başın haqqı, bu eşşək, – o biri əlini də ağacın başında qaralan ətin şaqqalarına sarı uzatdı, – bir gün də keçsəydi, məni dəli eliyəcəkdi. Hər gecə yuxumda düz gözümün içinə baxa-baxa deyirdi: "Niyə ağzımı söydün, utanmadınmı?" Ayılıb görürdüm ki, başımın üstünü kəsdirib... Sədrin yanına gedə bildinmi?

– Yox hələ.

– O qaçır sənnən, qorxur... Ver eşşəyi bütün aparım, mənim itim çoxdu.

– Bə bu it döyülmü? – İtdən daha çox siçovula oxşayan Gopçunu göstərdi.

– Havayı istəmirəm, hər buduna bir baş pendir verərəm.

– Yox, ətin qalanını sədrə verəcəm, onun da iti var, – özü öz dediyinə mat-məəttəl qaldı.

Bilal kişi kök uşaqlar kimi goppuş yumruqlarıyla gözlərini ova-ova güldü:

– Bunu da ilişdirəcəksən, – dedi, – sən! – Ət şaqqasının birini ağacdan salıb sürüyə-sürüyə qapıya sarı getdi, qapıdan çıxhaçıxda qanrıldı, duruxa-duruxa: – Axı, – dedi, – sədrin iti yoxdu, – fikirli olduğu üçün üzünün qızartısı getmişdi, görünüşündən kütlük yağırdı, – nəsə qurmusan yenə, həə? – Bu da birdən ağlına gəldi, ona görə də üzünün qızartısı bir anın içindəcə qayıtdı, baxışları durulub gömgöy göyərdi.

Əhməd onu görmürdü, içində qəribə bir titrətmə, söyüd ağacının dibində ağac kimi quruyub qalmışdı...

– Mənim camaatdan gizlin sözüm yoxdu, ay Əhməd, elə deyilmi, ay camaat?" – Sədr belə deyib dörd yanına toplanmış əliyabalı, kərəntili camaata baxdı. Camaat az qaldı qışqırsın: "Ura..."

– Hə, – dedilər, – elədi.

– Bəs, ay Əhməd, niyə sən mənnən gizlin görüşmək istəyirsən?

– Deyiləsi sözüm var.

– Hər şey yaxşı olacaq. Mən sənin xətrini çox istəyirəm..."

Qızının səsinə fikirdən ayıldı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qa-aa-yıt-mayacaq o! Ge-ee-t-di!..

Evdə arvadıyla qızından başqa heç kim yox idi, amma elə bil ev adamla doluydu. Aləm qarışmışdı bir-birinə. Sonra uşaq ağladı, uşağın səsi də eləydi elə bil paltar cırırdılar...

Dıqqı eşşəyin quyruğunun tükündən cələ qurub dibinin daşı üzünə çıxmış, balaca arxın axşam ayazında qaysaqlanmış üzünə qoymuşdu, özü də evin küncünə söykənib güdürdü ki, nə vaxt sərçə düşəcək. Cələnin yan-yörəsində vurnuxan sərçələr qorxunu hiss eləmişdilər, amma bilmirdilər qorxu hayandadı. Qızın səsindən perikib bir azca yuxarıda dövrə vurdular, təzədən hardan uçmuşdular ora qondular. Dıqqı pəncərənin ağzında ayağını yerə döyə-döyə ağlamsınıb qışqırdı ki, səs eləməyin, sərçələr hürkür. Eşşək ölən gündən Dıqqı sərçə tuturdu, bişirib bacısının uşağına yedizdirirdilər ki, dili açılsın, iki yaşına azca qalırdı, amma hələ danışmırdı. Hadının anası demişdi ki, sərçə başı yedirdin.

Qız ağlaya-ağlaya bayaqkından da bərk qışqırdı:

– Atam ee-ləədi, aa-tamın üüzü-nnəə-n... əəə-r-siz... qaaa-ldım.

Dıqqı cələyə sarı yüyürdü, sərçənin ayağı tükə keçmişdi, ovcuna götürdü, sonra da başını ağzına alıb bir anlıq eləcə saxladı, çıxardıb:

– Dilimi qıdıqlayır, – dedi, güldü...

Qızın səsini Bilal kişi beş-altı ev o yandan eşitdi... "Əə-r-siz qaldım". Evlərin arasındakı açıqlıqda it boğuşdururdular, amma itlər boğuşmurdu. Ağız-ağıza dayanıb baxışırdılar:

– Ə, bunnar niyə boğuşmur, ay Bilal? – dedilər. – Sən bilərsən, çörəyi çörəkçiyə, deyiblər. Bayaqdan ağız-ağıza durublar.

– Araya ət tullayın, boğuşacaqlar. – Bilal kişi dediyinin mənasını birdən-birə anladı, yanıyla sürüdüyü ətə baxdı. – Bunu verəmmərəm, öz itlərim acdı.

– Əşşi, boğuşmurlar, – dedi camaat yer-yerdən, – ət də atmışıq aralarına. Az qalmışıq özümüz boğuşaq.

Ağzı qara itlər idi, ağız-ağıza durub xeyli kinli-kinli baxışdılar, sonra şöngüyüb camaatın başı üstündən harasa tamaşa elədilər.

– O dənbər kiminkidi, tanıyammadım, – Bilal kişi mərəkəni görüb canlanmışdı.

– Sığırçı Söyünqulunundu, – dedilər, – o birisi də Xası müəllimindi.

– Onda havayı şeydi, boğuşmazlar, yiyələri dostdu...

– Bəlli Əhmədinkini gətirin, yenə o aranı qatmasa boğuşmayacaqlar, – camaatın içindən kimsə dilləndi. Hamı dönüb Əhmədin evinə sarı baxdı. Nisə arvad Əhmədin arvadıyla qapının ağzında dayanmışdı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hadı itlərini də gətirib gəlirdi, yaxınlaşan kimi:

– Bu Nisə arvad gün-gündən cavanlaşır, – dedi, sonra itinin dal ayağından yapışıb, bayaqdan ağız-ağıza durmuş itlərin üstünə tulladı... Amma it elə göydəcə qanrılıb, Hadının özünün üstünə şığıdı. Hadı camaatın arasına girdi... Gopçu açıq darvazadan başını çıxardıb bir-iki ağız hürdü, tez də çəkilib bayaqkı yerinə uzanıb başını sümüyün üstünə qoydu, elə bil hürmürdü, söyüş söyürdü, uzanıb hirsli-hirsli mırıldadı...

Əhməd üzünü tamam tərsinə çevirmişdi, qapıya, qapının arasından görünən camaatın itli-pişikli yığışdığı açıqlığa yox, divara baxırdı, fikirləşirdi ki, sədrdən daha nə yazsın, elə bil başına vurmuşdular, ağlına heç nə gəlmirdi: yadındakı ancaq Nisə arvad idi. "...Ay Nisə, bu məktubu oxuyanda deyəcəksən, oğlum yerindədi... Amma elə deyil..."

– Nə deyirdi Nisə?

– Deyir ərinə de, gəlsin odunumu yarsın, – arvadın səsi dəyişmişdi, bu səslə aradabir ağrıyan yerini göstərib: "Bilmirəm burda nə varsa, buram ağrıyır..." – deyirdi. – Elə bil kişi yoxdu kənddə, – qorxusu birdən yadına düşdü, səsini yığıb sözünün ardını dodaqlarının ucunda dedi.

Əhmədi elə bil isti suya saldılar, yumşalıb muma döndü, dizlərinin gözünəcən sızıldadı, qanrılıb qapının arasından bayıra baxdı.

– Baltanı gətir, itiləyim. Uzunsaplını gətir.

Pəri baltanı götürüb ona tərəf gəlirdi.

– Bəs oğlunun toyu nə vaxtdı, bir şey demədi?

– Gedib özünnən soruşarsan. Anan yerindədi eey, bədbəxt oğlu, gör kimə vurulmusan!

– Donquldanma ha, – dartıb baltanı aldı, əlini ağacın budağında qaralan ət şaqqalarına sarı uzatdı, – başını qaldır, yuxarı bax! Dörd bölük eliyərəm səni də!

...Havada keçən qışdan yadda qalan tanış şaxta vardı ki, adamın üz-gözünə qırov kimi yapışırdı... Əhmədin fikrində toy çalınırdı. Nisə arvadla qol qaldırıb oynayırdı. Doğrudan da iki-üç gündən sonra elə Nisə arvadın həyətində üz-üzə durub oynayacaqdılar. Heç kəsin ağlına heç nə gəlmədən, Nisə arvadın birdən-birə belə cavanlaşmağının mənasını anlamadan hamı əl çalacaqdı...

Əhməd belə fikirləşə-fikirləşə balta itiləyirdi. Dıqqı hələ də sərçə tutmağındaydı. Gopçu tez-tez başını qapıdan çıxarıb bir-iki ağız hürür, qayıdıb özündən böyük olan sümüyün yanına uzanırdı... Ortalıqda camaatla itlər bir-birinə qarışmışdı. Amma boğuşmurdular, hərəsi bir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yana baxır, kinsiz, acıqsız, peşmançılıq yağan səslə seyrək-seyrək hürürdülər.

Əhməd qoltuğunda da balta qapıdan çıxanda camaat pıçıldaşıb əllərini dodaqlarının üstünə qoydu, – suss... Onun dalınca da Gopçu çıxdı, hay-küyü görüb zəncirdəymiş kimi havadanca dartına-dartına hürüb, balaca, pişik pəncələrinə oxşayan pəncələriylə yer cırdı. Bir günün içində ağ eşşəyin bir qıçını yemişdi, tox idi. Tox olduğu üçün heç nədən qorxmur, həmişə neynirdisə, indi onu eləyə bilmirdi. Dıqqı da qapıya çıxdı. Gopçu da yanında yığnağa sarı getdilər. Gopçu Dıqqını görüb ürəklənmişdi, ayaqlarına dolaşa-dolaşa özünü yeyib-tökürdü. Yaxınlaşanda birdən-birə kiridi, elə kirimişcə özünü itlərin arasına verdi; bir o başa yüyürdü, bir bu başa...

Camaat da bilmədi ki, birdən-birə noldu. Ortalıqda nə qədər it vardı, bir-birinə qarışdı. İt boğanağı burula-burula, bir-birinə qarışa-qarışa camaatın arasından çıxdı, toz qaldıra-qaldıra kəndin içərilərinə doğru getdi.

Böyüklər silkələnə-silkələnə gülüşdülər, uşaqlarsa itlərin ardınca düşüb qışqırırdılar:

– Urra!

*1984*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ÖMÜRDƏN QIRAQDA

*Bu yazımı külək dağıtmışdı,*
*hərə bir sözünü gətirdi...*

Uzunsov, parlaq barmaqları didişdirir məni. Əlini o oturacaqdan bu oturacağa uzadıb, hikkəsiz, ədasız səsiylə deyir:

– Sən sür, sən yola bax!

Qonur, vilvet şapkamı başına qoyub, dimdiyini də çəkib gözünün üstünə ki, görüb tanıyan olmasın... Üzü-gözü sevinc içindədi, maşının lap küncünə uzatdığı ağ, yarıaçıq ayaqlarınacan ilğım içindədi. Uzun, gözəl... Yəqin ki, niyə sevindiyini özü bilir. Mən bir şey anlaya bilmirəm, çünki sevinməyə səbəb yoxdu.

– Bəlkə görüşməyək, – deyirəm.

– Çərlətmə məni...

Belə deyib əlini mənnən çəkir, indi də maşını didişdirməyə başlayır. Əli odu eey, hardadı, maşının o başında.

– Bax, biləklərimnən dartdıqca qollarım uzanır, bilirsən, necə dincəlirəm? – Mənim sözümdü, elə-belə, darıxdığımnan deyirəm.

O, qollarımın uzandığına doğrudan da inanır, mat-məəttəl qalır.

Elə gözəldi, başımı salıb onun gözəlliyini düşünürəm, onu yaşayıram, ağ-bəyaz, biçimli bədəni gözümün qabağındadı, amma mən gözlərimi yummuşam...

Maşını ləpədöyəndə saxlamışıq, dənizin səsi dərinliklərdə gurultu içindədi, sahildə sındırırlar elə bil, qırılıb ətrafa səpələnir...

Mən ona toxunmaq istəyirəm. O, bunu hiss eləyir, yüngülcə öpür məni; dodaqları soyuqdu, şehli yarpağa oxşayır, ya da elə bil balaca bir dalğa qonur dodaqlarımın üstünə, gözlərimi açıram, kirpiklərimiz bir-birinə dəyir, arada sevinməkdən, sevişməkdən başqa bir şey yoxdu... hər şeyi unutmuşuq.

– Bu gün at şəkli çəkərsən, – deyir, yarıpıçıltıyla. – Ağ at... olsun, suyu axa-axa dənizdən çıxsın. – Sonra nə fikirləşirsə: – Yox, yox, ağ yox... Kəhər. Qara at.

– Yaxşı, – deyirəm, – çəkərəm, düzdü, ağ lazım deyil, bizim bu halımız üçün ağ rəng çox zərifdi. Qara at çəkərəm... bir az da sərt.

Beləcə dayanıb dənizə baxırıq. Deyir:

– Həmişə görürəm dənizdən bir at çıxır, bizə tərəf gəlir-gəlir, sonra yox olur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Elə onu çəkim, rəngini de.

Bir az fikirləşir:

– Rəngi yoxdu, – deyir, – rəngi yadımda qalmır, rəngsizdi...

"Rəngsiz at..." Dilimin ucunda bir neçə kərə təkrar eləyirəm... "Rəngsiz at". Fikir o qədər gözəldi, həyəcan içindəyəm. Amma ha əlləşirəm, istədiyimi çəkə bilmirəm. İndi əllərimi dənizin buz kimi suyuna salmışam, bilərəkdən əllərimi üşüdürəm. Başımı qaldırıb altdan yuxarı deyirəm:

– Rəngsiz at elə dəniz deməkdi, daa...

* * *

– Bəlkə həkim çağıraq...

Kimin səsidi, oğlumdu, qızımdı, arvadımdı, kimdi görəsən?

– Nolub?! – Mən soruşuram, amma öz səsim özümə çatmır... Bilmirəm, doğrudan da soruşuram, ya yox.

Beynimin içiylə elə bil zəncir sürüyürlər... Əslində ayaq səsidi; yerdən – aşağılardan gəldiyi bilinir.

Danışıqlar, deyintilər başıma dolur, süpürülürmüş kimi ağrılarıma qarışıb məni daha da ağırlaşdırır... Divana sıxılıram.

Hə, bu, nəvəmin ayaq səsidi. Ayağının səsi də gülməyi kimiymiş, dəhliz boyu sıralanır, uğunub gedir... Onu mən belə güldürürdüm, mən yoxam, bəs, nəyə gülür görəsən?

Elə bil içimə qırmızı rəng çökdü; içim gülümsədi, gülümsəməyimin üzümə çıxmadığını hiss elədim, yenə aşılanmış yalın dəri kimi qat-qat oldum... Ağrıdandı, ağrım indi qatı palaz kimidi, lap keçə kimi. Elə bil kimsə balığa tor atıb, tora düşmüş kimiyəm, ağrımayan yerim yoxdu... Ağrı məni birləşdirib, keyləşdiyimdən kötük kimi bütöv olmuşam...

– Pır-rr!..

Qonşunun göyərçinləri uçdu yenə... Hə, bax, bu, göyün səsidi, bəlkə də qanad səsi olduğuna görədi, adamın üzünə-gözünə dəyə-dəyə yuxarılardan gəlir.

O gün qanad səsi eşidib bayıra qaçdım... Elə bil göyün təkindən kağız səpələyirlər... Kağız... aha, tapdım... Göyərçinləri məktub kimi işləyəcəm... "Yuxarıdan məktub".

Dəzgahımı qurub gözlərimi göyə dikdim. Canımnan, qollarımnan, sonra da barmaqlarımnan keçəcək həyəcanı gözləyirəm: heç nə, məni



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

oyadacaq bir şey yoxdu, cansızdı hər şey, hərəkətsizdi... Çəkdiklərim də adicə kağızdı, kağızda nə hərəkət...

Hirslənib dəzgahı atıram bir qırağa, uzanıb göy üzünə tamaşa eləyirəm. Göyərçinlər göyün balaca bir parçasında su kimi qaynayırlar, elə bil doğrudan da sudu, yerdən qaynayır...

Yaxşı, bunu ki, mən belə görə bilirəm, bəs bildiyim kimi niyə işləyəmmirəm. Dəzgaha yaxınlaşan kimi niyə quruyur hər şey, su çəkənlə suyumu çəkirlər elə bil... Bəlkə belə bir tablo işləyim... "Havada göyərçinlər fəvvarə şəklində..."

Göyərçinlər mənim baxdığımı görüb qanadlarının üstə də beşini qoyub, oyun çıxardırlar. Oyunlarını da bilirəm mənimçün oynayırlar. Daha doğrusu hərəkətlərindən bilinir...

Gözdən itənəcən baxıram, az qalıram dallarıncan uçam. Bunu onlar anlayırlar.

İndi göyün göylüyünə qarışıb hər şey, uzaq, lap uzaq, göz içi kimi...

Off, kaş bayırda olaydım!..

– Dədə!..

Özümü uzanmış görürəm. Üzüm-gözüm qırış-qırışdı. Ağrıdandı yəqin. Amma ağrını hiss eləmirəm... Görünür ağrıdan çıxmışam. Budu, yuxarıdayam. Bir az da qalxsam, ağrıdan birdəfəlik çıxacam...

– Dədə!..

Səs başıma yaş əsgi kimi dəyir, beynimin dərinliklərində cingilti qopur.

– Dədə!

Oğlumun səsini daha çox dad kimi tanıyıram, ağzım dada gəlir.

Yaşından tez oturuşmuş görkəmi gözümün önündədi. Bəlkə də elə indi üz-üzəyik. Yox, görmürəm.

Bütün hənirtilər damcı-damcı canıma-ağrılarıma hopur.

– Dədə, həkim çağırım?!

Bilmirəm cavab verirəm, ya yox.

Mən yıxılan gün tüfəngini silib təmizləyirdi. Qoşalülədi, lüləsi üst-üstə xarici marka.

Əmimin tüfənginin lüləsi yan-yanaydı. Lülələri yan-yana daha vahiməli görünür. Elə bil işıqları sönmüş, tanımadığın şəhər sənə baxır.

Sən də bütün ömrün boyu tüfəng lüləsinə baxsan, heç vaxt gülmək yadına düşməz, çünki tüfəng lüləsinin baxmağında qorxudan başqa heç nə yoxdu...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kim idi, sərgi salonunda çır-çır çığırırdı ki, tüfəngin lüləsini də şəhərə oxşatmaq olarmı?

O, adamların arasından çıxdı, öz gözəl görkəmiylə ətrafda hər şeyi dondurub, indicə gəlibmiş kimi dörd yanına göz gəzdirdi:

– Şəhəri tüfəngin lüləsinə bənzətməyib ki, tüfəngin baxmağını bənzədib, – dedi.

– Tüfəngin baxmağı olmaz... Bu nə hoqqadı?! – Kimsə yerinnən dilləndi.

– Üzü bizə olan hər şeyin baxmağı var, cənablar! Tüfəngin üzü bizədi, ona görə də şəhərə bənzəyir. Dağ, daş, su, torpaq adamsız yaşayır, amma tüfəng adamsız yaşaya bilməz. Şəhər də tüfəng kimi adam varsa var. Ona görə də tüfəngin baxmağı elə adamın baxmağıdı...

Onun bu, sistemsiz, amma ağıllı çıxışı hamını çaşdırdı.

Təzədən dəhlizin o başına qoyulmuş rəsm əsərinə doğru getdilər. Yerliyi tünd boyalarla işlənmiş tablodu... Güclə sezilən görüntü tüfəng lüləsinnən göz gətirib bizə baxır.

O, uzun paçalarını kişiyana ayırıb, ayağının biri yarıbükülü, əllərini əsərin üzərində gəzdirir:

– Bu dərinlikdəki daşlaşmış insan üzüdü, fikir verin, bütün evlərin – mənzillərin gözüylə tüfəng lüləsindən bizə baxır... Yaxşı, bu, tüfəngin baxmağı deyil, nədi bəs?!

* * *

İndi elə bilirəm tüfəngi üstümə uzadıblar, tüfəngin altda qalmışam.

Yenə əmimi xatırlayıram... Əmim elə bil uşaq çimizdirir, tüfəngin qundağını bağrına basıb, silib təmizləyir:

– Gör nə sağlamdı, – deyir, tüfəngi göstərir, sonra üzünə qaldırıb lüləsindən bizə baxır. – Adama baxanda, elə baxın ki, elə bilsinlər tüfəng lüləsinnən baxırsız.

Yanında balta da var, mən baltanı görüb deyirəm:

– Bə balta?!

Əmim bir az duruxur:

– Hə, – deyir, – düzdü, balta da sağlamdı, hazırlıqlıdı. – Bu sözü tapdığına görə sevinir, kefi açılır.

Amma nolsun, bir xıl oğlannan heç birimiz onun dediyini anlamadıq: “Tüfəngdən baxmaq öyrən, balta kimi hazır ol...” Hə, tərbiyə üçün yaxşı fikirdi, uşağın beyninə salsan bəsidi!..”



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağrını uzaqdan hiss edirəm, duman kimi bürüyür məni, üzüm-gözüm əyilir, inildəyirəm deyəsən.

– Dədə!

Oğlumun səsi elə bil iki yerə ayrılıb... Darıxdığınnandı, bilmir neyləsin. Mən öz ağrılarımın içindəyəm, daha doğrusu, öz içimdə sür-sümük, tör-töküntü arasındayam, hər şeyi anlasam da əlimi heç nəyə uzada bilmirəm. Oğlumun səsinə səs vermək istəyirəm, heç nə alınmır... Gücüm də ağrım kimidi, köməyə yox, məni incitməyə lazım olur. Üstümnən basıb əzir məni.

Oğlum bir də çağırır. Səsinin sonunda ağlamaq var:

– Aç gözünü!

Mən görürəm axı, necə yəni aç gözünü?.. Hə, bildim, mən keçmişi görürəm, indini yox, yəni olub keçənləri. İndini görmək üçün ağrım kəsməsə də heç olmasa azalmalıdı... Bu halımda keçmiş məni sığallayır, başıma gələnlər ovundurur məni.

– İçib genə? – Qonşudu, oğlumnan soruşur. Bilirəm ki, bunu deyə-deyə də dib-köşəyə göz gəzdirib araq axtarır.

– Yox... Çoxdandı içmir.

– Niyə içmir?

– Dilinə vuran kimi allergiya olur.

– Nolu-ur?

– Eşənək olur.

– Eşənək nədi, alə?

– Üzü qızarır, qıpqırmızı...

Mən yəqin ki, gülürəm. Oğlumun "eşənək..." sözünə gülürəm.

– Qonşu-uu!..

Hə, gülürəm. Yoxsa qonşu məni belə uzada-uzada çağırmazdı. Gülmək deyəndə də, yəqin eləcə dişlərim ağarır.

– Yaxşı, içməyibsə birdən-birə noldu kişiyə?!

Oğlum nolduğunu demir. Deməz də... Ayıbdı axı, sonra da aləmə yayılsın ki, filankəsin atası qurbağa tutmaq istəyirmiş, yıxılıb, başı dəyib hovuza.

Qonşuya araq vermək lazımdı. Bunu bircə mən bilirəm. Bilirəm ki, araq verməsən əl çəkməyəcək:

– Nolub, bəs?!

Bu qonşunun qapının ağzındakı səsidi. Yəni yanıma içməyə gələndə də belə danışırdı, aydın, duru, adama yaxın. Çiyinlərini yığıb yan-yörəyə baxa-baxa deyəcək:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Qonşu, neyniyək, hava yenə dil çıxardıb.

Mənə bircə kərə baxacaq... İçmək məsələsinin düzəldiyini hiss eləyən kimi gözlərini üzümə dikib quruyub qalacaq.

Mən də həmin anı yaşadıram düşüncəmdə... Həmin anı da neçə vaxtdı çəkmək istəyirəm... Bütün hüceyrələri, əzaları, nöqtələriylə yerindən oynamış sifət, parçalanmış, didilmiş, ordan-burdan sallanmış kimi görünən gülüş, dillənsə töküləcəkmiş kimi yan-yörəsinə tənhalıq-təklik havası yağdıran, saralıb seyrəlmiş dişlər, bütün bunların dibindən, kökündən baxan, yel vururmuş təki içi titrəşən gözlər neçə vaxtdı gözümün önünnən çəkilmir.

Bir də soruşur:

– Hı, qardaş, nolub kişiyə?

Hə, həmin səsdi, arağa qədər olan səs. Araq verməsən əl çəkməyəcək... Heç versən də əl çəkən deyil. Dilinə dəydi, qurtardı.

Başımı qaldırmaq istəyirəm. Elə bil ağacam, ayaqdan başa oxlov udmuş kimi düpdüz... Güc eləyirəm, heç nə... Güc elədikcə canım gedir, yayılıb ətrafıma hopur, qalxa bilmirəm, öz içimlə çay suyu kimi irəliləyirəm. Yəni "su gedər çayın yatağı qalar", mən də qalıram, yerimdə varam... Amma sərim-səmtim yoxdu. Ağrı məni su kimi bütöv eləyib. Suyun başı, ayağı yoxdu ki, hara əyirsən ora axır. Başımın içi yumşaqdı, o yandan bu yanına hava keçir... Sərin.

"Şır-rıb, şırrr-ıb..."

Ürəyimin səsidi. O gün həkim dostumun yanına getdim, ürəyimə baxırlar, bu yaşımda birinci kərədi aparata qoşulmuşam, qadın həkimdi, əlində mikrafona oxşar nəsə var, sinəmin üstə gəzdirə-gəzdirə ekrana baxır. Heç nədən xəbərim yoxdu.

"Şır-rrıb..."

Həkim dostum, gendən işarə eləyir:

– Tanımırsan, ürəyivin səsidi.

Heyrətimnən özümə gələ bilmirəm. Başımı qaldırıb baxmaq istəyirəm, daha doğrusu, ürəyimi görmək... Elə bil ürəyimin səsi məni bayıra çağırır. Bir anlıq bilmirəm neyniyim... Yox, nədisə ayrı şeydi. Dünyada nə qədər səs varsa hamısının cəmidi. Su səsi daha çoxdu. Elə bil kimdisə, – kim olacaq, Mən, – düşünülmüş, inanılmış, biçimli addımlarla suyun içiylə üzü yuxarı yol gedir... Gedirəm.

"Şırr-ıb, şırr-ıb!"



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ürəyim beləcə, göz qabağındadı, ona görə də elə bilirəm üstüm açıqdı...

Xəstəxanadan çıxmışıq... Ağrım yoxdu, amma əlim ürəyimin üstündə pilləkənləri enirəm, həkim dostum məni yola salır. Boyu o qədər ucadı ki, elə bilirəm yanımdakı çardaqdı...

Hündür çardağımız vardı, dirəklərində boyumu ölçə-ölçə yaşadım, amma heç yanına əlim çatmadı... Altdan yuxarı baxa-baxa qaldım... Tən ortasında baca vardı, nənəm altında ocaq qalayıb sac asardı... Ocağın əvvəlində tüstü qatı, bulanlıq olduğuna görə yola bənzəyərdi. Yol kimi burula-burula qalxıb düz bacadan çıxardı. Dostum da elənçikdi... Tüstü kimi qalxır, odu eey, boyu hardadı. Amma bu gün başına papaq qoyub...

– Əlini ürəyinnən götür, – deyir.

Altdan-yuxarı ona baxıram:

– Bilirsən, – deyirəm, – papaq boyuvu saxlayıb, üstüvü örtüblər elə bil. Başın açıq olanda yuxarılara daha çox gedirsən, uzanırsan elə... Bacadan çıxırsan daa...

"Hə, bu da mənim qanacağım, danışdığım sözə bax bir..." Dostum heç nə demir, dinməz-söyləməz dönüb gedir. Daha doğrusu bir şey anlamır.

Mən çardağımızın bacasınnan çıxan tüstünü xatırlaya-xatırlaya onun ardınca baxıram. Elə bil ürəyimin yerini indi bilmişəm, əlimi üstünnən götürə bilmirəm, sinəm açıq kimidi. Götürsəm soyuq dolacaq içəri. "Gör necə çalışırmış yazıq, gör nə işlər görürmüş..." Ürəyimdə ürəyim haqda deyirəm. "Nə isə... Başımı qarışdırmalıyam, unutmalıyam ürəyi-zadı". Pikassonun əsəri yadıma düşür. Bir kişidi, ürəyi sinəsindən quzu şəklində başını çıxardıb mələyir. Daha da kədərlənirəm. Kişinin sifəti yadımda deyil, amma quzunun üzü bütün cizgilərinəcən yadımdadı... Hər halda quzu deyil, ürəkdi başını çıxardıb.

İçim silkələnir. Bircə bilsəydim gözüm açıqdı, yoxsa yox...

Qonşunun səsini eşidirəm:

– Yox ee, sağlam adamdı sənin atan, noldu axı birdən-birə?!

Qonşunun səsi yaddaşımı cırmaqlayır. Bu səs araq istəyir əslində... Doğrudan da dumanlı havalarda çəpərin bu üzünnən şıqqıltı eşidən kimi başımı çıxardıb səslənərdi:

– Qonşu, hava deyir, diliu ver...

Sonra bıçaq görürəm, qonşudu bıçaq oynadır gözümün qabağında... Bir neçə badədən sonra sümük saplı bıçağını çıxardıb öpüb gözünün üstə qoyacaq:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bizim küçənin bıçağıdı, – deyəcək... – Milis tapa bilmədi, evdən-evə, əldən-ələ gizlətdik, indi məndədi.

Arağın son anlarında, yəni, ən son badəsində birdən hönkürüb ağlayacaq:

– Mən neynim ay qonşu, – deyəcək, – yaxın durmur mənə... Deyir iyrənirəm sənnən. Mən daha çox bu bıçaqdan utanıram, – deyəcək. – Heç kəsi öldürə bilmirəm, ay qonşu... Heç özümə də gücüm çatmır...

Ağlayır... Bayaq ağlasa içə bilməyəcəyi üçün ağlamaqdan çəkinirdi, indi əlini-ayağını boşaldıb gözünün yaşını axıdır. Mən bu boyda göz yaşına məəttəl qalmışam. Göz yaşı o qədər çoxdu ki, yalana oxşayır, daha doğrusu, suya. Ona görə də mənə təsir eləmir... Oturub fikirləşirəm... Belə adam başqa harda böyüyə bilər, görəsən? Ata-anası olubmu? Olubsa, bu niyə bu gündədi? Millət bunnan ibarət olsa bir ay da yaşamaz. Ağlında, düşüncəsində o qədər uyğunsuzluqlar, boşluqlar var ki, vahimələnirəm. Elə bil yanmış düzənlikdi, yiyəsi-zadı yox, kim istəsə üstünə çıxa bilər. Deyirəm:

– Sən heç məktəbə getmisən?

Deyir:

– Niyə, oxumuşam, necə bəyəm?

Deyirəm:

– Heç!

Sonra da milli boşluqlarımız haqda düşünürəm. Yəqin mənim özümün də istədiyimi ala bilməməyim varlığımdakı boşluqlardandı...

Nə isə, qonşu gözümün qarşısındaca dəyişib, adam kimi də yox, bütöv bir millət kimi haldan-hala düşür, xasiyyətində, xarakterində bilmədiyim, yabançı dil kimi anlamadığım düyünlər əmələ gəlir, bütün hay-küyüylə üstümnən keçir, elə bil qara kütlə ayağı altda qalıram...

Beləcə, qonşuyla bağlı xatirələr ağrımnan betər əzir məni. Yaddaşımı qopardırlar, səssiz qışqırtılar, çağırtılar qulağımı batırır...

Hardansa düşüncəm boyu uzanan ağ əllərə üzümü sürtmək istəyirəm. Onu xatırlayıram, barmaqları ot qırpırmış kimi yaddaşımnan cücərtilər dənləyir...

Off... ağrılarımı alır, partlamaq istəyən damarlarımnan ağrımı götürür... Səsini eşidirəm, səsi qulaqlarıma gəldiyi üçün elə bil qaranlıq otaqdan işıqlı aləmə çıxıram.

Bir-birimizə dolaşa-dolaşa siqaret çəkirik... Haradı, heç bilmirəm... Uzun ağ bədəni qaranlıqlardan, daha doğrusu, yaddaşsızlığımnan ağ şüa kimi keçir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Şüşə sındırmaq istəyirəm... – deyir, birdən-birə. Gözlərini yumub inildəyir.

Onun mənə vurulmağını hərə bir yana yozur. Əslində içində olduğumuz mühit vurulmağın nə demək olduğunu anlamır artıq... Ona görə də qadınlı-kişili hamının gözündə məəttəl qalmaq var. Əgər pula bağlıdısa mənim nə pulum var ki. Yan-yörəmin əli elə bil cibimdədi, bilirlər ki, içində bir şey yoxdu. Amma O, məni görəndə hər şeyi unudur, uçur elə bil, yan-yörədə nə varsa əyə-əyə, əridə-əridə heç eləyir.

Bilmirəm, vurulmağın nə olduğunu heç olmasa kənddə-kəsəkdə anlayan varmı? Hər nə isə... izah olunacaq bir şey deyil. Vurulmaq bu gün belədi, sabah elə...

"Bunu bil, xalq rəssamı, kafedra müdiri, bilməlisən, bil!"

* * *

...İki nəfərik, biri dediyim xalq rəssamıdı, bir də mənəm. Tələbələrin qrafika üzrə kurs işlərini qəbul etməliyik. Üç qızdı əllərində kurs işləri, sinif otağının o başında gözləyirlər... Birinin içinnən-içinnən dingildəməyi elə gennən bilinir. Əndamlı, amma arıqüzlü, incəbelli qızdı. Elə bil bir qab suyu titrədirlər, üzü-gözü su kimi axır, axır, dözə bilmir, bir-iki addım irəli çıxıb təzədən yerinə qayıdır.

O biri qızın üzünnən-gözünnən yorğunluq yağır, dindirsən dava eləyəcək elə bil. Uzun qolları asılqannan asılmış kimidi. Əllərini görən kimi çəkdiyi işə baxmaq istədim... İri əlləri var. Nədən çəkə bilər? Üzündən-gözündən heç nə hiss edilmir. Əlləri işdən qayıdana oxşasa da yan-yörəyə qaraqabaqlıq yayır...

Üçüncü qız... O birilərinnən bir baş yuxarı, ucaboy, ağbəniz, boynunu günahkarcasına bükmüş, pəncərədən bayıra baxır. Mənə elə gəlir ki, çağırsaq da dönməyəcək. Yana dartılmış qıyma gözləri yaşlıdı elə bil. Çox dincdi, ağ üzünün cizgilərinnən, – bu nədi eh, – ifadəsi oxunur.

Bütün bunlar birdən-birə məni darıxdırdı. Dönüb əsəbi halda xalq rəssamına baxdım. Xalq rəssamı tərliyib, əməlli-başlı su içindədi. Sulu-sulu gülür özü də. Hə, arıqüzlü, əndamlı qız bayaqdan elə onun gülməyinə görə dingildiyirmiş.

Mən də gülümsədim... Sıyılıb ərintiləmiş rəssam əmiləri görüb bayaqdan yerindəcə su kimi ləpələnən qız birbaşa xalq rəssamının gülüşünə doğru yeridi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Yaxşı işləmək olar, – dedi xalq rəssamı, yarıpıçıltıyla, – fikir ver, qızın üzünün arıqlığıyla əndamı necə ayrıdı. Amma ayrı-ayrı olsa da... gör necə uyğunluq var... Əsil sənət əsəri...

Qız işığa gəlirmiş kimi masanın yanından da ötüb lap başa çıxdı.

Mən özümnən asılı olmadan qışqırıram:

– Qayıt yerinə! – Buna bax, ağzımıza girəcək indi.

...Hə, həmin bu an ağ, ucaboy qızın mənə vurulmağının tarixçəsidi. Bir az keçəcək emalatxanamın bir küncündə üzünnən-gözünnən aşıb-daşan sevinciylə deyəcək:

– Bax, siz ki, o qızı yerinə qaytardınız onda mənim ağlım başımnan çıxdı.

Uzunsov, qonur gözlərini mənə dikdi. Gözləri sevinclə dolmuşdu.

– Gəl, – dedim ona acıqlı-acıqlı. – Gəl, göstər görək, sən neynəmisən.

Bir-iki addım yaxınlaşıb işini lövhədən asdı. Üz-gözündə həyəcan yoxdu. Amma niyəsə dörd yana boylanır. Elə bil tanımadığı adamı qarşılamağa çıxıb.

– Bu nədi belə? – Xalq rəssamı, doğrudan da bir şey anlaya bilmədi, gözlüyünü düzəldib boynunu lövhəyə uzatdı.

– Atdı?! – Mən soruşdum.

Sonralar, yəni bir-iki gün keçənnən sonra, emalatxanamın yarıqaranlıq küncündə deyəcək:

– Doğrudan da elə bil içim atla doludu. Ha çəkirəm ürəyim boşalmır.

İndi də emalatxanamın həmin alaqaranlıq küncünə çəkilib pıçıldaşırıq. O, işıq seli içindədi, işıq seli içində yellənir astaca-astaca...

– Görərsən, – deyir, – heç nəyə baxmayacam, nə boyuva-buxunuva baxacam, nə oğul-uşağıva, evlənəcəm səninlə.

– Yaxşı görək, qorxulu-qorxulu danışma... – deyirəm.

* * *

– Bəlkə yıxılıb?

Qonşudu əl çəkmir, yüngülcə silkələyir məni, düşüncəmdə, yaddaşımda nə varsa hər şey tərpənir. Qonşu taxtın harasında oturubsa ora əyilirəm... Həm də ayılıram yavaş-yavaş.

– Araq verin ona! – Aha səsim çıxdı, danışdım, deyəsən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Addım səsləri harasa getdi, sonra da qab səsi gəldi: lük, lük, lülük, – hə, süzdülər.

– Sənin papan yaxşı kişidi... Onun sağlığına.

Mən yamyaşıl tərxun arağını xatırlayıram, onlitrlik bir qabda rayondan göndərmişdilər. Hamısını da qonşuyla bir yerdə içdik. Evin bir küncünə qoymuşdum. Qonşu gələn kimi əlini küncə uzadırdı. İndi küncdəki araq deyil, su motorudu, hovuzun suyunu vururuq aradabir, üstünə də həmin palazı salmışam. Qonşunu da çaşdıran budu.

– Deyirəm qurbağaya dəymək olmaz, qurbağa qarğış edəndi... Sənin atan hovuzun suyunu çəkib tökür qırağa, mələdir qurbağaları. Bəlkə yıxılıb?!

Başımın içində sancı dolaşır, ağrının get-gedə yayıldığını hiss edirəm, yayılır-yayılır, məndən uzaqlaşır... Yaxşı ki, uzaqlaşır, dözmək olmazdı yoxsa...

– Qu-rr, qıgıtt...

Qurbağa başladı yenə, görünüşündən də vahiməli bir səslə, deyingən, əsəbi. Tayını çağırır, cırır özünü, sonra da söyür elə bil... Tayları da axışıb gəlməkdədi... Biz, hovuzun dörd yanını kəsmişik. Hovuza düşməyə qoymuruq, qurbağa dənləyirik yerdən.

Mənim dəzgahım quruluca ağacların arasındadı...

Mikrafon önündə çıxış eləyən iri bir qurbağa işləmişəm, o da yarımçıqdı hələ. Yalnız ağzı tamamlanıb... Qurbağa ağzı. Gərək elə işləyəm ki, baxan kimi qurbağanın səsini eşidələr.

...Qarşıda ucu-bucağı görünməyən bataqlıq, bataqlıqlar boyu qaraltılar, kütlə anlayışında... Amma bu fikirlərimi ala bilmirəm, barmaqlarım isinmir, soyuqdu. Ona görə də işlərim həmişə beləcə, yarımçıq qalıb... Mən artıq özümə inanmıram.

Hovuzun bir küncündə dayanıb suya baxıram... Su köynək kimi dəyişib, təzədi. Bir saat qabaq belə deyildi. Gün başqa səmtdən düşdüyünə görə ala-buladı. Rəngi elə qatıdı ki, dibinin olduğuna ağıl kəsmir, göy üzü kimi sonsuz... Bu da darıxdırır məni. Elə bil əsəblərimdi yığılıb, sıxılıram...

Özüm də hovuz kimiyəm, sıxıntı içində bir hovuz su, dibi tərpənməz girib qarışdırmasan. Yel əsər, yalnız üzü ləpələnər... Hovuz tikəndə dedim, yer enişdi, enişi götürməliyik. – Yox, – dedi, usta. – Belə yax-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şıdı, əyrini su özü düzəldəcək. İndi hovuz əyridi, su düz. "Güzgü əyər, ülgü düzəldər" usta əyib, su düzəldib.

Ustaya sağ ol, deyirəm ki, hovuzun suyuna iş yeri qoyub, su daha çox əyrini düzəltməyilə görünür.

Hə... İndi bütün bu düşündüklərimi necə işləyim, necə gətirim, necə köçürüm tabloya. Hər halda mən gərək yazıçılıq eləyəydim. Roman yazaydım gərək...

Ağacın altında quruluca qalmış malbertimdəki yekəağız qurbağa indi elə bil gülümsəyir... Günün əyilməsindəndi deyəsən. Mən onu belə işləməmişdim axı. Yaxınlaşdım. Günün işığındanmış... Qulağının dibinəcən dartılmış nazik dodaqları hədəylə, kinlə dolu, yarıaçıqdı. Hə, sonrasını elə-belə də işləyim; dombalıb təpəsinə çıxmış gözləri gülür.

"Gözünnən gülmək ayrı şeydi, xalq rəssamı, bunu da bil!"

Qurbağanın özü bütöv görünsə də ayrı-ayrıdı, yəni, cizgiləri bizim havamızdadı, şəffaf... Elə-belə də işləyəcəyəm, yəni qurbağanın özü yoxdu, görüntüsü var. Qarşıdasa, yağlı qurbağa köksü altında ucu-bucağı görünməyən düzənlikdi. İlk baxışdan ətrafa rahatlıq, dinclik yayılır. Əslində düzənlik deyil, üzü yarpaqlarla, ot-əncərlə örtülmüş gölməçəlikdi... İndi buyur, qələmdi, fırçadı, hər nədi götür, düşündüyün kimi işlə. Elə işlə ki, bütün bunları kütlədən keçirə biləsən. O gölməçələrdə qaynaşan, çırpınan, batmaqda olan, amma batmayacaq izdiham... Hə, işlə, çək görək.

– Uuuu... – qışqırıram. Bağda heç kəs yoxdu, səsimə yiyəsiz evlərin göyərçinləri uçuşur. Bir ahənglə uçmaqları, havada qəribə avaz yaradan qanad səsləri məni dəyişib özümə qaytarır. Elə o anda oğlumu xatırlayıram. O gün yığışıb bağa gəlmişdilər.

– Çimərdik, – dedi oğlum, – amma heyif, qurbağa var hovuzda.

– Nolacaq, – dedim, – qurbağa daha da suyu təmizləyir, sərin saxlayır.

– Nə danışırsan, bağrı çatdıyar adamın. Hovuza girmək olar?

– Hə, – deyirəm, – gərək tutaq qurbağanı.

– Elə gəlmişkən hərə bir yannan güdək... Bəlkə tuta bildik.

Hərəmiz bir yana çəkilib güdürük... Mən hovuzun qırağındakı daşın üstündə oturmuşam. İçim bomboşdu, soyuq, təmtək... Nə dünənnən bir şey qalıb əlimdə, nə sabahlara bir ümid var. Beləcə, çeynədim, diddim,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tökdüm özümü, bütün işlərim yarımçıq. Dönüb çəkdiyim qurbağaya baxdım. Yenə gülür, məəttəl qaldım.

– Bunu yaxşı işləmisən, – dedi oğlum. – Bilirsənmi, elə canlı yoxdu ki, balası özünə oxşamasın. – Dedi, kədər içində qollarını irəli uzatdı. – Bax, – qollarını göstərdi, – ətim ürpəşdi, tüküm biz-biz olub. – Əllərini ovuşdura-ovuşdura ağacların arasında dolaşıb yenə qayıtdı. – Fikir ver, qarnınnan çıxan özünə oxşamır... Gör indi özü nədi daa. Böyüyəndə oxşamaq ayrı şeydi.

Oğlumun bu fikirləri məni əməlli-başlı çaşdırdı.

– Görürsən, bu heç ağlıma gəlməyib. Ona görə də havada çəkmişəm, atmosferdə... Hissə-hissə, başı ayağıyla tutmur. Bilsəydim balalarını da çəkərdim...

Təzədən dəzgaha tərəf getdik. Oğlum bir addım qabaqdadı. Niyəsə, yanpörtü gedir. Boynunu əyib aşağıdan yuxarı baxa-baxa yaxınlaşır. O da rəssam olmaq istəyirdi. Beş il əlinnən tutub rəssamlıq dərnəyinə aparmışam. Böyüdü, atdı hər şeyi, indi anlayıram ki, mənə görə rəssam olmaq istəmədi... Rəssamlığı onun gözünnən mən saldım.

– Gözlərini işlə, – dedi oğlum, mənə sarı döndü. – Gözlərini də yox, gözlərinin yerini. Fikir ver, gözlərinin yeri elədi ki, ordan nə desən çıxar...

– İstəyirəm gözlərini gülən çəkim, – dedim.

– Onda hər şey dəyişəcək, o gülüş dəyişdirəcək hər şeyi.

Mən əlimi uzadıb tablonun üstündə gəzdirdim:

– Dəyişsə yaxşıdı. Görürsən, dodaqlarınnan hikkə yağır. Söyüş, kin, hədə. Gözlərisə gülür. Deməli, həm də bicin biridi.

– Nə bilim, bax daa...Ola bilər.

...Nə isə, hamı gedib, yenə təkəm, hovuzun qırağına uzanıb gözləyirəm. Görəsən, nə qədər qalır bu, suyun altında. Öyrənəydim gərək. Bu darıxdırır məni, elə bil suyun altındakı mənəm, darıxıb başımı çıxardıram... Odu, ayaqları görünür, başı küncdədi, başı batsın onun, belə yaxın olacağıma heç inanmazdım... Arıq, uzun, əyri ayaqları var; əyrimcə. Başı bir cür, ortası ayrı cür, ayaqları da budu, göz qabağında, quş ayaqlarına oxşayır. Ona görə deyirəm ki, yarananda da uyğunsuz yaranıb, yığmadı elə bil.

Qarnı üstə sürünüb yaxınlaşıram, cəld əlimi suya salıram ki, tutam, əlimnən çıxır. Yanıb-yaxılıram, üstəlik dizlərim də sıyrılır, qan içindədi. Oğul-uşaq görməsin, suyum süzülə-süzülə bağın o başına gedirəm. Yox,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çimməyəcəklər, nə deyirsən de, istəyirsən zooloq-bioloq çağır, radioda verilişlər ver, xeyri yoxdu, qurbağayla bir yerdə çimməyəcəklər".

Əh... soyunub özümü hovuza atdım... Şırr-şarapp...

Hamı hovuzun başına axışır. Gülüşürlər. Oğlum yaşından yaşlı, çiyni qalxa-qalxa, gəlinim utana-utana, qarım – arvadım yəni, içində gülür, gizlin-gizlin, yəqin fikirləşir ki, qurbağa suda ərinin, yəni mənim, əlimə, ayağıma sürtüşür, ona görə də üzü-gözü yığışıb, qırış-qırış olub.

Nəvəm çır-çır çığırır:

– Baba, qurbağanı tut!

Mənsə qurbağayla bir yerdə suyun altındayam, amma görmürəm alçağı. Mənim nə canım var ki, suyun altında istədiyimi eləyim. Hovuzun sağ küncünə sarı üzdüm... Harda olduğumu, yəni suyun altında olduğumu unuda bilsəm, nəfəs almağım yaddan çıxar.

Qurbağanı fikirləşə-fikirləşə əlimi küncə uzadıram, heç nə yoxdu. Su elə qatıdı ki, elə bil kiminsə, hansı canlınınsa içində çimirsən. Günəşin işığı hovuzun gövdəsinə iynə kimi sancılıb, ordan-burdan... Elə sancılı da qalıb, su tərpəndikcə işıqlar titrəşir. Aşağılarda heç vaxt quruda eşitmədiyim qəribə hənirti var, karlığın hənirtisi... Adama elə gəlir ki, işıqlar səs eləyir, işıqların səsidi.

Harda olduğum yadıma düşən kimi, az qaldı bağrım çatlaya, başımı çıxartdım. Hay-küy qopdu, nəvəm bilmir nolub, atdanıb düşür:

– Ay daa!..

– Uraa!..

– Ata, nə çox qaldın suyun altında, az qaldım ardınca düşəm. – Oğlum belə deyib saatına baxdı, çaşqınlıqla: – Düz altı dəyqə.

– Nə? – Mən təntimiş halda soruşdum. – Altı?!

Oğlum əllərini yana açıb saatı bir də göstərdi:

– Vallah!

Hovuzun bir küncündə oturmuşam, suyum süzülür. Elə bil gün vurur, mən də əriyirəm... Havasız qaldığıma görədi nədisə, içim yüpyüngüldü...

"Altı dəyqə, doğrudu görəsən?" Suyun altındakı fikirlərimi bir də xatırlayıram... Elə bil hovuz deyil bətndi, ana bətni... "Bəlkə belə bir şey işləyim... Altı dəyqə..." Özümü inandırmağa çalışıram, həyəcanımnan nəfəsim təngiyir.

Günün istisi belimnən elə vurur, doğrudan da elə bil ipə sərmişəm özümü, isti dərimnən paltarımnan keçirmiş kimi keçir. Gərnəşmək



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

istəyirəm, – uuxx!.. – İndi içim işıqlanıb yəqin... Günün solğun işıqlarıyla aydınlanmış suyun altını gördüm təzədən...

Niyəsə İrana səfərimi xatırladım. İranın içiylə də beləcə, hovuzun dibindəki kimi səssiz-səmirsiz keçirəm. Günün günortaçağı elə bil işıqları azaldıblar, yəqin qız-gəlinin çadraya bürünməsinnəndi... Hovuzda olduğu kimi orda da sağa-sola dönəmməzsən. Bütün görüşlər, baxışlar hovuz suyu təki qatı rəng içində, sıxıntılıdı. İşıq yalnız üzündə oynayar, dərinə endikcə dibi yox, qorxulu, sonsuz... Avtobusda da elə bil hovuzun içindəyəm...On nəfərik, Məşhəd şəhərinə məşədi olmağa gedirik. Sürücüdü, bir də köməkçisi. Sürücüyə sarı uzanmışam:

– Necə ola bilər ki, Ərdəbildən olasan, türkcə bilməyəsən, – azərbaycanca.

– Yox, bilmir, – deyir köməkçisi, onun sözlərini tərcümə eləyir.

– Yalan deyirsiz... ikiniz də.

Yanımda oturan ətəyimnən dartır.

– Əşi, gəl bəri, eh, bilən günü olmasın heç, ordan bura İranı düzəltməyə gəlmisən?!

Dartınıb:

– Yox, eey, sən bilmirsən, qıza-gəlinə göz qoyur bayaqdan.

Sürücü dinib danışmır daha, indicə köməkçisiylə deyib gülürdü. İrana gələn kimi başlarını örtmüş qadınlarımız bu sözü eşidib elə bil nəyisə axtarmağa başladılar. Sürücünün güzgüdən göz qoyduğu gəlin başını yarıyacan açmışdı. Mən belə deyəndən sonra qanrılıb doluxsunmuş gözləriylə mənə baxdı. Nəsə demək istəyirdi ki, avtobusu saxladılar... Bilirdim nə deyəcək, yəni sənə nə var, kim baxır, kimə baxır, əcəb eləyir baxır, yaxşı eləyir baxdırır. Təxminən belə...

Qapı açıldı, bir nəfər avtobusa qalxdı, fars dilində nəsə dedi. Sonra arvadlı-kişili beş-on adam da içəri keçdi. Sürücünün köməkçisi elə oturduğu yerdən azərbaycanca:

– Bunlar da sizinlə gedəcəklər, – dedi.

Arxada xeyli boş yer vardı, amma onlar arxaya keçmədilər. Örpəklərinin altında nəsə deyib başımızın üstündə durdular. Tərcüməçi üzünü bizə tutub:

– Siz zəhmət olmasa keçin arxaya, bunlar qabaqda oturmaq istəyirlər, – dedi.

Mən ayağa durub arxanı göstərdim:

– Keçsinlər, otursunlar, gör nə qədər boş yer var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fars arvadları az qaldılar bürüncəklərini çıxardıb atsınlar, silkələnə-silkələnə çığırışdılar. Sürücü sükanın arxasında başını salıb susmuşdu. Köməkçisi onları sakitləşdirə bilmirdi. Mən çaşmış halda:

– Nolub, – dedim. – Nə istəyir bunlar? – Bir-iki addım tərcüməçiyə tərəf getdim. – Nə deyirlər?

Bizim dəstənin rəhbəri ayağa durub onları dilə tutmaq istədi. Onu elə yerindəcə oturtdular. Mən yerimnən qışqırdım:

– Nə istəyir bunlar?

– Deyirlər biz türklərin arxasında oturmaq istəmirik.

Hələ bayaqdan sürücünün baxışları altında başını yarıyacan açmış qadın bunu eşidən kimi yerinnən dik qalxdı:

– Nə? Atasına ər deyən düşük mənim arxamda oturmaq istəmir? Bu oğlunnan yaşayan, oğluna arvaddıq eliyən qaraçı belə qudurub?!

Bizim dəstədəki arvadların hamısı ayağa durdu...

– Buna bax, ağəz!

– Düş görüm, düş yerə!..

Yolboyu səsini eşitmədiyim yekəpər arvad bir neçəsini qapıya sarı *sıxışdırdı.*

Mən ölümnən qurtarmış kimi xoşbəxtəm, başımı söykənəcəyə qoyub gözlərimi yummuşam. Ayaq səslərinnən bilirəm ki, avtobusdan enirlər. Gözlərimi açanda yox idilər artıq. Sürücü qanrılıb mənə baxırdı, gözləri sevinclə, gülüşlə doludu. Mən də gülümsədim... "Bax, belə danışdırırlar adamı".

İran səfərimnən yadımda buna bənzər çox şeylər qaldı. Amma bu haqda heç nə işləyib çəkə bilmədim. Əlim işdən soyudu... Nə kiçik Midiya, nə böyük Midiya, nə Manna, nə Səfəvilər... İzi-tozu yoxdu, heç nə qalmayıb. Orda gördüklərim tikan kimi vaxt keçdikcə daha çox incidir məni. Mənə elə gəlir, bu haqda heç düşünən yoxdu, düşünən olsaydı, yəqin ki, biz bir az başqa cür görünərdik, daha doğrusu, bizi görərdilər, deməzdilər ki, biz türklərin arxasında oturmuruq.

İrandan qayıdannan sonra mənə elə gəldi ki, biz çox gülürük. Bütün gülənlərimiz də yersiz gülür. Ağlayanlarımız da düz ağlamır, boş yerə ağlıyırlar. Bir il beləcə, özümə yer tapa bilmədim. Dost-tanış xəstələnib dedilər. Kimə yaxın gedirdim aralanırdı. Vahimə, qorxu bürümüşdü içimi. İranla bağlı heç kəsin yadında heç nə qalmayıb. Əslində də adamı diri saxlayan yaddaşdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sən bir az çox danışırsan, Şurəvi.

Sürücünün köməkçisi barmağını üzümə silkələdi.

– Şurəvi nədi deyirsən?

– Yəni, bura Şurəvi deyil səninçün.

– Elə Şurəvidi, – dedim. – Şurəvidən də pisdi. Gördün, necə yıxıldı?!

Sürücünün gözü məndədi, üzü-gözü sözlə, gülüşlə doludu, gözlərinin dərinliklərində məni anlamaq istəyi dolaşır. Mən də gülümsəyirəm. Mənimçün əsas olan məni anlamağa çalışmaqdı. Demək hələ ölməmişik, heç olmasa gözlərimizləcə danışırıqsa, demək yumruqlarımıza yer var hələ.

İrandan qayıdandan sonra elə bu bağ evindəcə bir neçə süjet işlədim... Çadraya bürünmüş yumruqlardı, izdiham şəklində bizə baxır.

Əsəri görüb çox tərifədilər. Sonra çadralar işlədim, ucu-bucağı görünməyən ala-bəzək çadralar, başqa heç nə yoxdu. Elə bil dəniz dalğalanır, bir də çadralardan çıxmış əllərdi, uzaqdan qağayılara oxşayır... Belə, başqa nə işləyim, öz-özümə hirslənirəm, az qalıram yenə əlimdə nə var çırpam yerə... Nədi bu, fikirləşməkdən çərləmişəm. Bir dənə əsəriylə klassik olan var. Özümü öldürməknən deyil ki, hə, vur öldür!

O vaxtdan bağda yaşayıram... Hər halda həyat tərzimi dəyişdim, budu, heç kimi görmürəm, demək olar ki, adam yoxdu... Göy üzüdü, buludu olanda deyirsən, köçür hər şey, sən də bulud axınına qoşulub çıxıb getmək istəyirsən. Amma çox vaxt göy üzü buludsuz olur, baxırsan, göz işlədikcə genişlik... elə bil çağırırlar səni, sevinirsən ki, göy üzünə qarışmış haldasan.

Adamlar məni talayır, hərədən bir eyib tapmağım gücümü tükədir, mənə elə gəlir, düz yerimirlər, bu da tək insanların yox, şəhərin əyri görünməyidi. Danışıqlar bir kökdə olmadığınnan şəhərin səsi əsəbilik yaradır... Baxırsan tamah üzə-gözə çıxıb, elə bil torpaq, yer göz gətirib... Ona görə də ayağım altdan yer qaçır... Üzlər-gözlər, hərəkətlər yalan içindədi.

* * *

Türkiyəli bir yazıçı dostumla şəhəri gəzirdik. Küçənin o başınnan çıxan izdihamı göstərdi:

– Bax, o ikisi türk, – dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Əvət, – dedim, – həpisi türk, həpimiz türk. – Dedim də əslində bir olan bu iki dil arasındakı fərqdən qorxdum.

– Xayır, – dedi, – o ikisi osmanlı türkü...

– Yapma, ya, – dedim.

– Bakalım...

Yaxınlaşdılar. Doğrudan da osmanlı ləhcəsində danışırdılar:

– Nədən, nərədən bildin?

– Bizimkilər öz yerişlərini yürüməzlər, – dedi.

– Aha, aydın oldu, – dedim. – Onlar keçmişin yerişini yeriyirlər. İmperatorluq devrimizin yerişini.

O gülümsədi... Dönüb onların ardınca baxdıq, doğrudan da o boyda kütlə axınının içində seçilirdilər.

– Yox, – dedi, – imperatorluq çağlarının yerişi deyil... Bu cür ədayla imperatorluq yapılamaz. Bu adamlar talançıdı, keçdikləri yerlərdə yaxşı nə varsa alıb aparарlar. Bu yerimək heç vaxt qayıtmaz, iz qoymadan gedər, gedər elə.

Yadımdadı, o vaxt mən bir gürcü dostumu xatırladım...

Şəhərə çıxan kimi özünü yığışdırırdı, elə bil böyük bir məclisin qapısından içəri girirdi.

– Otari, – dedim, – sən şəhərə çıxanda səsini dəyişdirirsən, tamam ayrı cür danışırsan. Niyə?!

– Mən, – dedi, – yerişimi də dəyişdirirəm. Çünki, mən şəhərə çıxıram, gürcü şəhərinə... Bunları bizə orta məktəbdə oxuyanda müəllimlərimiz deyib.

"...Bizə heç nə deyilməyib. İndi anlayıram ki, bizim orta məktəblərimiz həm də bizi məhv eləmək üçünmüş".

Bu ağır yorucu düşüncələrdən ayılıram; bayaqdan badam ağacını qucaqlayıb donub qalmışam... Neyləməliyəm başqa, rəssamam da. Görürsüz ki, nəyi qoyub, nəyi axtarıram. Bütün bunların heç mənə dəxli varmı ki?! Əslində elə şeyləri düşünməliyəm ki, tabloda işləyə biləm. Ona görə də arada qalmışam.

– Qəribə adamsan, gör neçə gündü nəyin üstündə çalışırsan... Qurbağa! Yaxşı, baxan sənə nə deyər? – Oğlumdu, əlini tablodakı qurbağaya tuşlayıb. – Hə, qurbağa, hansı xarakteri ifadə eləyir? Bununla nə demək istəyirsən. Bildik, bildik ki, hovuzda qurbağa var, onu çıxarmaq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lazımdı, çıxarmasaq bu bağa gələn olmayacaq. Bu nədi bə? – əlini təzədən tabloya uzatdı.

– Cırma, cırma! – Mən özümdən asılı olmadan qışqırdım, elə bildim doğrudan da cıracaq.

– Əh!.. – Oğlum əlini yelləyib çıxıb getdi.

Oğlumun mənimlə belə böyük-böyük danışmağı xoşuma gəlir. Uşaqlığınnan belədi, belə açılıb, qatınnan belə çıxıb. Kişi qırığı!

Kimsə deyir:

– Vallah, bu ölümnən qayıdıb!

Səsi tanıya bilmirəm, alnımda əl gəzir... Mən geniş bir düzənlik boyu şırım görürəm.

– Özünə gəlmir, heç?!

Fikirləşirəm ki, hər kimdisə niyə "ölüb" demir, "ölümnən qayıdıb" deyir. Hələ də anlamıram, ölmüşəm, ya ölməmişəm.

Araq iyi dəyir üzümə. Onun şabalıdı saçları kimi üzümü-gözümü yüngülcə yalayıb keçir, canımın lap dərinliklərində sancı dolaşır.

– Ay oğul, a bala, bunu xəstəxanaya aparmaq lazımdı!.

Bu səsi də tanımıram... Bütün səsləri-küyləri başımnan atmaq istəyirəm. Düşüncəmə, yaddaşıma qayıtmaq istəyirəm. Heç nə alınmır. Özümü yığışdıra bilmirəm. Axıntı, ərinti kimiyəm, əriyib altımda, üstümdə nə var onun şəklini almışam. Ona görə də öz ağzımı əyri görürəm, əriyib yanlara axmış kimi...

– Yenə özünnən getdi, yazıqdı götürün, həkimə aparın!

– Oğlu indi həkim gətirəcək.

– Nolub buna, bilən yoxdu?

– Yıxılıb...

Qonşunun səsini tanıdım. Səsində elə bil rənglər – boyalar bir-birinə qarışıb, qatılaşıb.

Ona görə də ağzınnan çıxan kimi beynimə yapışdı, "yıxılıb..."

Mən qonşunun uzanıb göyərmiş üzünü xatırlayıram... İçib, necə lazımdı elənçinikdi. Bir az rahatlaşıram, içimdə ayaqlarımı uzadıram... "Oy, nə yaxşı..."

Mən yaddaşım boyu yıxıldığım anı axtarıram. Başıma elə bil təzədən vururlar... "Gupp!.."

Ağlasığmaz bir sürətlə qaranlıq boyu yol gedirəm, niyəsə sevinc içindəyəm; yüpyüngül... Özəyimnən aralanıram.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bayaq hərə bir yerdən qurbağanı güdürdük. Biri evin küncünnən, biri pəncərədən, biri ağacın dalınnan. Oğlumun tulamazlısı – ağacı, yəni açıldı, qurbağa göyə qalxıb, təzədən hovuza düşdü. Heç nə... Qorxusunnan atdanıbmış, üzüb dərinə gedir.

Gözləməyə heç kimin səbri çatmır. Yavaş-yavaş dağılışırlar. Pəncərədən güdən pəncərəni, ağacda güdən ağacı sındırıb. Bağda ilxı gəzib elə bil.

Fikirləşə-fikirləşə gözləyirəm. Hər halda çıxacaq qırağa, quruya olmasa da, hovuzun qırağına çıxacaq ki...

Neçə gündü qurbağa başımı elə qatıb işimnən-gücümnən qalmışam. Daha doğrusu, iş də deyil, nədi, heç özüm də bilmirəm...

Başını sudan çıxardıb iməkləyir. Elə bil üstünə bürüncək atıb, qarnının altıyla beli ayrı-ayrı şeylərdi.

Qorxduğu bilinməz, necə var eləcə... qaçar gizlənər, üzü-gözü dəyişməz.

Kənddə olanda heç fikir verməzdik. İndi onun sudan çıxmağını gözləyə-gözləyə bu haqda düşünürəm... Kənddə hərənin öz yeri olsa da qurbağalar hamıyla bir yerdəydi. Suda qurbağa olar daa. Nə qurbağanı qovan vardı, nə fikirləşən vardı ki, niyə bunun dərisi belədi, skafandra oxşayır, hissə-hissə, ayağı ayrı, başı ayrı.

"Əsəbdəndi hamısı" – bu fikir ağlıma batdı... Səs-küydən əsəb içindəyik hamımız... Hə, bir az da kasıbçılıqdandı".

O gün müəllim dostlarımnan biri, daha doğrusu, artıq tanıdığımız xalq rəssamı başıma gülürdü. Elə orda anladım ki, pulu çoxdu, ona görə gülür. Heç kəsə pulsuz qiymət yazmaz. Həmin pulu da dingildəyən qız yığmışdı. Xalq rəssamının kefi kök idi. Pulu çox olan üçün qurbağayla göyərçinin fərqi yoxdu.

– Qurbağanı tutsan gətir mənim bağıma burax.

Mən də qurbağanın şəklini işləyəndə bir az ona oxşatmışdım, xalq rəssamına. Qalxıb tabloya tərəf getdim. Hə, oxşayır... Dostum qurbağanın gözlərinnən baxıb gülümsəyirdi...

– Heç o məsələni soruşmursan, demirsən noldu?

*Soğulub yalnız bəbəyində işığı közərən gözləri yenə altdan-altdan* gülür. Bilirəm kimi deyir, kurs işlərinin qəbulu günü yerində dingildəyən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qızı deyir. Dinmirəm... Uzunbarmaqlı əllərini öz canında gəzdirirmiş kimi dolandırıb dodaqlarının üstünə qoyur, öpüb elə bil üstümə tullayır...

Üz-üzə oturmuşuq. Hirs içindəyəm. Birdən-birə anlamışam ki, əslində mən xalq rəssamının pulunun, evinin, maşınının, katibəsinin paxıllığını çəkirəmmiş. Qərara da gəldim ki, elə əvvəldən paxıl adamam. Millətçi olmağım da paxıllıqdandı... Paxıllıqdan olmasaydı, mən də qara camaata qoşulub qışqırardım: "Aa-zadlıq! Aa-zadlıq! Bambılı! Bambılı! – Sonra da. – İstefa!".

O da yadımdadı ki, günlərin birində kütləylə üz-üzə çıxdıq:

– İstefa! İstefa! Azadlıq!

– Gəl biz də düşək! – Qız əllərini mənnən çəkib, uzun paçalarını yığışdırdı. – Qarışaq onnara!

– Dəlisən?! – dedim.

Pəncərədən başını çıxartdı, vilvet şapkam yenə başındadı, əlinə götürüb yellədi.

– İstefa! İstefa! Bambılı!

Mən maşını dalı-dalı sürürəm... İzdihamın səsi təpik kimi dəyir mənə... Onu da fikirləşirəm ki, bu boyda qarışıqlığın içində bu sahman hardandı görəsən. Maşını saxlayıb baxdım... Xalq deyilən budu yəqin, bəlkə də millətdi, yox millət olmaz, xalq yerişidi bu. Hələ millətə xeyli var. Amma gör, bir yerdə olub, bir sözü bağıranda, bir yeriyəndə xalq nə gözəl olurmuş... Heç kəsi ağa, qaraya ayırmırsan, qohum-əqrəba yox, tayfa yox, yerliçilik yox, bu boyda kütlə, izdiham üz gətirib təbiətin görünüşü kimi öz görünüşü var. Gəlir, elə bil ordan o yana, keçib gəldiyi yerlərdə heç nə qalmır, hər şey ona qoşulub gəlir. Dağ da, dərə də, dəniz də... Onnan irəlidə yalnız yoldu, hər şeyi heç eləyib. Yoldan başqa heç nə yoxdu.

Qız az qalır, özünü atsın maşınnan.

– Bilsəm ki, ayaqlamayacaqlar, dəzgahımı qurub çəkərəm izdihamı.

Qız məni eşitmir, bağırmağındadı...

– Azadlıq!..

Az qalır ürəyi getsin. Bilmirsən ağlayırmı, gülürmü, üz-gözünnən, səsinnən bilmək olmur...

Mən maşını döndərib üzü dağlara sarı sürdüm...

Hıçqırığa dönürəm... Qız yola baxa-baxa ağlayırdı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

– Öldürmə!

– Necə öldürmə?! – Oğlumdu cavab verən. – Hara atırsan at, qayıdıb yenə gələcəklər. Gör necə çağırır, dilə gəlib lap.

Doğrudan da dilə gəlib.

– Qurrr... Qıg-gıtt!

Qulağının dibindən hikkə qaynayır, şişib nə boyda olub.

– Yox, öldürmə, qarğışı pisdi bunların. "Titrəyə-titrəyə ölürsə qarğış eləyir..." Nənəm deyirdi: "Titrəməyi onun qarğışıdı".

Axır ki, çıxdı, o da bezdi sudan, özünü burcuda-burcuda heç nə olmamış kimi hovuzun qırağına yayxandı, özünü günə verir.

...Üzü hovuzadı, bilir niyə elə dayanıb, yəni bir şey olan kimi suya atdana bilsin... Mən ağacın daldeyindəyəm, əlimdə də bayaq dediyim kimi, tolamazlı, gözləyirəm.

Qarım – arvadım yəni hovuzun yanından keçir.

– Suss! – Mən əlimi dodaqlarımın üstünə qoyub balacalaşıram.

– Mənnən qorxmur, – deyir arvadım, ayaqlarını daha da bərk sürüyür. – Ba-ax!

Doğrudan da qurbağanın heç vecinə deyil, az qalır əsnəsin...

– Bilir ki, mən bu işdə yoxam, bu "separat danışıqlarda..." – arvadım belə deyib xırdalaya-xırdalaya gülür... Bir az gedib dönür, qaraşın, yumru üzü uşaq üzünə oxşayır. Baxışlarında məni dərindən tanıdığını bildirmək ifadəsi, yəni yerişiylə, gülüşüylə bütün oyunlarımı bildiyini göstərmək istəyi.

Mən hirs içində dinməz-söyləməz qarımın ardınca baxıram. "Separat" sözünü də bilir niyə deyir, keçmişimi yada salır. Bir də indi dəb düşüb, yerinnən duran belə sözlər işlədir.

Tolamazlını elə sıxmışam ki, əlim ağrıyır.

Arvad bağın o başınnan qayıdır, üzü-gözü sözlə doludu, amma heç nə demir. Bu onun böyüklüyüdü, yəni sözünü dilinin ucunda saxlayar, deməz, ağlamaq istəyər, ağlamaz, hamı qəhqəhə çəkib gülər, o gülümsəyər.

– İstəsəm tutaram, – deyir, yaxınlaşır. – Tutum?

Yoldan çıxıb bir-iki addım qurbağaya tərəf gedir. Denən heç qurbağanın tükü tərpənirmi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Tut, tut, əlini uzat... – deyirəm, boğula-boğula.

– Hə, bir o qalıb ki, əlimi qurbağaya vurum. Tut özün! Qurbağa elə bil anlayır, necə vardısa eləcə, yanpörtü suya sallanır... vəssalam. "Çayda balıq yan gedər".

Hovuzun qırağında oturmuşam, bir anlığa hər şeyi unutmaq istəyirəm, fikrimdə əlimi yelləyirəm: əh...

"...Əslində hər şey bir-birinnən ayrıdı, heç nə bir deyil, hər şeyin mənasında paxıllıq var, Allahın ağacı da bir-birinə paxıllıq eləyir, ona görə də bir deyil heç nə... Mən də heç nəyi bir eləyə bilmədim. Heç istədiyim rəngi də ala bilmədim, əsərlərimnən bilinir elə... İnsan yalnız uzaq olanda birdi. Əslində bir-birinnən uzaqlaşmaq üçün yaşayır. Kim çox uzaqlaşa bilirsə qazancı da o qədər çox olur. Birlik ayrılıqdan başlayır...

– Oxu, xalq rəssamı yadında saxla, bu mənim fəlsəfəmdi".

* * *

– Elədisə, nə işin var sənin camaatın arvadında? – Xalq rəssamıdı, belə deyib bic-bic üzümə baxır. – Mənə də Allah bu yaşımda pay göndərib, niyə paxıllıq eləyirsən?! Əlinnən tutub rəsm öyrədirəm, pis eləyirəm?!

"Bu itoğlu, necə güclüymüş, alə?.."

Başımı qaldırıb boylandım. Gördüm elə bu bağın özündə də hər şey bir-birinnən ayrıdı, baxma ki, arada səs var, baxma ki, hər şey bir-birini səsləyir; bəlkə də bu səslər ayrılıqlar üçündü. Dəymə, qoy qurbağa da özününküləri səsləsin, başına buraxıram... qoy yığışsınlar, mən də oğul-uşağı gücnən yığmışdım...

Dediyim kimi indi oturmuşam hovuzun qırağında şəklim suya düşüb, saç-saqqal basıb məni, ortam olduğundan da yoğun görünür, baxıb məni də qurbağaya oxşatsalar səhv eləməzlər. Bəlkə elə belə də işləyim əsəri... "Qurbağa adam..."

Əlim hər şeydən üzülüb, vəzifə deyə-deyə qaldım. İndən belə nə vəzifə... Onnan ötrü axmaq kimi rusa da evləndim.

– Ay avam, bir ətrafına bax, daa. Kimin arvadı rusdu, vəzifədədi, görmürsən? – Xalq rəssamıdı, belə deyib əlindəki araq istəkanını başına çəkir. – Üç namizədin içinnən Əşrəfi seçdilər, niyə? De da, – özünə yenə araq süzdü. – İç!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Vəzifəyə Əşrəfi qoymadılar, – dedim, – arvadını qoydular, rusu.

– Nə fərqi var.

– Fərqi çoxdu.

Beləcə... xalq rəssamının sözüylə katibəni aldım. Nə vəzifə? Pozğundu dedilər, bizimkilərlə qurtardı, indi də ruslara dadanıb, dedilər.

– O nə təhərdi bəs? – Başını qaldırıb aşağıdan yuxarı göyü göstərir. – Mənimki gözünə görükür, özünnən xəbərin yoxdu. – Xalq rəssamı soruşur. – Uzun qız uzanar, özünə köynək qazanar.

– Neynirsən? – deyirəm. – Alnın gicikir yenə?

Dostum gülümsəyir:

– Hə, – deyir, – bərk vurdu məni. Elə bil kişi əlidi. Heç yadımnan çıxmır. – Əlini alnına çəkir.

– Döyülmək istəyirsən yenə?

– Yox, – deyir, – döyülmək istəmirəm, amma hələ də məəttəl qalmışam, necə ola bilər ki, sənlə gəzən qadın mənə razılıq verməsin. Ona görə də rəqsə dəvət etdim, fikrimi dedim ona.

Gül bayramı keçirilirdi... Baxırdın hər yan gül... Güldən ayrı heç nə görünmür, hər şey gülə qarışıb... Dağlar, dərələr, evlər, binalar yaddan çıxıb. İnsanlar gül bayramının lap diblərində qaynaşır. Güldən seçilən bir odu... Güldən gözəldi.

Hamı şapalaq səsinə döndü. Xalq rəssamı güllərin üstünə yıxılmışdı, amma heç nə olmamış kimi gülürdü, ayağa durdu, əlindəki boynu qırılmış gülü təzədən ona uzatdı...

O, öz şahanə görkəmiylə güllərin arasında dayanmışdı... Elə bil bütün bu güllər, gözəlliklər ona görəydi; hər şey gəlib onda tamamlanırdı. O, mənim yaxınlaşdığımı görüb başını aşağı saldı. Əlinnən tutub özümə sarı çəkdim, aralandıq. Yollar boyu sıraya düzülmüş lalələr, qərənfillər də baş alıb gedənə oxşayırdı...

* * *

On beş-iyirmi ilin sözüdü, zəng gözləyirəm, ona görə də evə-eşiyə sığışmıram, dırnaqlarımın ucundayam. O, zəng eləməlidi, biz çıxıb dağlara tərəf getməliyik.

– Bilirsən nə istəyirəm? – ağzında nəsə var, çeynəyə-çeynəyə deyir.

– Bilirəm, – deyirəm, – bilirəm nə istəyirsən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Dayan, – deyir, – o yox. – Udquna-udquna yalvarır. – Məni ilxı yanına apar, atlara baxım.

Heç nə fikirləşmədən:

– Yaxşı, – deyirəm, – apararam.

Evin pulunu götürmüşəm, arvadın xəbəri yoxdu, amma sümüyünə nəsə damıb.

– Pişiyə oxşayırsan yenə, dingildəyirsən... – deyir, gülür. – Nolub?

Telefon da elə bu vaxt zəng çalır, özümü doğrudan da pişik kimi dəstəyin üstünə salıram. Odu. O:

– Çıxırıq? – deyir.

Qarım – arvadım yəni, çənəmin altını kəsdirib. Mən bir anın içində cildimi dəyişirəm:

– Qarda-aş.

– Nə qardaş? – deyir arvadım. – Səsini eşitmədim bəyəm. Yenə hansı quşlarınnandı?

O, məsələni anlayır, həmin andaca yoğun, yapışıqlı "qardaş" səsi çıxardır:

– Xanımına salamlar...

Telefonu qarımın qulağına tuturam:

– Utanmırsan?!

– Bağışla, – deyir qarım, – neynim, – deyir, – qulağıma arvad səsi gəldi, deyir. Süzülə-süzülə mətbəxə tərəf gedir. Elə ordan, – olsun kişi, – deyir, təzədən, – yenə gedib içib gələcəksən. Vəzifə gözləyirsən özün də...

Əlində soğan mətbəxin bir küncündə dayanıb mənə baxır... Rəngi solub, əyin-başı tökülüb itir. Gözləri iri-iri açılıb üzüaşağı qaranlıq saçır. İçinin qüssəsinnəndi... Mən onun birdən-birə belə dəyişdiyinə məəttəl qalıram. Onu da anlayıram ki, biz "qardaş səsi" çıxartmaqla onu inandıra bilməmişik, hər şeyi gözəl bilir, bilir ki, bütün bunlar mənim quş-quş oyunlarımdı. Ağrı, üzüntü içində olduğu da ona görədi. Amma bir azca qabaq əyni-başı tökülüb itmirdi, üzü-gözü bomboş deyildi. Mənə elə gəldi, həm də titrətmə içindədi. Qaz sobasının üstündəki qazan oyun havasına oxşar ahənglə qaynayırdı, – titrəməyi də yəqin ki, bu ahənglə bağlıdı, – fikirləşdim.

Özümü əsəbi göstərməkdən başqa çarəm qalmadı. Yoxsa çıxa bilməzdim evdən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sən öz işinlə məşğul ol, – dedim. – Elə şeylər sənnik deyil.

Yalannan başlayan əsəbilik gerçəkdən bütün canıma yayıldı...

Evdən elə çıxıram elə bil bir də qayıtmayacam. Əynimi-başımı az qala pilləkənlərdə geyinə-geyinə düşürəm. Görən də deyir, kişi bir dəfəlik getdi.

Maşında gözləyirəm. Gələn kimi vilvet şapkamı başına qoyub dimdiyini də gözünün üstə basacaq, şəhərdən çıxanacan.

Şəhərdən çıxmışıq, O, asta-asta soyunur, yeni üst şeylərini çıxarır. Əlinin biri məndədi yenə, elə bil özünün xəbəri yoxdu, özü sakitdi.

Mən qarımın – arvadımın son sözünü xatırlayıram: "...Vəzifə gözləyirsən özün də", onun belə qayğıkeş, diqqətli olmağına təzədən hirslənirəm. O, birdən-birə:

– At kimi kişnəyə bilirsən?

– Hə, – deyirəm.

– Onda kişnə!..

– Hələ tezdi.

Gen sinəli meşəsiz, yamyaşıl dağdı, heç bilmirəm hara gedirəm, gedirik amma.

* * *

Quzu otardığım vaxtlar yadıma düşür... Dağların başı o vaxtkı kimi indi də dumanlıdı, duman gəlir, göz görə-görə yer-göy sıxılır, nəfəsin daralır, elə bilirsən əl-ayağını bağlayırlar.

– Gördün, duman-çən gəldi, özünü darıxdırma, lap çaşarsan, heyvanı da çaşdırarsan, asta-asta səs elə, qoyun-quzu səsinə yığışacaq, sürüdən aralanma, özü öz yolunu tapıb, gəlib çıxacaq arxaca...

Babam məni yaylaq yerləriylə tanış eləyirdi:

– O dərədən duman-çən çəkilməz... Girmə ora. Otu at otudu, qoyun-quzu otlamaz, ilxı otlayar orda.

Dağları gördüyümə görə hiss-həyəcan içindəyəm. Özüm də bilmirəm nə istəyirəm. Hə... dağı dişləmək istəyirəm. Bağrıma basmaq azdı... Qız indi yadıma düşür. Dönüb baxıram. Əllərini yığıb qoynuna qoyub, dörd yanına elə baxır, elə bil qorxur, elə bil dalınca gələn var. Tamam dəyişib, o boyda adam balacalaşıb. "Dağ sıxdı onu, aldı altına..." Keçmişi dağla bağlı deyil, harda dağ görüb ki... Ona görə də dağın çənli-çiskinli görkəmi onu daha da qapadı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Necəsən? – Elə belə soruşuram ki, sıxıntıdan qurtarsın.

Dinmir...

– Qorxursan?

– Nədən? – Üz-gözü sakit olsa da səsinnən ağlamaqda olduğu bilinir.

– Ərinnən qorxursan?

Dönüb hirsli-hirsli məni süzür:

– Sən də elə onun tayısan.

Duman-çənin içinnən bir atlı çıxır.

– Bu da at!

Atlı bizi görüb çapır, bir deyəndə yanımızda olur. Qız peşmançılıq içində:

– Bu atdan şəhərdə də var, – deyir, – neynirəm bunu.

– Şəhərdə də var? – Soruşuram, dirəşirəm lap.

– Faytona qoşulanlar nədi bəs? Atdı-ı?!

Gülə-gülə atlıya sarı getdim.

– Qardaş, buraların ilxısı hardadı? Bizə ilxı lazımdı.

– At almaq istəyirsiz? – Atlı atdan endi.

“At almaq məsələsini yaxşı yadıma saldı”, canlanıram.

– Hə, – deyirəm, – bir kəhər at almaq istəyirəm.

Atlı qızı görüb özünü itirib, neynədiyini bilmir. Üzünü ata sarı çevirib qızı fikirləşir.

– İlxı dağın o üzündədi.

Atlı bunu ancaq mənə deyir, gülümsəyir. Qıza baxmasa da bilirəm fikrindəki qızdı, ala-seyrək gülməyi də ona görədi.

Çən-duman keçib gedir, sonra da xırdaca yağış başlayır. Maşın qalır olduğu yerdə, biz atlının yanıyla bələni aşırıq, at da yedəyindədi.

– Deyərlər, yağışda at, toyda qız, küləkli havada qoyun bəyənən uduzar. – Atlı deyir.

– Nə? Necə? – qız məəttəl qalır, bu yanımnan o yanıma keçir.

Bu da ilxı... Qız ilxını görən kimi dayanır, əlləriylə üzünü örtür, bir gözləri qalır, dinməz, tərpənməz tamaşa eləyir...

Atlı narahatçılıq içində:

– Bir az keçsə dağdan enə bilməzsiz, – deyir. – Uzunsov sifətinnən su damcılayır.

– Ağlı bir şey kəsmir bizdən, hər nəyə oxşasaq da at alana oxşamırıq, ona görə belə deyir.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Abrımı üzümə geyinib:

– Heç enmək istəmirik, – deyirəm. – İmkan varsa bizə yer düzəlt...

Öz səsimi özüm eşidirəm, xəcalətlə dolu. Dərənin içinnən axan çayın səsi də indi çatır mənə.

Biz bələn boyu gedirik, ilxı ağlı-qaralı bulud kimi yamaca çöküb bizi görüb baş qaldırır...

– Elə bilirlər duz gətirirəm. – İlxıçı belə deyib gülümsəyir, qıza baxır. – Paltarı ağdı axı.

Mən qızı qucaqlayıb yüngülcə öpmək istəyirəm. O, özünü dartır boyum çatmır... Çiskinnən üzü-gözü su içindədi. Mənim üzüm qup-qurudu amma, məəttəl qalmışam... Əlimi üzümə vururam od tutub yanır üzüm.

İlxıçının qayaya söykənmiş bambalaca alaçığı var. Əlindəkiləri alaçığın içinə sərilmiş yapıncının üstə atır.

– Yaxşı qalırsız qalın, – deyir. – Mən kəndə getməliyəm, duz gətirəcəm. – Qıza baxıb gülümsəyir.

Atsifət oğlandı... Gözucu baxıb fikirləşirəm: "Sifətini atlarqarışıq işləyərəm... Atsifət adamlar... Ya da adamsifət atlar...

Doğrudan da fikrimdə rənglər bir-birinə qarışır. İlxıçının əyni-başı köhnə olsa da səliqəlidi, tük basmış ağımsov sifəti zərifdi, gimnaziya uşaqları kimi üz-gözünnən utancaqlıq yağır.

"Səhərdən axşamacan at belindədi, yəqin ona görədi. Yer əkmir, daş kəsmir, dəzgah dalında deyil. Nə şəhərliyə oxşamalıdı, nə kəndçiyə..."

Qız alaçığın qarşısında dayanıb, çaşqınlıq içindədi. İlxıçı alaçıqdan bir yapıncı götürüb qızın çiyninə salır...

Qız yapıncının içində yerini rahatlayır. Elə bil otaqdadı, qapıdan baxır elə bil.

– Elə bunu istəmirdin? – deyirəm.

Qız başını o yan-bu yana döndərib yapıncını iyləyir, gözlərini yumub nəfəsini dərir.

– Nə iylənir bu? – soruşur.

Başımı yapıncıdan içəri salıb qoxulayıram:

– At iyidi, – deyirəm.

O gülümsəyib yapıncının içinə yığılır, görünməz olur.

– Hə, istəyirsən heç getmiyək, qalaq yaşayaq burda, – deyirəm.

– Yox, sən get, mən qalım...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Səni tək canavar yeyər...

– Yesin daa...

Gün batmaqdaydı, işığı çəpəki düşdüyünə görə dərələr, diblər qaralır, yuxarılar, ucalıqlar aydınlığa boyanırdı. İlxı günəqarşı yamacda nur içindəydi. Get-gedə hər şey dibə çəkilirdi.

Onun özünnən xəbəri yoxdu, yapıncının arasında huşa getmişə oxşayırdı. Bir neçə addım ilxıya doğru getdi. İlxı qaraltını görüb dırnaqlarının ucunacan gərildi, dalğalanıb bir-birinə dəydi...

Qız ilxının həyəcanını hiss edib yapıncını çiyninnən atdı, ağ paltarında qaldı. İlxıçı demiş, elə bil duzdu, ağappaq...

Bayaqdan narahatçılıq içində ilxının başına dolanan kəhər şahə qalxıb ayaqlarını yerə döydü. Qız elə bil kəhəri tanıdı, neçə ildi, xəyalında gəzdirdiyi, tablolarında cizgilərini işlədiyi kəhər... Salamlaşırmış kimi əl elədi. Kəhər fınxırıb bir-iki ayaq qıza sarı gəldi. Qız elə bil uçacaqdı... Yuxudaymış kimi əvvəl örpəyini atdı, ağ örpək havada dövrə vurdu, sonra bir-bir üst paltarını çıxartdı, ilxı da kəhərin ardınca qıza tərəf gəlməyə başladı... Əslində duza gəlirdilər.

Qız elə bil soyunub suya girirdi. Suya girirmiş kimi də soyuna-soyuna atların arasında görünməz oldu.

Heç nə lazım deyilmiş, nə mən, nə paltar, nə pul, nə yeyib içmək...

Ayaqlarımın ucuna qalxıb qızı görmək istəyirəm. İlxı sakitləşib, amma yenə hərəkətdədi, qızın başına dolanır.

Mən çay qırağında qalmış kimi bilmirəm neynim; soyunum, ya yox...

İndi gör, noldu...

Şəhərə çatan kimi axtarıb tapdılar məni.

– İlxı otarırsan əə? At lazımmış sənə, hı?! – Məni vəzifəyə itələmək istəyən qohumdu, elə qışqırır, az qalıram deyəm, bu səsə telefon lazım deyil. – Bir ata oxşayanı da, – deyir, – salmısan yanıva. Lümlüt soyunub girmisiz atların arasına... Tfu!

Vəssalam, iş-qulluq məsələsi də belə batdı. Elə o vaxtdan yığışıb bağa gələnəm, aradan da nə qədər keçib bilmirəm...

* * *

Hovuzun içindən şıppıltı gəldi, döndüm, sudan cüt çıxdılar... Deyirəm axı, hay-küyləri niyə kəsilib. Qurudum qaldım. Badaşıblar özləri də. Yaxşı oldu, badaşmış halda tez tutmaq olar. Gör nə qucaqlayıb alçaq,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

balaca şeydi özü də... hə, mən səhv eləmişəm, hovuzdakı dişiymiş. Odu altdakıdı. Deyirəm axı, niyə cırırmış özünü... Bir-iki saata yan-yörədə nə qədər qurbağa var, dolacaq hovuza.

Doldu da, bir-iki saatdan sonra hovuzun içində elə hay-küy qopdu, qonşu başını hasardan çıxarıb soruşdu:

– Qurbağa saxlayırsuuz?!

– Hə, – dedim, – qurbağa fermasıdı, gəl, araq da var.

Qonşu hasarın o üzündə elə bil, başını suya batırdı... Mən ağacın dibindən boylandım, taylaşıblar. Başları qarışıb, özlərində deyillər, parıldaşa-parıldaşa mənə sarı üzürlər. Mən əlimdə qab yüyürdüm, bir o yadımdadı ki, ayağım nəyəsə ilişdi...

Hər tərəfə zülmət çökdü, zilqaranlıq... Qanad səsi gəldi, mən gülə-gülə qanad səslərinə qarışıb uçdum, boynum harasa – tavan şəklində olan yuxarılara, ilişib qalanacan uçdum, aşağıda özümü gördüm, vurulmuş qurbağa kimi titrəyirdim... Sonra da hər şey bir-birinə qarışdı, düşüncəm boyu cingilti gəldi, qulaqlarım batdı...

İndi budu, divanın üstə uzadıblar məni. Nolub, necə olub aydın deyil. Elə bilirəm ayrı-ayrıyam, yəni başım ayrı, bədənim ayrı. Ona görə də ayrı-ayrı düşünürəm, anlaşılmaz, dağınıq... Özümə gələn kimi gözümün qabağından qurbağaların parıltı saçan sulu yağlaşov baxışları getmir. Çoxalıblar deyin heç nəyi saymırlar. "Bərə mənim, birə mənim, ora mənim, bura mənim" hovuza yiyələniblər... Bax bir, alçağın nə erkəyi bəllidi, nə dişisi. Qarınınnan çıxan doğma balası da özünə oxşamır, tamam ayrı şeydi.

O gün "Milyoner..." verilişində soruşurlar: "Qurbağa suyu necə içir?"

Heç kəs bilmir, dosta zəng olur, dost da bilmir, neçə milyon manatdan enir aşağı, suyu süzülə-süzülə çıxıb gedir.

Sən demə qurbağa su içmir, lazım olanda bütün canıyla suyu içinə hopdurur, torpaq kimi canına çəkir. Mən də deyirəm, niyə bataqlıq palçığına oxşayır, alçaq.

– Yox-yox, tərpətmə.

Həkim gəlib deyəsən, üst-başımda əl gəzir. Tərpənmək istəyirəm, gücümü yığa bilmirəm, gücüm su kimidi, hara aşağıdı ora axır. Yaddaşımda qonşunu axtarıram... Amma tamam başqa şeylər düşür yadıma. Kim nə deyir desin, başım daşa dəyəndən sonra yaddaşım təzələnib, silkələnib, belə deyək, işığa çıxıb.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

...Kəndə hay düşdü ki, Osmanın oğlu əsgərlikdən gəlir, yanıyla da bir yapon qızı gətirir. Biri dedi yapon deyil, vyetnamlıdı, biri dedi çinlidi, biri dedi koreyalıdı.

– Nə fərqi, qurbağa yeyənlərdəndi de, aydın olsun.

Bu söz aləmi lap qatdı bir-birinə... Amma qız elə gözəl idi, görünən kimi mənzərə dəyişdi, hamı yerindən oynadı, axışıb qızı araya aldılar.

– Lap nağıllarımızdakı qızlara oxşayır. – Əbəçi arvad, yəni uşaq doğuzduran, belə dedi.

Bir həftədən sonra elə beləcə elliklə qızı gəldiyi yerə yola saldılar. Qızın uzunsov, qıyma gözləri dolmuşdu, oğlanın əllərindən yapışıb deyirdi:

– Zəlzələ olacaqsa siz niyə getmirsiz? Bəs sən neyniyəcəksən? Mən qalmaq istəyirəm.

– Yox, sən get... Camaat belə istəyir.

Qızın gözləri yaşarmışdı:

– Sən gizlədirsən, qurbağa bişirdiyimə görə qovursuz məni...

Qızardılmış qurbağalar uzun müddət kəndin yadından çıxmadı. Oğlanın nənəsi yatağa düşmüşdü.

– Bəlkə bilməmişəm, yemişəm.

* * *

...Yığışıram, elə bil qaba yığırlar məni, qabın dibinə sıpqarılıram. Hə, iynə vurublar.

– Yatsın, özünə gələcək...

Bununla da dərin boşluqlara sallanıram:

– Uu-uuu.

Ağrı başımın bir yanında qaldığına görə elə o səmtə də əyilirəm... Yuxudu bu, – deyirəm yuxumda, – heç nəyə bənzəməyən yuxu. Elə əyri halda – yanpörtü də yuxuya batıram... Əvvəlcədən bilirəm ki, inildəyəcəm.

Məni dartmaq lazımdı ki, sümüklərim yerinə düşsün. Bircə biləydim yatmışam ya yox... Bayaq bunnan ayıq idim. Görünür ağrıyla bağlıdı, ağrım azaldıqca özümü unuduram. Əslində ağrı sağlam şeydi, ağrı-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dıqca gör nələri yaşadım bayaqdan. İndi birtəhər olmuşam, ət kimiyəm, sümüksüz ət...

...Arıq ətçidi, yəni qəssab, əti sümükdən ayırıb paylaşdırır, səliqə-sahmanla qiymətini də yazıb vurur üstünə, elə bil qəssab deyil, dərzidi. Mən belə arıq qəssab görməmişəm...

– Sümüyünü neynəmisən? – "Gözüvə soxmusan?" burasını ürəyimdə deyirəm. – Ətiniz tökülsün, niyə əti sümükdən ayırırsan, niyə bir yerdə satmırsan?

– Nolub? – Ətçi yox, müdirdi. Müdirə də oxşayır, yekə şeydi.

– Hər gün gəlir, beləcə, əttökənlik eləyir. – Ətçi deyir, yəni qəssab.

Müdir üstümə elə yeriyir, elə bil gəlib qucağına götürəcək məni.

– Sənə sümük lazımdı? – deyib, cibimə pul qoyur, yavaşcadan, – şuluq eləmə, dükan təzədi, dağıtma camaatı.

Mən pulu cibimdən çıxardıb, o üz-bu üzünə baxıram, ürəklənmiş halda deyirəm:

– Hə, bəlkə bu pul da mənim qiymətim olsun, yapışdırım yaxama, girim vitrinə.

Qolumnan yapışıb bayıra atırlar.

– Bir də buralara hərlənsən, səni də bir sümük, bir dəri eləyəcəm!

* * *

Tüfəng səsinə özümə gəldim. Ayılıb məəttəl qalmışam. "Bağda nə tüfəng?! Kim atıb? Kimə atıb?"

Oğlum yadıma düşmür; tüfəng təmizləyirdi yanımda, unutmuşam. Nə vaxt idi, aradan nə qədər keçib? Ayın neçəsidi, saat neçədi?!

Bəlkə bu da mənə görədi, yəni tüfəng atıblar ki, ayılım, özümə gəlim. Bəlkə həkim deyib ki, tüfəng səsi xeyirdi, üstünə tüfəng atın.

Bu cür səssizlikdə bağın qurbağaları oxumalıdı, əvvəl deyinməlidilər; bir cür, mırıldaşa-mırıldaşa. İndi heç nə yoxdu, nə səs var, nə səmir... Canımda göynərti dolaşır, həə, ağrıların yeridi, ağrılar gedib, yeri qalıb, yeri acışır.

Başımı hiss eləyirəm. Neçə vaxtdı elə bilirdim başım üstümdə deyil... Yatıb durannan sonra özümə gəlmişəm, doğrudan da... budu, üzüm-gözüm, əlim-ayağım... dikəlirəm. Elə bilirəm aradan illər keçib, içimdə bir az da qəribsəmək var, qəribsəyirəm. Qəribsəməkçün də güc lazımdı hər halda, zəif, gücsüz adamlar ağlayar, qəribsəməz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Deməli sağalmışam...

– Kim var görəsən?.. Ay qonşu!

Dikəlib boylanıram, heç kəs yoxdu... Ürəyə yatan səliqə-sahman var otaqda, qarımın – arvadımın işidi, silib-süpürüb, təmizləyib, gedib.

Baxıb sakitləşirəm, belə anlayıram ki, bayaqdan içimi göynədən qəribsəmək deyilmiş, peşmançılıqmış... Axıracan düşünüb daşınmağa gücüm qalmayıb.

Bayırda adamın üz-gözünə yapışan yaş hava var... Pis deyil, mənə nəmişlik lazımdı, qapıdan çıxıb, üzü bağa dayanıram, qırışlarımı, bürü-şüyümü açmaq üçün ayağımın ucuna qalxıb gərnəşirəm...

Yəqin ki, bütün olanları dərindən anlamaq üçün bir az da yaşayacam. Yoxsa dünyadan belə alayarımçıq, bir az da tamarzı getmək olmaz. Amma necə yaşayacam, təzədən kimlə yaşayacam, harda yaşayacam... İnsan həyatını nə qədər yenidən qurar...

Hovuza tərəf getdim. Uzaqdan ürəyimə damdı ki, hovuzda su yoxdu. Hovuzda su olanda bağ elə bil işıqlı olur. İndi bağın işığı alınmışdı.

Yaxınlaşdım, hovuzun künc divarı sökülüb, bir damcı da su qalmayıb. Dibi lillidi, elə bil xəritə çəkiblər, hansı ölkəninsə xəritəsinə bənzədirəm, amma hələ bir şey anlaya bilmirəm... Tək bir qurbağa qalıb, lildən güclə seçilir, üzü suyun axdığı səmtə, sakitcə dayanıb, elə bildim ölüb, əyilib baxdım, tərpəndi, lillikdə quş izi qoya-qoya hovuz suyunun iziylə varıb getdi.

– Qonşu-uu!

Döndüm. Qonşu hasardan başını çıxartmışdı.

– Bir gülləyə deşildi, – dedi, – köhnə hovuzdu...

Mən indi bildim ki, oğlum tüfəngi niyə silib təmizləyirmiş.

*May, 2004 - mart, 2005*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# HEKAYƏLƏR

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# YAMACDA BİR KƏND

Dağların döşündə duman süründü, yamaclar ətək-ətək gözdən itdi, çən-çiskin dərələr boyu sürülənib kəndə doldu, gözlərim görə-görə kənd evləri yox oldu, beş addımlıq görünmədi. Bayaq gicitkənlərin yarpaqları işıqla dolu idi, az qalırdım toxunam, qardaşımın balaca oğlu:

– Əlini vurma, – dedi, – ay qağa, əlini yandıracaq...

İndi gicitkənlər çəndə-çiskində iri bir qaraltıya dönüb yırğalanırdı. Məsmə qarını xatırladım. Həmişə belə çiskin gələn kimi qıymaça şalını başına salıb gicitkən dərməyə çıxardı. Yığıb gətirib, buxarıya tutub şehini qurudardı, sonra damarları çıxmış ayaqlarını gicitkənlə döyəcləyə-döyəcləyə ağlayardı.

Elə buna görə də, böyüyənə kimi Məsmə qarıdan qorxdum, ağlım kəsəndən sonra isə Məsmə qarı yox idi...

Qardaşım oğlunun əlindən tutdum, hasardan addadıq. Altdan-yuxarı üzümə baxdı, gözləri qardaşımın gözlərinə elə oxşadı ki, sümüyüm səksəndi. Qardaşımın qaldığı yaylağa sarı baxdım, heç nə görünmədi...

Kəndin yolları da duman, çiskin içində itib-batmışdı. Birdən-birə ürəyim sıxıldı. Yollar yenə təskinlikdi, heç olmasa gözün kəsdiyi qədər baxırsan.

Kəndin o başında bir at kişnədi, qardaşım oğlu əlimi buraxıb səsə sarı götürüldü, cır səsiylə qışqırdı:

– Dədəm gəldi, dədəm gəldi!

Turac qarı ətəyi də əlində yanımdan keçdi, mənə elə gəlirdi ki, qarşımda dayanacaq, söhbətə tutacaq, amma nə qardaşımın oğluna fikir verdi, nə də mənə, deyinə-deyinə keçib getdi.

– Dumanın-çiskinin qara geysin hey, otu-ələfi lavıd elədi, batırdı, nəynən saxlayacağıq bir sürü dilsiz-ağızsızı?!

Ardınca baxdım, xeyli aralanmışdı, yenə əlini ölçə-ölçə dağları-daşları göstərib nəsə deyirdi.

Qardaşımın atı dumandan sivrilib çıxdı. Heç bilmədim qardaşımla necə görüşəcəyəm. Bilmədim utandığımdanmı, yoxsa nədənsə darıxdım. Başımı qaldırdım, qaşlarımdan asılmış çiskini sildim. Qardaşımın



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sifəti aydınlaşdı, uzaqdan-uzağa gülümsəyirdi. Başına saçaqlı papaq qoymuşdu, saçlarında damcılar parıldayırdı, bircə anlıq şəhər üçün darıxdım.

Qapıya sarı döndüm, gözlərim önündə də qardaşımın gülərüzü, qapı yoluna düzülmüş çay daşlarının üstüylə addımladım, birdən elə bildim sürüşüb yıxılacağam, dizlərim sızıldadı. Qardaşımın kəhər atının ayaq səsi məni lap çaşdırdı, yana çəkildim. Ayağının səsindən bildim ki, kəhərin bir nalı boşalıb, amma hansı ayağının, seçə bilmədim.

Qardaşım yüyəni çəkdi, kəhər yanımda dayandı. Alma gözlərilə düz gözlərimə baxdı, burnunun qanadları qalxdı, ayağını yerə döydü, qabaq ayaqları ağdı.

Havada sazaq var idi, iri qalstuk bağlamışdım, sazaq bir az gücləmən kimi qalstukum yelləndi, kəhər hürküb şahə qalxdı, qardaşımın papağı başından düşdü, yəhərdən endi, ata acıqlandı:

– Ay çovğun aparsın səni, hey...

Kəhər sakitləşdi, amma yalmanının altından gözlərini döndərib mənə sarı baxırdı. Qardaşımın bayaq dediyi "çovğun" sözü yadımdan çıxmadı. Bir neçə dəfə ürəyimdə təkrar elədim: "Çovğun", "çovğun", "çovğun".

Qardaşımın papağını yerdən qaldırdım, çırpdım, qıvrım saçaqları telləndi, istədim başıma qoyam, yenə kəhərin hürkəcəyindən qorxdum. Qardaşım məni qucaqladı, alnımdan öpdü. Sarışın tükləri tikan kimiydi, üzümü daladı, gülümsədim, həm də gözlərim yaşardı:

– Nə var, nə yox? – dedim.

Mən balaca olanda tay-tuşlarımın hamısı, lap qonşularımızın uşaqları da elə bilirdilər ki, o mənim atamdı. Həmişə yaylaqdan gələndə uşaqlar məni muştuluqlayardı: "Atan gəldi, atan gəldi".

Gecdən-gecə dilləndi...

– Sağlığın, – dedi, – atam-anam, buralarda gözəllikdi, nolasıdı, gəl içəri, bir görüm səndə nə var, nə yox?

Papağını uzatdım, heç baxmadı da, evə sarı döndü, mən də ardınca. Kəhərin yanından keçdik. Gördüm qardaşımın uşaqları atın başına yığışıb, ikisi minib tərkləşib, biri qabaq ayaqlarının altına yıxılıb, kəhər də ayağının birini boşaldıb, düz sinəsinə qoyub. Özümü saxlaya bilmədim.

– Ə, çıxın, – dedim, – ordan!

Qardaşım eləcə gülümsədi:

– Bəri gəl, onların günü odu, – dedi...

Evə keçdik, üz-üzə əyləşdik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Danış, – dedi, – görüm, nə təhərsən, şəhərdə nə var, nə yox, necədi dolanışıq?

– Yaxşıdı, – dedim.

Gördü ki, daha danışmıram, söhbəti dəyişdi:

– Yaxşı ki, gəlibsən, – dedi, – qız bəyənmişəm sənə, atam-anam... Belə olmaz axı, hərə bir söz deyir, yepyekə kişisən, evlən, əlini başına yığ. Hər şeyindən razı qaldım, kənddə məktəbi qurtardın, pulsuz-parasız getdin imtahan verdin, dedilər, dünya yıxılsa da pulsuz girə bilməz. Hamının sözünü ağzında qoydun. Oxudun, qurtardın, mən də hər yerdə sənə güvəndim. İndi çoxu uşaqlarını sənin adınla öyrədir. Kimi var idi, deyillər, getdi öz başıyla imtahan verdi. Məni də görən niyə evləndirmirsən deyir?.. Turaclıların bir yaxşı qızı var, su sonası kimidi. Özünün də ürəyinə damıb ki, onu sənin üçün seçmişəm. Yaylaqdan qayıtdığımı bilən kimi enir, evimizin yanındın elədən-elə keçir, belədən-belə. Qızların hamısı da özlərini öldürürlər sənin üçün... Bəzənib-düzənib qarşımnan keçillər, bilillər ki, sənə qız axtarıram. Sən tanrısız da tərpənmirsən ki! Belə deyib əlini dizinə vurdu. İndi fikir verdim gördüm ki, yaylaqdan necə gəlibsə, eləcə də əyləşib. Əynindən isti paltarlarını da çıxartmayıb. Yapıncısının bağını açıb düz yanıma qoyub. Yapıncısından torpağın ətri gəlirdi. Az qaldım qalxıb elə üzüqoylu uzanam yapıncının üstünə. Özümü güclə saxladım. Nə cavab verəcəyimi unutdum. Haçandan-haçana:

– Görək, dedim, – görək...

Tez də hiss elədim ki, səsim çox nazik çıxdı, öz səsimdən özüm utandım, tərlədim. Qardaşım acıqlanmışdı. Cibindən tənbəki kisəsini çıxartdı, papiros bükdü... Babamı xatırladım. Qardaşımdakı babamın tənbəki kisəsi idi... Babam papirosu bir-birinin oduna yandırardı. Nənəm də tez-tez deyərdi, kişini tənbəki öldürdü. Aranda qohumlarımız var idi. Hər il payızın yeləni qızaranda babamın tənbəki payı gələrdi. Babam da arançı qohumlarımız üçün payızlıq erkəyi kəsərdi, böyrəyini verərdi mənə, deyərdi:

– Ye, ciyərli ol.

Tənbəkini yaş-yaş qatlayıb saçaq eləyərdi, sacı asıb qurudardı, mənə də deyərdi, gözdə, ötməsin...

Qardaşımın əlləri babamın əllərinə oxşadı. O da barmaqların cütləyib kisəyə saldı, hiss elədim ki, indi başını qaldırıb baxacaq, gözlərimi çəkib yerə baxdım:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Necə gəlirsən, – dedi, – uzaq yoldu, yaxın da deyil, oturub gapdan-gələcədən eləyirik, bir şey anlaya bilmirəm səndən. Niyə belə əzik oldun axı, atam-anam. Hamı başına and içir. Gələndə də kəndin içində elə fağır-fağır dolanırsan ki, yanıb-yaxılıram. Sənin yerinə başqası olsa, uzağa getmirəm, elə mən olsam bu yekə kəndə sığışmaram, bərəkət haqqı... Səmədlilərin nədi, biri var, adın da bilmirəm, buraxılışa gəlir. Şenliyə çıxanda deyirsən, qırx eşşəyi sağından qayıdır. Sənin heç kəsik dırnağın da ola bilməz. Nə əynin-başın düzəldi, nə irzin-rəngin. Görən də deyir, yəqin fağır dolana bilmir, neynəsin o boyda şəhərdə... Bir belə pul alırsan hara xərcləyirsən?! Boynun yoğunluğu boğazdan asılıdı, ağrın alım.

Qolunu qaldırıb boynunu göstərmək istədi, çox geyindiyindən qolu qatlanmadı, əynindən sırıqlısını çıxartdı. Enli kürəkləri daha da enləndi, mən dərindən nəfəs aldım. Kiçik oğlunu çağırdı:

– Elbəy, su gətir.

Elbəy dolçanı doldurub gətirdi, uzaqdan-uzağa dolçanın sərinliyini duydum, birdən-birə üşüdüm, əlimi cibimə saldım. Elbəy suyu verib döndü, qardaşım onun ardınca baxdı:

– Qayıt, – dedi, – əyə!

Elbəy qayıtdı. Yanımdan keçəndə üzümə baxdı, iri göyümsov gözləri bir anlığa üstümdən şütüdü. Qardaşımın qabağında dayandı, başını aşağı saldı.

Qardaşım ağır, yoğun səslə dedi:

– Bir dəfə demişəm sənə, buyruğa göndəriləndə axıracan buyruqda dur. Bir də suyu verib getsən, başına endirərəm dolçanı. Kimə su gətirsən gözlə, dolçanı da apar get.

Elbəy başıylaca "hə" dedi.

Nədənsə mənə elə gəldi ki, Elbəy böyüyəndə sürücü olacaq.

Başladım fikirləşməyə ki, niyə mənə elə gəldi ki, Elbəy sürücü olacaq. Heç yana da heç nə çıxarda bilmədim.

Şüşəbəndin pərdəsini çəkib bayıra baxdım, çiskin silinib gedirdi. Ağ yel dumanı-çəni qovub təpələrdən aşırırdı. Gicitkənləri yenə də dəlisov-dəlisov yırğalayırdı. Nəfəsim pəncərəni tutdu. Gicitkənlər də dağlara qədər alçaqlı, hündürlü nərdivanlanan yaşılca təpələr də görünməz oldu...

Qardaşımın dostunu xatırladım. Gəlsəydi çalıb-çağırardılar, sözümüz-söhbətimiz dəyişərdi.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

– Gizir də gəldimi, – dedim, – yaylaqdan?

– Hə eşidən kimi atlandıq. İndicə gəlib çıxar!..

Qardaşım da hiss eləmişdi ki, söhbəti dəyişmək istəyirəm. Daha danışmadı, ürəyi sözlücə susdu.

Duman-çiskin aralandı. Orda-burda dəstələnən bozumtul bulud topaları dağları dəmgil-dəmgil kölgələdi. Pəncərənin pərdəsini tamam çəkdim. Birdən elə istədim ki, o yastanada mənim də bir evim olaydı, şəhərin səsindən-küyündən uzaq yaşayaydım. Qardaşımın mənim üçün bəyənib seçdiyi qızı xatırlamağa çalışdım: "Turaclılardan kim olar axı?" Yenə Süsən gözlərimin önünə gəldi. Yoğun, qara hörüklərini, odlu dodaqlarını xatırladım. Tez də unutmağa çalışdım. Mənə elə gəldi ki, qardaşım fikrimi oxuyub yerindən qalxacaq, sən nə qurumsaqsanmış əyə, – deyəcək, – mən tanımamışam, səni. Kişi də çörəyini kəsdiyi ailənin qadınına göz dikərmi?

Yerimdə uçundum. Lap uzaqdan qardaşımın səsini eşitdim.

– Üşüyürsən ki, ay saqqalın ağarsın, lap üstünnən yel ötdü olubsan ki?!

Özümə gəldim:

– O yastana yaxşı ev yeridi, – dedim.

Qardaşım xeyli üzümə baxdı:

– Yenə, – dedi, – gözün kənddədi, get, yaxşıca dolan, ev-eşik düzəlt, bu da başımızın ucalığıdı, desinnər ki, filankəsin bir evi də şəhərdədi. Namusla yaşa, atam-anam, yaxşılığını eşidim. Cavan oğlan, cavan qızdan həyalı gərək.

Yenə Süsəni xatırladım, zilqara gözləri alovlana-alovlana gözlərimə dikilib qaldı. Sonra Süsənin əri yadıma düşdü; qırmızıyanaq, tər içində, nazik, bir az da tutqun səsi qulaqlarımda səsləndi:

– Yaxın otur, yemək-içmək qalacaq adama, nə qədər sağsan, ye.

Elə bu sözdən sonra yemək istəsəm də yeyə bilmədim.

– Ədə, ye, – dedi, – bişirənin yox, düşürənin yox. Nədən çəkinirsən, qapın qapımıza açılır, hə indi Süsən xanımın xörəyindən yeməsən, inciyər canın üçün.

Süsənin ərinin dən düşmüş saçları tox görkəmiylə heç uyğunlaşmırdı. Süsəndən xeyli böyük olardı. Qabaqlar elə bilirdim Süsənin atasıdı, küçəyə çıxardılar, Süsənin görkəmindəki utancaqlığı, kədəri, ərininsə yerişindəki təntənəni yəqin ki, hamı hiss eləyirdi.

...Elbəyin səsinə xəyaldan ayıldım:

– Ay qağa, Gizir əmi gəldi!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Süsənin xəyalından ayrıldığıma görə ürəyimdə bir həsrət duydum, Giziri də ona görə xoşüzlə qarşılaya bilmədim...

Qapını açdı, salamlaşdıq, iri, qalın, qaratüklü əlləri var idi, əllərim ovcunda itdi, əllərini iri bir heyvanın ağzına oxşatdım, amma hansı heyvanın, biləmmədim, eləcə gülümsədim, Gizir də güldü:

– Rəngin qaçıb, – dedi, – gözdə, soyuğa-zada vermə özünü.

Cibindən bir araq çıxardıb stolun üstünə qoydu, qardaşım arağı görən kimi üzünü turşutdu:

– Neynirdin, – dedi, – bu zəhrimarı? Hələ tapşırdım ki, alıb-eləmə...

Gizir papağını başından çıxartdı. Başının ortasında bir dənə də tük yox idi. Birdən-birə qəribə bir görkəm aldı. Üzündəki sərtlik yox olub getdi, zarafatcıl, deyib-gülən adama oxşadı. Ona görə də onun gülmədiyinə təəccübləndim. İşgüzarlıqla butulkanın ağzını açırdı. Birdən başını qaldırdı, qardaşıma baxdı:

– Ə, – dedi, – bu mənim saçlı vaxtımı görübmü?

Qardaşım sakitcə cavab verdi:

– Görmüş olar.

Dönüb məndən soruşdu:

– Neçə ildi gəlmirsən kəndə?..

Mən fikirləşənə qədər qardaşım dedi:

– İki il bundan qabaq gəlmişdi bir-iki günlüyə, onda da səni görmədi.

Gizirin gözləri birdən-birə işıqlandı:

– Ə, – dedi, – əməlli-başlı saçım var idi, heç daraq kar eləmirdi, saxlaya bilmədim, qalmadı.

Heç nə deyə bilmirdim, bilmirdim heyifsilənimmi, yoxsa təsəllimi verim.

Qardaşım mütəkkəyə söykənib tamaşa eləyirdi. Üzündə güclə sezilən bir təbəssüm var idi.

Gizir birdən-birə qardaşımın oğlunu səslədi:

– Elbəy, bura gəl, başına dönüm, gəl, mənim sizdəki şəklimi gətir!

Səsi elə gur çıxdı ki, şüşəbəndin şüşələri cingildədi. Bayıra baxdım, duman aralanmışdı, qarşımızdakı təpənin döşünə bir parça gün düşmüşdü, birdən-birə ürəyimdə qət elədim ki, şəhərə getməyəcəyəm. Süsənin də məktubuna elə burdan cavab verərəm. Yazaram ki, ərinlə bir süfrədə çörək kəsmişəm, çörəyi ayaqlaya bilmərəm. Nə olsun ki, səndən çox böyükdü, o da özünə görə bir kişidi... Xoşbəxt olmağa çalış...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elə bil ürəyimdən nəsə qırılıb düşdü. Udqundum. Gizirin şəklini gətirdilər. Alıb baxdım. Əsgərlik vaxtlarının şəkli idi. Gizir barmağını şəklə uzadıb:

– Görürsən, – dedi, – nə vaxtlarım var idi, yanımdakı da Saşadı, Ukraynadandı, bilirsən nə oğlan idi, zalım oğlu?

Yemək gətirdilər, stolu araya çəkdik. Gizir dedi:

– Küncdə oturma!

Qalxıb ortaya keçdim. Gizir araq süzdü, əlimlə stəkanımın ağzını qapadım.

Gizir dedi:

– Yaşa, qardaş, ona görə də gəldiyini eşidən kimi endim yaylaqdan. O ki böyük hörməti saxlayırsan, yaşa səni!

"Yaşa" sözünü deyəndə uzun-uzadı fit çaldı, ətim ürpəşdi. Qardaşım üzünü turşudub:

– Atam-anam içmə bu zəhrimarı, – dedi.

Sonra gözünü yumub stəkanı başına çəkdi. Gizir sağlıq deməyə hazırlaşırdı, sözü ağzında qaldı, udqundu, stəkanı qaldırmağıyla atmağı bir oldu.

Gizir cib bıçağını çıxardıb doğranmış soğan dilimlərini bir də doğrayırdı. Bir-iki dəfə də süzdülər, gördüm daha mənə fikir vermillər, pəncərədən bayıra baxdım, çən-çiskin silinib getmişdi, duman-çən birdənbirə beləcə çəkildiyi üçün adama elə gəlirdi ki, səhər indicə açılıb...

Şəhərdə kirayə qaldığım beşmərtəbəli, beton ev gözlərimin önünə gəldi. Elə beləcə çiskindən-dumandan avazımış bir səhər idi. Qapım döyüldü. Açdım ki, Süsəndi, əlində də bir qab xörək.

Qapıdan yana durdum, Süsən dodaqlarında təbəssüm, iri, qara gözlərində sirli bir duyğu içəri keçdi. Onların qapısına sarı baxdım. Qapıları yarıaralı idi, Süsənin əri başını qapıdan çıxartmışdı. Özümü itirdim. Nədənsə ərinin saçları yaşıla çalırdı. Bir neçə dəfə gözlərimi döydüm, bir neçə rəng bir-birinə qarışdı. Əllərimi döşümə qoyub başımla razılığımı bildirdim. Süsən xörəyi qoyub qəribə bir yerişlə qayıdırdı. Qapıdan çəkilməyə macal tapmadım, keçəndə qabarıq, gen sinəsi mənə toxundu. Qapılarına çatanda dönüb geri baxdı. Bayaqkı təbəssüm dodaqlarında acı bir duyğuya dönmüşdü, gözlərində də yarımçıq qalmış bir sevinc, bir şadlıq hiss elədim. Mən də qapının arasında donub qalmışdım, o da mənim üzümdəki heyrəti duymamış deyildi. Qapı örtüldü. Bir andaca kədərləndim, içəri keçdim, taxtımın üstünə uzandım, səbəbini anlamadan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yastığı döyəclədim. Bu da öz-özümə gülməli göründü, arxası üstə uzandım. Tavandan damcılar asılmışdı. İndi fikir verdiyimə təəccübləndim. Qalxıb Süsənin gətirdiyi qabın qapağını qaldırdım, yarpaq dolması idi.

Qonşumuz Gülbəyim xala kiməsə əl eləyirdi. Bu mənə şəhərdə kirayə qaldığım evlə, Süsənin xəyalı ilə qarışıq elə sirli göründü ki, bir anlığa harda olduğumu unutdum. Elə bildim Gülbəyim xala mənə əl eləyir. Gözümü pəncərədən çəkdim. Gizirin ağ köynəyinin qolu çirməliydi. Sağ qolunun biləyi uzunu iri hərflərlə "Lyubov" yazılmışdı. Fikir verdim, gördüm ki, məndən danışırlar. Bu məni daha da təəccübləndirdi. Mənə elə gəlirdi ki, aradan illər keçib... Qardaşım deyirdi:

– Arxası yerə gələn deyil, Gizir, canın üçün, institutda oxuyanda güləşdə birinci olub. Di gəl ki, özü fağırdı, yaradansızın... Əzələlərini görsən, deyərsən yox, bu o döyül. Ə, bir dayan qadan alım, bir sən də bax, gör yalanmı deyirəm, gerçəkmi, sinəsi harda durur?!

Bunu deyib qalxdı, səndələdi, tez də özünü düzəltdi, mənə elə ərknən yaxınlaşdı, elə ərknən pencəyimi əynimdən çıxartdı ki, elə bil kəhərin belindən yəhərini alırdı. Köynəyimdən tutanda dedim:

– Bunu yox...

– Ə, bir dayan, – dedi, – qırıb tökərəm o qoyunu-quzunu... Kimdən ötrü saxlayıram, damazlığı qırılmışı...

Əməlli-başlı kövrəldim, burnumun ucu göynədi. Dinməzcə dayanıb gözlədim, qardaşım köynəyimi də çıxartdı. Yenə çəkilib Gizirə baxdı, mən özümdən asılı olmayaraq sinəmi daha da qabartdım.

Gizirin gözləri axırdı, o da ayağa durdu, yaxınlaşıb alnımdan öpdü. Qardaşım acıqlı-acıqlı:

– Di, – yaxşı, – dedi, – geyin.

Geyindim, ayağa durdum, indi gəlirəm, – dedim, – qapıya sarı getdim, qardaşım yenə də məndən danışırdı:

– Ə, mən bu sovxozda bu boyda sürü becərirəm, başıma and içirlər, bir sözüm iki döyül. Kimin qapısına getsəm "yox" deməzlər, özümün nəyim əskikdi? Di gəl ki, bu yarı yaşını ötüb, nə evlənib, nə evi var, nə eşiyi. Görən də mənə deyir ki, həm atasısan, həm qardaşı, belə olmaz. Heç bilmirəm nə yola qulluq eliyir, yaradansız?!

...Nəsə ürəyimdə bir sevinc var idi. Yəqin ki, qardaşımın üstümdə böyüklük eləməyinə sevinirdim. Pilləkənləri düşüb, çaya sarı endim. Çayın suyu dupduru idi, dibinin daşı görünürdü. Çayın elə bu duruluğunda da soyuqluq var idi. Bu soyuqluğu üst-başımda duydum, üşüdüm,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çay yuxarı getdim... Qırmızıyaylıqlı bir qız çaydan su doldururdu, vedrələri çiyin ağacına keçirib çiyninə qaldırdı, bunu elə asanlıqla, elə yüngüllüklə elədi ki, mənə elə gəldi vedrələrin içində su yoxdu, ayağımın ucuna qalxdım.

Qırmızıyaylıqlı qız məni görən kimi yerişini dəyişdirdi, ağırlaşdı, indi bilmək olardı ki, vedrələrdə su var...

Almayanaqlı bir qız idi, qəribə gözəlliyi vardı. Yanımdan keçəndə dupduru, elə həmin bu çayın səsiylə:

– Xoş gəlmisiz, – dedi.

Körpünün üstündə fit səsi eşitdim. Dönüb baxdım, eşşəyin belində səkkiz-doqquz yaşlarında bir oğlan idi. Eşşək də oğlanın çaldığı həmin havaya uyğun bir yerişlə yeriyirdi. Oğlan məni görəndə fışqırığını kəsdi, mənə baxıb güldü, yoqin ki, utandığından gülürdü. Eşşək başını döndərib oğlanın ayağını dişləmək istədi, boynu çatmadı. Birdən güldüm, onlar da keçib getdilər...

Dağlardan yenə duman sürünürdü, hava qaralan təki olmuşdu. Təkcə qənşərimizdəki dağın yamacı günlü idi. Uzaqdan ağappaq görünürdü, güzgü işığına oxşayırdı. Birdən döndüm, tələsik qapıya getdim. Kəhərin yəhəri hələ alınmamışdı, yüyənini qoşalayıb belinə aşırıldım, sakitcə çayı keçib yamacdakı günəqarşıya sarı çapdım... Kəhər bir göz qırpımında yamaca qalxdı. Ürəyi ayaqlarımın altında quş kimi çırpınırdı. Aşırılıb yəhərdən endim, gözlərini sığalladım. Kəndə sarı döndüm. Heç vaxt kəndimizin gözəlliyini belə duymamışdım. Bayaq elə bu yamacda gördüyüm işıq indi kəndimizin üstünə düşmüşdü, evlər ağappaq bir işığın içindəydi.

*1970*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ARMUD AĞACININ NAĞILI

Qoyunlar, quzular mələdi. Kənddə tək bircə kəhər qalmışdı, ayaq döyüb kişnədi. Mahmud kişi kəndin bir səmtindən gündoğana baxdı:

– Yazdı gələn! – dedi.

Durnalar da elə bil onun bu sözündən sonra gəldi, yamacların qarı da elə bu sözdən sonra talalandı, qoyunlar bu sözdən sonra ota çıxdı. Mahmud kişi cavanlara söz atdı:

– Ayağınız altda cücərti var, a bala, çıxıb yıxar sizi, möhkəm durun!

Beləcə yallar, yamaclar göyərdi, bağçalar, bağlar yaşıllaşdı, amma Mahmud kişi bir səhər baxdı gördü ki, bağındakı armud ağacı tumurcuqlanmayıb. Qorxa-qorxa ağacın başına dolandı, cücərti görə bilmədi. Dünyagörmüş kişiydi, ağacın canındakı ölümü duyub Telli qarını səslədi:

– Ağac quruyur, arvad!

Telli qarı dizlərinə döyə-döyə yaxınlaşdı. Elə bil kimsə Mahmud kişinin gözü qabağında can verirdi.

Telli arvad ağacın dibində diz çökdü:

– Əsgər balamın, ərgən balamın payısan, – dedi, – sənə nə oldu belə?!

Mahmud kişi arvadın yanında fikirli-fikirli dayanıb başını aşağı salmışdı. Telli qarı onun ayaqlarından çəkişdirirdi:

– Uşağın başında bir işmi var, nədi, ay kişi, iraq olsun?!

Mahmud kişi arvada toxtaqlıq vermək istədi:

– Axmaq-axmaq danışma, nolasıdı uşağa, şükür olsun,dava yox, bir şey yox!

Telli arvad sakitləşmədi, qorxa-qorxa dedi:

– Yox, iraq-iraq, bu hansı bədbəxtliyin xəbəridi?!

...Sağdan sağ qonşu, soldan sol qonşu Telli qarının ağladığını eşitdilər, bir azdan Mahmud kişinin həyət qapısı açıldı, başlarında qara kələğayı sağ qonşu da, sol qonşu da dalbadal içəri keçdilər. Yaşlı arvadlar idi. Telli arvad onları görən kimi təzədən kövrəldi, bir az qorxulu səslə soruşdu:

– Aaz, başınıza dönüm, siz də dünya görübsüz, bu nə deməkdi? Əsgərlikdəki nəvəmin ağacı quruyur, olmuya uşağın başında bir iş var?

Sağ qonşu da, sol qonşu da baş bulayıb "boy, boy" elədilər, bardaş qurub Telli qarının yanında əyləşdilər.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu xəbər Mahmud kişinin bağından çıxıb kəndi ev-ev dolandı. Cavandan cavan, qocadan qoca Mahmud kişinin həyətinə toxtaqlığa gəlirdilər.

Yazın ilk günləriydi, ətəyi yaşıl dağların hələ başında qar vardı.

Qoyun-quzu hələ də dağların qarına baxıb, mələyib ayaq döyürdü. Amma qarları əridən də elə bil qoyun-quzunun səsiydi, Mahmud kişinin tək kəhərinin kişnərtisiydi.

Kəndin səhərinə yağış yağmışdı. Hər yan nəm idi, bu nəmliyin də öz qoxusu vardı, buna da torpağın qoxusu deyirdilər.

Bütün bağlar, bağçalar cücərti üstündəydi. Təkcə Mahmud kişinin armud ağacından başqa.

Mahmud kişinin həyət qapısı tez-tez açılırdı, qonum-qonşu: "Ağrı-acı görmə!" deyə-deyə keçirdilər, qadınlar Telli qarının yanında əyləşirdilər, kişilər fikirli-fikirli ağaca baxırdılar.

Biri əlini ağaca sürtdü, qabığından bir parça qopartdı, Mahmud kişiyə sarı dönüb başını buladı.

Mahmud kişi də irəli yeriyib ağacın qabığından götürdü, burnuna tutub iylədi, kirimişcə yanındakılara dedi:

– Ölmüyüb hələ!

Belə deyəndə kişilərin hamısı ağacın qabığını burnuna tutub iylədilər, çiyinlərini çəkdilər.

Kənddən bir az aralı əkin yerləriydi, üstündə dolaşalar dolanırdı, genağızlı kotanlar qoşulmuş traktorlar dağların ətəyinə sarı dartınırdılar, səsi dünyanı başına götürmüşdü, bu səsin içində təkcə dolaşaların çığırtısı eşidilirdi.

Qabaqda gedən traktorçu traktoru saxladı, əlini günlük eləyib qoydu gözlərinin üstünə, kəndə baxdı. Gördü ki, qapılar açılır, gələn-gələn də bir-bir Mahmud kişinin həyətinə gedir.

Traktorçu güclü, enlikürəkli idi, amma belə güclü, belə enlikürək oğlan da kənddə gördüyündən qorxdu, ürəyi suya döndü.

O biri traktorçular da gəldi, dayandı, ordan da güclü, enlikürək oğlanlar kəndə baxdılar, onların da ürəyi suya döndü.

Biri var gücüylə birinci traktorçunu səslədi, çox aralı deyildilər. Amma bu igid-igid oğlanların hamısı traktorçu olandan sonra alçaqdan danışa bilmirdilər. İndi də biri elə bağırdı ki, kənddə də eşidən oldu.

– Ay Səməd, ay Səməd, ayə, nolub görən?



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Beləcə bağırışa-bağırışa bir-birilərinə sarı gəldilər. Bütün düzü-düzənliyi ağzına götürmüş traktorların səsi bayaq elə bil hər şeyi yerindən oynatmışdı, elə bil hər şey – təpələr də, kəndlər də, çaylar da dartılmışdılar, traktorların səsi kəsiləndən sonra elə bil hər şey öz yerinə düşdü, elə bil hər şey təzədən başını qoyub bütün ağırlığıyla uzandı.

Traktorlar dayanandan sonra əkin quşları da qışqırtılarını kəsib qondular traktorların üstünə, başladılar dimdikləməyə...

...Kəndin bir yanında da kolxozun bağıydı, ucu-bucağı görünmürdü. Ağacların dibində işçilər vardı, bağı arıdırdılar. Arıq, uzunboğaz bir kişi ağacın başına çıxıb, qurumuş qol-budağı kəsib atırdı. Özü də qaravəlli danışırdı, işçilər aşağıdan-yuxarı diş ağardıb uğunub getmişdilər.

Uzunboğaz kişi kəndə sarı baxdı, qapı-bacalardakı narahatlığı duyub, ağacın başında ayaqüstə durdu, bu bəs eləmədi, barmaqlarının ucuna qalxıb, boğazını uzatdı, təkcə aqronomu səslədi:

– Yoldaş aqronom, başın haqqı, kənddə nəsə var!

Bayaq aşağıdan-yuxarı diş ağardıb gülənlərin hamısı birdən soruşdu:

– Nəə?

Aqronom burdakıların hamısından cavan idi, üzünü işçilərə tutdu:

– Qalx, gör nə deyir, əə? – dedi. Elə dedi, elə bil burada bircə adam var. İşçilərin hamısı ağaca dırmaşdılar, hərəsi bir budağın üstündə, ayaqlarının ucuna qalxıb kəndə baxdılar, amma heç birinin boğazı arıq kişinin boğazı kimi uzanmadı.

İndi də aqronom altdan-yuxarı baxırdı, yenə yastı-yastı soruşdu, yenə elə soruşdu ki, elə bil ağacın başında bircə adam var idi:

– Nolub əə?

Belə deyəndə elə bil ağacı kimsə silkələdi, adamlar elə bil almaydılar tırpatırpla töküldülər:

– Başın haqqı, nəsə var, – dedilər.

Uzunboğaz kişi hələ də ağacın başındaydı:

– Hamı Mahmud kişinin qapısına gedir, – dedi, – nolubsa orda olub!

Mahmud kişinin həyətində iynə atsan yerə düşməzdi. Telli arvad yenə kövrələ-kövrələ deyirdi:

– Can bala, can, kim qarğıdı sənin qismətini, öz payın olsun, uğur üstəsən!

Sol qonşuyla sağ qonşu daha Telli qarıya fikir vermirdilər, qıza-gəlinə baxırdılar. Sonra sol qonşu sağ qonşunun qulağına sarı əyilib pıçıldadı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Aaz, heç qıyıb düşmən düşməninə demir ki, qapın quruya qalsın, ağacın bitməsin. Yazıq Telliyə nə dərd idi üz verdi?!

Sağ qonşu da başını bulayıb, gələnlərə göz gəzdirdi, dedi:

– Daha eldə, obada da qalmayıb, aaaz bu yas yeridi daa, birciyəzi başına qara bağlamayıb.

İki-üç arvad, bir-iki qız-gəlin keçib sağ qonşuyla sol qonşunun yanında əyləşdilər. Sağ qonşu özünü saxlaya bilmədi:

– Bir qara yox idimi, başınıza bağlayaydız, ağnan, qırmızıynan da yasamı gələllər?

Arvadlar qabaqca bir-birinin üzünə baxdılar, sonra biri dedi:

– Mənim qara kəlağayım yoxdu, heç olmasın da, heç qonuma-qonşuma da qara geyim arzulamıram, nolub ki, qara geyinəm?

O biri arvadlar da tez-tələsik dedilər:

– Mən də qara geyinmərəm, nolub ki?!

Gəlinlərdən biri yaxınlaşıb Telli qarını qucaqladı:

– Uzaqdan-uzağa səsini eşitdim, ürəyim qana döndü, – dedi, – ağacdı, quruyub-quruyub, nəvəyin sağlığına, birin də əkərik, kövrəlib, bizi də kövrəltmə.

Bu yerdə traktorçular içəri keçdilər, armud ağacını üzük qaşı kimi bürümüş arvadları, gözüyaşlı Telli arvadı, fikirli-fikirli dayanmış Mahmud kişini, bu boyda yığnağı görüb bir-birilərinə baxdılar, sonra da yaxınlaşıb soruşdular:

– Nolub?

Onlar belə deyəndə Mahmud kişi ağaca sarı getdi, bir az da baxdı, baxdı, sonra ağır, qoca səsiylə ağacın dörd yanında bardaş qurmuş arvadlara dedi:

– Geri çəkilin!

Arvadlar yerlərindən durmadılar, dizin-dizin sürünüb, geri çəkildilər, bayaq necə oturmuşdularsa, yenə eləcə əyləşib, yerlərini rahatladılar.

Mahmud kişi ağacın dibini qazmışdı, əyilib ağacın kökündən tutdu, xeyli əlini çəkmədi, sonra qanrılıb bir-iki öz yaşıdı qocalara baxdı, dedi:

– Ölməyib hələ!

Elə bu yerdə işləyənlər, başda da arıq, uzunboğaz kişi, gəlib çatdılar, qapının ağzında Mahmud kişinin dediyini eşitdilər:

– Ölməyib hələ!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ona görə də qapını tələsik açdılar, yığnaq üstə çıxıb hərəsi bir səmtdə quruyub qaldılar.

Mahmud kişi camaatdan aralanıb yavaşca-yavaşca evə sarı getdi, böyükdən tutmuş kiçiyə qədər, onun ardınca baxdılar.

İri bir baltayla qayıtdı. Camaatın arasına pıçıltı düşdü:

– Kəsəcək deyəsən.

Mahmud kişi ağacdan üç-dörd addım aralı əyləşdi, baltanı dizlərinin üstünə qoyub ağaca baxa-baxa itiləməyə başladı. İtiləyə-itiləyə də deyinirdi:

– Kəsəcəm səni, doğrayıb oda qalayacam!

Yığnaqda nə qədər qoca var idi, arvaddan arvad, kişidən kişi, cavanlardan ayrıldılar. Biri gedib hasarın dibindən paslı, köhnə dəmir qırıqları yığıb ağaca sarı gəldi, dəmiri qaldırıb ağaca vurmaq istədi, qocalar hay-küylə onu tutdular:

– Vurma, vurma yazıqdı!

Cavanların heç biri heç nə anlaya bilmirdi, çoxu gülürdü. Səməd yoldaşlarına sarı döndü.

– Niyə belə eliyir, əə, bunnar?

Birdən-birə Telli qarı da ayağa durdu, yanındakı qarılara üz tutub qışqırdı, hay-həşir saldı:

– Qalxın, daşqalaq eləyək bu ağacı, ay camaat, niyə durursuz, hərəniz bir daş atın, bu kökü dağılmışa!

Yenə heç kəs heç nə başa düşmədi, qızlar-gəlinlər qaldı, qarılar hərəsi əlinə bir daş götürdü, ağacın üstünə gəldilər, qarılardan biri onlara qarşı durdu:

– Vurma, vurma yazıqdı!

Mahmud kişi qalxıb baltanı başı üstə dolandırıb ağacın üstünə yüyürdü:

– Buraxın məni, – dedi, – doğrayacam bunu.

Qarılar, qocalar hərəsi bir yandan kişini tutdular, Mahmud kişi var gücüylə bağırırdı:

– Yox, buraxın məni, kəsib doğrayacam bunu!

Mahmud kişi xeyli çırpındı, axırda qocaların əlindən çıxdı, baltanı başı üstə tovlaya-tovlaya ağaca sarı yüyürdü, ayıl, namərd, kəsdim səni! – deyib baltanı endirdi, baltanın ağzı ağaca sancıldı. Mahmud kişi bir əli baltanın sapında döndü:

– Su gətirin, – dedi.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gəlinlər su gətirdi, baltanın üstündən su tökdülər, Mahmud kişi baltanı çıxarıb aralandı, əyləşib gendən-genə tamaşa elədi, papağını çıxartdı.

Əlində dəmir olan qoca, dəmirləri ağacın dibinə sancdı, qarılar əllərindəki daşları ağacın dibinə yığdılar.

Aqronom silkələnə-silkələnə güldü. Belə ancaq kök adamlar gülərdi, amma aqronom arıq adam idi.

Güldü, irəli yeridi:

– Belə şeylə ağac diriltmək olmaz, gedin işinizdə, gücünüzdə olun! – dedi.

Uzunboğaz kişi aqronoma sarı gəldi:

– Yəni, – dedi, bu kitaba yazılmayıbmı, ay yoldaş aqronom?

Aqronom yenə silkələnə-silkələnə güldü:

– Nə gəzir belə şeylər kitabda, – dedi.

Mahmud kişi papağını çıxardıb dizinə keçirtmişdi, qalxdı, papağı əlinə vurub çırpdı, o yan-bu yana göz gəzdirib dedi:

– Başınıza dönüm, ay camaat, var olun, eldən əskik olmayın, xeyirdə görüşək həmişə, zəhmət çəkdiz gəldiz. Bir həftədən sonra sağlıq olsun, armud tumurcuqlasa, qonağımsız, ağacın şənliyini keçirmək istəyirəm.

Qocalar bir-bir görüşüb ayrıldılar, camaat yavaş-yavaş dağılışdı...

Səməd yoldaşlarıyla əkin yerinə sarı getdilər. Heç biri dinmirdi, handan-hana Səməd dedi:

– Ə, sən öl, bu ağacı indən belə bitən görsəm, sözüm yoxdu daha. Ə, day bu adam oldu, ağac olmadı ki?

...Bir azdan Səmədgilin traktorları işə düşdü, səsləri yenə dünyanı başına götürdü. Kəndin dörd yanı alçaqlı-hündürlü təpələr idi. Səmədgilin traktorları da genağızlı kotanları torpağın bağrıyla təpələrin ətəyinə sarı dartırdı. Dolaşalar yenə çığırışa-çığırışa traktorların üstündə vumuxurdular...

...Uzunboğaz kişi yenə bayaqkı ağacın başına çıxmışdı, quru budaqları arıdırdı, amma daha qaravəlli danışıb gülə bilmirdi, aşağıdakılar da elə bil nə haqdasa fikirləşirdilər.

Uzunboğaz kişi soruşdu:

– Yoldaş aqronom, deyirsən, kitaba yazılmayıb, hıy?

Belə deyəndə işçilərin hamısı əllərindəki işi qoyub aqronoma baxdılar. Elə bil buradakıların hamısı uşaq idi, aqronom da müəllim. Aqronom elə müəllim kimi də dedi:

– Bunnar hamısı yalan şeylərdi, inanmayın, işinizi görün!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Amma işçilərin heç biri inana bilmirdi, uzunboğaz kişi ağacın başında, əlində də quru budaq, quruyub qalmışdı.

İşçilərdən biri, məktəbli kimi nazik, bir az da qorxulu səslə aqronoma dedi:

– Yoldaş aqronom, ağacın bu cür sağalmasını görməmişik axı, ağacı qorxudub səksəndirillər, o da səksənib oyanır!

İşçilərin hamısı birdən "həə", – dedilər. Uzunboğaz kişi də ağacın başından "hə", – dedi.

Arıq aqronom kök adamlar kimi silkələnə-silkələnə güldü:

– Ə, siz doğrudan da uşaqsız ki, heç ağac da səksənərmi, belə şeylə ağacmı sağalar, ə, bu nağıldı?!

Aqronomun belə deməyi işçiləri çox kədərləndirdi, uzunboğaz kişi hamıdan çox kədərləndi.

Onlar istəmirdilər ki, ağacın bu cür sağalması nağıl olsun. Aqronomun belə deməyilə elə bil onlar nəsə itirirdilər. Ona görə də uzunboğaz kişi ağacın başında, qalanları yerdən dumanlı-dumanlı aqronoma baxırdılar.

Aqronom yenə başını silkələyib güldü:

– Ayə, sizə nə deyim!

...Üç günmü keçmişdi, beş günmü, dünyanın dırnağının ucunacan yaşıllıq idi. Elə yaşıllıq ki, deyirdin, bu daşlar, bu qayalar niyə göyərməyib görən?!

Qış ətəyini çırmalaya-çırmalaya uzaqlaşmışdı, qalmışdı dağların kəlləsində. Qoyun-quzu daha görüb, ayaq döyüb mələmirdi. Kəhər başını silkələyib kişnəmirdi. Bir yamacın yaşıllığına sancılıb otlayırdı.

Səmədgilin traktorları düzü-dünyanı qaralamışdı, indi də bu qaranlığın üstüylə toxum səpirdilər, dolaşalar yenə çığırışırdılar, amma səsləri dəyişmişdi, səslərində sevinc vardı, toxluq vardı, dən görüb, göyün göylüyündə oyun çıxarırdılar.

Əkinin bir yerində Səməd yenə traktoru saxladı. Təkərlərin üstünə çıxıb kəndə sarı baxdı, kənddə yenə qaynaşma gördü. Amma bu, ogünkündən seçilirdi. İndi başlarında xonça tutmuş qızlar, gəlinlər Mahmud kişigilə gedirdilər.

Traktorlar sırayla dayandı, traktorçular yenə bağırışdılar, elə bağırışa-bağırışa da bir-birilərinə sarı gəldilər. Biri dedi:

– Ay Səməd, ə, sən öl, ağac çiçəkləyib deyəsən. Onun şadlığıdı!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elə bu sözdən sonra kəndə sarı götürüldülər...

...Kolxozun bağı çiçək içindəydi, ağaclar ağappaq gül açmışdı. İşçilər ağacların dibini yumşaldırdılar. Uzunboğaz kişi boğazını uzadıb kəndə sarı baxdı, nə gördüsə yerdən nərdivanı götürüb ağaca söykədi, qalxıb yenə kəndə baxdı. Elə nərdivanın başından qışqırdı:

– Mahmud kişinin ağacı çiçək açıb, sən öl!

Hamı ona sarı qaçdı, bir-bir nərdivana çıxıb baxdılar, baxıb düşən də kəndə sarı götürüldü.

Aqronom uzaqdan əlini yelləyə-yelləyə gəlirdi, amma o gəlib çatana kimi işçilərdən heç biri qalmadı...

Mahmud kişinin həyətindən səslər gəlirdi:

– Gözünüz aydın olsun, həmişə belə xeyirə gələk!

Mahmud kişilərə, Telli arvad da arvadlara dil-ağız eləyirdi:

– Siznən belə, siznən bir yerdə, həmişə xeyir içində olun, otunuz bitsin, suyunuz axsın!

İşçilər həyət qapısını açıb içəri keçdilər, armud ağacına qırmızı bağlamışdılar. Qırmızı yelənli kəlağayılar, bayrağa dönüb yellənirdi. Ağacın qol-budağı yaşıl-yaşıl tumurcuqlar içindəydi. Baltanın çapığı yara yeri kimi görünürdü. Mahmud kişi yeriyib ağacın çapığına əl çəkdi, sonra hər səmtindən bir qoca gəldi. Mahmud kişiyə oxşayan qocalar idi. Ağacın dibində diz çökdülər, gülə-gülə bir qırmızı kəlağayıyla ağacın yarasını sarıdılar.

Telli qarı: "Həmişə toyda, bayramda olun", – deyib ağacın dörd yanına xalılar, xalçalar saldı. Qabaqca qocalar əyləşdilər, sonra da cavanlar. Güllü-güllü sinilərdə fəsəli gəldi, süfrəyə düzüldü. Bağın bir küncündə Səmədgil üçün stol qoyulmuşdu, Səmədgil gülüb nə haqdasa him-cim eləyirdilər. Biri qalxıb evdən pencəyinin arasında bir bükülü gətirdi, stolun üstünə qoydu, araq şüşəsi idi, Səməd tez şüşəni götürüb qocalara sarı getdi:

– Ayıbdı, gizlət, – dedi.

Aqronom qapının ağzında dayanmışdı, gözlərinə inanmırdı, tumurcuqlanmış armud ağacına dumanlı-dumanlı tamaşa eləyirdi. Ağacın bu yaşıl tumurcuqlarının olmasına da heç cür inanmaq istəmirdi.

Bağın başında da çalğıçılar əyləşmişdi. Ovurdlarını doldurub başladılar çalmağa, qarazurnanın səsi kəndi başına götürdü.

Mahmud kişi qalxdı, əlini qaldıranda çalğı dayandı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ay camaat, – dedi, – bu armud ağacını ki görürsüz, sağlıq olsun, payız meyvəsinin hamısını dərib uşağa göndərəcəm, əsgərliyə, qoy yoldaşlarıyla yesin.

Belə deyib əyləşdi, çalğıçılar təzədən başladı. Uzunboğaz kişi də, o biri işçilər də sevinc içində gülürdülər.

Aqronom uzunboğaz kişinin güldüyünü gördü, nə fikirləşdi, nə fikirləşmədi, yaxınlaşıb dedi:

– Di qalxın gedək, iş-güc qaldı, baxdız bəsdi!

İşçilər, uzunboğaz kişi də başda, qapıya sarı döndülər. Telli qarı onların qabağını kəsdi:

– Ağacın şirinliyindən dadmamış hara gedirsiz?!

Sonra sinidən fəsəli götürüb hərəsinə birini payladı, aqronomasa lap yekəsini seçib verdi...

*1974*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# FÜŞKÜRƏK

*Elbəyin iki yaşına*

İmran toru siyirmədən çıxartdı, çiyninin üstündən qanrılıb oğlunu səslədi:

– Elbəy, bə sənə nə alım? Gəl görüm, gəl görüm, tez-tez-tez!

Bu axırıncı "tez-tez-tez" sözləri ilə gərək Elbəy yerindən duraydı, bu sözlər dədəsinin dilindən düşməmiş özünü onun üstünə salaydı.

Amma Elbəy öz işindəydi. Maşınların səs-küyündən qulaq tutulurdu. Bu səs-küy Elbəydən yan keçməkdəydi. Özünün balaca-balaca təpələri vardı, nağıl filmlərdə gördüyü güləyən qız üzünə oxşayan günəş kimi günəşi vardı. Dədəsinin danışdığı ağ-ağ, qırmızı-qırmızı atlardan ilxısı vardı. Onun bu dünyasına heç bir səs yaxın düşə bilmirdi.

Dədəsi gördü Elbəy eşitmədi, uzun-uzadı füşkürək çaldı. Nənəsi başını qaldırıb gözlüyünü düzəltdi.

– Elə ona görə bərəkətimiz yoxdu, – dedi. – Neçə kərə demişəm evdə füşkürək çalma.

Elbəyin qurduğu dünya özündən balacaydı. Bardaş qurub balaca təpəli, balaca günəşli, balaca işıqlı dünyasının başı üstünə əyilmişdi. Özü-özünə nağıl danışırdı.

Dədəsi də qəribə bir istəklə Elbəyə baxırdı. Elbəy öz-özünə danışdıqca qulaqları xırdaca-xırdaca tərpənirdi. Sevincdənmi, istədiyindənmi nədənsə dədəsinin ürəyi sıxılan kimi oldu. Elbəyin qarşısında balaca bir maşın vardı, içində də tənəkədən bap-balaca bir oğlan. İstəyirdi o tənəkə oğlanın yerinə olsun, otursun, bu balaca maşında. Amma dumanlı-dumanlı da olsa ağlı kəsirdi ki, bu balaca maşına girə bilməyəcək...

Bu balaca maşınsa şəhərin içi ilə, dədəsinin neçə gün qabaq gəzdirdiyi yerlərlə baş alıb getməkdəydi. Dədəsinin danışdığı, ağ-ağ, kəhər-kəhər atlar da Elbəyin ardınca düşmüşdü.

Elbəy elə bil nəfəs almağı da yadından çıxartmışdı, içini çəkə-çəkə gülümsəyirdi. Bu, gülümsəməyə də oxşayırdı, ağlamağa da. Dədəsinin səsi bir də gəldi:

– Nənə kökə istəyir, ana süd. Gəl görüm, sən nə istəyirsən, sənə nə alım?

Ağ-ağ, kəhər-kəhər atlar dədəsinin səsi ilə əridi, qəribə-qəribə rənglərlə axıb yox oldu...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elbəy dədəsinin dediyini xeyli sonra anladı: "Nənə kökə istəyir, ana süd..."

Nənə də, ana da evin o başında dayanmışdılar, əllərindəki işi qoyub sevinc içində Elbəyin böyüklər kimi fikir çəkməyinə, qəmlənməyinə baxırdılar.

Elbəy ayağa durdu, hələ ayılmamışdı. Ağ-ağ, qırmızı-qırmızı atların yerişi, yürüşü başında, dədəsinə sarı getdi. Anası da o yandan gəldi, çöküb Elbəyi qucaqladı:

– Oy, oy,-dedi, – dərd çəkən balama baxın, ay Allah...

Elbəyin nənəsi kövrəlmişdi, divanın üstündə oturub tez-tez burnunu çəkirdi. İmran əlini oğlunun başına qoydu:

– Nənə, – dedi, – kökə istəyir, ana süd, bə sənə nə alım?

Elbəy altdan yuxarı dədəsinə baxdı, gözləri iri-iri açıldı, dərindən nəfəs dərdi, çünki artıq nə tənəkə oğlanın maşını vardı, nə də ardınca gələn ağ-ağ, qırmızı-qırmızı atlar.

– Mənə maşın!

İmran güldü:

– Qadan alım, – dedi, – maşın dükanına getmirəm ki...

– Onda at al.

– Yox ey, orda at da satılmır.

– Bə nə satılır?

– Kolbasa, ət, balıq, yağ, süd, kökə... – Əlindəki toru göstərdi, sonra dartıb uzatdı, – bax, bu toru belə dartacam, dartacam, sonra atacam dükana. Torun burasından içəri balıq, kolbasa, ət, yağ, süd, kökə dolacaq. Tez ağzını bağlayıb çağıracam: "Elbəy, gəl, Elbəy gəl!" Sən gələnə kimi balıq sürüşüb tordan çıxacaq, ardınca da kolbasa, ət, yağ... Tez dartıb bağlayacam, qalacaq kökə, bir də süd... Kökə – nənəyə, süd – anaya, bə sənə?

Elbəyin yenə fikri özündə deyildi...

İndi də iri bir tor idi, evlərinin yanındakı dükana atmışdılar, bir tərəfdən dədəsi tutmuşdu, bir tərəfdən özü.

Yenə elə gülümsəyirdi ki, daha çox ağlamağa oxşayırdı. Nənəsi divanın üstündən İmrana acıqlandı:

– Niyə üzürsən uşağın ürəyini, bu nə xasiyyətdi, bilmirəm, səndə? Nə tapmısan nağılı qarada, hansımıza xeyir verdi nağıl? Çıxıb dinməz-söyləməz gedə bilməzsənmi, işinə?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qarı belə deyəndə anası uşağı qucağına götürdü, üzündən öpdü:

– Ca-an, ağrın alaram, – dedi. Ərinə sarı döndü. – Yaxşı, sən allah! Kolbasa istəyir var, balıq istəyir var. Nolub, yoxa çıxardıb, nağıla döndərmisən hamısını? Dinməz-söyləməz get, nə deyirlər al, gətir. Onsuz da bilirəm, yarıdan deyilsən.

Dönüb uşağın üzündən bir də öpdü, qarıya sarı getdi:

– Bir yana çıxartmaz, gəzdirməz, qalıb tək-tənha, özü-özüylə. O qədər nağıl danışıb, başı açılmır, uşağın nağıldan. Bizə də nağıl kimi baxır.

Arvadın sözü İmranın da ağlına batdı. Birdən-birə anladı ki, doğrudan da nağıl-zad lazım deyil. Əgər at yoxdursa, Elbəy heç vaxt ata minməyəcəksə, atdan nağıl quraşdırıb uşağın ürəyini üzmək nəyə gərəkdi?

Toru cibinə qoyub qapıya sarı getdi, qanrılıb Elbəyə sarı baxdı. Elbəy anasının qucağındaydı. Amma anasının qucağında olduğundan da xəbəri yox idi...

...Toru atmışdılar evlərinin yanındakı dükana, bir tərəfdən özü tutmuşdu, bir tərəfdən dədəsi, dartırdılar.

İmran özündən asılı olmayaraq başını yellədi.

Küçəydi, iynə atsaydın, yerə düşməzdi. Bu adamları İmran yalnız indi görə bildi. Elbəy təzədən gözlərinin önünə gəldi. Qulaqlarını tərpədə-tərpədə özü-özünə nağıl danışırdı. Dünyanın bu səs-küyü Elbəydən yan keçməkdəydi. İmranın oğluna yazığı gəldi. Başını qaldırıb eyvanlarına baxdı.

Kimsə füşkürək çalırdı. Döndü, arıq, uzun bir kişi idi. Başında rəngini gün döymüş panama vardı. Üzülüb, süzülməkdə olan kostyumu tər-təmiz, səliqəli idi. Özünü dartıb, diri-diri yerisə də yerişində, görünüşündə bir sınıqlıq vardı. Üzündə sarı lampaların işığına bənzər bir rəng dolaşırdı; içkidəndi, yuxusuzluqdandı, bilmək olmurdu.

Qədim bir hava çalırdı. İmran ha fikirləşdi, bu havanı xatırlaya bilmədi. Fəhmlə kişiyə baxdı. Kefdən deyildi hər halda. Üzündə-gözündə mahnının rahatlığı yox idi. Anasının sözləri yadına düşdü: "Evdə füşkürək çalırsan, ona görə də bərəkətimiz yoxdu".

İmran dükana girdi, kişi də dalınca. Dükana girən kimi füşkürəyini yavaşıtdı, özünü yığışdırdı. Boyu daha da uzandı. Balacalı-böyüklü hamı çəkilib ona yol verdi, kişi əlini bir uşağın başına qoyub gülümsədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

İmran yenə xatırlaya bilmədi ki, hansı havadı kişinin çaldığı. Fikirləşə-fikirləşə qənd götürdü, un götürdü, nə demişdilər götürüb tora yığdı. Tor uzanıb az qaldı yerə dəyə. İmran oğluna danışdığı nağılı xatırladı: "Toru atacam dükana, balıq, ət, yağ, hamısı dolacaq içinə, səni çağıracağam..." Süd qutularının üç-dördünü götürüb tora atdı.

İstədi Elbəy üçün yenə bir nağıl quraşdırsın, onun fikirli gözlərini xatırlayıb vaz keçdi. Sonra bir dənə kökə götürdü. İstədi kökə nağılı da düzəltsin, ondan da vaz keçdi, əlini yelləyib aralandı.

Qəssabın yanından keçirdi, çəngəldən qoyun cəmdəkləri asılmışdı... Daha özünü saxlaya bilmədi.

"Biri var idi, biri yox idi, Elbəy bir kəlin qoyun var idi, bir gün... bu kəlin qoyun dedi...

– Qoyun danışmaz axı, dədə!

– Qulaq as, məcbur eliyəndə danışır. Bu kəlin qoyun bir gün..."

Kassanın qabağına çoxlu adam yığışmışdı. Növbəyə düzülüb xırdaca-xırdaca irəliləyirdilər. Kassada oturan qız başını qaldırmadan əlini uzadıb çəkirdi. Arada bir:

– Tez, tez, tez olun! – deyib növbədəkiləri tələsdirirdi. Elə bil camaatı hansı bir qorxudansa uzaqlaşdırmağa çalışırdı.

Kassanın altında balaca bir qutu vardı. Qutu göz-göz idi. Bu gözlər də irili-xırdalı pullarla doluydu. Elə bil tələsdiyindən bu pullara baxmağa qızın vaxtı çatmırdı. Pulla qızın arasında bir soyuqluq vardı. Baxan kimi bilirdin ki, o boyda pulun bu boyda qıza heç bir dəxli yoxdu.

İmran başını qaldırdı, gördü ki, füşkürək çalan kişidən sonra dayanıb. Kişinin dodaqları yenə yarıyumulu idi. Yenə çalırdı, amma səs-səmiri eşidilmirdi. Üzündə qəribə bir əzab vardı. Tez-tez dönüb ora-bura boylanırdı. Yanda keçid vardı, keçidin ağzında ağ xalatlı bir qız oturmuşdu. Dizlərinin üstünə güzgü qoyub gülümsədi, kişi də gülümsədi. Qızın yanından ötüb, çıxıb getdi... Toru dopdolu idi. Bircə İmran bildi ki, kişi pulunu verməyib getdi.

Kassada oturan qız İmrana baxdı, hirsli-hirsli:

– Dörd altmış! – dedi.

Bununla da ürəyi soyumadı, başladı deyinməyə:

– Elə bil gəzməyə gəliblər. Camaatı saxlamayın, pulunuzu verin, çıxın!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Füşkürəkdə yenə həmin hava çalınırdı. İmran ha boylandı, kişini görə bilmədi. Küçə dar olduğundandı nədisə füşkürək bütün küçəyə yayılmışdı. Adama elə gəlirdi ki, hamı füşkürək çalır. Musiqi İmranın başına elə düşmüşdü ki, keçib gedənləri də bu havayla yeridirdi, addım səslərini də bu havaya uyğunlaşdırmışdı.

Küçədə xoruzlu konfet satılırdı. İmran əlini cibinə saldı ki, xoruzlu konfetdən alsın. Pulu yox idi. Yadına düşdü ki, bayaq xırdanı almadı. Tələsik qayıtdı mağazaya.

Kassada oturan qız bir kəlmə sözə bənd idi. İmranı sudan çıxmışa döndərdi:

– Öyrəniblər, alıb-aldatmağa. Neçə dəfə verəllər bir xırdanı. İndi milisioner çağıraram, xərcin altda batarsan.

İmran söz tapa bilmirdi. Quruyub qalmışdı. Necə inandıraydı, necə deyəydi ki, məndən qabaqkı kişi pul vermədi getdi, mənim də başım ona qarışdı, xırdamı almadım.

Dönüb dinməz-söyləməz dükandan çıxdı. Kişinin füşkürəyi hələ də başında idi.

Öz eyvanlarının altında oğlunun səsini eşitdi:

– Nənə, salla məni, Məlikməmmədəm mən! Salla məni quyuya!

Başını qaldırdı, gördü oğlu paltar zivəsini sallayıb eyvannan aşağı, ağlayıb qışqırır:

– Nənə, *salla məni quyuya, mən Məlikməmmədəm.*

Tələsik dəhlizə döndü. Kişinin çaldığı hava indi yadına düşdü:

"Ağacda leylək yuva bağlar gedər..."

*1975*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## DÜNYANIN İŞIĞI

Kamilin üzünə gün düşən kimi oyandı, oyanan kimi də gecə yazdığı hekayəni xatırlamağa çalışdı, heç nə yadına düşmədi, yadına düşən təkcə yuxusu oldu, dağınıq-dağınıq, qorxulu-qorxulu yuxular idi ki, heç hara, heç nəyə yozmaq mümkün deyildi.

Stolun üstündəki kağızlara baxan kimi hekayəni xatırladı, canında qəribə bir sərinlik duydu, elə bil yuyunurdu.

O biri otağa keçdi, beşyaşlı oğlu evin ortasında oturub günün işığıyla oynayırdı.

Günün işığı dalğalı-dalğalıydı, ağappağıydı, beşyaşlı uşağın da bu ağlığın içində dünyadan xəbəri yoxuydu.

Kamil gecə hekayəni yazanda da bu mənzərəni, pəncərədən düşən işığın bu ağlığını gördü. Bu ağlığın, bu işığın içində də qəribə bir xoşbəxtlik duydu. Doğrudan da bu bir parça günün işığında qəribə bir sevinc var idi, beşyaşlı oğlu da bu sevincin içindəydi.

Azacıq əyilən kimi eləyib:

– Salam, ə, kişi qırığı! – dedi.

Amma kişi qırığı başını da qaldırmadan atasına sarı əlinicə uzatdı. Uşağın əli pəncərədən düşən işıq zolağından çıxdı, rəngini dəyişdi.

Kamil beşyaşlı oğluna əl verib kişiyana görüşdü:

– Necəsən, – dedi, – gəl bir öpüm səni!

Beşyaşlı kişi yenə başını qaldırmadı, əlini çəkib işığa saldı, kişilənə-kişilənə dedi:

– Kişilər öpüşməz, özün dedin ki, dünən!

Kamil özünü saxlaya bilməyib güldü, uşağın anası yerləri yığırdı.

O da uğunub getdi, sonra da qaşının-gözünün işarəsiylə başa saldı ki, al onun əlindən güzgünü!..

Kamil hələ də sakit-sakit, çiyni qalxa-qalxa gülürdü, gülə-gülə də dedi:

– Dəymə, qoy oynasın!

Sonra da dönüb divar saatına baxdı:

– Gün gedir, – dedi, – qoy oynasın uşaq!

Kamilin ürəyində qəribə bir rahatlıq, sevinc var idi. Arvadı gülümsəyə-gülümsəyə ona sarı gəldi, pəncərənin önündən keçdiyi üçün, işığın qabağını tutdu, uşaq qorxuylamı, hirsləmi, nəsə çox qəribə bir səslə çığırdı:

– Anaa!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Kamil bir anın içindəcə oğlunun qaralmış üz-gözünü gördü, elə bil* oğlunun üstündə işıq yanırdı, birdən bu işığı söndürmüşdülər. Arvadına sarı döndü, gileyli-gileyli dedi:

– Bu yannan niyə keçmirsən?!

Əlini qaldırdı, barmağını bir-iki kərə başına vurdu: yəni ağlın yoxdu sənin...

Arvad heç nə olmamış kimi, heç nə eşitməmiş kimi gülümsəməyindəydi.

İşığı yarıb keçəndə arvadın saçları rəng verib, rəng aldı. Kamil yenə axşam yazdığı hekayəni xatırladı. "Orda bir ev var idi, gün pəncərədən içəri düşmüşdü, işıq zolağının altında uzun, sünbül hörüklü bir qız oturmuşdu..."

Arvadının səsinə ayıldı:

– Altıncı gündü ki, bu gün. Hekayən çıxıb görəsən qəzetdə?

– Çıxmalıydı.

Bu yerdə arvadın səsi də, özü də elə bil uşaqlaşdı, elə uşaq səsiylə soruşdu:

– Neçə manat yazallar, Kamil? Yaxşı oldu!

Kamil də gülümsədi:

– Özləri bilər, – dedi, – nə qədər yazsalar sağ olsunlar.

Gün heç kəsin xəbəri olmadan qalxdı, işığı da yavaşca-yavaşca pəncərəyə sarı dartındı. Kamilin beşyaşlı oğlu da ardınca sürünüb pəncərənin qabağında işığın içində oturdu. Sonra da bu bir parça işıq döşəmədən qalxdı, Kamilin beşyaşlı oğlunun ayağından yığıldı-yığıldı, qalxıb başından çıxdı, qabaqca divara düşdü, uşaq da əlini divara qoydu, bir az da keçdi, daha uşağın əli çatmadı, bu bir parça işıq bir quş oldu, pəncərə*dən uçub getdi. Uşaq həmişəki kimi yenə işığın ardınca əl elədi...*

Kamil pencəyini geyindi, şapkasını başına qoydu, evin ortasında dayanıb arvadına baxdı, yenə gecə yazdığı hekayəni xatırladı. Həmin sünbül hörüklü qız gözlərinin önünə gəldi, birdən hiss elədi ki, sünbül hörüklü qız adam deyil, quramadı, belə bir qızı heç yanda görmüyüb, özündən uydurub, hekayənin zəifliyini hiss elədi, canı buza döndü...

Arvadı başını qaldırıb evin ortasında quruyub qalan ərinə baxdı, yenə gülümsəyib soruşdu:

– Qəzet almağa?

Kamil başıylaca "hə" dedi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arvadı xalatının cibindən bir ovuc xırda pul çıxartdı:

– Al, – dedi, – bayaqdan desən, gözləyirsən!

...Quşlu, maşınlı, səsli-küylü, yumşaq bir havaydı, günəş payız günəşiydi, dünyanın başına səpdiyi istiliyin özündə də bir sərinlik vardı.

Hava da, havanın, daha doğrusu dünyanın belə quşlu, belə maşınlı, belə səsli-küylü olması da, günəşin bu istiliyinin özündəki sərinlik də Kamilə ləzzət verdi, yenə hekayəsini xatırladı, yenə də hiss elədi ki, hekayə zəif çıxıb, ürəyinə damdı ki, gözlərini açandan gördüyü bu günü, bu günün bu istiliyini, bu istiliyin özündəki bu sərinliyi, oğlunun hər səhər oynadığı, sonra da ardınca əl elədiyi bir parça işığı yaza bilməyib... Yoğun, xırıltılı, əsəbi bir səs Kamili fikirdən ayırdı:

– Ay heyvan, ay kəndçi, hara tələsirsən, hara girirsən, maşının altına?!

Kamil bir anlıq heç nə anlaya bilmədi. Heç bilmədi bu səs hardan gəlir, qıpqırmızı bir "Volqa"nın qapısı çırpıldı, götürülüb gözdən itdi.

Kamil qulağının dibində, gözünün qabağında bağıran sürücünü görmədi, ha çalışdı xatırlasın, bacarmadı. Təkcə qırmızı "Volqa" gəldi, durdu gözlərinin önündə, qapısının ağzında da başsız bir qaraltı (Kamil sürücünü xatırlaya bilmədiyindən onu belə gördü...).

Sürücünün qolundan tutdu:

– Bəs sən hara tələsirsən, ay şəhərli, – dedi, – bir dəqiqə maşınnan gözləyə bilməzsən?

Maşınlı oğlan nəsə deyirdi, amma səsi eşidilmirdi, Kamilin çəlimsiz barmaqları, mürəkkəbli yumruğu onu qırmızı "Volqa"nın ayaqları altına sərdi. Fikirdən ayılıb gördü ki, maşınlar yanından yel kimi ötüb keçir, elə özü də o qədər bərk gedir ki, az qalır yüyürsün, bayaqkı xəyalına, maşınlı oğlana vurduğu yumruğa ləzzətlə gülümsədi, tez də peşman oldu ki, maşınlı oğlanın niyə cavabını vermədi vaxtında...

Sonra qırmızı "Volqa"nı da, maşınlı oğlanın qaraltısını da başından qovmağa çalışdı, elə bil oğlan maşınıyla bir yerdə Kamilin beynindən yapışmışdı. Kamil başını silkələyəndə titrədilər, yox olmadılar amma...

Kamilin yanından bir qız, bir oğlan keçirdi, yolun ortasında birdənbirə başını silkələyən bu qəribə adama baxıb güldülər, sonra da bərk-bərk bir-birinə sığındılar, elə bil bunnan ötrü bəhanə lazımmış.

Kamil nə səhər oğlunun üstünə düşən işığı, nə də gecə hekayəsinə düşən işığı xatırlaya bildi... Maşınlı oğlan elə bil oturmuşdu Kamilin beynində, qızıl dişlərini bir-birinə sıxıb xırçıldadırdı.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Kamil bilmədi qəzet köşkünün qabağına nə vaxt çatdı, qəzetsatan qoca bir kişiydi, ağappaq saçları vardı, gözlərində gözlük qəzet oxuyurdu. Kamil köşkün bacasından başını içəri saldı, üzünə isti dəydi, sevindi ki, kişinin yeri istidi:

– Əsəd dayı, səni xoş gördük!

*Kişi başını qaldırdı, gözlüyünü çıxartdı. Kamili görüb yerindən* dikəldi:

– Ay əleykəsalam, – dedi, – Kamil müəllim!

Kamil onun qurşaqdan aşağı doladığı saçaqlı şalı gördü, nənəsinə bənzər çalmalı, dingəli bir qarı gözlərinin önünə gəldi.

Kamil elə bil doğrudan da müəllim oldu, kişi də tələbə. Qoca uşaq kimi gülümsədi:

– Çıxıb, – dedi, – bu gün, hə, təbrik eliyirəm, özüm də oxudum, gözəl yazmısız.

Kişi həmişə Kamilin yazıları çıxanda ona "siz" deyirdi, qalan vaxtlar yox. Kamil gülümsəyib:

– İki dənə ver! – dedi.

*Kişi təzədən gözlüyünü gözünə keçirtdi, peşmançılıqla dedi:*

– Saxlamadım, gec gəldiz, dedim yəqin almısız... Bağışlayın, siz allah.

Kamil dayanıb dinməz-söyləməz baxırdı, kişi yenə gözlüyünü çıxardıb ona sarı əyildi:

– Hə, oğul, yaxşı yazmısız, Allah razı olsun sizdən, qəzet gələn kimi dağıldı. Rəhmətlik Əli Soltanlı, Səməd Vurğun, Mikayıl Rəfili qəzet alıblar məndən...

Kamil köşkdən başını çəkib dikəldi, Əsəd dayı bu gün də köhnə kişilərdən danışmaq istəyirdi, udqunub sözünü saxladı. Kamil bunu duyub gülümsədi:

– Eybi yox, – dedi, – Əsəd dayı, taparam, canın sağ olsun, hələlik!

*Kişi yenə uşaq kimi gülümsədi, bir-iki dəfə baş əydi.* Kamil heç cür ağlına sığışdıra bilmirdi ki, Əsəd kişi Bakıda yaşayır. Ona elə gəlirdi ki, Əsəd kişinin evi haradasa Abşeronun qurtaracağındadı.

Gəlib dayanacaqda durdu, maşınlı oğlan qırmızı "Volqa"sıyla bir yerdə Kamilin yanından çıxıb getmişdi. Evdən çıxanda gördüyü quşlu, maşınlı, işıqlı, səsli-küylü dünyanı təzədən gördü. Küçə boyu düzülən o pəncərələrdən düşən işığı, bu işığın içində oturan beşyaşlı uşaqları gördü. Bu uşaqlar da onun oğlu kimi işıqla oynayırdılar, tez-tez işıq zolağından çıxan balaca-balaca əllərinin rəngi dəyişirdi...



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Avtobus dayandı, sürücü maşındakı radionun mikrofonunu ağzına yaxınlaşdırıb gözəl, yaraşıqlı bir səslə dedi:

– Vətəndaşlar, xahiş olunur, qabaq qapıdan düşün, biletləri də göstərin.

...Avtobusda adam çox idi. Kamil başını irəli uzatdı, sürücüyə sarı boylandı, ondan qabaq hündür, dolusifətli bir oğlan dayanmışdı, çiyniylə Kamili geri itələdi. Yanındakı oturacaqda iki oğlan bir-birinə sarı əyilib qəzetə baxırdılar. Biri yarıpıçıltıyla oxuyub ləzzətlə güldü, o birisi də ona qoşuldu:

– Əla, – dedi, – sən bu yazıçını görmüsən?

– Yox, amma nəyi çıxıb hamısını oxumuşam!

Kamilin ürəyinə rahatlıq, istilik yayıldı, çiyinlərini tərpətdi, udqunub boğazını arıtladı, öz evini, sonra da bütün evlərə düşən işığı bu avtobusda da gördü, gördü ki, bu oturanların hamısı işıq zolaqlarının içində oturub. Elə indi hiss elədi ki, ayağı altındakı bu avtobus baş götürüb qaçır. Özü də elə qaçır ki, elə bil dünyanın bu işığının əlindən qaçır. Ona görə də avtobus bu evlərin kölgəliyinə keçəndə adamlar rəngdən-rəngə düşürdü. Qabaq sırada oturan sünbülsaçlı qız ona tanış gəldi, gecə yazdığı hekayəni xatırladı...

Yanında oturan oğlanlara sarı boylandı, sonra da başını irəli uzatdı ki, onların əlindəki qəzeti görsün. Ondan qabaqda duran bayaqkı hündür, dolusifətli oğlan hirslə geri döndü:

– Hara soxulursan? – dedi, – hara itələyirsən, ay heyvərə, qabağındakını adam saymırsan?!

Kamil yenə bir anlıq heç nə anlaya bilmədi, maşınlı oğlan gözlərinin qabağına gəldi, bayaq üzü-gözü yadından çıxmışdı, indi elə bildi qarşısında duran maşınlı oğlandı, çəlimsiz, barmaqları mürəkkəbli yumruğunu qaldırdı, hündür, dolusifətli oğlan saymazyana gülüb onun mürəkkəbli yumruğunu tutdu:

– Bir bu cüllütə bax, alə! – dedi, yanındakılara baxdı. Yanındakılar da iri, dolubədənli oğlanlar idi, biri əlini atıb Kamilin şapkasını gözlərinin üstünə basdı. Kamil istədi şapkasını gözlərinin üstündən qaldırsın, o biri oğlan onun əlini tutdu:

– Bir dənə vuraram, – dedi, – dörd bölük olarsan, düdük, beləcə dur!

Hər yan qaranlıq idi, göz-gözü görmürdü, bu qaranlığın içində Kamil işıq zolaqları gördü, oğlunun işıq zolağından çıxan, rəngini dəyişən əllərini gördü, sonra da qəhqəhələr eşitdi, avtobusda balacadan tutmuş böyüyə qədər hamı gülürdü.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Haçandan-haçana Kamilin qollarını buraxdılar. Kamilin çəlimsiz, mürəkkəbli barmaqları şapkanın günlüyündən tutub qaldırdı.

Gözlərini açıb gördü ki, hamı gülür, amma otuz-qırx adamı ayrı-ayrı görə bilmədi, təkcə bir canlı gördü. Elə bir canlı ki, otuz-qırx bədəni, otuz-qırx da başı varıydı.

Bu otuz-qırx başlı canlı Kamilin özünün də gülümsədiyini görüb təzədən güldü. Amma heç kəs Kamilin ürəyinin qışqırdığını eşitmədi, heç kəs bilmədi ki, Kamilin bu gülüşü, o gülüşdən deyil...

...Kamilin arvadı qapını açdı, açan kimi də soruşdu:

– Çıxıb?

Kamil başıyla "hə" dedi.

Arvadı onun ağarmış, arıqlamış üzünü gördü.

– Noldu yenə birdən-birə?

Kamil dinməyib evə keçdi. Arvadı arxadan oğlunu səslədi:

– Yaşar, atanı güldür, yenə işıqları sönüb!

Yaşar balaca arabasından düşüb atasına baxdı, çiyninin birini qaldırıb birini saldı, dodaqlarını yığıb, gülməli yerişlə ona sarı gəldi, atasının gülümsədiyini görüb təzədən özünü düzəltdi, cır səsiylə anasını səslədi:

– Ana, güldü...

Kamil əyilib gülə-gülə oğlunu qucaqladı, o üzündən, bu üzündən öpdü.

Yaşar barmaqlarıyla gözlərini göstərdi:

– Gözlərim qaldı, – dedi...

*1975*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# SAPAND

*Ay daş atan bəxtəvər,*
*Daşın da bir vaxtı var.*
***Dədələr sözü***

Kənd ev içi kimi silinib-süpürülmüşdü. Nə tozu-torpağı vardı, nə palçığı. Qapıların ağzına kimi asfalt idi. Amma asfalt çəkiləndən göylük-yaşıllıq camaatla üzə durmuşdu; yaz açılan kimi asfaltı dağıdıb töküb, üz verib çıxırdı.

Bağayarpağının balaca, damarlı yarpağı balaca, damarlı əl kimi asfalt-dan camaata sarı uzanırdı. Qocalar əli üzündə tamaşa eləyirdilər. Otun-əncərin belə gücü olduğunu ağıllarına gətirməzdilər. Oğul-uşaqsa söyüb-söylənirdi ki, asfaltımızı xarab eləyib. Daş götürüb yoncanın, bağayar-pağının balaca, damarlı yarpaqlarını əzirdilər, sonra da təzədən səli-qəylə hamarlayırdılar.

Kənd camaatı artıq şəhərli olmuşdu, kənd də şəhər olmaqdaydı. Daha evlərin bacasında tüstü görməzdin ki, bir vaxtlar gömgöy, əyrim-üyrüm zolaqlarla qalxırdı, göyün göylüyündə birləşib qəribə bir çətir yaradırdı. İndi antenalar, telefon xətləri, işıq xətləri evlərin üstündə hörümçək toruna oxşayırdı. Qaz kəməri çəkilmişdi. Evlərin hamısında odsuz-ocaqsız, qorxusuz-kösövsüz, gömgöy hirs, əsəb rəngində qaz yanırdı.

Ağ köynəkli, qara kostyumlu kənd cavanları dinc, qəşəng, ağappaq idilər. Kəndin iri, geniş yeməkxanasında pivə içirdilər. Kənddə olduq-ları yadlarında deyildi. Şəhərdən danışırdılar. Danışıqları şəhər danışığı idi. Kitab sözləri ilə uzada-uzada danışırdılar. Sevgiləri də şəhər sevgisi idi. Yəni gözaltılarına daha yazmırdılar ki, "yağış yağar, yer doymaz, mən səndən necə doyum?", "duman ollam sürünnəm, ulduz ollam görünnəm ardınca". Daha kim belə məktub yazıb güldürərdi camaatı?

Əlişin arvadı Pəri də şəhərlinin son geyimini geyinib ərinin qoluna girmişdi, şəhərli yerişi ilə qonaq gedirdi, Mahmud kişi hasardan başını uzatdı. Kişinin ağ saçı-saqqalı, saçaqlı papağı kəndin bu asfaltlı, təmiz, səliqəli görünüşü ilə heç tutmadı, hələ bir az da gülməli göründü. Saç-saqqalına yaraşası nazik, titrək bir səslə oğlunu çağırdı:

– Əliş, daş yenə qaldı, oğul!

Pəri hikkəli-hikkəli qolunu ərinin qolundan çıxartdı. Əliş də arva-dının hikkəsi ilə geri döndü, atasının hasardan görünən ağ başına baxdı.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əlini kəmərinə çəkdi, pencəyinin yaxasını açdı, qalstukundan dartdı, özünü didişdirə-didişdirə bağırdı:

– Əşi, əl çək məndən! Başımamı töküm daşı? Hər şeyin vaxtı var, daa!

Mahmud kişinin başı görünməz oldu. Əliş özünü düzəltdi. Pəri təzədən ərinin qoluna girdi. Başını da azacıq Əlişə sarı əydi. Kəndin geniş, gözəl səkisiylə addımladılar.

Pəri ilə Əlişi şəhər çiçəkləri ilə qarşıladılar. Zöhrə düzlərin-düzənlərin kənd çiçəyi hesab eləyib, şəhərdən iri-iri şəhər gülləri gətirtmişdi. İri bir dəstəni Pərinin qucağına qoydular. Pəri də şəhərli kimi güldü, başını çiçəklərə sarı əyib qoxladı. Zöhrənin əri Əlişə sarı gəldi. Zarafat eyləyirmiş kimi məzəli səslə:

– Nə deyirdi Mahmud kişi? Onu da gətirəydin də, – dedi.

Əliş çiyinlərini çəkib siqareti çıxartdı:

– Əşi, – dedi, – evi düzəltdirəndə artıq daş qalıb həyətdə, atmaq lazımdı. Elə ki görür geyinib bir yana gedirik, ardımızca qışqırır ki, daş qaldı.

Əliş əlini boğazına çəkdi, başqa heç nə demədi. Sonra ikisi də silkələnə-silkələnə güldü. Zöhrəgildə qonşu kənddən də adamlar vardı. Zöhrənin əri irəli durub "tanış olun!"– dedi. Pəri də, Əliş də əl verib adlarını dedilər. Amma qonşu kənddən gələnlər bilmədilər ki, ad demək lazımdı. Çünki qonşu kənd dağın üstündəydi. Hələ at minirdi qonşu kəndin adamları. Təzəcə-təzəcə şəhərli olmaq istəyirdilər. Amma hələ bilmirdilər bunu necə eləsinlər. Zöhrə qonaqları şəhər qaydasında bəzədilmiş böyük otağa apardı...

Mahmud kişi həyətin bir küncünə yığılmış daş-kəsəyin üstündə oturmuşdu. Əllərini də daşların üstünə qoymuşdu. Daş isti idi, Mahmud kişinin damarı çıxmış, solğun əllərini qızdırırdı. Kişi Telli qarını xatırladı, ayağa durdu, öz-özünə:

– Onu da sənin dərdin öldürdü, köpəkoğlu, – deyib oğlunun ardınca söyləndi. Gedib qarıdan qalan bağlamanı açdı. Gümüş kəmər idi, gümüş yaxalıq, dingə, bilərzik idi ki, daha heç kəsə lazım deyildi. Həyətə göz gəzdirdi: "Ölməmiş daşı daşıtdırsaydım".

Bağlamanın içində bir sapand da var idi. Bir vaxtlar Telli qarı Əliş üçün toxumuşdu. Mahmud kişi nəvəsini səslədi:

– Babək!

Əli balaca avtomatlı balaca Babək küçədə şəhər uşaqlarının oyununu çıxardırdı. Avtomatı döndərib babasının səsinə sarı sıxdı. Balaca avtomat yekə avtomatlar kimi od püskürürdü. Mahmud kişinin səsi yenə gəldi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Babək, gör nə tapdım sənə?!

Bunu eşidən kimi Babək özünü həyətə saldı. Babasının əlində tutduğu sapandı gördü, amma bilmədi nədi. Avtomatı üzünə qaldırıb bir də sıxdı. Balaca avtomat yenə yekə avtomatlar kimi şaqqıldayıb yalan yerdən odlandı. Babək narazı-narazı soruşdu:

– Nədi o?

– Sapanddı, bala.

– Sapand nədi?

O biri uşaqlar da gəlib kəsdirmişdilər qapının ağzını. Avtomatlarını qaldırıb hərəsi bir yandan kişini atəşə tutmuşdular.

Qapının ağzında bağlanmış ala it şəhər itləri kimi heç başını da qaldırmırdı. Toyuqların da heç vecinə deyildi. Təkcə hinduşkalar balaca avtomatların səsinə səs verirdi: qul-qul-qul. Mahmud kişi bilmədi sapandın nə olduğunu necə başa salsın. Bir sapanda baxdı, bir uşaqlara. Babək babasının susduğunu görüb avtomatı üzünə tutub bağırdı:

– Əllər yuxarı!

O biri uşaqlar da buna bənd idilər. "Ura" deyib kişinin üzərinə yeridilər. Mahmud kişi gördü uşaqları başa sala bilməyəcək, çöküb daşların üstündə oturdu. Uşaqlar daşların dalında daldalanıb səngərə yatdılar. Balaca avtomatların səsi ürəklərini soyutmurdu. Özləri də avtomat kimi səs çıxardırdılar. Bir neçəsi əlinə daş götürmüşdü.

Mahmud kişi bu vur-çatlasında bir onu fikirləşmədi ki, bu od ki balaca tüfəngdən çıxır, bə niyə istisi yoxdu? Od olasan, istin olmaya!

Kişi handan-hana gülümsədi, əllərini qaldırdı, sapand sallana qaldı. Elə bu cür yorğun-yorğun dilləndi:

– Gör sənə nə tapmışam, Babək?

Babək yenə fikir vermədi. Gözünün birini qıyıb avtomatı bir də sıxdı. Mahmud kişi bir əli ilə sapandın oymasını göstərib dedi:

– Bax, burasına daş qoy at!

Avtomatların taqqıltısı arasında bu, Babəkə çox qəribə gəldi, "daş qoy at".

İrəli əyilib əlini yavaşcadan sapanda toxundurdu. Bu vaxta qədər keçirmədiyi bir sevinclə:

– Harasına daş qoyum, baba? – dedi.

Uşaqlar daşların dalından çıxmışdı. Avtomatlarını atıb Mahmud kişinin başına yığışdılar. Mahmud kişi sapandın oymasını bir də göstərdi:

– Hə, burasınaca daş qoy, at!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bu da yalandandı, baba?

– Yox, bu doğrudan atır.

...Babək sapandın oymasına daş qoyub küçəyə çıxmışdı, səmt tapıb daşını ata bilmirdi. Mahmud kişi qabağını tutmuşdu.

– Bu yana olmaz, sədrin evidi, bizi işə salma!

– Yox, ora da olmaz, ora Zöhrə müəllimənin evidi. Atangil də ordadı, ayıbdı... Olmaz, görürsən ki, maşındı hər yan, tutallar bizi. Ver, başına dönüm, aparım saxlayım. Tüfəngini götür, o yaxşıdı, yalandandı.

Kənddən çıxmışdılar, dörd səmtin dördündə də iş gedirdi. Üzümlüklər idi, bağ-bağça idi, bostan idi.

Şər qarışmışdı. Babək daşını ata bilmədiyindən hələ də ağlayırdı. O biri uşaqlar da avtomatlarını atıb ata-analarından sapand istəyirdilər. Tapa bilmədikləri üçün onlar da ağlayırdılar.

Babək ağladı, ağladı, daşı da sapandın oymasında yuxuya getdi.

Gecədən xeyli keçmiş Əlişlə Pəri qayıtdı. Əliş kefli idi. Pəri Əlişin qolundan tutmuşdu. Həyətə keçəndə dartdı ki, bu yana gəl, daşa ilişərsən.

Daş Əlişin yadına təzədən düşdü. Gecənin qoynuna bir-birilə uyuşmayan cümlələr yağdı. Neynim daş var, hanı? Əcəb eləyirəm! Çəkmə məni, qoy ilişim! Yatmıram, sallama məni qəbrə.

Mahmud kişi yenə də daşı fikirləşirdi ki: "Öləcəyəm, o dünyada yığacaqlar üstümə ki, o daşı niyə həyətdə qoyub gəldin?!"

Beləcə, Əlişlə Pərinin səs-küyü kəsildi, kişini də yuxu apardı. Yuxusunda da daş gördü. Gördü, həyətdəki daşlar elə çoxalıb ki, bütün kəndi basıb.

Hənirtiyə gözlərini açdı. Gördü gün qalxıb, hənirti də qonşunun həyətindən gəlir. Evdə heç kəs yox idi. Əliş də, Pəri də işə getmişdilər.

Mahmud kişi ayağının burnunda hasara yaxınlaşdı. Qonşunun şəhərdə oxuyan oğlu gəlmişdi, idman eləyirdi.

Boy-buxunlu, pəhləvan gövdəli bir oğlan idi. Qurşaqdan yuxarı soyunmuşdu. İri əzələləri şişib kündələnmişdi.

Hardansa iri bir daş tapmışdı, həvəslə, ürəklə qaldırıb, endirirdi. Kişi baxdı, baxdı elə heyifsiləndi ki, az qaldı hasarın başından qışqırsın: "Ay bala, əl saxla qolun hayıfdı!"

Elə hesab elə ki, qış günlərindən birində iri bir ocaq kimsiz-kimsəsiz, boşuna yanır. Ya da ki, gözəl, yaraşıqlı bir atdı, yer əkmirlər, yol getmirlər, böyük bir daş qoşublar, at da yeri-yurdu yaralaya-yaralaya o yana sürüyür, bu yana sürüyür...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kişi dayanıb tamaşa eləyirdi. Elə həyətdəki daşı daşımaq üçün Mahmud kişiyə beləcə bir qol lazım idi. Kimi görürdü yalvarırdı: "Kömək elə, bu daşı daşıyaq".

Babək qalxıb həyətə çıxdı. Əlində sapand o yan-bu yana döyükdü. Babasını görüb yaxınlaşdı. Ağlamsınan kimi eləyib, qolundan çəkdi:

– Gedək, ataq! – dedi.

Mahmud kişi uşağın başını sığallayıb çarəsiz-çarəsiz dilləndi:

– İndi atmaq olmaz, başına dönüm, bir qarış boş yer yoxdu, gördün, dünən də yer tapa bilmədik.

Babək ayağını yerə döyüb ağladı. O biri uşaqların da səsi gəlirdi. Anaları söylənirdi. Amma bu söylənmək kənd söylənməyi deyildi, şəhər söylənməyi idi. Çünki nə qarğış eləyirdilər, nə də döyürdülər. Uşaqlar avtomatlarını yerə çırpıb, "bunu istəmirik" dedilər.

Babək birdən ayağa durdu:

– Öz evimizi vuracağam! – dedi.

Mahmud kişi xeyli söz tapa bilmədi. Uşaq gedib evləri ilə üz-üzə durdu, sapandı yellətdi ki, atsın. Mahmud kişi qolundan tutdu:

– Onda, – dedi, – arxasından vur, burdan şüşəni qırarsan.

...Əliş həyətin bir küncünə gübrə tökmüşdü. Gübrə tökülən yerdə yaşıllıq qalxıb adamboyu olmuşdu. Əliş də tez-tez atasına göstərirdi ki: "Görürsənmi, bəyənmirsən gübrəni, sənə deyirəm bağa-bostana da tök!"

Mahmud kişi torpaq adamı idi. Torpağın dilini elə bilirdi ki, elə bil açan tumurcuğun, çıxan cücərtinin səsini eşidirdi. Gübrənin böyütdüyü bu yaşıllığa baxan kimi də gördü ki, yarpız, əməköməçi, yonca, bağayarpağı böyüməyib, şişib. Bir-iki kərə dedi, heç kəsi inandıra bilmədi ki, bitkinin bu böyüməyi böyümək deyil, şişmədi. Kişi bu rəngi, bu şişi oğlu Əlişin də üzündə görmüşdü. Ona görə də çəkinə-çəkinə də olsa, deyirdi:

– İçmə o zəhirmarı!

Babək gübrə tökülən yerdən keçəndə otun-ələfin içində görünməz oldu. Evin arxasına keçdilər. Babəkin hələ gözü yaşlı idi. Amma sevinirdi, daşını atmağa yer tapmışdı. Sevinə-sevinə sapandı fırlamağa başladı.

Hələ də qonşu oğlanın hənirtisi gəlirdi.

Mahmud kişi narahatlıq içində idi. Yaxşı bilirdi ki, nolur olsun, Babək bu daşı atmalıdı...

*1976*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# QAR

Həlimə xanım gözlərini açan kimi pəncərəyə baxdı, gördü ki, şüşələrdə qəribə-qəribə naxışlar var. Qalxıb pəncərədən boylandı, düzü-dünyanı ağappaq gördü, məəttəl qaldı. Düzü-dünyanı deyəndə ki, gözünə görünən alçaq-alçaq, əyrim-üyrüm təpəliklərə düşmüş şəhəriydi, şəhərin iri-iri, uca-uca evləriydi, köndələn-köndələn, döngəli-döngəli yollarıydı...

Qarı görən kimi üşüdü, zər-xaralı xalatına bükülüb:

– Aa, qar! – dedi.

Qarın yağmasındanmı, düzün-dünyanın ağappaq olmasındanmı, nəydisə, səsi çox gur çıxdı:

– Aa, qar !..

Amma Murad oyanmadı, çünki yuxusunda qar yağırdı, elə bildi arvadı Həlimə xanım da yuxusunda deyir: "Aa, qar!.."

Yuxusunda qar yağdığı üçün yorğana elə bükülmüşdü ki, bircə burnunun ucu görünürdü. Həlimə xanım yırğalana-yırğalana gəldi, barmağını bir-iki kərə ərinin burnuna vurdu:

– Qar yağır, Muradçik!

Amma Muradın yuxusu şirin idi. Dayanmışdı pəncərənin ağzında, küçəyə tamaşa eləyirdi. Küçədə də Bəybalanın, Böyükağanın, Atobbanın oğlanları qartopu eləyib düşmüşdülər qonşu qızın üstünə. Özündən otuz yaş kiçik olsa da, Muradın o qızda gözü vardı.

– Qar yağır, ay Murad!

Həlimə xanımın səsi küçədən gəlirdi, amma nə qədər boylanırdısa görə bilmirdi. Həlimə xanımı görmək üçün Murad gərək oyanaydı. Muradı oyatmaq üçün də Bəybalanın, Bəymirzənin, Atobbanın oğlanları qızı buraxıb onun üstünə düşməliydilər.

Həlimə xanım gördü ki, yox, Murad oyanan deyil, yan otağa keçdi. Oğlu da atası kimi bürmələnib üzü divara yatırdı. Gəlin oyaq idi, gözlərini divara zilləmişdi, elə baxırdı, elə bil axşamnan gözləri belə açıq idi. Həlimə xanım ayaqlarının ucunda yaxınlaşdı.

– Qar yağır, Lili, xəbərin var?

Leyla yavaş-yavaş başını döndərdi:

– Qar?

– Bir qalx, düz-dünya ağappaq olub, – dedi, pəncərəyə sarı gedib təzədən küçəyə baxdı. Dayanacaqda çoxlu adam vardı, üzlərini qar yağan səmtdən döndərmişdilər, çiyinlərini yığıb durmuşdular.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Leyla da qalxıb pəncərəyə sarı gəldi. Evlərin üstünə səpilməkdə olan qara baxdı, dinmədi, qayınanasının zərxaralı xalatınnan olan xalatının yaxasını yığdı, Həlimə xanım ona tamaşa eləməkdəydi. Amma bu baxmaq qayınana baxmağı deyildi, tay-tuş baxmağıydı. Leylanın yaraşıqlı bədənində elə gizli bir sirr vardı ki, bunu yalnız Həlimə xanım duya bilərdi, duydu da. Leyla alışıb sonra da qor bağlamış ocaq yerlərinə bənzəyirdi, sarımtıl-sarımtıl közərməkdəydi. Yuxusuzluqdan daha da qaralıb, böyümüş gözlərinə yaraşası bir kədərlə yorğana bürmələnmiş Rafiqə baxırdı. Həlimə xanım onun ağappaq, dolu qollarını sığalladı, yarıaçıq, iri döşlərinə baxdı, gülümsədi, elə bu gülümsəməyiylə də bütün demək istədiklərini deyə bildi. Özünün birdən-birə ürəyinə istilik çökdü:

– Qadın nazıynan oynamaq bunnara yazılmayıb, – dedi, – yuxun qaçar, sonra heç yata bilməzsən, yata bilməyəndə kitab oxu.

Leyla:

– Eeh! – elədi, dönüb təzədən küçəyə baxdı, qar yağmaqdaydı, amma qarın belə yağması Leylanı üşütmədi. Leyla beləcə yarıçılpaq qarın üstünə uzanmaq istədi.

Həlimə xanım otaqdan çıxdı. Rafiqin yanından keçəndə əlini yavaşcadan onun kürəyinə vurdu:

– Dur, oğul, dur! – dedi.

Amma Rafiqdən heç səs-səmir çıxmadı. Keçib Muradı silkələdi:

– Qalx daa, nolub bunnara, ay balam?

Muradın yuxusunda özündən otuz yaş kiçik qonşu qızını qar-topuna tutmuşdular. Qız ağlayıb, qışqırırdı. Atobbanın oğlunun atdığı qar topaları Murada sarı gəlməkdəydi, Murad istəyirdi qaçsın, amma bacarmırdı, yuxuda olsa da, başa düşürdü ki, bircə yol var, o da oyanmaqdı. Oyana bilmədi. Həlimə başladı onu silkələməyə. Yorğanı başından atdı, gözlərini açıb arvadına tamaşa eləməyə başladı. Özündən otuz yaş kiçik olan qız yavaş-yavaş dönüb zərxalatlı Həlimə xanım oldu:

– Qar yağır, ey, dur bax!

Həlimə xanımın belə deməyindəndimi, nədisə Muradın yuxusu yadına düşmədi, ha fikirləşdi ki, bə bu qar məsələsi nə məsələdi ki, ona belə tanış gəlir. Dikəlib pəncərəyə baxdı:

– Nolub?

– Qar yağır.

– Yox əşşi?! – dedi, qalxıb pəncərədən boylandı, dayanacağa toplaşmaqda olan adamlara baxdı, Bəybalanın, Bəymirzənin, Atobbanın



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

oğlanlarını adamların arasında gördü, papaqlarının qulaqlarını salıb siqaret çəkirdilər. Yuxusu yadına düşdü, dönüb:

– *Bilirdim,* – dedi.

Bu heç nəyin cavabı deyildi, ona görə də Həlimə xanım fikir vermədi, *keçib qazı yandırdı*, sonra da yan otağa *keçdi, divanın* biri boydan-boya akvarium idi, balıqlar Həlimə xanımı görüb quyruq çırpa-çırpa qaynaşırdılar, yığışıb şüşəyə burun vurmağa başladılar. Həlimə xanım balıqlara yem tökdü, qayıdıb Muradın yanına gəldi:

– Rafiq necə gedəcək işə, – dedi, – bu qarda?

Murad iri gövdəsiylə güzgünün qabağını tutmuşdu, döndü:

– Yox getməlidi, gördün, işə düzələndə nələr çıxdı ortadan, özünü göstərməlidi. Belə qarda yuxarıdan daha çox fikir verirlər, kim gəlib, kim gəlməyib.

*Rafiq oyanmışdı, qalxıb ev paltarını geyindi, hələ də pəncərənin* ağzında dayanmış şəhərin qarlı küçələri kimi bəyaz bədənli Leylaya baxdı, baxan kimi də onun gecəyarıyadək üzündə-gözündə gəzən yup-yumşaq əllərini xatırladı. Qalxıb Leylanı qucaqladı, soyuq-soyuq, yumşaqca öpdü. Leylanın irikirpikli gözləri geniş-geniş açılaraq Rafiqə baxdı. Gözləri sözlə, gileylə doluydu.

– Yorulmuşdum, əzizim, papa da yer tapdı, ilişdirdi, görürsən, hər axşam deyir, göstər özünü, əldən düşürəm, – dedi, yenə öpdü.

Leyla: "Eeh", – deyib üzünü yana çəkdi.

*Həlimə xanım qapını açdı, Rafiq döndü:*

– Mama, nolub buna yenə? – dedi.

Rafiqin belə deməyinə Həlimə xanım da hirsləndi, amma üzə vurmadı:

– Tez ol, işə getməlisən!

Böyük otaqda səhər yeməyinə yığışdılar. Ata, oğul üz-üzə əyləşdilər: *yanlarında da xanımları. Süfrədə nə desən* vardı, Həlimə xanım yenə süfrəyə göz gəzdirdi, qalxıb bir iri, büllur qab gətirdi, qoydu stolun üstünə. Fındıq içiydi, qoz, badam ləpəsiydi. Oturdu, gülümsəyib ərini dümsüklədi:

– Ye!

Murad dinmədi, mənalı-mənalı Həlimə xanıma baxıb "hıı" elədi, ləpədən bir-iki dənə atdı ağzına, Həlimə xanım gülməyini saxlayıb:

– Bu gün bunun hamısını yeyəcəksən, – dedi, sonra da uğunub getdi. Leylanın da dodaqları qaçdı, gülümsədi. Murad da, Rafiq də qarınları



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qalxa-qalxa güldülər. Murad kağız götürüb ağzını sildi, Həlimə xanıma sarı dönüb başını əydi, qulağına nəsə pıçıldadı:

Rafiq pəncərəyə baxırdı:

– Necə gedib çıxacam işə? – dedi.

Murad duruxdu, yerindən dikəldi:

– Nolur, olsun getməlisən, bir-iki ay dediyim kimi işlə, danışmışam, yuxarı gətirəcəm səni. İş oldu, iclas oldu, yığıncaq oldu, ora-bura vur, göstər özünü bildin?

Qalxdılar, pəncərədən baxmağa başladılar. Qum maşınları yoxuşlarboyu qum səpələyirdi, amma qar qumdan çox yağdığı üçün yollar təzədən ağarırdı.

Qapının zəngi çalındı, Rafiq gəlib gözlükdən baxdı: "Papanın şoferidi", – dedi, qapını açdı. Muradın şoferi qarayanız, boylu-buxunlu oğlan idi, bir əlində zənbil, bir əlində beş-altı təndir çörəyi içəri keçdi, çiyinlərini yüngülcə tərpədib üstünün qarını təmizlədi.

Həlimə xanımla Leyla qapıyla üz-üzəydilər, dinməz-söyləməz sürücüyə baxırdılar. Murad geri dönmədən:

– Nədi, ə, gətirdiyin? – dedi.

– Bazarlıq eləmişəm bir balaca, – gülümsədi, üzü-gözü elə işıqlandı ki, Həlimə xanım yerində qurdalandı. Leyla başını aşağı salıb gözlərini süfrəyə dikdi. Həlimə xanım ürəyindəcə:

– Öləsən səni, – dedi.

Sonra yorğun-yorğun Leylaya sarı döndü:

– Qalx, – dedi, – çörəyi al onun əlinnən.

Leyla başını da qaldırmadı:

– Allah vurub onu...

Amma sürücünün təbəssümü Leylanın da xəyalındaydı. Leyla onu da bilirdi ki, dünyada heç kəsə təbəssüm belə yaraşmazdı. Qalxıb akvariuma sarı getdi, balıqlar Həlimə xanımın atdığı yemlərdən yeyib, cüt-cüt olub dənizlərdən, çaylardan xəbərsiz uzanmışdılar, arxası üstə oyun çıxarırdılar.

Balıqlara baxanda Leylanın heç vaxt yadına düşmədi ki, balıqlar üçün dənizlər var, çaylar var. Çünki gözlərini açandan öz evlərində də, öz xallı-xalçalı divarlarında da belə akvarium görmüşdü. Beləcə, balıqlar çaylardan xəbərsiz, yeyib-içən kimi rahatca-rahatca oyun çıxarda bilirdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pəncərəyə sarı getdi, qar yağmaqdaydı, küçədə çiyinlərinə qar yığılmış kişilər vardı, bir neçəsi əllərində qartopu oynadırdı. Leyla küçənin o baş-bu başına baxdı ki, görsün qız varmı. Əllərini pəncərənin səhərdən naxışlanmaqda olan şüşəsinə qoydu, ovuclarından canına sərinlik axdı, dodaqlarını da sıxdı şüşəyə.

Küçənin o başından iki qız çıxdı, çiyinlərinə qar yığılmış kişilər, qızların yaxınlaşmasını gözləyə bilmədilər, qartopalarını atdılar. Qızlar sumkalarını başlarına tutmuşdular, hər yandan üstlərinə qartopu yağırdı. Muradın sürücüsü evdən çıxıb qızları gördü, əyilib o da qartopu elədi, çiyinlərinə qar yığılmış kişilərə qarışdı. Leylanın canı qızlara dəyən o qartopalarının ağrısını duydu. İstədi ki, elə beləcə küçədən keçəydi, Muradın sürücüsü, çiyni qarlı kişilər onu qartopuna tutaydılar.

Elə bil boğazında nəsə qalmışdı, udqundu, amma bunun qəhər olduğunu bilə bilmədi, üzünü pəncərədən döndərdi. Rafiq ona sarı gəlirdi. Tələsik yaxınlaşıb Leylanı öpdü:

– Getdim, – dedi.

Həlimə xanım onun paltosunu tutdu:

– Yoldan-izdən muğayat ol, addım-addım sür, maşını.

Rafiqin yadında heç nə yoxdu. Leylanın gileyli-güzarlı gözləri də yadında deyildi. Heç nə haqqında fikirləşmirdi, pilləkənləri enib, açarı çıxartdı, qara "Volqa"nın qapısını açdı, rahatlıqla:

– Getdik, – dedi, – ceyran.

Amma "ceyran" yerindən tərpənmədi, qarın üstündə eşələnib yırğalandı. Rafiq ha çalışdı, bir şey çıxmadı. Başını qaldırıb yuxarı baxdı, gördü Murad da, Həlimə xanım da pəncərədən tamaşa eləyirlər. Maşını bir də işə saldı, yenə yerindən tərpənə bilmədi. Çıxıb hirslə qapını örtdü, elə bil qarı təzədən gördü, indi ağlı kəsdi ki, qar yağır. Təzədən evə qalxdı, çiyinlərini yığıb:

– Neyləyim, – dedi, – mama?

Həlimə xanım dönüb Murada baxdı:

– Bəlkə heç getməyə?

Murad əvvəl əlləriylə "yox" dedi, sonra da bərkdən:

– Yox, yox, getməlidi, mütləq yoxlayacaqlar yuxarıdan, bilirəm.

Bir az fikirləşdi, başını qaldırıb:

– Avtobusnan get, – dedi.

Rafiq təəccüblə atasına baxdı:

– Nəynən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Avtobusnan.

– Hansı avtobusnan?

Murad duruxub əlini pəncərəyə sarı uzatdı:

– Rahatca min, çıx get. Yüz göz baxır, yuxarıya çatdıracaqlar. Bu daha addı çıxar ki, Muradın oğlu da qarda-çovğunda avtobusnan getdi işə.

Rafiq çiyinlərini çəkdi:

– Mən nə bilim axı, nə gedir ora?

Murad da bir az fikirləşdi, dönüb arvadından soruşdu:

– Həlimə, nə gedir o yannara?

Həlimə xanım əli üzündə altdan-yuxarı Murada, sonra da Rafiqə baxdı:

– Vallah, bilmirəm. Heç fikir verməmişəm, – dedi, Leylaya sarı döndü. Leyla qollarını döşlərinin üstündə çarpazlayıb, balıqlara tamaşa eləyirdi, kimisə gözləyirdi elə bil, özünün xəbəri yox idi ki, kimi gözləyir. Həlimə xanım soruşdu:

– Lili, bilmirsən o yannara nə gedir? – dedi. Tez də özü-özünə cavab verdi. – Bilməz, əşşi, hardan bilsin?

Leyla küskün-küskün dilləndi:

– Bu trolleybus restoranın yanınacan gedir, onu bilirəm. Dayanmışdıq, papanın şoferi gəlib çıxmırdı, sonra mindik trolleybusa. Elə yaxşıydı, mama, elə bil teatrdasan, hamı bizə baxırdı, – Leylanın doğrudan-doğruya kefi açıldı. Onuncu sinifdə oxuduğu vaxtları xatırladı. Qıvrımsaçlı, dənizgözlü bir oğlanı xatırladı.

...Anası Leylanı bəzədi, düzədi, üstünə gülyağı səpdi:

– Get-get, gecikmə! – Sonra da pəncərədən sevincləmi, kədərləmi, həsrətləmi, nəsə çox qəribə bir hisslə, nəfəsi təngiyə-təngiyə qızının ardınca baxdı.

Dənizgözlü oğlanla bir ağacın altında oturdular, köz kimi dodaqlarıyla Leylanı odlu-odlu öpdü. Yalnız o öpüşlər Leylanın yadındaydı. Leyla başqa heç nə xatırlaya bilmirdi. Birdən-birə ayıldı, az qaldı bütün qab-qacaqları Muradın, Rafiqin, Həlimə xanımın başına yağdırsın, pəncərələri, akvariumu sındırsın.

Tələsik öz otağına keçdi, Murad, Rafiq, Həlimə bir-birinə qarışmışdılar. Hərəsi bir söz deyirdi. Murad xeyli fikrə getdi, sonra Rafiqə baxdı:

– Bu boyda şəhərdəsən, maşınnan elə gedirsən, belə gedirsən, hələ bilmirsən iş yerinə nə gedir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rafiq özündən çıxdı:

– Hardan bilim mən, nəyimə lazımdı biləm. Sən mənnən qabaq şəhərdəsən, sən niyə bilmirsən?

Murad telefona sarı getdi, nömrəni yığdı:

– Allo, yoldaş Səlim, sabahın xeyir.

– Ya Allah, Murad, nə əcəb sənnən?!

– Yeyirsən, deyəsən, ağzında nəsə var?

– Yeyirəm, həə.

– Nədi yediyin, qoz içi deyil ki?

– Hi-hi-hi. Sən canın, hardan bildin, yoxsa?..

İndi də Murad başladı qarnı qalxa-qalxa gülməyə:

– Ha-hah-ha-ha, yox, yox... Bura bax, Rafiq işdən qalıb, bilmirsən o yannara hansı avtobus gedir, kəndçisən sən, deyirəm bəlkə biləsən?

– Sən öl, Murad, birinci dəfədi mənnən belə şey soruşurlar. Bilmirəm, canın üçün, yoxsa deyərdim. Bilirdim, amma hamısı dəyişib avtobusların. Belə çıxır ki, maşın altımızdan getsə, evimizi tapa bilmərik. Hi-hi-hi... Amma "kəndçisən"i yaman dedin.

Murad hirslənmişdi. İstədi yoldaş Səlimə ağzından çıxanı desin, amma yoldaş Səlimin böyük qulluqda işləyən qaynı barmağını silkələyə-silkələyə Muradın gözlərinin önünə gəldi. Ona görə də Muradın səsi içinə düşdü, napnazik səslə:

– Yaxşı, yaxşı, yoldaş Səlim, – dedi, – çox sağ ol, bağışla, əziyyət verdim.

Dəstəyi qoyan kimi evi başına götürdü:

– Nakişi köpəyoğlu, qudurmağına bax, çanağınnan çıxmağına bax. "Kəndçisən" sözünnən xoşu gəlmir daha üz-gözünü büzüşdürüb Səlimin ağzını əydi, – "kəndçisən"i yaman dedin. – Arvad hesabına adam oldu.

Həlimə xanım gördü Murad kişilənib çıxıb özündən, amma onu da gördü ki, bu kişilənmək heç yaraşmadı ərinə, sakitcə dilləndi:

– Yaxşı, çıxma özündən, indi biri qapını açar, bu sözləri qaytarıb sənə deyər.

Murad dəstəyi götürüb nömrələri yığdı:

– Allo, Fazil yoldaş, sabahın xeyir, hə, elə-belə, xeyirdi, narahat olma, bizim Rafiq işdən qalıb. Bilmirsən?..

Leyla divanın üstünə uzanmışdı. Qayınatasının səsini eşidirdi, amma bilmirdi nə deyir. Təpədən-dırnağa alışıb-yanmaqdaydı, istəyirdi elə beləcə qarın üstünə uzansın.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Qayınatasının enlikürəkli, iriəlli sürücüsü xəyalında gülümsəməkdəydi, səhərdən fikrindən qovmağa çalışırdı. "Allah vurub onu, kəndçi..." Beş-altı il qabaq közərmiş dodaqlarıyla onu odlu-odlu öpən dənizgözlü oğlanı fikirləşmək, xatırlamaq istəyirdi, sürücü gəlib dayanırdı gözlərinin qabağında. İstəyirdi Rafiqi xatırlasın, bir anın içindəcə Rafiq dönüb enlikürəkli, iriəlli sürücü olurdu.

Leyla daha dözə bilmədi, sürücünün iri əlləri Leylanın ağ bədənində gəzməyə başladı. Bu iri əllərin hər biri bir adam gücüylə Leylanı bağrına basdı. Leylanın heydən düşmüş qolları sürücünün boynuna dolandı, qızğınlıqla, aclıqla, gözəl təbəssümlü dodaqlarını öpdü.

Leylanın iri, qaragözləri gen-gen açılaraq, kirpik tərpətmədən, dünyanın səsinnən-küyünnən xəbərsiz özünə tamaşa eləyirdi.

Yan otaqdan Muradın səsi gəlirdi:

– Allo, Zəki sənsən? Hə... Necəsən? Rafiq maşını həyətdən çıxara bilmədi, həri, həri. Bilmirsən o yannara hansı avtobus gedir? Hə? Yoox? Ay sənə nə deyim!..

Leylanın xəyalında hər şey bir-birinə qarışdı, ayılıb döşlərinin üstündə çarpazladığı öz qollarını gördü. Öz hıçqırıqlarını eşitdi, gördü ki, ağlayır. Sürücünün iri əllərini təzədən xatırlamaq istədi, amma heç nə yadına düşmədi, bircə onu gördü ki, sürücü səbət əlində dayanıb qapının ağzında, öz gözəl, yaraşıqlı təbəssümüylə gülümsəyir. Evin bayaqdan bəri sındırıb-dağıtmaq istədiyi büllur qablarını sürücünün başına yağdırmağa başladı...

Murad, Rafiq, Həlimə xanım telefonun yanında dayanmışdılar, Həlimə xanım dedi:

– Taksiynən getsin.

– Avtobus yaxşıydı, bilirsən nə moment idi?!

Leylanın hıçqırtısını eşitdilər. Həlimə xanım acıqlı-acıqlı Rafiqə baxdı. Rafiq boyuna-buxununa yaraşmayan uşaqlıqla çiynini çəkib əllərini oynatdı:

– Neynəmişəm mən?

Həlimə xanım Leylanın otağına sarı getdi. Leyla divanda uzanmışdı. Özü öz döşlərini qucaqlayıb, gözlərini yummuşdu, içini çəkə-çəkə hıçqırırdı. İstədi o da Leylaya qoşulub ağlasın, amma gülümsədi, gəlib Leylanın qolundan tutub qaldırdı.

– Geyin-geyin, – dedi, – havaya çıxaq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rafiq az qalırdı evdən başını götürüb qaçsın. Leylanın əllərindən, gözlərindən qorxurdu. Leylanın ağlamağından qorxurdu. Leylanın gözlərinə, ağlamağına cavab verməK lazım idi. Bu haqda fikirləşəndə həmişə Rafiqin yadına siyirmələrindəki, taxçalarındakı qalaq-qalaq pullar düşürdü. Amma bu pullar da gücsüz idi, gərəksiz idi.

Həlimə xanımla Leyla geyinib-kecinib çıxdılar. Murad yenə öz işindəydi, nömrəni yığıb:

– Allo, – dedi, – spravoçnı? Gözəl qız, salam! Bu qarnan necəsən? Əcəb təmizlikdi. Bura bax, de görüm maşınqayırma zavoduna hansı avtobuslar gedir? Otuz dörd? Bizim yanımızdan keçir ki, hə,hə, oldu yaxşı...

...Atobbanın, Bəybalanın, Bəymirzənin oğlanları yenə dayanmışdılar tində, əllərində də qartopu, küçənin o baş-bu başına baxırdılar.

Həlimə xanım Leyla, Rafiq binadan çıxdılar. Həlimə xanım Rafiqin qoluna girdi. Dayanacaqdakı çiyniqarlı kişilər əllərindəki qartopalarını gizlətdilər. Həlimə xanımgilin yaşadığı binanı tanıyırdılar, yaxşı bilirdilər ki, bu binada yaşayanlarla zarafat eləmək olmaz. Bu yerdə Rafiqin ayağı sürüşdü, yanı yerə dəydi, qalxıb bərk-bərk anasından yapışdı. Çiyniqarlı kişilər özlərini görməməzliyə vurdular. Utana-utana yerə baxdılar. Atobbanın, Bəymirzənin, Bəybalanın oğlanları qaçıb tini buruldular, qarınlarını tutub uğunub getdilər.

Rafiq trolleybusa mindi, camaat onu itələyə-itələyə ortaya apardı, Həlimə xanım pəncərədən qışqırdı:

– Konduktora de, keçib gedərsən, tapa bilməzsən, tapşır konduktora.

Trolleybus tərpəndi, ağır-ağır şəhərin qarlı, qumlu yoluyla qalxdı.

Leyla dayanmışdı, soyuq-soyuq kişilərə baxırdı, dəli bir istəklə qartopu istəyirdi. Amma ürəklə, kişi kimi başını qaldırıb baxan yox idi. Çiyniqarlı kişilərin hamısı bu binanın, bu gözəl, yaraşıqlı xanımlarına qulluq göstərib yaltaqlanmaq istəyirdilər. Bəybalanın, Bəymirzənin, Atobbanın oğlanları tindən başlarını çıxartdılar. Bir-birindən seçilməyən bu xanımlara oğrun-oğrun, yanıqlı-yanıqlı tamaşa eləməyə başladılar.

Leylanın gözləri yığılmırdı, onda-bundaydı. Bəybalanın oğlu Atobbanın oğluna sarı döndü:

– Əlipaşa, nə axtarır, elə o?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dayanacaqdakıların arasında irigövdəli bir oğlan dayanmışdı, pencəyini yarı aralayıb bir qızı qoynuna qoymuşdu. Leyla əvvəl elə bildi qayınatasının sürücüsüdü, sonra gördü yox, Həlimə xanıma sarı döndü:

– Onlara bax! – dedi, ürəyinə qəribə bir istilik damdı, sonra bu bir damcı istilik bütün bədənini gəzdi. Həlimə xanım da dönüb baxdı. Leylanın ürəyinə daman istilik, onun da ürəyinə yayıldı. Qız enlikürəkli, gensinəli oğlanın pencəyinin yaxalığından başınıca çıxartmışdı, qəribə üzü vardı, bəxtəvərliklə gülümsəyirdi. Sonra şubalı geyimli-kecimli gözəl xanımları gördü, yəqin ki, birdən-birə üşüdü, oğlanın sinəsinə sıxıldı, bircə gözləri göründü.

Qar hələ də yağmaqdaydı, qum maşınları yollara qum ələyirdi...

*1976*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# YANĞIN

Xıdır dükanın artırmasına çıxdı, dəmir taylı qapıları arxasınca çəkib örtdü, açarları əlində oynadıb, altdan-altdan dörd yana baxdı, üçbir, dördbir topalaşmış kənd kişilərini gördü, dodağının altından:

– Paxıl köpək uşağı, – dedi, şaqqıltıyla qıfılları bağladı. Bayaq cibinə qoyduğu bir yığın pulun istisi ürəyini vurmaqdaydı. Elə onun sevinciydi ki, üzündə, gözündə dolaşırdı.

Dükanın qabağında saxladığı maşınına sarı döndü, bir uşaq özünü Xıdırın üstünə saldı:

– Xıdır dayı, ağrın alım, bir kilo qənd ver.

Xıdır yuxarıdan aşağı uşağa baxdı:

– Qurtardıq, – dedi. Əllərini silən kimi eləyib bir-birinə vurdu. Uşaq ovcunda da manatlıq, qollarını yanına saldı. Xıdırın maşını aralananadək yerindən tərpənmədi.

Xıdırın maşını yumşaq-yumşaq yırğalana-yırğalana yola çıxdı. Üçbir, dördbir topalaşan kənd kişiləri söhbətlərini kəsib qalın-qalın qaşlarının altından Xıdırın maşınına baxdılar. Xıdır yenə dodağının altında söyə-söyə, söylənə-söylənə keçib getdi.

– Gözünüz əlimdə olacaq həmişə, yazın nə qədər istəyirsiniz, görüm neyniyəcəksiz Xıdıra.

Xıdır maşını üçbir, dördbir topalaşan kənd kişilərinin arasında saxlamaq istədi, istədi bayaq cibinə qoyduğu bir yığın pulu çıxartsın, başlarının üstündə silkələyə-silkələyə desin:

– Budu, bax, sizi öldürən, buna görə düşmənsiz mənnən, istəsəm qanınızı satın alaram, hamınızın. Bax ardımca, köpəyoğlu! Bax, bax, gözün çıxanacan!

Payız ağzıydı, düzlər saralmaqda, yarpaqlar tökülməkdəydi. Payız sazağı qalxmışdı, hasarların dibində adam boyu olmuş gicitkanlar kədərli-kədərli yırğalanırdı.

Xıdır üçünsə yaz da biriydi, qış da. Fəsillərin nə gəldi-gəldisinə baxırdı, nə getdi-getdisinə. Bağdan alacağı yoxdu, bostandan verəcəyi. Bircə ayların başı vardı Xıdır üçün. Gəlirini-çıxarını vururdu hesaba, dükanı necə deyərlər, saat kimi qururdu, bu ayın başından, o başına. Bir yığın pulu da qoyurdu cibinə. Üçbir, dördbir topalaşan kənd kişilərinin arasında da deyirdi:

– Neyniyəcəksiz ey mənə, saat kimi işləyir mənim dükanım.

Beləcə Xıdır neçə vaxt idi arpa-arpa, fındıq-fındıq böyüməkdəydi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Alaqapının ağzında maşını saxladı, qara, gursaçlı, gensinəli arvadı ikinci mərtəbədə göründü, yırğalana-yırğalana pilləkənlə düşüb alaqapını açdı. Xıdır arvadına baxıb başını tərpətdi, qaraja girib maşınnan düşdü. Arvadı yavaşcadan soruşdu:

– Noldu?

Xıdır əlini cibinə sarı aparıb:

– Yaxşıdı, – dedi, – qaş-gözüylə də him elədi ki, niyə tələsirsən, sonra diliylə də dedi, – tələsmə, nolub, ardımızca gələnmi var?

Sonra maşınnan bağlamaları çıxardıb pıçıldadı, başıyla sağdakı, soldakı qonşuları göstərdi:

– Ətdi, bir az da yemək-içmək götürmüşəm, elə apar görməsinnər.

Xıdırın arvadı bağlamanı götürdü, hikkəli-hikkəli:

– Belə görənnərin gözdəri çıxsın, – dedi. – Nə veriblər ala bilmirlər?!

Sağ qonşunun arvadı çəpərin dibindəydi, eşitdi, çəpərin dibindən elə qopdu ki, toyuqlar, hinduşkalar tülküdən belə qorxmazdılar ki, qorxdular.

Sağ qonşunun arvadı oda dönüb bir göz qırpımında pilləkənə çıxdı, eyvana dırmaşdı:

– Belə gözdərin çıxsın, ovcuna düşsün, – dedi, – nə verəcəm aaz sənə, a dilənçi, a tərəzi oğrusu. Yığ görüm, nə aparacaqsan dünyadan? Qandı yeməyin, qan, xəbərin yoxdu, xəbərdən.

Xıdırın arvadı söz tapa bilmirdi, əliyləcə qaralayıb, kül eləyirdi:

– Öləcəksən, öl, çatdadacam səni, kül başına!

Xıdır arvadını itələyə-itələyə evə aparırdı, sol qonşunun arvadı da o yannan çıxdı:

– Nolub, aaz, – dedi, – qudurub yenə?

Sağ qonşunun arvadı əllərini yelləyə-yelləyə qışqırdı:

– Aaz, görmürsənmi, elə deyir, qarğa, məndə qoz var. Belə başına dəysin sənin qozun, ağ yuyub qara sərərəm indi səni!

Sağ qonşunun kişisi yatırdımı, nəydisə yuxulu-yuxulu evdən çıxdı, arvadının qolundan tutub evə sarı dartdı.

– Belə evə gəl, utanmazın biri utanmaz, kəndin o başında eşidilir səsin...

Hər yana sakitlik çökdü, təkcə cırcıramaların səsi bir-birinə düzülmüşdü, bayaq səsdən-küydən eşidilmirdi, indi zəncirlənə-zəncirlənə dünyanı dörd dolanmaqdaydı.

Xıdırın arvadının hikkədən ürəyi atdanırdı:

– Dur, ocaq qala aşağıda, kabab çək, gərək elə eliyəm, kababın iyinnən yata bilməyələr səhərəcən!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xıdırın anası yorğana bükülüb, yerin içindəcə oturmuşdu, dipdiri gözləri vardı arvadın, qırışıb soğulmuş üzünə yaraşmırdı.

Xıdır cibindən pulları çıxardıb stolun üstünə qoydu, gedib pəncərənin pərdələrini çəkdi. Pulu görəndə elə bil Xıdırın arvadını sığalladılar, yumşalıb stolun qırağında oturdu, nə qədər acığı, hirsi vardı hamısını unutdu. Sonra da qalxdı, arxadan Xıdırı qucaqlayıb stolun üstünə sarı əyildi:

– Nə qədərdi? – dedi.

– Mindi.

*Xıdırın anasının da gözlərinin rəngi dəyişmişdi, napnazik, titrək səslə* dilləndi:

– Qurban olum, qazancın artıq olsun, amma elin gözü ağırdı, üstünüzə söylətməyin.

Xıdırın arvadı bayaqkı hikkəsiylə döndü:

– Sən otur yerində, danışığına bax bir. Gözünə kül, gözü ağır olanın! – Amma "sən otur yerində"ni elə dedi, bu əslində "sən öl yerində" demək idi. Kabab məsələsi təzədən yadına düşdü, Xıdırın çiyninə vurdu:

– Qalx, ocağı qala, yatammayacam yoxsa!

*Xıdır qarajdakı neft qabından neft götürdü, qarajın qabağında ocaq* qaladı, bir andaca taxtalar köz bağladı, ocaq çox qəribə, çox böyük bir sevinclə alışıb-yandı. Xıdırın yadına on beş, iyirmi il əvvəl dana – buzovun yanında qaladığı təzək ocağı düşdü, közə basdırdığı kartoflar düşdü. Amma axırınacan xatırlaya bilmədi. Siyirməyə yığdığı pullar gözlərini tutdu, iyirmi il qabaqkı buzovotaran Xıdır görünüb yox oldu, iyirmi il qabaqkı təzək ocağı tüstülənə-tüstülənə arxada qaldı.

Xıdıra kolxozdan bir arıq at vermişdilər. At səhərdən axşamacan kişnəyirdi. Amma Xıdır bilmirdi ki, niyə elə eləyir, nə istəyir. Sulayırdı, otarırdı, amma arıq at elə kişnəyirdi ki, kişnəyirdi...

Xıdır arıq atı da dumanlı-dumanlı xatırladı, arıq atın kişnərtisini də yadına sala bilmədi. Maşını gözünün önünə gəldi, özü də içində. Üçbir-dördbir topalaşmış kənd kişilərinin arasıyla keçirdi...

Xıdır gülümsəyib başını buladı, sonra da kədərləndimi, hirsləndimi, necə oldusa tüpürdü:

– Tfu!

Sevinc içində, tələsə-tələsə, oynaya-oynaya yanmaqda olan ocaq cızıldadı. Xıdır azca aralı qalaqlanmış odunlardan götürüb ocağa düzdü. Alov dilimləri başıalovlu odunlara dolandı, sonra bu odunlara da od



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

düşdü, alov dilimləri gurlaşdı. Elə bildin yüzlərlə-minlərlə adam sevinc içində əl çaldı.

Xıdır iyirmi il qabaqkı Xıdır olsaydı, ocağın bu dilə gəlməz sevinciylə sevinərdi, çöllərin dumanında, çiskinində üşüyən əllərini qızdırardı. Amma indi Xıdırın yadındakı siyirməyə yığdığı pullar idi, iyirmi il sonradan adam olmasıydı.

Xıdır şişləri ocağa düzdü, tikələrin yağı damcıladı, bayaq sevinclə yanan alov dilimləri kiçildi-kiçildi, soğulub közə yapışdı, eləcə işıldaya-işıldaya qaldı. Kabab iyi Xıdırın qara, gursaçlı, iridöşlü arvadının istədiyi kimi çəpərləri aşdı, bağları-bostanları, sonra da eyvanları dolaşdı.

...Xıdırla arvadı ocağın qırağında əyləşmişdilər, Xıdır yenə özünə araq süzdü, arvadına şampanski:

– Bunu da içək Nuruş, o sağlığa ki, uşağımız olsun. Qız, oğlan. Təki olsun. Ürəyimi sındıran bircə budu.

Ocağın közünün işartısı Xıdırın arvadının iri, qara gözlərində oynayırdı:

– Olacaq, – dedi. – Biz beləyik, anamın da, mənnən böyük bacılarımın da doqquz ildən sonra uşaqları olub. Bacım deyir, nə danışırsan, belə yaxşıdı. Düz doqquz il kef olub mənimki...

Xıdır kefli-kefli gülümsədi:

– İçək o sağlığa, Nuruş!

Xıdırın arvadının dünya ayağının altında yırğalanmaqdaydı, elə bildi indi qanad açıb uçacaq, qəhqəhə çəkib güldü, sağ qonşunun sağda, sol qonşunun solda pəncərələri cingildədi.

Havada hələ də sazaq vardı, sərin-sərin əsib, qaysaqlanmaqda olan ocağı güldürürdü. Bu ocaq doğrudan-doğruya Xıdırın ocağı idi. Amma Xıdırın xəbəri yox idi ki, onun belə ocağı var.

Ocağa arxa çevirib "vururdular".

Xıdırın anası uzanıb gözlərini də yummuşdu. Gözlərini yumduğuna görə arvada yüzdən də çox yaş vermək olardı. Çünki gözləri cavan qalmışdı arvadın, baxanda yaşını yarı-yarıya azaldırdı. Xıdırın anasının bugünkü dolanışıqdan başı çıxmırdı, bilmirdi ki, bu günün halal pulu necə olur, haram pulu necə? Ömrünü-gününü yaşamış arvadıydı ki, bir qırıq vaxtınnan Xıdırı pullu, mallı-dövlətli görmək istəyirdi, görürdü də. Amma bir şeyi anlaya bilmirdi ki, Xıdırı qonum-qonşunun gözü niyə götürmür? Ha yozurdu, ha düzürdü bir yana bir şey çıxarda bilmirdi.

Xıdırla arvadı qalxıb qol-boyun oldular, gülüşə-gülüşə pilləkənlə qalxdılar. Heç nə yığışdırılmadı, hər şey yerli-yerində qaldı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sazaq vurduqca ocaq küllərin arasından gülümsəyirdi. Xıdırın iri-döşlü arvadının qəhqəhəsi eşidilirdi, sonra bu qəhqəhə zarafata oxşadı, yavaşıyıb-yavaşıyıb çiliklənə-çiliklənə yox oldu, işığı söndürdülər. Hər yan qaranlığa büründü. Xıdırın həyətində təkcə ocaq oyaq qaldı, sazağa sarı açılıb közərirdi.

Elə bu vaxt sağ qonşunun arvadı, acığını ərinin üstünə tökməkdəydi:

– Bağrımı çatdadacaq bunnar, köçürdəcəklər məni yerimnən-yurdumnan. – Gördü ərindən səs çıxmır, üzünü döndərdi. – Sən elə yat, – dedi! – Gözün yuxudan açılmasın, yat, sənnən ötrü qazanır, yetim Xıdır, yat... – Beləcə deyinə-deyinə sağ qonşunun arvadı da yuxuya getdi.

Külək güclənməkdəydi, Xıdırın ocağı az qalırdı qanad açıb uçsun, cırcıramaların dünyanı yorub yola salan səsləri də kəsilmişdi. Buna görə də elə sakitlik idi ki, deyirdin kəndin qulağı batıb.

Xıdırın anası nigarançılıq içində yatmışdı, yuxuda da elə nigarançılıq içindəydi... Görürdü ki, ölüb, özünü də mindiriblər tərəziyə sorğu-sual eləyirlər.

– Oğluyun günahı sənnən ağırdı, yu, – deyirlər, – Xıdırın günahını, yumasan yanacaqsan. Sonra arvad gördü ki, üstü-başı yanır, qışqıra-qışqıra yuxudan oyandı. Doğrudan da pəncərədən alov dilimləri gördü, bir şey anlaya bilmədi, hannan-hana özünə gəldi ki, ev doğrudan da yanır, qapını açıb dizlərinə döydü:

– Ay camaat, evim yıxıldı, ay tanrısını tanıyan kömək eləyin!

Qaraj, eyvan od-alov içindəydi. Xıdırın bayaq sevinclə, həvəslə yanan, sazaq dəydikcə gülümsəyən balaca kabab ocağı tanınmaz olmuşdu. Dünyanın ən böyük qəzəbiylə yanırdı. Xıdırın anasının gücsüz, batıq səsi alov dilimlərinin uğultusunda yanıb küllənirdi.

– Ay qonşu, ay el, ay sizə qurban olum!

Sağ qonşu arvadıyla bir yerdə dik atıldılar, pəncərədən baxıb Xıdırın evini od içində gördülər. Kişi tələsik əynini geydi, arvad qapıdan yapışıb:

– Qoymaram, – dedi, – öldürsən də qoymaram.

– Aaz, çəkil, dəlinin qızı, dəli, – dedi, – anasınnan ayıbdı.

Arvad özünü qapıya yıxdı:

– Özümü yandıracam, nöyüt töküb yandıracam özümü!

Kişi qapını çəkdi, arvad ağlayıb qışqıra-qışqıra onun ayaqlarından yapışdı:

– Öldürəcəm özümü, getmə, onun xoşu arvadının gündə bir paltar geyib məni yandırdığı yadınnan çıxıbmı? Getmə, gəlib meyitimi görəcəksən!



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Sol qonşunun da işıqları yandı. Sol qonşunun da arvadı qapını tutmuşdu:

– Getməyəcəksən, biləm ki, qolumun biri o odun içindədi, yenə buraxmaram!

– Belə dur, eşidən nə deyər, ayıbdı anasınnan.

Xıdır alova baxa-baxa qalmışdı. Heç nə eləyə bilmirdi, anası ağacın dibində oturmuşdu, dizlərinə döyüb ağlayırdı, amma bu, ağlamaq döyüldü, nə səsi çıxırdı, nə göz yaşı. Xıdırın iridöşlü arvadı ağaca söykənmişdi, arada bir çiyinləri tərpənirdi.

Xıdır baxdı əlinnən heç nə gəlmir, hirsli-hirsli çəpərin dibindəki cınqıllardan götürüb oda-alova bürünmüş evini daşa basdı. Maşınını xatırladı, içini çəkə-çəkə ağladı. İyirmi il qabaq kolxozun verdiyi arıq atın kişnərtisini indi eşitdi.

Kəndin ortasında Salatın qarının da işığı yandı, Salatın qarı da oğlunu yanğın yerinə göndərə bilmədi.

– Allaha ağır gedər, başına dönüm, anasınnan ayıbdı.

Oğlu:

– Yox, – dedi, – Xıdır qurumsaq çıxdı, arvadı gündə raypo sədrlərinin yanındadı. Mən o qapıya ayağımı basmaram. – Yerinə uzanıb yorğanı başına çəkdi.

Kənd evlərinin hamısının belə söz-söhbətlə işığı yandı, belə söz-söhbətlə də söndü, hamı təzədən yerinə uzandı, amma heç kəsin gözünə yuxu getmədi. Qoca qarılar daha çox Allahdan qoxdular, diz çöküb dua elədilər:

– Allah özün bağışla, özün ayırd elə.

Kənd Soveti sədri rayona zəng elədi, yanğınsöndürənlər gəldi, artıq gücdən düşməkdə olan yanğını söndürdülər.

İyirmi il qabaq dana-buzovun yanında səhərdən-axşamacan kişnəyən arıq at indi Xıdırın içində kişnəyirdi.

Səhər Xıdır ayağını sürüyə-sürüyə gedib dükanı açdı, tərəzisini düzəltdi; yağ aldılar, yağdan kəsdi, qənd aldılar, qənddən kəsdi, su aldılar, sudan kəsdi. Heç kəs dinmirdi, hamı bilirdi ki, Xıdır təzədən ev tikdirməlidi, maşın almalıdı. Bir zamanlar da elə beləcə demişdilər:

– Yetim oğlandı, işiniz yoxdu, qoyun dolansın.

*1975*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# QARACA KİŞİNİN YAYLAQLARI

Dağların payızı tez gəldi. Yenə Qaraca kişinin gözləri görə-görə yamaclar bozardı. Qayalar bu bozluğa qarışıb görünməz oldu. Payız quşları irdələnib-seçilib qaldılar. Bir səhər qalxıb görərsən ki, bir topa sərçədi, torağaydı, qaranquş yuvalarının həndəvərində tumarlanırlar. Sonra da hərəsi birinə yiyələnib qışı keçirəcəklər.

Yenə əl-ayaq yığılmamış durnalar qatarlanıb getdi. Yenə durna qatarı yolunu kəndin üstündən saldı. Səhər yenicə açılmışdı, ocaqları yenicə qalamışdılar. Hələ tüstülər göyərməmişdi. Yenə böyüklərdən heç kəs başını qaldırıb durna qatarına baxmadı. Təkcə uşaqlar qışqırdı:

– Bizi də apar, ay lələ, bizi də apar, ay lələ, ay durna lələ...

Qaraca kişi eşiyə çıxdı. Doğrudan da durna havası idi. Torpaqdan durna qoxusu gəlirdi.

Bir azdan kənd adamları yığılacaq Qaraca kişinin başına. Deyəcəklər noldu, ay Qaraca, dumanın uğuruna çıxdınmı, qış Dəli dağı aşıbmı?..

Qaraca kişi irigövdəli, enlikürəkli adam idi. Qıvraq yeriyirdi. Dava qurtarandan sonra da əsgərlik çəkmələri geyinirdi. Əynində arxalıq vardı. Danışanda ağır-ağır danışardı. Çaya sarı endi. Su bulanıq idi, fəhmlə baxdı, gördü yox, heç nə yoxdu. Öz-özünə dedi: yenə çayın başından köç addayıb.

*Dağların ətəyi boyu duman sürünürdü.*

Qaraca kişi ayaq saxladı: – Canavar dumanıdı, – dedi, – çən sürünəndə qurd gətirər...

Heç özü də bilmirdi bu səhər ertə ürəyi niyə yerində durmur. Gözlərinin qabağındaca yaylaqlar yellənirdi.

*Qaraca kişi ömrünü elə yaylaqlarda keçirmişdi.* Neçə il idi, kənddən bir yana çıxmırdı. Ar eləmirdi. Deyirdilər, elə oğlanların var, bu ağır çağında neynirsən, at çobanlığın daşını. Qapıda-bacada qaraltı elə... Ya da çıx, get şəhərə.

Bu gün başqa gün idi. Səhər də başqa cür açılmışdı. Durnalar elin, *obanın üstündən köç eliyib getdi.*

Qaraca kişi öz-özünə söyləndi: – Qış ağır gələcək, dedi, – durnalar alçaqdan keçdi.

Sonra başını qaldırdı. Qapılara, bacalara baxdı. İlan yalı tayalar vurulmuşdu. Qaraca kişinin özü demişkən barmağını həyət-bacaya batır, var damcılasın...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ev-ev qoyun yataqlarının ağzı açıldı. Bir-birinə qarışa-qarışa dönüb sürü oldu. Çəhlimə düşüb çözələndi. Qaraca kişinin ürəyi telləndi. Qoyunun ardınca ayaqlarını sürüyən çoban Turabı səslədi:

– Əyə, başına dönüm, – dedi, – bir əylən.

Turab geri qanrıldı. Yuxusunu almamışdı, sifəti iri görünürdü, elə bil böyüdücü şüşədən baxırdı. İstədi deyə ki, nolub yenə, Qaraca baba... Səsi xırıldadı, heç nə anlaşılmadı. Elə indi yadına düşdü ki, səhər açılandan budu ki, ağzını açıb danışır. Dindiyinə peşman oldu. Təzədən dedi:

– Nolub, ay Qaraca baba, nə gördün yenə bu dumanda-çəndə?

– Heç nə, – dedi, – oğul, qayıt yuxunu al, səhər uğurunnan da saxladım səni, çaydan keçəndə ayağını suya vur, xeyirli olar. Bu gün sürünü mən aparacam, darıxmışam yaman...

Turab gülümsədi, heç nə demədi, ağacını da Qaraca kişiyə verib qayıtdı. Çaydan keçəndə nə ayağını suya vurdu, nə də yuyundu.

Sürü xeyli aralanmışdı. Qaraca kişinin iti dartındı, sürünün ardınca zingildədi. Amma buraxan olmadı, göynəyə-göynəyə qaldı. Qonşunun iti çoban iti deyildi. Ona görə heç nə anlaya bilmədi. Qaraca kişinin itinə hürdü.

Sürü bozluğa yayıldıqca, enləndikcə Qaraca kişinin hirsi soyuyurdu. Heç özü də bilmirdi ki, kimə acığı tutub. Oğlanlarının qarasına deyinirdi:

"Sənət seçdilər özlərinə. Dindirəndə də deyirlər ki, yaxşı, kəndə gələk harda işləyək. Zavodmu var kənddə?.. "Zavodmu var" – yoxdu, düzəlt!.."

Kəlin qoyun Qaraca kişinin ayağına sürtünüb keçdi. Qaraca kişi gülümsədi. Əlini qoyunun yununa çəkdi. – Nə yaman sərt gələcək, – dedi, – qış, başına dönüm?!

Sürünün ətəyi qatdandı. Çən arabir ayazıyırdı. Dağların döşü açılırdı. Qaraca kişi uşağa dönmüşdü, heç sürünün səmtini dəyişmirdi: "Xam gəzir, qoy gəzsin, tapıb indi dincələr... sancılıb otlayar..."

Qumral qoyun mələdi. Boğazında ot qaldı, səsi batdı. Qanrılıb Qaraca kişiyə sarı baxdı. Gözlərinə yapıncılı, qarmaqlı bir adam göründü. Ayaqlarını cütləyib yerə vurdu. Xırda addımlarla Qaraca kişiyə sarı getdi. Gördü ki, həmin yapıncılı qarmaqlı kişi gülümsəyir, ürəkləndi. Gəlib boynunu çəkmələrinə sürtdü, ayaqlarının dibindəcə yatdı. Qaraca kişi dur, – dedi, – qarnını doydur, qanbaval.

Sonra əyildi, qumral qoyunun qumral gözlərini tumarladı.

Turab olsaydı, indi Qumral qoyunun beliuzunu bir ağac vurmuşdu...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Yaylaqların dəli çağı idi. Bir gecə Qumral qoyun acdı. Dörd yandan da çiçəklərin, otların ətri gəlirdi. Elə-beləcə durdu, sürünün içindən çıxdı. Baxdı ki, Turab başının altına bir daş qoyub, yatıb. Yenə xırda addımlarla yanına gəldi. Amma Turab ayılmadı. Xallı at arxacın ətəyində yatmışdı. Qalxdı, gəldi ki, görsün Qumral qoyuna nə olub. Baxdı, qayıtdı, tez qayıtdı ki, yeri soyumasın, necə uzanmışdısa, eləcə də uzandı. Qollarını başının altına qoydu. Yaşlı gözləriylə Qumral qoyuna baxdı. Aşağılardan dərələrin qoxusu gəlirdi...

Qumral qoyun Turabın əllərini iyləyəndə, Turab səksəndi. Ağacı götürdü, qarasına vurdu. Yeyəcək, – dedi, – köpək oğlunun heyvanı məni...

Təkcə Xallı zingildədi. Qumral qoyunun da balaca buynuzları vardı, biri qırıldı. Elə beləcə yan-yörədə çiçəklər, otlar ətirlənə-ətirlənə qaldı.

O vaxtdan bir il keçmişdi. Hər şey olduğu kimi idi. Qumralın qırıq buynuzunun yeri sağalmışdı. Amma Qumral qoyun görkəmdən düşmüşdü. Təkcə Xallı yox idi. Turab onu erməni çobanlarına vermişdi.

Erməni çobanları həmişə arxacı Qaraca kişinin arxacına yaxın salırdılar ki, qoyuna qurd-quş düşə bilməsin. Qaraca kişinin qaraltısı deyərdilər, bəsdi iki sürü üçün... Erməni çobanlarının arasında bir Apet vardı. Hər yerdə deyərdi ki, mən Qaraca kişidən öyrənmişəm, papaqlıq quzunu anasının qarnında tanıyıram. Amma Apetin sözünü heç kəs sınamamışdı. Heç kəs bilmirdi düzmü deyir, yalanmı? Turab çoban Apetlə dost idi. Bir gün Apeti çağırdı, dedi: – Xallını verərəm sənə. Yiyəsinə hürən iti saxlamazlar.

Amma Apet Turabın son sözünü başa düşə bilmədi. Sevindi, əlini əlinə sürtdü. Turabı qucaqladı. Turab xırıltılı səslə dedi: – Xallıdan bir küçük tutmuşam, verəcəyəm Qaraca kişiyə. Qaraca kişinin də əlindən çıxan it dil bilir, Apet, görərsən, necə it olacaq!

Apet Xallının zəncirindən tutub çəkə-çəkə apardı. Başqa vaxt olsaydı, Xallıya yaxın düşmək olmazdı. İndi ayrılığı duymuşdu. Dolmuş gözlərilə arxaca baxırdı. Çobanların hamısı dayanıb tamaşa eləyirdi. Hamısı su rəngində idi, daha doğrusu rəngsiz idi. Təkcə Turab qan rəngində paltar geyinmişdi. Dağlardan sel gəlirdi. Alaçıq da selin üzündə yırğalanırdı. Bütün bunlar Xallının gözünə belə görünürdü. Əslində gül-gülü çağırırdı, bülbül-bülbülü. Dağların da seli yox idi. Çobanlar da öz işlərində idilər. Təkcə Turab dayanıb kinli-kinli baxırdı. Paltarı da qırmızı rəngdə deyildi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Günorta idi. Sürü sağmala seçilib arxaca döşənmişdi. Qumralgözlü qoyun birdən gördü ki, Xallını yad bir adam aparır, özü də gücnən, çəkə-çəkə aparır. Xallının da ayaqlarının izi qalır. Qalxdı, başını silkələdi. Buynuzu qırılandan sonra adət eləmişdi. Bəlkə də ağrıdan idi. Qalxdı, Xallının ardınca boğuq səslə mələdi. Sonra da bütün sürü mələşdi. Turab uzaqdan-uzağa acıqlandı:

– Ay, azar qırsın sizi!

Alaçıq gözdən itənəcən Xallı arxaca sarı dartındı. Bir həftə keçəndən sonra Apet gəldi ki, bəs, Xallı yoxdu, bura gəlməyib ki?..

Turab qabağa yeridi:

– Yox, – dedi, – canın üçün, düş atdan görək! Düş, ac olarsan.

Apet düşdü, amma Xallını bir də gördüm deyən olmadı...

Qumralgözlü qoyun yelinləyirdi. Qaraca kişi qoyunun yerişinə fikir verdi. Gördü ki, qoyunun dabanları çıqqıldayır. Öz-özünə dedi: sümüyü boşalıb heyvanın, dili də qaraya çalır, yaxşı papaqlıq quzusu olacaq.

Öz səsindən özü səksəndi. Elə bildi ki, eşitdilər. Neçə il bundan qabağı xatırladı...

Onda Turab balaca idi. On iki, on üç yaşı olardı. Göy gözləri adamın lap iliyinə işləyirdi. Böyüdükcə gözlərinin rəngi dəyişdi, tutqunlaşdı, bulandı. O vaxt bu sürüləri Qaraca kişiyə tapşırmışdılar. Sürüdə sarıgözlü bir kəlin qoyun vardı. Qaraca kişi yenə qoyunun yerişinə baxdı. Dedi: – Quzusu qıvrımdı, dırnağı bərk olsun.

O vaxt Turab heç nə başa düşə bilmədi. Eləcə yadında saxladı. Axşam oldu, sürü arxaca yığıldı. Sədr yatağa gəldi. Çobanlar qabağa durdular, sədr Qaraca kişiynən görüşəndə itlər təzədən hürdü. Sədrin üz-gözündən yağ damırdı, gözləri həmişə bulanıq olardı. Dedi:

– Bilirsənmi niyə gəlmişəm, ay Qaraca kişi? Papaq tikdirmək istəyirəm. Bir qarnıboğaz qoyun de, quzusu qıvrım olsun. İstəyirəm lap elə quzuluqdan çıxardım dərisini.

Qaraca kişi təzəcə demək istəyirdi ki, eləsi yoxdu, ay sədr... Turab dedi:

– Sarıgözlü kəlin qoyun. Qaraca babadan öyrənmişəm. Sarıgözlü kəlin qoyun...

Sədr bərkdən güldü:

– Ay sağ ol, – dedi, – sən nə yaxşı oğlansan!

İtlər sədrin səsinə yenidən hürdülər. Sarıgözlü kəlin qoyun Qaraca kişinin gözü qabağında kəsildi. Quzuluğun içərisində qıvrım tüklü quzu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vardı. Aradabir tərpənirdi. Sonra quzunu da kəsdilər. Dərisini sədr götürdü. Kəlin qoyunun böyrəklərini də bişirib verdilər Turaba, dedilər, bu da sənin nəmərin.

Sədr kəlin qoyunun quzusundan bir papaq tikdirdi. Bir müddət Qaraca kişinin gözünün qabağında at oynatdı. Sonra günlərin birində sədri rayona çağırdılar. Getdi, bir də rayondan qayıtmadı. Qaraca kişi bircə onu dedi ki, – bala, düzdü, gedənin dalınca danışmazlar, amma özü bir adam deyildi, kəlin qoyunun analı-balalı qanına bais oldu.

O vaxtdan Qaraca kişi heç kəsin yanında papaqlıq quzudan danışmadı. Qıvrım dərili quzular sirr oldu, qaldı anasının qarnında, ta döl vaxtına kimi.

Təpələrin ətəyində duman qatılaşırdı. Yamaclarla sürünə-sürünə dağa sarı qalxdı. Təkə başını otdan qaldırıb bir belə baxdı, bir də döndü Qaraca kişiyə baxdı... Qaraca kişinin sümüyünə damdı: – Duman qurdunu gətirdi, – dedi.

Qoyunlar mələşdi. Sürünün ətəyi yığıldı. Qaraca kişinin ürəyi teltel oldu: neçə ildi, görmürəm, gəlsin görək nə təhər şeydi?

Sonra sazağ çıxdı. Ürəyində Toplanı açıb gətirmədiyinə heyifsiləndi: qoca çağımda sürünü qırdıraram, – dedi, – gülünc olaram.

Canavar sazaqdan çıxar – deyərlər. Qaraca kişi də sazağa döndü. Bir az gözləmişdi ki, ağzıyanmış göründü. Şöngüyüb quyruğu üstə oturdu. Qaraca kişi onun oturuşundan bildi ki, yalquzaqdı. Güldü, dedi: – Dədələr deyib, yalquzaq müxənnət olmaz. Sürüyə çoban səmtdən düşər. Gəl görək sən neyniyirsən.

Sürü Qaraca kişini dövrələdi, yalquzaq qalxdı. Qaraca kişiyə sarı gəldi, quyruğu yernən sürünürdü. Qaraca kişi bildi ki, qoca yalquzaqdı. Qorxdu sürü hürküb əldən çıxar, səsləndi, öz-özünə bərkdən danışdı ki, sürü səsinə yığılsın, əslində öz-özüylə də yox, yalquzaqla danışırdı:

– Bir az da gəl, bəlkə tanış çıxdıq. Ay ağzıyanmış, görürəm sən də mənim kimi laxlayıbsan?!

Canavar dayandı. Başını qollarının üstünə qoyub bozluğa uzandı. Qaraca kişi bircə bundan bir şey başa düşə bilmədi. Sürünün içindən çıxdı. Kəndə sarı yüyürüb dayandı. Sürü də elə bil bənd idi buna, şaqqıltı ilə özünü Qaraca kişinin üstünə saldı. Yalquzaq da qalxdı, sürünün ardınca gəldi. Bir az aralı yenə başını qollarının üstünə qoyub bozluğa uzandı. Qaraca kişi ağır addımlarla canavara sarı qayıtdı. Dodağının altında da deyirdi: – Bir başa sal, görüm nə istəyirsən, ay Allahın heyvanı...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İki qarmaqboyu qalmış canavar cəld qalxdı. Qırağa sıçradı. Quyruğunun üstündə oturdu. Qaraca kişi onu yaxından görən kimi tanıdı. Hər şeyi bir andaca xatırladı.

"...Kəklik" qayasının altına düşmüşdülər. Qonşu erməni kəndinin sürüsü yenə onlara yaxın idi. Bir həftə idi, Qaraca kişi sürünü sayırdı. Hər səhər də biri əskik çıxırdı. Nə oğrusu tapılırdı, nə doğrusu. Bir axşam yenə sürü arxaca yığıldı. Qaraca kişi dedi: – Başınızı qoyun yatın, mən sürünün içində olacam. Bir sınayım baxtımı, görək.

Çobanlar "baş üstə" deyib alaçığa keçdilər.

Qaraca kişi bir duzdaşı götürüb sürünün içinə keçdi. Sürü başına yığışdı. Yavaş-yavaş seyrəldi. Duzdaşının üstündə oturdu, başladı gözləməyə. Gecənin bir gecə yarısında sürünü öskürək götürdü. Qaraca kişi ayağa durdu, qarasına dedi: – Gen dolan oğul, yoxsa eşidibsən ki, Qaraca kişinin sürüsünə talan düşüb, gen dolan, sap aparammazsan məndən. Mən də bu sirr üçün oturmuşam duzdaşının üstündə, get, sora gələrsən.

Hər yan birdən-birə yenə qatı bir səssizliyə büründü. Qaraca kişinin yuxusu göyə çəkildi: – Oğru var, dedi, – oğru öskürəyidi, dolandı sürünü.

Havadan səhərin ətri gəlməyə başladı. Yenə hər tərəf qaranlıq idi. Kəlin qoyun qalxdı, gərnəşdi, yenə yatdı, vəssalam. Qaraca kişini yuxu apardı, duzdaşı altında əriyib yumşaldı. Qoyun-quzu ağlı-qaralı göyərçinə dönüb qanad çala-çala uzaqlaşırdı. Elə bu vaxt göy it yerindən qalxdı. Sürünün ətəyindən qotazlı erkəyi qabaqladı. Döşlüyə-döşlüyə üzüaşağı apardı. Qaraca kişini hənirti basdı, güclə gözlərini açdı. Dikəlib göy itə göz qoydu. İşıqlanar-işıqlanmaz idi. Ətəklər göyərirdi. Göy it arxacdan xeyli aralanmışdı ki, dərədən iri sağrılı bir canavar çıxdı. Göy itlə qoşalaşdılar, qotazlı erkəyi qabaqlayıb oynaya-oynaya dərəyə endilər. Qaraca kişi baxa-baxa qaldı. Səhərin iliyə işliyən soyuğunda tərlədi, saçaqlı papağının altından tər damcıladı, dizlərini güclə qatlayıb ayağının altındakı daşın üstündə oturdu. Yamac aşağı baxdı. Gözlərinin qabağında qotazlı erkəyin izi canlandı. Sonra dərədən ağlaşma səsi gəldi. Elə bil kimsə yer cırırdı, yalvarırdı. Əslində heç nə yox idi. Artıq qotazlı erkəyin nə izi var idi, nə özü... Göy itlə gen sağrılı canavarın endiyi dərədən də duman qalxırdı. Duman da gömgöy idi. Palıd ağacının tüstüsünə oxşayırdı. Elə bil dərədə iri bir palıd ağacına od düşmüşdü.

Qaraca kişi başını qaldıra bilmirdi. Az qalırdı üzüaşağı qaçsın, həmin dərənin qaşına kimi. Ordan da hönkürüb ağlasın ki, "sənə nə oldu, ay göy it, niyə satdın sürünü, ay zalım?!"



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dan yeri çatladı, qabaqca dağların, sonra da yavaş-yavaş ətəklərin, dərələrin səhəri açıldı...

Çobanlar da yapıncılarını atdılar, hamısı da öz-özlüyündə günəşə qənşər durdular. Sonra Qaraca kişiyə sarı gəldilər. Elə bu vaxt göy it yamacın ətəyindən çıxdı. Özünü arxaca saldı. Sürü göy itdə gen sağrılı canavarın iyini duydu, bərk hürkdü, Qaraca kişi ağır-ağır başını qaldırdı. Göy itin gözləri böyümüşdü. Giləlerindən qayğısızlıq, toxluq yağırdı. Arxası üstə uzanıb əllərini, ayaqlarını oynadırdı. Sonra qalxdı, sürünə-sürünə gəlib Qaraca kişinin ayaqlarını yaladı. Başın qaldırdı, düz Qaraca kişinin gözlərinin içinə baxdı, qımışdı. Qaraca kişinin sümükləri üşüdü, hirsindən düz göy itin gözlərinin içinə tüpürdü. Boğuq, xırıltılı səslə dedi:

– Qurumsaq!..

Göy it zingildədi. Yamaca sarı gedəndə Turabı səslədi: – Tut bağla, – dedi, – onu. Qaçıb eliyər birdən, duyuq düşdü.

Çobanlar Qaraca kişinin başına yığışdılar, soruşdular. Qaraca kişi bircə onu dedi:

– Bu göy qurumsaqmış bizi cərimeyə salan!

Göy it bağda titrəyirdi, gözləri qabağa çıxmışdı. Boynunu döndərib tez-tez dörd yanına baxırdı.

...Çobanlar harasa qaçırdılar, hamısının da əlində qamçı var idi. Qamçılar da tez-tez şaqqıldayırdı. Dümyanı qoç ətəyini yırğaladıqca dal ayaqları sürünürdü. Qaraca kişi qoşalüləni götürmüşdü. Amma qoşalülə açılmırdı...

Bütün bunlar göy itin gözlərinə belə görünürdü. Əslində isə çobanlar heç yana tələsmirdi. Təkcə Turabın əlində qamçı vardı. Dümyanı qoyun ayaqların sürüyüb eləmirdi. Elə beləcə canavarın səhərki qisməti idi əlindən çıxmışdı, indi ətəyi yırğalanırdı. Qaraca kişinin əlində də qoşalülə-zad yox idi.

Tütün çıxarıb bükürdü.

Bütün bunları belə gördüyündən göy it də dərəyə sarı dartındı. Dünyada göy itin qorxduğu bircə şey vardısa o da qoşalülə idi. Başqa heç nədən qorxmazdı. Dünyada bircə Qaraca kişinin sözünə baxardı. Qal deseydi, qalardı, öl deseydi, ölərdi.

İndi göy it bağda içindən-içindən zingildəyirdi. Birdən Qaraca kişiyə elə gəldi ki, hönkürürlər, hıçqırırlar... İstədi dönüb baxsın, özünü saxladı. Göy itin baxışları kürəyini alışdırdı. Qarmağını götürdü:

– Qoyunu özüm aparacam bu gün, – dedi, – ona yal verməyin, bağdan da açıb eləməyin. Görək sabah neynəyərik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Heç kəs heç nə başa düşə bilmədi, hərə bir işin ardınca getdi. Göy it də bağdaca zingildəyə-zingildəyə qaldı.

...Səhər işıqlanar-işıqlanmaz Qaraca kişi qoşalüləni haçadan çıxartdı. Qoşalüləni görən kimi göy itin tükləri qabardı, dartındı, xaltanı başından çıxara bilmədi, çırpınıb özünü ora-bura vurdu.

Qaraca kişi Turaba dedi:

– Onun bağını dibinnən aç, apar dərənin qaşına sarı bağla, özün də çəkil otur bir qıraqda.

Yaşlı çobanlardan biri Qaraca kişiyə dedi:

– Olmaya, bu quduz dəymiş canavar kürsəyinə düşüb?

Qaraca kişi də ona sarı baxdı, başıyla "hə" dedi... Qaraca kişinin gözləri qıpqırmızı qızarmışdı. Hərə bir tərəfdə oturub gözlədi. Göy it yenə zingildəyirdi. Bu vaxt gen sağrılı canavar dərədən çıxdı. Göy iti bağda görən kimi ayaqların cütləyib dayandı. Qaraca kişi oturduğu yerdən qalxdı. Gen sağrılı canavarın gözü qabağında qoşalüləni üzünə qaldırıb göy iti vurdu. Gen sağrılı canavar da göy itlə birgə çığırırdı. Göy itin kürəyindən tüstü qalxdı. Canavar qaçmadı, gendən-genə onların başına dolandı. İndi də göy itin səsi ilə canavar zingildəyirdi. Turabsa qışqırırdı:

– Vur, vur, yaxındı, qaçacaq, qaçacaq.

Qaraca kişi qoşalüləni çiyninə aşırdı. Dedi:

– Onda günah yoxdu. Yeməyini çox elədik, qudurtduq göy iti. Onnan qorxmayın, sürüyə dəyməz.

Sonra arxaca sarı qalxdı, çobanlar da ardınca... Arxacın ətəyindən dönüb baxdılar ki, canavar göy itin yanındadı. Göy it tərpənmir, canavar zingildəyir.

Yenə Qaraca kişinin qulağına hönkürtü səsi gəlirdi.

Sonra günlərlə gen sağrılı canavar itlərin səs-küyünə baxmadı, oralardaca dolandı.

Qaraca kişi gen sağrılı canavarı o vaxtdan tanıyırdı. Ağzı qaraydı, gözlərində dəmgil, qaşqasında təpəl vardı. Nə Qaraca kişi ona toxunurdu, nə o Qaraca kişinin sürüsünə. Elə göy it öləndən sonra dönüb yalquzaq oldu.

Yaylaqlarda çobanların çoxu onu tanıyırdı. Hamı da ona göy itin nişanlısı deyirdi...

Gen sağrılı canavar indi qoca bir yalquzaq olmuşdu. Nazilib uzanmışdı, quyruğu yernən sürünürdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Milli Kitabxana

Qaraca kişi dayanıb ona baxırdı, o da Qaraca kişiyə...

Qaraca kişi cibindən bıçağını çıxartdı. Özünün burma-buynuz qoçunu kəsdi, bıçağın qanını da qoçun yununa silib qalxdı.

– Gəl ye, halalın olsun, itirməmisən...

Döndü gördü ki, sürü xeyli aralanıb "Əyri çay"ın dirsəyinə yığışıb. Getdi, sürünün qabağına düşüb kəndə sarı çəkdi...

Səhər açılmışdı, gün xeyli qalxmışdı, sürü çoxdan örüşə çıxmışdı. Dumansız-çənsiz bir səhər idi... Qaraca kişi günə qarşı oturub nəvəsiylə söhbət eləyirdi.

Nəvəsi deyirdi:

– Ay baba, canavar ilə göy itin nağılını bir də söylə, nolar?

Qaraca kişi də nəvəsini inandıra bilmirdi ki, gen sağrılı canavar sağdı. Dünən görüb...

Soruşdu: – Atam-anam, onu axşam danışaram... bir de görüm böyüyəndə nə olacaqsan?

Nəvəsi dedi:

– *Göyə qalxan olacam, ay baba. Çıxacam aya, ordan sənin dağ*larına baxacam!

*1977*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## AYIN AYDINLIĞINDA

Qabaq sıraların hamısını uşaqlar tutdular, klub müdiri irəli çıxıb acıqlı-acıqlı dedi:

– Səs eləyənin qolunnan yapışıb, eşiyə tullayacam. Kino üzünə həsrət qoyacam.

Uşaqlar çığırışıb səs-səsə verdilər:

– Səs eləməyəcəyik!..

– Səs eləməyəcəyik!..

Bir dəstə yeniyetmə qız gəldi, bir-birinə sığına-sığına, utana-utana keçib bir küncdə əyləşdilər.

Ortayaşlı bir kişi ayağa qalxıb soruşdu:

– Kim görüb bu kinonu, a bala? Davalıdımı?..

Biri yerindən dedi:

– Oqtay müəllim görüb, deyir davalı döyül...

Kişi hələ də ayaq üstə cavab gözləyirdi, bunu eşidib çiyinlərini qısdı:

– Əşi, day bu kino olmadı ki?.. Davadan döyül, bəs nədəndi?

Elə bu yerdə işıqlar söndü, uşaqlar qabaq cərgədən çığırışdılar:

– Ura, başladı!..

Klub müdiri arxa cərgədə təpiyini yerə vurdu:

– Gəlirəm, ha!

Səs-küy kəsildi, filmin adı yazıldı, sonra uzunsaçlı bir qız oğlanı yamac boyu qovmağa başladı.

Yaşlı kişi öskürüb boğazını arıtladı, yaşına yaraşmayan məzəli bir səslə dedi:

– Özüm ölüm, burda iş var!..

Böyürdən biri hırıldadı:

– Hi-hi... Qorxaq oğlu qorxaq, gör nə qaçır?.. Utanmır bazburutun-nan, ha boyuna qamış ölçüm...

Yaşlı kişi:

– Sən dinmə, – dedi, – özü bilir neynir...

...Bu yerdə oğlan yıxıldı, uzunsaçlı çatıb onu qucaqladı, çiçəklərin, otların üstüylə yumalandılar, sonra qızın saçları bütün ekranı tutdu...

Küncdə oturan qızlar pıqqıldaşdılar, biri özünü saxlaya bilməyib lap bərkdən güldü.

Yaşlı kişi qızlara sarı döndü, alaqaranlıqda soruşdu:

– Kimin qızlarıdı əəə, bunnar?!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qızlar səslərini kəsib başlarını aşağı saldılar, kino qurtaranacan dinmədilər.

Kino qurtardı, işıqlar yanan kimi klub müdiri qabağa çıxdı:

– Sabah yaxşı kino var, – dedi, – həm davalı, həm də belə... sevgidən, bir az tez gəlin, tez başlayaq!

Dəstə-dəstə çıxıb hərə bir yana dağılışdı...

Narınc qaranlıqda Surxayın əlindən tutdu, beləcə, əl-ələ xeyli dinməz-söyləməz yol getdilər.

Ulduzlu gecəydi, kənddən xeyli aralıda sırğalanıb sıralanan təpələrin ətəyi aydınca seçilirdi. Amma bu aydınlıq Narınc üçün də, Surxay üçün də adicə bir gecənin aydınlığı idi. Başlarının üstündə sayrışan ulduzların gözəlliyini də duymadılar.

Surxay dodağının ucunda eləcə bunu dedi:

– Sabah yaxşı gün olacaq!

Narınc elə bil heç nə eşitmədi, filmdəki qız gözünün qabağından çəkilmirdi.

Alaqaranlıqda gülümsədi, sonra Surxayın qoluna girib başını onun çiyninə sarı əydi.

Surxay özünü çəkib çiyinlərini enlətdi, siqaret çıxarıb yandırdı.

Camaat kinodan çıxıb evlərinə dağılışırdı.

İtlərin səsi kəndi başına götürmüşdü. Evlərdən uşaqların qabağına çıxanlar var idi, özləri də elə gendən-genə soruşurdular:

– Qurtardımı kino?

– Qurtardı.

– Davalıydımı?

– Yox, əşi, sevişməkdəniydi...

Narınc altdan yuxarı Surxayın üzünə baxdı, gözləri qəribə bir işıqla parıldadı, sevinc içində, pıçıltıyla dedi:

– Gördün necə öpüşürdülər?

Surxay astadan:

– Yavaş, eşidəllər, – dedi, – elə elə ki, bir də aparım səni kinoya.

Narınc susdu, amma yenə gülümsəyirdi. Ağ plaş geyinmişdi, boylu olduğu indi yadına düşdü, plaşının düymələrini açdı.

Ürəyindən keçdi ki, Surxay indi birdən-birə onu qucaqlayaydı, bağrına basaydı, lap o kinodakı qızla oğlan kimi öpüşəydilər.

Kəndləri də elə o kinodakı kəndə oxşayırdı, orda da beləcə aylı-ulduzlu gecəydi, itlər seyrək-seyrək hürüşürdülər, o kinodakı qızla oğlan



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kimi bunlar da dörd-beş aydı ki, evlənmişdilər... O cürə öpüşmək üçün başqa nə lazım idi ki?!

Narıncın istəyi birdən elə böyüdü ki ayaq saxladı, odlu gözləriylə Surxaya baxdı.

Surxay yenə astadan:

– Nolub, aaz? – dedi. – Xata oldu, səni bir dəfə kinoya apardıq?

Narınc güldü, elə gülə-gülə qəflətən qollarını Surxayın boynuna doladı.

Surxay cəld Narıncın qollarını dartıb boynundan araladı:

– Başın xarab olub, – dedi, – kənd içində bizi biabır eləmək istəyirsən?!

Bir az da beləcə yan-yana getdilər. Narıncın alaqaranlıqda zəif, titrək bir işığa bənzəyən təbəssümü silinib getmişdi, yerişi də elə bil dəyişmişdi, ağırlaşmışdı...

Yenə kinodakı qızı xatırladı, gülümsədi. Surxayın əlindən tutdu, altdan yuxarı üzünə baxdı, siqaretin işığı Surxayın üz-gözündə oynadı.

Surxay əlini Narıncın əlindən çəkmədi, evəcən ikisi də əl-ələ, dinməz-söyləməz addımladılar.

Çəpərin böyründə, Surxayın kötükdən yonub düzəltdiyi stolun yanında Narınc ayaq saxladı...

Surxay da əlacsız qalıb dayandı, bir stola baxdı, bir Narınca baxdı, deməyə söz tapmadı.

Qonşu həyətin qapısı açıldı, Teymur kişi əliağaclı onlara sarı gəldi:

– Axşamınız xeyir, – dedi, – a bala, kinonuz qurtardımı?

– Qurtardı, Teymur əmi!

– Bizim qızlar gəlib çıxmadı axı... gedim görüm harda qaldılar?

Teymur kişi ayın aydınlığında ağacını yolun daşlarına vura-vura aralandı.

Surxay dönüb Narınca baxdı, Narınc yenə gülümsəyirdi.

Surxay da özünü saxlaya bilməyib güldü, amma özü də bilmədi ki, nəyə gülür:

– Hirsimdən gülürəm, – dedi, – vallah, dəli olmusan...

Teymur kişi, böyründə də qızları gəlib keçdi. Qızlar bic-bic pıqqıldaşırdılar. Girdilər həyətə, ancaq həyətdən hələ də səsləri gəlirdi, gülürdülər...

Sonra kəndi sakitlik bürüdü, əl-ayaq yığışdı, Surxayın gözü görə-görə pəncərələrin işığı söndü.

O sakitlikdə Surxay dərədən axan çayın səsini eşitdi, sonra qurbağaların səsi gəldi, elə bil yüz-yüz qurbağa birdən quruldadı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Surxay həyətin qapısını açdı:

– Bəri gəl, – dedi, – gecdi...

Narınc dinmədi, çəpərin dibindəki kötüyün üstündə oturdu.

– Sənnən döyüləm?!

Narınc başını qaldırıb Surxayın üzünə baxdı, gözləri dolmuşdu.

Surxay qorxdu ki, Narınc birdən ağlayıb-eləyər, tez gəlib qolundan yapışdı, çəkə-çəkə apardı.

Həyət qapısı cırıltıyla açıldı, içəri keçdilər. Narınc çırpınıb Surxayın əlindən çıxmaq istədi:

– Burax qolumu, – dedi, – incidir! Burax, yoxsa dişləyəcəm.

Surxay gülüb əlini çəkdi, gendən-genə dedi:

– Gəl evə, incitmə məni, səhər işə gedəcəm!

– Getmirəm.

Surxay dönüb pilləkənləri qalxdı.

Narınc ağlamsına-ağlamsına çağırdı:

– Surxay!

Surxay qapını açıb evə girdi.

Narınc bir xeyli həyətdə, ayın aydınlığında tək-tənha dayandı. Sonra yavaş-yavaş pilləkənləri qalxdı, qapını açıb evə girdi.

Surxay yatırdı.

Narınc gedib yerinə uzandı, yenə həmin uzunsaçlı qız gözünün qabağına gəldi.

Beləcə, Narıncın qara, odlu gözləri qaranlıqda xeyli alışıb yandı. Handan-hana titrək, pıçıltılı səslə çağırdı:

– Surxay!

Surxay gözlərini açıb yuxulu-yuxulu Narınca baxdı. Narınc pişik kimi Surxaya qısıldı:

– Eşitdin, – dedi, – klub müdiri deyirdi, sabah "Kəşmirdə məhəbbət" kinosu olacaq... Məni də apararsan?

Surxay yuxulu-yuxulu mızıldandı:

– Yaxşı, apararam, qoy yataq, sabah işə gedəcəyəm...

Narınc xeyli gözlədi, birdən boynunda uşağın təpiyini hiss elədi, – boy-boy eləyib xırda-xırda güldü, nəfəsi təngiyə-təngiyə Surxayı çağırdı:

– Surxay, Surxay!..

...Surxay şirin yuxuda idi.

*1977*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ÇOBAN İBRAHİM VƏ VELOSİPED

Göy at göstəriş-zad gözləmədən qapıya sarı döndü. İbrahim üzəngiyə qalxıb təzədən oturdu, elə rahat oturdu ki, elə bil atın belində yəhər çox idi, birindən o birinə keçdi, ya da elə bil süfrənin qırağında əyləşmişdi, stulu geri çəkdi ki, ayağını ayağının üstünə aşırsın.

Göy atın yüyənini buraxıb əllərini dizlərinin üstünə qoydu, arvadını qapıda görmək istədi. İstədi ki, arvadı eyvanda dayansın, bir yaşlı oğlu qucağında, o biriləri də yan-yörəsində. İstəyirdi desin ki, – sənin hünərindi bu evin-eşiyin dolanması, ay Salatın.

Elə bu cür də gözlərinin qabağına gəldilər, gülümsündü, əlləri dizlərinin üstündə durmadı, yüyəni götürdü.

Göy at burulub ikimərtəbəli evin qabağına keçdi, İbrahim gördü ki, necə istəyib eləcə, Salatın biryaşlı oğlu qucağında dayanıb eyvanda, o birilər də yan-yörəsində...

Amma onları gördü, gülümsəmədi. Salatına demək istədiyi söz yadından çıxdı, birdən-birə yüyəni elə dartdı ki, az qaldı Göy atın ağzı qulağının dibinəcən cırılsın, dabanlarıyla atın sağrısına döyüb bağıra-bağıra dedi:

– Çər dəymiş, yolunu düz yeri!

Göy at bu yerdə dönüb adam da olsaydı, yenə biləmməzdi ki, İbrahim niyə eləyir, çünki evə gəlmək Göy atın da ürəyindəndi, ən gözəl yerişiylə də gəlirdi. İbrahimin birdən-birə hirslənməyindən başı çıxmadı, yerişini itirdi, hara getdiyini bilmədiyindən ayaqlarını yığıb yumağa döndü.

Bircə Salatına aydın idi ki, İbrahim niyə incitdi atı. Ona görə də xırdalaya-xırdalaya güldü:

– Niyə incidirsən fağırı, məni təzəmi gördün, oh, qız yanına gəlib!

Belə deyib təzədən güldü, balaca oğlunu qucağına sıxıb yuxarıdan aşağı barmağıyla göstərdi:

– Bax, bax, dədə gəldi.

Uşaq yerində atdanıb-düşdü. İbrahim Göy atın yüyənini alıb, eyvana sarı gəldi.

– Ağartma dişlərini, – dedi, – gəl xurcunları-zadı al, atın belindən.

Salatın gülməyindəydi, yan-yörəsinə yığışmış uşaqları bir şey anlamasalar da sığınıb özlərini gizlədə-gizlədə gülümsəyirdilər. Salatın onlara sarı döndü:

– Dədəniz şəhərdən gəlib, tez olun, çamadanını götürün, maşınını yuyun, əlinnən tutun, ayağı palçığa bulanmasın, ha, ha, ha!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Uşaqları pıqqıldaşdılar, hamısı da çalışırdı ki, güldüklərini dədələri eşitməsin. İbrahim atın yəhərini qurdalayırdı. Gülməyini saxladığından üzünün cizgiləri səyriyirdi. Arvadının, uşaqlarının xırdaca-xırdaca, gizlin-gizlin güldüklərini eşidirdi, daha özünü saxlaya bilməyib güldü, dönüb elə gülə-gülə də arvadına dedi:

– Avarasan, avara, yüz dəfə demişəm əl çək şitdiyinnən.

Uşaqlar gördü ki, dədələri gülür, daha gizlində gülmədilər, əllərini bir-birinə vura-vura səs-səsə verib uğunub getdilər. Bayaqdan dədələrinin gülməyinə bənd idilər, qaçıb özlərini onun üstünə saldılar. Sarı-sarı, qızılbaş uşaqlar idi. İbrahim iri, qabarlı əlləriylə bir-bir onların başlarını sığalladı. Birinin üç yaşı vardı, qardaşlarından sonra gəldi, başını əyib dədəsinin əlinin altına sarı uzatdı. İbrahim əlini onun başına qoydu:

– Aparın, atı hörükləyin, – dedi.

İbrahimin altı oğlunun altısı da hərəsi bir tərəfdən atın belinə dırmaşdılar, biri hasara çıxıb hasardan mindi, biri ağaca çıxdı, biri nərdivan gətirdi. Üçyaşlı oğlunun əli heç yana çatmadı, ağlayıb elə üçyaşlı diliylə dedi:

– Dədə, məni də.

İbrahim onu hop götürüb atın belinə qoydu. Altı uşaq Göy atın yalmanından quyruğunun üstünə kimi düzüldülər, gen sinəsində, nazik ayaqlarında böyük-böyük qaçışlar gizlədən Göy at yenə göstəriş gözləmədən döndü, hörüklənməyə getdi.

Salatının üzü-gözü işıq içindəydi, yenə sataşmaq istəyirdi İbrahimə, söz axtarırdı ki, necə sataşsın. Amma Salatının bu gülüşü, üzünü, gözünü bürümüş bu işıq, bu sataşmalar dil açıb danışırdı: "Sənə qurban olum ay İbrahim, əskik olma bu evdən..."

İbrahim başını aşağı dikib pilləkənlə qalxırdı. Bilirdi ki, başını qaldırdı güləcək, Salatının yanından addadı, Salatın yenə güldü:

– Oh, – dedi, – kişilənməyinə baxın, bizim kişinin!

İbrahim keçib oturdu, başını qaldıran kimi güldü:

– Vallah, avarasan, – dedi, – qanacaq adında bir şey görmədim səndə. Nolar bir soruşasan ki, nə var, nə yox, işində.

Uşaq anasının qucağında atılıb-düşdü. Salatın da oturdu:

– Nolacaq işində, – dedi, – qoyundu daa, bir başınnan hey elə, bir ayağınnan.

İbrahim papağını çıxartdı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Belə deyərsən daa, ay yağış görmürsüz, ay qaranlıq gecə görmürsüz. Bir sən deyilsən ki, belə deyən. Əlimdə ixtiyar olaydı...

Salatın ayağa durdu, uşağı İbrahimə verdi, İbrahim daha sözünün dalını demədi. Salatın kövrəldi, az qaldı İbrahimin çallaşmış saçların sığallasın. Çıxıb ləyəndə su gətirdi, dəsmal gətirdi, əyilib İbrahimin ayağını soyundurdu, başladı yumağa. Uşaq suyun səsini eşidib atılıb-düşdü, Salatın:

– Bərk tut, ləyənə düşər, – dedi.

Bu yerdə İbrahimin böyük oğlu gəldi, boynunu burub divara söykəndi, İbrahim arvadından soruşdu:

– Bu niyə belə eləyir?

– Velosiped istəyir.

– Nə istəyir?

– Velosiped.

– Neynir velosipedi?

– Sürəcək.

İbrahim dinmədi, sonra sakitcə dilləndi:

– Sağ ol!

Birdən ayağını sudan çıxarıb, üz-gözünü turşutdu, acıqlandı:

– Min dəfə demişəm əlini ayağımın altına vurma, qıdığım tutur.

Salatın da acıqlı-acıqlı:

– Yaxşı, – dedi, – bəri uzat!

İbrahim ayağını uzadıb, oğluna sarı döndü:

– Neynirsən, əə, velosipedi?

Oğlu dodağının ucunda mızıldadı:

– Hamının var.

Heç biri dinmədi, Salatın İbrahimin ayağını qurulayıb ayağa durdu, uşağı alıb:

– Qalx, əynini dəyiş, çaydan-çörəkdən ye, – dedi.

İbrahim ayağa durub oğluna sarı döndü:

– Get, əmimi çağır!

İbrahimin "əmimi çağır" deməyi bəs idi, hamı bilirdi ki, belə dedimi, deməli içmək istəyir. Salatın qapıya sarı gedirdi, geri qanrıldı:

– İçəcəksən...

– Həə.

– İçmə, bilirsən ki, sonra əziyyətini necə çəkirsən?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İbrahim oğluna sarı döndü:

– Get çağır!

İçəri keçdi, hələ bir dəfə də geyinmədiyi təzə kostyumu çıxartdı. Ağ köynək, qara kostyum, təzə ayaqqabı İbrahimi dəyişib təzə İbrahim elədi, eyvana çıxdı. Salatın onu görən kimi təzədən güldü:

– Müəllim oldun ki! İbrahim müəllim, İbrahim mə-əllim.

Sonra eyvanın qapılarını taybatay açdı, qonşulara sarı boylandı, heç kəsi görmədi, amma çox istəyirdi ki, qonşu arvadları qapıda olaydı, İbrahimi bu geyimdə görəydilər. Qapının arasında dayanmışdı, dörd yanına boylana-boylana dedi:

– Atamın canı üçün direktora oxşayırsan!

İsmayıl əmi gəlib çıxdı, dalınca da İbrahimin oğlu pilləkənlə qalxdı. İsmayıl kişi ucaboylu, yaraşıqlı kişiydi. Davadan otuz il keçmişdi, hərbi intizamı hələ də üstündəydi, yerişində, duruşunda, danışığındaydı. Kənd otuz ildi ona "komissar" deyirdi. İsmayıl kişi İbrahimi görən kimi:

– Paah, pahh, çox mübarəkdi, çox mübarəkdi, aaz bunun qalstuku hanı?

İbrahim ağ köynəyin, qara kostyumun içində fağır-fağır gülümsədi:

– Qalstukum yoxdu, – dedi.

İsmayıl əmi gəlib çatdı, İbrahimə əl verdi, sonra da:

– Olmaz canın üçün, qalstuk lazımdı, – Salatına sarı döndü, – aaz bir qalstuk tap buna!

Salatın evə keçdi, siyirməni eşələyib bir boynu rezinli qalstuk tapdı, sevinə-sevinə gətirdi, verdi İsmayıl əmiyə. İbrahim başını aşağı əydi, İsmayıl əmi qalstuku taxdı onun boynuna.

Qonşu arvad həyətdən baxırdı, mat-məəttəl qalmışdı. Nə İbrahimi tanıya bilirdi, nə də bir şey anlaya bilirdi. Yaxınlaşdı, yaxınlaşdı birdən gördü ki, ağ köynəyin, qara kostyumun içindəki İbrahimdi, geri dönüb evə sarı qaçdı. Bir azdan əri çıxdı, uşaqları çıxdı. Yaxınlaşıb dikdirdə dayandılar. Hamı gülürdü. Uşaqları dönüb hərəsi bir qonşunun qapısına yüyürdü:

– İbrahim dayı kostyum geyinib, qalstuk bağlayıb!

– Əyə, hansı İbrahim?

– Çoban İbrahim...

– İbrahim dayı qalstuk bağlayıb.

– Əyə, İbrahim kimdi?

– Çoban İbrahim...

– Nə danışırsan?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

...Qonum-qonşu yan-yörədən yığılıb gəldi, evin qənşərinə düzülüb tamaşaya durdular. İbrahim təzə geyimində balaca kənd camaatı üçün davalı kino kimiydi, eyvana söykənib fağır-fağır gülümsəyirdi. Uşaqları Göy atı hörükləyib qayıtmışdılar, pilləkənin ayağındaca dayanıb qalstuklu dədələrinə baxırdılar, sevinc içindəydilər, amma bilmirdilər bu sevinci necə bildirsinlər. Ortancıl oğlu özündən kiçiyinin qulağına dedi:

– Dədəm Cəlal müəllimə oxşuyur.

Qonşu arvad uzaqdan-uzağa Salatını səslədi:

– Ay Salatın, oxumağa göndərirsən İbrahimi?

Salatın əlini ağzına tutub pıqqıldayırdı. İbrahim cavab verdi:

– Nolub aaz, oxuyannar mənnən artıqdı?

Hamı görürdü ki, çoban İbrahim qəşəng bir kişi olub. Amma heç kim ağlına sığışdırmırdı ki, bir gün gələcək çoban İbrahim qalstuk bağlayacaq. İndi də buna oyun kimi baxırdılar, ona görə də əllərini-əllərinə vurub gülürdülər. Balacaboy, arıq qonşu bir-iki addım qabağa yeridi, nazik səsiylə:

– Ay sağ ol, səni, ay İbrahim, çoxdandı belə gülmürdük, yaxşı güldük, – dedi. Sonra da yanındakılara sarı döndü:

– Dünyanı gəzəsiz, – dedi, – bunun kimi qonşu tapa bilməzsiz.

İbrahim pilləkənə sarı gəldi, yerişi də doğrudan-doğruya əvvəlki yerişi deyildi, ağ köynəyin, qara kostyumun, qalstukun, təzə ayaqqabının yerişiydi. Altdan-yuxarı qonşularına sarı baxdı. Nəsə demək istədi, istədiyi sözü tapmadı. Qonşularından biri ləzzətlə bağırdı:

– Əyə, sən canın bir panama da qoy, çıx kəndin içinə, mən ölüm, düz get direktorun yanına, görək nolacaq?! – sonra dönüb ona-buna baxdı, – əə, kimdə panama var, siz allah, gətirin.

Amma qonum-qonşunun hay-küyü İsmayıl kişinin xoşuna gəlmədi, irəli yeridi, İbrahimin qolundan tutdu.

– Belə gəl, əə, yeməyə, içməyəmi çağırmısan məni, teatramı?

Başını qaldırıb qonşulara baxdı:

– Nolub, ay camaat, – dedi, – yoxsa pulumu azdı İbrahimin? Onda olan pulu düzərəm burdan Göytəpəyə kimi, üstünnən yeriyərsiz, xırta-xırtla.

İsmayıl əminin belə deməyilə böyüklər getdi, kiçiklər qaldı. İsmayıl əmi kiçiklərin üstünə qışqırdı:

– Dağılın, əə, rədd olun ordan, aydan adam gəlib, bunnara bax bir! Razaydites!

Əslində bu böyüklərə demək istədiyi söz idi ki, kiçiklərə deyirdi...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İbrahim keçib evdə dinməz-söyləməz oturmuşdu, stolun üstündə bir araq vardı. Salatın süfrə açırdı. İsmayıl əmi də gəldi, hirsli-zad deyildi, amma özünü hirsli göstərmək istədi, dayanıb İbrahimi mənalı-mənalı süzdü:

– Doğrudan da çobansan ki çoban, – dedi.

İbrahim başını da qaldırmadı, sakitcə cavab verdi:

– Çobanam daa. Nolacam başqa, dünyada hər şey dəyişdi, arabaçı şofer oldu, əkinçi traktorçu oldu, molla müəllim oldu. Di gəl çobannıq dəyişmədi, otuz ildi, həmən dağdı, həmən yaylaqdı, həmən daşlardı ki, bu boyda vaxtımnan üstündə otururam. Gördün ki, cildimi dəyişdiyim üçün kənd bir-birinə dəydi. Çobanam daa, nolacam başqa?! Yığışdız, getdiz davaya, o boyda ailədə bir mən qaldım başıpapaqlı, bir lələm, oxuyammadım.

İsmayıl əmi sakitcə dinləyirdi, araq süzdü, götürüb:

– Sağ ol, sənin sağlığına! – dedi.

İbrahim də içdi, üzünü turşuda-turşuda, nəfəsi qırıla-qırıla:

– Sevin ey, sevin, – dedi, – şükür elə ki, əsgərlik qurtardı səni çobanlığın əlinnən. Davaya getməsəydin indi sən də mənim kimi çoban idin. Əsgərliyəsə qoymadılar gedəm, anam təkdi, uşaqlar balacaydı. Getsəydim bəsim idi, rusca öyrənərdim, vəssalam...

– Onnan döyül, – dedi, yenə araq süzdü.

– Onnandı elə. Ammanoğlu mənnən çobannıq eliyirdi, əsgərlikdən qayıtdı, dedi, net, vəssalam, fabkom qoydular.

İsmayıl əmi arağı başına çəkdi:

– Bilirsən sən nəsən, – dedi, – yuristsən, oxumamış professorsan, – çiyni qalxa-qalxa güldü, – bu kənddə sənin kimi bic, usta adam olmaz. Mən tanıyıram səni.

Belə deməyi İsmayıl əminin həm özünün xoşuna gəldi, həm də İbrahimin. İbrahim ona sarı dartındı:

– Mən oxusaydım, əmi, uşaqların... – istədi uşaqların canına and içsin, dönüb baxdı, gördü böyük oğlu qapının dibində boynunu burub, burnunu sallayıb. And içmədi, əlini cibinə salıb qırmızı onluqları çıxartdı, yarıtənəli, yarıacıqlı:

– Al, – dedi, – bir yekəliyinə bax, gözüyün suyunu axıtma, havaxt uşaq oldum mən, altı yaşımda kişiydim, bilmədim kimə oxşadı bu.

İsmayıl əmi pulu görüb ayılan kimi oldu:

– O nə puldu, əə? – dedi.

– Velosiped alacaq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Nəə? Anu-ka verni, seyças je, komissar vam prikazıvayet, – dedi, – özü də ayağa durdu. İbrahim sakitcə onu əyləşdirdi:

– Yaxşı, – dedi, – əmi, qoy alsın, açılsın başımızdan.

– Oxumayacaq, deməli, çoban eləmək istəyirsən onu da.

– Oxumasın, özü bilər, – İbrahim oğluna sarı döndü, başladı xəbər almağa, – neçəncidə oxuyursan əə, hıy?

– Yeddincidə.

– Bu yeddi ildə sənə bir dəfə demişəm oxu?

Uşaq başını tərpətdi.

– Yox! Vəssalam. Niyə də deyirəm, oxuyarsan adam olarsan, oxumazsan qalstuk bağlayanda sənə də gülərlər mənim kimi...

Təzədən oğluna sarı döndü:

– Nə desən eləyəcəm, nə istəsən alacağam. Günü sabah desən ki, evləndir məni, evləndirərəm, – təzədən əmisinə sarı döndü, – ə, nəyimə lazımdı, adamın gərək özünün başında olsun, quyuya su tökməknən suyumu olar?!

Oğlu sakitcə çıxıb getdi, qaça-qaça, sevinə-sevinə özünü dükana saldı. İbrahim hər şeyi unutmuşdu, başı duman içindəydi, ürəyində mahnı oxumaq istəyirdi, amma xəbəri yox idi ki, elə oxuyur. İsmayıl əmi Sevastopoldan danışırdı, onun da başı dumanlı olduğundan İbrahimin mahnı oxuduğunu eşitmirdi...

– Canım üçün, üç gün, üç gecə kirpik də çalmadıq, üz-üzə durduq, ölüm-dirimnən...

İbrahim gözünü yumub yırğalana-yırğalana oxuyurdu:

– Dön, bəri dön, görüm üzün xalını...

Salatın gəlib divanın üstündə oturdu, qucağında da uşaq, gözlərini İbrahimə dikdi, başladı gülümsəməyə...

İbrahim gözünün ucuyla Salatına baxdı, gözlərini yumdu, başını yırğalayıb oxudu:

Bir dadeydim ləbləriyin balını,
Gələydi yerinə imanım, Əsli.

Salatın gülə-gülə İsmayıl kişiyə baxdı:

– Təzə eşqə düşüb, ay İsmayıl əmi.

İsmayıl kişinin kefi göyün yeddinci qatındaydı:

– Yaxşı eliyir, – dedi, – jenis, ə, kişini belə şeylərdi cavan saxlayan, jenis, komissar prikazıvayet!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İsmayıl kişi ki İbrahimlə rusca danışırdı, elə bilirdin İbrahimə dünyanı bağışlayırlar. İbrahim istədi, rusca cavab versin bir-iki kəlməylə, amma dili dönmədi, kəkələyə-kəkələyə bunuca deyə bildi:

– Da, jenis, görərsən.

Salatın uğunub getdi, uşaqlar başlarını içəri salmışdılar, əlini qaldırıb onları çağırdı:

– Gəlin, dədəniz rusca danışır, – dedi, – təzədən güldü.

Amma uşaqlar içəri girmədilər, bir-birinə qarışa-qarışa qaçıb dağılışdılar. Zarafat deyildi, dədələri çoban İbrahim rusca danışırdı.

İsmayıl kişi ayağa qalxdı:

– Nu, – dedi, – getməlisən sən?

İbrahim elə bil ayıldı, susub İsmayıl kişiyə baxdı, dağların yamacına ötürdüyü sürü gəldi gözlərinin qabağına. Kəlin-kəlin toğlular, xallı-xallı quzular baş qaldırıb mələdi. İsmayıl kişinin səsi uzaqdan gəldi:

– Qalx, canavar-zad düşər!

İbrahim fağır-fağır altdan-yuxarı baxdı:

– Tapşırmışam uşaqlara.

– Olmaz, özün öz işiyin üstündə ol! Komissar prikazıvaet! Qalx, növbəsiz gəlmisən, öz sıranda gələrsən, otururıq, əməlli-başlı. Söz eləyəllər savxozda.

İbrahim dönüb Salatına baxdı. İsmayıl kişi də, İbrahim də elə bilirdilər Salatın gülümsəyir. Əslində təbəssüm deyildi Salatının üzündə dolaşan, ağrıydı.

İbrahim qalxdı, uşaqlara – atı gətirin! – dedi, təzədən qayıdıb oturdu, başını buladı:

– Qurtarıb ey, mənimki, əmi!

İsmayıl kişi silkələnə-silkələnə güldü:

– Niyə elə deyirsən, – dedi, – kimdi sənnən artıq dolanan?..

– Əə, ağlım başıma gələndə başımda qoyunnar mələyir. Heç uşaqlarıma belə bağlanmamışam.

İsmayıl kişi hələ də ayaq üstündəydi:

– Sevastopolda əks-hücuma keçdik, bütün cəbhəboyu irəlilədik. Bir də gördüm düşmən tərəfdə enlikürəkli, yaraşıqlı bir oğlan əlləri pulemyotun dəstəsində, başını qoyub pulemyotun üstünə, quruyub eləcə. Yaxınlaşdım, gördüm qollarında zəncir var, zəncirləyib bağlayıblar pulemyota. Qaraqaş, qarasaç oğlan idi. Cibindən dokumentlərini çıxartdım, baxdım ki, rumın əsirlərindəndi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İbrahim nəfəs dərmədən qulaq asırdı:

– Sən canın, – dedi.

– Sənin canın üçün, İbrahim, gözümün qabağındaca olan şeydi.

Salatın içini çəkib:

– Ay yazıq, ay yazıq, – dedi, gözləri doldu.

...Göy at qapıda kişnədi, eşiyə çıxdılar. İbrahim enib, atı yəhərləyib-yüyənlədi. Salatın balaca bir xurcunda yır-yığış eləmişdi, xurcunu da aşırdılar, İbrahim atı mindi, yüyəni çəkdi, Göy at ayaqlarını yerə döyüb yerində oynadı.

İsmayıl kişi eyvandan əmr verdi:

– Uşaqlıq eləmə, əə, bilsəm keflisən, içmərəm bir də sənnən.

İbrahim atın üstündə səndələdi. İsmayıl kişinin səsini bir də eşitdi:

– Derjis krepçe, komissar prikazıvayet!

Qonşular yenə ikibir, üçbir dikdirə yığıldılar, gördülər İbrahim indi əsil İbrahimdi, öz paltarını geyinib. Qonşu arvadlardan biri him-cimlə Salatından soruşdu:

– Aaz, içib?

Salatın başıyla "hə" dedi.

Balacaboylu qonşu səs-küyə eşiyə çıxdı, yaxınlaşıb İsmayıl kişiyə sarı əlini qaldırdı:

– Zdorovo, komisar!

İsmayıl kişi də əlini qaldırdı...

İbrahim kənddən çıxmışdı, nə yoldan xəbəri vardı, nə izdən, Göy atın başını buraxıb fikrə getmişdi, qolları pulemyota zəncirlənmiş rumın əsiri gözlərinin qabağından çəkilmirdi... Yaylaq dağları kəndin 6-7 kilometrliyindəydi, İbrahimin yoldaşlarına tapşırdığı sürü yamacda ağarışırdı...

İbrahimin böyük oğlu dükandan velosipedi alıb, belinə aşırıldı, evə sarı qaçdı. Çatan kimi uşaqlar başına yığışdılar. İsmayıl kişi başını bulayıb:

– Ay, ay, ay, – dedi, – batdı bunun oxumağı, bir çomaq da buna hazırlayın.

İbrahimin böyük oğlu heç nəyə fikir vermədi, eləcə soruşdu:

– Dədəm getdi?

Dedilər:

– Həə!

İbrahimin böyük oğlu bunu eşidən kimi təzədən aşırıldı velosipedinin belinə, dədəsinin ardınca çapdı. Dalınca Salatın qışqırdı:

– Hara gedirsən, belə qayıt!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sonra qonşular qışqırdı, baxmadı, İsmayıl kişi əmr elədi:

– Anu-ka vernis, komissar prikazıvaet, komu qovoryat?!

İbrahim Göy atı ötürmüşdü göylüyə, özü də sürünün yanında bir yamaca dirsəklənmişdi. Bir də gördü ki, budu, bir velosiped gəlir əyilə-əyilə. Üstündəki də böyük oğlu. Qalxıb gülə-gülə yola sarı getdi.

Oğlu onu gördü, bir az da ürəkləndi, yanından keçdi, döndü, bir də belə keçdi. İbrahim dedi:

– Əylə, əyə!

Uşaq dayanıb velosipeddən düşdü, İbrahim yaxınlaşdı.

– Bir ver görüm onu!

– Dədə sürəmməzsən, yıxılarsan.

– Ə ver bəri, buna bax bir, məni öyrədəcək.

Aldı, ayağını aşırdı, gördü üstündə dura bilməyəcək.

– Tut, – dedi, – dalınnan!

Oğlu velosipedin dalınnan yapışdı, İbrahim bir-iki addım gedəndən sonra buraxdı. İbrahim gördü dağlar, sürülər, Göy at nəyəsə minib yırğalana-yırğalana getməkdədi, bir az aralanmışdı ki, baxdı qonşu kənddən iki qadın gəlir, birini tanıdı, tanıyan kimi də bir zamanlar ona yazdığı sevgi məktubunu xatırladı. "Ölsən torpağınsan, qalsan mənim". Utandımı, nəydisə yola baxdı, gördü yol da baş alıb getməkdədi, birdən elə bil velosipedi altından aldılar, üzüüstə daş yola yıxıldı. Əlləri, üz-gözü soyulub qabığdan çıxdı. Qalxdı, yapışdı velosipedin buynuzunnan, qaldırıb yerə çırpdı. Oğlu qışqıra-qışqıra özünü yetirdi:

– Dədə, ağrın alım, qırma, dədə, ağrın alım!

Amma İbrahim heç nə eşitmirdi, velosipedi daşa-kəsəyə vurub qırıq-qırıq elədi. Əlləri, üz-gözü qan içində dinməz-söyləməz sürünün yanına qayıtdı.

Oğlu ağlaya-ağlaya velosipedin qırıq-quruqlarını yığıb çiyninə aldı, kəndə sarı döndü. Hıçqırıqları bayaq baş alıb getməkdə olan dağlara, daşlara dəyib qayıdırdı.

*1977*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## SIĞIRÇI GÜLÜNÜN ALA İTİ

Gün Çaxmaq qayasından saçaq salladı, bacalar tüstüləndi, haçabuynuz inəklər buzovlarından ayrılıb örüşə çıxdılar, hamısı da boyun döndərib narıncı-narıncı mələdi.

Sığırçı Gülü bürüncəyi də qoltuğunda naxırın ardınca çıxdı. Ala bir iti də var idi. Quyruğunu belinə qoyub qabağa keçdi, səhərin sərinliyində ləhləyə-ləhləyə yoxuşu qalxdı, dörd yanına boylandı. Həmişəki kimi, yenə bir-bir bütün qapılara baş vurdu.

...Neçə il idi, beləcə qorxusuz-hürküsüz səhərlər naxırın ardınca çıxanda, axşamlar kəndə qayıdanda həyətləri gəzirdi, baş qaldırıb, diş ağardan qapı itlərini boğub öldürürdü, quyruğu da belində Sığırçı Gülünün ardınca yorğalayırdı.

Ölən iti deyinə-deyinə aparıb atırdılar, qapı itlərinin çoxu da elə bunu gözləyirdi ki, qarınlarını doydursun. Ona görə də öyrəşmişdilər hər səhər, hər axşam bir daldaya çəkilib qorxa-qorxa ala itə göz qoyurdular...

Davadan iki il keçdi, yamaclar daralan təki, sular soğulan təki oldu. Amma it tumarından düşmədi, ona görə ki, Sığırçı Gülünü davaya aparmadılar, bir ayağı gödək idi, yeriyəndə bir yanı üstə xeyli əyilməli olurdu...

Sığırçı Gülü ürəyində sevindi, amma üzə vurmadı, uzun ayağının üstünə qalxanda voyenkom Sığırçı Gülünün uca boyuna baxa-baxa qaldı. Heç nə demədi, başınıca buladı, Sığırçı Gülü də əllərini yana açıb gülümsədi. Bic adam idi, elə gülümsədi, voyenkom yəqin elədi ki, Sığırçı Gülü təmiz adamdı, əlini qaldırdı, lap astaca stolun üstünə qoydu, dedi:

– Vuruşmaq lazımdı, döyüşmək lazımdı, yoldaş Gülü. İndi arxa cəbhə, ön cəbhə yoxdu, dava hər yerdə gedir, hər evdə, hər ocaqda, bax mənim bu otağımda da dava gedir. Vuruşmalıyıq, yoldaş Gülü, döyüşməliyik!

Sığırçı Gülü əvvəlcə qorxdu, deməyə söz tapmadı, hələ də uzun ayağının üstündə dayanmışdı, baş əydi, voyenkom onun yıxılmadığına təəccüb elədi.

Sığırçı Gülü saatlarla uzun ayağının üstündə dayana bilirdi. Yoldaşlarıyla mərc gələrdi, uzun ayağınınca üstündə çayı keçərdi, gödək ayağına bir damcı su düşməzdi.

Beləcə Sığırçı Gülü dava başlayandan kəndin naxırını otardı, ala it də yanınca yamacları gəzdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yüz otuz-yüz əlli evlik kənd idi, üç yüzə qədər əsgəri getmişdi. Uşaqları bir qarına ac, bir qarına tox, qonşu kəndin uşaqlarının arasında öyünürdülər. "Bizim üç yüz əsgərimiz gedib".

Bu yüz əlli ev Sığırçı Gülünü ac qoymurdu. Hər səhər bir evdən bir parça çörək tapılırdı.

Səhər tikəsi az olanda Sığırçı Gülünün qaşqabağı tökülürdü:

– Mən də sizdən ötrü qaldım, kim gedəcəydi sizin bu qırılmışa? Yoxsa, nolmuşdu, voyenkom baxdı, dedi, vallah sənin bu uzun ayağında bir öküzün gücü var. Amma neynim, bu dava döyülmü, bu boyda dilsiz-ağızsız mənə baxır, mələyə-mələyə?!

Qızlar, gəlinlər Sığırçı Gülüyə inanıb, öz aralarında doluxsuna-doluxsuna deyirdilər:

– İtdi-qurtdu, hər nədi, yenə kişidi.

Kənddə balacaboylu bir sədr qalmışdı, beş-altı da ağsaqqal. Onların Sığırçı Gülüyə fikir verməyə vaxtları yox idi.

Davadan xəbərlər gəlirdi. Gəlib kəndin bütün qapılarını bir-bir çırpırdı. Qarılar var idi, bu xəbərə dözə bilmirdi, çoxu canını tapşırırdı. Naxır örüşdən qayıdanda qapılarda ağlaşma görüb dayanırdı, uzaqdan-uzağa iri kirpiklərini çalıb, baş çırpıb mələyirdilər, Sığırçı Gülüdən başqa hamı bilirdi ki, inəklər bu dəfə buzov üçün mələmir, ona görə də qocalar baş bulayardı.

– Tfu...

Sığırçı Gülünün xəbərdən xəbəri yox idi, çünki Sığırçı Gülü dünyaya tək gəlmişdi, özü də elə beləcə, bir ayağı gödək. Günlərin birində uzun ayağının üstünə qalxdı, gördü ki, ayağının biri yerə çatmır, nə Allah qaldı, nə yaradan, Allahdan başladı, camaatda qurtardı.

Nə atası yadındaydı, nə anası, kəndin bütün evlərində, qapılarında böyümüşdü. Soruşanda ki, Gülü, atan-anan yadındadımı?

Deyərdi: "Yatdımmı yuxu görəm? Bu boyda kənd bircə məni saxlaya bilmədi, ayağımı bu günə saldılar, hamınız əclafsız, böyükdən kiçiyə, hayıfımı alacam, bu tək ayağımın üstündə, görərsiz!"

Dava başladı. Sığırçı Gülü uzun ayağının üstünə qalxıb davaya gedən köhlən-köhlən atların, igid-igid oğlanların ardınca baxdı, neçə illər idi, bu igid-igid oğlanların arasında baş qaldıra bilmirdi. Bu igid-igid oğlanlar əsgərliyə gedəndə Gülü papağını yavaşca gözünün üstünə endirib, boynunun ardını qaşıdı. Amma qıraqdan baxan elə bildi Gülü doluxsunub.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Gülünün papağı birinin, geyməsi birinin, ayaqqabıları birinin idi. İndi onların hamısı atlanıb sevinə-sevinə, mahnı oxuya-oxuya, saz çala-çala ayrılırdılar.

Sığırçı Gülü də yanıb-yaxılırdı, hirslənirdi:

– Ağlamaq əvəzinə gülür, köpək uşağı...

...Günlərin birində Sığırçı Gülü axşamüstü naxırı tökdü, düz getdi Telli qarının yanına. Telli qarının balacaraq, qaraca bir damı vardı. Sığırçı Gülü qapıdan keçəndə gödək ayağının üstünə düşməli oldu:

– Axşamın xeyir, – dedi, – ay Telli qarı.

Dava başlayandan qarıların heç birinə nənə demirdi.

Telli qarının gəlini lampanı yandırdı, kişi səsi sümüyünü səksəndirdi, diksinib döndü. Sığırçı Gülünü uzun ayağının üstündə dayanmış gördü.

Telli qarının üç oğlu var idi, üçü də davadaydı, təkcə böyüyü evlənmişdi. Qarı gözünü zilləyib corab toxuyurdu, səsə başını qaldırdı:

– Haay, kimdi, ay gəlin?!

Sığırçı Gülü dedi:

– Mənəm, mən!

Gəlin gəlib Telli qarının qulağına dedi:

– Sığırçı Gülüdü...

– Hə, gəl görüm, xeyir olsun, ay Gülü?

Gəlin səmici götürüb eşiyə çıxdı.

Sığırçı Gülü xeyli dinmədi, özü qarını intizarda saxlamaq istədi. Ürəyində deyirdi: kaftar, başı gora titrəyir, corab toxumağına bax, elə bunun corabına bənddi nemes!

Telli qarı ayağa durdu, altdan-yuxarı onun üzünə baxdı, qorxulu-qorxulu dedi:

– Bir aşağı en, a bala, görüm nə deyirsən?

Sığırçı Gülü gödək ayağının üstünə düşdü, Telli qarıyla bir boyda oldu:

– Sənnən bir şey soruşmağa gəlmişəm, Telli qarı, bu gün atam-anam gəlib düşüb yadıma. Sən onnarı yaxşı tanıyıbsan, de görüm necə olub, belə olub?

– Necə olacaq, a bala, gəlməydilər, özləri də el adamı döyüldü sənnən iraq, qolçomaq idilər. Hardansa gəlib daldalanmışdılar bizim kənddə. Bəyim arvad vardı, onun evində qalırdılar. Sən iki aylıq olanda, bir səhər



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hay düşdü ki, bəs gəlmələr qundağı da qoyub çıxıb gediblər. Bəyim arvad saxladı səni, sonra o da öldü, kənd döşünə çəkdi.

– Bə, mənim ayağımı kim belə elədi?

– Neynirsən, a bala, tez-tez soruşursan, unut getsin, onnardan ata-anamı olacaq sənə təzədən, qoy dərdimizi çəkək, el adamı döyüldülər!

Sığırçı Gülü uzun ayağının üstünə qalxdı, qamçısını çiynindən aşırdı, Telli qarını qamçılamaqdan özünü güclə saxladı...

İndi sizə hardan deyim, Sığırçı Gülünün ala itindən. Ala it bir-bir həyətlərə döndü, diş ağardan, baş qaldıran itləri boğdu, gəlinlər, qızlar, qarılar haya çıxdı, tolamaz atdılar, ala it quyruğunu belinə qoyub uzaqlaşdı, heç kəsə endimədi. Qarılar ala itin dalınca baxıb söydülər, söyləndilər:

– Kefinə bax, quduz dəymişin, nə istəyirsən yazıqlardan, acından başlarını qaldıra bilmirlər. Quduz dəymiş qudurub, camaatın dərdi vecinə də deyil, dalının eninə bax bir, tfu!..

Ala it dolanıb Sığırçı Gülünün ardınca Telli qarının həyətinə döndü. Telli qarının həyətindən süd iyi gəlirdi. Ala it burun tutub dörd yanını iylədi. Gəlin inək sağırdı, ala it saymazyana yanından keçdi. Qapıdakı it qorxub özünü tövlənin küncünə saldı. Sığırçı Gülünün iyi ala itin burnuna dəyəndə ala it tövləyə keçib qapı itinin üstünə getdi. Qapı iti zingildəyib çığırırdı.

İnək qulaqlarını çırpdı, gəlin sərnici yerə qoyub tövləyə keçdi, yerdən daş götürüb ala itə atdı:

– Yiyən ölsün, ziyankar yiyən, çıx eşiyə...

Ala it geri dönüb gəlinə hürdü, gəlin qorxub çəkiləndə ala it onun uzun donunun ətəyini cırdı. Gəlin qışqırdı, bu qışqırığa qapı iti özünü saxlaya bilmədi, ala itin üstünə atılıb, heysiz dişləriylə didişdirdi. Ala itin yağlı gövdəsi birdən-birə qapı itini cana gətirdi, qapı iti bütün gücünü yığıb dişini qana batırmaq, ət yemək istədi. Amma ala it dönüb onu ayaqlarının altına aldı. İnək ala itin üstünə getdi. Sığırçı Gülü eşiyə çıxdı.

İnək südü dağıtmışdı, gəlin boş sərnicin qulpundan tutub diz çöküb ağlayırdı.

Sığırçı Gülü ala itin hay-küyünə öyrəşmişdi, heç vaxt fikir verməzdi, indi də heç nə demədi. Südün dağıldığını görəndə əməlli-başlı kefi açıldı, xırdaca-xırdaca güldü, ala it onu görüb təzədən hürdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kəndin bu başından o başına hay düşdü ki, Telli qarının gəlini inəyin axşam öynəsini dağıdıb. Bunu eşidən gəlinlərin çoxu doluxsunub ağladı.

Sonra Telli qarıgilə hər evdən bir balaca dolça süd payı gəldi.

Sığırçı Gülü bunu eşitdi də, gördü də. Öz-özünə dedi:

– İt uşağı, mən bunnara nökərçilik eləyirəm. Mənə çatanda yoxa çıxır bir dolça süd, yaxşı, köpək uşağı, sizin o südünüz mənim əlimdədi!..

Sığırçı Gülü gördüyü qaraltını, eşitdiyi səsi söyə-söyə daş hasarların dibiylə yeriyirdi, amma heç kəs bilmirdi ki, Sığırçı Gülü nə deyir, heç kəs də fikir vermirdi, çünki gözünü açan onu belə görmüşdü. Sığırçı Gülü də gözünü açandan deyinirdi... Həyətlərdən baxanda hasarların dibiylə yeriyən Sığırçı Gülünün qulaqlı papağı batıb çıxırdı...

Buna da öyrəşmişdilər. Sığırçı Gülünün bu hasarların dibində batıb-çıxan qaraltısına kəndin itləri də, inəkləri də, adamları da adət eləmişdilər.

Tükəz qarı hasarın dibində inək sağırdı, Sığırçı Gülü yaxınlaşdı. Tükəz qarının xəbəri olmadı, göynəyə-göynəyə ağlayırdı. Tükəz qarının ağladığını görəndə Sığırçı Gülünün yadına düşdü ki, davadı.

Sığırçı Gülünün papağı Tükəz qarının böyük oğlunun idi. Gülü bunu yadına salıb, papağını çıxartdı, təzədən qoydu.

Tükəz qarı belinə şal bağlamışdı. Sığırçı Gülü şalın saçaqlarına baxdı, ürəyində dedi: "Ax, nə yandırardım, alışqanıca saçağın altına tutardım, ləzzətlə yanardı".

Sığırçı Gülünün bu istəyi birdən-birə elə böyüdü ki, sırıqlı geyməsinin yaxasını açmalı oldu, sonra da ağacına söykənib tamaşa elədi... Xəyalında Tükəz qarı alışıb yanırdı, amma heç dönüb "uf" da demirdi...

Sığırçı Gülünün otuz yaşı var idi, bu otuz ildə kənddəki gözəl qızların hamısını istədi, amma heç birinə deyə bilmədi. Utandığından yox, ona görə ki, Sığırçı Gülü utana bilmirdi, belə bir üz onda yox idi.

Ərlik qızların hamısının Gülüylə zarafatı vardı. Ya əkində, ya biçində fürsət düşən kimi Gülüyə üz tutub, öz gözaltılarına söz atardılar:

– Mən heç kəsə yox, təkcə Gülüyə gedəcəm, ölsəm torpağınam, qalsam Gülünün, – deyib uğunub gedərdilər, bu da Gülünün ürəyində hər şeyi sındırıb tökərdi, hirsindən az qalardı ağlasın, yerdən torpaq götürüb qızları yalamalayardı. Qızlar da yamac boyu qaçardı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O vaxt dava başlanmamışdı, yalın-yamacın gen çağı idi. Əl-qolu açıq, göz işlədikcə, ayaq tutduqca qaç nə qədər istəyirsən!

Sığırçı Gülü yerində uzanıb o günləri xatırlayırdı. "Dayanın, indi özünüz yalvararsız Gülüyə, nolar, gələrsiz Gülünün yanına, gələrsiz!.."

Ala it də eşikdə qomrov səsiylə seyrək-seyrək hürürdü. Davanın üçüncü ili idi. Sığırçı Gülü bir səhər oyandı. Tükəz qarının qapısında əsgər paltarlı bir adam gördü, əvvəl elə bildi yuxudu, sonra gördü yox, yuxu deyil. Gözlərini döyüb baxdı, amma bilmədi Tükəz qarının hansı oğluydu. Bu əsgər paltarlı adam Gülünü təzədən narahat elədi, darıxdırdı. Gülü qalxıb bürüncəyini götürdü, hasarların dibiylə batıb çıxa-çıxa naxırın ardınca getdi, ala it quyruğu belində qabağa keçdi, kəndin bütün qapı itləri qorxulu-qorxulu, gizlin-gizlin ardınca tamaşaya durdu.

Kəndin uşaqları oyanmışdı, bir-bir, iki-iki inəkləri naxıra qatırdılar, uzaqdan-uzağa ötürüb dayanırdılar, çünki uşaqların bu kənddə qorxduqları bir adam vardısa o da Gülü idi. Amma kənddə elə uşaq da yox idi ki, Gülüyə sataşmasın. Kəndin Qiyas adında bir şairi var idi. Hələ arada belə deyirdilər ki, Gülüyə söz düzəldə-düzəldə, Gülüyə sataşa-sataşa şair oldu Qiyas...

Qiyas Kolagirən stansiyasından əsgər gedəndə şeir qoşmuşdu, onu hələ Gülü də əzbər bilirdi, aradabir naxırın yanında zümzümə eləyirdi:

Kolagirən yolları,
Koma-koma kolları.
Ay maşın, əylən,
Sən başın, əylən...

İndi də uşaqlar gendən-genə düzüldülər, başladılar Gülüyə söz qoşmağa, çünki Qiyasın necə şair olduğunu bilirdilər, onlar da Gülüyə söz qoşa-qoşa şair olmaq istəyirdilər:

Gülü gəlir enişdən,
Çomağı var gümüşdən.
Gülü bozun boynunda,
Ayağı uruf yolunda,
Uruf yolu darmadağın...

Sığırçı Gülü əyildi, yerdən daş götürdü:
– Qancıq uşağı!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İstədi yalama atsın, gördü ki, Tükəz qarının qapısındakı əsgər naxıra inək gətirir, əlini yanına saldı, daş yerə düşdü, təəccüblə əsgərə baxdı, əsgərin bir qolu yox idi. Gülü ömründə belə sevinməmişdi. Tükəz qarının böyük oğlunu tanıdı, ürəyində dedi: "Bax, belə, çox gülmüşdün Gülüyə".

Tükəz qarının böyük oğlu uşaqların yanına çatanda dayandı, hamısının başını sığalladı. Ala it bayaqdan bu qəribə görünüşlü adama baxa-baxa qalmışdı. Birdən qorxdu, qalxıb sığırçı Gülünün başına dolandı. Tükəz qarının böyük oğlu Gülüyə sarı gəldi. Sığırçı Gülü də ona tərəf bir addım atdı, başındakı papağın yiyəsini xatırladı, papağını çıxardıb yenə başına qoydu.

Ala it qara-qışqırıqla Tükəz qarının böyük oğlunun üstünə cumdu. Tükəz qarının böyük oğlu heç əlini də tərpətmədi, yerindəcə dayanıb gülümsədi. Bu, ala iti lap dəli elədi.

Uşaqlar qucaqlarına daş yığıb hər yandan töküldülər, ala iti daşa basdılar. Birinci dəfə idi ki, ala it döyülürdü, ona görə də daş yalamalarının arasında Gülünü axtardı, bir az aralı tanış yerişli, doğma adamı görəndə təzədən hürdü. Sığırçı Gülü də yüyürə-yüyürə gəldi, istədi uşaqları söysün, Tükəz qarının böyük oğlunun qarşısında danışa bilmədi:

– Xoş gəlibsən, ə! – dedi.

Uzun ayağının üstünə qalxıb iki əlini də ona sarı uzatdı. Tükəz qarının böyük oğlunun yaxasındakı orden-medalları görüb gödək ayağının üstünə düşdü...

...Gün xeyli qalxmışdı, uzaq-uzaq dağların ardı buludlu idi, qara tüstüyə oxşar buludlar çözələnib qaynayırdı. Sığırçı Gülü yəqin eləmişdi ki, dava oralarda gedir, həmişə də daşların üstündə oturub tamaşa eləyərdi, indi də bir daşın üstündə əyləşdi:

Kimim var, kimim üçün gedib qan tökəcəm, yurdum yox, yuvam yox, qohumum yox, qardaşım yox...

Sığırçı Gülü bu sözləri bərkdən dedi; inəklərin çoxu, qulaq qırpıb boylandı, yamacın səssizliyi pozuldu. Gülü xeyli səssizliyi qaytara bilmədi, qulağına cürbəcür səslər gəldi. Öz səsi də, dediyi sözlər də, yamacların bu səssizliyi də onu dəhşətə gətirirdi. Sağ-salamat qaldığına, beləcə rahat yaşadığına inanmırdı, inanmırdı ki, davanı onsuz keçirəcəklər. Çünki kənddə ən ağır işlərə Sığırçı Gülünü buyurardılar. Kənddə Sığırçı Gülünü buyurmağa hamının haqqı çatırdı, hansı gün, hansı evdə yağlı xörək bişirdisə, o ocağın odununu Sığırçı Gülü yarırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xörəyin yağlı yerindən birinci pay da Sığırçı Gülüyə çəkilirdi, o da payını dizlərinin üstünə qoyub, ya ocağınca qırağında, ya da qapının ağzında udquna-udquna, söyə-söyə, deyinə-deyinə yeyərdi:

– Arxalı, taylı köpək uşağı...

Beləcə, döyülən də Gülü olardı, söyülən də, harda dalaşardılar, yumruq Gülüyə dəyərdi, harda ağır yük var idi, Gülünün çiyinlərindəydi.

İndi Gülü ağlına sığışdıra bilmirdi ki, belə bir ağır gündə onu rahat buraxıblar, nədi, nədi ayağının biri gödəkdi...

"Bir eşşəyin yükünü çiyinlərimə yıxanda heç kəs deməzdi axsaqsan, ay Gülü, ağır olar, yetimsən, ağlayanın yoxdu".

Ürəyində bunu deyib ayağa durdu, ala it onun bu qalxmağının səbəbini duyub atılıb-düşdü, quyruq buladı.

Sığırçı Gülü naxıra göz gəzdirdi, sonra iri yelinli, Ağca bir inəyə sarı getdi. Bu gəlişin səbəbini inək də duydu, iri gözləri iriləndi, o yan-bu yana baş döndərib qaçıb aralanmaq istədi, Gülünün səsini eşidib dayandı:

– Dayan, üzülmüş, dərini boğazından çıxardaram!

Ağca inək qabırğalarının üstündə Gülünün iri çomağının ağrısını, dal budlarında ala itin dişlərini hiss elədi, ayaqları sözünə baxmadı, ala it Ağca inəyin qabağına keçib quyruğu üstündə oturdu.

Sığırçı Gülü əyilib onun yelinini sığalladı:

Sənin yiyən çox oyunlar açıb mənim başıma, qurudacam, damarlarında bir damcı süd qalmasın.

Ala iti çağırdı:

– Çəmbər, gəl!

Südü otluğa sağdı, ala it də yaladı, sonra başını qaldırıb ağzınıca açdı, süd ağzına töküldü. Sığırçı Gülü onun iri, canavar dişlərinə baxıb güldü:

– Əmlik quzu eliyəcəm səni, gərək elə öyrədəm ki, bütün naxırı quzu kimi əməsən, ha, ha, ha!

Beləcə, sığırçı Gülü bütün inəkləri sağıb ala itə içirirdi, sözə baxmayanları, ələ gəlməyənləri ala itə qovdururdu, ala it də yorulanacan qovardı, didib-didişdirərdi. Ondan sonra Sığırçı Gülünün səsini eşidən inək yerindəcə dayanardı... Axşam gələndə kəndə hay salardı ki, naxıra canavar düşmüşdü...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir axşam sədr camaatı yığıb iclas keçirtdi, Sığırçı Gülünü də çağırtdırdı, qalxdı dedi:

– Dilim də gəlmir deməyə, yağı kimin üçün yığıb saxlayırsız? Niyə azaltmısız? Öz oğlanlarımız, qardaşlarımız üçün göndərərik, onnar orda qan töksün, biz də burda yağını yiyək?

Tükəz qarı qalxdı, dedi:

– Naxır südsüz gəlir, ay sədr, yağ əsirgəyənin əli quruyar, necə dilin gəlir, belə deyirsən? Heyvandı, südünü çəkib, başıpapaqlı, igid-igid yiyələri vardı, bir dəfə sağrısına əl çəkəndə badya dolurdu, onnar da qəribsəyir, bə qəribsəmirmi?

Tükəz qarı kövrəldi, gəlinlər gözlərini sildilər, qızlar çiyinləri tərpənə-tərpənə ağladılar.

Sədr dedi:

– Yaxşı görək, elə sağanda da göz yaşıynan sağırsız, ona görə də inək südünü vermir.

Sədr üzünü Sığırçı Gülüyə tutdu:

– Naxır niyə südsüz gəlir, yoldaş Gülü? Ayıb deyilmi sənin üçün, səhərdən axşamacan neynirsən, mal-qara doydura bilmir qarnını... Belə olarmı, bə a bala, adına kişi deyib, naxırı tapşırdıq?!

Sığırçı Gülünün ürəyi rahat idi, camaatın üzünə baxan kimi yəqin eləmişdi ki, inəklərin başına açdığı oyunu heç kəs görməyib, heç kəsin də xəbəri yoxdu. Ona görə də ürəklə ayağa durdu, uzun ayağının üstündə dayandı. Ala it bayırda Gülünü gözləyirdi, qalxıb bir ağız hürdü, pəncərələrin şüşələri cingildədi...

Sığırçı Gülü dedi:

– Nolmuşdu, mən də gedə bilərdim davaya, istəyir inanın, istəyir inanmayın. Ölülər də elə bilir, dirilər halva yeyir. Mənimki nədi bə? Gündə canavar qovlayıram, dava döyülmü bu da, tək ayağımın üstündə dəyirmandaşı kimi fırlanıram.

Sədr onun sözünü kəsdi:

– Az qalıb, bir az da dözmək lazımdı. Hər şeyimiz düzələcək, əsgərlərimiz Berlinəcən keçib gediblər.

Qızların, gəlinlərin, qarıların üzü işıqlandı. Bu işıq onların hamısını bircə anlığa bir-birinə bənzətdi. Sığırçı Gülü gödək ayağının üstünə düşdü.

Bir gün xəbər gəldi ki, dava qurtarıb, qızlar, gəlinlər bir-birinin boynuna sarılıb ağladılar, qarılar yenə də dizlərinə döyürdü, sevincin böyüklüyünə dözə bilmirdilər, bu cür sevinirdilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sığırçı Gülü naxırın yanındaydı, davanın qurtardığından xəbəri yox idi, yenə yastı bir daşın üstündə oturmuşdu. İnəklər narahatlıq içində başlarını qaldırıb gah ona, gah da ala itə baxırdılar...

Bu vaxt Sığırçı Gülü gördü ki, beş-altı uşaq qaça-qaça ona sarı gəlir, ayağa durdu. Gödək ayağını oturduğu yastı daşın üstünə qoydu, boyu düzəldi, sonra də əyilib daşın qalınlığına baxdı:

– Bu boyda əksiymiş zibil! İt uşağı, it!

Gülü uşaqların gəldiyini görürdü, bilirdi ki, nəsə olub kənddə, amma ürəyinə xeyirli bir şey gəlmirdi, ona görə də gülümsədi.

Uşaqlar yaxınlaşdı, elə uzaqdan-uzağa hamısı birdən çığırışdı:

– Gülü dayı, dava qurtarıb, vallah dava qurtarıb!

Uşaqların dayı deməyi Gülüyə ləzzət verdi, onu da bildi ki, bu dayı axırıncı dayıdı, bir də uşaqları bu kimsəsizlikdə görəndə Gülünün ürəyində qəribə hisslər baş qaldırdı:

– Nolub, əə? – dedi.

Uşaqlar da Gülünün Gülü olduğunu elə bil indicə başa düşdülər, qorxub aralıca dayandılar, heç biri cavab vermədi.

Gülü onlara sarı gəldi, kənddən xeyli aralı idi, bir Çəmbər idi, bir Sığırçı Gülü. Gəldiklərinə peşman oldular. Geri qaçmaq istədilər, Gülünün səsini eşidib dayandılar:

– Kim qaçsa, Çəmbərə yedirdəcəm!

Uşaqlar toplaşıb bir yerə yığışdılar, lap balacası ağladı. Sığırçı Gülü bir də soruşdu:

– Nolub, dediz?

Sığırçı Gülü bayaqdan eşitmişdi, bilirdi ki, dava qurtarıb. Özü bir də soruşmaq istəyirdi, çünki dava başlayanda da ağlına sığışdıra bilməmişdi, qurtardı xəbərini eşidəndə də ağlına sığışdıra bilmədi.

– Nolub kənddə əə, lalmı olduz, it uşağı it?

Biri kövrək, qorxulu səslə dedi:

– Dava qurtarıb, Gülü dayı!

Sığırçı Gülü istər-istəməz gülümsədi, uşaqlar da onun güldüyünü görüb sevindilər. Gülü yaxınlaşıb qabaq-qarşı bir daşın üstündə əyləşdi:

– Kimin oğlusan, a bala? – dedi.

Sığırçı Gülü onların hamısını bircə-bircə tanıyırdı, amma yenə soruşdu:

– Kimin oğlusan?

– Toğrulun.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sən kimin oğlusan?

– Uğurun!

– Kamalın!

– Məhəmmədin!

– Süleymanın...

Sığırçı Gülü dönüb ala itə baxdı, ala it quyruğu üstə oturub ləhliyirdi. Təzədən uşaqlara sarı döndü, başını qaldırıb soruşdu:

– Dava necə qurtarır, a bala?

Uşaqlardan biri sevinə-sevinə dedi:

– İndi atam gələcək!

Sonra uşaqların hamısı dilləndi:

– Mənim atam gələcək!

– Mənim də. Anam deyir, gözünüz yolda olsun, axşamüstü gələcək atam.

Uşaqların heç biri Sığırçı Gülünün üzündəki hiyləni duya bilmədi. Sığırçı Gülü dedi:

– Sənin atan ölüb, bala, qarakağızı gəlib, bə anan niyə deyir, gözünüz yolda olsun?

Uşaq inamla, ürəklə başını silkələdi, – yox, – dedi, – yalandı, mənim atam ölməyib, anam deyir, qarakağızı da atamın özü yazıb göndərib... yazıb ki, darıxmayın gələcəm.

Gülünün az qala bağrı çatlasın, dönüb ala itə baxdı.

Uşaqlar qayıtmışdılar, Gülü yenə deyinirdi:

– Qayıdıb gələcəklər, yenə, Gülü o işin ardınca, Gülü bu işin ardınca, Gülü onu gəti, bunu gəti. Erkəyi əclaf, dişisi əclaf. Canım təzəcə dincəlmişdi, təzəcə kişi deyirdilər.

Naxır kəndə döndü, bütün evlərin işığı yanırdı.

Həyət-bacada kim vardısa hamısı naxıra sarı çıxdı, Gülüylə görüşdülər, gözaydınlığı verdilər. Qarılar Gülünün üzündən öpdülər, kövrəlib ağladılar. Gülü də kövrəlmişdi, gözlərində yaş parladı.

Bir az aralı bir əsgərin başına yığışmışdılar, sədr də ordaydı. Gülü yaxınlaşıb hamısıyla görüşdü, gözlərini də geniş açdı ki, ağladığını bilsinlər. Sədr əlini Gülünün çiyninə qoydu:

– Zəhmətin çoxdu kəndin üstündə, a bala, gözün aydın olsun!

Gülü burnunu çəkdi, uzun ayağının üstünə qalxdı. Sədrin boyu gödək idi, Gülü uzun ayağının üstünə qalxanda sədrin əli sürüşüb yanına düşdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həyətlərdən boğuşma səsi gəlirdi, ala it yenə yolunu həyətlərdən salmışdı.

Sığırçı Gülünün gözləri yaşlı idi, amma heç kəs bilmirdi Gülü niyə ağlayır?!

Neçə gündü kəndə muştuluqçular gəlirdi, aclıqda, yoxsulluqda bəslənən muştuluq qoçları kəsilirdi, pay-pay ayrılıb, ev-ev paylanırdı. Hər axşam Sığırçı Gülünün də payı gəlirdi, uşaqlar analarının öyrətdiyi kimi Sığırçı Gülüyə payı verib deyirdilər:

– Sizi də istəklinizə qovuşasız!!!

Uşaqların bu sözünə Gülü cavab tapa bilmirdi. Neçə dəfəydi hirs içində onların ardınca baxırdı...

Neçə gün idi, kəndin səhəri tamam başqa cür açılırdı. Kəndin səs-küyü qayıtmışdı. Qonşu qonşunu qapıdan qapıya səsləyə bilirdi. Bacalar tüstülü idi, ocaqları qalayırdılar ki, qayıdanlar kəndi odlu-ocaqlı görsünlər. Qızlar davadan qayıdan qardaşlarının əlinə su tökürdü. Qarılar da bunu görüb gendən-genə şükür deyirdilər.

Səhər tezdən Gülü yenə naxırın ardınca çıxdı. Ala it yenə quyruğu belində, Sığırçı Gülünün qabağına düşüb yoxuşu qalxdı, Telli qarının həyətinə döndü. Telli qarının həyətindəki it bu dəfə gizlənmədi, acıqlı-acıqlı hürdü, ala it dayanıb baxdı, neçə il idi, qapıları belə ərklə dolanıb keçirdi. Neçə il idi, ala itə hürən yox idi. Ala it dörd yanına baxdı. Telli qarının iti səsini qaldırıb qışqıra-qışqıra hürdü. Qonşuların itləri də hürdülər.

Dava qurtaran gündən hər axşam itlərə yal çalırdılar, qocalar gəlinlərinə tapşırırdılar ki, vardan-yoxdan itlərə yal çalın, axşamda-sabahda yiyələri gələcək, itləri tox görsünlər, evin toxluğu da, aclığı da qapıda itinnən bilinər...

Gəlinlər də olandan-qalandan yal düzəldirdilər. Bundan da nə Sığırçı Gülünün xəbəri var idi, nə də ala itin.

Kəndin itləri gündən-günə tumarlanırdılar. Ona görə də Telli qarının itinin səsini eşidib hürdülər, çoxu hasarlardan aşdı, ala itin dörd yanına baxdı. Sığırçı Gülünü görmədi, quyruğunu saldı. Bu qapı itlərinin bəsi idi, dörd yandan ala itin üstünə töküldülər. Kəndin o başındakı itlərə də hay düşmüşdü. Telli qarının həyətinə sarı götürüldülər. Bu Sığırçı Gülüyə də qəribə gəldi, təəccüblə dayanıb tamaşa elədi, amma yenə heç nə başa düşə bilmədi, birdən yerindən qopdu, yan basa-basa



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Telli qarının həyətinə sarı qaçdı, əliağaclı gəlinlər, qızlar da ora qaçırdı. Gəlib çatdılar, amma heç kəs ala iti itlərin əlindən ala bilmədi, ala itlə bir yerdə Sığırçı Gülü də qışqırırdı. İtlər boğuşa-boğuşa həyətdən aralanıb yola çıxmışdı, böyük-kiçik hamı yığıldı, heç kəs heç nə eləyə bilmədi. Sığırçı Gülünün gözü görə-görə ala iti boğub öldürdülər. Sığırçı Gülü papağını, sırıqlısını çıxardıb yerə vurdu, ağlamsınıb:

– Allahınız yoxdu, – dedi.

Səhər gün xeyli qalxdı, naxır kənddən uzaqlaşdı, amma Sığırçı Gülü görünmədi. Bir az da gözlədilər gördülər yoxdu, ayağı tutan Sığırçı Gülünün evinə gəldi. Gəldilər Sığırçı Gülünü qızdırma içində gördülər.

Telli qarı yarızarafatla, yarıərklə dedi:

– Qalx görək, ay Gülü, divin canı şüşədə olan kimi, sənin də canın ala itdə idimi, ay saqqalı yanmış, qalx görək, belə gündə yatmaq yaraşarmı adama!

*1974*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# İT DƏRSİ

Qarın rəngi göyə çalırdı; yayda – yan-yörəyə sərinlik, dinclik havası yayan alçacıq, yosma təpəliklərin görkəmindən qəzəb, hirs yağırdı... Kəndin camaatı kişilərə bölünüb kəndin yeddi girəcəyində ocaq çatıb, tonqal qalayıb, gözləyirdilər. Başyolun ağzında qalanan ocaq rezin ocağıydı, təkər yandırmışdılar.

– Qarın belə göyə çalmağı çirkdən olmaz, şaxtadandı, – dedi, çoban. Yapıncının arasında oturmuşdu, altında da təkər vardı, bir azdan bunu da yandıracaydılar. – Yer, göy buzduyub, ona görə qara görünür, hər yan...

– Bəlkə təkərin tüstüsündəndi?.. – Osman kəndin içindən indicə gəlmişdi, gələn kimi də sözün nədən getdiyini anladı, əlini ayazlı havada qara bir yol kimi burula-burula qalxan tüstüyə uzatdı, – tüstüyə bax daa, gör necə qaradı!

– Gəl bu yandan bax. – Çobanın yapıncısı ayazdan, şaxtadan bərkiyib ağac kimi olmuşdu, ona görə də balaca otağa oxşayırdı, çoban da elə bil qapının ağzından danışırdı. – Tüstüdən deyil, tüstüdən olsa gərək birinci biz qaralaq, qar yox...

– Biz də qaralmışıq, sənin xəbərin yoxdu... – Osman ocağın bu yanına keçdi. – Biz də qar kimi ağ olsaydıq, çirk bizdə də bilinərdi. – Ayaqlarının ucuna qalxıb yola baxdı, çöküb yanındakı daşın üstə oturdu.

Ocaqdan bir az aralı ot-ələf, saman-sovruq tökmüşdülər, arabir sərçələr qonur, dimdikləşirdilər. At ayağının səsi eşidildi, səs gərilir, daralır, kənddən də çıxıb qar basmış düzənlərə yayılırdı: elə bil hardasa budaq qırırdılar. Hava öz-özünə şaqqıldayırdı.

– Mürsəl gəlir, – dedi Çoban, ocağa baxıb gülümsədi.

– Onun atının ayağının səsidi.

– Hansı Mürsəl?

– Sakkarların Mürsəl.

At ayağının səsi elə bil dağdan çıxırdı, böyüyə-böyüyə, arta-arta yaxınlaşmaqdaydı. Çoban yapıncıdan başını çıxardıb boylandı ki, atlını görsün, amma hələ heç kəs yox idi. Yapıncının arasından tüfəngin lüləsi göründü.

– Nədi o? Köhnə şeydi deyəsən?!

– Babamın aynalısıdı.

– Nə yaxşı qalıb bu vaxtacan?..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çoban gülümsəyib əlini tüfəngin üstünə qoydu:

– Dar gün üçün saxlamışdım.

– Atır?

– Yox, – dedi Çoban, – paslanıb deyəsən, atmır.

– Ocağa tut, qızsın...

Bayaqdan ocağın qırağında dinməz-söyləməz əlağacını ocağa tutub qurudan yaşlı kişi başını qaldırdı:

– Tüfəngi oda tutmazlar, əlinizdə açılar. Silib təmizləmirsən ona görə atmır. Tüfəng gərək atıla, it gərək hürə... – əlağacını başının üstə yelləyib buz bağlamış yola çırpdı. – Ağac kiməsə dəyə gərək.

At ayağının səsi lap yaxınlaşmışdı, yaşlı kişi belə deyəndə evlərin arasından bir atlı çıxdı. Hər yan ağappaq olub, yalnız atlının gəldiyi yol qara göründüyü üçün elə bil kəndi ata qoşmuşdular, atın ardınca kənd də gəlirdi elə bil. Yaşlı kişi ağacını atlıya sarı uzatdı:

– At gərək qaçsın... – dönüb atlıya baxdılar... – Mürsəlin atı o qədər qaçmır ki, axırda da adam kimi yeriyir.

Yaşlı kişi odda yanıxıb-köhrəlib qapqara qaralmış çomağını başının üstə tovlayıb, – ııx! – elədi.

Ağacın belədən-eləyə yarıb doğradığı ayazlı hava göynəyib adam səsi çıxartdı. At bu səsdən yüngülcə hürküb büdrədi, bir ayağı yolun qırağına düşdü, qamçı başı üstündə beşaçılan kimi açıldı.

– Mürsəlin qamçısı lap tüfəng səsi çıxardır, – dedi Çoban. Öz tüfənginin o yan-bu yanına baxdı.

Atlı üzəngiyə qalxıb uzaqlara boylandı:

– Gəlmir?!

– Nolub, darıxırsan? – Yaşlı kişi də belə deyib həmin səmtə baxdı. – Deyirlər, hardansa tank keçirdiblər əllərinə, bu dəfə üstümüzə tankla gələcəklər!

Mürsəl arıq, uzunsifət adam idi, yenə yola baxıb udqundu:

– Öldü var, döndü yoxdu, – dedi. Şinel geyinmişdi, yaxasını açdı, belinə bağladığı qılıncın gümüş dəstəsi göründü, əlini qılıncın qəbzəsinə apardı, – qoy gəlsinlər!

Atdan düşüb tonqala sarı gəldi. Osman əlini qılınca uzatdı:

– Nə gözəl şeydi bu?

Mürsəl şinelinin ətəyini qaldırdı, bəzək-düzək içində "yatağan" qılınc idi, az qalırdı ucu yerə dəysin.

– Gözəldi vallah!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaşlı kişi çomağını yenə oda tutmuşdu, o üz-bu üzünə çevirirdi.

– Qılınca gözəl deməzlər.

– Niyə? – Osman boynunu uzadıb kişiyə baxdı.

– Nə, niyə? Elə bil kişiyə gözəl deyirsən. Hansı kişi götürər, ona gözəl desən.

– Niyə götürmür?

– Sən götürərsən?

Çoban tüfəngin o yan-bu yanına baxıb üzünə qaldırdı, çaxmağı çəkdi, heç nə... pərtliyi keçsin deyə:

– Tüfəngin qaraltısıca bəsdi, – dedi. – Tanımırsız guya erməniləri, qorxağın biridirlər.

Enliburunlu, pələağızlı Osman əlini yenə qılınca uzatdı:

– Çıxart, görək tiyəsi nə təhərdi?

Yaşlı kişi dikəlib çomağı yenə başının üstə tovladı:

– Qılıncın tiyəsi yiyəsinə baxar.

– Yiyəsinə nolub? – Mürsəl belə deyib şineli qarın üstə tulladı.

– Atalar sözüdü, mənim sözüm deyil, – yaşlı kişi belə deyib gülümsədi. – Yaxşı, çıxart görək, nəyin nəsidi.

– Bayaqdan əlləşirəm çıxmır, – dedi Mürsəl, qılıncın tiyəsindən tutub yenə dartdı...

Çoban bərkdən gülüb, birdən də susdu, görünür öz tüfəngi yadına düşdü, utana-utana dörd yanına boylandı... kəndin itləri nə hiss eləmişdilərsə bayaqdan hürüşürdülər.

– Dayan, indi çıxardarıq. Aç belindən. – Osman kürkünü çıxardıb qolunu çırmadı. – Nə təhər, çıxmır axı... Bu da tüfəngdi ki, açılmasın. Siz qabından bərk-bərk tutun.

– Birdən çıxar, ocağa yıxılarsan, – dedi Mürsəl, əlini boşaltdı. – Bəlkə qızdıraq, oda tutaq, bəlkə.

– Çıxmaz, – dedi, yaşlı kişi aralıda oturmuşdu. – Yəqin qanlı-qanlı qoyublar, paslanıb.

Mürsəl qanlı-qanlı kişiyə baxdı:

– Sən də ağzına gələni danışırsan. Bilirsən, nə vaxtdan qalmadı bu?! Teymurdan qalıb.

– Hansı Teymur, əə! – Çoban fikrə getdi ki, bəlkə yadına düşə.

– Budu eey, – Mürsəl qılıncı ocağın işığına tutdu. – Bax, Teymur yazılıb.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Baş-başa verib sağdan sola hecalaya-hecalaya oxudular: "Teymur".

– Nə bilirsən Topal Teymurdu, topal yazılmayıb ki... – Yaşlı kişi başını buladı, – o Teymur olmaz.

– Qılıncın üstə yazılan hansı Teymur olar? Kitabdı ki, başqa Teymur olsun?!

Osman fikrə getdi... Xəyalıyla bir atlı gəlməyə başladı, həmin qılıncı qurşamışdı, Mürsəlin şinelinə bənzər bir şey vardı əynində, atı elə həmin at idi ki, ocaq yerindən azca aralı hər xırda şeyə, şıqqıltıya səksənə-səksənə qarın üstə tökülmüş otdan yeyirdi... Osman əslində tarixin nə demək olduğunu o qədər də yaxşı bilmədiyi üçün xəyalında canlandırmağa çalışdığı Topal Teymur da tarixdə necə olmuşdusa, elə deyildi, Mürsələ oxşayırdı, gəlirdi, amma yaxınlaşmaqdan get-gedə daha da uzaqlaşırdı...

– Gəlirlər! Gə-əlirləəər!

Ocağın qırağındakılar xeyli özlərinə gələ bilmədilər. Hərə bir yana qaçdı.

– Hara? – Mürsəl qılıncı qınlı-zadlı başının üstə qaldırdı, elə o görkəmdə də dönüb yola baxdı. Təpələrin arasıyla maşın karvanı gəlirdi.
– Hara? – Mürsəl qılıncını tovlayıb təpəliklərə sarı uzatdı. – Bunları gözləmirik bəs?

Təzədən ocağın başına yığışdılar. Ordan-burdan da camaat axışmağa başladı. Mürsəl yolun qırağındakı təpənin üstünə çıxdı:

– Neçə tüfənginiz var, ay camaat?

Kənd dəniz kimi içindən uğuldamağa başlamışdı. Qapılar açılıb-örtülür, palaz çırpırlarmış kimi nəsə çırpılır, ayaq səsləri kənddən güllə kimi çıxırdı.

– Neçə tüfəngimiz var?

– Üç tüfəngdi, biri budu məndə, – sarışın bir oğlan əlindəki tüfəngi yuxarı qaldırdı, – biri çobanındı, biri də evindən bayıra çıxmır.

– Niyə? – Mürsəl ata sarı getdi.

– Deyir mən ancaq öz evimi qoruya bilərəm.

– Sənin tüfəngin atır?

– Qundağını yerə vuranda açılır.

– Heç olmasa səs elə, – dedi, Mürsəl. – Mən atı düz üstlərinə sürəcəm, sən arxadan səs eləyərsən, qundağını yerə vur, elə ağzı göyə açılsın. Qorxaqdılar onsuz da, tüfəngi görsələr bəsləridi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Maşın karvanı yaxınlaşmaqdaydı, qabaqda "Zaporojets" maşını gəlirdi, sonrakıları elə bil qəsdən boy sırasına düzmüşdülər, arxadakı iri yük maşınının içi dolu adam idi, boy-boya verib ayaqüstəcə dayanmışdılar...

Mürsəl ata doğru qaçdı, o birilər də dağılışıb hasarların daldeyinə keçdilər. Sarışın oğlan hasarın dalından tüfəngini maşın karvanına sarı tuşladı...

Mürsəl bu neçə gündə necə fikirləşmişdisə eləcə, çaşıb qalmış camaatın arasından atına tərəf qaçıb yəhərə sıçradı. Hər şey elə fikirləşdiyi kimiydi, yalnız qılıncı qınından çıxmayacaqdı, ona görə də, qılıncını elə qablı-qınlı başının üstə qaldırdı, axşam fikirləşdiyi kimi elə yenicə demək istəyirdi ki, – "qardaşlar, torpağımız, yurdumuz uğrunda irəli!" – bu görkəmdəcə yəni atın belində, üzəngiyə dirənib azacıq dikəlmiş halda, qılıncı da qablı-qınlı başının üstə, quruyub qaldı. Hər yana bir anın içində dərin səssizlik çökdü, kənddə yalnız itlər hürüşdü.

"Zaporojets"in qabaq pəncərəsindən bir it başını çıxartmışdı, arxayınçılıqla ləhləyirdi. "Zaporojets"in sürücüsü də o biri pəncərədən balaca, ağ bayraq çıxardıb yellədi. Kim hardaydısa ordan astaca-astaca başını çıxartdı. Yaşlı kişi kərmə qalağının daldeyindən çıxıb:

– İnanmayın, – dedi, bunlara, – aldadırlar yenə!

İt maşının pəncərəsindən dartınıb mırıldadı. Bayraq yelləyən maşından düşdü, bayrağını təzədən yelləyə-yelləyə:

– İt gətirmişik boğuşdurmağa! – dedi.

Çoban tüfəngini sinəsinə çıxıb bir-iki addım maşınlara tərəf getdi, dayanıb xeyli itə baxdı, birdən-birə nə olmuşdusa, nə olacaqdısa, – əlindəki tüfəngəcən hər şeyi unudub gülümsədi:

– Ağacan kirvə, sənin itindi bu?

Ağacan da bir-iki addım irəli gəldi:

– Sən də tüfəng götürmüsən, Dəmir kirvə?

– Niyə sən götürürsən, mən götürmüyüm?

Maşındakılar maşından düşüb yolun qırağına yığılmışdılar, addım-addım yaxınlaşırdılar... İt dartınıb pəncərədən çıxmaq istədi, zingildəyib özünü şüşəyə vurdu. Ağacan qayıdıb itin xaltasından tutdu, maşından çıxardıb Dəmirgilə tərəf gətirdi:

– İtlərini bir-bir gətir boğuşduraq, Dəmir kirvə. Sənin itlərinçün böyütmüşəm bunu, firəng itidi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dəmir yavaş-yavaş yığışmaqda olan camaata baxdı:

– Nə deyirsiz, ay camaat, bu da bir əməl döyül ki?

– Əşi, gətirin boğuşdurun, özümüz ki, boğuşuruq, qoy itlərimiz də boğuşsun, – yaşlı kişi belə deyib ağacını itə sarı uzatdı. İt ağacı qapıb gəmirməyə başladı.

Maşının yanındakı ermənilərdən bir neçəsi əllərini tez ciblərinə salıb, qabağa yeriyib kinli-kinli yaşlı kişiyə baxdılar:

– Çək ağacıvı, itin dişini qırarsan. Heç kəs toxunmasın bizim itə. Boğuşdurursuz, gətirin boğuşduraq.

Hikkə, deyinti dalğalana-dalğalana camaatın üstündən ötüb bütün kəndə yayıldı.

– Ayxan, iti gətir! – Çoban camaatın arasından oğlunu sələdi, tüfəngi hasarın üstünə qoyub açıqlığa çıxdı. Burda qar ayaqlanmamışdı. Ocaqdan, yol qırağından, kənddən uzaqlaşdıqca qarın ağlığı adama hopurdu. Camaat yerindən tərpənmirdi hələ. Maşından düşənlər maşının yanında, kəndin camaatı da hasarın dibindəcə boy-boya verib dayanmışdılar.

Firəng iti ağzıqara, özüqırmızıya çalan iri itdi, qarın üstə şonquyub çobanın iti hardan gələcəydisə ora baxırdı...

Kənd içindən-içindən yenə uğuldayırdı, indi bu uğultu səmt tapmışdı, meydana sarı axırdı...

Firəng iti birdən ilan kimi dikəldi, qanrılıb yiyələrinə baxdı, xırıltılı, boğuq səslə mırıldadı. Çobanın iti qarı yara-yara gəlirdi, Ayxanın gücü çatmırdı, qarı tozlandıra-tozlandıra ardınca sürünürdü.

– Hələ buraxma, Ayxan, hirsi soyumasın! – Çobanın səsiydi.

Bayaqdan bir işarəyə, bir himə bənd olan camaatın çoxu ətəyinə yığdığı daşı tökə-tökə itin ardınca axışdı. Hasarın üstündə iki tüfəng qaldı, baltalar, nizəyə oxşar dəmirlər, bel, külüng dib uzunu düzülmüşdü. Mürsəl atın belindən bunları seyr eləyib qışqırdı:

– Dağılışmayın, ay camaat!

Çobanın iti özünü hikkəylə itin üstə saldı, amma çatan kimi elə bil tanış çıxdılar, bir-birinin başına dolanıb yanaşı qarın üstə uzandılar. Bir tərəfdən Çoban, bir tərəfdən də Ağacan itlərin xaltasından tutub bir-birinin üstə tulladılar. Çobanın səsindən dağ-daş titrədi:

– Qanıq neynirsən, a belin qırılsın!

Ağacan da öz itinin kürəyinə vurub irəli itələdi, it qanrılıb yiyəsinə hürdü, təzədən yanaşı uzandılar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Dost çıxdı, ə bunlar! – Yaşlı kişi ağacını itlərə sarı tulladı, itin ikisi də birdən yapışdı ağacdan.

– Əə, bu bir axçiyə satdı bizi! – Mürsəl hələ də atın belindəydi, kəndə tərəf boylandı, – it yoxdumu kənddə, başqasını gətirin.

Hamı əl-ayağa düşmüşdü, üç it birdən gətirdilər.

– Elə olmaz, bir-bir buraxın. – Ağacan itin xaltasından tutub qaldırdı. Amma it təzə gələn itə elə, gendən-genə quyruq buladı.

Mürsəl atın üstündən itə sarı uzanıb tüpürdü:

– Tfu, üzünə!

Təzə gələn itin yiyəsi irəli yeriyib itin dal ayaqlarından tutub, Ağacanın itinin üstünə tulladı, ara qarışdı, itlər boğuşmaq əvəzinə camaata hürdülər. Kimsə sarışın oğlanın tüfənginə toxundu, tüfəng hasardan düşdü, qundağı daşa dəyib açıldı, səs elə gözlənilməz oldu ki, hamı donub qaldı, handan-hana qorxa-qorxa bir-birinə baxdılar. Erməninin gətirdiyi bayraq yerə düşmüşdü, Çoban balaca əl bayrağını götürüb itin xaltasına keçirtdi...

*1988*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# AĞACAN

Erməni kəndi türk kəndindən azca aralı, sapsarı gili üzünə çıxmış bir dərəyə çığınmışdı. Dərə, doğrudan da, elə bil iri bir ağızdı: dörd yandan örtülü, qənşərdən açıq... Lap girəcəkdən çapaq dişlərə oxşayan sal, sivri qayalar sallanırdı. Yuxarıdan sarıyanız baş kimi görükən təpəlik ağzını açmışdı, kənd də ağzında hayqıracaqdı elə bil.

Hardan gəlmişdi ermənilər, nə vaxt gəlmişdi, bilən yoxdu. Amma niyə gəlmişdi, necə gəlmişdi, bilirdilər: yer üzünün hansı küncündənsə elə dərəyuxarı qaçıb, can qurtara-qurtara gəlib "ağıziçinə" çıxmışdılar. Bərk, qayım iş görəndilər. Yonulub, döyülüb, sonradan düzəlmiş kimi biçimliydilər.

Ağacanın anasını dörd uşaq üstə hal aparmışdı. Beşinci uşağın adını türk adı qoymuşdular ki, doğum vaxtı hal yaxın düşməsin. Doğrudan da Ağacan yaşadı, elə türklərə oxşar, bənövşə bığlı bir oğlan oldu.

Ağacanın evi lap qıraqda, kənddən çıxaçıxdaydı. Dar, ensiz dağ yolu kənddən dil kimi çıxıb dərənin qaşıyla uzanıb gedirdi. Kənd içində tez-tez oyun oynayıb, çalıb-çağırmaqları vardı. Qıraqdasa yox, qıraqda işcil, sözə baxan, üzüyola, qılıqlıydılar...

Ağacan bu dəfə də kənddən mahnı oxuya-oxuya çıxdı.

– Hara belə, Ağacan?

Ağacan oxumağını kəsmədən döndü, arabanın içində ayağa qalxıb boylandı. Daşların, hasarların arasından baxışan qonşularını görüb cilovu silkələdi, it, at, araba qarışıq göz gəzdirib elə mahnının arasından qışqırdı:

– Türk kəndinə gedirik! Kirvəgilə.

– Qovurma gəti gələndə, qovurma.

Ağacan yumruğunu başı üstə yelləyib yenə qışqırdı, amma bu dəfə öz-özünü elə-belə coşdurmaq istədiyindən qışqırırdı.

– Kirvəgilə gedirik!

"Gedirik..." deyəndə bir özüydü, bir kirvəsindən aldığı alapaça atdı, arabaya qoşulu, bir də kirvəsinin Qanıq adlı itindən tutub saxladığı iki küçükdü. Kəndin dincliyində, qorxusuzluğunda böyüyüb altıaylıq olmuşdular. İndi də zəncirdən açılan kimi yerə-göyə sığmır, ox təki dərəaşağı, dərəyuxarı süzürdülər. Ağacanın heç nəyi özününkü deyildi, nəyi vardı, türklərdən almışdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə isə... Dərəni xəlvət, kəndi dinc, yeri, göyü təmiz görüb, Ağacan da coşmuşdu, coşub alapaçanı da, küçükləri də coşdurmaqdaydı.

He-eey, gözünüzə dönüm sizin!

Elə bu cür hay-küylə kənddən çıxdılar.

Dərənin qaşında bir qoca erməni qaz otarırdı. Yüzəcən qazdı, küçükləri görüb boyunlarını uzada-uzada əsəbiliklə qığıldaşdılar.

– Ağacan, uğur olsun, hara belə? – Qazların qığıltısından kişi öz səsini eşitmədi, amma fikirləşdi ki, Ağacan eşitməlidi, çünki qazlardan xeyli aralıydı. Küçüklər özlərini qaz sürüsünə vurdular, bir deyəndə bu başından girib, o başından çıxdılar. Qazotaran erməni nəsə deyirdi, havada sərin-sərin, seyrək-seyrək lələklər uçuşurdu.

Ağacan arabanın içində ayağa durub, əlini yelləyə-yelləyə ipə-sapa yatmayan küçüklərini səslədi.

– Çəmbər! Dəmbər!

Qazotaran kişinin köməksiz, gücsüz, daha doğrusu, bu qədər qoca olduğunu küçüklər də anladı, qaz sürüsündən qurtarıb kişinin yan-yörəsində oynaqlamağa başladılar.

– Bunnarı türk itiylə boğuşdurmağa aparıram. – Ağacan itlərini göstərdi, əlini ağzına tutub kişiyə tərəf bağırdı:

– Bu dəfə mənimkilər boğacaq, görərsən!

Kişi onun nə dediyini indi anladı, nəsə dedi, araba daşlıqla enirdi, heç nə eşidilmədi.

Beş-altı qonşu yolun qırağında dayanmışdı. Ağacanı gözləyirdilər, araba yaxınlaşan kimi irəli yeridilər.

– Möhkəm ol, Ağacan – dedi biri, sonra da yumruğunu sıxıb başı üstə qaldırdı.

– Bizim itlər nə vaxtacan boğulacaq?!

O biri ağsaçlı erməni qaraqabaq adam idi, üz-gözü eləydi ki, elə bil ağlayacaqdı:

– Soyutma küçükləri Ağacan, bax, elə bu cür qızışdıra-qızışdıra apar, – dedi. Gülümsədi, üzünün qırışları sərt məftil kimi dartındı, boylandı ki, görsün küçüklər hardadı. Yalandan da olsa “bas” vur, qoy, boşalmasınlar.

O da belə deyib, yumruğunu qaldırıb – ıx! elədi.

– Az qalıram itlərə qoşulam, mən də gedəm.

Onların belə deməyi Ağacanı dik qaldırdı, onsuz da ayaqüstəydi, arabanın içində atdanıb cilovu silkələdi:

– Bu dəfə mənimkilər boğacaq, görərsiz!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qonşular bir-birlərinə baxdılar, əməlli-başlı inandılar, az qaldılar qucaqlaşsınlar. Tələsik təpəyə çıxdılar ki, küçükləri görsünlər... Baxmayaraq ki, iki-üç gün bundan qabaq hasarın dibinə yığışıb pıçıldaşırdılar, necə öldürək bunları, bəlkə iynə verək, ikisi də ayaq altı eləyiblər qapını-bacanı...

İndi bütün bunları unudub az qalırdılar küçüklərin ardınca qaçsınlar.

– Urra-aa!

Erməni kəndinin uşaqları qışqıra-qışqıra təpəyə dırmaşdılar. Əllə düzəlmiş kimi yumşaq, göyçək bir yaz günüydü. Ermənilərin böyüyü-kiçiyi bir yerə yığışmışdılar.

– Ağacan, elə bu təpənin üstündə oturub gözləyirik, tez qayıt!

Ağacan arabanın səs-küyündən heç nə eşitmədi.

Araba da arabadımı... pah, elə yeriyir, elə bil dünyanı yıxacaq indicə. Dağın dirsəyini burulub torpaq yola çıxan kimi səssizlik çökdü. Təkərlərin yumşaq-yumşaq, yağlı-yağlı fırlandığını hiss eləməyə başladı. İndi yadına düşdü ki, təkərləri təzəcə yağlayıb. Bundan dadlı bir ləzzət alıb dərindən əsnədi.

Hər şey yaxşıydı: yəni, Ağacanın ürəyincə idi hər şey. Keçmişə baxanda vaxt da yumşaqdı. Ağacanın yağlanmış təkərləri təki vaxt da yumşaq-yumşaq işləyirdi. Kirvəsi türk Uğurlu demiş, vaxt arabasının dörd təkəri olduğu kimi dörd də əli vardı, daşlı yollarda əli üstə yeriyirdi, hələ ki... Bir də nə varmış axı, qorxu yox, hürkü yox, şükür. Bu gün hava da gözəldi, dediyimiz kimi, çay elə bil başqa yerdən axırmış, Ağacana görə gəlib burdan axır ki, könlü xoş olsun. Ağacanın könlü doğrudan da xoş oldu, yenə oxudu. Amma bu, ermənilərin kənd içində oxuduğu mahnılardan deyildi: at kimi, araba kimi, kirvəsindən aldığı qədim mahnıydı...

Araba da Ağacanın özünün deyildi, söz vaxtına çəkər, elə bu vaxt, çayın indicə keçdiyi dayaz yerindən tapmışdı. Kim bilir, kim atıb gedibmiş, beş-altı il qabaq tozun-torpağın altından eşib çıxarıb düzəltdi, laydırın, yəni yan taxtalarının üstünə də boydan-boya öz adını yazdı: Ağacan Dəmirçiyan.

Ağacan indi dostluqdan oxuyurdu, kimin sözləriydisə, kimdən öyrənmişdisə, özünə də ləzzət eləyirdi.

Elə bu payız idi, yəni beş-altı ay qabaq, qonşular gəldi ki, bəs Ağacan, kirvən gəlib, səni çağırır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Kirvəcan, bayırda niyə? Belə olarmı yaxşı. Deyirsən, biz də gələndə içəri girməyək? – Doğrudan da Ağacan nə qədər dil tökdü, kirvəsini içəri gətirə bilmədi.

– Ağacan kirvə, – dedi, türk Uğurlu, – xeyir işim var əlimdə, gəl gedək, sənsiz keçməz.

– Nədi axı? Nolub?

Atlanıb getdilər. Sünnət toyu idi. Ağacan o yan – bu yana boylanıb sıxıla-sıxıla:

– Kirvəcan, – dedi, – mənim ürəyim çox yuxadı, vallah, mən belə şeyə baxa bilmirəm, izin ver, mən gedim, sonra gələrəm.

– Sən nə danışırsan, Ağacan, sən tutmalısan uşağı. Min ildən çoxdu, bizim uşaqları sənin babaların tutur, bax, əlini burdan keçirt, bərk-bərk yapış.

Ağacan uşağı tutmuşdu, amma gözləri yumuluydu, qurtarandan sonra da xeyli yumulu qaldı.

Kirvəliyə türk Uğurlu bir alapaça ürgə at verdi.

– Kirvəcan, küçük də ver, – dedi, Ağacan, – ver, sənin itlərindən küçük saxlayım.

O vaxtdan altı ay keçmişdi, alapaça ürgə hələ də unuda bilmədiyi, rəngbərəng ilğımlar altında həmişə gözlərinin önündə olan kəndə, susuzluq kimi içini yaxan həyətə can atırdı. Amma küçükləri aparanda hələ gözləri açılmamışdı, başlarını Ağacanın qoynuna soxub vığıldaşırdılar. İndi odur bax, altıaylıq olub, oyur-oyur oynayırdılar, qorxu-hürkü bilmədən, arabadan da xeyli qabaq özlərini türk kəndinə saldılar. Türk kəndinin itləri hürüşdü, açıq olanlar açıqlığa öyrəşdiyindən haya-küyə baxmadan sərin-sərin səslənir, bağlı olanlar daha çox bir-birinin bəhsinə özlərini zəncirə vururdular.

Arabanı görən bir-bir, iki-iki dikə çıxıb:

– Ağacan gəlir, – dedi.

– Ə, bunun təzə itləri də var, – dedilər, – bizim buralar dölöyinə oxşayır, özü də!

– Sağ ol, Ağaca-aan!

Küçüklər bağlı itləri bağırda-bağırda, açıqları cırnada-cırnada kəndin ortasınacan getdilər.

– İşiniz yoxdu, dostdu!

– İşimizə-gücümüzə yarayır!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Bunun kimi təzək yığan, kərmə kəsən olmaz, yaxşı işçidi.

– Ot biçməyi də yaxşıdı.

Bunu deyən Qaraca kişi, deyən kimi də bütün aydınlığıyla keçən yayı xatırladı:

...Ağacan onun otunu biçirdi... Bir qoyuna danışmışdılar. Günün istisi bıçaq kimiydi, Ağacanın da üz-gözü elə tərləmişdi, elə bil torpaqdan su çıxırdı. Onda Qaraca onun tərli sir-sifətinə baxdı-baxdı, buna bir qoyun azdı, üstündə bir qat da paltar verəcəyəm, – dedi ürəyində.

Həmin qapıdan keçəndə Ağacan da o isti yay gününü xatırladı, canı birdən-birə qızışdı, əzələlərinin hərəsi bir yana dartındı, iş adamıdı daa, əlləri ağır bir iş görmək, kərənti, bel, yaba tutmaq, palçıq qarışdırmaq istədiyindən ovucları sızıldadı, cilovu özünün də xəbəri olmadan arabanın içinə tulladı, elə bil tüpürdü...

Qaraca kişi o isti yay günündə necə vardısa, elecə, gözünün qabağına gəldi: əlində bir qab ayran, bir qıraqda dayanıb onun mis rənginə çalan bədəninə baxırdı, gözləyirdi işini qurtarsın, ona ayran içirtsin.

– Sən tək Uğurlunun kirvəsi deyilsən, Ağacan, sən bütün kəndin kirvəsisən, bir qoyun heç, halalın olsun, bir qat da paltar verəcəm... – Bayaqdan fikrində dolanırdı, yaxınlaşan kimi deyəcəkdi.

Ağacan bunları fikirləşə-fikirləşə əyin-başına baxdı, həmin paltardı... Arabanın içində yenə dik durub cilovu silkələyə-silkələyə qışqırdı:

– Ay Qaraca, ay Qaraca... – Otunu biçdiyi kişini səsləyirdi. – Məssəbsiz, hardasan, eşiyə çıx, görək!

Küçüklər Ağacanın səsini eşidib bir həyətə cumdular, kimin itiydisə, qışqırtdılar. Kimdisə istədi bağdakı iti açsın, qoymadılar:

– Ayıbdı, Ağacandı daa, bir itin üstündə xətrinəmi dəyək?

Ağacansa özü ayaq üstə, arabası rənglənmiş, təkərləri yağlanmış – yalaq, atı bəzəkli, iti tumarlıydı. Kəndin kişiləri bütün bunların təzə olduğunu görüb bığaltı gülümsəyirdilər, özüsə bundan get-gedə daha da ləzzət alırdı, arabanın içində yer tapa bilmədiyi də ona görəydi, az qalırdı yerə düşsün.

– İt gətirin mənim itlərimin qabağına!.. – Diliylə belə deyir, əliylə kəndi salamlayırdı...

Uğurlu işdən təzəcə gəlib taxtın üstə uzanmışdı, arvadı biryaşlı oğlunu dilə tuta-tuta ayağına alabəzək corab geydirirdi, amma bütün bunlar daha çox əriylə məzələnmək üçündü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Ayağını sən də bəri tut, a balaca kişinin atası.

Balaca kişinin atası Uğurlu arvadının əlini itələdi:

– Çək əlini, qıdığım gəlir!

Arvadı xırıldaya-xırıldaya güldü, əlləri-ayaqları boşaldı, bir anlığa elə bil çəkisizliyə düşdü.

Bir-birinə baxıb ləzzətlə gülümsədilər.

– Sazı hara qoymusan, yaxşı?

Uğurlu evin dörünə baxdı, atasının sazı həmişə ordan asılı olardı.

– Boyy, bu balaca kişinin atası saz çalacaq bizə, sazına kim qurban bunun... – dedi, uşağı atıb-tutdu, sonra da tərsinə çevirib ala corabının üstündən totuq ayaqlarından öpdü.

Ağacanın da həyətə girməyi elə bu vaxta düşdü. Həyətin qurtaracağında zəncirə bağlanmış Qanıq adlı it adam kimi bir kərə bağırıb susdu, qorxub-çəkinmədən atlı-itli həyətə girən adama baxa-baxa qaldı: amma at tanışdı, it onu nə vaxt görmüşdü, gözünün qabağına gəldi. Bu adam Uğurlunun evinin divarını hörürdü, divarın üstündən düşdü, itə sarı gəldi, görmürdü yəqin, it dartınıb özünü zəncirə vurdu: – kirvədi, ay axmaq... Uğurluydu. Xəcalət içində bürüşüb, başını yerə qoydu ki, yiyəsi onun anladığını bilsin. Yiyəsinin səsini indi də eşitdi, atın daylaq vaxtı da gözlərinin önünə gəldi, nə vaxtdı, elə buradaca bu tayanın dibində anası ot yeyirdi, o da yanında atdanıb düşürdü. Hələ Qanığa sarı bir-iki kərə təpik də atdı. Küçükləri hardan tanıdığını bilmirdi amma. Bir ağız yenə hürdü, bu Uğurlunu çağırmağıydı. Hürüb də susdu, uzanıb başını təzədən biləklərinin üstünə qoydu, birdən-birə suya batırmış təki hər şeyi uğultu şəklində eşitdi, elə bil səslər sudan keçib gəlirdi, göynəyə-göynəyə. Alapaça ürgə hansı dadı-tamısa xatırlayıb araba qarışıq silkələnə-silkələnə kişnədi. Ağacan elə bildi ürgə həyətin o başındakı yarısı yeyilmiş ot tayasına kişnəyir, hirslə cilovu dartıb bir-iki də qamçı çəkdi. Küçüklər bayaqdan öz-özlərini qızışdıra-qızışdıra yol gəlirdilər, yenə nəsə eləmək istədiklərindən dönüb açıq qapıya sarı getdilər. Ağacan da arabadan düşdü. Küçük qarışıq bir yerdə qapıdan içəri girdilər. Uğurlu dikəlib başını qaldırdı.

– Bu nədi, Ağacan kirvə? Nolub?!

Küçüklər taxtın ayaqlığında uzanıb ləhləyirdilər. Qanıq özünü zəncirə çırpırdı bayaqdan. Necə ola bilərdi ki, həyətə yad itlər gəlsin, özü də heç nəyi saya salmadan düz evə girsinlər. Dartına-dartına hürürdü, səsi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

get-gedə dəyişib, yorulanacan ağlamış adam səsinə oxşayırdı. Uğurlu istədi deyə ki, biz dostuq axı, Ağacan kirvə, evə itnən girməzlər.

– Boğuşdurmağa gətirmişəm, elə, Qanığı aç, boğuşduraq, – dedi, Ağacan.

Uğurlu küçüklərə baxdı. Neçə yüz illərdi döləyini qarışdırmamış öz çaxal itlərini xatırladı. Onlar kimi ağzıqara, göyümsovdular.

– Mən verdiyim küçüklərdi, həə, yaxşı baxmısan.

Küçüklərin ikisi də başlarını pəncələrinin üstə qoyub kinli-kinli Uğurluya baxırdı. – Kinli it adama yaman olur, boğuşdurmağa yox.

– Aç Qanığı, boğuşduraq!

Küçüklər qapının ağzında dayanmışdılar. Ağacan elə bil onları indi görürdü, halı dəyişdi, yenə başını qapıdan çıxardıb bərkdən qışqırdı:

– Çəmbər! Dəmbər!

Küçüklər Uğurlunun üstünə şığıdılar.

– Ay it!

Uğurlunun səsi yoğun, xırıltılı, zəhmliydi. Səsinin axırı Qanığın səsinə oxşadı. Qanıq da bayırda özünü zəncirə vura-vura xırıldayırdı: "bura-a-ax".

Uğurlu ayağını yerə çırpıb yenə, – ay it – dedi, küçüklər onun baxışlarından bir-iki ayaq dala çəkilib mırıldaşdılar.

Elə bu yaxınlarda erməni kəndindən azca aralı canavar üstə çıxmışdılar. Canavar da eyniylə Uğurlu kimi baxırdı onlara. Ağacanın səsi gəldi dərənin dibindən, sonra tüfəng atıldı, canavar qaçıb qayalıqların arasına girdi. Canavar yox idi, amma baxışları hələ də küçüklərin üstündəydi, ona görə də Ağacan gələnəcən yerlərindən tərpənmədilər. Uğurlunun da baxışları sərtdi, üzü gülürdü, üzünün gülməyisə Ağacan üçün idi: dostdu, kirvədi, deməsin ki, bir itdən ötrü nələr eləyir. Gözlərində ancaq itlərin duya biləcəyi sərtlik get-gedə qatılaşırdı.

– Sənə it hürmür, bilirəm. Mənim atam deyərdi ki,sənin baban ən yaman iti də bağınnan açarmış, yox? – Ağacan belə deyib küçüklərin başını sığalladı. – Bu Çəmbərdi, bu Dəmbər.

– Adı batsın, bunların, ay Ağacan kirvə, uşağı qorxutdular! – Niyə evə öyrətmisən? İti evə öyrətməzlər, – dedi. Uğurlunun arvadı, çöküb taxtın üstündə oturdu, oğluna baxıb soruşdu: – Qorxdun?

Küçüklər qapının ağzında dayanıb ləhləyirdi. Uşaq bayaqdan onların köz kimi qızarmış dillərinə baxırdı, birdən-birə başladı ağlamağa. Qanığın



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

zəncirinin səsi özünün səsindən bərk çıxırdı. Uğurlu itin səsinin dəyişdiyini birdən-birə hiss elədi.

– Ağacan kirvə, sən elə elə ki, bunların gözü qırılmasın, gözü qırıldı o biri itin gününə düşəcək, çıxmayacaq həyətdən. İtə gərək yalannan... "bassa" vurmayasan. Bunları boğdurma, yaxşı baxmısan, hayıfdı. Kül də vermisən deyəsən.

– Hə kirvə, necə demişdin eləcə, hər axşam yalına bir ovuc kül tökürdüm.

– Baxan kimi bildim, tükləri ona görə parıldayır. Amma evə dadandırmayaydın gərək.

Uğurlunun açıq iti haradaydısa, gəldi çıxdı, daha doğrusu, tülkü izi tutub çayyuxarı getmişdi, amma dovşana rast oldu, qovub ətəyi yaşıllaşmağa başlamış təpəliklərə dırmaşdırdı. Elə o bələni aşanda Qanığın səsini eşidib dayandı.

...Nə bağırtısıydı bu? Yiyəsinin göyümsov, həmişə də yaşla dolu olan baxışlarını xatırladı. Döyürlər yəqin, yanağıboyu qan sızır yenə... İki-üç il bundan qabaq doğrudan da erməni qoruqçuları Uğurlunu araya almışdılar ki, niyə bizim yerdə qoyun otarırsan, biri vurub başını da yardı. Qanıq onda da belə hürürdü, bağıra-bağıra, boğula-boğula. Açıq it onda da Qanığın səsini eşidib kəndə sarı götürüldü...

– Niyə özünü öldürürsən, quduz dəymiş! – Çatdadacaq özünü indi. Ağacan kirvədi daa!.. – Uğurlu Qanığa təpindi ki, sakitləşsin. Qanığınsa səsi batmışdı. Nəfəs vura-vura özünü zəncirə çırpırdı.

Açıq it Uğurlunun səsini həyətə girhagirdə eşitdi. Yiyəsinin üzünü qanlı görə-görə özünü həyətə saldı. Çatan kimi küçüyün birini qamarlayıb arabanın altına soxdu, o biri küçük onun boynundan yapışdı, beləcə süpürləşə-süpürləşə həyətdən çıxdılar.

Ağacan qamçısını şaqqıldadıb qışqırdı:

– Hə, gözünüzə dönüm! – Arabanı yedəkləyə-yedəkləyə tələsik itlərin ardınca çıxdı.

– Ayə, Qanığı aç, ay Uğurlu, Qanığı aç! – Kəndin kişilərindən biri papağını yelləyə-yelləyə Uğurlunu səsləyirdi.

– Aç Qanığı, yoxsa bunların dişi qana batacaq, əl çəkməyəcəklər kənddən!

– Yo-oox, – dedi. Uğurlu, – nə danışırsan, aramıza inciklik düşər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qanıq bir də dartındı, birdən elə bil başını qana batırdılar. Hər şeyi qıpqırmızı gördü, səsi çıxmadı, içini vurmağa başladı, öskürdü elə bil. Bir kərə də dartındı, içindən nəsə qırıldı. Zəncir içinə bağlanıbmış, kökündən qopdu nəsə. Həyət-bacanı, ev-eşiyi, yiyəsini qan rəngində gördü, yenə dartındı, bilmədi dartındımı, hürdümü.

Uğurlu itin birdən-birə susduğunu görüb yaxınlaşdı, it qalxmaq istədi, belinin donqarınıca dikəldə bildi, başını Uğurlunun ayaqlarına sarı uzadıb kəsik-kəsik, laxta-laxta qan qusdu. Uğurlu əvvəl heç nə anlaya bilmədi, çaşqınlıq içində çöküb Qanığın başını qaldırdı, itin ağzından yenə qan gəlirdi.

– Aya, aya!.. kimi çağırırdı, Uğurlu, özü də bilmirdi. Sonra səs-küylə bir yerdə uzaqlaşmaqda olan arabanın ardınca baxdı. Üzü istiləşəndə bildi ki, göz yaşıdı. Əlini elə qaldırdı, elə bil Ağacana əl eləyəcəkdi, döndərib əllərinin arxasıyla gözünün yaşını sildi...

*1988*

*Bakı-Zaqulba*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# QURU KƏLLƏ

*Yusif Səmədoğlunun əziz xatirəsinə*

Adam üzünü göyə tutub:

– Yox, – dedi, – yoo-ox, belə yaşamaq olmaz!

Dünən, srağagün, o biri gün, daha o biri günlərdə olduğu kimi hər şey yenə yol üstəydi: Vaxta yüklənib gedirdi hər şey. Adamın səsi də boşluqlara düşüb inildəyə-inildəyə uzaqlaşırdı.

– Belə yaşamaq olmaz... – dedi Adam, səsinin ardınca da çıxdı evdən. Elə o çıxandı. Bilmirdi aradan nə qədər keçib, bilmirdi vaxtın nə vədəsidi. Haradısa, dağlıq yerlərdi, amma elə bil tərsinədi hər şey...

Üzüyuxarı bir çay axırdı, yükə qoşulmuş kimi dağların sırtıyla özünü dartırdı. Adam çayın qırağında mat-məəttəl baxa-baxa qalmışdı.

"Bu niyə tərs axır görəsən?"

Çayın üzü damar-damardı, adam üzü kimi tükləri biz-biz olmuşdu, ağzı köpüklü-köpüklü daşlara-qayalara sarınırdı.

Dağın o üzündə Gilbişirən saqqallı kişi vaxtın keçməyini gözləyirdi. Vaxt da hər şeydən keçib gedirdi elə. Amma Gilbişirən vaxtı anlaya bilmədiyindən saqqalını didişdirirdi. Vaxtı anlamadığından da hələlik gilin üzərinə heç nə yazmırdı...

Çay boşluğa düşmüşdü, çəkisizliyə yəni, Gilbişirənlə çayın arasında boşluq vardı; o boşluq tarixdi, çayı sümürürdü. İnildəyə-inildəyə axıb gedirdi, çay. Sonra bu boşluğa bir sürü şeytan axdı, ilğım kimi bütün canlıları aldada-aldada çayın köprümüş qabarcıqlarının içinə doluşub oyun çıxarmağa başladılar... Çayın suyunda canlı bir şey yoxdu, balıqsız-yosunsuz qısır qarınla min ildi yeri yağır eləyə-eləyə axırdı. Axırdı, nə altını hiss eləyirdi, nə yan yörəsini. Çay Adamın dərddən gəldiyini anladı. Adamı gördü, durdu elə bil. Suları dartındı, sim kimi göynəyə-göynəyə səs elədi, köpük-köpük qabarcıqları göz təki çatdayıb açıldı, içində minlərlə lüt şeytan çıxıb Allahla çayın arasında əllərini dallarına döydülər.

– Hamısı Allahın acığınadı, – dedi Çay. – Min ildi, ruhum şeytan əlindədi. Min ildi içim boşdu, qarnımı daşlara sürtə-sürtə min ildi yol gəlirəm. – Bilirəm, sən də dərddən gəlirsən.

– Düzdü, dərd qovur məni, indi də Allahın yanına gedirəm. Nə sözün var, sənnən nə deyim, Allaha?

Çay əvvəl başını öz içinə saldı, bir anlıq axardan durdu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çayın üstündən "saat addadı", yəni bir deyəndə çay gedişatdan qaldı, vaxt keçdi, amma... Sonra alnına tər gəldi çayın, gərnəşdi, balıq kimi qarnını göstərə-göstərə axdı yenə:

– Eyy, Adam, – Çay gülümsədi, dibindən burulub, dönüb qarnını göstərdi yenə, üstünə sirli-sehrli qəribə bir ağlıq çökdü, yan-yörəsi də gülümsədi, – Ağlığa aldanma, - dedi. – Şeytandı, dərdimə gülür, üstümə düşən işıq da şeytan gülüşüdü. Allah görür, əlac eləmir. Eyy, Adam, Allaha de, dərdimə çarə eləsin!

Gilbişirənin yanından üzüaşağı bir kəllə keçdi, minlərlə, milyonlarla kəllənin üstü ilə diyirlənə-diyirlənə keçib də getdi. Təkər kimiydi, canlı nə varsa əzə-əzə, çeynəyə-çeynəyə nəyisə dartıb aparırdı. Yerində əzinti izi qalırdı, yəni qırıntılar-sındırılıb qırılmışların, əzilmişlərin izi... Bu əzinti izinin yanında sağ qalmış kəllələr ağzı qanlı-qanlı xor oxuyurdu. Gilbişirən bunun nə demək olduğunu anladığına görə yazmağa başlamışdı. Bu tarixdi əslində.

– Olanları niyə yazmırsan? – dedi Adam.

Gilbişirən kişi:

– Mən olacaqları yazıram, olanları yox! – dedi.

– Tarix olacaqlar deyil, olanlardı.

– Yanılırsan, Adam! Olanlar olub keçənlərdi, olacaqlardı yaşayan. Tarix qarşıdadı!..

Kəllə təkər kimi diyirlənə-diyirlənə keçib gedirdi. Dodağının altında da nəsə deyirdi, amma heç kim bilmirdi nə deyir.

"Allah, sən axırından saxla!"

Kəllə belə deyə-deyə keçib gedirdi.

– Ey Kəllə, sən nədən qorxursan, sənin ki, axırın çatıb artıq. Axırındı elə bu!

"Ardımca gəl!"

Amma bilmədi bunu kim dedi, dönüb sındırılıb qırılmışların iziylə getdi.

Kəllə çayın qırağıyla keçirdi. Çay gərildi, suları məftil kimi göynədi, üst-başı köpürdü yenə, qabarcıqlarına təzədən şeytanlar doluşdu, Allahın acığına çırt ata-ata oyun çıxarmağa başladılar.

Sonra Kəllənin ardınca qaçışdılar. Şeytanların gəlişiylə elə bil yan-yörəni sığalladılar. Hər yan yumşaldı.

"Allah sən axırınnan saxla!" – Kəllə belə deyə-deyə diyirlənirdi.

– Ey Kəllə, sənin ki, axırındı artıq, sən nədən qorxursan?!

" Ardımca gəl!.."



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Adamın içi də çölü kimi açıqdı, yəni dərdini, azarını unutduğu andı. Hava təki elə gəlməz, durudu...

Şeytanlardan Adamın içinə doluşan oldu.

"Tıp-tıp... tıp-tıp"

Adamın içi daraldı, dərdi yadına düşdü... Boylandı ki, birindən Allahın yerini soruşsun, gördü, heç kim Allahlıq deyil, hərə özünədi.

Gömgöy göyərmiş bir topa bulud əmcəyini dərələrə sarı sallayıb nəfəsi təngiyə-təngiyə yerin üstünü sorurdu. Bir ara Adamın da içini dartdılar, ürəyi çəkildi.

– *Acımışam yəqin,* – *dedi öz-özünə.*

– Allahı görmək istəyirsənsə Kəllənin ardınca get!

Adam dinmədi. Kim dedi bunu. Sındırılıb-qırılmışların, – yəni Kəllənin iziylə bir neçə addım atdı. Aradan nə qədər keçdisə Adam özünü tamam başqa görkəmdə gördü.

Əmcəkli bulud da elə-belə gömgöy göyərmiş bulud deyilmiş. Hal anasıymış, balasını əmizdirirmiş, heç başını da qaldırmadı:

– Uğur olmasın sənə ay Adam, hara yenə? Səndin keçən, bayaq. Məni əmən də sənin Kəlləndi, – dedi hal anası, dırnağını gəmirə-gəmirə, – *ayağını hara qoyursan,* qan düşür, niyə dincəlmirsən, nədi aradığın?

– Dağın ətəyindən baxanda buluda oxşayırdın, – dedi. Adam, heybəsini çiynindən aşırıb əyləşmək istədi, gördü heybəsi də dəyişib, it dərisindən düzəlmiş çantadı.

– Səninkilər odu, o yana gedir, Kəllənin ardınca. Sən hara gedirsən?

– Allahın yanına gedirəm, şikayətim var, – Adam dedi.

– Allahdan xeyir gəlməz, gəl bu yaxama taxılanı çıxart, ürəyin nə istəyir yerinə yetirim.

Hal anasının yaxasına bir iri saxsı iynəsi taxılmışdı, iynə bitmişdi yaxasında, cücərib balaca-balaca yarpaqlar açmışdı.

– Çıxart, – dedi hal anası, – çıxart, sənin için də doludu tikanla, sənin tikanların da çıxacaq. Hamısı öz əməllərindi!

– İynə bitib axı, necə çıxardım, bax, balaca-balaca yarpaqları var.

– Gecikdin Adam, əllərin gecikdi, yaxama uzananacan neçə min il keçdi. Hamısı sənin işindi, Allahda günah yoxdu.

– Mən bir vaxt Tanrı adına çıxdım. İndi Allah, deyib axtarıram.

– *Adınca dəyişib, özü elə həmən-həməndi.* – *Hal anası silkələnə*-silkələnə güldü.

– Sən bilərsən, harda olar, Allah?! – Adam dönüb yan yörəsinə baxdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hal anası dırnağını yeyirdi yenə:

– Harda adam çoxdu, orda axtar. Harda adam çoxdu, orda qırğın var. Harda qırğın var, Allah orda olmalıdı.

– Mən elə oralardan gəlirəm, – dedi Adam. – Oralarda yoxdu, Allah...

Kəllə Allaha diyirlənir. Kəllənin ardınca get.

"– Ardımca gəə-əl!"

Hər şey Allahın ovcunun içindəydi. O, hər şeyi görürdü. Hər nə vardısa öz nizamı, sahmanıyla yeyilə-yeyilə, işlənə-işlənə getməkdəydi. Mələklər Allahın ətəyinin ucunda qanad çırpırdılar.

– Halın balası yıxılar, – dedi Allah. – Gözünüz üstündə olsun... Anası qeybət eləyir, başı qarışıqdı.

Mələklər nəfəs kimi titrəşə-titrəşə uçuşdular, yer üzündə yarpaqların titrəməyi, suların tellənməyi, yamacların işıqlanmağı da ona görəydi. Mələklər uçub da gəlib əllərini hal balasının altına tutdular, hal balası mələklərin əllərinin üstə dombalaq aşa-aşa təzədən anasını əmməyə başladı.

– Gedək mənimlə, – dedi Adam. Hal anasının iri döşlərinə, dolu, ağ budlarına baxa-baxa. – Gedək, bir yerdə Allahı axtaraq.

– Mən bunu yaxama taxanın arvadıyam – hal anası belə deyib yaxasındakı saxsı iynəsini göstərdi, – bunu yaxama taxdı, nişanladı... İndi gecə-gündüz yaxam əlindədi, gözə görünməyim də ona görədi. Məni adam eləyib işlədirlər... Uşaq doğmalıyam mən, çörək bişirməliyəm. Bunu yaxamnan çıxart, səninlə gedim...

"Allah sən axırından saxla!"

Kəllə belə deyə-deyə keçib getməkdəydi.

– Sən onunmu arvadısan? – Adam Kəlləni göstərib hal anasından soruşdu.

– Hə, – dedi hal anası. – Sən ona elə baxma, ölməyib, o! Bu onun yaşamağıdı. Kəlləsiynən yaşayır, o. Yaxşı, gəl bunu yaxamdan çıxart, səninlə gedim!

Kəllənin əzib keçdiyi yerlərdən ot kimi bayraqlar çıxıb səs-küyə, qışqırtılara yellənirdi. Adam çantasını götürüb səsə, qışqırtıya tərəf getdi.

– Buna bax, – dedi hal anası, Adamın ardınca. – İt dərisini də boynuna keçirib, Allahı axtarmağa gedir!

Adam, yola çıxdığı günü min-min illərin nağılı kimi xatırlaya-xatırlaya Kəllənin dalınca Allahı axtarmağa getdi. Hansı yaddaşa görəydisə Allahı yüksəkliklərdə axtarırdı Adam. Elə bil nə vaxtsa yanından



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gəlmişdi, yanına da qayıdırdı indi... Hansı yaddaşdısa qanına hopmuşdu, qanındakı yaddaşla Allaha ərk eləyirdi. Söyə-söyə, söylənə-söylənə yamacyuxarı qalxmaqdaydı:

– Hardasan, a gözlərin tökülsün?! Yer-göy dəyişdi, özüm də dönüb başqa adam oldum, yenə tapmadım səni. Adam da yaratdığına belə zülm eləyərmi?! – Ayağı daşa ilişib üzü üstə yıxıldı, aradan nə qədər keçdi, bir Allah bilər.

– Ayağına daş dəydi, Allahdan gör! – Bunu deyən ağsaqqal kişiydi, Adamın qolundan tutub qaldırdı...

Hal anasının uşaqları sıldırım boyu Kəllə diyirləyirdi...

– Zəmanə uşaqlarıdı, – dedi ağsaqqal. Ağacına söykənə-söykənə aralandı. Adam yerdən cavan oğlan kimi durmuşdu, gennən-genə ağsaqqalı səslədi:

– Kişi tanımadınmı məni, Ağbatanda qonşu olmuşuq. Mən Tanrını axtarmağa çıxanda sən balaca uşaqdın.

Ağsaqqal ağaca söykənib baxırdı... Dağın bir üzündən ceyran sürüsü, bir üzündən ilxı, bir üzündən quş, bir üzündən də hal uşaqlarının diyirlətdiyi kəllələr keçirdi. Amma heç kəs bilmirdi, heç Adam da bilmirdi ki, bu keçənlər əslində Vaxtdı. Vaxt Kəllə kimi keçib gedirdi... iz sala-sala.

Ağsaqqal bayaqdan, onu demək istəyirdi Adama ki, mən sənin qocalığınam, mən gedirəm, sən gəlirsən. Amma bunu deməyin də Vaxtı vardı, o Vaxt kəsiyini tapa bilmirdi hələ.

– Yaxşı, hara belə, qonşu, uğurun xeyirdimi? – ağsaqqaldan soruşdu Adam.

– Mən də Allahı axtarıram...

– Bəs aşağılarda niyə?

– Yuxarıları gəzib gəlmişəm.

Kişinin dayandığı yerdə bir ağac göyərdi. Adam hardaydısa elə orda durub fikirləşirdi: “Kişinin əlağacıdı yəqin, yarpaqladı...”

– Allahı axtarıb məni tapacaqsan, get...

Kişinin özü görünmürdü artıq, bitib yarpaqlamış əlağacının daldeyindən səsi gəlirdi.

Vaxt dağın o üzündən də, bu üzündən də Quru Kəllə kimi keçirdi, səs eləyə-eləyə, hər şeyi əzə-əzə, sındıra-sındıra. Havadan inilti eşidildi. Heç nəyə əl vurmaq olmurdu. Hər şey dartılmış kimi içindən-içindən göynəyirdi; bu Vaxt idi, Vaxtın hər şeyin içindən keçib getməyiydi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kəllə keçib getmişdi. Hal uşaqlarının diyirlədiyi daşların əzib, sındırdığı başların üstündə ev tikirdilər. Qamçı səsi gəlirdi, ucu-bucağı görünməyən insan axını Kəllənin keçib getdiyi əzinti izinin bu yanından o yanına daş daşıyırdı.

– İşiniz irəli! – Adam insan axınının yanında ayaq saxladı. – Nədi tikdiyiniz?

– Allah evi tikirik! – Daşların altından səs gəldi. Qayım, qırılmaz, bir səs gəldi ki, minlərlə, milyonlarla səsdən yoğrulmuşdu, yaranışın o başından bu başına dua kimi uzanılı qaldı... – Allaha ev tikirik!

Hər şey dünənki, o birigünkü, daha o birigünkü kimiydi. Yalnız Vaxt dünənki deyildi. Vaxt dəyişmişdi, hardansa yenilik duyulurdu. Hardan? Adam çayın qırağında dayanıb fikirləşirdi. Yeni olan nədi?!

Qabaqca qasırğaya bənzər yel əsdi, buruldu, çayın yaxasını dartdı. Allah evinin yarımçıq tikintisindən ulartıya bənzər səs gəldi. Elə bil qurd uladı.

Yamacın o başından boz bulaşıq axıntı axdı. Su deyildi, ərinti deyildi, amma su kimi, ərinti kimi bütöv idi, yəni əl-ələ, qırılmaz. Axıntının gəldiyi yerlərdə özündən başqa heç nə qalmırdı. Hər şeyi silib-süpüb gətirirdi.

Adam birdən-birə anladı, gördü axıntı əslində yığnaqdı, yəni Kütlə. Qabaqcadan havası dörd yanı qarsımışdı. Yenilik bu da deyil, yox!

Axıntıdan bir az sonra Kəllə göründü... Hə, Vaxt elə Kəlləyə görə dünənki deyilmiş. Kəlləyə görə dəyişibmiş Vaxt. Bu dəfə Kəllənin bığı vardı. Amma tanış gəldi. Elə bildi qonşusudu, gördü yox, qonşusu da deyil.

Bığlı Kəllə bığaltı gülümsəyə-gülümsəyə:

– Ardımca gəl! – dedi.

Kəlləyə oxşar daşlardan Allah evi tikirdilər. Qol-qola, əl-ələ qırılmaz bir axın çiynində daş aparırdı. Allah evi görünməyə başlamışdı artıq. Yəni divarları qalxırdı. Yenilik bu idi bax!..

Amma hal anası dediyini deyirdi elə:

– Yalandı, kimdi Allaha ev tikən? Allahı da aldadırlar.

Hal anasının səsi hardansa lap yaxından gəlirdi, elə bil öz içindən eşitdi.

– Günah evi tikirlər özləriyçün... Çiyinlərində gətirdikləri də günah daşlarıdı. Allah evini günah daşıyla tikirlər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qısır çay qan rəngində axırdı, uzaqdanmı belə görünürdü, yoxsa Gilbişirən kişi dəzgahınımı yaxayırdı. Sonra dərələrdən buynuz səsi gəldi...

Dərələrdən buynuz səsi gəlirdi, amma eşidən yox idi, hərə öz işindəydi.

Birini çarmıxa çəkmişdilər, əllərindən dar ağacına mıxlanmışdı, indi də ayaqlarından mıxlayırdılar... Çarmıxdakı gözüylə Gilbişirən kişini axtarırdı. Gilbişirən kişi əslində yox idi, olmamalıydı da, gör aradan neçə min il keçib, qalsa oxşarı qalmalıydı. Bir də yazdıqları gil kitablar. Gilbişirən kişinin oxşarını çarmıxa çəkmişdilər... Yazdıqları ayaqlar altındaydı, yazılanların harası kimə lazım idi, orasından da götürürdü... Beləcə, sabahlara əllərdə yalançı kitablar edirdi. İnsan axınının bir bölüyü "Günah duasına" durmuşdu, gözləri yumuluydu, doğrudan da özlərindən nəyinsə süzülüb getdiyini duya-duya yüngülləşirdilər. Çəkicin səsi get-gedə uzaqlaşırdı, bir az keçdi, yəni min il qədərincə... keçdi, səssizlik çökdü.

– Allahın yanına gedirəm, nə deyim sənnən?! – Adam üzünü çəkic səsi gələn səmtə tutub soruşdu. Gülüşmə səsi gəldi.

– Sən Allahın yanına yox, Allahdan gedirsən, – dedilər. Adam dönüb gəldiyi yerlərə baxdı, üfüqlər qan kimi qırmızıydı...

"Çiçəklərdi yəqin, hamısı qan rəngində".

Qanlı üfüqlərlə iki karvan üz-üzə gəlməkdəydi: biri Adamın gəldiyi yerdən, biri getdiyi yerdən gəlirdi. Qara qəflə-qatıra qara yüklər yüklənmiş karvan Adamın gəldiyi yerdən, ağ qəflə qatıra ağ yüklər yüklənmiş karvan sabahkı günlərdən gəlirdi. Əslində bu qayıtmaqdımı, bilinmirdi? Ağ dəvənin üstündə yuxulamış ağ paltarlı qızın yuxusunda ağzı qanlı bir oğlan uşağı qəbiristanlıqdan çıxıb karvanın ardınca qaçırdı:

– Məni də aparın... Məni dəə!

– Onu da aparın, biz bir təhər dözürük, – qəbiristanlıq əhli karvanın ardınca qışqırdı.

Uşaq qocala-qocala karvanın ardınca qaçmaqdaydı. Sonra bir əl uzandı hardansa. Uşağın ağzının qanını yudu, uşaq başını göy üzü qədər böyük, yumşaq olan bir köksə sıxıb hıçqırdı. Sabahdan gələn karvanın da ardınca qanqırmızı bir iz qaldı, beləcə... Ağpaltarlı qız yuxudan oyanıb qışqırdı:

– Anaa, qardaşım qaldı!..

Karvan gedir, yadda-yaddaşda da yalnız zınqırov səsləri qalırdı. Adam aşağıdan-yuxarı çarmıxa çəkilənə baxırdı. Çarmıxa çəkənlərin əli artıq çarmıxa çəkilənə çatmırdı, lap aşağılarda qalmışdılar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Sənnən Allaha nə deyim?.. Adam belə deyib, susdu. Gördü çarmıxa çəkilən hamıya oxşayır. Ağbatandakı qonşusuna oxşayırdı, Gilbişirən kişiyə oxşayırdı, Quru Kəlləyə bənzəri vardı. Ona görə də Çarmıxa çəkilən hamı olmuşdu, gizli bir şey qalmamışdı. Gizlin bir şeyi olmayandan Allaha nə deyəsən.

Çarmıxaçəkilən gözqapaqlarını aralayıb gülümsədi, ağrıları təzədən sızıldadı... Nəsə deyirdi. Hal anası qulağını onun ağzına tutmuşdu.

– Allaha ev tikmək lazım deyil. Allah evi neynir, Allah bir könülə sığışandı. – Bunu çarmıxa çəkilən deyirdi. Belə dediyi üçün də ağaca mıxlamışdılar.

Kəlləni indi kütlə diyirləyirdi. Kəllə uzaqdan-uzağa Çarmıxaçəkiləni görüb yanındakılardan soruşdu:

– Ölməyib hələ?!.

– Allahın yanına gedirəm, nə deyim sənnən?! – Adam altdan yuxarı Çarmıxaçəkilənə baxdı.

– Düz getmirsən! – dedi Çarmıxaçəkilən.

Dedi, onunla da canını tapşırdı... Azca aralı qoca bir palıdın budağında Alaqarğa bala çıxarırdı; gözlərini dikib sonuncu balasını gözləyirdi ki, yumurtadan çıxsın. Sonuncu qarğa balasının indi-indi dimdiyi bərkiyirdi... bərkidi.

– Tık, tık, tık!

– Mən Allahın yanına gedirəm, nə sözün var?

Adam bir yamacda dayanmışdı, Qaraca çoban ala-bula quzularını sayırdı, sürü kəndir kimi uzanmışdı, ucu-bucağı görünmürdü, ayağı adamın gəldiyi yerdə, başı getdiyi yerdə.

– Allahın yanına gedirəm, – bir də dedi Adam.

– Qaraca çoban quzularını sayırdı, bir əlini beş doxsan otuz sayında yumub, yanındaca saxlamışdı, indi o biri əlinə say yığırdı:

– İki altmış on otuz, – deyib gözünün yanı ilə Adama baxdı...

O biri yamacda qoyunlar mələşdi: sonra qışqırtılar qopdu, Vaxtın dibləri ilə çığırışa-çığırışa adamlar yüyürüşdü, bir dəstə Adamın gəldiyi yerdən, bir dəstə də getdiyi yerdən gəlirdi, amma yenə bilinmirdi gələn kimdi, gedən kim.

– Quzu saymaq mənim namazımdı, namazımı niyə qırırsan, Adam? Niyə say üstə dindirirsən məni? – Qaraca çoban dedi, sürünün getdiyi yerə baxdı, – Sürü ağzıyla bu günü yeyər, dırnağıyla sabaha gedər, bə sən hara gedirsən. Adam?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– Mən Allahı görməyə gedirəm...

Çoban qas-qas güldü.

– Allah bu gördüyün dövlətdi elə. Allahı axtaran ac qalıb həmişə. Gəl nökər ol, duz günü sənin, xas günü mənim, adna günü qazancın olsun.

– Yox, – dedi Adam. – Mən öz ruzumu axtarıram, gedirəm Allahdan soruşam.

– Yuxuda mənə dedilər, sənin ruzun ala qoyunnan çıxacaq, bax, bütün sürünü ala eləmişəm, indi var-dövlət içindəyəm, gəl işlə, sənin də ruzun tapılar.

– Yox, Çoban, Allah özü verəcək ruzumu.

– Get, onda, – dedi Çoban, – get, ayağın altını tanımasın!

Qamçısını silkələyib Adamın tərdən islanmış kürəyinə baxdı. Ürəyi yumşaldı, Adamı səslədi:

– Gəl yol azığı götür, səninki doğrudan da bir Allaha qalıb.

Alaqarğanın sonuncu balası da çıxmışdı, anası göz yaşı tökürdü amma...

– Niyə ağlayırsan? – dedi Adam, alaqarğanı gözüyaşlı gördü. Bir anlığa hardan gəldiyini, hara getdiyini yada sala bilmədi.

– Niyə ağlayırsan? Hamısı Allahın əlindədi, de, gedəndə deyim Allaha?

– Çoban balalarımı öldürdü, sümüklərini əzib duza qarışdırıb qoyunlarına verdi, ona görə də alaquzu doğub hamısı. Allaha de, ayırd eləsin...

Dərələr səs-küylə doluydu, dəmiri-dəmirə döyürdülər, iniltilər yan-yörəyə bıçaq tiyələri kimi sancılırdı. Dağın başında qurd ulayırdı...

– Dünya, qurdun ulasın, sənin! – Hal anasıydı, belə dedi, səsinin, nəfəsinin dibiylə güldü, hava açıldı, əslində bu hal anasının səsinə görə idi, hər şey aldanıb dingildəməyə başlamışdı. Çiçəklər az qalırdı kökündən çıxsın, ona görə də vaxtsız böyüdü hamısı, qoxuları dörd yana ah kimi yayıldı, qoz ağacının cevizləri qaqqıldaşa-qaqqıldaşa yetişdi, almalar dəydi...

Hal uşağı yenə yamaclar boyu daş diyirləyirdi. Bir Kəllə kölgəsi keçdi. Dəmir dəbilqəli, zirehli bir Kəllə idi. Qorxusu özünnən çox-çox böyük...

Hal uşaqları daşlarını qoyub Kəllənin ardınca baxdılar. Hava Adamı əzirdi, canı tikan-tikan olmuşdu.

– Qan aldır, boynuvun dalınnan, qan aldırmasan havadan keçəmməzsən. – Dağdağan ağacının dibində bir qarı oturmuşdu, o dedi: – Əllərini yaxala... gəl.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Adam yoldan çıxıb dağdağana sarı gəldi. Elə bil dartdılar onu.

– Niyə sən də daş daşımırsan? – dedi Adam, Qarıya. – Allah evi tikirlər, bir daş da sən qoysana!

– Gəl, – dedi Qarı, gəl, mənnik deyil. Bu yaşamaq tərs yaşamaqdı. Sabah deyə-deyə geri gedəsiyik. Boynunu əy, damarını tutum.

"Yenilik" kütlə halını alıb dalınca düşməyə də yeni bir Kəllə tapmışdı.

Bığsız Kəlləydi, gözlərini qırpmadan sındırılıb qırılmışların üstüylə diyirlənirdi. Qafasında iri bir ləkə vardı, boyamışdılar elə bil. Hal anasının yerindən, yəni yuxarıdan baxanda xəritəyə bənzəyirdi. Ağız deyəni qulaq eşitməsə də amma qəribə bir anlaşma vardı. Hal uşaqları da artıq *kütlə qiyafəsindəydi. Yəni adam rəngində, adam geyimindəydilər.* Ala qafalı, bığsız Kəlləyə vədlər verə-verə cığallıq eləyirdilər.

Bilmirdin adam kimdi, şeytan kim.

Ala Kəllə kefdəydi, yəni, sözə, qonaqlıqlara diyirlənirdi. Hədiyyələr, sovqatlar alıb qulaqlarından asırdı. Ağzına gələni danışsa da dedikləri düz çıxırdı.

Adam yeddi yol ayrıcında dayanmışdı. Canı tikan-tikandı. Bilmirdi hara getsin...Evdən nə üçün çıxdığı da yadında deyildi. Çaşqınlıq içində boylanırdı.

Bir topa qara buluda oxşayan Kütlə yığışıb bığsız Kəllənin qafasındakı ləkəni yozurdular. Sonra hal uşaqlarından biri irəli çıxıb qışqırdı:

– Kafirə eşq olsun!

– Uraaa!

Gurultulu alqışlar qopdu. Bu alqışların istisindən Kəllənin başındakı ləkə qızarıb imperatorluq xəritəsinə oxşadı.

Artıq Kütlə də toparlanmışdı. Sən demə hər şey Kütləni aldatmaq, başını qatmaqçünmüş. Kütlənin özü də yumru bir şeyə dönüb diyirlənə-diyirlənə gedirdi, qabaqda da Kəllə.

– Azad-lıq! Azad-lıq!

Kim deyirdi, bunu?! Kimin səsiydi?!

Həə! Azadlıqda olanlardı, qulların, kölələrin yerinə qışqırırdılar.

– Azad-lıq! Azad-lıq!

Azadlıq da doğrudan doğruya sığallanıb, tumarlanıb səsə sarı gəlirdi... Heç kəsin ağlı heç nə kəsməsə də ortada qəribə bir inam vardı...

– Boynuvun dalından qan aldır!



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

– Qan aldır! – bir də dedi Qarı, – hava da çox qatıdı! Qan aldırmasan partlayarsan.

Adamı elə bil Qarıya sarı dartdılar. Qanı qaynadı.

– Niyə sən də daş daşımırsan? – Adam Qarıdan soruşdu. – Allah evinə bir daş da sən qoysana!

– Gəl, – dedi Qarı. – Allahın yuvasını dağıdıb Allaha ev tikirlər.

Qarı belə deyib əllərini sinəsinin üstünə qoydu. Hıçqırtı səsi gəldi. Elə bil hıçqıran dağdağan ağacı idi.

– Gərək dağdağan su səsi eşitməsin. Suyu yanına qoymusan ki, Qarı?

– Hamımız tərs yaşayırıq. Boynuvu əy, damarını tutum, – Qarı dikəlmək istədi.

– Allahın yanına gedirəm. Sənnən nə deyim?

Ahh...Qarı boz bir qurdmuş, gözlərini süzdürüb əsnədi. Bu qurdun gülməyi idi, çiyni qalxa-qalxa gülürdü.

Hər yana qəribə bir sakitlik çökmüşdü, nə gələn vardı, nə gedən. Dağdağan ağacıydı, Adamdı, bir də Qurd... Adamın hələlik heç nədən xəbəri yox idi.

Adam Qurdla qiyamətə qalmışdı.

*1989*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MÜNDƏRİCAT

*Ön söz* ....................4

## POVESTLƏR

Şanapipik ....................17
Duzsuzluq ....................56
Yel Əhmədin bəyliyi ....................100
Şeytan ....................143
Dəyirman ....................183
Ot ....................244
Ömürdən qıraqda ....................330

## HEKAYƏLƏR

Yamacda bir kənd ....................365
Armud ağacının nağılı ....................374
Füşkürək ....................383
Dünyanın işığı ....................388
Sapand ....................394
Qar ....................399
Yanğın ....................409
Qaraca kişinin yaylaqları ....................415
Ayın aydınlığında ....................424
Çoban İbrahim və velosiped ....................428
Sığırçı Gülünün ala iti ....................438
İt dərsi ....................451
Ağacan ....................458
Quru kəllə ....................467



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**MÖVLUD SÜLEYMANLI**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

"ŞƏRQ-QƏRB"

BAKI-2006

Created with
nitroPDF® professional
download the free trial online at nitropdf.com/professional

Buraxılışa məsul: *Əziz Güləliyev*

Nəşriyyat redaktoru: *Əlişirin Şükürlü*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Ələkbər Kərimov*

Korrektorlar: *Elnaz Xəlilqızı*
*Elsevər Muradov*

Yığılmağa verilmişdir 02.06.2006. Çapa imzalanmışdır 20.06.2006.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 30. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 74.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional